AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 19

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2017

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası
Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Vasim Məmmədəliyev, akademik Teymur Kərimli, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Möhsün Nağısoylu, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., prof. Əzizxan Tanrıverdiyev, f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, f.ü.f.d., dos. Nəzakət Məmmədli

Buraxılışa məsul: akademik Teymur Kərimli
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2017, № 19

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2017

www. filologiyameseleleri. net

DİLÇİLİK

ƏZİZƏ HACIYEVA
Filologiya elmləri doktoru, professor
ADU
aziza@mail.ru

BİNAR SƏCİYYƏLİ FRAZEOLOJİ ENANTİOSEMİYA

Açar sözlər: enantiosemiya, əkslik,omonim,sintatik,identik,differensial
Key words: enantiosemiya, riversiv, omonim, sintaksis, differences
Ключевые слова: энантиосемия, риверсив, синтактический, дифференсиальный

Frazeoloji sistemdə vahidlərin məna müxtəlifliyi, əks mənalar onun asılılıq, sərbəstlik, müstəqillik dərəcəsində özünü göstərir. Belə ki, bir frazeoloji vahidin əks əlaməti o birisindən asılı durumda fakta çevrilir, əks təqdirdə əksliyi müəyyənləşdirmək mümkün olmaz. Eyni zamanda hər iki zidd frazeoloji vahid sərbəstdir, hər birinin öz hüququ, statusu vardır.

«Sözün əsas mənasının daxil olduğu paradiqma (tematik qrup) törəmə mə-na-larda dəyişir, yeni semantik vahid (işarələnən) özünə yeni paradiqma yaradır, sin-taqmatik münasibətin dəyişməsi sözün paradiqmatik əhatəsini də təzələyir: «down/low - aşağı» sözü əsas mənasında, eləcə də bəzi törəmələrdə ümumi və konkret məkan məzmununu ifadə edir və «up/above - yuxarı» sözünün semantik antonimi kimi işlənir. Bu semantik əlamət sözün bəzi əlaqələnmələrində itir, yaxud arxa plana keçir, nəticədə dediyimiz kimi söz yeni mühitə daxil olur: l*ow price* (aşağı qiymət*), low title /rank* (aşağı rütbə*), aşağı əyar;* belə birləşmələrdə «aşağı» sözü məkan məzmunu deyil, dərəcə və yüksək sözlərinin antonimi rolunu ifa edir (4, s. 241).

Frazeoloji əkslik semantikadan asılıdır. Burada başlıca kriteriya əkslik mənası hesab edilir. Əlavə kriterialar - leksik vasitələr frazeoloji vahidlərdən ibarət olan antonim kontekstlərdə işlədilir.

Eyni semantik sahəyə mənsub keyfiyyət, əlamət, qeyri-müəyyən kəmiyyət, məkan və zaman anlayışlarının qarşı-qarşıya duraraq qütbləşməsini bildirən fra-ze-oloji antonimliyinin də bir sıra nəzəri məsələləri sinonimliyin uyğun məsələləri ilə səsləşir. (tam və natamam, mütləq və nisbi, dildəki və nitqdəki və s. antonim fra-zeologizmlər). Sinonim

frazeologizmlərdən fərqli olaraq, antonim frazeologizmlər yalnız qiymətləndirici məna kəsb edən nisbi frazemləri əhatə edir (5, s. 16).

Antonimliyə xas olan qiymətləndirmə məqamı əşya yox, məhz əlamət və hadisə anlayışları ələ əlaqədardır. Burada mücərrəd məfhumların məntiqi məzmunca qarşılaşdırılması əsas şərtdir: qütbləşmə mühüm semantik əlamət üzrə gedir. Şübhəsiz, *dağ-tarla, ağ-yaşıl* kimi cütlükləri «nisbi antonim» sözlər adlandırıb əksmənalılıqla bağlamaq (3, s.178) düzgün sayılmamalıdır. Aydın olmur ki, bunlar hansı əldamətlərin əksliyini bildirir və ya nə səbəbə fərqləndirici əlamətlər məhz əksmənalılıqla əlaqələndirilməlidir.

Antonim söz cütlüyü kimi, antonim frazeologizmlər də ancaq eyni üslubi-emotiv, distributiv səviyyədə işlənir (10, s.56).

Əksmənalı vahidlər real varlıqda maddi və mənəvi aləmlə bağlı olan hər şeyi əhatə edir və bunları qarşılaşdırma üsulu ilə ortaya çıxarır.

Əksmənalılıq bir anlayş kimi sosial həyatın və dilin inkişafının ilk dövrlərində əmələ gəlmiş, insan ətrafındakı predmet və hadisəni başa düşərkən, onları bir-birindən fərqləndirmişdir. Qədim folklor örnəklərində frazeoloji-idiomatik ifadələr təzadlar əsasında formalaşmışdır. Xalqın yaratmış olduğu atalar sözləri və məsəllərin böyük əksəriyyəti təzadlı fikirlərlə zəngindir. Məsələn,ingilis dilində:

*to cut one' s cable; to hop the stick; to lay up one' s heels; to go away; to take the ferr; to go hence; to go home/to go behind the eternal cloud; to pass beyond the veil; to hop the twig; to go into the sunset; to go off the hooks; to kick up one' s heels; to push up the daisies; to go to pot (*dünyadan köçmək» (ölmək) və s.

Enantiosemiya dilçilikdə daxili antonimlik də adlanır, semantik baxımdan əksməna bildirən söz və birləşmələrə deyilir. Enantiosemiya yunan sözü olub "*enantios* - əks, zidd, sema isə işarə" deməkdir. Bu termin sözün və birləşmənin antonim mənaları bildirmə xüsusiyyətinə malikdir.

İlk dəfə olaraq 1884-cü ildə V.İ.Şerstel Hind-Avropa dillərinin materiallarını müxtəlifsistemli dillərdə qarşılıqlı tədqiq edərkən, məzmunda daxili əksmənalılığı da müşahidə etmişdir və onu enantiosemiya adlandırmışdır .

L.A.Novikov ind-Avropa dillərinin materiallarını H rus dilinin leksikasında əksmənalılığa həsr olunmuş əsərlərində bu məsələyə toxunmuşdur (6). Lakin bu vaxta qədər daxili əksmənalılıq tədqiqatçıların diqqətini cəlb etməmişdir.

Enantiosemiya intonasiya ilə əlaqədar əks mənanı bildirir. Bu termin nəinki leksik vahidlərə, həm də frazeoloji birləşmələrə də xas xüsusiyyətdir. Enan-tio-se-miya həm təsdiq, həm də inkar məfhumu bildirir. Məsələn, *İ am warm today (*Bu gün özümdə deyiləm) və (Bu gün mənə istidir). Göründüyü kimi, *to be warm* fra-zeoloji birləşməsi ikili xüsusiyyətə malikdir və əks mənada işlədilərək məcaz növü yaratmışdır.

Enantiosemioya adlanan bu məcaz növü frazeoloji birləşmə-lərin semantik paradiqmasına daxil olan əksiliklərdir. Məsələn, *to wave one's hands* frazeoloji birləşməsi iki əks mənada işlənir: salamlaşmaq və xu-da-ha-fis-ləşmək. Yaxud da *to nod or to shake the head*. Bu birləşmə *head* sözünün əsa-sın-da yaranıb, həm razılıq, həm da narazılıq mənasında, situasiya da-xili anlaşılan birləşmədir. Bunlara mətndaxili antonimlər də deyilir. Fakt-lara cümlə içərisində nəzər salaq: *If your father knows that you have drunk wine borrowing money, he will kill you - he said. Nickolas confirmed by shaking his head* cümləsindəki *to shake his head* situasiyadan asılı olaraq razılıq mənasını bildirir, yəni fikri təsdiq edir. Amma, *"Who has written this rumour, can I know?.....the rector shook his head..I can not tell"* cümləsindəki *to shake one' s head* isə fikri inkar edir.

Belə ki, eyni fonetik tərkibə malik olan frazeoloji birləşmə ikili məna daşıyır: təsdiq və inkar. Bu tipli frazeoloji birləşmələr özünəməxsus xüsusiyyətlərinin semantik ümumiliyi mətn daxilində iki müxtəlif qütblü mənanin mümkünlüyünü müəyyənləşdirir.

Daxili əksmənalılıq - enantiosemiya özlüyündə sanki antonimlik və coxmənalılıq xüsusiyyşətlərini birləşdirir, burada iki cəhət kəsişir. S.D. Katsnelsonun dediyi kimi, kontekst lazım olan mənanın seçilməsi və seçılmiş mənanın aktuallığının müəyyənləşdirilməsi üçün ikili rol oynayır . Belə ki, kontekst daxili və gizli mənanın aşkara çıxarılması üçün mühüm rola malikdir. Məsələn, *second -rate (ikinci dərəcəli) - This hotel isn't the best. We have certainly to move in better ones. It is really a second-rate hotel.*

Mətndəki *second-rate* birləşməsinin əks mənası *first-rate* birləşməsi-dir. Doğrudur, *third-rate, fourth-rate* birləşmələri də mövcuddur ki, onlar bir-birilə sinonimdirlər, amma onların hamısı *first-rate* birləşməsinin əksidir.

Enantiosemiya bilavasitə mətndə öz reallığını tapır. Məsələn, *to raise one's hand* birləşməsini iki cür anlamaq olar: həm təsdiq, həm də inkar cümlələrində kontekstdə işlənə bilir. Bu birləşmə həm "kimisə qorxutmaq, hədələmək", həm "bir işlə razılaşmaq, təslim olmaq", həm də "bir kəsin əleyhinə olmaq" kimi də anlaşılır. Məsələn, *If we raise our hands after they have done so, we shall be late , friends, he said.We have to beat them chasing after them* . Yaxud da *to show one's skill* (məharətini nümayiş etdirmək) frazeoloji birləşməsi müsbət mənada işlənərək insanın qabiliyyət və bacarığını bildirir. Məsələn, *İ shall go there, not to admire the fair, but to show my skill*.

Frazeoloji birləşmələrin enantiosemiyası leksik vahidlərin enantiosemiyası kimi ikili xassəyə malikdir. Məsələn, *qəribə qızdır (yaxşı qızdır) - qəribə qızdır (qeyri adı qızdır, anormal qızdır).*

Frazeoloji birləşmələrə də həm sinxron, həm də diaxron səviyyədə yanaşmaq lazımdır. Belə ki, problemə sinxron yanaşma zamanı onları

frazeologiya kimi öyrənmək gərəkdir, omonim kimi yox, çünki, onlar omonimliyə də oxşayırlar. Məsələn, *to open one's eyes* (gözlərini açmaq) birləşməsini omonim kimi götürsək "bir kəsin gözlərini həyata açmaq" və "yuxudan duranda gözlərini açmaq" kimi mənalarda anlamaq olar. Bu frazeoloji birləşmə omonimləşərək həm də həqiqi mənasını saxlayır.

Azərbaycan dilində də belə ifadələrə rast gəlmək olur. Məsələn, *batmaq* kimi işlənən bu çoxmənalı fel bir neçə mənada anlaşılır: 1) məhv olmaq (bu cür havada qoyun-quzu *batacaq*; 2) qalib gəlmək (ona heç bir qüvvə *bata bilməz*). Bu kimi söz və birləşmələrin polyar mənası, əsasən, mətndə sintaktik səviyyələrlə müəyyənləşir, onlar əksmənalılığı mətndə daha aydın nəzərə çarpdırır.

Enantiosemiyanın tədqiqi, şübhəsiz söz və birləşmələrin məna dəyişməsini öyrənmək baxımından da maraqlı və əhəmiyyətlidir.

Enantiosemiya - mürəkkəb anlayışdır. Sözün, frazeoloji tərkiblərin daxili strukturunda özünü göstərir. Leksik-semantik kateqoriyadır, antonimlik əlamətləri güclüdür. Frazeoloji əks mənalar qarşı-qarşıya gəlir. Bunun iki leksik mənası göstərilir: 1) simmetrik enantiosemiya; 2) qeyri-simmetrik enantiosemiya. (7, 144).

Enantiosemiyalı frazeoloji vahidlər həcm etibarı ilə fərqlənir, bu fərq dərəcədə də özünü göstərir. Qarışıq əks məna periferik semlərdə ortaya çıxır. Məs.: *canı çıxmaq* deyiminin potensial əks mənası «dirilmək»dir. Bu zaman inteqral və identik mənalar birləşir. Kateqorial difersinsial məna «yaşamaq»dır.

Bu haqda Y. Vejbinskinin fikirləri də maraqlıdır. Onun fikrincə, antonimlərdən fərqli olaraq, əksmənalılıq elə əks mənalılığa malikdir ki, onların aydın, qeyri-simmetrik bütöv xarakter xüsusiyyətləri olmur. Əksmənalılığın özünün spesifik cəhətləri olur, məntiqi konsepsiya çərçivəsinə sığmır (2, s.9).

O.S.Axmanovanın lüğətində *«enantiosemiya»* terminin ingiliscə enantiosemy sözündən olub 2 mənada; 1) mənanın polyarlaşması, yəni qütbləşməsi, antonim mənanın ifadəsi, 2) antifrazis anlamında oldluğu göstərilir (Ахманова О.С. s.526).

Frazeoloji enantiosemiya mürəkkəb dil fenomenidir, bu frazeologiyada nominativ funksiya daşıyır; bu funksiya ekspressivliyə tabedir. Dil işarəsinin bu ikili tərəfi frazeologizmləri sinkretikləşdirir və diferensiallaşdırır.

Bu termin-anlayış daxili antonimliyə uyğun gəlir. Həmçinin bunlar semantik cəhətdən əks məna ifadə edən söz və birləşmələrdir.

Leksik və frazeoloji vahidlərin daxili əksmənalılıq məsələsi L.A.Novikovun əksmənalılığa həsr olunmuş əsərlərində də işıqlandırılmışdır. Enantiosemiya - mənanın polyarlaşması; semantik əkslik, mənaca zidd olmasıdır. Antonimlərin bəziləri mənanın polyarlaşdırılması nəticəsində meydana gəlir. Belə ki, əvvəlki neytral məna iki zidd mənaya parçalanır:

Qonaq qonağı istəməz.(Hər söz başqa zidd mənadadır) (Ensiklopedik lüğət, s. 20). Buna antifrazis də deyirlər. Bu məna evfemizm və trop səciyyəlidir Bunlarda xüsusi intonasiya konturları mövcuddur. Məs.: *хорошенькая история! Какая прелесть*! (5, s. 49).

N.M.Şanskiy antonimiya hadisəsi çərçivəsində enantiosemiya faktlarını ayrıca göstərir (9, s.64). Enantiosesiya intonasiya və onun tərkib hissələri ilə bağlıdır. Bu, intonasiya ilə bağlı əks mənanı ifadə edir. Həmin anlayış frazeoloji ifadələrə də məxsusdur. Enantiosemiya həm təsdiq, həm də inkar məfhumu bildirir. «Təsdiqlik və inkarlıq anlayışları əks qütblər olsa da, həm də bir-biri ilə əlaqədar olan, bir-birini doğuran, biri digərini şərtləndirən anlayışlardır.

Təsdiqlik və inkarlığın ifadəsi də təsdiq və inkar hökmlərin xarakteri və mən-tiqi strukturundan asılı olduğu kimi, danışanın subyektiv mülahizələrindən də asılı ola bilir. Məhz buna görə də ünsiyyət prosesində bəzən təsdiq cümlə inkar hökmü, inkar əlaməti istə təsdiq hökmü ifadə edə bilir ki, bu variantlaşma imkanı da nitq ekspressiyasının, ümumən funksional-üslubi variativliyin yaranmasında əhəmiyyətli rol oynayır» (1, s.6).

Deyilənləri sübuta yetirmək üçün aşağıdakı nümunələrə diqqət yetirək: *I am warm today* (Bu gün özümdə deyiləm) və (Bu gün mənə istidir). Göründüyü kimi, *to be warm* frazeologizmi binar (ikili) əlamətə malikdir və zidd mənada işlədilir və metafor tipi əmələ gətirmişdir. Enantiosemiya adlanan bu metaforikləşmə tipi fra-zeologizmlərin semantik paradiqmasına daxil olan əkslikdir. Məsələn, *to wave one's hands f*razeologizmi iki əks məna ifadə etmişdir: salamlaşmaq və xudahafis-ləşmək və yaxud da *to nod or to shake the head*. Bu birləşmə isə *head* sözünün əsa-sında formalaşıb, həm razılıq, həm də narazılıq mənasında, situasiya daxili dərk edilən birləşmədir. Bunlara mətndaxili antonimlər də deyilir. Başqa faktlara nəzər salaq: *If your father knows that you have drunk wine borrowing money, he will be displeased with you-he said. Nickolas confirmed by shaking his head* cümləsin-dəki *to shake his head* situasiyadan asılı olaraq razılıq mənasını ifadə edir, yəni fi-kir təsdiq olunur. Lakin, *Who has written this rumour, can I know?..the rector shook his head...I can not tell cümləsindəki to shake one's head* isə fikri inkar edir.

Frazeologizmlərə də dilin həm sinxron, həm də diaxron aspektlərində yanaşmaq lazım gəlir. Belə ki, problemə sinxron yanaşma zamanı onları frazeoloji vahid kimi öyrənmək lazımdır, omonim kimi yox, çünki onlar omonimliyə də bənzəyirlər. Məs.: *to open one's eyes* (gözlərini açmaq) frazeologizmini omonim kimi götürsək, «bir kəsin gözlərini həyata açmaq» və «yuxudan duranda gözlərini açmaq» kimi mənalarda anlamaq olar. Bu frazeoloji birləşmə omonimləşərək həm də həqiqi mənasını saxlayır.

Mətndə enantiosemiya güclü ekspressivlik yaradır. Bunların özünəməxsus struktur-semantik və funksional parametrləri mövcuddur. Onlarda struktur-semantik bütövlük, idiomatiklik, ekspressivlik və s. xüsusiyyətlər xasdır.

Qiymətləndirmə və intensivlik enantiosemiyanın əsas keyfiyyətlərindəndir. Ekspressivlik leksik vahidin, frazeologizmin, sintaktik fiqurun təsir gücü, ifadədliliyi və işlənmə sistemidir. Mətnlərdəki dərin məna qatlarını da «təhkim edilmiş» frazeoloji əksikliklər formalaşdırır.

Ekspressivlik - əks frazeologizmlərə məxsus əlamətin yüksək keyfiyyətdə ifadəsidir. «Emosional və ekspressiv kimi xüsusiyyətlərin birləşməsi nəticəsində əmələ gələn emosional-ekspressiv rəngli frazeoloji ifadələr dilin ən mənalı, ən təsirli nitq vahidləridir» (3, s. 16).

Ekspressivlik frazeologizmin ifadəliliyi, təsir qüvvəsi, kəsəri, kimi xüsusiyyətləri özündə ehtiva edir. Odur ki, sözügedən enantiosemiya faktlarının ifadəlilik potensialını üzə çıxarmaq ingilis dilinin bədii qatlarının sirrlərini aşkar etmək baxımından da maraqlı görünə bilər.

Enantisemiya ilə bağlı ekspressivliyi şərtləndirən amillər dil strukturunda nitqin şəklini dəyişməsi, yəni digər biçimə düşməsi ilə əlaqədardır. Ekspressivliyi bu aspektdə meydana gətirən başqa bir amil dil vasitələrinin üslubi normalarından kənara çıxmasıdır.

Enantiosemiyanın leksik və sintaktik növləri dildə fəaliyyət göstərir. Hər biri özünəməxsus tipoloji əlamətlərə malikdir. Onlar arasındakı fərq yalnız nominativ və emosional-qiymət verməsindədir, həmçinin simmetrik və qeyri-simmetrik sırası ilə seçilirlər. Leksik frazeoloji enantisemiya kateqorial əlamət kəsb edir.

V.N.Teliya emosonal-qiymətverən enantiosemiyanı «emotiv çoxmənalılıq» hesab edir, belələrində emotiv modal mənalar üstünlük təşkil edir. V.N.Teliya buna misal olaraq «стреляный воробей» frazeologizmini verir (8, s.43).

Enantiosemiyanın tədqiqi, şübhəsiz, söz və birləşmələrin məna dəyişməsini öyrənmək baxımından da maraqlı və əhəmiyyətlidir.

Beləliklə, frazeoloji vahidlərin enantiosemiyasında yüksək ekspressivlik bütün faktorlarda təyin olunur. Bu ekspressivlik dil səviyyəsində (dil işarələrinin asimmetrikliyi, daxili formaların təsiri, struktur-semantik üzvlənməmə, danışıq markirovkası), nitq səviyyəsində (ironik kontekst, spesifik konkret situasiya) özünü açıq-aşkar göstərir."

Ədəbiyyat:

1.Abdullayev S. Ə. Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası,Bakı, “Maarif”, 1989, 280 səh.

2. Вежбински Я.Антонимо-синонимические отношения в лексике (на материале художественных произведений А.П.Чехова). Автореф. Дис.
... канд. Филол. наук. Ростов на-Дону, 1984, 26 с.
3. Qurbanov A.M. Müasir Azərbaycan dilinin frazeologiyası. Bakı, 1963, 38 s.
4. Məmmədov I. Azərbaycan dilinin semantikası. Bakı, Xəzər nəşriyyatı, 2006,
5.Новиков Л.А.Семантика русского языка. Учеб. пособ. М.: Высшая школа, 1982, 272 с
6. Новиков Л.А. Средства выражения- антонимия.//Русская речь, 1973, №1, с.
45-51
7. Острикова Г.Н.Несимметричная энантиосемия в различным объемом значений и со смещением противоположности. Журнал Вестник Московского государственного Технологического университета, Выпуск № 4, 2013,с.143-146
8.Telia V.N.. Functional-parametric description of phraseology in the car fund
of Russian (pre-survey) //Pharaseolography in the corpus of the Russian
language. Moscow: Nauka, 1990, 43 p.
9. Шанский Н.М. Фразеология современного русского языка. М.: «Высшая школа», 1988, 280 стр.

A.Hajiyeva

Phrazeological Enantiosemy with binary characteristic Feature

Summary

The article is about enantiosemy, a particular and complicated phenomenon of Lexicology. It is known that enantiosemy is based on the existence of the two opposite meanings in one word.

Enantiosemy exists not only in a word, but also in a phraseological unit as well. In this article the ways and types of appearence of enantiosemy in lexical and phraseological units are defined. Accordingly the type of lexical and and phraseological enantiosemy is the same. but in the semantis structure of the enantiosemic expressions the picturesqueness, subjective influence and expressiveness are main and also is based on fiqurative meanings.

It distinguishes phraseological enantiosemy from lexical one.

А.Гаджиева

Энантиосемичный фразеологический единиц с бинарном характеристике

Резюме

Энантиосемия фразеологических единиц определяется целым рядом факторов. Они могут быть как языковыми, так и речевыми.

Энантиосемия фразеологических единиц , несомненно явление более сложного плана чем энантиосемия лексичепских единиц ввиду различий семантического и структурного характера.

Энантиосемия лексических фразеологических единиц в английском языке обладает типологическими признаками, сходными с энантиосемией лексических единиц. Энантиосемия находит выражение во фразеологизмах, противоположность значений которых основывается на эмотивности, на экспрессивно-оценочных компонентах.

Rəyçi: İkram Qasımov
Filologiya elmləri doktoru, professor

Prof. Dr. ŞEHRABANI ALLAHVERDİYEVA
Adıyaman Üniversitesi Fen Edebiyat Fakültesi
Türk Dili ve Edebiyatı bölümü Yeni Türk Dili Anabilim Başkanı
sallahverdiyeva@a
diyaman.edu.tr

DESTANİ AHMET HARAMİDE KULLANILAN ZARF-FİİLLER

Açar sözlər: Azərbaycan, Əhməd Harami dastanı, abidə, zərf-feil, tamamlıq
Key words: Azerbaijan, Destani Ahmet Harami, monument, envelope-verb, suffix
Ключевые слова: Азербайджан, Дастани Ахмет Харами, достопримечательность, наречие - глагол, дополнение

Zarf-fiillerin dil kaynakları esasında öğrenilmesi önemlidir. Zarf-fiiller hakkında fikir söylemek için tarihi yazılı membalara müracaat etmek dil biliminin gelişmesinde önemli rol oynuyor. Eski yazılarda zarf-fiiller şahıs eki ile beraber kullanılmıştır, lakin sonralar dilin gelişmesi prosesinde bu şekil önemini kaybetmiştir. E.Demirçizade kaydediyor: "Zarf-fiiller bileşik ve eşit öğeli cümlelerin terkibinde kullanılır (Demirçizade,1959:157). Dimitriyev kaydediyor : " Zarf-fiillerden –ıb,-ib,-ub,-üb eki geçmiş zamana, -alı,-eli, eki ise gelecek zamana aittir" (Dimitriyev,1948:175). H-Mirzezade gösteriyor: " Mevcut yazılı abidelerin dilinden malum oluyor ki, –ıb,-ib,-ub,-üb ekleri ile düzelen zarf-fiiller daha geniş yaygınlaşmamıştır. Bizce bunun sebeplerinden biri orta devirlerde bu ekin belirsiz geçmiş zaman gibi kullanılmasıdır " (Mirzezade , 1962:283). Lakin "Orkun",Uygur,"Korkut Ata" vb abidelerin incelenmesi gösteriyor ki, -ib ekinin belirsiz geçmiş zaman gibi kullanılmasına çok az tesadüf olunuyor. 14.yy. yazılmış "Destani -Ahmet-Harami "de - ib ekinin belirsiz geçmiş zaman gibi ifade edilmesine rastlıyoruz: Örneğin:

Atan verib idi biz kullarını(D.A.H,1978: 35).
Size karşı söylemek eyibdir,
Ulular bu sözü böyle deyibdir(D.A.H,1978: 39).
Dolu reyhanü, nesrinü çemenler,
Bitibdir türlü nergisler, yaseminler (D.A.H, 1978:71).
Tamam bir yıl olubdur filan eli (D.A.H,1978:72).

-ıb, -ib, -ub, -üb ekleri zaman ifade ederken -ondan, ondan sonra birleşmesi ile ifade ediliyor. Örneğin:

Kılıcını silib kınına kattı,
Sarayına geliben girdi yattı(D.A.H,1978: 25).

Burada: silib- silenden sonra anlamında kullanılıp. Eski abidelerde -ıb, -ib, -ub, -üb eki zaman, tarz, sebep, maksat, nicelik bildirmeye hizmet etmiştir. Bunlar honi yiyip şükreylediler,

Dua kılıb bu sözü söylediler(D.A.H,1978: 39).
Geçib Ahmet bıyık burdu oturdu,
Okudu ulularını getirdi (D.A.H,1978: 29).

- arak -erek ZARF-FİİLLERİ: H.Mirzezade yazıyor: "Çağdaş edebi dilimizde kullanılan -arak,-erek zarf-fiilleri Türkçemizde yeniliktir. Çünkü XIX asra kadar böyle zarf-fiil ekinin dilimizde kullanıldığını gösteren faktörler çok azdır"(Mirzezade ,1962:298). İncelemeler gösteriyor ki, "Korkut Ata" destanlarında, aynı zamanda "Destani-Ahmet Harami"de-arak,-erek eki ile oluşan zarf-fiillerin kullanıldığına tesadüf ediliyor.Verilmiş örneklere dikkat edelim.

"Destani Ahmet'i Harami"de –arak.-erek ekinin –ırak şekli kullanılmıştır.

Arayırak meni katında bulur,
Uğurlayu gelir, biz dünle olur (D.A.H,1978:56).

Sonraki yazılı abidelerde 19. asra kadar bu eke tesadüf olunmuyor. H.Mehmedov doktora tezinde yazıyor:"Şifahi halk edebiyatında bu ekin kullanılması onu gösteriyor ki, Azerbaycan Türkçesinde Tarihen kullanılmış, lakin yazılı abidelerin diline geçe bilmemiştir. (Mehmedov,1967:13). -Arak,-erek eki çağdaş edebi dilimiz için ne kadar norm seviyesi taşıyorsa, halk konuşma dili, yani ağızlar için işlek değildir. Canlı konuşma dilinde onun yerine diğer zarf-fiiller kullanılıyor.

ınca, -ince, -unca, -ünce ZARF-FİİLLERİ: - ınca, -ince, -unca, -üncezarf-fiilleri abidelerimizin dilinde olumlu ve olumsuz şekilde kullanılmıştır. "Destani Ahmet Harami" de olumlu şekilde kullanılmıştır.

Katırların yediler ol gelince ,
Yaraklandı kanu hallı-hallına (D.A.H,1978:53).

-alı, - eli ZARF-Fİ İLLERİ: -alı, -eli zarf-fiilleri her hangi iş, hal hareketin başlangıç noktasını bildiriyor. Tarihen bu ekin -ğanlı,-ğenli, -ğalı, -

ğeli versiyonları da mevcut olmuştur. Hazırda ayrı -ayrı Türk şivelerinde bu versiyon kullanılmaktadır. -alı, -eli eki abidelerimizin dilinde daha çok kullanılmış, çağdaş konuşma dilinde kullanılmayacak derecededir. Edebi dilde daha çok kullanıldığına göre - alı, -eli ekini zarf-fiiller grubuna ait ettik (Muasır Azerbaycan dili,1960:385). - alı, -eli eki tarihen iki fonksiyon yerine getirmiştir.

1. Zarf-fiil oluşturmuştur.
2. Fiilin emir kipi I. şahıs çoğulu ifade etmeye hizmet etmiştir.

Meraklı burasıdır ki, Azerbaycan Türkçesinde esasen zarf-fiil gibi tanınan bu ek fiil köküne birleşerek hiçbir şahıs alameti kabul etmeden emir kipi I. şahıs çoğulunu bildirir. (Rehimov,1965:53).

Tamam bir yıl oluptur evleneni,
Gülendam işveli oluben ol alalı(D.A.H.,1978:72)

- ken, -iken zarf-fiilleri: A.N.Kononov yazıyor : "- ken, -iken zarf-fiilleri müstakil semantik fillere bağlıdır ve iki müstakil kelimeden eke doğru gelişmiştir. (Kononov,1956: 484-485.). H.Mehmedov doktora tezinin 14.sayfasında yazıyor ki, - ken, -iken eki muayyen zamanı ifade ederken –an, -en zaman birleşmesinin eş anlamı oluyor. Mesela:Yatır iken- yatan zaman, içer iken- içen zaman.Eski abidelerin dilinde bu eklere daha çok rastlıyoruz. XIII-XVI asır abidelerinin dilinde –ken eki aktif şekli kullanılmıştır.

Yürür iken tokuz al bağ içinde
Boğuldum kaldım ya imrac içinde (D.A.H,1978:49).
Gelirken nagehana yol azdı
Yolu üç baş oldu, ol birine gitti(D.A.H,1978:54).

-madan -meden zarf-fiilleri: -madan, -meden zarf-fiilleri hareketin oluşmadığını, bitmediğini bildiriyor. -madan, -meden ekinin etimolojisi hakkında Türkoloji'de umumi fikir böyledir ki, – ma, -me olumsuz eki ile -dan, -den çıkma hal ekinin birleşmesinden- madan, -meden eki oluşmuştur. Şifahi dilimizde bu ek çok kullanılmasa da, yazı dilimizde aktif olmuştur. "Destani Ahmet Harami" de bu zarf-fiiline az tesadüf olunur.

Henüz dehi kızılgül goncasından ,
Açılmadan ne tez döndü hazana.(D.A.H.,1978:45)

-ıban, -iben, -uban, -uben zarf- fiilleri: - ıban, -iben, -uban, -uben zarf-fiilleri XIX asra kadar demek oluyor ki, Türk lehçelerinin hepsinde müşterek kullanılmıştır. Tüm yazılı abidelerimizin dilinde bu ek ile oluşan

zarf-fiillere rastlıyoruz. - ıban, -iben, -uban, -uben zarf-fiilleri manasına göre- ıb, -ib, -ub, -üb ekine uygun geliyor. Hangi ekin daha eski tarihe dayandığını söylemek zordur. Çünkü - ıban, -iben, -uban, -uben zarf-fiilleri - ıb, -ib, -ub, -üb zarf-fiilleriyle "Orkun" abidelerinde paralel şekilde kullanılmıştır. - ıban, -iben, -uban, -üben ekinin etimolojisi muhtelif şekilde izah olunur. H.Mirzezade yazıyor: "Dilde olan faktörlerin çokluğu, iki terkip hisseden ibaret olan -uban, -üben ekinin -ıb, -ib ekine nispeten daha eski olduğunu gösteriyor" (H.Mirzezade,1962:285).

KAYNAKÇA

1. E.Demirçizade, "Kitabi-Dede Korkut" destanlarının dili, Bakı, APİ Neşriyatı, 1959.
2. Muasır Azerbaycan dili II.h. Morfologya, Azerbaycan EA Neşriyatı, 1960.
3. H.Mirzezade, Azerbaycan dilinin tarihi morfologyası, Bakı, Azertedrisneşir, 1962.
4. H.H. Memmedov, Azerbaycan dilinde –ıb, -ib, -ub, -üb ve –a, -e şekilcili fiili bağlamalarla düzelen tarz birleşmeleri, Azerbaycan EA Haberleri, 1966.N.4
5. M.Rahimov, Azerbaycan dilinde fiil şekilcilerinin forumlaşması tarihi, Azerb.EA, 1965.
6. "Destani Ahmet harami",Gençlik, Bakı, 1977.
7. Dimitriyev, N.K. Stroy Torksıskih yazıkov, M, 1948.
8. Kononov, A.N. Grammatika Sovr. Türetskogo Lit. yazıka, İzb.-vo, AN. SSSR, M-L, 1956.
9. E.Demirçizade, "Kitabi-Dede Korkut" destanlarının dili, Bakı, APİ Neşriyatı, 1959.

Ш.Аллахвердиева

Глаголы в Дастани Ахмет Харами
Резюме

Турецкие диалекты в конверт-с незапамятных времен глаголов dilci привлекли внимание.

Мы знаем, что все трактаты на уроки, научные грамматики на конверт-от фактического пришествия. Сегодня конверт-глаголы, Азербайджана, Турции, Туркменистана, Казахской, Киргизской, Узбекской, Кумыкское, Чувашскими, Татарский, Башкирский диалект своих материалов, на основе проработки были. В конце концов,

древние письменные памятники на подержанные конверт-глаголы, все турецкие власти материалы от сглаза были исследованы в отношениях.

Язык обучение истории языкознания интересов. Языки, грамматики, для изучения организации исторические памятники, которые нужно обратиться.

Ş.Allahverdiyeva

Verbs in Dastani by Ahmet Harami

Summary

In the Turkish dialects, the envelope-verbs have long been attracting attention to the language. We know that in all the scientific classrooms, the grammar of the word is mentioned in the envelope.

Today, the adverbs are examined on the basis of the materials of Azerbaijan, Turkey, Turkmen, Kazakh, Kirghiz, Uzbek, Kumuk, Chuvash, Tatar and Bashkir. As a result, the envelope-verbs used in the old written scripts have been systematized and the materials of all the Turkish dialects have been analyzed from the front.

The learning of language history is of interest to language science. It is necessary to apply to the historical libraries to examine the grammar establishment of the languages.

Rəyçi: Almaz Ülvi
filologiya elmləri doktoru

KÜBRA ƏLƏKBƏROVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
Gəncə Dövlət Universiteti
e-mail: kalekberova@yahoo.com

MƏTN YARADAN DİLDAXİLİ NİTQ VƏ DAVRANIŞ ETİKETLƏRİ

Açar sözlər: mətn, daxili forma, dil semiotikası, dil vahidləri, etnoqrafik dilçilik
Key words: text, inner form, language semiotics, language units, ethnographic linguistics
Ключевые слова: текст, внутренняя форма, языковая семиотика, языковые единицы, этнографическая лингвистика

Cəmiyyətin sosial quruluşu ilə dilin qarşılıqlı əlaqəsi dilçilik elminin aktual problemlərindəndir. Dil cəmiyyətlə əlaqədardır və bu cəmiyyətin mövcud olduğu, inkişaf etdiyi bütün dövrlərdə dil də zənginləşir, inkişaf edir. Odur ki, cəmiyyətin öz əvvəlki dilindən məhrum olması və onun digər dilə keçməsi o cəmiyyətin dağılmasını, onun başqa cəmiyyətin içərisində əriməsini əks etdirir (3, s.51).

Digər işarə sistemlərinə nisbətən dilin daha bir üstünlüyü vardır. Dil müasir dünyada heç də yeganə dərketmə vasitəsi deyil. Lakin dil digər modelləşdirmə sistemlərinə nisbətən daha böyük üstünlüklərə malikdir.

Dilin inkişafı cəmiyyətin inkişafı ilə ayrılmaz şəkildə bağlıdır. Bu əlaqə dilin elmi tədqiqinin zəruri və əsas şərtidir. Dil və onun inkişaf tarixini öyrənmək yalnız həmin dildə danışanların tarixi ilə əlaqədə götürdükdə mümkün ola bilir. Dilin inkişafı onun yeni ictimai-tarixi şəraitə uyğunlaşması deməkdir. Dilin inkişafına təkan verən qüvvə isə insanların ünsiyyətinə xidmət edən bütün ehtiyaclarıdır. Dil kommunikativ vəzifəsini itirəndə, başqa dil vasitəsi ilə sıxışdırılıb aradan çıxarılanda inkişafdan qalır və ölür. Elmə çoxlu ölü dillər məlumdur ki, bunlar yalnız yazılı abidələrdə qalmışdır.

Dil ona görə inkişaf edir ki, onun xidmət etdiyi cəmiyyətin özü bir yerdə dayanmayıb inkişaf edir. Bu inkişafda dil çox mühüm əhəmiyyətə malikdir. Yeni linqvistik tədqiqat obyektlərinin fəaliyyətləri nəticəsində mətnyaradan dildaxili vahidlər, onların çoxşaxəli qurumu meydana çıxarılır.

Müasir tətbiqi dilçiliyin müxtəlif sahələrində aparılan tədqiqatlar söz haqqında verilən müddəalara əsaslanır. Dilin ümumi sistemində dil vahidlərinin rolu və xüsusiyyətləri fərqlənir, elə buna görə də müxtəlif şəkildə formalaşır və qiymətləndirilir. Bəzən qeyd edirlər ki, dil vahidlərinin başlıca əlaməti dilin zəruri ümumi əlamətlərinə malik olmasıdır, yəni hər şeydən əvvəl ikitərəfli vahid olmasıdır, bu vahidlər formal əlamətlərinə görə

fərqli strukturlara və linqvistik xüsusiyyətlərə malik olsalar da, eyni anlayışları ifadə edir (2, s.73). Digər dil vahidinin bir əlaməti də onun hazır şəkildə nitqə daxil olmasıdır. Bununla belə, fonemin birtərəfli vahid olmasına baxmayaraq, dil vahidi hesab edilir. Fonem dilin məna cəhəti ilə əlaqədardır, mənanın differensiallaşdırılma vasitəsi kimi çıxış edir. Habelə morfemlərin, sözlərin səs cildinin tərkibində olan fonem də fərqləndirməyə xidmət göstərir, lakin bunların içərisində söz ən ali vahid hesab edilir. Söz həm fonoloji, həm morfoloji, həm də "söz" səviyyəsində təhlil üçün material verir. Morfemdən fərqli olaraq söz "sintaktik müstəqilliyə" malikdir. Buna görə də ən ali nitq vahidi olan cümlə əmələ gətirməkdə morfemlər yox, məhz sözlər iştirak edir. Söz elə bir vahiddir ki, adlandırma onun sayəsində mümkün olur. Yalnız söz qrammatik mənaların ifadəsinə imkan verir. "Mənalar və formalar sistemi olan söz dilin qrammatik kateqoriyalarının qarşılıqlı əlaqələrinin və birləşmələrinin mərkəzi nöqtəsini təşkil edir" (1, s.15). Z. Hərris qeyd edirdi ki, hər bir dilin dildaxili ifadələri də sözlə nümayiş etdirilir.

Dildaxili vahidləri belə xülasə etmək mümkündür:

1. Dildaxili vahidlər müəyyən məna bildirir və ya mənanın ifadə edilməsi və fərqləndirilməsində iştirak edir.
2. Dildaxili vahidlər müəyyən obyekt kimi ayrılır və üzvlənir.
3. Hazır şəkildə nitqə daxil edilir.
4. Müəyyən səviyyə təşkil edir ki, həmin səviyyə də bölünmür.
5. Digər dil vahidləri və ya nitq vahidləri ilə iyerarxiya əlaqəsində olur.

Sərbəst söz birləşmələri kimi sabit söz birləşmələrinin də söz mərhələsi ilə cümlə mərhələsi arasında zəruri aralıq mərhələ təşkil etməsi mütləq deyildir. Söz aralıq mərhələ təşkil edən söz birləşməsi tərkibinə daxil olmadan da cümlənin tərkibinə daxil ola bilər və ya ayrılıqda ünsiyyət formasına keçə bilər. İfadə formasında söz birləşməsi semantik bütövlüyə malik olur. Deməli, söz birləşməsi (sabit və sərbəst) səviyyəsi dil səviyyələri içərisində fakültətiv səviyyəlidir. Söz müstəqil şəkildə cümlə səviyyəsində də işlənə bilər. Hər bir xalqın milli-mədəni mentalitetində fəaliyyət göstərən hazır şəkilli dildaxili ifadələr mətnin mahiyyətini əhatə edən informasiya verir.

Müasir dövrdə nitq fəaliyyəti haqqında görüşləri belə xülasə etmək olar. Nitq fəaliyyətini idarə edən amillərin bir qrupu sözlü (verbal) əlaqələr ilə, habelə nitq ilə müvafiq ünsiyyət situasiyasının qarşılıqlı əlaqələri ilə bağlıdır. Başqa sözlə, bunlar (sözün geniş mənasında) ictimai amillərdir.

Hər bir söz mürəkkəb anlamlar sistemidir və bu sistemi başqa dildə əks etdirmək mümkün deyildir. Odur ki, təbii insan sözlərinin hamısında sosiolinqvistik, etnoqrafik, etnopsixolinqvistik milli-mədəniyyət səviyyəsi vardır. Özü də bu baxımdan ən adi sözlər də xüsusi maraq kəsb edir.

Vaxtilə L. V. Şerba yazırdı: “Bizim həyati təcrübəmiz ilə qavradığımız dünya hər yerdə eyni cürdür, lakin hətta ümumi mədəniyyətə malik olsa da, müxtəlif dillərdə danışan xalqlar tərəfindən fərqli şəkildə qavranılır. Habelə məlumdur ki, az-çox bənzər və ya eyni olan anlayışlar müxtəlif dillərdə işlənən sözlərin ikinci assosiasiyaları baxımından fərqlənirlər. “Chauvesoris”, “Fledermaus”, “летучая мышь” eyni predmeti bildirsə də, onu müxtəlif cür adlandırmışlar. Hətta ən sadə sözlər belə eyni əşyanı bildirməsinə baxmayaraq, müxtəlif dillərdə də fərqli səslənir” (4, s.69).

İctimai davranış normaları cəmiyyətin varlığının zəruri şərtidir, praktik fəaliyyət prosesində adamların qarşılıqlı əlaqələrini tənzimləmə vasitəsidir.

Milli ünsiyyətin səciyyəsi həm adamların qarşılıqlı ictimai əlaqələrində, həm də bu qarşılıqlı ictimai əlaqələrə xidmət göstərən nitqdə təzahür edir. Cəmiyyətdə nitqsiz və ya nitq vasitəsilə özünü göstərən hər bir dildaxili ünsiyyət vahidi ictimai normalarla tənzimlənir, habelə nitq vasitəsilə ünsiyyət həm də o dilin səciyyəvi qaydaları əsasında tənzimlənir. Xüsusilə dildaxili ifadə vasitələri bu səciyyəvi qaydalarla daha çox informasiya vermək iqtidarına malikdir.

Oxşar nitq fəaliyyəti müxtəlif hərəkətlərdə təzahür edə bilər. Eyni bir birləşmə, konkret şəraitdən asılı olaraq, müxtəlif struktura malik nitq aktı müəyyən şərait daxilində başa düşülə bilər. Məsələn, adi andiçmə ifadələri, itaət etdikləri varlıqlara istinad etmə ifadə vasitələri də fərqli xüsusiyyətlərə malikdir. Bəzi dillərdə andiçmə məqamlarına nəzər salaq: rus dilində Azərbaycan dilindən fərqli olaraq andiçmə vasitələri həddindən artıq çox və geniş əhatəlidir. Yəni ruslar nəinki Allaha (İsa və ya Musa peyğəmbərə), hətta ən adi varlıqlara və ya şeylərə and içirlər. Müqəddəs hesab etdikləri varlıqları bəzən qəribə təyinləri ilə birgə adlandırırlar.

Azərbaycan dilində isə bu növ mətnyaradan dildaxili ifadələr nəinki məntiqi cəhətdən düzgün deyil, hətta qadağandır. Azərbaycan dilində “Aman Allah!” sabit nida söyləmindən istifadə edilməklə vahid sintaktik-semantik struktur alınır.

Beləliklə, nitq fəaliyyəti universal səciyyə daşıyan və buna görə də verbal hərəkətlərin milli xüsusiyyətlərinin meydana çıxma səbəblərini aydınlaşdırmaqda kara gəlmir. Bununla belə, ünsiyyətin milli səciyyəsini müəyyənləşdirmək üçün nitq birləşməsi təhlil edilməlidir. Bu da hər bir xalqın tarixi, mədəniyyəti, dünyagörüşü ilə bağlı dildaxili ifadə vasitələri hesabına təşəkkül tapır.

Külli miqdarda dil faktlarından aydınlaşıır ki, iki müxtəlif dildə iki xalqın mədəniyyətinə məxsus eyni anlayış bildirən sözlər bir-birinə tərcümədə ekvivalent kimi çıxış etsə də, fərqli məzmunla əlaqələnmiş olurlar

və bu vəziyyət də dil işarələrinin "milli anlamları" haqqında danışmağa imkan verir.

Rus və Azərbaycan xalqlarının ifadə etdikləri genetik kommunikasiyanın emosional ünsürlərini müqayisə etdikdə məlum olur ki, eyni bir emosional vəziyyət müxtəlif genetik kommunikasiya ünsürləri ilə ifadə edilir. Eyni bir ünsür müxtəlif hissələrin, emosional vəziyyətlərin ifadəsinə xidmət edir. Bütün bu müddəalar hər bir xalqa mənsub olan dildaxili ifadələrin müəyyənləşməsinə imkan yaradır. Bu növ dildaxili ifadələr məişət leksikasında daha çox istifadə edilir: *Тебе крышка, sənin kitabın bağlandı; раз-два и готово, gözünü açıb-yumana qədər hər şey hazırdır; Да, это мне не по зубам, Bu mənlik / bizlik deyil; Дерьмо! Чушь! Cəfəngiyyat!; Поедем зайцем, biletsiz getmək* və s.

Milli-mədəni baxımdan ünsiyyət prosesi müxtəlif səviyyə və istiqamətlərdən araşdırıla bilər. Hazırda "psixolinqvistika" termini bir sıra mənalarda işlədilir və anlaşılır. Yəni bu qlobal termin həm dar mənada psixolinqvistika, həm də ünsiyyət nəzəriyyəsi (ünsiyyət psixologiyası) anlamında işlədilir. Amerika dilçiliyinin cərəyanlarından birinin etnopsixolinqvistika ilə məşğul olması "mədəni antropologiya" ilə əlaqədardır.

Ünsiyyətin milli-mədəni xüsusiyyətlərinin fərqləndirilib, xüsusi bir sahədə öyrənilməsi nəinki nəzəri, həm də praktik əhəmiyyətə malikdir. Xüsusilə son dövrlərdə bu problem böyük ictimai dəyər kəsb etmişdir. Bu dəyər ən əvvəl müxtəlif ölkələr arasında mədəni əlaqələrin genişlənməsində və dərinləşdirilməsində həmin sahənin rolu ilə ölçülür.

Etnolinqvistikanın nailiyyətlərinin mühüm tətbiq sahəsi informasiya və təbliğat vasitələrinin fəaliyyətinə aiddir. Bundan əlavə, etnolinqvistikanın nailiyyətləri daha bir sıra məsələlərin həlli üçün zəruridir.

Vaxtilə müxtəlif elm sahələri araşdırdıqları obyektlərin müxtəlifliyinə görə təsnif edilirdi. XX əsrin birinci yarısında bu vəziyyət köklü şəkildə dəyişdi. Elm sahələri öyrəndikləri obyektin səciyyəsinə görə deyil, başqa prinsip əsasında, yəni obyektə göstərilən münasibətə görə təsnif edilməyə başladı. Müəyyənləşdirildi ki, eyni bir obyekti müxtəlif nəzəri baxışlardan, transformasiya, eksperimental və deskriptiv metodlardan asılı olaraq, fərqli baxış bucağından öyrənmək olar və bu vacibdir. Köhnə elmlər hüdudunda yeni elmi istiqamətlər və yeni elm sahələri meydana gəlməyə başladı. Əsrin əvvəllərində dəqiq elmlərdə və təbiətşünaslıq elmlərində özünü göstərən bu proses əsrin ikinci yarısından humanitar elmlərə də şamil edilməyə başladı. Odur ki, dilçilik ilə bir sıra digər elmlər hüdudunda yeni elm sahələri yaranmış oldu: sosiolinqvistika, psixolinqvistika, etnolinqvistika və etnopsixolinqvistika və s.

"Klassik dilçilik" elmi yalnız "dili" öyrənirdi: gah dilin cəmiyyətdəki rolunu (sosioloji məktəb), gah da mətndə, mətn tərkibində funksiyasını (deskriptivistlər) tədqiq edirdilər. Hazırda vəziyyət dəyişmişdir: alimlər dili deyil, danışıq fəaliyyətini öyrənirlər.

Bu heç də o demək deyildir ki, insanın nitq davranışında və ya nitq fəaliyyətində dilin roluna o qədər də əhəmiyyət verilmir. Müasir dövrdə nitq fəaliyyəti haqqında görüşləri belə xülasə etmək olar. Danışıq fəaliyyətini idarə edən amillərin bir qrupu sözlü (verbal) və sözsüz (qeyri-verbal, averbal) hərəkətlərin qarşılıqlı əlaqələri ilə, habelə nitq ilə müvafiq ünsiyyət situasiyasının qarşılıqlı əlaqələri ilə bağlıdır. Başqa sözlə, bunlar (sözün geniş mənasında) ictimai amillərdir. Bu amillər aşağıdakılardır:

1) Cəmiyyətdə nitqin müxtəlif ictimai və ictimai-psixoloji funksiyaları, dildaxili vahidlər, bunların variantları, etnolinqvistik təhlili, diskurs aspektində tədqiqata cəlb edilməsi, mətnin quruluşu, əhatə dairəsi. Birtərəfli şəkildə dildaxili vahidlər "fərdi nitq" anlayışını və fərdlərarası ünsiyyət problemini irəli sürmək nəticəsində bu funksiyaları nə dilçilər, nə psixoloqlar, nə də sosiloqlar öyrənirlər. Hətta nitq ünsiyyətini ictimai fakt kimi də tədqiq etmirlər.

2) Nitqin bilavasitə ictimai səciyyə daşımayan müxtəlif funksional növləri. Bunlar da öz növbəsində üç qrup amilə tabedir: a) birinci amil nitqin funksiyaları (poetik, magik və s. funksiyalar) ilə əlaqədar olub, dilçilik elmi tərəfindən öyrənilir; bu funksiyalar çoxdan diqqət mərkəzindədir, lakin dilin müxtəlif funksiyalarını nəzərə almadan araşdırılır; b) ikinci amil də ənənəvi olaraq dilçilik tərəfindən öyrənilir (kontakt-distant, yazılı-şifahi və s. nitq). Deməli, ikinci amil "ünsiyyət formaları" hesab olunur; c) üçüncü amil nitq üslubiyyatının predmetidir – başqa sözlə, nitq fəaliyyətinin müxtəlif funksional – üslubi növləridir.

3) Nitq fəaliyyəti və bu fəaliyyəti ehtiva edən ümumpsixoloji səciyyəsi arasında qarşılıqlı əlaqələrin qanunauyğunluğu. Bu qarşılıqlı əlaqə nitq hərəkəti ilə əvvəlki təcrübənin əlaqəsindən ibarətdir. Nitq hərəkətləri ilə deyil, onların daxili quruluşları və dildaxili vahidləri ilə əlaqədar məsələdədilin səciyyəsini götürən amillər qrupudur.

Dilçilikdə nisbilik nəzəriyyəsi iki səviyyədə təhlil oluna bilər.: 1) qnoseoloji səviyyədə; 2) ontoloji səviyyədə.

Dil, təfəkkür və mədəniyyətlər arasında əlaqələr haqqında Sepirin görüşlərini onun bütün əsərlərinin kontekstində müəyyənləşdirmək mümkündür. Belə ki, onun görüşlərində ziddiyyətlər də müşahidə olunur. O yazmışdır: "Dil və bizim fikrimizin şablonları bir-biri ilə qırılmaz şəkildə əlaqədardır. Bunlar hətta müəyyən mənada eyni şeylərdir... Bütün dillərin daxili məzmunu eynidir – təcrübənin intuitiv şəkildə anlaşılmasıdır. Lakin onların xarici forması sonsuzluğa qədər müxtəlifdir: belə ki, "dilin

morfologiyası" adlandırdığımız bu forma əslində kollektiv təfəkkür sənətidir" (5, 43).

B. L. Uorfun mülahizəsinə görə, hər bir dilin yalnız özünə xas səciyyəsi vardır və bununla da fərdin dünyagörüşü müəyyənləşdirilir.

Ümumi qəbul olunmuş rəyə görə, müxtəlif rənglərin bir sözlə ifadə edilməsi rəngləri seçmə qabiliyyətinin zəifliyi kimi əks etdirilmir, bəlkə, dilin yoxsulluğunun əlaməti kimi qiymətləndirilməlidir (3, 11).

Dillər bir-birindən rəng adlarını bildirmələrinə görə də fərqlənir. L. V. Şemyagin Nenlərin dilində otuza qədər rəng adı olduğunu göstərir. İngilis və fransız dillərində rəng bildirən yüzlərlə sadə söz vardır. Nenlərdə mürəkkəb rəng adı yoxdur, almanlarda beş yüz, ingilislərdə isə dörd minə qədər belə söz var.

Dilin, dünyagörüşünün və mədəniyyətin qarşılıqlı əlaqəsi təkcə dillərarası müqayisələr metodu ilə müəyyən edilmir. Burada problemə başqa cəhətdən də yanaşmağın mümkün olduğunu qeyd etmək lazımdır. Yəni dildaxili (intralinqvistik) faktlar əsasında da dilin, dünyagörüşünün və mədəniyyətin qarşılıqlı əlaqəsindən geniş miqyasda bəhs etmək mümkündür. Məlumdur ki, dildaxili faktlar ayrı-ayrı ictimai qrupların nitq xüsusiyyətlərindən ibarətdir. Müəyyən mənada demək olar ki. dil müxtəlif səciyyəli kommunikativ vasitələr məcmusundan ibarətdir, həmin kommunikativ vasitələr xarici aləmi öyrənmək və təqdim etmək baxımından bir-birindən fərqlənir. Buraya riyaziyyat, fizika, məntiq, fəlsəfə, filologiya, incəsənət dili daxildir. Məlumdur ki, gizli, şərti dillər onlardan istifadə edən fərdlərin dünyagörüşü ilə əlaqədardır.

Hər bir ayrıca dildaxili vahid üçün müştərək cəhət hər şeydən əvvəl ümumi sintaktik-semantik əlamət hesab olunur. Buna görə də bu və ya digər dildaxili vahidlərin paradiqmatik sırasını fərqləndirmək mümkün olur. Digər tərəfdən də, öz növbəsində dildaxili variantlarda bu və ya digər sintaktik-semantik əlamətlər əsasında paradiqmatik sıra şəklində qruplaşa, birləşdirilə bilər. Dildaxili vahidlər və onların variantları öz aralarında sistem münasibətində ola bilirlər: dildaxili vahidlər oppozitiv paradiqmatik sıranın üzvləri kimi, dildaxili vahidlərin variantları isə paradiqmatik sıranın üzvləri kimi.

Dildaxili vahidlərin məzmunca əlamətləri kateqorial və qeyri-kateqorial əlamətlər kimi bölünə bilər. Daha ümumi, yəni kateqorial əlamətlərə görə dildaxili vahidlər üç yerə bölünür: substansional (substansiyanı, əşyanı, predmeti əks etdirən) əlamətlər, kvalifikativ (keyfiyyət bildirən) əlamətlər və prosessual (prosesi əks etdirən) əlamətlər. Dildaxili vahidlərin kateqorial əlamətləri nitq hissəsinin kateqorial mənaları ilə qarışdırıla bilməz. Hər nitq hissəsinin ayrıca kateqorial mənası başqa nitq hissələrinin mənasına qarşı qoyulur. Dildaxili vahidlərin məzmununda kateqorial əlamət isə yalnız konstruksiyanın quruluşundakı sintaktik əlaqələr

vasitəsilə müəyyən edilir və bu zaman həmin dildaxili vahidin hansı vasitələrlə ifadə edildiyi nəzərə alınmır. Məsələn, substansional dildaxili vahidlər nəinki isimlərlə, həm də başqa nitq hissələri ifadə edilə bilər. Habelə eyni nitq hissəsinə məxsus sözlər həm substansional, həm kvalifikativ, həm də prosessual dildaxili vahidlərin ifadə vasitəsi ola bilər. Kateqorial ifadələrin sayəsində dildə korrelyativ dildaxili vahidlər sırası mövcud olur.

Ədəbiyyat

1. Виноградов В.В. Русский язык. Грамматическое учение о слове. М.: Высшая школа, 1986, 614 с.
2. Мухин А.М. Структура и их модели. Л.: Наука, 1968, 230 с.
3. Новиков Л.А. Художественный текст и его анализ. М., 1980, 210 с.
4. Щерба Л.В. Языковая система и речевая деятельность. Л.: Наука, 1974, 428 с.
5. Шемякин Л.В. К вопросу об отношении слова и наглядного образа. Известия АПН РСФСР. вып. 113, 1970. 240 с.

K. Alekberova

Text-generating inner language speech and behavior etiquettes

Summary

This article deals with the text-generating inner language speech and behaviour etiquettes. Here is noted that most people speak and write with the help of ready-made formulas, speech etiquettes. It has many positive aspects: allows to use ready speech forms easily, facilitates the communication process, saves energy and time for both listening and speaking person. The growing emphasis on sociolinguistics, in particular on verbal communication, principles of modeling of communicative act, functioning in all spheres of public activity is one of the important features and modern linguistics. In terms of general issues it is important to the study of speech etiquette - rules of verbal behavior. These rules are enshrined in the system of stable expressions taken this team of the speakers at a certain stage of social development in specific communicative situations.The main feature of communication as a process - interaction. The process of dialogue covers social interaction between members of society - their joint activity intsruktsiyu and proper communication. The ordering is achieved by means of rules and regulations that govern the nature of communication depending on its purpose and means.

К.Алекберова

Внутренние языковые этикеты речи и поведения, которые генерируют текст

Резюме

В этой статье рассматриваются внутренние языковые этикеты речи и поведения, которые генерируют текст. Здесь отмечается, что большинство людей говорят и пишут с помощью готовых формул, речевых этикетов. Это имеет много положительных аспектов: позволяет легко использовать готовые формы речи, облегчает процесс общения, экономит энергию и время как для слушающего, так и для говорящего человека. Речевой этикет – это система правил речевого поведения, нормы использования средств языка в определённых условиях. Этикет речевого общения играет важную роль для успешной деятельности человека в обществе, его личностного и профессионального роста, построения крепких семейных и дружеских отношений. Для овладения этикетом речевого общения, требуются знания из различных гуманитарных областей: лингвистики, истории, культурологи, психологии. Для более успешного освоения культурных навыков общения используют такое понятие, как формулы речевого этикета.

Rəyçi: **Çingiz Qaraşarlı**
filologiya elmləri doktoru, professor

SEVİNC SADIQOVA
ADPU
filologiya üzrə fəlsəfə doktoru, dosent
sevincsadigova2@gmail.com

ƏDƏBİ DİLDƏ ARXAİKLƏŞMİŞ KÖMƏKÇİ VƏ XÜSUSİ NİTQ HİSSƏLƏRİ QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİNDƏ

Açar sözlər: köməkçi nitq hissələri, xüsusi nitq hissələri, arxaizm, şivə, ədəbi dil, dialekt.
Ключевые слова: служебные части речи, особенные части речи, архаизм, говор, литературный язык, диалект.
Key words: auxiliary part of speech, specially part of speech, archaism, accent, literary language, dialects.

Qərbi Azərbaycan şivələri bir sıra spesifik qrammatik xüsusiyyətlərə malikdir və bu xüsusiyyətlərin bir qismini ədəbi dil baxımından arxaikləşmiş köməkçi və xüsusi nitq hissələri təşkil edir.

Ədəbi dildə arxaikləşmiş köməkçi nitq hissələri: Dilçilik ədəbiyyatında köməkçi nitq hissələrinə belə bir tərif verilir ki, cümlədə müstəqil bir üzv kimi işlənməyən, ayrılıqda müstəqil lüğəvi mənaya malik olmayan, heç bir suala cavab verməyən, hərəkət, hadisə, əşya, əlamət və keyfiyyət bildirməyən sözlərə köməkçi nitq hissələri deyilir (1.292). Müasir Azərbaycan dilinin morfologiyasına aid son illərin dərsliklərində M.Hüseynzadə (2.17), Y.Seyidov (3.109), Q.Kazımov (4.334-335) qoşma, bağlayıcı, ədat və modal sözləri, B.Xəlilov qoşma, bağlayıcı və ədatı (1.292) köməkçi nitq hissələrinə aid etmişlər. Tarixi qrammatika aspektindən H.Mirzəzadə, Ə.Şükürov qoşma, ədat və bağlayıcını (22.298,324,346; 5.20,49,73), Ə.Tanrıverdi qoşma, bağlayıcı, ədat və modal sözləri (23.330) köməkçi nitq hissələrinə aid etmişlər. Dialektoloji araşdırmalarda da modal sözlər, bağlayıcı, qoşma və ədatlar (27.280,281,283,286; 26.218,220,-223,226) köməkçi nitq hissələri kimi müəyyən edilmişdir. Qərbi Azərbaycan şivələrini araşdırarkən, bu şivələrdə hal-hazırda işlənən, həmçinin tarixən Azərbaycan ədəbi dilində də işlənmiş, lakin müasir ədəbi dildə arxaikləşmiş köməkçi nitq hissələrindən qoşma və ədatları müəyyən etdik.

Ədəbi dildə arxaikləşmiş qoşmalar: Qərbi Azərbaycan şivələrində işlənən, *"dəfə"* mənasını ifadə edən ***yol, kəz//gəz, kərə//kərəm, qat*** kimi qoşmalar müasir ədəbi dil baxımından arxaikləşmiş, tarixən isə ədəbi dildə işlək olmuşdur. Qeyd edək ki, bu qəbildən olan vahidlər ayrı-ayrı dilçilər tərəfindən müxtəlif cür adlandırılmışdır. Belə ki Ə.Şükürov *yol, gəz, qat//qatla//qətlə* (5.31-33) kimi vahidləri qoşma, B.Xəlilov, A.Bayramov

kərə, yol, qat (1.251-252; 9.242,132,) kimi vahidləri numerativ söz hesab etmişlər. M.Hüseynzadə, Q.Kazımov numerativ sözlərdən bəhs edərkən, onların sayla isim arasında işləndiyini qeyd etmiş və sadaladıqları numerativ sözlər sırasında *"dəfə"* mənalı sözlər (*gəz, yol, kərə* və s.) göstərməmişlər (2.85-86; 4.129).

Fikrimizcə, *yol, kəz/gəz, kərə, qat* tipli morfemlər, sayla isim arasında işlənən numerativ sözlərdən fərqli olaraq, sayla feil arasında işləndiyi üçün, həmçinin *"dəfə"* mənası ifadə edərək iş və hərəkətin təkrarlanmasını bildirdiyi üçün qoşma kimi çıxış edirlər.

Qərbi Azərbaycan şivələrinin bir çoxunda – Dərələyəz, Ağbaba, Zəngibasar, İrəvan, Üçkilsə, Vedi, Çəmbərək və b. ***yol*** qoşması *"dəfə"* mənasında işlənir: Yüz yol dedim, sözmü dinnəmədi. Bu qoşma əksər hallarda *bir* sözü ilə birlikdə, *bir yol* formasında, *"bir dəfə"* mənasında işlənir: *Qanan adama sözü bir **yol** demək bəs edir, qammaza yüz **yol** da desən, xeyri yoxdu.*

Qərbi Azərbaycan şivələrində və Azərbaycan dilinin digər dialekt və şivələrində (Cəlilabad, Qax, Ordubad, Şərur) (6.324, 1.550; 8.416, 9.242, 10.21, 186) işlənən *yol* sözü hal-hazırda Azərbaycan ədəbi dilində işlənməsə də, tarixən ədəbi dildə işlənmişdir: İmadəddin Nəsimidə: *Hər bibəsər səni neçə **yol** bula görməyə, Uçmaqda röyətə dəxi əhli-nəzər gərək* (28.115); Kişvəridə: *İldə bir **yol** üzünü görməyə həsrət çəkərəm, Nola bir gəz mənə bu həsrət ilə yar olasan* (11.200); Molla Pənah Vaqifdə: *Ol sərvi-xuramanə ki, gəzmək olub adət, Bir **yol** yolu, gör kim, bizim eyvanə düşərmi?* (12.388); *Nolurdu kim, olaydım qasidin qoynundakı kağız – Ki, mən də Qələyə bir **yol** gedəydim bu gedənlər tək* (12.392); *Mən ha sənin ol məh üzün görmüşəm yüz **yol**, Ox kirpiyini, şux gözünü görmüşəm yüz **yol**, Həm yoldaşını, həm özünü görmüşəm yüz **yol**, Şəkkər kimi şirin sözünü görmüşəm yüz **yol**, Daxi nə yaşınmaq, nə bürünmək, nə utanmaq? Bəsdir bu dayanmaq!* (12.417) və s.

Yol qoşması haqqında Ə.Şükürov yazır: "Yol – dilimizdə işlədilən ən qədim qoşmalardan biridir. Bu qoşma, adətən, cümlədə adla fel arasında qrammatik əlaqə yaratmış və iş, hərəkətin təkrar olaraq icra edildiyini, bəzən də zamanını bildirmişdir. Müasir dilimizdə yol şəklində rast gəlinən bu qoşma qədim türk dilində yolı şəklində işlənmişdir" (5.31). Müəllif Mahmud Kaşğariyə istinadən *yolı* qoşmasının *"müdafiə etmək, arxa durmaq"* mənasını ifadə edən *yola* feli bağlamasından təcrid olunma nəticəsində meydana çıxmasını, dilimizdəki *yol* qoşmasının isə, *yolı* qoşmasının ixtisar olunması nəticəsində meydana çıxdığını qeyd etmişdir (5.31).

"Qədim türk lüğəti"ndə *yoli* fonovariantında qeydə alınaraq *"dəfə"* mənasında izah olunmuşdur: "bir jilqa beš joli süŋüšdümüz – bir ildə beş dəfə (beş yol – S.S.) döyüşdük" (13.271), V.V.Radlovda *joл* şəklində *"dəfə"*

mənasında qeydə alınmışdır: "jəтi joл cÿlämiш – o, yeddi dəfə (yeddi yol – S.S.) yürüş etdi" (14,III,1.430).

Qərbi Azərbaycanın Ağbaba şivəsində ***kəz*** numerativ sözü *"dəfə"* mənasında işlənir: *Bir **kəz** gözümnən tüşdümü, çətin kin ürəyim düzələ.*

Meğri şivəsində ***gəz*** sözü *"vaxt, zaman"* mənasında işlənir: "Urusdan əzzəl bir gəz bu viliyət baxırmış Erana; Gəz geşmey, üş gün də qarqıdalını gec əkin" (15.365).

Müasir ədəbi dildə işlənməyən bu söz tarixən ədəbi dildə *"dəfə"* mənalı qoşma kimi çox geniş şəkildə, lakin *gəz* fonovariantında işlənmişdir. Ə.Şükürov bu qoşmanın əsasən XIV-XVI əsrlərdə işləndiyini qeyd etsə də (5.32), bu vahidin "Kitabi-Dədə Qorqud" dastanlarının dilindən başlayaraq XVIII əsrin sonlarına qədər işləndiyini klassik ədəbiyyatdan seçdiyimiz nümunələr əyani şəkildə sübut edir: "Kitabi-Dədə Qorqud"da: *Sudan keçdi, bu **gəz** bir qurda tuş oldu* (16.41); *Bu **gəz** oğlan şərab içərkən içməz oldı* (16.53); *Bir **gəz** adam ətinə doyam, deyərdim* (16.133); "Dastani-Əhməd Hərami"də: *Bu **gəz** ol dəxi qapıya yürüdü, Qalan yoldaşların taşda sanırdı* (17.84); *Bu **gəz** sultan durub gəldi qızına, Qızı qarşu varır sultan üzünə* (17.92); *Atasıyla, anasıyla görüşdü, Bu **gəz** getməgi yarağına düşdi* (17.96); İmadəddin Nəsimidə: *Aldı könlüm, qılmadı ol bivəfa bir **gəz** vəfa, Yıxdı məmur şəhrini, gör necə viran eylədi* (17.160); *Fəraqü mövnəti-hicrin yıxıbdır könlümün şəhrin, Nola bir **gəz** vüsalınla yapasan Beyti-mə`muri* (17.161); Hidayətdə: *Bir **gəz** xəyal ilə səni qucum dedim, nola, Başdan Hidayət itdi, gedər bu xəyalını* (17.224); Həbibidə: *Dəmdə min **gəz** qal edərsə aşiqi, Qəmzəsi məşuqunun xud az ola* (17.274); Şah İsmayıl Xətaidə: *Döndərdi qəmin tənim hilalə, Bir **gəz** mənə görsət axır əbru* (19.151); *Gər yüz ildən sonra bir **gəz** qəbrim üstə gəlsə yar, Yar ilə qəbrim içində üstüxanım söyləşə* (19.151); Həqiridə: *Demədin bir **gəz** mənə, ey dilrüba, Ey zəifü natəvanım, qandasan?* (17.345); *Qılmadın bir **gəz** mana lütfü əta, Liykən artırdın əzabı günbəgün* (17.347); Məhəmməd Füzulidə: *Min can olaydı kaş məni-dilşikəstədə, Ta hər birilə bir **gəz** olaydım fəda sana* (18.55); *Bildi eşqində nəmədpuş olduğum ayinə tək, Rəhm edib bir **gəz** mənə baxmaz, bu istiğnayə bax!* (18.94); *Öylə rə'nadır, gülüm, sərvi-xuramanın sənin, Kim, görən bir **gəz** olur, əlbəttə, heyranın sənin* (18.187); *Yanan eşq atəşinə atəşi-duzəxdən eyməndir, Nə kim, bir **gəz** yanar, yandırmaq oni qeyri-mümkündür* (18.101); *Şərabi-nab zövqindən nə hasil, çün degil baqi, Piyazi-ömrə min **gəz** su verib, axır qurutdun, tut!* (18.308) *Gündə yüz **gəz** hicr tiğilən oluram mən həlak, Gərdişi-dəvvar cövründən məni-dilxəstənak* (18.341); *Mənə göstərdi gərdun tirə bəxtim kövkəbin yüz **gəz**, Məni-bədbəxt ona hər gah kim baxdım, qara gördüm* (17.371); Nişat Şirvanidə: *İldə bir yol üzünü görməyə həsrət çəkərəm, Nola bir **gəz** mənə bu həsrət ilə yar olasan* (12.200); Arif Şirvanidə: *Tutan kuyində məskən həsrəti-bağı-İrəm çəkməz,*

*Görən bir **gəz** səni, ömründə hərgiz dərdü qəm çəkməz* (12.231); *Məni məhrum qıldı yarımın rüxsarına yüz **gəz**, Onu bari ilahi daima məhrumi-didar et* (12.232); Molla Pənah Vaqifdə: *Mən səni görməkdən ötrü bari bir **gəz**, ey sənəm, Canımın hövlündən aya neyləyim heç bilmənəm* (12.407) və s.

Meğri şivəsini tədqiq edən Ə.Əliyev yazır: "Ernəzir və Nüvədi kəndlərində "vaxt", "zaman" mənasında işlənən gəz sözü ilə "Dədə Qorqud" dastanlarının dilində və Xətaidə "dəfə" mənasında işlənən gəz sözünün arasında bir məna yaxınlığı nəzərə çarpır. Başqa sözlə desək, "Dədə Qorqud" dastanlarından və Xətaidən alınan cümlələrdəki gəz sözü bir növ "vaxt" mənasını da ifadə edir. Lakin Füzulidən alınan gəz sözü sırf "dəfə" mənasında işlənmişdir" (15.366). Müəllif klassik ədəbiyyatda *gəz* sözünün *giz* variantının da işlənməsinə münasibətini bildirərək, *"vaxt"* mənası ilə yanaşı, *"əsla, qətiyyən"* mənalarının da olmasını qeyd etmişdir. Lakin qeyd edək ki, Meğri şivəsində bu söz *"vaxt"*, *"zaman"* mənasında işlənsə də, digər şivələrdə məhz *"dəfə"* mənasında işlənir.

"Adla fel arasında qrammatik əlaqə yaradan gəz qoşması eyni zamanda aşağıdakı mənaları ifadə etmişdir: 1.Miqdar saylarından sonra gələrək iş, hərəkətin təkrar olaraq icra olunduğunu və ya zamanını bildirmişdir; 2.İşarə əvəzliyindən sonra gələrək iş, hərəkətin zamanını ifadə etmişdir" (5.32-33).

V.V.Radlov *ғäз* variantında qeydə alaraq *"dəfə"* mənasında izah etmişdir: *"бip ғäз – bir dəfə"* (14,II,2.1574).

Ə.Şükürov kəz qoşmasının Azərbaycan dilində tamamilə arxaikləşdiyini, müasir qumuq (qezik) və türkmən (qezek) dillərində hələ də işləndiyini qeyd etmişdir (5.33). Lakin araşdırmamızdan göründüyü kimi, *kəz//gəz* qoşması Azərbaycan dilində tamamilə arxaikləşməmişdir, müasir ədəbi dildə arxaikləşsə də, dialekt və şivələrdə, həmçinin Qərbi Azərbaycan şivələrində işləkliyini itirməmişdir.

Qərbi Azərbaycanın əksər şivələrində – İrəvan, Zəngibasar, Vedi, Ağbaba, Çəmbərək, Dərələyəz və b. ***kərə//kərəm*** qoşması işlənir və *"dəfə"* mənasını ifadə edir: *Üş gün gedif-gəldi, qızla bir **kərəm** söypət edəmmədi.*

Azərbaycan dilinin ayrı-ayrı dialekt və şivələrində *kər* (Qazax), *kərəm* (Bakı, Cəlilabad, Salyan), *kərən* (Cəlilabad, Şərur, Yevlax) (7.250-251) fonovariantlarında işlənən bu söz Qərbi Azərbaycan şivələrində (8.208; 9.132; 6.332; 10.96) olduğu kimi, *"dəfə"* mənasını ifadə edir. İ.Bayramov R.Rüstəmova istinadən bu sözün Quba dialektində də işləndiyini qeyd edir (20.63).

Ədəbi dildə bir çox hallarda geminasiya hadisəsinə uğrayaraq *kərrə* formasında işlənmişdir: "Kitabi-Dədə Qorqud"da: *Xanlar xanı xan Bayındır yildə bir **kərrə** toy edib, Oğuz bəglərin qonaqlardı* (16.24); *Boz atlu Xızır maŋa gəldi, üç **kərrə** yaramı sığadı* (16.33); *Üç **kərrə** ağzından iqrar eylədi*

(16.59); *Bir saatda kafirə üç **kərrə** at dəpdi* (16.91); İmadəddin Nəsimidə: *Görsət üzünü bir **kərə**, ta kim, Nəsimi can verə, Çün eydi-əkbərdir üzü, yüz can ona qurban gərək* (28.114); Məhəmməd Füzulidə: *Ayağın tozuna üz sürməyə verməz səba rüsxət, Üzün yüz **kərrə** şəbnəm yumadan, gülbərgi-sirabın* (18.197); Şah İsmayıl Xətaidə: *Gərəksə eyləsin min **kərrə** üzür, Onlar ilə yeyib, içənə lənət!* (19.16); *Neçə **kərrə** demədimmi, gözləri ahu, sana, Bivəfalıq etməmək gərək idi canım sana* (19.33); Saib Təbrizidə: *Şəfqət ilən bir **kərə** başın götür torpaqidən, Necə yolunda şəfəqdən tərləsin qan afitab* (12.76); Nişat Şirvanidə: *El yaman, yaxşı deyər, gəzmə bu kafərlər ilə, Sana yüz **kərrə** dedim gəzmə, müsəlman, gəzmə!* (12.192); *Bavərin yox sözümə, ey məh yüz **kərrə** desəm, Edərəm müshəfi-rüxsarına billah qəsəm* (12.206); Molla Pənah Vaqifdə: *Girsə bir **kərrə** ona mən kimi bir xanəxərab, Getməz ondan dəxi bir canibə manəndi-hübab* (12.410); *Onu bir **kərrə** görən dindən olur, əlbəttə, dur, Necə kim, cənnət sarayından çıxar, qilmanü hur* (12.411) və s.

Qərbi Azərbaycan şivələrinin əksəriyyətində işlənən ***qat*** sözü *"dəfə"* mənasını ifadə edir: *İsəni pisdiirsiz, ancax sizdən min **qat** yaxşı adamdı.*

Tarixən ədəbi dildə fərqli fonovariantda işlənmişdir: "Kitabi-Dədə Qorqud"da: *Oğlan anda yıqıldıqda Boz atlu Xızır oğlana hazır oldı, üç **qatla** yarasın əliylə sığadı* (16.32); *Amma gətürməyəcək olursaŋ, bu **qatla** öldürmədim, ol vaqtın öldürərin!" – dedi* (16.59); *Yedi **qatla** Oğuzı yerindən sürdi* (16.128); İmadəddin Nəsimidə: *Dedim yüz **qətlə** şükr əlhəmdülillah*; Kişvəridə: *Sən padişahi-hüsnsənü Kişvəri gəda, Bir **qatla** sormadın ki, xani ol gədacuğum* (11.65); Qövsi Təbrizidə: *Yüz siğəyilə tövbə verir özgəyə zahid, Amma özü min **qatla** pəşiman olacaqdır* (12.158); *Düşdüm gedə-gedə iki aləm bəlalərə, Bir **qatla** ol bəla mənə olmaz düçar, heyf!* (III.174) və s.

Nümunələrdən də göründüyü kimi, ədəbi dildə bu söz *qatla//qətlə* variantında "Kitabi-Dədə Qorqud" dastanlarından başlayaraq işlənmiş, sonradan ədəbi dildə arxaikləşmiş, Azərbaycan dilinin dialekt və şivələrində *qat* formasında qalmışdır. "Qatla//qətlə qoşması XVI əsrdən başlayaraq tədricən dilimizdə arxaikləşmişdir... Müxtəlif türk dillərində bu və ya digər şəkildə qorunub saxlanan qatla//qətlə qoşması, ehtimal ki, kayta "qayıdaraq" feli bağlamasının təcrid olunaraq daşlaşması nəticəsində əmələ gəlmişdir" (5.32). Müəllif bu qoşmanın XVI əsrdən başlayaraq tədricən dilimizdə arxaikləşdiyini yazır, lakin müşahidələrimizə əsasən qeyd edə bilərik ki, ədəbi dildə arxaikləşsə də, dialekt və şivələrdə hələ də işlənməkdədir.

M.Kaşğari *kata* fonovariantında qeydə alaraq *"dəfə, kərə"* mənasında izah etmişdir (21,III.207), "bir kata aydım = bir dəfə dedim" və b. nümunələr vermişdir (21,II.366). "Qədim türk lüğəti"ndə *qata* fonovariantında *"dəfə, dəfələrlə"* mənasında qeydə alınmışdır: "teŋdin kärimräk šhim miŋ qata – mənim şahım dənizdən min dəfə (*min qat* – S.S.) mərhəmətlidir" (13.432).

V.V.Radlov кат morfemini *"dəfə"* mənasında izah etmişdir: "бір кат даһа – daha bir dəfə; ӱч кат – üç dəfə, дөрт кат – dörd dəfə" (14,II,1.274-275).

Qərbi Azərbaycan şivələrində işlənən *yol, gəz, kərə, qat* tipli sözlərin müasir Azərbaycan ədəbi dilində işləklikdən çıxaraq arxaikləşməsinin səbəbi *dəfə* qoşmasının bu sözləri sıxışdıraraq istifadədən çıxarması olmuşdur. *Dəfə* qoşmasının müasir ədəbi dildə geniş işləklik qazanması ilə həmin sözlər tədricən ədəbi dildən çıxmış, lakin həm Qərbi Azərbaycan şivələrində, həm də Azərbaycan dilinin digər dialekt və şivələrində bu günə qədər işlənməkdədir.

Qərbi Azərbaycanın Çəmbərək, Karvansaray şivələrində ***ayrı*** qoşması işlənir, *"başqa"* mənasını ifadə edir: *Heydardan **ayrı** bir kimsənəsi yoxdu.*

Tarixən ədəbi dildə işlək olmuşdur: İmadəddin Nəsimidə: *Bu dili-biçarədən sordum nədir dərdinə əm, Dilbərin lə`lindən **ayrı** hiç timar istəməz* (17.157); *Çün ləbin abi-həyatidir həyati-ömrümün, Bu Nəsimi səndən **ayrı** leysə-fiddar istəməz* (17.157); Kişvəridə: *Ləblərindən **ayru** hər dəm tilbə könlüm qan yudər, Dirligim dirlik degil, tək bir qəra gündür keçər* (11.144); *Səndən **ayru** yüz ğəmü dərdü məlamətdür mana, Nə xoşam, nə naxoşam, bilməm nə halətdür mana* (17.246); Məhəmməd Füzulidə: *Vəslindən **ayrı** nola qanım tökülsə gül-gül, Mən gülbüni-bəlayəm bu fəsldir bəharım* (18.222); *Qaçan kim, qamətindən **ayrı** seyri-busitan etdim, Qoparıb əşk seylabilə min sərvi rəvan etdim* (18.232); Qövsi Təbrizidə: *Əgər min dağ yandırsam könül bir **ayrı** dağ istər, Gəda gər sərbəsər aləm çırağandır, çırağ istər* (12.159) və s.

H.Mirzəzadə bu qoşmanın müstəqil sözdən, tarixən *ayrıq/ayrı* sifətindən əmələ gəldiyini, *özgə* qoşmasının sinonimi olduğunu, əşya və ya obyektdən uzaqlaşma, kənar düşmək məzmunu ifadə edən qədim qoşma olduğunu qeyd etmişdir (22.315-316).

Qərbi Azərbaycanın İrəvan, Zəngibasar, Vedi, Çəmbərək, Üçkilsə şivələrində *"ötrü"* qoşmasına ekvivalent olan ***yana*** qoşması işlənir, səbəb və məqsəd mənaları ifadə etməyə xidmət edir: *Oğlumnan **yana** yaman narahatam.*

Azərbaycan dilinin digər dialekt və şivələrində (Naxçıvan, Ordubad, Qubadlı, Şərur, Zəngilan) (7.539; 27.284) və Qərbi Azərbaycan şivələrində işlənən (10.182; 8.407) bu qoşma tarixən ədəbi dildə də işlənmişdir: "Dastani-Əhməd Hərami"də: *Xəzinədən **yana** əzm etdilər çün, Kəmindən çıxub enib getdilər dün* (17.80); *Rəvanü çüst ol aradan getdilər, Xəzinədən **yana** azim etdilər* (17.82); *Görür on kişi qatıraq gedərlər, Xəzinədən **yana** azim edərlər* (17.82); Məhəmməd Füzulidə: *Yəqinimdir ki, məqsudum olur hasil sənə yetsəm, Bihəmdillah, mənə səndən **yana** rəhbər yəqinimdir* (18.111); *Dualar eylərəm, məndən **yana** bir dəm güzar etməz, Nə çarə, sehrilə sərvi xuraman eyləmək olmaz* (18.148); *Durğurma, yolların yügürüb*

*tutma, ey sirişk, Ol sərv edəndə naz ilə bizdən **yana** xüram* (18.215); *Meyl qıl məndən **yana**, hər dəm bu istiğna yetər! Qanlı isəm dəxi gəl keç şimdi qanimdən mənim* (18.343) və s.

Ə.Şükürov bu qoşmanın orta əsr Azərbaycan ədəbi dilində ən az işlənmiş əsli qoşma olduğunu, yalnız XIV-XVIII əsrlərdə yazılmış bəzi sənədlərdə rast gəlindiyini (5.44), M.Şirəliyev *yana* qoşmasının türk dialektlərində *yani* şəklində işləndiyini qeyd etmişdir (27.293).

Müasir Azərbaycan ədəbi dilindəki *dək, qədər* qoşmalarına ekvivalent olan ***tan//tən*** qoşması Qərbi Azərbaycan şivələrinin bir qismində, əsasən, qərb qrupu dialekt və şivələrinin xüsusiyyətlərinə uyğun gələn şivələrdə (Çənbərək, Karvansaray, Ağbaba və b.) işlənir: *Savaxa**tan** gözmü yumammadım.* Azərbaycan dilinin Qazax, Qarabağ, Ağdam, Gəncə, İsmayıllı dialektlərində də bu qoşma işlənir (27.284). Bu qoşma müasir ədəbi dildə arxaikləşmişdir, lakin tarixən ədəbi dildə işlənmişdir. Həm tarixən ədəbi dildə, həm də şivələrdə bu qoşma həm məkan, məsafə, həm də zaman mənası yaratmağa xidmət etmişdir.

a) Məkan, məsafə mənası ifadə edərkən: Molla Vəli Vidadidə: *Biz də təşrif buyurmuşduq bağa**tan**, Eşitdik gəldiyin Nəsib ağadan* (12.312);

b) Zaman mənası ifadə edərkən: Xəstə Qasımda: *Mənim yarım illərə**tən** sağ ola, Dörd çövrəsi behişt ola, bağ ola* (12.269); *Altıdan qırxa**tan** sərgərdan idi, İki yüz otuzda özün tanıdı* (12.277); Molla Vəli Vidadidə: *Nə şirindir, məhəbbət tək zad olmaz, Ölənə**tən** könül ondan yad olmaz* (12.302); *Ölənə**tən** dönə bilməz yarından, Meydan günü başın qoyar can ilə* (12.304); *Mən ha bilməz idim ta bu çağa**tan**, İndi bildim hünər, cürət eylərsən* (12.312); Molla Pənah Vaqifdə: *Hər gecələr şirin-şirin sübhə**tən**, Eyləyək hekayət ikimiz belə* (12.344) və s.

Ədəbi dildə arxaikləşmiş ədatlar: Qərbi Azərbaycan şivələrində ədəbi dildə arxaikləşmiş ədatların sayı azdır. Bunlardan Qərbi Azərbaycanın əksər şivələrində işlənən ***ta*** ədatını göstərmək olar ki, qüvvətləndirici ədat kimi çıxış edir, müasir ədəbi dildə işlənən *"daha"* ədatının mənasına uyğun gəlir: ***Ta** bizim barışmağımız getdi işinin dalıncax; **Ta** gözdüyə bilmərəm, gərax` yola tüşüm.*

Ədəbi dildə isə bu ədat fərqli mənalarda çıxış etmişdir: İmadəddin Nəsimidə: *Gəl niqabın tərfini gülgün yanağından götür, **Ta** gülüstan gülməsin ayruq güli-xəndanına* (17.154); Məhəmməd Füzulidə: *Ey Füzuli, baxmayam **ta** qeyrə, hər xunin müjə, Atəşin bir mildir kim, çüşmimə qeyrət çəkər* (18.130); *Göz yaşı tiğiniz içün tökülür, ey xublar, Sizi **ta** etməyə rüsva, görünən dəmdə silin!* (18.194); ***Ta** Füzuli qamətü rüxsarına vermiş könül, Maili-sərvü həvaxahi-gülü nəsrin degil* (18.205); *Gecələr **ta** halimə gərdun təmaşa etmədi, Tərk edib bidadını, bir mehr peyda etmədi* (18.292); Məhəmməd Əmanidə: ***Ta** əsər var candan təndə, Əmani qapında bəndə*

(12.23); Məsihidə: ***Ta*** *ağzına baxdı qönçə bitab, Şərməndə olub buraxdı təbbab* (12.45); Saib Təbrizidə: ***Ta*** *ayağın torpağına tökməsi tutmaz qərar, Hər kimin məclisdə mina tək bir ovuc qanı var* (12.78); Qövsi Təbrizidə: *İstərəm peyvəstə, ey rəna dolanım başına, Qoygilən əldən inanım,* ***ta*** *dolanım başına* (12.148); Nişat Şirvanidə: *Əsiri-hüsnün oldum,* ***ta*** *tökər qan mərdümi-çeşmim, Giriftar olmasın heç kəs sənin tək mərdümi-azarə* (12.194); Şakir Şirvanidə: *Əbirəfşan olur xaki-məzarın* ***ta*** *dəmi-məhşər* (12.207); Molla Vəli Vidadidə: *Həbibim,* ***ta*** *səni mən sevmişəm əşraf arasında, Vücudum, atəşi-eşqin yanıbdır saf arasında* (12.323); Ağa Məsih Şirvanidə: *Rəcəbin on doqquzu, şənbə günü oldu yeriş – Ki, bular səngərin ətrafın alıb* ***ta*** *görə iş* (12.245) və s.

H.Mirzəzadə bu sözü bağlayıcı kimi vermiş, fars mənşəli olduğunu, XIV-XIX əsrlərədək tabeli mürəkkəb cümlələrdə müxtəlif məna əlaqələri yaratmaq üçün işlədildiyini və get-gedə arxaikləşərək, ədəbi dildən çıxdığını qeyd etmişdir: "Ta və ta ki bağlayıcıları quruluşundan asılı olmayaraq, məzmunca bir olmuşdur, yəni tabeli mürəkkəb cümlələrdə zaman, səbəb, məqsəd, miqdar, nəticə budaq cümlələrini baş cümləyə bağlamaq üçün işlənmişdir. Bəzən də qoşma və ya ədat kimi işlənmişdir" (22.364). Y.Seyidov da *ta* morfemini ədat kimi göstərmişdir: "Ta. Nəsimi dilində çox işlənən köməkçi sözlərdəndir. Ədatdır. Təklikdə də işlənir, ki bağlayıcısı ilə də işlənir, bu vaxt onda bağlayıcılıq xüsusiyyəti əmələ gəlir. Ədat kimi səbəb mənası verir; həm də zaman və məkan məsafəsi bildirə bilir" (24.176). Ə.Tanrıverdi isə bu morfem barədə səbəb bağlayıcıları barədə danışarkən məlumat vermişdir (23.350). Tarixən ədəbi dildə bağlayıcı, qoşma və ədat kimi işlənsə də, Qərbi Azərbaycan şivələrində ***ta*** morfemi qüvvətləndirici ədat kimi işlənməkdədir.

"Qədim türk lüğəti"ndə *ta* morfemi qüvvətləndirici-xüsusiləşdirici hissəcik kimi qeyd olunmuşdur: "bu altun ja küntoγušidan ta künbatušiγača teggän erdi – bu qızıl yay gündoğandan ta günbatana qədər keçmişdir" (13.525).

Qərbi Azərbaycan şivələrinin əksəriyyətində ***di*** morfemi işlənir: ***Di*** *salamat qalın, mən getdim;* ***Di*** *yaxşı, a bala, kürrüx` eləmə.*

Ədəbi dildə "Kitabi-Dədə Qorqud" dastanlarının dilində rast gəlinir: *Əllərin yeninə çəkdi gözükməsün deyü; oyuna girdi, ayıtdı: "Mərə Dəlü ozan, çal,* ***di****!"* (16.74); *İmdi Qazan bəg,* ***di****, bizi ög! – dedilər* (16.155) və s.

Dilçilik ədəbiyyatında *di* morfemi əmr ədatı kimi qeyd olunmuşdur (2.261).

Qərbi Azərbaycan şivələrində işlənən ***ha*** ədatı təkid, konkretləşdirmə, dəqiqləşdirmə mənasında çıxış edir: *Gəl* ***ha****, gözdü:jəm; Maralın* ***ha*** *dalısıncax danışmamışam, o nə: çıxıf özünnən?*

Tarixən ədəbi dildə işlənmişdir: Qövsi Təbrizidə: *Dutgilan bir yerdə sən, ey mərkəzi-təmkin, qərar,* ***Ha*** *dönüm pərgar tək, mən ha dolanım başına* (12.148); Xəstə Qasımda: *Mən* ***ha*** *billəm sən əttarsan, Qənd ilə noğul satarsan* (12.273); *Yatmışdım, üstümə gəldi bir pəri, Yenə yar sevdası* ***ha*** *mayil oldu* (12.278); Molla Vəli Vidadidə: *Çərxi-fələk, mən* ***ha*** *köçdüm yurdumdan, Ayrı düşdüm qoşunumdan, ordumdan* (12.307); *Mən* ***ha*** *bilməz idim ta bu çağatan, İndi bildim hünər, cürət eylərsən* (12.312); Molla Pənah Vaqifdə: *Sən* ***ha*** *bir sonasan, cüda düşübsən, Bir bölük yaşılbaş sonadan, Pəri!* (12.347); *Mən* ***ha*** *səni nuri-ilahi sannam, Camalının şöləsinə dolannam* (12.368) və s.

Ədəbi dildə arxaikləşmiş xüsusi nitq hissələri: Əsas nitq hissələriylə köməkçi nitq hissələri arasında orta mövqe tutan xüsusi nitq hissələrinə hansı söz qruplarının daxil edilməsi mübahisəli məsələ olmuşdur. M.Hüseynzadə yamsılamalar və nidaları (2.268,273), Q.Kazımov nida, vokativ sözlər və yamsılamaları (4.335), K.Hacıyev nida, təqlidi sözlər, modal sözlər və vokativ sözləri (25.59-63), B.Xəlilov nida, təqlidi sözlər və modal sözləri (1.315) xüsusi nitq hissələrinə aid etmişlər. Qərbi Azərbaycan şivələrində ədəbi dil baxımından arxaikləşmiş xüsusi nitq hissələrindən yalnız nidalara təsadüf etdik.

Ədəbi dildə arxaikləşmiş nidalar: Qərbi Azərbaycan şivələrində işlənən ***ərə, bıy//buy*** kimi nidalar müasir ədəbi dil baxımından arxaikləşmiş, tarixən isə ədəbi dildə işlək olmuşdur.

Qərbi Azərbaycan şivələrində işlənən spesifik nidalardan biri Meğri şivəsində işlənən ***ərə*** nidasıdır. Müəyyən dərəcədə müraciət çalarına malik olan bu nida Meğri bölgəsinin bütün kəndlərində, düşmənlərə, cavan yaşında olan şəxslərə müraciət məqsədilə işlənir.

Ə.Əliyev tədqiq etdiyi Meğri şivələrində işlənən bu nidaya aid aşağıdakı misalları verir: "- Ərə, Şəxsıvar, adda gə bu taya görüm nə:rirsən?; - Ərə, kəx`lix`, mən səni yiyənən so:ra sən məni nə tə:r qorxudecisən?; Aʾraʾ, Həbibi görmaʾdın, Həbibi e:... Həbibi; - Gələn diyer, ərə bı irzəvan gör nə iş çığatdı; - Ərə, Mıxdar, sənnən deyiləm? və s." (15.319).

Ədəbi dildə bu nidaya "Kitabi-Dədə Qorqud" dastanlarının dilində *mərə* fonovariantında rast gəlirik: *İlaqırdı söyləmə,* ***mərə*** *itüm kafir!* (16.39); ***Mərə*** *dayələr, bu qavat oqlı qavat bizə ərlikmi göstərir? – dedi* (16.56); *Beyrək aydır: "****Mərə*** *dadı, mən avçı degiləm, bəg oğlı bəgəm, həp sizə", - dedi; amma sormaq eyib olmasun, bu otağ kimündür?" – dedi* (16.56); ***Mərə*** *ozan, nerəyə gedərsən?* (16.66); ***Mərə*** *qız, nə ağlarsan, nə bozlarsan, "ağa" deyü?* (16.67) və s.

Dastandan gətirdiyimiz misallardan da aydın olur ki, *mərə* sözü həm düşmənə, həm də dayəyə, gənc qıza, ozana və b. müraciətlə işlədilmişdir ki, bu da Meğri şivəsində bu sözün işlənmə məqamlarına uyğundur. Dastanın

dilində işlənən *mərə* sözünün ilk samiti zaman keçdikcə düşmüş, söz *ərə* formasına düşmüşdür.

Qərbi Azərbaycan şivələrinin hamısında sevinc, təəccüb, həyəcan, qorxu və b. mənalar ifadə edən ***bıy/buy/boy*** fonovariantlarında işlənən nida vardır: ***Bıy****, başma xe:r, gədə dəli oluf;* ***Bu:y****, bunun sıfatına bax* və s.

Ədəbi dildə "Kitabi-Dədə Qorqud" dastanlarının dilində işlənmişdir: ***Buy****, bu zavala gələcək dəlü bəni görmiş kibi söylər* (16.73).

Qərbi Azərbaycan şivələrində ədəbi dilin arxaik köməkçi və xüsusi nitq hissələrinin tədqiqata cəlb olunması dialektologiya sahəsində bir sıra məsələlərin elmi həllini tapması ilə yanaşı, tarixi leksikalogiya, tarixi qrammatika, dil tarixi sahələrinə də öz töhfəsini bəxş edir.

İstifadə edilmiş ədəbiyyat:

1.Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. II hissə, Bakı, "Papirus NP", 2016, 352 s.
2.Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı, "Şərq-Qərb", 2007, 280 s.
3.Seyidov Y. Azərbaycan dilinin qrammatikası (morfologiya). Bakı, 2002, 368 s.
4.Kazımov Q. Müasir Azərbaycan dili. Bakı, "Elm və təhsil", 2010, 400 s.
5.Şükürov Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, APİ, 1981, 99 s.
6.Mirzəyev H. Dərələyəz mahalının toponimləri və şivə sözləri. Bakı, 2003, 360 s.
7.Azərbaycan dilinin dialektoloji lüğəti, Bakı, "Şərq-Qərb", 2007, 568 səh.
8.Bayramov İ. Qərbi Azərbaycan şivələrinin leksikası. Bakı, 2011, 440 s.
9.Bayramov A., Bayramova A. Ağbaba şivəsi sözlüyü. Sumqayıt, 2014, 280 s.
10.Ələkbərli Ə. Qərbi Azərbaycanın dialektoloji lüğəti. I. Bakı, 2009, 192 s.
11.Kişvəri. Əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 176 s.
12.Azərbaycan klassik ədəbiyyatından seçmələr.III, Bakı,"Şərq-Qərb", 2005,456s.
13.Древнетюркский словарь. Л., Наука, 1969, 676 стр.
14.Радлов В.В. Опыт словаря тюркских наречий. т.II, ч.1, СПб, 1893, 968 стр.; т.III, ч.1, СПб, 1893, 968 стр.; т.III, ч.2, СПб, 1893, 968 стр.
15.Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri. Bakı, "Elm", 2003, 580 səh.
16.Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı,"Öndər", 2004, 376 s.
17.Azərbaycan klassik ədəbiyyatından seçmələr. II, Bakı,"Şərq-Qərb", 2005, 408 s.
18.Füzuli M. Əsərləri. Altı cilddə, I cild, "Şərq-Qərb", Bakı, 2005, 400 s.

19.Xətai Ş.İ. Seçilmiş əsərləri. Çaşıoğlu, 2006, 232 s.
20.Bayramov İ. "Kitabi-Dədə Qorqud"un izi ilə. Bakı, ADPU, 2016, 112 s.
21.Kaşğari M. Divanü lüğat-it-türk. Dörd cilddə. Bakı, "Ozan", 2006.
22.Mirzəzadə H. Azərbaycan dilinin tarixi morfologiyası. Bakı, "Azərtədrisnəşr", 1962, 370 s.
23.Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, "Elm və təhsil", 2017, 538 s.
24.Seyidov Y. Seçilmiş əsərləri. III cild, Bakı, 2007.
25.Hacıyev K. Azərbaycan dilində xüsusi nitq hissələri. Bakı, 1999.
26.Kərimov Ş. Azərbaycan dilinin Çənbərək və Karvansaray şivələri. Bakı, "Nurlan", 2004, 362 s.
27.Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı, "Şərq-Qərb", 2008, 416 s.
28.Nəsimi İ. Seçilmiş əsərləri. I, Bakı, "Lider nəşriyyat", 2004, 336 s.

Севиндж Садыхова

Служебные и особенные части речи, ставшие архаичными для литературного языка, употребляющиеся в говорах западного Азербайджана

Резюмэ

Служебные и особенные части речи, ставшие архаичными для литературного языка, но употребляющиеся в говорах Западного Азербайджана встречаются реже чем другие части речи. Служебные и особенные части речи, ставшие архаичными для литературного языка, но употребляющиеся в говорах Западного Азербайджана немногочисленны. К частям речи этого типа относятся «*yol, gəz, kərə, qat, ayrı, yana, di, ha, buy*» и др. Эти служебные и особенные части речи встречаются в классических художественных произведениях Азербайджанского литературного языка. Но эти служебные и особенные части речи постепенно потеряли употребление в литературном языке. Остались в некоторых диалектах и говорах, в том числе и в говорах Западного Азербайджана. Употребление этих частей речи в литературном языке продолжалось примерно до середины XVIII века. В конце XVIII и в начале XIX века они постепенно вышли из употребления литературного языка. Эти местоимения встречаются в «Китаби-Деде Коркут», в произведениях И.Насими, Ш.И.Хатайи, М.Фюзули и др.

Sevinj Sadigova

Auxiliary and specially part of speech which used in accents of western azerbaijan became archaic literary language

Summary

Auxiliary and specially part of speech which became archaic for literary language but used in accents of Western Azerbaijan are less common than the other parts of speech. Auxiliary and specially part of speech which became archaic for literary language but used in accents of Western Azerbaijan are few. Auxiliary and specially part of speech of this type include "*yol, gəz, kərə, qat, ayrı, yana, di, ha, buy"* and ect. This auxiliary and specially part of speech found in the classical literature of Azerbaijan literary language. But is this auxiliary and specially part of speech qradually lost the use of literary language. And remained in some dialects and accents, also in accents of Western Azerbaijan. Using of this Auxiliary and specially part of speech in literary language contuniud till middle of XVIII century. In end of XVIII and begining of XX century gradually fell into dissuse of literary language. This auxiliary and specially part of speech are found in "Kitabi-Dede Korkut" and in the works of I.Nasimi, Sh.I.Khatayi, M.Fuzuli and others.

Rəyçi: Buludxan Xəlilov
Professor

LALƏ ƏLİQULİYEVA
Filologiya elmləri namizədi, dosent
ADU
aliquliyeva@bk.ru

AZƏRBAYCAN VƏ ƏRƏB DİLLƏRİNDƏ FELİ SİFƏT KOMPONENTLİ FELİ BİRLƏŞMƏLƏRİN SPESİFİK ƏLAMƏTLƏRİ

Açar sözlər: Feli birləşmələr, feli siət tərkibləri, özəl xüsusiyyətlər, qrammatik forma, məna və məzmun xüsiyyətləri.
Key words: verbal combinations, participial constructions, private features, grammatical form, meaningful and contentful features.
Ключевые слова: причастные обороты, глагольные соединения, специфические особенности, грамматическая форма, особенности значения и содержания.

İstər qrammatik, istərsə də semantik baxımdan zəngin və rəngarəng özəlliklərə malik olan feli birləşmələr tədqiqatın məqsədindən və tədqiq olunan dilin xüsusiyyətlərindən asılı olaraq müxtəlif cəhətlərdən təsnif oluna bilər. Felin şəxssiz formaları da fellər kimi ətraflarına çoxlu söz toplayaraq onlarla sintaktik əlaqələr vasitəsilə tərkib əmələ gətirirlər. Feli birləşmələrin hər biri bir sintaqmın komponenti olaraq bütövlükdə cümlənin bir mürəkkəb üzvü kimi çıxış edir. Feli birləşmələrin əsas tərəfi felin şəxssiz formaları olan feli sifət, feli bağlama və məsdərlərdən ibarətdir. Məsələn, "insanı düşündürən, əlləri əsən, şəhəri dolaşdıqca, göylərə baxdıqca, tələbəni dinləmək, körpəni güldürmək" və s. "Əsas tərəfi – tabe edən sözü fellərdən (feli sifət, feli bağlama və ya məsdərlərdən) ibarət olan birləşmələrə feli birləşmələr deyilir" [2, s. 55]

Feli birləşmələrin asılı tərəfləri mütəlif nitq hissələri ilə ifadə olunur. Bu nitq hissələrinin forma baxımından müxtəlifliyi, özünəməxsus xüsusiyyətləri birləşmənin mahiyyətini, komponentlərinin münasibətini müəyyənləşdirmək üçün mühüm əhəmiyyətə malikdir. Buna görə də feli birləşmələrin təsnifində onların əsas tərəfini nəzərə almaqla yanaşı, onları asılı tərəfə görə də qruplaşdırmaq lazımdır.

Adlarla fellərin (felin şəxssiz formaları) birləşməsindən əmələ gələn feli birləşmələr həm forma variantlarının, həm də məna növlərinin çoxluğuna görə feli birləşmələrin əsasında dayanır, ona görə də onlar daha çox bu əsasda öyrənilir və bu aspektdə təsrif olunur.

Adlarla ifadə olunan feli birləşmələrin əsas tərəfi yalnız felin şəxssiz formalarından ibarət olsa da asılı tərəfdə ad qruplu sözlərdən ibarət müxtəlif

nitq hissələri iştirak edir.Feli birləşmələrin bu növünün həm forma, həm də mənaca bir sıra fərqli xüsusiyyətləri olsa da onları birləşdirən çoxlu ümumi cəhətlər də vardır.

Asılı tərəfi adlarla ifadə olunan feli birləşmələrdə adlar adı altında substantiv xüsusiyyətli sözlər birləşrir. Bu sözlər ismin bu və ya digər halında duraraq müxtəlif münasibətlər ifadə edir. Odur ki, bu növ feli birləşmələrin mahiyyətini və onların məna variantlarını müəyyənləşdirmək üçün onları məhz ismin hal kateqoriyası əsasında təsnif etmək əhəmiyyətlidir.

Azərbaycan dilində adlarla fellərdən əmələ gələn feli birləşmələr olduqca geniş yayılmış və burada asılı tərəf yiyəlik haldan başqa ismin bütün hallarında iştirak edir.

Müasir Azərbaycan dilində adlıq hallı feli birləşmələr üstünlük təşkil edir. Asılı tərəf adlıq halda olunca komponentlər arasında subyekt əlaqəsi yaranmış olur. Bir qrup mütəxəssislərin fikrinə görə bütün feli birləşmələr deyil, yalnız ayrıca subyekti-mübtədası olan birləşmələri budaq cümlə hesab etmək olar. Məsələn, " O, oxuyan kitabı mən artıq oxumuşam." cümləsindəki "O, oxuyan" birləşməsində subyekt - mübtəda olduğundan həmin cümlə təyin budaq cümləli tabeli mürəkkəb cümlədir. Lakin digər alimlər isə bu fikri təkzib etmişlər. Onların fikrinə görə, feli tərkibləri heç bir halda budaq cümlə hesab etmək olmaz. Yəni tərkibindən və həçmindən asılı olmayaraq feli sifət, feli bağlama və məsdər tərkibləri mürəkkəb cümlə üzvü olmaqdan başqa bir funksiya ifadə edə bilməz. Onlar gəldikləri qənaəti belə izah edirlər ki, feli tərkiblər bir predikat kimi feli xəbərin funksiyalarını icra edə bilmədiklərindən budaq cümlənin əsas komponenti hesab edilə bilməzlər.

Azərbaycan dilində asılı tərəfi adlıq halda olan feli birləşmələrin əmələ gəlməsində feli sifətlərin daha çox " -an[2]" şəkilçili növünə rast gəlinir. Məsələn: "Həm sən deyən oldu, həm də mən deyən." Bir sıra hallarda isə " –dığım" şəkilçili növündən də istifadə edilir. Məsələn: " Sən vurduğun yaranın izi hələ də qalmaqdadır."

Feli birləşmələrin bu növünün əsas xüsusiyyətlərindən biri də onun komponentləri sırasında bir sıra başqa sözlərin işlədilə bilməsidir. Məsələn: " Sən gedən vaxt – sən həmin gün gedən vaxt – sən həmin gün səhər tezdən gedən vaxt – sən hər gün səhər tezdən işə gedən vaxt". Verilmiş nümunədən də görünür ki, komponentlər arasına əlavə sözlərin artırılması mənanın konkretləşməsinə xidmət edir və birləşmənin əsas tərəfinə aid olaraq onu izah edir. " Adlıq hallı feli birləşmələrin tərəfləri arasındakı əlaqə mənaca əsasən işlə iş görən arasındakı əlaqədən ibarətdir. Birləşmədəki sözlər arasındakı olan müxtəlif məna xüsusiyyətləri həmin sözlərin qrammatik əlaqələrinə də təsir edir" [4, s. 237]. Lakin bu onun ümumi xüsusiyyətini dəyişdirə bilmir. Əlavə sözlər sayəsində birləşmə nə qədər genişlənsə,

mürəkkəbləşsə də yenə də onun tərəfləri cümlə içərisində bir-birindən ayrılıqda deyil, cümlənin bir mürəkkəb üzvü kimi götürülür.

Azərbaycan dilində feli sifət komponentli feli birləşmələrdə əsas tərəf qarşıdakı sözü yönlük halda idarə edərək obyekt və relyativ əlaqəli birləşmə yaradır. Məsələn, " dostuna güvənən"(obyektiv əlaqə), " tavana çıxan"(relyativ əlaqə). Qeyd etmək lazımdır ki, təsirlik hallı feli birləşmələrdən fərqli olaraq yönlük hallı feli birləşmələrdə obyekt əlaqəsi çox zəif şəkildə özünü büruzə verir. Yəni, "...hərəkət obyekti əhatə edə bilmir, burada sadəcə olaraq, obyektə doğru meyl, istiqamət ifadə olunur. Birləşmələrin birinci tərəfinin ifadə etdiyi məkan sahəsi kiçildikcə, onun əhatəsi daraldıqca məkan mənasından obyektə doğru meyl əmələ gəlir və bu, nəhayət, məkan çalarına malik olan obyektə çevrilir". [1, s. 75] Yönlük hallı feli birləşmələrdə komponetlərin müxtəlif mənalara malik geniş söz çevrəsinə sahib olması məna əlaqələrinin rəngarəngliyini yaradır. Bu məna zənginliyi isə yönlük halın həm qrammatik, həm də məkani hallara məxsus xüsusiyyətlərə malik olmasından irəli gəlir. Yönlük hallı birləşmələrdə əsas komponent müxtəlif mənalı fel qruplarından yaranmış feli sifətlərdən ibarət olur: 1) Hərəkət felləri, məsələn, "evə qayıdan, ağaca çıxan, kəmdə yaxınlaşan , məktəbə gedən" və s. 2) İş felləri, məsələn, " evə aparan, işçiyə verən, uşağa mane olan, müştəriyə satan" və s. 3) Nitq bildirənlər, məsələn, " sənə deyən, mənə söyləyən, qıza yalvaran, bizə xəbər verən, sizə bildirən" və s. 4) Görmə və eşitmə prosesi ilə bağlı olan fellər, məsələn, " mənə baxan, filmə tamaşa edən, qıza göz qoyan, uşağa göz dikən" və s. 5) Təfəkkürlə və başqa hissi hallarla bağlı olanlar, məsələn, " bu məqama diqqət edən, məsələyə inanan, olanlara təəccüb edən" və s. 6) Hal-vəziyyət bildirənlər, məsələn, " çiçəklərə bənzəyən, anasına meyl edən, şəhərə çevrilən, əsgərə oxşayan" və s.

Yönlük hallı feli sifət birləşmələrində əsas tərəf həm təsirli, həm də təsirsiz fellərdən ibarət olur. Təsirli fellər ilk növbədə təsirlik halda olan müstəqil obyekt tələb etdiyindən bu birləşmələrdə yönlük hallı isimlərlə yanaşı təsirlik halda olan isimlərin iştirakı da əksər hallarda zəruri olur. Məsələn: "Kitabı Əhmədə verən tələbə indi aşağıdadır."

Təsirlik hallı feli sifət birləmələrində müstəqim obyekt kimi çıxış edən asılı tərəf əsas tərəfin tələbi ilə təsirlik halda olur.məsələn, " kitabı oxuyan", "müəllimi dinləyən", " əsəri yazan" və s. " Azərbaycan dilində bir sıra fellər bəzi sözləri həm təsirlik, həm də yönlük halda tələb edə bilir" [2,. s. 59]. Məsələn: " dərsi başlayan – dərsə başlayan" və s.

Təsirlik hallı feli birləşmələr müəyyənlik və qeyri müəyyənlik bildirmək üzrə iki növə ayrılırlar. Bu bir sıra spesifik cəhətlər onları bir-birindən ayırır. Belə ki, müəyyənlik bildirənlərdə müəyyən obyekt ifadə olunur və əlamət olaraq müvafiq şəkilçi ilə göstərilir və beləliklə birləşmənin ümumi məzmunu da müəyyənlik bildirir. Birləşmənin qeyri müəyyənlik

bildirən növü isə əksinə asılı tərəf qeyri müəyyənlik, ümumilik bildirir və heç bir şəkilçi qəbul etmir. Məsələn: " yeməyi bişirən qadın – yemək bişirən qadın".

Asılı tərəfi müəyyən təsirlik halda olan feli sifət komponentli birləşmələr öz işlənmə dairəsinə və ifadə vasitələrinə görə qeyri-müəyyən təsirlik hallılardan fərqlənir. Belə ki, müəyyənlik bildirən feli birləşmələrin asılı tərəfi həm xüsusi, həm də ümumi isimlərdən ibarət olur, tərəflər bir birindən ayrı işlənə bilir və komponentlər arasına əlavə sözlər daxil olaraq əsas tərəfin bu və ya digər cəhətdən aydınlaşdırılmasına xidmət edir. Bu xüsusiyyət onların daxili mahiyyəti ilə bağlı olub tam mənasında sintaktik birləşmə olmalarından irəli gəlir. Qeyri müəyyənlik bildirən birləşmələr isə bu xüsusiyyətlərdən məhrumdur. Çünki, onların leksik müstəqilliyi tam deyil, burada sözlər sıx birləşərək bir məfhumu bildirir. Məsələn: " Məqaləni yüksək səviyyədə yazan tələbə mükafatlandırılacaq. – İçərinizdə məqalə yazan varmı?"

Feli sifətlər həmçinin yerlik halda olan isimlərlə birləşərək obyek – relyativ əlaqəli birləşmələr də əmələ gətirə bilir. Məsələn: " Mustafada nəzərə çarpan dəyişikliklər", " məndə baş qaldıran hisslər" (obyekt əlaqəsi), "məktəbdə oxuyan şagird", "evdə çalışan yardımcı" (relyativ əlaqə). Bu tip feli birləşmələr öz forması və spesifik əlamətləri ilə fərqlənirlər. Burada əsas tərəf semantik mənsubiyyətindən və leksik mənasından asılı olmayaraq bütün fellərlə ifadə oluna bilir. Asılı tərəf isə ifadə olunan hərəkətin məkanını bildirir. Yer, məkan əlaqəsinin aparıcı məna kəsb etdiyi bu birləşmələrdə məkan anlayışı ilə müvafiq mənalı feli sifətin qrammatik tələbi üst-üstə düşür və tərəflər arasında semantik bağlılıq qüvvətlənir.

Çıxışlıq hallı feli sifət birləşmələri də yerlik hallı birləşmlərdə olduğu kimi obyekt və relyativ əlaqəli birləşmələrdir. Məsələn, " Bakıdan gələn qatar", " dərədən axan çay" (relyativ), " həyatdan küsən insan", " daşdan tikilən ev"(obyekt) və s.

Çıxışlıq hallı feli sifət tərkibli birləşmələrdə əsas tərəf təsirli və təsirsiz olmasından, dinamik və statik xüsusiyyətlərindən, mənaca bu və ya digər növə düşməsindən asılı olmayaraq müxtəlif fel qrupları ilə ifadə oluna bilər. Bu feli birləşmələrdə də məkan əlaqəsi əsas yer tutur, asılı tərəf məkan bildirən sözlərlə ifadə olunanraq hərəkətin başlandığı yeri bildirir. Məsələn: " Dərədən axan çay burada gurlaşır."

Azərbayca dilində adlarla feli sifətlərin birləşməsindən yaranan feli birləşmələrin hal sisteminə görə qruplaşdırılması bu dilin spesifik xüsusiyyətlərindən irəli gəlir. Lakin digər dillərdə hal kateqoriyası müxtəlif səviyyələrdə olduğundan onlarda da eyni dərəcədə qruplaşdırma aparmaq olmur. Bəzi dillərdə isə bu ümumiyyətlə mümkün deyil. Başqa dillərdə müxtəlif hallar siyahısı mövcuddur. Məsələn, ingilis dilində iki, ərəb dilində

üç, rus dilində altı hal vardır. Bu zaman komponentlərin əlaqələnməsində və birləşmələrin formalaşmasında digər qrammatik vasitələrdən, məsələn, ingilis dilində söz önlərindən, ərəb dilində isə ön qoşmalardan istifadə olunur. Məsələn, "القادمون من بغداد" – " Bağdaddan gələnlər", " الذاهِبُ إلى المَدْرَسة" – " məktəbə gedən" və s.

Feli söz birləşmələrin adlarla ifadə olunan növlərindən başqa asılı tərəfinin felin şəxssiz formalarında, zərflərdən və qoşmalı sözlərdən ibarət növləri də vardır. Bu tip feli sifət birləşmələrində komponentlər arasında yanaşma, idarə əlaqəlri olur. Məsələn, " gülə-gülə danışan", " durmadan sual verən", " yatmaq istəyən" (yanaşma) " oxumağa gedən" (idarə), "deyilənə əməl edən", " lazım olanları hazırlayan" (idarə) ," irəli addımlayan", " keçmişə qayıdan", ucadan oxuyan" , " dincəlmək üçün gedən", " pişik kimi dırmanan" və s.

Feli birləşmələrdən biri olan feli sifət tərkibləri istər Azərbaycan istərsə də ərəb dillərində digər dillərdə olduğu kimi özünəməxsus xüsusiyyətlərə malik bir sistemə malikdir.

Azərbaycan dilinin bütün feli sifət şəkilçiləri tərkib yarada bilir və "-dıq[4] + mənsubiyyət şəkilçisi" formalı feli sifət tərkiblərindən başqa bütün tərkiblərin ayrıca subyekti olur. Məsələn: Ot bitməyən səhralarda şəhərlər saldıq; Yaşlı qadının qırışmış üzü, əsən əlləri gözlərimin qarşısından getmir. və s.

Feli sifət komponentli feli birləşmələr cümlədə feli sifət tərkibləri statusunu qazanaraq sintaktik cəhətdən müxtəlif funksiyalar icra edir. Feli sifət tərkiblərinin əsas sintaktik vəzifəsi təyin olsa da onların subs-tanyivləşərək əmələ gətirdikləri tərkiblər cümlədə mübtəda, xəbər,tamamlıq, bir sıra başqa sözlərin köməyi ilə isə zərflik vəzifəsində ola bilirlər. Məsələn:

Bu gün sərhədlərdən qayıdan bir vətən oğlunun əlini sıxdım.(təyin)

Öz qədrini bilən gərək özgənin də qədrini bilsin. (mübtəda)

Məsələ siz bildiyiniz kimi deyil. (xəbər)

Axşam evə gəlib işdə baş verənləri danışdı. (tamamlıq)

Bu il onlar hələ yaz açlandan bəri bir növ küsülü kimi dolanırdılar. (zərflik)

Ərəb ədəbi dilində də, ümumiyyətlə feli birləşmələr, xüsusən də feli sifət birləşmələri çox geniş işlənmə dairəsinə mənsubdur.

Feli tərkiblər söz birləşmələrinin bir növünü təşkil edir. Mənsub olduğu xarakterik xüsusiyyətlərdən ən ümdəsi onların adlarından da məlum olduğu kimi feil və feil törəmələrindən birinin bir və ya bir neçə sözü ətrafına toplayaraq özündən asılı vəziyyətə salan birləşmələrdən biri olmasıdır. Əslində feli tərkiblər də ümumi qayda üzrə sözlərin bu və ya digər qrammatik əlaqə vasitəsilə birləşməsindən düzəlir. Fərq yalnız birləşmələrdəki aparıcı, əsas komponentin – mərkəz üzvün feildən və ya feil törəməsindən ibarət olmasındandır. "Başqa sözlə desək, ümumiyyətlə, söz

birləşməsi ayrı-ayrı kiçik dairəciklərdən təşkil olunmuş geniş bir dairədirsə, feli tərkiblər həmin ayrı-ayrı dairəciklərdən biri kimi təsəvvür edilməlidir. Feli tərkiblərdən ibarət olan dairəciyin özü isə üç kiçik dairəcikdən ibarət olub, feli sifət tərkibləri, feli bağlama tərkibləri və məsdər tərkibləri adlarını daşıyırlar"[3, s. 44].

Feli sifət tərkiblərinin formal əlaməti onların komponentlərindən birinin, həm də əsas, aparıcı komponentinin feli sifətdən ibarət olması ilə müəyyən edilir. Məsələn, bunu aşagıdakı nümunələr üzrə izah etmək olar:

الشخص الكاتب هذه الرسالة هو من طلابنا. – Bu məktubu yazan şəxs bizim tələbələrdəndir.

إستقبلنا الضيوف القادمون من بغداد و القاهرة في المطار. – Bağdaddan və Qahirədən gələn gonaqları aeraportda qarşıladıq.

لقد قرأت عدة روايات مترجمة من العربية إلى الاذربيجانية. - Ərəb dilindən Azərbaycan dilinə tərcümə olunmuş bir neçə əsər oxumuşam.

Bu cümlələrdəki " الكاتب هذه الرسالة" – "bu məktubu yazan", " القادمون من مترجمة من العربية إلى " ,"بغداد و القاهرة" – "Bağdaddan və Qahirədən gələn", " الاذربيجانية " – "ərəb dilindən Azərbaycan dilinə tərcümə olunmuş" tərkiblərin hamısında feli sifət mərkəz üzv kimi ətrafına tabe, asılı sözləri toplamış və prepozitiv şəkildə işlənərək əsas idarəedici tərəf kimi çıxış etmişdir. Feli sifətin bu xüsusiyyəti onun feil sisteminə daxil olduğunu, feli birləşmələrdə əsas söz kimi çıxış etdiyini göstərən amillərdən biridir.

Ərəb dilində eyni feli sifət həm feli sifət komponentli birləşmələr, həm də substantivləşərək ismi birləşmə əmələ gətirə bilir. lakin bu xüsusiyyət bütün feli sifətlərə deyil, yalnız keçid mərhələsində işlənənlərə aiddir. Qeyd olunduğu kimi keçid mərhələsində işlənən feli sifətlərin substantivləşməsi kontekstual xarakter daşıyır. Məhz buna görə də elə birləşmələrə təsadüf edilir ki, onların komponentləri zahirən eyni tipli sözlərlə ifadə olunmasına, eyni tipli qrammatik əlaqələrlə bağlanmasına və eyni quruluş modeli əsasında formalaşmalarına baxmayaraq, bu birləşmələri qrammatik anlamda eyni söz birləşələri hesab etmək, eyni adla – istilahla adlandırmaq doğru olmaz. Məsələn aşağıdakı cümlələri müqayisə edək:

الشخص الكاتب هذه الرسالة هو من طلابنا. – Bu məktubu yazan şəxs bizim tələbələrdəndir.

كاتب هذا البلد شهير عبر كل العالم. – Bu ölkənin yazıçısı bütün dünyada məşhurdur.

Göründüyü kimi birinci cümlədə "الكاتب هذه الرسالة" - " bu məktubu yazan " birləşməsindəki "الكاتب" - "yazan" feli sifəti özündən sonra gələn " هذه الرسالة" - " bu məktubu" ifadəsi ilə tamamlıq-obyekt əlaqəsi yaradaraq feli sifət birləşməsi əmələ gətirmişdir. İkinci cümlədə isə "كاتب هذا البلد" – "bu ölkənin yazıçısı" birləşməsində substantivləşərək "كاتب" - " yazıçı" mənasını

verən eyni feli sifət özündən sonra gələn “هذا البلد” - “bu ölkənin” ifadəsi ilə təyin-izafət əlaqəsində birləşmişdir.

Azərbaycan dilində feli birləşmələr onları yaradan əsas komponentlərin adı ilə konkretləşdirilir, yəni, feli sifətlərin yaratdığı birləşmə feli sifət tərkibləri, feli fağlamanın yaratdığı birləşmə tərkibləri, məsdərlərin yaratdığı birləşmələr isə məsdər tərkibləri adlanır. Rus dilçiliyində də adlandırma eyni ilə bu səpkidə gedir; “ прчастный оборот”, “деепрчастный оборот”, “инфинитивный оборот”.

Akademik V.V. Vinoqradov vahid bir mürəkkəb məfhumu ifadə edən əşya, hərəkət, əlamət və s. bildirən iki və daha artıq müstəqil sözün sintaktik və semantik cəhətdən bir bütöv şəkilndə birləşməsini söz birləşməsi adlandırır [6, s. 10].

Feli sifət tərkibləri söz birləşmələrinin xüsusi bir növü olmaqla yanaşı, həm formaca, həm də məna və məzmunca bir sıra xarakterik xüsusiyyətlərə malik olduğu üçün o istər rus dilçiliyində, istərsə də Azərbaycan dilçiliyində məhz söz birləşməsi deyil, tərkiblər adlandırılmış və qeyd edildiyi kimi, aparıcı komponentin adı ilə konkretləşdirilmişdir.

Qeyd etdiyimiz kimi, feli sifətlər bir sıra məna və məzmun xüsusiyyətlərinə də malikdir. Feli sifət tərkiblərində bu və ya digər fikir müəyyən dərəcədə öz ifadəsini tapa bilir; müəəyən hərəkət anlayışı hiss olunur. Məsələn:

التِلْميذُ الذاهِبُ إلى المَدْرَسةِ – (dərsə gedən şagird) tərkibindən şagirdə mənsub hərəkət halının gedən vəziyyətdə olması bilinir. Eyni hərəkəti feillə ifadə edərək tərkibi təyin budaq cümləsinə çevirmiş olsaq bu cür formalaşar:

التِلْميذُ الذي يذهب إلى المَدْرَسةِ – (şagird hansı ki gedir dərsə)

Ərəb dilinin qrammatikasını tədqiq edən Bolotov təyin budaq cümləsindəki fellərin feli sifətlə tərkib şəklində əvəz olunaraq baş cümləyə birləşməsi hadisəsini “atraksiya” və ya “свернутый” (bükülmüş) üsul adlandırır:

مساء امس إنتهت في جنيف المفاوضات التي ورد ذكرها. (təyin budaq cümləsi) - مساء امس إنتهت في جنيف المفاوضات الوارد ذكرها. (feli sifət tərkibi) – Dünən axşam Cenevrədə əvvəlcədən qeyd olunmuş danışıqlar başa çatmışdır.

Göründüyü kimi “الوارد” feli sifəti “ورد” felini əvəz etmişdir. [5, s. 211]

Müəllifin fikrincə bu tip cümlələrə daha çox ictimai-siyasi və elmi-texniki mətnlərdə rast gəlinir. Məsələn:

سيحضر المؤتمر المقرر عقده في السنة القادمة – O, keçirilməsi gələn il üçün qərarlaşdırılmış konfransda iştirak edəcək [5, s. 211].

Şaqal da eyni tip cümlələri sinonim cümlələr kimi qeyd edir [6, s. 470]. O eyni zamanda feli sifət tərkiblərinin feli bağlama tərkibləri kimi tərcümə olundugunu da qeyd edir. Məsələn:

جاء هناك الطلاب طالبين جلاء القوات. – tələbələr oraya qoşunların çüxmasını tələb edərək gəldilər. [6, s. 471]

Müasir ərəb dilinin feli sifətləri feilin, sifətin, zərfin və Azərbaycan dilində feli bağlamaların xüsusiyyətlərini özündə birləşdirdiyi üçün onun cümlədəki sintaktik funksiyaları da müxtəlifdir.O, təyin, zərflik, predikativ və s. vəzifələrdə çıxış edə bilir.Feli sifət tərkiblərini araşdırarkən məhz onu yaradan üzvün bilavasitə özünə aid daxili incəliklərini, onun feillik və sifətlik xüsusiyyətlərini nə dərəcədə qoruyub saxlamasını son dərəcədə dəqiq şəkildə nəzərə almaq lazımdır.

Istifadə olunmuş ədəbiyyat siyahısı

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis.Bakı, IV hissə, 1972
2. Kazımov Q. Ş. Müsir Azərbaycan dili .Sintaksis. “Aspoliqraf LTD” Bakı – 2004, 494 səh.
3. Rüstəmova T.Z. Fars dilində feli sifət və feli sifət tərkibləri. (dərs vəsaiti), ADU –nun nəşri, Bakı-1977, 91 səh.
4. Vəliyeva N. Müxtəlifsistemli dillərdə feli birləşmələrin tipoloji təhlili. Dərs vəsaiti, “ Avropa” nəşriyyatı, Bakı – 2008, 861 səh.
5. Болотов В.Н. Арабский язык. Справочник по грамматике. Москва «Жывой язык» 2009, 224 с.
6. Виноградов В.В. Вопросы изучения словосочетаний . Воросы языкознания, Издательство Академии наук СССР, Москва-1954, № 3, стр.. 3-25
7. Шагаль Б.Э., Мерекин М.Н., Забиров Ф.С.. Учебник арабского языка воениздат 1983, 781 с.

L.Aliguliyeva

Specific features of linking verds with participial components in Arabic and Azerbaijani

Sammary

Verbal compositions that have rich and coloured features, depending on the goal of the research and features of the studied language can be classified from the different sides in terms of either grammar or semantics.. Like verbs, verbals make compositions by gatheting a lot of words around itself by means of sintactic relations with them. Being a component of a sintagm, verbal compositions play the role of a complex member in the entire sentence. The main side of verbal compositons composes the particip-le, the linking verb and the infinitive. Linking verbs and verbal compositions

are definitions of the same fact in different aspekts.Verbal constructions compose one of word combinations. One of their characteristic features, as known with their names, is that they are one of the combinations in which the verb and one of verbal derivatives gather one or more words around themselves. Participial constructions, one of the verbal constructions, like in other languages, have a system possessing specific features. During the research, it is necessary to take into account precisely that how participial constructions maintain their internal colourfulness that creat them, and their verbal and adjectival features.

Л Алигулиева

Специфические особенности глагольных соединений с компонентами причастий в азербайджанском и арабском языках

Резюме

В зависимости от цели исследования и исследования особенностей изучаемого языка глагольные сочетания, обладающие богатым и пестрым своеобразием, как с грамматической, так и с семантической точки зрения могут классифицироваться по разным особенностям. Безличные формы глагола также как и глаголы, собирая вокруг много слов, путем синтаксической связи с ними образуют оборот. Каждое глагольное сочетание, являясь компонентом одной синтагмы, в целом выступает составным членом предложения. Главное слово глагольных сочетаний состоит из причастий, деепричастий и инфинитивов безличной формы глаголов, являющихся безличными формами глагола. Причастные сочетания и обороты означают объяснение разных аспектов одного и того же языкового факта. Причастные обороты это вид словосочетания. Как становится ясно и из основных названий присущих характерных особенностей, это одно из сочетаний глагола, подчиняющее себе окружающие слова. Являясь одним из глагольных сочетаний, причастные обороты как в азербайджанском, так и в арабском языках, как и в языках, обладает своеобразной системой своеобразных особенностей. Исследуя причастные обороты, необходимо исключительно точно учитывать внутренние тонкости, непосредственно касающиеся элемента, создающего его и степень сохранения его отглагольных особенностей и особенностей прилагательного.

Rəyçi: Vasim Məmmədəliyev
Akademik

dosent FƏRİDƏ HÜSEYNOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
"Xarici Dillər 1" kafedrasının müdüri,

YENİ TEXNOLOGİYALARIN TƏHSİL SİSTEMİNDƏKİ ƏHƏMİYYƏTİ

Açar sözlər: təhsil, "flip dərslər", müəllim, video, yenilik, mövzu, mənimsəmə, maraq, təcrübə
Ключевые слова: образование, "флип-уроки", учитель, видео, инновации, тема, мастеринг, интерес, опыт
Keywords: education, "flip lessons", teacher, video, innovation, theme, mastering, curiosity, experience

Hər zaman yeni texnologiyaların yaranması təhsil sistemindən də yan keçməyərək daim ona öz müsbət təsirini göstərməkdədir. Bu baxımdan müasir dövrümüzdə yeni texnologiyaların təlimdə geniş şəkildə tətbiqi, ənənəvi metodları əvəz edərək yeni təlim metod- üsullarının geniş şəkildə istifadə olunmasını tələb edir.

Bu gün bu proses dünya təcrübəsində daha intensiv şəkildə davam edərək 21-ci əsrin yeni kəşflərini təlim vasitəsi kimi auditoriyalara gətirir və onlardan təhsil sistemində çox geniş şəkildə istifadə edilir.

XX əsrin ortalarından başlayaraq maqnitafondan geniş istifadə etməklə xarici dil dərslərində yalniz dinləmə-anlama çalışmalirina üstünlük verilirdi, lingafon kabinetlər yaradılırdı. Sonralar kompyuterlərin əmələ gəlməsi ilə əlaqədar olaraq disklərə yazılmış müxtəlif dərslərdən istifadə olunmağa baslanıldı və bü günkü günə kimi onlardan çox geniş şəkildə istifadə olunur.

Ounu da xatirladaq kı, həmişə yeniliklər birmənalı qarşılanmamış, bir çoxlarının isə hətta tənqid hədəfinə çevrilmişdir.

Şifahi nitqin inkişaf etdirilməsi üçün bu təlim vasitə və üsullarından hal hazırda universitetimizdə də (planşet və noutbuklar vasitəsilə) ingilis dili dərslərində geniş istifadə olunmaqdadır.

Fikrimizcə, bu gün dünya təcrübəsinə inteqrasiya etməkdən ötrü " flip tədris" usullarına keçmək zamanı gəlmişdir. "Flip dərs"lərin təşkili, bu gün Universitetimiz üçün çox mühümdür. Dünya təcrübəsində önəmli yerlərdən birini tutan "flip auditoriya" yəni müəllimin (bir qrup müəllimlərin) yaratdığı video dərslər tədrisin daha maraqlı təşkil olunması üçün nəzərdə tutulur. Həmin video dərslər PPT-lər ilə yanaşı olaraq artıq unuversitetin öz müəllimləri tərəfindən hər bir dərsə uyğun olaraq yaradıla və tələbələrin istifadəsi üçün hər bir müəllimin Unibook səhifəsində də

yerləşdirilə bilər. Bir çox müəllimlər dərslərində müxtəlif video dərslərdən həmişə istifadə ediblər, burada isə müəllimin öz sillabusuna uyğun olaraq özünün yaratdığı videodan söhbət gedir.

Bu video dərslərdən tələbələr təkrar-təkrar istifadə etməklə tədris materialını daha dərindən mənimsəyə bilər. Bu həm müəllimin həm də tələbənin işini yüngülləşdirilməsinə xidmət edir. Beləliklə biz fənnlərimizi tələbələrə həm dərs zamanı, həm də dərsdənkənar vaxtlarda tədris etməklə keyfiyyəti yüksəldə bilərik.

"Xaricı Dillər 1" kafedrası olaraq biz kafedramızada belə video dərslərin nümunəsini eksperiment şəklində telefon vasitəsilə kortəbii olaraq çəkməyə çalışmışıq. Lakin bizim dərslər keyfiyyət baxımından qənaətbəxş sayila bilməz.

Bu aktiv tədris üsulu tələbələrin tədrisə münasıbıtini dəyişir ,marağını artırır, onları dərs zamanı daha aktıv edir və onların dərs materialını mənimsəməsini asanlaşdırır. Beləliklə məşğələ və mühazirələrin əyani şəkildə aparılmasına kömək edir. Tələbə dərs zamanı müəyyən səbəblərə görə tam mənimsəyə bilmədiyi gündəlik materialı evdə müstəqil şəkildə bir daha "Flip dərs"lərin köməyi ilə mənimsəyir və suallarını müəllimə verir. Ev tapşırıqlarını yerinə yetirərkən " Flip dərs"ə təkrar baxaraqç mənimsəmə bilmədiklərini daha dərindən və ətraflı şəkildə anlaya bilir. Muəllim bu videoları öz mövzusuna uyğun olaraq tələbəsinin bilik səviyyəsinə uygun olaraq başa düşülən tərzdə yaratmalıdır. Müəllim onu yaradarkən hansı informasiyanin önəmli olamasına xüsusi fikir vermədir. Bu tədris metodu imtahanlar dövründə də cox böyük önəm daşıyır.

Müəllimim rolu dərsi təşkil etməkdən əvvəl yalniz "Flip dərs"lərin yaradılması ilə bitmir, o həmçinin tələbələri dərs zamanı maraqlandırmaqdan ötrü onu planlı şəkildə təşkil etməkdən ötrü də bir sira tədbirlər görməlidir. Yəni bu zaman yalniz "Flip dərs"lər vasitəsilə dərsin məzmununu tələbəyə çatdırmaq kifayət deyildir. Burada tələbənin rolunu, mənimsəmə səviyyəsini də müəyyənləşdirmək önəmli yürlərdən birini tutmalıdır. Məsələn tələbə kitab oxuduqdan sonra hansı növ çalışmalarla həmin dərs bərkidilirdisə, yenə də həmin növ çalışmalara üz tutmaq lazım gəlir.Sözsüz ki, hər bir tələbənin dərsi mənimsəməsi onun öz bilik və bacarıqlarından asılı olaraq müxtəlif şəkildə baş verir, lakin "Flip dərs"lər tələbələrin dərsə marağını artıraraq onlarda öyrənmək həvəsini artırır. Müəllimin diqər rolu yenə də tələbənin biliyini, materialın mənimsəmə dərəcəsini düzgün qiymətləndirmək, tələbələrin dərs zamanı passivliyinin qarşısını almaq və onları dərsin məzmununa uyğun olaraq müxtəlif növ tapşırıqlar vasitəsilə fəallaşdırmaqdır.

Yeni texnologiyaların tədrisdə rolu böyük olsa da müəllimin rolu həmişəki kimi əvəzsisdir. Müəllim bu vasitələrdən dərsin maraqlı və effektiv

keçirilməsi üçün pedaqoji və metodoloji biliklərinə əsaslanaraq ümumi prinsiplər əsasında dərslərini əvvəlcədən hazırlayır, istifadə edir, lakin "Flip dərs"lərin hazirlanması, tələbələrin marağının artırılması, hansı şəkildə istifadə olunması, səmərəliliyin artırılması, tələbələrin tədrisdə fəallığının artırılması, biliklərinin qiymətləndiril-məsi tələbələrin bilik xüsusiyyətləri nəzərə alınmaqla, və s. bu kimi vəzifələr nəzərə alınmaqla müəllim tərəfindən həyata keçirilir. "Flip dərs"lər daim məqsədəyönlü şəkildə, ardıcıl olaraq hazirlanmalı və mərhələlərlə inkişaf etdirilməlidir.

Bəzən ən təcrübəli müəllimlər belə bu prosesdən qorxduqları üçün, həyacan və stresin qarşısını almaqdan ötrü təlimlər keçirilməlidir və onlar tədricən bu işə hazırlaşdırılmalıdırlar. Çünki bütün müəllimlər bu iş növünə hazir deyillər və bu mərhələli şəkildə həyata keçirilməlidir.

Başlanğıc mərhələrində təcrübəsizlikdən irəli gələrək bəzi məsələlər ortaya çıxır.

- İlk növbədə hər bir fənn üzrə onların necə yaradılması üzərində işləmək üçün işçi qrup yaratmaq və dünya təcrübəsinə əsaslanmaq lazımdlr

- İşçi qruplar özləri də təlimlər keçməli və bu iş növünə hazırlaşdırılmali-dirlar
- Onların hər bir fənn üzrə yaradılması planlaşdırılmalı və strategiyası işlənilməlidir və tədrisdə geniş istifadə olunmalıdır

- Flip dırslərin modeli planlaşdirilmalıdır
- Video dərslərin aydln şəkildə həm səs baxımından, həm də keyfiyyət baxımından qənaətbəxş olması üçün müasir avadanliqlar alınmalıdır
- Auditoriyalar video dərslər üçün təchiz olunmalıdır
- Sillabuslarda video-dərsin necə təşkil olunması, tədris materialı və onun məqsədi tam aydın olmalıdır

- Müəllimlər səlis presentasiya etmək üçün hazirlaşdırılmalıdır
- İlk mərhələlərdə ən təcrübəli müəllimlərin dərsləri video şəklində çəkilə bilər və digər müəllimlər də dərslərində bundan istifadə edə bilərlər

"Flip dərs" lər zamanı, (başqa fənləri də nəzərdə tuturuq) labaratoriyalarda təcrübədən keçirmək mümkün olmayan sinaqlar belə video dərslər şəklində tələbəyə öyrədilə bilər. Və ya müəllim bir dəfə etdiyi sinağı videoya çəkərək bir daha onu təkrar etmir, artıq öz videosu vasitəsilə tələbəsinə öyrədir. Bu vaxtın qənaət edilməsi baxımından belə sərfəlidir.

Tələbələr üçün mənimsəmə asanlaşdığı üçün və onlar bir çox suallarına əyani olaraq cavab tapdıqları üçün müəllimin işi sadələşir və müəllimlər dərslərdə öz vaxtlarına qənaət etmiş olurlar.

İnterneti olmayan tələbələr " Flip dərs" ləri fləşkarta yazib Universitetin labaratoriyalarında və ya kitabxanasında istifadə edə bilərlər.

Ədəbiyyat:

1.Essentials Teaching English as a second language Stephen S. Welth. 200
2. Business Communication. John Thill . 2008
3. Business Research. Alvin C.Burns. 2011

4. English for Automation Manufacturing Processes Students .Veliyeva Y.A. 2009
5. Словарь-минимум по английскому языку для средней школы. З.М.Цветкова, 1955
6. Oxford student's dictionary of current English, A.S.Hornby, 1984

Ф.Гусейнова

Роль новых технологий в системе образования

Резюме

Чтобы сделать уроки интересными и эффективными, учителям необходимо готовить «флип уроки» на основе общих педагогических и методологических знаний, и использовать их, повышая интерес студентов к уроку.

А как эффективно использовать «флип уроки» и улучшать знания учащихся? «Флип-уроки» всегда должны готовиться последовательно и разрабатываться шаг за шагом.

Использование компьютеров в обучении открывает возможности, недостижимые для других традиционных средств. Но при всем этом компьютер есть и всегда останется лишь базой данных, и чтобы извлечь из него знания, как из любой другой базы, необходим учитель. И роль учителя будет в основном направлена на то, чтобы дать обучаемым необходимые опорные знания, с помощью которых на уровне своей реальной подготовленности ученик сможет развивать их с использованием компьютера.

F.Huseynova

The role of new technologies in education system

Summary

The teacher prepares and uses the lessons on the basis of general principles which are mainly based on the pedagogical and methodological knowledge of the teacher. The ability to make the lessons interesting and effective is very important nowadays.

In order to increase the intserest of the students it is important to prepare the Flip Lessons, to use them effectively, and increase student' engagement, which should be based on the students' knowledge of the subject.

And it is done by the teacher taking into account **different** tasks. "Flip Lessons" should be consistently prepared, developed step-by-step, and used in and out of the lessons.

The use of computers in training opens up opportunities that are unattainable for other traditional means. And the role of the teacher will be mainly aimed at giving the students the necessary basic knowledge with the help of which, at the level of their real preparedness, the student will be able to develop them using a computer.

Rəyçi: **Gülnarə Əhmədova**
filologiya üzrə fəlsəfə doktoru, dosent

YADİGAR ƏLİYEV
filologiya üzrə elmlər doktoru
yadigar_aliyev@mail.ru

QƏDİM TÜRK RUNİK YAZILI ABİDƏLƏRİNDƏ SAYLARIN FUNKSİONAL XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: say, miqdar sayları, numerativ sözlər, toplu say
Key words: numeral, cardinal numerals, numerical words, bulk numeral
Ключевые слова: числительные, количественные числительные, нумеративные слова, собирательные числиельные

Qədim türk yazılı abidələrində saylar kiçik fonetik dəyişikliklə müasir türk dillərində də işlənir:

bir (“bir”, BxŞ.30, KltŞm.7)
eki (“iki”, BxŞ. 34, 38)
üç (“üç”, BxŞ.32, kltŞ.4)
tört (“dörd”, BxŞ.30)
beş (“beş”, BxŞ.25) // bis (KltŞ.31, KltŞ.18) //biş (KltŞm.4)
altı (“altı”, BxŞ.28, KltŞm.2)
yeti (“yeddi”, KltŞ.13) / yiti (KltŞ.30)
səkiz (“səkgiz”, KltŞ.16)
tokuz (“doqquz”, KltŞm.4, 9)
on (KltŞm.7, Ton. I daş, Şm.26)
yegirmi (“iyirmi”, MçC.35), yigirmi (KltC-Ş)
otuz (“otuz”, KltC.1)
kırk (“qırx”, KltŞm-Ş)
əlig (“əlli”, KltŞ.8, MçŞm.4)
altmış (“altmış”, Uyuk Tarlık,1)
yetmiş (“yetrmiş”, KltŞ.12)
səkkiz on (“səksən”, KçQ.3)
yüz (“yüz”, KltŞ.33)
bis yüz (“beş yüz”, BxC.11)
altı yüz (“altı yüz”, Kemçik Çırğak, ön, 4)
yeti yüz (“yeddi yüz”, Ton. I daş, Q. 4)
bin (“min”, MçŞ.21), min (“min”, Irkb. XXXII)
bin səkiz (Minusinsk muzeyindən bir abidə, III tərəf)
eki bin (“iki min”, Ton. I daş, Ş. 1)
tört bin (“dörd min”, Tele, 3)
altı bin (“altı min”, Ton. I daş, C.16)
yeti bin (“yeddi min”, Açura, sol, 8)

tümən (“on min”, MçŞ,21, KçQ.10)
bir tümən (“on min”, KltŞm.12)
üç tümən (“otuz min”, BxC.8)
tört tümən (“qırx min”, BxC.8)
on tümən (“yüz min”, Ton. II daş, Q.36).

Qədim türk yazılı abidələrinin dilində miqdar sayları konkret kəmiyyətlə yanaşı, etnonimlərin tərkib hissəsi kimi işlənərək, etnos adlarını da ifadə edirlər. Tokuz oğuz bodun (“doqquz oğuz xalqı”, BxŞ.35, KltŞ.14), tokuz oğuz (“doqquz oğuz”, MçŞm.3), otuz tatar (“otuz tatar”, KltŞ.14), on ok bodun (“on ox xalqı”, KltC.19), on uyğur (“on uyğur”, MçŞm.3), üç karluk (“üç karluk”, MçŞm.11), səkiz oğuz, tokuz tatar (“səkgiz oğuz, doqquz tatar”, MçŞ.13). Bəzən saylar etnonimlərə aid sabitləşmiş təyin kimi işlənir. Altı çub soğdak bodun (altı vilayətli soğda xalqı, BxŞ.24), üç tuğlığ türk bodun (üç bayraqlı türk xalqı, MçŞm.8), Saylara yer adlarının tərkibində də rast gəlinir: üç Birgü (MçŞm.7), üç Birkü (MçŞm.18).

Bin sayı –a, -ım şəkilçilərini qəbul edərək, say məzmununu qoruyub saxlamaqla isim əmələ gətirir. Bıŋa (“min nəfərlik qoşun”, MçŞ.23), bıŋım (“min nəfərlik qoşunum”, MçC.26), bıŋabaşı (“min nəfərlik qoşun başçısı”, MçŞm.6), “On min” mənasını ifadə edən tümən sözü həm ayrılıqda, həm də bir sayı ilə yanaşı işlənə bilir. İkinci halda daha çox konkretlik bildirir. “Moyun Çor” şərəfinə abidədə: bın yıllık tümən günlük bitig (“min illik, on min günlük yazı”, MçŞ.21). Küli Çor abidəsində: Kəçində tümən sükə sünüsdi (Kaçində on min qoşunla döyüşdü, KçQ.10). Kültigin şərəfinə abidədə: Bir tümən ağı, altun, kümüş kərgəksiz kəlürti (On min pul, hədsiz qızıl, gümüş gətirdi, KltŞm.12).

Bəzi miqdar sayları fonetik paralelləri ilə təqdim olunur. Fonetik paralelizm iki şəkildə təzahür edir:

a)saitlərin paralelliyi-

e//i: yeti (“yeddi”, KltŞ.13) – yiti (KltŞ.30)
yegirmi (“iyirmi”, MçC.35) – yigirmi (KltC-Ş)
bes (“beş”, BxŞ.25) – bis (KltŞ.31)

b)samitlərin paralelliyi-

b//m: bın (“min”, MçŞ.21) – min (Irkb.XXXII)
s//ş: bis (“beş”, KltŞ.18) – biş (KltşŞm.4)

Tokuz miqdar sayı sıra sayı əmələ gətirən –nç şəkilçisi ilə işləndikdə fonetik tərkib dəyişir: tokuz (“doqquz”, KltŞm.9) – tokısınç (X Hoytu Temir).

Miqdar sayı məzmununu ifadə edən sıŋar sözü işlənir; “tamın yarısı” mənasındadır. Sıŋar süsi ebik, barkığ yolğalı bardı, sıŋar süsi süŋüşkəli kəlti (Qoşunun yarısı ev-eşiyimizi dağıtmağa getdi, qoşunun [digər] yarısı döyüşməyə gəldi, BxŞ.32).

Müasir türk dillərindən fərqli olaraq, onluq saylar arası miqdar məzmununu ifadə etmək üçün "təklik üstə gəl onluq" modelindən istifadə olunur: yiti yegirmi ("on yeddi", KltŞm-Ş). Müasir türk dillərində həmin mənanı ifadə etmək üçün onluq saydan sonra təklik say işlənir: on yeddi, on səkgiz, on doqquz və s. Ancaq qədim türk yazılı abidələrində müvafiq say formaları əksinə yerdəyişmə ilə müşhyayiət olunur; əvvəl təklik, sonra onluq say işlənir: üç yetmiş (Uyuk turan, arxa tərəf). Miqdar sayının mənasını müəyyən etmək üçün tərkibi sayın komponentləri daha bir əksinə yerdəyişmə ilə oxunur: yetmişə doğru üç, yəni altmış üç. Təklik, üstə gəl, onluq say modelində təklik say aşağıdakı onluq saylardan əvvəl işlənir:

yegirmi – bir yegirmi (MçC.32, "on bir"), eki yegirmi (KltŞ.18, "on iki"), üç yegirmi (KltŞ.18, "on üç"), tört yegirmi (MçŞ.19, "on dörd"), bis yegirmi (MçŞ.18, "on beş"), altı yegirmi (KltŞ.35, "on altı"), yiti yegirmi/yeti yegirmi (KltŞ.11, KltŞm-Ş, "on yeddi"), səkiz yegirmi (BxŞ.24, "on səkgiz"), tokuz yegirmi (BxC.9, "on doqquz");

otuz – bir otuz (KltŞ.32, "iyirmi bir"), eki otuz (BxŞ.25, "iyirmi iki"), üç otuz (Ton., I daş, Ş.19, "iyirmi üç"), biş otuz (KltŞ.18, "iyirmi beş"), altı otuz (BxŞ.26, "iyirmi altı"), yiti otuz (KltŞm.1, "iyirmi yeddi"), tokuz otuz (MçŞ.16, "iyirmi doqquz");

kırk – bir kırk (KltŞm.2, "otuz bir"), beş kırk (Oznaçennıy, yan tərəf, 4, "otuz beş"), tokuz kırk (MçŞ.16, "otuz doqquz"), əlig – üç əl`ig (X Çaxöl, 3, "qırx üç"), tokuz əlig (Abakan, 3, "əlli doqquz");

əlig – üç əlig (X Çaxöl, 3; "qırx üç"), tokuz əlig (Abakan, 3; "qırx doqquz");

altmış – tokuz altmış (Abakan, 3; "əlli doqquz");

yetmiş – üç yetmiş (Uyuk Turan, arxa, "altmış üç"), beş yetmiş (Ong., ön, 4; "altmış beş"), yiti yetmiş (Beqre, arxa tərəf, "altmış yeddi"), səkiz yetmiş (Kemçik Çirğak, arxa, 9, "altmış səkgiz").

Bununla yanaşı, onluq saydan sonra təklik sayın işləndiyi say modelinə də təsadüf edilir. Ancaq bu model abidələrin dilində çox az işlənir.

Otuz – otuz artuki bir (BxŞ.28-29, BxC.9, "otuz bir"), otuz artuki üç (BxŞ.34, "otuz üç"), otuz artukı tört (BxŞ.38, "otuz dörd"), otuz artukı səkiz (BxC.2, "otuz səkgiz");

kırk – kırk artukı yeti (Kltş.15, "qırx yeddi");

tümən – bir tümən artukı yeti bin (BxC.1, "on yeddi min").

Ayın gününü bildirmək üçün bu cür formadan istifadə olunur: ay artukı tört kün (BxC-Q, "bir ay dörd gün"),

Seyrək şəkildə numerativ sözlər işlənir: yol, bağ. Bunlar numerativ sözlərə çevrilmiş isimlərdir. Biş yolı (KltŞm.4, "beş dəfə"), altı yolı (BxŞ.28, "altı dəfə"). Kırk artukı yeti yolı süləmis (KltŞ.15, Qırx yeddi dəfə qoşun çəkmiş). Altı bağ bodunka bəg ertim (Uyuk Tarlık, 2, Altı qəbiləli xalqın

bəyi idim). Numerativləşməyə meyilli kat sözü işlənir. Tokuz kat üçürgüp (Irkb.L, Doqquz qat bağla).

Digər saylardan fərqli olaraq bir sayı qeyri-müəyyənli, ümumilik ifadə edə bilir. Bu zaman müvafiq say konkret miqdar bildirmir. Kültigin şərəfinə abidədə: Bir kisi yanılsar, oğuşı, bodunı bisüginə təgi kıdmaz ermiş (bir kisi, KltC.6; Bir insan yanılsa, qəbiləsi, xalqı son nəfərinədək doğranmazmış). "Irk bitig"də: Bir karı öküz (Irkb.XXXVII, "bir qoca öküz"). A.Steynin tapdığı IV əlyazmada: Bir kün (Steyn, IV əlyazma, 9-cu xətt, "bir gün").

Qeyri-müəyyən miqdar saylarının quruluşca hər üç növünə təsadüf edilir. Sadə qeyri-müyyən miqdar sayları iki sözlə təmsil olunur:

az ("az", Ong. ön, 7, KltŞ.20, Ton. I daş, Ş.23). Az bodunığ üküş kıltım (KltC.10, Az xalqı çoxaltdım);

üküs ("çox", Ong. ön, 7), üküş ("çox", KltC.7). Üküs kişi öltig (KltC.7, Çoxlu adam öldün).

Düzəltmə qeyri-müəyyən miqdar sayları –ça, -çə şəkilçisi ilə düzəlir. Yüzçə ("yüzə qədər" BxŞ.37; Uyğur eltəbər yüzçə ərin ilgərü tə[zip bardı] "Uyğur eltəbər yüzə qədər döyüşçü ilə şərqə qaçıb getdi");

əligçə ("əlliyə qədər", Ton. II daş, Q.42; Əligçə ər tutdımız "Əlliyə qədər döyüşçü tutduq");

sınarça ("yarısı qədər", Ton. II daş, Q.40; Bizintə eki uçı sınarça eki uçı artuk erti "İki ucu/qanadı bizdən yarısı qədər az idi").

Mürəkkəb qeyri-müəyyən miqdar sayları, bir qayda olaraq, azdan çoxa doğru sadə miqdar saylarının yanaşı işlənməsi ilə düzəlir.

Bir-iki ("bir-iki", MçŞ.17, Bir-iki atlığ yablakın üçün kara bodunım, öltin "Bir-iki adlı-sanlı alçaqlıq etdiyi üçün, qara camaatım, öldün");

bir-eki ("bir-iki", MçC. 33, Bis yüz kedimlig yadağ bir-eki şaşıp kelti "Beş yüz yaraqlı piyada bir-bir, iki-bir çaşıb gəldi");

eki-üç ("iki-üç", BxŞ.41, Korğu eki-üç kisiligin təzip bardı "Qorxaraq iki-üç adam ilə qaçıb getdi").

Sıra sayları əsasən –nç şəkilçisi ilə düzəlir:

üçünç (Kltş.33, BxŞ.30, Irkb.XV "üçüncü"). Üçünç oğuz birlə sünüşdimiz (KltŞm.6, Üçüncü dəfə oğuz ilə döyüşdük);

törtünç (BxŞ.31 "dördüncü"). Törtünç Çuş başınta sünüşdimiz (KltŞm.6, Dördüncü dəfə Çuş başında/zirvəsində döyüşdük);

bisinç (MçŞ.16, BxC.10 "beşinci"). Bisinç Əzgənti Kadazda oğuz birlə sünüşdimiz (KltŞm.7, Beşinci dəfə Əzgənti Kadazda Oğuz ilə döyüşdük);

yitinç/yetinç (KltŞm-Ş, Ong. sağ,12, X Hoytu Temir,1 "yeddinci"). Sü təgisintə yitinç ərig kılıçladı (KltŞm.5, Qoşun qarşılaşanda yeddinci döyüşçünü qılıncladı);

səkizinç (MçŞ.18, "səkgizinci"). Səkizinç ay bir yanıka sü yorıdı (MçŞ.17, Səkgizinci ayın birində qoşun yürüdü);

tokusınç/tokuzınç (Ong. sağ, 12, X Hoytu Temir, 1 “doqquzuncu”). Kültigin koy yılka yiti yegirmikə uçdı, tokuzınç ay yiti otuzka yoğ ertürtimiz (KltŞm-Ş, Kültigin qoyun ilinin on yeddisində vəfat etdi, doqquzuncu ayın iyirmi yeddisində dəfn etdik);

onınç (BxC.10 “onuncu”). Bunça kazğanıp kaŋım kağan ıt yıl onınç ay altı otuzka uça bardı (BxC.10, Bunca qazanıb atam xaqan it ili onuncu ayın iyirmi altısında vəfat etdi);

bir yegirminç (“on birinci”). Bir yegirminç ay yegirmikə (MçC.35, on birinci ayın iyirmisində).

“Birinci” və “ikinci” sıra sayı məzmununu ifadə etmək üçün fərqli sözlərdən və formalardan istifadə edilir:

ilki (“birinci”): İlki sü taşıkmış erti (BxŞ.32, İlk qoşun səfərə çıxmışdı);

ən ilki (“birinci”): Ən ilki Tadıkın ilki Tadıkın Çorın boz [atığ binip təgdi] (KltŞ.32, İlk dəfə/birinci dəfə Tadıkın Çorın boz [atını minib hücum etdi]). Ekinti süŋüş ən ilki ay altı yanıka tokıdım (MçŞm.9, İkinci döyüşdə ən ilk/birinci ayın altısında hücuma keçdim). Ən ilki Toğu Balıkda süŋüşdim (BxŞ.30, Ən ilk Toğu şəhərində döyüşdüm);

ən ilk (“birinci”): Ən ilk Toğu Balıkda süŋüşdimiz (KltŞm.4, İlk dəfə Toğu şəhərində döyüşdük);

ekinti (“ikinci”, KltŞm.5, BxŞ.30, Ton. II daş, Q.39, MçŞm.9, MçQ.43): Ekinti Işbara Yamtar boz atığ binip təgdi (KltŞ.33, İkinci dəfə Işbara Yamtarın boz atını minib hücum etdi);

ekin (“ikinci”): Ekin sü ebdə erti (BxŞ.32, İkinci qoşun evdə idi).

Qədim türk yazılı abidələrinin dilində sıra sayları ilin aylarını ifadə edir:

ekinti ay (“ikinci ay”, MçQ.43, 46): Ekinti ay tört yegirmikə Kemdə tokıdım (MçŞ.19-20; İkinci ayın on dördündə on dördündə Kemdə toqquşdum);

törtinç ay (“dördüncü ay”, MçŞ.15): Törtinç ay tokuz otuzka Ulağan Çor yarukı uruŋu Tudun Çigşigə yarlığ boltı (A.Steynin tapdığı I əlyazma, 1-3, Dördüncü ayın iyirmi doqquzunda Ulağan Çor işıqlı bayraqdarı Tudun Çigşiyə fərman oldu);

bisinç ay (“beşinci ay”, MçŞ.21, MçC.29): bisinç ay udu kəlti (MçŞ.15, Beşinci ay ardımca gəldilər);

yitinç ay (“yeddinci ay”, V Hoytu Temir,1): barkın, bədizin, bitig taş[ın] biçin yılka yitinç ay yiti otuzka kop alkadı[mız] (KltŞmŞ, Sərdabəsini, naxışını, yazılı daşını meymun ili yeddinci ayın iyirmi yeddisində bütünlüklə tamamladıq);

səkizinç ay (“səkgizinci ay”, MçQ.40): Səkizinç ay bən udu yorıdım (MçC.30, Səkgizinci ay mən ardınca gedərək/təqib edərək yüyürdüm);

tokuzınç/tokızınç ay (“doqquzuncu ay”, II Hoytu Temir, 2, V Hoytu Temir,1): Kültigin koy yılka yiti yegirmikə uçdı, tokuzınç ay yiti otuzka yoğ ertürtimiz (KltŞm-Ş, Kültigin qoyun ilinin on yeddisində vəfat etdi, doqquzuncu ayın iyirmi yeddisində bütünlüklə tamamladıq);

onınç ay (“onuncu ay”, VIII Hoytu Temir, 1): Onınç ay eki yanıka bardım (MçQ.41; Onuncu ayın ikisində getdim);

bir yegirminç ay (“on birinci ay”): bir yegirminç ay səkiz yegirmikə yolukdım (MçC.25, On birinci ayın on səkgizində qarşılaşdım).

Orxon-Yenisey abidələrində toplu say forması müşahidə olunur. Topluluq məzmunu Müasir Azərbaycan dilində bəzi isimlərin mə`na tutumu üçün xarakter olsa da (dəstə, xalq, qoşun, ordu və s.), saylarda bu məzmunu ifadə edən xüsusi qrammatik əlamət mövcud deyil. Orxon abidələrində -əgü şəkilçisi toplu say əlaməti hesab olunur: üçəgü “üçlükdə”. Tonyukuk şərəfinə abidədə: Tabğaç, Oğuz, Kıtay – bu üçəgü kabısar, kaltaçıbiz öz içi, tasın tutmıs təg biz (Ton. I daş, C. 12, Tabğaç, oğuz, kıtay – bu üçlükdə birləşsə, biz öz içini, bayırını tutmuş tək qalacağıq). Üəgü kabısar, süləlim (Ton. I daş, Ş.21, Üçlükdə birləşib qoşun çəkək). Müasir qıpçaq qrupu, karluq-uyğur qrupu, bulqar qrupu türk dillərində bu say formaları özünü göstərir:

Qazax dilində -au, -eu (altau, üşeu “altılıqda”, “üçlükdə”), qaraqalpaq dilində -eu (ekeu, uşeu “ikilikdə”, “üçlükdə”), qırğız dilində -öö, -eu (biröö “birlikdə”, jideu “yeddilikdə”; 1, s. 176, 184, 193), tatar dilində -av, -əv (altav “altılıqda”, ikəv “ikilikdə”; 2, s. 181), özbək dilində -av (onav “onluqda”; 3, s. 189).

Ədəbiyyat

Azərbaycan dilində

1.Zeynalov F. Türkologiyanın əsasları. B.: “Maarif”, 1981, s.

Rus dilində

2. Серебренников Б., Гаджиева Н.Сравнительно-историческая грамматика тюркских языков. B.: “Maarif”, 1979

3. Сравнительно-историческая грамматика тюркских языков. Морфология.М.: изд. “Наука”, 1988

Y.Aliyev

Functional features of the numerals in the ancient Turkish Runic written monuments

Summary

In the ancient Turkish written monuments numerals with little phonetic change use in modern Turkic language.

At the language in the ancient Turkish written monuments cardinal numerals concrete in addition with quantity, as an integral part of ethnos, processing as ingredient of ethnos, expessed names of ethnos: tokuzoguzbodun (“nine oguz people”) , uckarluk (“ three karluk”).
Functional features of the numerals in the ancient Turkish Runic written monuments.

Sometimes numerals use as stabilized determined belong to ethnos: uctugligbodun(three flag Turkish people).

Я.Алиев

Функциональные особенности числительных в древнетюркских рунических надписях

Резюме

Числительные в древнетюркских рунических надписях с небольшими фонетическими изменениями употребляются и в современных тюркских языках. Помимо обозначения конкретной численности они являются составными частьями этнонимов, так как tokuz oğuz bodun (“народ девяти огузов”, otuz tatar («тридцать татаров»), on oğuz («десять уйгуров»), üç karluk (“три карлуков”) и т.д. Иногда числительные встречаются в роли констатного определения (üç tuğlığ türk bodun “народ с тремя знаменами”). Числительные являются составными частьями топонимов. Некоторые числительные представлены с фонетическими параллелями: yeti – yiti («семь»), bes – bis (“пять”). Слово sınar в рунических текстах обозначает «половину целого». Напр.: sınar süsi («половина войск»).

Rəyçi: Mübariz Yusifov
professor

FIZULİ MUSTAFAYEV
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Tətbiqi dilçilik şöbəsinin böyük elmi işçisi,
filologiya üzrə fəlsəfə doktoru
mustafayev.fizuli8@gmail.com

KİNO DİLİNDƏ MÜRƏKKƏB SÖZLƏRİN SADƏ SÖZLƏRLƏ TƏLƏFFÜZ ŞƏRTLƏRİ BARƏDƏ

Açar sözlər: kino haqqında, üslublar, tələffüz qaydaları, türkologiya əsərləri, ünsiyyət vasitəsi, şifahi nitq, bədii əsər.
Ключевые слова: о кино, стили, правила произношения, произведения тюркологии, средства общения, устная речь, художественное произведение.
Key words: about movie, methods, pronunciation rules, plays of Turkology, communications means, oral speech, artistic play.

Ədəbi tələffüz üslublarının tədqiqi kino dilinin öyrənilməsi üçün çox vacib məsələlərdən biridir. Rejissor və aktyolarımız obrazların daxili aləmini daha qabarıq vermək, onları tamaşaçıların gözləri qarşısında hərtərəfli canlandırmaq məqsədilə müxtəlif tələffüz formalarından bir üslubi vasitə kimi istifadə edirlər. Məqsəd və şəraitə, danışıq xüsusiyyətlərinə görə mənfi və müsbət surətləri bir-birindən fərqləndirirlər.

"Ünsiyyət prosesində məqsəd və şəraitdən asılı olaraq səslərin tələffüz məxrəcləri, vurğu, intonasiya, danışığın tonu, sürəti dəyişərək nitqə rəngarənglik və çalarlıqlar verir. Orfoepiya normaları əsasında yaranmış belə nitq formaları kino dilində tələffüz üslubları şəklində nəzərə çarpır. Ayrı-ayrı filmlərdə kinoaktyorlar ədəbi tələffüz üslublarından obrazlılıq yaratmaq məqsədilə üslubi vasitə kimi geniş istifadə edirlər" [1, 139].

Məqsəd və şəraitdən, danışanın və dinləyənin savadından, eşitmə qabiliyyətindən və sairədən asılı olaraq ünsiyyət zamanı dilin ən kiçik vahidi olan fonemlər müxtəlif tələffüz formalarına düşür ki, bunların da bəziləri tələffüzdə daha davamlı və asan olur. Həmin tələffüz formaları bu və ya digər tələffüz üslubunun yaranmasında rol oynayır.

Ümumi dilçilik ədəbiyyatında hər bir dilin özünəməxsus müxtəlif tələffüz üslubları göstərilmişdir. Fransız dilçisi P.Passi ədəbi tələffüz üslublarından danışarkən nitqin sürətinə əsaslanaraq aşağıdakı üslubların olduğunu qeyd edir:

1. Sürətlə, təbii tələffüzlə danışıq üslubu,
2. Yavaş tələffüzlə danışıq üslubu,
3. Dəqiq tələffüzlə danışıq üslubu,

4. Daha dəqiq tələffüzlə danışıq üslubu [2, 101].

İngilis dilçisi D.Couns isə ədəbi tələffüzün aşağıdakı beş növünü göstərir:

1. Sürətli, sərbəst tələffüz üslubu.
2. Daha asta danışıq üslubu.
3. Geniş auditoriyaya təbii müraciət üslubu.
4. Teatr süni tələffüz üslubu.
5. Süni mənimsənilmiş nəğmə üslubu [3, 89].

Sovet dilçilərindən R.İ.Avanesov tələffüz üslubunun üç növünü vermişdir: 1) kitab üslubu; 2) danışıq üslubu; 3) sadə nitq üslubu [4, 71].

Azərbaycan dilçiliyində Ə.Dəmirçizadə tələffüz üslubun iki yerə ayırır: 1) tam üslub; 2) sərbəst üslub [5, 151].

Bu haqda L.V.Şerbanın da fikirləri maraqlıdır: "Bizim nitqimiz həmişə eyni olmur. O, bizim nə məqsədlə, hansı vəziyyətdə və kimə müraciət edəcəyimizdən asılı olaraq dəyişir. Mən böyüklə bir cür, uşaqla başqa cür danışdığım halda birdən neçə yüz nəfərə isə tamam başqa cür müraciət edirəm. Bir var təəssüratını yoldaşınla bölüşdürəsən, bir də var ki, öz həqiqi vəziyyətini az tanıdığın adamlara bildirəsən" [1, 155].

İnsan öz fikrini sözlərdəki səsləri, vurğuları dəyişərək başqasına bildirir. Səslər şərti işarələrdir. "Biz bu və ya digər sözün səslərini uzun, qısa, variant və variasiyalarda vurğuların yerini dəyişərək müxtəlif tələffüz formaları yarada bilərik. Müxtəlif ictimai şəraitlə əlaqədar nitqdə çoxlu tələffüz üslublarını fərqləndirmək olur" [3, 108]. Dialekt tələffüz üslubları da demək olar ki, fonetik hadisələr əsasında yaranmışdır.

Tələffüz üslubları məqsədəuyğun inkişaf edərək xalq arasında geniş yayılmasıdır. Bu ifadə formaları da tələffüz asanlığı, səslənmə rəngarəngliyi, insanda əmələ gətirdikləri təsirə görə bir-birindən fərqlənir. Kino dilində bir neçə tələffüz üslubu mövcuddur.

Bədii tələffüz üslubunda obrazlılıq yaratmaq üçün leksik, qrammatik ünsürlərlə yanaşı dilin fonetik hadisələrindən də üslubi vasitə kimi istifadə olunur. Həmişə kinoaktyorlar çalışırlar ki, müsbət və mənfi obrazlar həyatda olduğundan canlı, geniş planda verilsinlər, yazıçının fikrini tamaşaçılar asanlıqla başa düşsünlər.

Kinoaktyorlar xalq danışıq dilinin tələffüz üslubundakı ən səciyyəvi fonetik xüsusiyyətləri kino dilinə gətirirlər.

"Nə olar, a bala?.. O da doxturdu də. Malları əncam eləmək savab işdi. Dilsiz-ağızsız heyvandılar.

- O gələnəcən fermanın doxturu özün olacaqsan... Öz əlin, öz başın... Miriş pis adam deyil, qoy gəlsin" ("Kişi sözü" bədii filmi).

"- ...Bunları satırsanmı, nənə?

- ...Bunlarsız özüm nəyə lazımam, dərdin alım, elə buyam da.

- Nənə, mal-qara, qoyun-quzu saxlamırsan deyəsən, heç gözümə dəymir, bəs otu neynirsən?

- ...Allah bərəkət versin, üzüm - südümüzü də verir, bazarlığımızı da eləyir" ("Bəyin oğurlanması" bədii filmi).

Beləliklə, kinoaktyorlar ayrı-ayrı obrazları yaradarkən onları yaşlarına, dünyagörüşlərinə uyğun danışdırmaq üçün özlərinə xas tələffüz formaları seçirlər ki, bu da emosionallığı, nitqin tempi ilə sözlərdə baş verən fonetik hadisələrin kəmiyyəti və keyfiyyəti ilə digər tələffüz üslublarından fərqlənir.

"- Bizim oğlumuz sizin qızınızı istəyirdi. Heylədi, ya yox! Buna mən lap padşah qızı alaram. Yəni siz mağazada işləyən qızınızı doxtur Qasıma vermək istəmirsiniz?" ("Kişi sözü" bədii filmi)

Əgər yazıçı obrazı yaşına, dünyagörüşünə, təhsilinə uyğun onun dilində müxtəlif söz qrupları verirsə, sözlərin müxtəlif məxrəcdə tələffüzünə isə rejissor və kinoaktyorlar yaradıcı yanaşırlar.

"- Bizim oğlumuz sizin qızınızı istəyirdi. Heylədi, ya yox? Gördü ki, Nəbidən səs çıxmır, üzünü tutdu Xavərə.

- Aaz, ay Xavər, heylədi, ya yox?

- Sən, Nəbi, qızını mənim oğluma vermədin. Dedin ki, mən şoferə qız vermərəm, heylədi, ya yox?

- Sən də dəlisən, oğlun Qasım da... lap ərin Ələmdarın da başı xarabdı"...

Bu cümlələrdə aktyor Azərbaycan dilinin ədəbi tələffüz normalarına uyğun olaraq sözlərdə vurğunu axırıncı hecanın üzərinə salaraq bəzi saitləri uzun tələffüz edir.

Dialekt tələffüz üslubunda kinorejissor və kinoaktyorlar obrazlıq xatirinə ən səciyyəvi tələffüz xüsusiyyətlərini seçir, ümumiləşdirir, müsbət və mənfi surətləri tipikləşdirirlər. Bu cəhətdən "Böyük dayaq" bədii filmində rejissor Telli, Nəcəf, Salman, Yarməmməd obrazlarını yüksək sənətkarlıqla, dialekt tələffüz üslubu ilə danışdırır. Telli xalanın (Nəsibə Zeynalova) hər kəlməsi gülüşlə müşayiət olunur.

"– Kəs səsini, bircə sən qalmışdın mənə mədəniyyət dərsi verəsən. Partkomu Şirzad olanın, komsomolu sənin kimi olar.

– Nəcəf, başın haqqı o gədə yenə açıb suyu buraxıb. Dünyanı su götürüb, göz açmaq mümkün deyil.

– ...Də... Yarməmməd, sən bilən Şirzad müavinliyi doğurdan boynundan atır?"

Və yaxud "Kişi sözü" bədii filmindəki Qasım, Nəbi, Ələmdar və başqa obrazların gülməli danışıqları:

"– Nə zarafat, ə? Bu yoğunluqda zarafat olar?! Nakişinin biri! – dedi.

– ...Hələ Brilyant öz sözünü deməyib. Ərə gedən Nəbi deyil ki?"

Ssenari müəllifləri ayrı-ayrı personajların, mimikaları ilə yanaşı onların nitqlərini də öz dialekt tələffüz üslubları ilə tipikləşdirir. Kinoaktyor bu fərqləri əsasən səs uzanması və sözlərdəki vurğunun yerini dəyişməklə yaratmışdır.

Rəsmi tələffüz üslubunda isə sözlərdə normadan kənar səs uzanmalarına, intonasiya rəngarəngliyinə və obrazlılığa o qədər də ehtiyac qalmır. Danışığın tonu, əsasən, müəyyən yüksəklikdə davam edir.

Bədii və danışıq tələffüz üslublarında isə nitq sərbəstdir. Kinoaktyor hər hansı bir obrazı yaradarkən gah gülür, gah qışqırır, gah da rəsmiləşərək aram-aram danışır. Çünki, aktyor oynadığı surətin düşdüyü psixoloji vəziyyətdən asılı olaraq, onun keçirdiyi hissləri, həyəcanları həyatda olduğu kimi təqlid etməyə çalışır.

– Bu bizim əməliyyatın strateji sxemidir.

– ...Neyçündü?

– ...Müharibə-zaddır bəyəm, pansionatın sxemini çəkmisən?

– ...Bu sən fikirləşdiyin şey deyil. Yaxşısı budu, de görüm, sənə tapşırdığımı elədin?

– Hə, əlbəttə. Otağında bizi gözləyəcək".

("Kapitanın xəzinəsi" bədii filmi)

Göründüyü kimi burada da aydınlıq, sadəlik prinsiplərinə əməl olunur. Bədii və danışıq tələffüz üslublarından fərqli olaraq demək olar ki, burada dialekt tələffüz üslubundan qətiyyən istifadə olunmur.

Publisistik tələffüz üslubunda kinoaktyor yaratdığı obrazı elə danışdırır ki, onun dilində səfərbərlik hiss olunur. Aktyor yalnız bir nəfərə yox, kütləyə müraciət edir. Məlumat verir, müqayisə aparır. Nəhayət müəyyən hadisənin mənfi cəhətlərini yox etmək üçün müsahibini və ya hamını köməyə səsləyir. Publisist tələffüz öz intonasiyası ilə başqalarından fərqlənir.

"– Bu damı neyləyək?

– ...sabah düzəldərəm. Bu şəkillər lap yadımdan çıxmışdı. Sualtı gəmilər lap xoşuma gəlir.

– ...10 ildir ki üzünə həsrətəm. İnsafsız, burada deyiblər, qardaş ürəyi daşdan olar.

– ...Suyun altında necə zəng etsinlər. Aylarla suyun dibində olurlar. Ana, yadındadır, uşaq vaxtı mən də dənizçi olmaq istəyirdim." ("Kapitanın xəzinəsi" bədii filmi)

Danışıq tələffüz üslubunda isə nitq bir qədər sərbəstdir. Burada sözlərin tərkibində səs əvəzlənməsi, səs düşümü, səs artımı və s. fonetik hadisələr başqa tələffüz üslublarından fərqli olaraq bəzən daha çox baş verir. Yenə "40-cı qapı" bədii filminə müraciət edirik.

"– Salam, Fatma xala! Bizim çil toyuğumuz yoxa çıxıb, dedim bəlkə sizin həyətdə ola.

– Hə, o dey qaçır. Sizin də bir dənə çil toyuğunuz var, o da başa bəla.

– ...Fatma xala, sən həmişə evdəsən, hə?

Fatma:

– Hə, ay bala! Qoca arvadam, hara gedirəm ki, hərdən dükana gedirəm."

Göründüyü kimi, danışıq tələffüz üslubunda bədii və rəsmi tələffüz üslublarına nisbətən nitq daha sərbəstdir. Kinorejissor və kinoaktyorlar danışıq tələffüz üslubunun tələblərinə uyğun olaraq tələffüzə ağırlıq gətirən səsləri daha asan məxrəcliləri ilə əvəz edirlər. Faktlar göstərir ki, sürətli nitqdə bəzən yanaşı işlənən sözlərdə və sözə şəkilçi artırdıqda səslərin reduksiyasına, ya da düşməsinə təsadüf olunur.

Səslərin reduksiyası rəsmi və bədii tələffüz üslublarında da müşahidə olunur. Ancaq danışıq tələffüz üslubunda bu hal daha güclüdür.

1991-ci ildə Şahmar Ələkbərovun çəkdiyi "Qəzəlxan" bədii filmi:

"– Qulaq as, bir təzə qəzəl yazmışam, oxuyacağam sənincün. Burada bir yenilik eləmişəm. Bilirsən ki, məni qırmızı rəngində günahlandırırlar. Burada mən qırmızı rəngi ifadə el(ə)yən müxtəlif vas(i)tələri işlətmişəm, amma bircə yerdə də "qırmızı" kəlməsi yoxdur(r)".

Nitq axını zamanı vaxta qənaət məqsədi ilə göstərdiyimiz şəkilçilər zəif tələffüz olunur. Sözü gedən filmdə personajlar tələffüz üslubu ilə danışıqda üzərinə vurğu düşən sait uzun tələffüz olunur ki, bu da nitqdə intonasiya rəngarəngliyi, ahəngdarlıq və emosionallıq yaradan üslubi vasitələrdən birinə çevrilir.

"Əgər, gül ləblərin mey məclisində keçsə xatirindən,

Əlində qan olur badəm, meyi-minayə baxdıqda".

Danışıq tələffüzündə vurğu əsasən, müxtəlif sözlərin axırıncı hecasında saitlərin üzərinə düşdükdə uzun tələffüz olunur. Məntiqi vurğu ilə deyilən sözlərdə isə bu xüsusiyyət daha da aşkar şəkildə özünü göstərir.

"– Atam balası, deyəsən əlinə bir şey keçməyib?

– Hə, vura bilmədim.

– Görürəm usta ovçuya oxşamırsan, dənə!

– Təzə başlamışam. Soruşmaq ayıb olmasın, səfərin hayanadı?

– Aran adamıyam, ağrın alım, Nəbinin yanına gedirəm, atam balası!

– Nəbi kimdi, a kişi?

– Boy, ə, buna bax ey, Nəbini tanımır. Qaçaq Nəbini deyirəm dayna, bu dağların Koroğlusunu".

("Qaçaq Nəbi" bədii filmi)

Filmdən kiçik parçada kifayət qədər dialekt söz, söz birləşməsi və ifadə vasitələrindən istifadə edilmişdir.

Nəticə olaraq, kino dilində tələffüz üslublarına xüsusi diqqət yetirmək lazımdır. İstər kinorejissor, istərsə də hər bir kinoaktyor çəkiliş öncəsi ssenari ilə yaxşı tanış olmalı, lentə alınacaq hər bir səhnəni əvvəlcədən görməli, hər bir hadisəni beynində canlandırmalı və öz çıxışlarında ayrı-ayrı tələffüz üslublarından kifayət qədər bəhrələnməlidir.

Ədəbiyyat

1. Щерба И.В. Язык кино. Москва, 1985, стр. 273,
2. Пасси Поул. История фонетики. Москва – Парис, 1958, стр. 321.
3. Джоунс Д. Теория языкознание. Москва – Лондон, 1978, стр. 389.
4. Аванесов Р.И. Фонологические исследования. Москва, 1980, стр. 390,
5. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Bakı, 2007, səh. 341.

Bədii filmlər

1. “Kişi sözü” bədii filmi. Bakı, 1982.
2. “Böyük dayaq” bədii filmi. Bakı, 1976.
3. “Kapitanın xəzinəsi” bədii filmi. Bakı, 1998.
4. “40-cı qapı” bədii filmi. Bakı, 2007.
5. “Qəzəlxan” bədii filmi. Bakı, 1991.
6. “Qaçaq Nəbi” bədii filmi. Bakı, 1980.

F. Mustafayev

Pronunciation methods in movie of Azerbaijan

Summary

Several plays about literary pronunciation norms and movie language have been written in Turkology and linguistics of Azerbaijan. This article deals above mentioned problems. As well as, quick, natural speech method, slow pronunciation method, speech method with clearly pronunciation, speech method with more clear pronunciation, literary pronunciation method, dialect pronunciation method, official pronunciation method, publicistic pronunciation method and speech methods are provided in this article.

Small fragments are presented from “Man`s word”, “Great support” , “Treasure of captain”, “40th door” , “Gazalkhan” and “Gachag Nabi” films in order to motivate each method. At last, the article has summarized scientifically.

Ф.Мустафаев

Стили произношения в Азербайджанских фильмах

Резюме

В тюркологии, а также в Азербайджанском языкознании создан ряд произведений, соответствующих нормам литературного произношения и языку кино. Статья освещает именно указанные вопросы. Здесь повествуется также о естественном разговорном стиле, со скоростью, разговорном стиле с медленным произношением, разговорном стиле с точным произношением, разговорном стиле с более точным произношением, художественном стиле произношения, диалектном стиле произношения, официальном стиле произношения, публицистическом стиле произношения и разговорном стиле произношения.

Для обоснования каждого стиля представлены маленькие фрагменты из художественных фильмов «Великая опора», «Сокровища капитана», «40-я дверь», «Газалхан» и «Гачаг Наби».

В конце подводится итог статьи.

Rəyçi: İsmayıl Məmmədli
filologiya elmləri doktoru, professor

AYGÜN YUSİFOVA
ADU
Filologiya üzrə fəlsəfə doktoru
aygünyusifova8@gmail.com

XARİCİ DİLİN TƏDRİSİNİN İSTİQAMƏTLƏRİ VƏ ONLARIN MƏZMUNU

Açar sözlər : dinləmə, oxu, danışıq, yazı, xarici dilin tədrisinin istiqamətləri, mədəniyyətlərarası dialoq, xarici dilin praktiki tətbiqi.
Ключевые слова: слушание, чтение, разговор, писание, направление преподавания иностранных языков, межкультурный диалог, практическое применение иностранного языка.
Key words: listening, reading, speaking, writing, trends of teaching foreign languages, intercultural dialogue, practical application of a foreign language.
Xarici dilin tədrisi yeddi istiqamətə ayrılır: dinləmə, oxu, danışıq, yazı, tədrisin təlimi, mədəniyyətlərarası dialoq, xarici dilin praktiki tətbiqi.

Dinləmə, danışıq, oxu, yazı

Birinci dörd istiqamətin (dinləmə, danışıq, oxu, yazı) ümumi daxili strukturu var, hansı ki, üç fərqli növ nəticələri əhatə edir:

1. mətnlərin məzmununu anlamaq-təhlil etmək (oxu və dinləmə) və hazırlamağı (yazı və danışıq) nəzərdə tutan kommunikativ nəticələr;

2. mətnin struktur və dil xarakterlərinin təyin edilməsini (oxu) və istifadəsini (yazı və danışıq) nəzərdə tutan dil nəticələri;

3. dinləmək, oxumaq, danışmaq,yazmaq strategiyalarına sahib olan strategiya nəticələri .

Daxili strukturun məqsədi elə bir vərdişlərin üzərə çıxarılmasıdır ki, hansıların inkişafı bütün dillərin öyrənilməsi-tədrisi üçün ümumi məqsədi təqdim edir, məs, gürcü dili və ədəbiyyatı, gürcü dili ikinci dil kimi, alman, fransız, rus və ingilis dilləri. Yaxşı olardı ki, dillərin tədrisi zamanı fənnin tədrisi qapalı olmasın və dillərin inteqrallaşdırılmış pedaqogikası tətbiq edilsin. Həqiqətən də, istənilən növ (ana dili, xarici) dilin öyrənilməsi zamanı şagird oxşar məsələlər qarşısında durur. Məsələn, o təyin etməlidir ki, mətn hansı strukturdan, hansı məzmundan ibarətdir, onda hansı dil xüsusiyyətləri var, onu dərk etmək üçün hansı növ strategiyalardan istifadə olunmalıdır və s. Daha doğrusu, şagird istənilən hər-bir qeyri-dil fənnində də belə bir dil-komunikasiya məsələsinin qarşısında durur (tarix, riyaziyyat, fizika və s.), mətnləri dərk etmək, tərtib etmək və auditoriya qarşısında şifahi çıxış etmək lazım olan zaman. Belə ki, dil – kommunikasiya bacarıqları

birbaşa xüsusiyyətlidirlər, – bu vərdişlərə sahib olmaq şagirdə istənilən fənnin mənimsənilmə prosesində lazım olacaqdır. İnteqrallaşdırılmış didaktika - dillərin tədrisi zamanı əldə edilən təcrübənin qarşılıqlı əlaqələndirilməsini, şagird tərəfindən əldə edilən təcrübənin bir dildən ikinci dilə keçirilməsinə dəstək göstərilməsini nəzərdə tutur . Belə bir yanaşma bacarıqları möhkəmləndirir, təcrübəni zənginləşdirir və şagirdlərin əmək qabiliyətlərini artırır. Bunu həyata keçirmək üçün müəllim düşünməlidir ki, öyrənilmiş və öyrəniləcək dillər arasında körpüləri necə qursun. Belə ki, məsələn, xarici dilin beşinci səviyyəsinin standartında verilən strategiya – şagird mətni bütövlükdə oxuyur , müxtəlif simvollarla əsas sualları, ikinci dərəcəli ideyaları, baş sözləri qeyd edir, – bu, şagirdin effektiv şəkildə mətni dərk etdikdə istənilən fəndə, həm dil (gürcü, ingilis, rus və s.), həm də qeyridil fənlərində istifadə edə bildiyi bacarıqların sırasına aid edilir . Körpüləri qurmaq üçün müəllim şagirdə aşılatmalıdır ki, konkret bacarığı başqa-başqa fənlərdə və fərqli kontekstlərdə necə istifadə etmək olar. Məhz buna dəstək göstərən bir neçə indikator xidmət edir, hansılar xarici dilin standartının strateji nəticələrində və tədrisin təlimində təqdim ediliblər.

İbtidai və baza-orta pillədə tədris/təlimin müxtəlif mərhələsində dinləmənin, danışığın, oxunun, yazının fərqli didaktik funksiyası var, buna görə də bu istiqaməti tədris mərhələlərinə əsasən xarakterizə edəcəyik. Milli tədris planı hüdudlarında xarici dilin tədrisi üç əsas mərhələyə bölünür:

Birinci (başlanğıc) mərhələ ibtidai pillənin, eləcə də baza-orta pillələrin birinci və ikinci səviyyələrini, yəni dI, dII, CI, CII əhatə edir;

İkinci (orta) pillə ibtidai pillənin, yəni eləcə də baza-orta pillənin üçüncü və dördüncü səviyyələrini, yəni dIII, dIV, CIII, CIV əhatə edir;

Üçüncü (son) mərhələ baza-orta pillənin beşinci, altıncı və yeddinci səviyyələrini, yəni CV, CVI, CVII əhatə edir.

Tədrisin birinci mərhələsi

Dinləmə – bu mərhələdə, dinləməyə, xarici dilin mənimsənilməsinin əsas kanalı olaraq üstünlük əhəmiyyəti verilir. Söz zəncirində hərflərin, sözlərin, sadə cümlələrin səs orqanı ilə seçilməsinə xüsusi əhəmiyyət verilir, çünki xarici dil üçün xarakterik səslənmələrə diqqət yetirməyi anlamaq bacarığı və düzgün tələffüzün formalaşması vacibdir. Bu, uğurlu interaksiyanın əsasını təqdim edir. Fonematik dinləmənin inkişafı məzmunlu mətndə olur. Mətnlərə əyani vəsait də (şəkillər, əşyalar, rəsmlər və s.) və səs indikatorları (hər hansı bir səs-küy, aydın ifadə olunan intonasiyalar və s.) əlavə edilməlidir, hansılara əsasən şagird üçün mətni anlamaq asan olacaqdır. İbtidai mərhələdə şagirdlərdən nə mətnin tam anlanılması (kommunikasiya halı, ümumi informasiyanın və bəzi ifadələrin anlanılması da kifayət edir), nə də ki, ifadələrin destrukturizasiyası və linqvistik baxımdan təhlil edilməsi tələb olunur

Danışıq – ilkin mərhələdə şagird danışmaqda çətinlik çəkəcəkdir. Tədrisin strategiyası reproduksiyalaşmaya yönəlibdir. Reproduksiyalaşmanın məqsədi düzgün ifadənin formalaşdırılması və leksiki ehtiyatın zənginləşirilməsi/möhkəmləndirilməsindən ibarətdir. Reproduksiyalaşma üçün şerlər, sanamalar (kiçiklər üçün), mahnılar, dialoqlar, sketçlərdən istifadə edlir. Produktivləşmə çox məhdudlaşdırılmış şəkildə davam edir, – şagirdlər öyrəndikləri leksik materialdan istifadə edərək suallar verir/cavablandırır və nümunələrə əsasən sadə oyunlar oynayırlar.

Oxu – iki bacarığı fərqləndirmək lazımdır: mətnin ucadan oxunması, yəni belə desək, onun düzgün səsləndirilməsi və oxunulan mətnin dərk edilməsi. Səsləndirmə bacarığını inkişaf etdirmək üçün elə bir çalışma verməliyik ki, hansının mətnini şagird yaxşı bilir, çünki ucadan oxuyan zaman şagird məzmun haqqında düşünmür. Onun bütün diqqəti fonetik aspektə yönəlib, onun düşüncəsi hərflərin səslərlə əlaqələndirilməsinə cəmləşdirilibdir. Bu zaman o, düşündüyünü deyil, gördüyünü oxuyur. Oxunulanı anlamaq bacarığını inkişaf etdirmək üçün yaxşı olardı ki, şagirdləri aktiv oxucu vəziyyətinə qoyaq. Bunun üçün onlara mətnin oxunulmasına qədər konkret oxu tapşırığını verək; konkret tapşırıqla onları mətnə yaxınlaşdıraq. Yaş xüsusiyyətlərini nəzərə almaqla ibtidai pillədə tədrisin birinci ilində oxu vərdiş-bacarığına az diqqət yetiriləcək, səthi metoda diqqət yönələcək, yəni sözlərin hissələrə ayrılması xaricində təyin edilməsinə. Yaxşı olardı ki, oxunun sistematik tədrisi gec başlansın, ikinci-üçüncü ildə. Yazı - burada da tədris produktivləşməyə əsaslandırılır. Oxuya uyğun olaraq, ibtidai pillədə yazı bacarığının inkişafı başqa yolla həyata keçirilir, çünki şagirdlərin hələ də texniki-motorik xarakterli problemləri var. Bunu nəzərə almaqla ibtidai pillədə tədrisin birinci ilində xüsusi diqqət yazının texniki-motorik vərdiş-bacarıqlarının formalaşdırılmasına yetirilir. Şagird hərfləri, öyrəndikləri sözləri yazır; hərfləri birləşdirmək texnikasına sahib olur. İlkin mərhələdə produktivləşmə darıxdırıcı olmasın deyə, vacibdir ki, şagirdlərə çoxrəngli, həvəsləndirici və ən əsası, məzmunlu mətnlər təklif edilsin. (Məs.: anketin doldurulması, hansında o, hansı yeməyi sevdiyini və hansını sevmədiyini yazır). Yazılı produktivləşmə həm oxu bacarığının, eləcə də dil materialının yadda saxlanılmasına dəstək göstərir.

Tədrisin ikinci (orta) mərhələsi

Dinləmə - ikinci mərhələdə həm didaktik, həm də yarımavtent mətnlər istifadə edilir, hansıların həcmi və mürəkkəblik səviyyəsi əvvəlki səviyyənin mətnlərindən çoxdur. Qavramaq baxımından tələbat artırılır: şagirdlərdən mətnin daha dərindən dərk etmələri və dil hadisələrini öyrənmələri/təhlil etmələri tələb olunur.

Danışıq – ikinci mərhələnin üstün məsələsi şagirdi danışdırmaqdır. Kommunikasiya halları daha çoxrəngli olur, hansılarda şagird, həm dinləyici

və həm də iştirakçı olur. Həm simulyativ, eləcə də real kommunikasiya zamanı dil ehtiyatından daha sərbəst şəkildə istifadə etməyə başlayır.

Oxu – ikinci mərhələdə şagirdlərdən müxtəlif növ və məzmunu olan mətnləri qavramaq tələb olunur. Mətnlər hələ də kiçikhəcmli, yarımavtent və ya avtentə bənzər didaktikdir. Şagirdlər verilən məsələyə uyğun olaraq oxunun müxtəlif strategiyalarından və ya növlərindən istifadə etməyi (tanışlıq, öyrədici, axtarıcı) öyrənirlər.

Yazı – ikinci mərhələdə diqqət yavaş-yavaş produktivləşməyə keçir. Şagirdlər nümunəyə əsasən kiçikhəcmli funksional mətnləri tərtib etməyi öyrənirlər, hansında onlar xəbərlərin, faktların, hadisələrin ardıcıllıqla ötürülməsi və qiymətləndirlməsi vərdiş-bacarıqlarına sahib olurlar, həmin vərdiş-bacarıqlar növbəti mərhələdə daha açıqlanıb təkmilləşdirilir. Motivasiyanın artırılması üçün elə bir fəallıqlar təklif etmək yaxşı olardı ki, hansında şagird belə desək, dillə oynamalı və dil ehtiyatından yaradıcılıqla istifadə etməlidir (məs.: müəyyən həcmlərə əsasən akrostikin bəstələnməsi).

Tədrisin üçüncü (son) mərhələsi

Dinləmə - əgər indiyədək dinlənilməcək mətnlər şifahi nitq nümunəsi kimi istifadə edilirdisə, indi nitq və dinləmək bir-biri ilə qarşılıqlı bağlılıqda, qarşılıqlı tabelikdə deyillər. Belə ki, avtent XARİCİ DİLLƏR X.D. - 12 2009 mətnlərdən sərbəst şəkildə istifadə etmək və dinləmək bacarığını şifahi nitqdən sərbəst şəkildə, daha cəld və dərindən inkişaf etdiilməsinə imkan vermək olar. Bu mərhələdə şagirdlər yalnız akustik şəklə əsaslanmaqla mətnin anlanılmasına vərdiş edəcəklər.

Danışıq – kommunikativ vəziyyət növləri daha zənginləşir. Sinif otağında kommunikasiya bütövlükdə xarici dildə davam etdirilir. Tədris strategiyaları özünüifadəetmə bacarığının təkmilləşməsinə, onun dəqiq-ləşdirilməsinə və zənginləşdirilməsinə yönəldilib.

Oxu – bu mərhələdə yazılı və ya şifahi strategiyaların inkişafının əsas mənbəsi oxumaq olur. Onun vasitəsilə şagird dil ehtiyatını zənginləşdirir və təhsildə daha müstəqil olur. Mətnlərin həcmi və mürəkkəblik səviyyəsi artır. Şagirdlərdən avtent, müxtəlif janr və növlü, bədii və ya funksional mətnləri anlamaq və təhlil etmək tələb olunur.

Yazı – son mərhələdə şagird elə bir mətnlərin növlərini yazmağı bacarmalıdır, hansı ki, ona həyat meydanından keçməkdə daha çox lazım olacaqdır (iş/şəxsi məktub, referat və s.). Şagird yenə də nümunələrdən istifadə edir, amma daha böuyükhəcmli mətnləri tərtib edir, hansında nəql, təsvir, fikrin ardıcıllıqla ötürülməsi, əsaslandırma vərdiş-bacarığını əldə edir.

Mədəniyyətlərarası dialoq, insan hüquqları, demokratiya, hüquq normalarına hörmətin artırılmasını özündə birləşdirən səlahiyyətləri çərçivəsində müxtəlif məqsədlərə xidmət edə bilər. Bu, heç kəsi təcrid etməyən və özünə yad saymayan çoxtərkibli cəmiyyətlərin əsas

xüsusiyyətidir. Bu, eyni zamanda, çox güclü barışıq və vasitəçilik əlamətidir: mədəni kəsişmə xətlərinə tənqidi və yaradıcı yanaşma vasitəsilə o, sosial bağlılıq və inteqrasiyanın gücləndirilməsi zamanı müşahidə oluna biləcək sosial parçalanma və təhlükəsizliklə bağlı narahatçılığı ifadə edir. Seçim və özünü ifadə etmə azadlığı, bərabərlik, dözümlülük və insan ləyaqətinə qarşı hörmət bu mətnin aparıcı prinsipləri sırasındadır. Uğurlu mədəniyyətlərarası dialoq obyektivlik, dialoqda iştirak etmək və başqalarının öz mövqelərini bildirmələrinə şərait yaratmaq istəyi, münaqişələri sülh yolu ilə həll etmə bacarığı və başqalarının tutarlı arqumentlərinin tanınması da daxil olmaqla, demokratik mədəniyyətdən bəhrələnən müxtəlif yanaşmalara ehtiyac duyur.

Mədəniyyətlərarası dialoq

Mədəniyyətlərarası dialoq müxtəlif mədəniyyətli cəmiyyətlərin siyasi, sosial, mədəni və iqtisadi inteqrasiyasına və birləşməsinə imkan yaradır. O, bərabərlik, insan ləyaqəti və ümumi məqsəd düşüncəsinin yaranmasına kömək edir. O, müxtəlif dünyagörüşü və təcrübələrin dərin anlaşılması prosesini təbliğ etdirmək, əməkdaşlığı və iş birliyini (və ya seçim azadlığını) genişləndirmək, şəxsi inkişafa və transformasiyaya şərait yaratmaq və başqasına qarşı dözümlülük və ehtiramı inkişaf etdirmək məqsədi daşıyır.

Mədəniyyətlərarası və dinlərarası dialoq və həmrəylik, qarşılıqlı anlaşma, ictimai birlik, açıq, ədalətli, tolerant və azad cəmiyyət üçün, həmçinin qadın və kişi bərabərliyi üçün demokratik vətəndaşlıq təhsili fundamentaldır. Bu, fərdə aktiv, məsuliyyətli və başqaları üçün hörmətli bir vətəndaş kimi fəaliyyət göstərməyə imkan verən müvafiq icmalar və ailələr, peşə təlimi də daxil olmaqla, formal, qeyri-formal və qeyri-rəsmi təhsil fəaliyyətini əhatə edir. Demokratik vətəndaşlıq təhsili mədəni irs və qlobal kontekstdə cəmiyyətlərin təhsili, siyasi və insan hüquqları təhsili, tarix, mülki və digər təhsili özündə birləşdirir. Bu, çoxplanlı yanaşmaları dəstəkləyir və xüsusilə düşünmə bacarığını və mədəni cəhətdən müxtlif olan cəmiyyətlərdəki həyatda özünü tənqid xarakterinin vacibliyini, münasibətlər və bacarıqlar, biliklərin əldə edilməsini bir yerdə cəmləşdirir. Dil mədəniyyətlərarası söhbətlərin aparılmasında çox vaxt maneə rolunu oynayır. Mədəniyyətlərarası yanaşma azlıqların işlətdiyi dillərin dəyərini tanıyır, lakin bununla belə azlıqların tam vətəndaş kimi fəaliyyət göstərməsi üçün həmin ölkədə çoxluğun istifadə etdiyi dilin mənimsənilməsini əhəmiyyətli sayır. Müxtəlif xalqların mədəniyyətləri və dinləri haqqında tələbələrə müfaviq biliklərin verilməsi onların gələcəkdə qloballaşan dünyada digər millətlərin nümayəndələri ilə ünsiyyət və əməkdaşlıq yaratmaq, vətənimizin hərtərəfli inkişafını təmin etmək baxımından fəaliyyət göstərmələri üçün çox vacibdir.

A.Yusifova

The trends of teaching foreign languages and their content

Summary

Nowadays English is the most commonly used means of communication for people. The article is devoted to the trends of teaching English and their content, the practical application of English and the role of intercultural dialogue in the teaching of English.

Learning a foreign language means entering outside world, discovering different rules and traditions of life, understanding different values and mentality. Successful communication depends not only on speech habits, but also on the ability to understand and respect various cultural problems. "Intercultural dialogue" trend serves to form these skills and approaches.

Higher education institutions play an important role in creating an environment for intercultural dialogue and intercultural dialogue with their educational programs in a wider community.

А.Юсифова

Направления преподавания иностранных языков и их содержание

Резюме

В наше время английский язык является наиболее часто используемым средством связи для людей.

Статья посвящена тенденциям преподавания английского языка и их содержанию, практическому применению английского языка и роли межкультурного диалога в преподавании английского языка. Обучение иностранному языку означает выход в внешний мир, открытие различных правил и традиций жизни, понимание разных ценностей и менталитетов. Успешное общение зависит не только от речевых привычек, но и от способности понимать и уважать различные культурные проблемы.

Направление «Межкультурного диалога» служит для формирования этих навыков и подходов. Высшие учебные заведения играют важную роль в создании среды межкультурного диалога и межкультурного диалога с их образовательными программами в более широком сообществе.

Rəyçi: Könül Abdurəhmanova
filologiya üzrə fəlsəfə doktoru, dosent

СЕВИНДЖ БАБАЕВА
Азербайджанский Государственный Университет
Нефти и Промышленности
sevinc.pedaqoq@gmail.com:

АКТИВИЗАЦИЯ УСТНОЙ РЕЧЕВОЙ ДЕЯТЕЛЬНОСТИ ИНОСТРАННЫХ СТУДЕНТОВ С ИСПОЛЬЗОВАНИЕМ ИГРОВЫХ ЗАДАНИЙ

Açar sözlər: oyun, oyun tapşırıqları,metodika, dialoqlar, qrammatik tapşırıqlar.
Ключевые слова: игра, игровые задания, методика, диалоги, грамматические задания.
Keywords: game, game task, method,dialogue, grammar tasks.

Владение языком есть деятельность, требующая развития автоматизированных навыков, творческих речевых умений и «чувства языка». Разумеется, знания, особенно лексические, грамматические, фонетические, составляют основу, на которой развиваются навыки этой деятельности.

Разрабатывая таким образом любой урок (подчеркнем это особо), надо всегда помнить, что мало только знаний и интенсивной учебной практики, вырабатывающей умения; высшей целью каждого урока является именно естественный целенаправленный обмен сообщениями между собеседниками. Надо создавать и расширять на уроке и вне его условия, в которых у учеников возникает настоятельная потребность использовать изучаемый язык в естественном общении друг с другом и с другими людьми. В этом и есть проявление методического принципа коммуникативности.

Как известно, одним из существенных недостатков в обучении языку взрослых является то, что преподавателю приходится обучать языку и речи как некоторой форме, в то время как учащийся давно уже привык пользоваться языком и речью для содержательных целей. Как известно, одним из существенных недостатков в обучении языку взрослых является то, что преподавателю приходится обучать языку и речи как некоторой *форме*, в то время как учащийся давно уже привык пользоваться языком и речью для *содержательных* целей.

Учащийся должен сам, без поддержки учителя и без опоры на структурные упражнения пытаться пользоваться русским языком для обмена мнениями с другими, и задача преподавателя – вовлечь учащихся в такую деятельность (или натолкнуть их на то, чтобы они

сами к ней пришли), которая внутренне для них интересна и протекает в контекстах естественного взаимодействия.

Интерес учащихся обычно вызывают ситуативные упражнения так называемого подготовительного типа, когда учащиеся реагируют на ситуацию одной определенной, но вполне осмысленной самостоятельной репликой. Например, «Вам нужно узнать, сколько стоит учебник (узнать возраст, адрес, имя, собеседника, узнать, где находится школа, вокзал, почта, … узнать, как пройти или проехать к кинотеатру, театру, площади, ресторану….), как вы спросите об этом по-русски». Или: «Вы хотите попросить принести (подать, купить, дать) что-либо, скажите это по-русски».Мы можем предложить учащимся разыграть ту или иную роль, например: роль робкого (или наоборот, самоуверенного) человека, пришедшего к зубному врачу; роль нового ученика, который хочет познакоитьсясо своими товарищами; роль человека, который хочет узнать побольше о своих соседях.Можно составить много подобных ситуативных заданий на различные лексико-грамматические темы. Они очень полезны. Выполнение таких упражнений развивает устную речь учащихся и их самостоятельность – умение спонтанно дополнять, уточнять реплики диалога.Большой простор для развития навыка свободной неподготовленной речи предоставляют различные игры. Элемент игры и умение «перенестись» в определенную обстановку очень важны на уроках русского языка. Они максимально приближают псевдокомуникацию к реальному речевому общению.Игры можно проводить на разных этапах обучения, в том числе на начальном, где они служат первой попыткой активизации знаний учащихся. При проведении игр присутствует элемент эмоциональности – веселья, небольшой разрядки, очень нужной учащимся любого возраста при усиленной работе над языком. Игры бывают устные и письменные; содержащий лингвистические и нелингвистические сведения – географические, исторические, культурно-бытовые и пр., помогающие тренировке и закреплению некоторых фонетических, лексических и грамматических явлений.Например, ученики по-очереди исполняют роль учителя, который входя в класс, здоровается и интересуется, где тот или иной ученик. Учащиеся хором отвечают: *Вот он (она),* показывая на товарища. Ученики по парам задают друг другу вопрос: *Где…?,* называя подлинные имена учеников и учениц класса.Лингвистические игры. Один из учащихся пишет какое-нибудь слово на листе бумаги. Остальные учащиеся задают ему вопросы. Он должен ответить на эти вопросы, употребляя написанное слово. Тот, кто первый догадается, какое слово было написано, пишет новое слово.

Вряд ли стоит доказывать необходимость использования шуток и юмористических рассказов (юморесок), полезность для развития устной речи разучивания песен, постановки пьес и т.п., что уже, правда, выходит за рамки только аудиторной работы.Игра позволяет создавать положительные эмоции, но и сама нуждается в предварительном эмоциональном настрое учащихся. Его можно создавать искусственно, например, шуткой. Если учащиеся в данный момент устали, подавлены, то предложение участвовать в игре может вызвать у них отрицательную реакцию.Обязательным условием успеха в работе по развитию устной речи является применение наглядности в учебном процессе, например рисунков. Поддержка упражнений в речи зрительной наглядностью не менее эффективна психологически, особенно для интенсивного запоминания, чем поддержка действием и ситуацией.Игра меняет взаимоотношения преподавателя с группой. С одной стороны, преподаватель должен руководить игрой, т.е. сохранять свое доминирущее положение в группе. В этом смысле его функции похожи на функции режиссера или тренера. С другой стороны, он не может руководить игрой без тесного взаимодействия с группой. Если преподаватель хочет пользоваться игровыми заданиями, ему нужно в первую очередь постараться понять, что представляет собой каждый учащийся как личность, и найти то, что может вызвать его собственный интерес к учащимся. Это обязательное условие, без которого все остальное теряет смысл.Игра позволяет создать между преподавателем и группой и между членами группы особые отношения доверительности, как любая другая форма приятной и полезной деятельности, требующая взаимопонимания и взаимодействия участников и предполагающая межличностные контакты. Совместная деятельность укрепляет положение преподавателя как организатора учебного процесса и повышает его профессиональный авторитет, сплачивает учебную группу, создает в ней непринужденные дружеские и одновременно деловые отношения, построенные на общности задачи взаимопомощи.Игра дает самому преподавателю огромное профессиональной удовлетворение, поскольку благодаря ей сам процесс обучения становится процессом непрерывного творчества в полном смысле этого слова. Весьма оживляет занятия, вызывает интерес и активность учащихся работа с набором рисунков и иллюстраций. Диапазон этой работы весьма широк. Таким образом вырабатывается навык говорения даже в тех случаях, когда словарный запас учащихся еще не велик.

Упражнения с рисункми имеют много преимуществ. Назовем некоторые из них. Когда учащийся выполняет обычное упражнение по тексту, преподаватель не может определить, понял ли он все слова в

предложении или только механически произнес либо переписал их. Если же он не знает слова, обозначающего понятие, которе изображено на риунке, это сразу становится очевидным. Убедившись, что он не знает какого-то слова или забыл его, учащийся посмотрит в словарь или спросит у преподавателя. Опыт показывает, что в этом случае он его не забудет, потому что слово в его сознании будет непосредственно связано со зрительным образом (особенно у учащихся с преимущественно зрительно-образной памятью, а их большинство).

Если в упражнении нужно ответить на вопрос или вставить то или иное слово в предложение, то это слово подсказывается рисунком. В некоторых учебниках рисунками заменяются те слова, которые обычно даются отдельно от предложений в исходной форме. Если вместо слова *книга*, дана картинка, то учащийся не видит, не фиксирует того окончания слова, которе для данного предложения является неправильным.Если преподаватель не собирается использовать все игровые знания последовательно, а планирует применять их эпизодически, он должен выработать определенную тактику поведения, которая позволяла бы в нужный момент перейти к игре. Если преподаватель держится подчеркнуто официально, то неожиданный переход к игре обескуражит учащихся и игровое задание не даст положительного эффекта. С другой стороны, если преподаватель слишком поддается настроениям группы, то игровое задание уведет учащихся от занятия: они будут делать то, что им интереснее, приятнее, легче, но имеет мало отношения к задачам учебного процесса. Поэтому преподаватель не должен быть однозначным в своем поведении, т.е. делать иногда то, что для учащихся неожиданно (например, задавать неожиданные вопросы, высказывать мысли по ассоциации, шутить); быть внимательным и благожелательным к учащимся, а также аворитетным и уверенным в своих методических поступкахи решениях.

В заключении хотим сказать, что несмотря на все трудности игра дает преподавателю такие возможности, такой творческий подъем и такое удовлетворение, что пользоваться ею стоит.

Литература:

1. «Методика преподавания русского языка как иностранного». Автор: Щукин.
2. «Методическое руководство для преподавателей русского языка иностранцам» Авторы: В.Г.Костомаров, О.Д.Митрофанова.
3. «Игровые задания» Авторы: П.Г.Чеботарев, Н.Б.Музруков.

4. «Пособие по развитию навыков устной речи для иностранцев». Академия Наук СССР, кафедра иностранных языков. Составители: В.А.Агошкова, А.К.Демидова, А.В. Алексеева.

S.Babayeva

Xarici tələbələrin şifahi nitqin aktivləşdirilməsində oyunlu tapşırıqların istifadəsi

Xülasə

Müəllif məqalədə rus dilinin xarici dil kimi öyrənilməsində oyunlu tapşırıqların əhəmiyyətindən bəhs edib danışır.

Oyunlu tapşırıqdan dərs zamanı istifadə etmək – tələbələrdə dilə marağı artırır. Tələbələr dil öyrənərkən qrammatik tapşırıqlarla yanaşı dialoqlardan da istifadə edirlər.

Müəllim dialoqları elə qurmalıdır ki, onlar oyun xarakteri daşısın. Belə oyunlu tapşırıqlar dərsdə sərbəst şəkildə keçirilir və tələbələrdə pozitiv əhval-ruhiyə yaradır.

Müəllim dərsə aid oyunlardan istifadə edərkən, taktiki metodlardan istifadə etməlidir. Dərsdə keçirilən və oyun xarakteri daşıyan tapşırıqlar dərs prosesinə və tələbələrə müsbət təsir göstərir.

S.Babaeva

Use of game assignments to activate verbal speech of foreign students

Summary

The author speaks about the importance of playing games in the Russian language as a foreign language.

Use of the game task in the lesson - increases the interest of the students in language. Students also use grammar exercises as well as dialogues when learning a language.

Teacher dialogues should be built so that they can be characterized by the nature of the game. Such game tasks are freely available in the classroom and create a positive mood in students.

The teacher should use tactical methods when using games related to the lesson. Classroom and game-based exercises have a positive effect on the course process and on students.

Rəyçi: Nərmin Musabəyova
filologiya elmləri namizədi, dosent

AYTƏN SADIQOVA
AzTU
Sadiqovayten@gmail.com

AZƏRBAYCAN DİLİNDƏ NİTQ NÜMUNƏLƏRİNİN TEONİM KOMPONENTLİ SEMANTİK SAHƏLƏRİ

Açar sözlər: Performativ xarakterlər, evfemistik nominasiya, pozitiv və neqativ anlam, semantik sahə
Ключевые слова: Выполнение характеристик, эвфемистического номинаций, положительное и отрицательное значение, семантическое поле
Key words: Performing Characteristics, euphemistic nominations, positive and negative meaning, semantic field

Nitq nümunələrinin teonim komponentin ekspisit leksik ifadəsi yer almasa da, onların türk dillərinə, habelə ingilis və ya rus dillərinə tərcüməsi zamanı hər hansı bir çətinlik yaşanacağını düşünmək yersizdir. Belə ki, istər digər türk topluluqları tərəfindən, istərsə də digər monoteist din ardıcılı olan xalqlar tərəfindən qavranılması asanlaşdıran başlıca məqam həmin ifadənin dini kitablarda əksini tapan doqmalara "eyham" əsasında (yəni allüziya fonunda) meydana gəlməsidir. "Rus dilində "Tanrı" və "şeytan" komponentli frazeoloji vahidləri" araşdırmış N.V.Şvedova İncil də Allahın "*Творец неба и земли*", yəni "*Yeri – göyü Yaradan*" adı altında təqdim edilməsi faktlarının mövculuğundan çıxış edərək, analoji ifadələrin dilin frazeoloji sisteminə asanlıqla yol tapa bildiyini vurğulamışdır. Müqəddəs kitabımız Qurani – Kərimin "Bəqərə", "Əli İmran", "Nisa", və digər surələrində də Allahın yeri – göyü yaratması, yerin – göyün tək Sahibi olması faktı dəfələrlə vurğulanır. Məsələn, "Əli İmran" surəsində oxuyuruq: "Göylərdə və yerdə olanlar Allaha məxsusdur" . "Mıxı mısmar eləyən var" ifadənin allüzial fonunun müəyyənləşdirilməsi istiqamətində təhlillər ilk olaraq, Yusif Vəzir Çəmənzəminlinin "İki od arasında" ("Qan içində") romanında təsvir edilən hadisələrə "eyham"ın kodlaşdırıldığını ortaya qoya bilər. Belə ki, Y.V.Çəmənzəminli əsərində XVIII əsrdə Qarabağ xanlığında baş vermiş tarixi hadisələr təsvir olunur. Müəllif Vaqifi zindana salan hökmdarın dəmirçilərə edam üçün çox sayda mıx hazırlamağı əmr etdiyini yazır. "Dan yeri söküləndə artıq şahın ölüm xəbəri şəhərə yayılmışdı. Dəmirçilərə xəbər gəldi ki, mıx lazım deyil, şahın cənazəsi üçün bir neçə mismar lazımdır. Bu xəbəri bilən baş dəmirçi alnının tərini silərək: – ***Ey mıxı mismara döndərən Allah***! – deyib, üzünü göyə tərəf çevirdi" [Y.V.Çəmənzəminli, II, 658]. Əsərdə təsvir edilən hadisələrin real faktlara istinad etməsini sübuta yetirən digər

dəlil qismində Molla Pənah Vaqifin öz qələmindən çıxmış və dostu Vidadiyə ünvanlamış olduğu "Bax" rədifli şeirində yer alan aşağıdakı misraları qeyd etmək olar:

Qurtaran əndişədən ahəngəri-biçarəni,
Şah üçün ol midbəri təbdil olan mismarə bax! [M.P.Vaqif, 156].

Müxtəlif müəlliflər tərəfindən qələmə alınmış "Qarabağnamə"lərə istinad etsək, həmin hadisənin real əsasa söykəndiyi ortaya çıxacaqdır. Belə ki, Mir Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ"ında, Həsən İxfa Əlizadənin "Şuşa şəhərinin tarixi"ndə, Əhməd bəy Cavanşir "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair" əsərində həmin hadisələr qeyd edilir. "Mıxı mismar eləyən var" ifadəsi və variantları özünün semantik məzmununa görə, daha çox xəbərdarlıq – təhdid xatırlatma mahiyyətli frazeolozm kimi ortaya çıxsa da, digərləri isə performativ xarakterli andları təcəssüm etdirən frazeoloji vahidlərdir: "Mıxı mismar edənə and olsun ki, ...". Əgər ikinci də evfemizm özünün allyuzial fonunu tam mənada işə salmırsa, birinci halda əsas yük məhz, vertikal kontekstə düşür. Belə ki, verbal situaisda "mıxı mismar eləyən var" ifadəsinin istifadə "ən gözlənilməz, ən inanılmaz işləri reallığa çevirən edən böyük qüvvə" informasiyasını adresata ötürməklə danışan, sanki, qarşıdakını və ya hər hansı bir üçüncü tərəfi müəyyən işlərdən çəkinməyə dəvət edə bilər. Eləcə də müəyyən irreal situasiyaların gerçəkləşməsindən duyduğu məmnunluğu ən dolğun və eyni zamanda ən lakonik biçimdə dilə gətirə bilər. Məsələn, aşağıda təqdim olunan geniş nümunədə, məhz, məmnunluq konnotasiyasının ifadə tapdığını sezmək müküdür: " – *Qardaş, nal lazım olmadı. Bu gecə padşah ölüb. Onun tabutu üçün beş-altı mismar düzəlt ver, aparaq. Onun üçün deyir ey:* ***Ey mıxı mismar eyləyən kişi****,Ey sayılı borcdan qurtaran kişi*".Aşağıdakı nümunədə isə artıq xəbərdarlıq – təhdid konnotasiyasının ön plana keçdiyini görürük:

O bombanm bir neçəsi atılarsa,
Yer kürəsi başdan-başa ölə bilər.
Hər şey, hər şey ola bilər,
Mıxı mismar eləyən var [Bəxtiyar Vahabzadə, I, 119]

Daha bir "xəbərdarlıq" mətnində oxuyuruq: "*Bir daha gözlərini qan tutan "qocalara" xatırladıram:* ***Mıxı mismar eləyən*** *Tanrı vardır*!". Və ya: "*Nə isə,* ***mıxı mismar eləyən*** *Allahı heç zaman yaddan çıxarmayın*…. Bəzi məqamlarda xəbərdarlıq məna yükünün içindən təsəlli konnatasiyası şaxələnir ki, bu da təhdid semantikasının yumşaldılmasına, ümid ifadəsinə çevrilməsinə yol açır. Məsələn: *Anası onu sakit eləyib dedi: – Oğul,* ***qəm yemə****,* ***mıxı mismar eləyən*** *Tanrı, bizə də* ***kömək durar***.

Bəzi hallarda isə həmin frazeologizm ümid mahiyyətli və ya müraciət – çağırış xarakterli məna ortaya qoyur ki, son nəticədə kontekst çərçivəsində dəyər-

ləndirmələr bu nümunələrdəki məzmunun Tanrının "yoxdan var eləmək" gücünə sığınmaqdan başqa bir şey olmadığını oratay qoyur. Məsələn: X ı r d a xanım (diz üstə üzü qibləyə). *Ya göy çadırın sahibi!* ***Ya mıxı mismara döndərən Tanrı****! Ya yoxdan bizi xəlq eləyən Tanrı! Imdad günüdür, yet dada*! [N.B.Vəzirov, 28]. Və ya digər nümunədə: "- *O axsağa hələ deməmişəm ki, xalçanı toxuyacam.* ***Mıxı mismara döndərən Allah var****, bilmək olmaz*…". Bu məqamda onu da əlavə edək ki, "Frazeologizm – oksümoronlar məsələsinə dair" adlı araşdırmasındaV.B.Sinyuk "özünün etik, estetik, emossional təsir gücünə görə ***frazeologizm – oksümoronların intensiv təsir gücünə malik olduğunu***" və bu səbəbdən də, "onlardan (frazeologizm- oksümoronlardan – A.S.) ***bir çoxunun uzuallaşdığını***" (kursiv bizimdir. – A.S.) vurğulamışdır.Bəzi tədqiqatçılar, konkret olaraq, E.G.Şestakova frazeologizm – oksümoronların uzuallaşma ehtiamalının belə yüksək dəyərələndirilməsi yanaşması ilə razılaşmayaraq, uzuallaşmanın oksümoronun təbiətində olan qeyri – adilik, qəfillik effektini azalda biləcyini iddia edir. Zənnizmizcə, "şeytan ruhlu mələk", "mələk cildli şeytan" kimi ifadələrin uğurla uzuallaşması və bununla bərabər özünün emosional təsir gücünü itirməməsi E.G.Şestakovanın mövqeyinin bir o qədər də adekvat olmadığını əyani şəkildə ortaya qoyur.Demonim komponentli frazeoloji vahidin teonimik fiqura qarşı qoyulması zamanı müşahidə edilən ən maraqlı faktlardan birini evfemizm keçidləri təşkil edir. Məsələn: Ə.Haqverdiyevin "Xortdanın cəhənnəm məκtubları" adlı əsərindən gətirilən iqtibasda yer alan frazeoloji vahiddə teonimik komponent tam eksplisit şəkildə ifadə tapsa da, "lənət ünvanlandırılan" demonim personaj evfemistik əvəzlənmə şəraitində implisit şəkildə ifadə olunmuşdur. Ən maraqlısı odur ki, müəllif özü həmin evfemistik keçidin izahatını təqdim etməyi də unutmur.

– ***Allahın lənəti sənin o κor gözünə gəlsin*** (*Məlumdur və "Nasixüttəvarix" dəyazılıb κi, Həzrət İbrahim əsrində, Həzrət Cəbrayıl mübarəκ qanadı ilə vurub şeytanın bir gözünü töκdü. Odur κi, şeytana lənət oxuyanda deyirlər "Lənət sənə gəlsin, κor şeytan"*) [Ə.Haqverdiyev, II, 65].

Teonim və demonim komponentli frazeoloji vahidlər özlüyündə əbədi barışmaz dixotomiyalarla bağlı anlayışları ehtiva etdiyindən onların məna spektrinin ilkin mərhələdə təhlili, məhz bu məqamla bağlı olmalıdır. Belə ki, özlüyündə xeyir və şər qüvvələrin ən mütləq ifadə formalarını əks etdirən teonimik və demonimik obrazların frazeoloji sistemdəki "davranışı" gözlənildiyi kimi birmənalı və şəffaf deyil. Belə ki, Azərbaycan dilinin frazeoloji sisteminin ən ötəri təhlili belə burada teonim komponentin mütləq şəkildə müsbət semantika ifadəsini şərtləndirmədiyini düşünməyə əsas verəcəkdir. Digər tərəfdən demonim komponentli frazeoloji vahidlərin semantik yük baxımından təhlili buradakı məna keçidlərinin, sadəcə olaraq, şər qüvvələrin xarakteristikasına müvafiq metaforalarla kifayətlənmədiyini əyani şəkildə ortaya qoyur. Bu mənada teonim komponentli frazeoloji vahidləri birinci mərhələdə aparıcı komponentin *xeyir, İlahi ədalətin*

başlanğıcı və daşıyıcısı missiyasına adekvat olan və olmayan ifadələr şəklində qruplaşdırmaq doğru olardı.

a) **pozitiv anlamlı**:*Allah yanından yan ötməyib, Allah heç nəyini əsirgəməyib; Allah – Təala mağmun etməyib; Allah adamı* və s.

b) **neqativ anlamlı** *Allah ağıl paylayanda, kənarda qalıb, Allahın gici* [N.Vəliyeva, 80]*, Allahın tənbəli; Allahın bəlası* [N.Vəliyeva, 80]; *Allah elə bil gözünü yumub* və s.

"Allah" komponentli frazeoloji vahidlərin əks etdirdikləri frazeosemantik sahələri ilə bağlı məsələnin mürəkkəbliyindən çıxış edərək tədqiqatçıların digər dillərdə yer alan analoji frazeoloji vahidlərin məna bölgüsü məsələsinə münasibətini müəyyənləşdirək. Belə ki, məlum olduğu kimi, frazeosemantik sahələr müəyyən dərəcədə universali mahiyyətinə malik olduğu üçün əsas özül, karkas semantik anlayışlar üçün az və ya çox dərəcəli ortaqlıq xasdır. "Semantik sahə vahidlərinin, yəni semaların (btütn element vahidlər üçün keçərli olan) ortaq mənaya istinad edən birləşməsini ehtiva edir. Habelə o (semantik sahə - A.S.) məna fəzasının nisbi avtonomluğu ilə, muxtariyyəti ilə səciyyələnən, habelə dil daşıyıcısının psixoloji reallığının davamediciliyi, bölünməzliyi ilə xarakterizə olunan birləşməsini təcəssüm etdirir". Rus, ingilis və dilimizlə yaxın qohum olan tara dilinin frazeoloji sistemini frazeosemantik sahələr üzrə müqayisəli təhlilini aparmış G.K.Gizatova qeyd edir ki, bu dillərdəki frazeosemantik sahələrdə ciddi ortaqlıq, analogiya halları müşahidə edilir .Sözsüz ki, bu ortaqlıq məqamında hər üç dil daşıyıcısı olan topluluqların "ibrahimi dinlər"ə etiqad etməsi heç də sonuncu rol oynamır. Məhz bu faktor "Allah" komponentli frazeoloji vahidlərdə semantik subsahə və mikrosahələrdəki paralellik məqamlarını şərtləndirmiş olur. Semantik sahədə vacib konstituyent (yəni tərtibləyici – A.S.) kimi nüvənin" fərqləndiyini qeyd edən İ.A.Voloşkina, nüvənin tərkibində mərkəz və periferik ("əyalət") frazeosemlərin mövcudluğuna diqqət çəkir ."Semantik sahənin söz və ifadələrin tematik sırası" olduğunu önə sürən L.L.Nelyubin qeyd edir ki, "insan yaddaşında semantik sahənin yaradılması müvafiq sahədə sərbəst ünsiyyətin vacib şərtidir" .3 "Son dövrlər ***frazeosemantik sahənin bir dil mənzərəsi fraqmenti olaraq*** (kursiv bizimdir. – A.S.) bir çox tədqiqatçıların diqqətini cəlb etdiyini" vurğulayan serb frazeoloqu Dr. Drakuliç – Priyma frazeosemantik sahənin müəyyənləşdirilməsi metodikasının frazeoloji araşdırmalarda xüsusi populyarlıq qazanmaqda olan tədqiqat üsulları sırasında yer aldığını qeyd edir. Belə ki, bu səpkili araşdırma,Dr.Drakuliç – Priymaya görə, "frazeoloji vahidlərin təbiətinin daha dərin dərkinə xidmət edir və onların sahədaxili paradiqmatik münasibətlərinin aşkara çıxarılmasına, dünyanın frazeoloji mənzərəsinin qurulmasına yardımçı olur".Teonim komponentli frazeoloji vahidlərin ən geniş spektri məna

yükünə malik olması bu növ frazeologizmlərin semantik sahə metodu üzrə təhlili məsələsində müəyyən çətinliklərə də yol açа bilir. Belə ki, bəzi hallarda tədqiqatçılar teonim komponentli frazeoloji vahidlərin transformasiya özəlliklərini nəzərə almadan, habelə onların polifunksional mahiyyətini diqqətdə saxlamadan bölgü aparırlar ki, bu da son nəticədə qeyri – adekvat semantik qruplaşdırmaların ortaya çıxmasına rəvac verir.“Müasir rus dilində “Allah” və “şeytan” komponentli frazeologizmlər”in geniş və çoxrakurslu struktur – semantik araşdırmasını aparmış N.V.Şvedova bu dilin frazeoloji sistemində “Allah” komponentinin üç növ semantik şaxələnmə törədə biləcəyini qeyd edir: 1) dünyanın, bəşərin, həyatın Yaradıcısı, başlanğıcı olan İlahi qüvvə kimi; 2) dünyada mövcud olan bütün mütləq həqiqət, ədalət, mütləq və şəksiz gözəllik, harmoniya, habelə dünyanı idarə edən ali təfəkkür simvolu kimi; 3) digər insanlar üzərində hökmranlığa malik olan bir şəxs kimi Azərbaycan dilinə tətbiqən, onu demək olar ki, bu semantik bölgü dilimizn frazeoloji sistemindəki “Allah” komponentinin semantik sahəsini dolğunluğu ilə açmır, daha dəqiq desək, bir çox linqvokoqnitiv özəlliklər həmin bölgünün tətbiqini bir qədər çətinləşdirir. İlk olaraq, onu deyək ki, Azərbaycan frazeoloji sistemində “Allah” komponentinin İlahi qüvvə olaraq dərkindən qaynaqlanan semantika, onun (Tanrının) mütləq həqiqəti simvolizə etməsinin etirafı ilə eyni məcrada mümkün olur.

ƏDƏBİYYAT:

1. Həsənov H.. Müasir Azərbaycan dilinin leksikası, Bakı: Bakı Universitetinin nəşriyyatı, 2001, 399 s.
2. Xalid M. Yalnızlığın rəsmi. Bakı: UniPrint, 2014, 150 s.
3. İmam Nəvəvi. «Riyazus-Salehin». 2011, 576 s
4. Kazımov Q. Seçilmiş əsərləri. 4 cilddə, Bakı, Nurlan, 2009, 528 s.
5. Mahmudova Q. Qıpçaq qrupu türk dillərinin frazeologiyası Türk dillərinin frazeologiyası. 3 cilddə. II c., Bakı: Nurlan, 2009, 296 s.
6. Mir Cəlal – 90. “Azərbaycan müəllimi” qəz., Bakı, 1998, 26 noyabr
7. Mirzəliyeva M. Türk dilləri frazeologiyasının nəzəri problemləri. Türk dillərinin frazeologiyası. 3 cilddə, I ., Bakı: Nurlan, 2009, 216 s.
8. Musa Y. Payıza baxıram. Şeirlər. Bakı: “Araz”, 2010, 386 s.
9. Ramiz R. Nəfəs. Kitablar kitabı. Bakı: Qanun, 2006, 760,
10. Байрамова Л.К. Фразеологическая судьба библеизмов и коранизмов // Язык. Культура. Деятельность: Восток-Запад. Наб. Челны: Издательво Нижегородского лингвистического университета, 1999. Т. II, с 83-85.

11. Бондаренко В.Т. Варьирование устойчивых фраз в русской речи: учебное пособие по спецкурсу. Тула: Изд-во ТГПУ им. Л.Н.Толстого, 1995, 151 с.

А.Садыгова

Новый подход к семантической группировке фонетических единиц теоретического компонента

Резюме

Во-первых, следует отметить, что желательно также провести другую группировку, параллельную распределению фонетических единиц, в которых компонент теоремы находится на начальной стадии, когда он является положительным или отрицательным носителем нагрузки. Поскольку мы проанализировали индивидуальный подход к применению метода фазосемантической поля, мы стали свидетелями различия между основным и периферийным чувством нагрузки в рамках этого подхода (подробнее см. В предыдущем разделе). В этой связи мы считаем целесообразным провести различие между теоретически-фразеологическими единицами, которые Бог (Бог, Творец и т. Д.) Учит как ведущую семантическую фигуру или периферийный образ. Таким образом, 1) TKFs в ядерном (и ведущем) положении теоретического компонента; 2) TKFs в периферийном положении теоретического компонента.Известно, что выражение «Аллаху акбар» представляет собой монотеистический текст, который является «исламским, который выражает превосходство, превосходство и превосходство». Текбир Азан используется в молитве (включая фестивали, похоронные молитвы), а также в религиозных браках, в битве (например, на поле битвы, призывая к войне). Даже если он используется в других частях молитвы, мусульманам абсолютно необходимо принести такбир в начале молитвы. Из сказанного ясно, что понимается, что когда «Бог - это место, где никто не слышит», это отдаленная, обитаемая область, где живет «нет» и по крайней мере не имеет под собой ноги мусульманина. И здесь не является сама теоретическая составляющая, но ритуальная сущность такбир, созданная с ее участием, играет решающее семантическое ядро.

Когда дело доходит до фрагментарных единиц, которые не находятся на периферии семантической нагрузки, компонент theonim можно выделить в следующих макросах: 1) макрос приложения; 2) процессуальность - макрос активности; 3) Существование - макрос характеристик; 3) Свидетельствование и макросъемка.

A.Sadiqova

A new approach to the semantic grouping of the phonetic units of the theoretical component

Summary

First, it should be noted that it is also desirable to carry out the other grouping parallel to the distribution of the phonetic units in which the theorem component is at the initial stage of being a positive or negative load bearer. As we have analyzed individual approach to the application of the frazeosemantic field method, we have witnessed a distinction between the basic and peripheral sense of burden within this approach (see more details in the preceding section). In this regard, we consider it appropriate to distinguish between the theoretically-frazeological units that God (God, Creator, etc.) teaches as a leading semantic figure or peripheral image. Thus, 1) TKFs in the nuclear (and leading) position of the theoretical component; 2) TKFs in the peripheral position of the theoretical component. In the latter group, we can consider the frazeological horizontally expressing the meaning of "Allahu - Akbar", "The place where Allahu akbar is not heard" [V.Valiyeva, 81], ie, "a place not far away". Thus, in this expression, the theoretical component itself does not have the definition of what procedural essence (such as pleasing God, perverting God, etc.) or characteristic (God, man, God, God's share, etc.) does not perform. In the frazeological units presented, the theoretical component is used as part of the ready citation. It is known that the expression "Allahu akbar" constitutes the monotheistic text, which is "Islamic, which expresses superiority, superiority and supremacy". Tekbir Azan is used in prayer (including festivals, funeral prayers), as well as in religious marriage, in warfare (like a battlefield, calling for war. Even if it is used in the other parts of the prayer, it is absolutely essential for the Muslims to bring the takbir at the beginning of the prayer. It is clear from the above that it is understood that when a "God is a place where no one is heard," a distant, inhabitable area where "no" person lives and at least does not have the foot of a Muslim. And here is not the theoretical component itself, but the ritual essence of the takbir, which was created by its participation, plays a crucial semantic nucleus. When it comes to frazeological units that are not in the periphery of the semantic load, theonim component can be distinguished within the following macros: 1) Application macro; 2) processuality - activity macro; 3) Existence - Characterization macro; 3) Witnessing and macro.

Rəyçi: Nəriman Seyidəliyev
filologiya üzrə elmlər doktoru

ŞƏLALƏ XƏLİLZADƏ
ADPU
shelale.93.xelilzade@gmail.com

MÜBTƏDA BUDAQ CÜMLƏSİNİN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN ƏLVERİŞLİ ÜSULLAR

Açar sözlər: Fəal/interaktiv təlim, müasir dərsin mərhələləri, mübtəda budaq cümləsi, baş cümlə, budaq cümlə.
Ключевые слова: активное/интерактивное обучение, этапы современного урока, придаточное предложение подлежащее, главное предложение, придаточное предложение.
Key words: Active / interactive training, stages of modern lesson, subject clause, main (head) clause, subordinate clause.

Orta məktəblərdə tabeli mürəkkəb cümləni keçməzdən əvvəl şagirdlərdə mürəkkəb cümlə anlayışı, tabesiz mürəkkəb cümlələr haqqında müəyyən məlumatlar olur. Biz tabeli mürəkkəb cümləni tədris edərkən bu biliklərə əsaslanmalıyıq. Tabeli mürəkkəb cümlələrin daha yaxşı qavranılması üçün müəyyən üsullardan istifadə olunur. Bunlardan biri də sxem üsuludur. Bu üsul vasitəsilə baş cümlə yazılır və sual verilir , budaq cümlə baş cümləyə verilmiş sual əsasında müəyyən olunur. Məsələn; Bu da həqiqətdir, ağılın çoxluğu yaşın böyük-kiçikliyi ilə ölçülməz.

Bu da həqiqətdir-

Nə?

ağılın çoxluğu yaşın böyük-kiçikliyi ilə ölçülməz.

“ Bu” sozü baş cümlənin tam formalaşa bilməyən mübtədasıdır, bu formalaşma budaq cümlə vasitəsil iə tamamlanır. Bu cür budaq cümləyə mübtəda budaq cümləsi deyilir.

Təyin budaq cümlələrini də sxem üsulu ilə tədris etmək olar. Məsələn; Elə haqq var ki, gülüm, haqqın özündən uludur. (B. Vahabzadə)

Elə haqq var ki

Necə?

haqqın özündən uludur.

Şagirdlər budaq cümlənin baş cümlənin xəbərini izah etdiyini görüb belə nəticə çıxara bilərlər ki, budaq cümlə tərzi hərəkət budaq cümləsidir. Ancaq müəllim izah etməlidir ki, necə sualına cavab verən budaq cümlə baş cümlənin ismi xəbərinə aiddirsə, təyin, feili xəbərinə aiddirsə, tərzi hərəkət budaq cümləsi hesab olunur. Bizim verdiyimiz nümunədə budaq cümlə baş cümlədəki ismi xəbərə aid olduğuna görə təyin budaq cümləsi olur.

Sxem üsulu bəzən öz əhəmiyyətini itirmiş olur. Bu hal o zaman baş verir ki, şagird aşağı siniflərdə cümlə üzvləri bəhsini kifayət qədər mənimsəməsin. Əgər müəllim tabeli mürəkkəb cümlə haqqında ilk dərs olaraq çıxış edirsə, bu zaman sxem üsulu deyil, başqa üsullar tətbiq etməlidir. Çünki müəllim ilk olaraq tabeli mürəkkəb cümlə anlayışını şagirdin diqqətinə çatdırmalı, sonra isə onun budaq cümlələrə görə növünü qeyd etməlidir. Bu zaman müəllim dərsə bu cür giriş edə bilər: Uşaqlar biz mürəkkəb cümlə, tabesiz mürəkkəb cümlə haqqında müəyyən biliyə malik olduq. Mürəkkəb cümlə bəhsini keçərkən qeyd etdik ki, mürəkkəb cümlənin iki növü var: Tabesiz və tabeli mürəkkəb cümlələr. Tabesizlik bağlayıcıları ilə bağlanan mürəkkəb cümlələr tabesiz, tabelilik bağlayıcıları ilə bağlanan tabeli murəkkəb cümlələrdir. Tabeli mürəkkəb cümlələr iki hissədən ibarətdir: baş və budaq cümlələr. Baş cümlə müstəqil, budaq cümlə isə ondan asılı olur. Məsələn : İlk dəfə idi ki, əli-qolu sarıqlı yerə sərilmişdi (M.C). Bu cümlədə ilk dəfə idi ki – deyib dayansaq, sual meydana çıxar. Nə?. Bu sualın cavabın biz budaq cümlə vasitəsi ilə tapırıq. Baş cümlə burda müstəqil, budaq cümlə isə ondan asılı olur. Müəllim bu cümləni izah edərkən elə buradaca həmin cümləni sadə cümləyə çevirib, təhlil apara bilər.

Bilirik ki, yeni təlim metodunda müəllim bələdçi rolunu oynayır. O, sadəcə şagirdlərə istiqamət verməlidir. Tabeli mürəkkəb cümlələrdə bu istiqamət necə qurula bilər? Müəllim şagirdlərə tabeli mürəkkəb cümlə haqqında qısa məlumat verdikdən sonra onlardan tabeli mürəkkəb cümləyə aid nümunələr istəyə bilər. Hər bir şagird nümunə deyir və müəllim budaq cümlənin növlərinə uyğun olanları lövhədə yazır. Hər bir növə uyğun bir nümunə qeyd edilir. Və müəllim şagirdlərin öz dedikləri nümunələr əsasında budaq cümlənin növlərin izah edir. Budaq cümlənin növləri məlum olduqdan sonra onlar ayrı-ayrılıqda tədris olunmağa başlayır.

Yeni dərs mübtəda budaq cümləsidirsə, müəllim bunu əvvəlcədən uşaqlar demir. Dərs zamanı elə suallar qoymalıdır ki, artıq şagird suala cavab verərək özü mövzunun nə olduğunu qeyd etsin. Məsələn, müəllim əvvəlcədən evə tapşırıq verir ki, hər bir şagird on mürəkkəb cümlə yazsın. Sonrakı dərs həmin cümlələr oxunur və müəllim frontal sorğu verərək deyir ki, baş cümləsi kim?, nə? Suallarına cavab verən hansı mürəkkəb cümlələri yazmısınız? Bunlarin bir neçəsi lövhədə yazılır və müəllim kim? və nə? suallarının hansı cümlə üzvünün sualı olduğunu soruşur. Şagirdlər əgər cümlə üzvünü yaxşı mənimsəyibsə, bunun mübtəda olduğunu qeyd edəcəklər. Deməli, müəllim bildirir ki, baş cümlənin xəbəri hansı suala cavab verirsə, budaq cümlə həmin sualın cavabıdır. Kim?, nə? suallari mübtədaya aid olduğu üçün budaq cümlənin növü mübtəda budaq cümləsidir. Baş cümləsində əvəzlik-qəlib işlənmiş cümlənin altından müəllim xətt çəkir və sinifə sual verir ki, baş cümlədə işlənmiş əvəzlik

əvəzliyin hansı növüdür. Şagirdlər bunun işarə əvəzliyi olduğunu qeyd edirlər. Müəllim işarə əvəzliyinin baş cümlədə hansı suala cavab verdiyini soruşur. Kim?, nə ? suallarından birinə cavab olduğunu qeyd edirlər. Məsələn; O da məhz bu hissiyata görədir ki, hər kəs bu dünyada çiynini ancaq gücü çatan yükün altına verir - cümləsində baş cümlədə O işarə əvəzliyi nə? sualına cavab verir, onun cavabı budaq cümlə vasitəsi ilə açılır. Burda müəllim qeyd etməlidir ki, baş cümlədə işlənən əvəzlik- tabeli mürəkkəb cümlədə əvəzlik-qəlib adlanır və o budaq cümlənin növünə uyğun gələn suallara cavab verir. Bu məlumatı qeyd edərkən müəllim sual əvəzliklərinə də toxunmalı, onların isə budaq cümlənin tərkibində iştirak etdiyini qeyd etməlidir. Məsələn: Kim ki öyrənməyi bilməyirsə ar, sudan dürr, daşdan da gövhər çıxardar. (N.Gəncəvi). Şagird bilməlidir ki, sual əvəzliyi budaq cümlənin tərkibində iştirak edir və bu zaman budaq cümlə baş cümlədən əvvəl gəlir, qalan hallarda baş cümlə budaq cümlədən əvvəl gəlir. Bu dediklərimiz mübtəda budaq cümləsinə aiddir. Yazdığımız nümunədə kim sual əvəzliyidir, özü sual tələb etmir. Əvəzlik-qəlibdən fərqli olaraq, sual əvəzliyi budaq cümlənin növünu təyin etmir. Bu nümunədə sudan dürr, daşdan da gövhər çıxardar hissəsi baş cümlədir və kim? sualına cavab verir, öyrənməyi ar bilməyənlər isə budaq cümlədir və həmin sualın cavabıdır.

Biz burda mübtəda budaq cümləsinin tədrisini qeyd etdik, digər budaq cümlələr də bu şəkildə tədris oluna bilər.

Tabeli mürəkkəb cümlənin tədrisində istifadə etdiyimiz üsullar şagirdin aşağı siniflərdə öyrəndiyi bilikləri təkrar etməsinə səbəb olur. Sxem qurarkən şagird baş cümləni təhlil edir, bu təhlil şagirdin cümlə üzvü haqqında biliyini təzələyir. Şagird yeni dərsi öyrənərkən fənndaxili əlaqəyə də müraciət edir və köhnə dərslə yeni dərs arasında inteqrasiya yaradılır. Müqayisə üsulu ilə müəllim şagirdlərin diqqətinə oxşar olan, hansı ki şagirdlərin daha çox qarışdırdığı budaq cümlələri öyrədə bilər.

Fəal dərsdən bəhs etmişkən bir dərs nümunəsinə nəzər salaq:

Mövzu: “Mübtəda budaq cümləsi”nin tədrisi.

Burada: 1.2.2.;1.2.4.;2.2.3.;3.1.3 standartlarından istifadə olunacaqdır.

Məqsəd: 1. Mübtəda budaq cümləsi haqqında məlumat vermək. 2. Mübtəda budaq cümləsinin ifadə vasitələrini göstərmək. 3. Mübtəda budaq cümləsi haqqında nümunə göstərmək.

İnteqrasiya: Azərbaycan dili: 2.2.3.; 3.1.2.;

İş forması: qruplarla iş, cütlərlə iş.

İş üsulu: şaxələndirmə,anlayışın çıxarılması.

Resurslar: dərslik, iş vərəqləri, proyektor.

Dərsin gedişi:

Dərsə fəallaşdırma ilə başlayıram. Lövhədə mübtəda budaq cümləsinə aid bir nümunə yazıram. Əvvəlcə baş cümləni yazıram "İlk dəfə idi ki," və şagirdlərdən baş cümləyə sual vermələrini tapşırıram, suala uyğun olaraq cümləni tamamlamağı bildirirəm. Şagirdlər baş cümlənin sualını tapır və "nə?" sualına cavab verdiyini bildirirlər, cümləni davam eletdirir. İlk dəfə idi ki, əli-qolu sarıqlı yerə sərilmişdi .(M.C) Cümləni tamamladıqdan sonra verilən sualın hansı cümlə üzvünə aid olduğunu soruşuram. Cavabda mübtəda olduğunu qeyd edirlər və cümlənin mübtəda budaq cümləsi olduğunu bildirirəm.

Tədqiqat sualı: Mübtəda budaq cümləsinin əlaqə vasitələrini aydınlaşdırın. Tədqiqat aparmaq üçün şagirdlər 3 qrupa bölünürlər. Qruplara ad və liderlər seçilir. İş vərəqələrini qruplara paylayıram.

İş vərəqi 1. I qrup: sualları və cavabları.

Tapşırıq 1. Kim ki zəhmət çəkir, bəhrəsini görər. Cümləsində baş və budaq cümləsinin yerini müəyyənləşdirin və hansı əlaqə vasitəsilə bağlandığını qeyd edin.

Cavab : Şagirdlər qeyd edir ki, budaq cümlə baş cümlədən əvvəl gəlib və intonasiya ilə bağlanıb.

İş vərəqi2: II qrup: O da məlumdur ki, doğruya zaval yoxdur. Cümlədə baş və budaq cümlənin yerini müəyyənləşdirin. Hansı əlaqə vasitəsilə bağlandığını qeyd edin.

Cavab: Şagirdlər qeyd edir ki, baş cümlə budaq cümlədən əvvəl gəlib və tabelilik bağlayıcısı ilə bağlanıb.

İş vərəqi3: III qrup: Hər kim gəncliyini zəhmətsiz keçirsə, o, gələcəkdə peşman olacaqdır. Cümləsində baş və budaq cümlənin yerini müəyyənləşdirin və əlaqə vasitəsini göstərin.

Cavab: Budaq cümlə baş cümlədən əvvəl gəlib, intonasiya ilə bağlanıb.

III. Məlumat mübadiləsi.

Verilmiş vaxt tamam olduqdan sonra qruplar öz işlərini təqdim edir, informasiya mübadiləsi başlayır.

IV. Məlumatın müzakirəsi və təhlili.


Bu mərhələdə digər qruplar da cavablara əlavələr edir, qaranlıq məqamlara aydınlıq gətirirlər.

V. Nəticələrin çıxarılması və ümumiləşdirilməsi.

Qrupların təqdimatını dinlədikdən sonra belə ümumiləşdirirəm: Hesab edirəm ki, qrupların cavabları qənaətbəxşdir. Qruplar verilən suallara uyğun özləri əlavə cümlələr söyləyirlər.

VI. Yaradıcı tətbiqetmə. Şagirdlər Sinkveyn üsulu ilə öyrəndikləri mövzunu üç-dörd cümlə ilə ifadə edirlər. Şaxələndirmə üsulu ilə şagirdlər lövhədə mübtəda budaq cümləsinə aid öyrəndiklərini qeyd edirlər.

Mübtəda budaq cümləsi



VII. Qiymətləndirmə. Bilik və bacarıqları şagirdlərin iştirakı ilə müəyyən meyarlar üzrə qiymətləndirirəm.

Ev tapşırığı. Evdə mübtəda budaq cümləsinə aid nümunələr yazmağı tapşırıram.

Beləliklə, şagirdlər fəal dərs vasitəsilə mübtəda budaq cümləsini öyrənir, onun praktik cəhətdən tətbiq etməyi bacarırlar. Fəal dərs zamanı şagirdlərin qruplara bölünməsi şagirdlər arasında əməkdaşlığı, ünsiyyəti formalaşdırır. Eyni zamanda tədqiqatçılıq bacarıqlarını inkişaf etdirir.

Sonra onu qeyd etmək olar ki, müasir dərsin əsas məqsədi şagirləri müasir təhsil prinsiplərinə əsaslanan bilik, bacarıq və vərdişlərə

yiyələndirmək, vətəninə, dövlətinə, xalqına, onun adət-ənənələrinə bələd olan, milli dəyərlər zəminində yerləşən,sağlam düşüncəli gənclər yetişdirməkdir.

İstifadə olunmuş ədəbiyyat:

1. Ə.Abdullayev "Müasir Azərbaycan dili" 4-cü hissə Bakı, 2007.
2. H. Balıyev, A. Balıyev " Müasir Azərbaycan dilinin tədrisi metodikası" Bakı, 2014.
3. Kurrikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı, " Kövsər" nəşriyyatı, 2008, 224s
4. Q. Kazımov " Müasir Azərbaycan dili sintaksis" Bakı, 2008
5. M. Həsənov " Azərbaycan dili sintaksisinin tədrisinin linqvistik-didaktik əsasları" Bakı, 1988
6. V. Qurbanov " Azərbaycan dilinin tədrisi metodikası" Bakı, 2014
7. Z. Veysova " Fəal/ interaktiv təlim" Bakı, 2015

Ш. Халилзаде

Удобные методы, используемые при преподавании предметной статьи

Резюме

Одним из важнейших вопросов является использование активного / интерактивного обучения на уроках азербайджанского языка. Азербайджанский язык как предмет обучения имеет большое значение для развития учеников. При преподавании этих предметав учитель должен использовать достижения научно-технического прогресса, одновременно с приоритетами современного урока. Каждый урок, соответствующий этапам занятий, указанными в Куррикулуме , должен служить основой для развития интеллекта школьников.

Основная цель современного образования состоит в том, чтобы воспитывать человека, который глубоко поглотил предмет обучения, способен самостоятельно мыслить, объективно приближаться к событиям жизни и находить выход из любой ситуации, в которой он падает. Поэтому использование прогрессивных методов в системе образования постоянно обновляемого мира является одним из наиболее важных вопросов.

Sh.Khalilzadeh

Convinent methods used in teaching of subject clause.

Summary

Use of active / interactive training in the Azerbaijani language lessons is one of the most important issues. The Azerbaijani language is of great importance in the development of students as a subject of training (learning). When teaching these lessons, the teacher should also benefit from the achievements of modern science at the same time from the achievements of scientific and technical progress. Each lesson, in line with the stages of the lesson shown in the curriculum, should pave the way for the development of student intelligence.

The main purpose of modern education is to educate a person who deeply absorbed the teaching subject, is able to think independently, objectively approach the events of life, and find a way out of every situation he falls. Therefore, the use of progressive methods in the education system of the constantly renewed world is one of the most important issues.

Rəyçi: Rəhilə Hümmətova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SABINA ZULFUGAROVA
Azerbaijan State Oil and İndustry University
sabazulf@gmail.com

THE ELEMENTS OF LANGUAGE

Key words: language, word, grammar, speech, writing, meaning, alternative symbols
Ключевые слова: язык, слово, грамматика, речь, письмо, смысл, альтернативные символы
Açar sözlər: dil, söz, qrammatika, nitq, yazı, məna, alternativ simvollar

The term *natural language* is applied to any language that has evolved spontaneously within a community. An example is the English language, which I am doing my best to write these notes in. This natural, spontaneous evolution distinguishes the natural languages from the artificial languages. The latter include computer programming languages, as well as languages which have been deliberately designed and constructed for human use.

Communication by means of a language can obviously only work if the sender and the receiver have a language in common, at least to some degree, and use it. This *common language requirement* is not negotiable. After all, the representation and transfer of information discussed in Appendix 1 would be useless if the representation meant nothing to the receiver upon its arrival.

Whether natural or artificial, any language is a type of *code*, which relies on agreed rules for its functionality. Essentially, these rules determine the meanings of the elements of the language, and also the ways in which those elements are used.

The most basic elements of a natural language are its words, and the rather fluid rules governing the usage of the words are generally called its grammar. The context in which words are used also provides vital information about their meaning. That is a nice simple way of looking at language, but in fact everything about language is hotly debated, and the debates are often far from simple.

Firstly, it must be remembered that the meanings ascribed to words change constantly, and there are many deliberate changes instituted by subcultures, for example. Secondly, grammar is no longer thought of simply as a set of rules governing structure and usage. Rather, it has come to be seen as a way to describe what can be observed as recurring language patterns, and the way those patterns function, in different cultures and subcultures.

Despite the rather uncooperative tendencies of words and grammar, and the variable dimensions of context, information encoded as a natural language can be exchanged in practice by one person listening while another person is speaking, or by one person reading what another person has written. Each of the four activities mentioned, listening, speaking, reading and writing, depends on vocabulary, grammar and context.

Words. To satisfy the common language requirement referred to above, those who wish to communicate using a language must know the meanings of a sufficient number of words for the purposes of the topic involved. Each word in a language has one (or often more than one) defined and agreed meaning. Because of this, *that word can be used for that meaning*. Then, later, *that meaning can be derived from that word.*

Significantly, a word does not look, sound or feel like the thing it represents (though there are a few instances in which the sound of a word is at least compatible with its meaning). However, because the word's meaning is already known to both sender and receiver, this does not matter. Whenever a word is used, it represents the thing(s) that it is known to represent.

When a word has more than one meaning, or when the meaning itself is not very precise, the use of that word might cause a variable degree of ambiguity. However, as mentioned above, the context usually clarifies the meaning. In natural languages, the importance of context is enormous, because a word or phrase very often has more than one possible meaning.

Despite the possibility of having more than one meaning, a word is often more *precise* than other methods of representation, such as gestures or pictures. Further, because one word can represent quite a lot of meaning, the use of words can save time, increasing the *efficiency* of communication.

Yet another advantage is that, if it is subjected to deliberate processing in any reversible way, the meaning of each word will be preserved after that change has been reversed – which is often extremely *convenient*. The use of words therefore brings with it the benefits of *precision*, *efficiency* and *convenience* – though none of these qualities is invariable.

Grammar. For all their precision, efficiency and convenience, and despite the invaluable assistance provided by the context in which they are used, words still require some further help to do their job effectively. That help comes in the form of the grammar mentioned above, which, though no longer seen simply as a set of rules, nevertheless provides information which is essential to achieving particular meanings in particular contexts.

Without such help, words might not be understood in the same way by the sender and the receiver – at worst, the appropriate collection of words could still result in a meaningless "word salad". Grammar influences

the *order* in which words appear, and also dictates small but important changes in their *form*, which add vital temporal or relational information.

In the case of most natural languages, the gradual and haphazard evolution of grammar has resulted in many exceptions to its own rules! This makes it very difficult to master the grammar of a new language as an adult – though young children often absorb it without too much difficulty.

When grammar includes as many irregularities as it does in English, it becomes quite difficult to describe. Indeed, there are currently a number of approaches to English grammar. When I was at school, the favored approach was to ignore the formal application of grammar almost completely – which may explain a few things about this book. However, that approach is not usually very helpful to those learning a second language.

Speech and Writing. The knowledge of words and grammar allows the creation of properly organized *groups* of words which, together with the context, can provide very useful information to the receiver. However, this requires a suitable method by which to transfer parcels of language from sender to receiver.

As is often the case when exchanging information, this may require a change in form. Here, the encoding which is a central feature of language is a great advantage, as it makes *recoding* into a suitable form relatively easy. Perhaps the most useful example is the recoding of *audible* speech into *visible* writing.

Originally, the individual words in natural languages like English were recognized by the way they *sounded*. However, fairly simple rules can be devised, which allow words to be represented as written or printed *text*. That allows them to be recognized by the way they *look*. They can then be received via the visual input, instead of by the auditory input.

One way of doing this is to construct the words from a relatively small number of symbols, each of which represents one sound (or occasionally two or more possible sounds). Various special symbols, especially numbers, can then be added. The *alphanumeric characters* from which the text you are reading is constructed provide an example of this approach.

The spelling and pronunciation of words must be agreed, so that the words can be written or spoken in ways that will be recognized by the receiver. Major exceptions to these rules may prevent a word from being understood, or alternatively may cause it to be misunderstood. Minor variations such as spelling errors and regional accents, or greater variations such as are found in dialects, will be tolerated to a degree which depends on the skills of the receiver. Native speakers can usually adjust for considerable variations in spelling or pronunciation.

For those who learn a language in early childhood, many of the things discussed above are learned almost automatically – though reading and writing require specific learning efforts. For those who are learning a new language as an adult, the learning of all the prerequisites requires considerable effort. Similarities, if any, between the new language and a language already known, naturally lessen the difficulty of the process.

Alternative Symbols. The various *sign languages* used by people whose hearing is impaired are examples of another way of recoding speech to allow it to enter via the visual input. Alternatively, if vision is impaired, alphanumeric characters can be made palpable, usually in the form of the *braille* symbols which were mentioned under Inputs, so that words can be recognized by the way they feel. In some languages, pictograms (or pictographs) are used instead of alphanumeric characters. Pictograms are graphic representations which to some extent evoke the thing represented, so a new or modified character is needed for every word. This results in a very large number of characters, which takes a great deal of time and effort to learn. On the other hand, these languages can be very efficient, as a single character can represent a whole word, or a whole idea. A message consisting of words may thus be received by any of the three main inputs: visual, auditory or tactile. Writing, printing, pictograms and sign language can be seen; spoken words or words reproduced via loudspeakers or headphones can be heard; and braille symbols can be felt.

REFERENCES

*A*ikhenvald, Alexandra *(2001). "Introduction". problems in comparative linguistics. Oxford University Press. p 1–26.*

Aitchison, Jean *(2001). Language Change: (3rd (1st edition 1981) ed.). Cambridge, New York, Melbourne: Cambridge University Press.*

Allerton, D. J. (1989). "Language as Form and Pattern: Grammar and its Categories". In Collinge, N.E. An Encyclopedia of Language. London:-NewYork: Routledge.

S.Zülfüqarova

Dil elementləri
Xülasə

Təbii bir dilin ən əsas elementləri onun sözləridir və sözlərin istifadəsini tənzimləyən olduqca vacib qaydalar ümumiyyətlə qrammatika adlanır. Sözlərdən istifadə edilən kontekst də onların mənaları haqqında mühüm məlumatlar verir. Bu, dil baxımından gözəl sadə bir yoldur, amma əslində dil haqqında hər şey rahat bir şəkildə müzakirə olunur və bu müzakirələr adətən sadə olur.

Birincisi, yadda saxlanılmalıdır ki, sözlərə söykənən mənalar daim dəyişir və tətbiq edilən bir çox dəyişikliklər mövcuddur.

İkincisi, qrammatika artıq quruluşu və istifadəni tənzimləyən bir sıra qaydalar kimi düşünülməmişdir. Əksinə, müxtəlif mədəniyyətlər və alt mədəniyyətlərdə təkrarlanan dil nümunələri və bu nümunələrin necə işlənildiyi kimi təsvir edilə biləcək bir təsəvvür kimi təsvir edilmişdir.

С.Зульфугарова

Языковые элементы
Резюме

Самыми основными элементами естественного языка являются его слова, а довольно гибкие правила, регулирующие использование слов, обычно называются его грамматикой. Контекст, в котором используются слова, также предоставляет важную информацию об их значении. Это хороший простой способ взглянуть на язык, но на самом деле все о языке горячо обсуждается, и дебаты часто далеки от простых.

Во-первых, следует помнить, что значения, приписываемые словам, постоянно меняются, и, например, существует множество преднамеренных изменений, установленных субкультурами.

Во-вторых, грамматика больше не рассматривается просто как набор правил, регулирующих структуру и использование. Скорее, это стало рассматриваться как способ описать то, что можно наблюдать как повторяющиеся языковые шаблоны, и то, как эти шаблоны функционируют в разных культурах и субкультурах.

Rəyçi: **Rəna Şamiyeva**
filologiya elmləri namizədi, dosent

LALA İLDRIMZADA
Azerbaijan State Oil and Industry University
lalai2706@outlook.com

ENGLISH PHRASAL VERBS

Key words: phrasal verbs, meaning, preposition, context, language, transitive, intransitive
Ключевые слова: фразовые глаголы, смысл, предлог, контекст, язык, переходный, непереходный
Açar sözlər: frazeoloji fellər, məna, sözönü, kontekst, dil, təsirli, təsirsiz

A phrasal verb is a combination of a verb and preposition, a verb and an adverb, or a verb with both an adverb and a preposition.

A phrasal verb has a meaning which is different from the original verb. That's what makes them fun, but confusing. You may need to try to guess the meaning from the context, or, failing that, look it up in a dictionary.

The adverb or preposition that follows the verb are sometimes called a particle. The particle changes the meaning of the phrasal verb in idiomatic ways.

They are also known as 'compound verbs', 'verb-adverb combinations', 'verb-particle constructions', 'two-part words/verbs' and 'three-part words/verbs' (depending on the number of words).Phrasal verbs are usually used informally in everyday speech as opposed to the more formal Latinate verbs, such as "to get together" rather than "to congregate", "to put off" rather than "to postpone", or "to get out" rather than "to exit". They should be avoided in academic writing.

Some linguists differentiate between phrasal verbs and prepositional verbs, while others assume them to be part of one and the same construction, as both types are phrasal in nature. So, unless you want to become a linguist, don't worry about it.

Many verbs in English can be combined with an adverb or a preposition, a phrasal verb used in a literal sense with a preposition is easy to understand.

- He *walked across* the square.

Verb and adverb constructions are also easy to understand when used literally.

- "She opened the shutters and *looked outside*."
- "When he heard the crash, he *looked up*."

An adverb in a literal phrasal verb modifies the verb it is attached to, and a preposition links the subject to the verb.

It is, however, the figurative or idiomatic application in everyday speech which makes phrasal verbs so important:

- "I hope you will *get over* your operation quickly."

The literal meaning of "to get over", in the sense of "to climb over something to get to the other side", is not relevant here. Here "get over" means "recover from" or "feel better".

A further way of considering phrasal verbs is whether they are separable or inseparable. In inseparable verbs, the object comes after the particle. For example: "She *got on* the bus ." "On weekdays, we *look after* our grandchildren."

Separable verbs have several ways of separating verb, particle and object. Usually, the object comes between verb and particle. For example: "She *looked up* the word in her dictionary." "She *looked* it *up* in her dictionary." However, with some separable verbs, the object can come before or after the particle. For example: "*Switch* the light *off*." "*Switch off* the light." "*Switch* it *off*."

There is usually no way of telling whether they are separable, inseparable, transitive or intransitive. In most cases you have to develop a feel for the correct use.

Phrasal verbs are a common verb form in the English language. Also called verb-particle constructions, the simplest definition of phrasal verbs is a verb plus one or more p-words. Other common definitions of the English phrasal verb include the following descriptions:

- an English verb followed by one or more particles where the combination behaves as a syntactic and semantic unit
- a verb and one or more additional words, having the function of a verb
- a verb plus a preposition or adverb which creates a meaning different from the original verb
- idiomatic expressions, combining verbs and prepositions to make new verbs whose meaning is often not obvious from the dictionary definitions of the individual words
- formed by a verb phrase followed by a marooned preposition, the phrasal verb forms a semantic constituent whose meaning is not determined by the verb phrase or preposition as individual parts but rather by the whole phrasal verb as a single lexical item

English phrasal verbs additionally fall into four different categories based on transitivity and separability: 1. Intransitive; 2. Nonseparable

transitive; 3. Optionally separable transitive; 4. Obligatorily separable transitive

The following sections discuss the form and origin of phrasal verbs in the English language as well as the differences between the four types of phrasal verbs.

They are formed by a verb plus one or more p-words, phrasal verbs are a periphrastic verb form. Periphrasis means that a phrase of two or more words express a grammatical relationship that could otherwise be expressed through the inflection of a single word. For example, the comparative adjective *more interesting* is an example of periphrasis as opposed to the comparative adjective *cuter*, which is not an example of periphrasis. The meaning of any periphrastic form cannot be determined by combining the meanings of the individual words but rather must be derived by the meaning of the words as a unit. Due to the periphrasis of the form, phrasal are idiomatic, meaning that the meaning of a phrasal verb cannot be determined by combining the meanings of the verb and preposition but must be learned as a single lexical item.

Phrasal verbs are formed by a verb followed by one or more p-words (sometimes called prepositions). The p-word in a phrasal verb functions as a particle. Phrasal verbs are examples of periphrasis because the meaning of the phrasal verb can only be determined by the verb and preposition as a unit, not by combining the meanings of the verb and the p-word alone. For example, the meaning of the phrasal verb *wake up* "awake" cannot be determined by combining the meaning of the verb *wake* "rise from sleep" and the meaning of the preposition, or p-word, *up* "at a higher point." Phrasal verbs often have single-word synonyms as in *wake up* and *awake*.

Phrasal verbs in Modern English developed from verbs with separable preposition prefixes in Old English. Verbs with separable preposition prefixes still exist in Modern German and Modern Dutch. For example, the Modern German verb *aufwachen* "to wake up" consists of the verb *wachen* and the preposition prefix *auf*. When the verb is conjugated, the preposition prefix moves to the end of the predicate phrase as in *ich wache auf* "I wake up." Old English verbs with separable preposition prefixes evolved into phrasal verbs in which the preposition follows the verb in Middle English. Phrasal verbs are a periphrastic verb form unique to Germanic languages including Modern English.

The first type of phrasal verb in English is the intransitive phrasal verb. An intransitive phrasal verb is as defined as a phrasal verb that cannot or does not take an object. Examples of intransitive phrasal verbs include: break down (malfunction), die down (subside), get up (arise), let up

(diminish, lessen), run away (escape), show up (arrive), throw up (vomit). For example:

My car *broke down* on the way to work. (malfunction); What time did you *get up* this morning? (arise); The storm finally *let up* enough for the snowplows to get out. (lessen); His great aunt recently *passed away*. (die).

The p-word functioning as a particle must directly follow the verb of an intransitive phrasal verb. For example: The dog *threw up* on the carpet. (correct); The dog *threw* on the carpet *up*. (incorrect); My classmate *nodded off* during the lecture. (correct); My classmate *nodded* during the lecture *off*. (incorrect).

The second type of phrasal verb in English is the nonseparable transitive phrasal verb. A nonseparable transitive phrasal verb is defined as a phrasal verb that takes an object but in which the p-word functioning as a particle must directly follow the verb. Examples of nonseparable transitive phrasal verbs include: come across (discover), get in (enter), get on (mount), keep at (persevere), lay in on, (criticize), run into (encounter), settle on (decide). For example: The cowgirl *got on* her horse. (mount); Most children *look forward to* Christmas morning. (anticipate); The class *boned up on* grammar. (review); She *ran into* an old friend. (encounter).

The p-word functioning as a particle must directly follow the verb of a nonseparable transitive phrasal verb. For example:

- The librarian *came across* the missing book. (correct)
- The librarian *came* the missing book *across*. (incorrect)
- The manager really *laid in on* the lazy employee. (correct)
- The manager really *laid* the lazy employee *in on*. (incorrect)
- The manager really *laid in* the lazy employee *on*. (incorrect)
- The painter *settled on* the large canvas. (correct)
- The painted *settled* the large canvas *on*. (incorrect)

References

1. DeCarrico, Jeanette S. 2000. The structure of English: Studies in form and function for language teaching. Ann Arbor, MI: The University of Michigan Press.

2. Jacobs, Roderick A. 1995. English syntax: A grammar for English language professionals. New York: Oxford University Press.

L.C.ildrimzadə

Ingilis frazeoloji felləri
Xülasə

Frazeoloji fellər bir fel və sözün önünün birləşməsi, bir fel və zərf, birləşməsi ilə yaranan dil vahidləridir.

Frazeoloji fel orijinal feldən fərqli mənaya malikdir. Frazeoloji fellərin mənasını anlamaqda öyrəncilər bəzi hallarda çətinlik çəkirlər. Bunun üçünn mənanı məzmundan tapmaq ya da lüğətdə axtarmaq lazımdır.

Feldən sonra gələn yazı və ya sözönü bəzən bir hissəcik adlanır. Hissəcik frazeoloji felin mənasını anlamlı şəkildə dəyişir.

Əksər hallarda ayrılmaz, keçidli və ya keçirilməyən olub olmadığını bildirmək üçün heç bir yol yoxdur. Çox hallarda onları düzgün istifadə üçün bir fikir yaratmaq lazımdır. Frazeoloji fellər ingilis dilində ümumi bir formadır.

Л.Илдрымзаде

Английский фразовый глагол
Резюме

Фразовый глагол представляет с собой комбинацию глагола и предлога, глагола и наречия, или глагола как с наречием, так и с предлогом.

Фразовый глагол имеет значение, отличное от исходного глагола. Вот что делает их забавными, но запутанными. Возможно, вам придется попытаться угадать смысл контекста, или, в противном случае, найти его в словаре.

Наречие или предлог, который следует за глаголом, иногда называют частицей. Частица изменяет значение фразового глагола по идиоматическим путям.

Обычно нет способа сказать, являются ли они разделимыми, неотделимыми, транзитивными или непереходными. В большинстве случаев вам необходимо развить чувство правильного использования. Фразовые глаголы являются общей формой глагола на английском языке.

Rəyçi: **Gülnarə Əhmədova**
filologiya elmləri namizədi, dosent

İLAHƏ MƏMMƏDOVA
ADU
ilaha_1976 @ mail.ru

İNGİLİS DILI XÜSÜSİ MƏQSƏDLƏR ÜÇÜN

Açar sözlər: bilik və bacarıqlar, məqsəd, interaktiv tədris, akademik bacarıqlar, xüsusi məqsədlər
Key words: knowledge and skills, purpose, interactive teaching, academic skills, specific purposes
Ключевые слова: знание и навыки, цель, интерактивное обучение, академические навыки, специальные цели

İngilis dili dünyada ən çox maraq göstərilən dillərdən biridir. Hazırda ingilis dili demək olar ki, bütün ölkələrdə milyonlarla insan tərəfindən danışılır və müxtəlif məqsədlərlə istifadə edilir. İlk əvvəllər ingilis dili xarici yaxud da ikinci dil kimi öyrənilirdi, burada ingilis dilinin öyrənilməsində əsas məqsəd qarşılıqlı ünsiyyəti təmin etmək və məhz həmin dildə ünsiyyət qurmağı bacarmaq idi. Ona görə də Ümumi ingilis dilinin öyrənilməsi daha çox yayılmışdı. Hal-hazırda İngilis dili beynəlxalq dil olduğundan onun öyrənilməsinə tələbat həddindən artıq çoxalıb. Təkcə, ingilis dili ixtisasında oxuyanlar deyil, həmçinin müxtəlif peşə sahibləri də bu dili öyrənməyə can atırlar. İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi indi müxtəlif və daha geniş miqyasda olan məqsədləri əhatə edir. Həmişə inkişafda olan, qloballaşan dünyada İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsinin geniş şəkildə yayılması əsasən yeni sahələrin yaranmasında müşahidə edilir. Onun inkişafının dinamikası nəzəri yeniliklərdə və tələbələrin dil tələbatlarının qiymətləndirilməsində özünü göstərir. Belxerin fikrincə ingilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi haqqında yeni ideyaları 3 fərqli istiqamətə ayırmaq olar. Bunlar ictimai-ünsiyyət, ictimai mədəniyyət və ictimai siyasət istiqamətləridir. Belə ki, xüsusi məqsədlərlə İngilis dilinin öyrədilməsi ictimai xarakter daşıyır və geniş kütlə tərəfindən öyrənilir. Bu təlim – tələbələrə yönəlmiş yeni fərdi yanaşma hər bir tələbənin linqvistik bacarıqlarının inkişafını nəzərdə tutur.

Xüsüsi məqsədlərlə İngilis dili kompüter elmlərini, iqtisadiyyatı, tibb elmini, biznes idarəçiliyini, mülki və hərbi aviasiyanı, turizm və digər bu kimi sosial-akademik sahələrlə əlaqəli və bir-birindən fərqli fənləri əhatə edir. Məhz buna görə də həmin sahələr üzrə təhsil alan və həmin sahələrdə çalışan şəxslərə öz ixtisas sahələrinə uyğun İngilis dilinin keçilməsi tələb olunur. Belə hallarda İngilis dili xüsusi məqsədlərlə öyrədilir ki, həmin işçilər və yaxud tələbələr xüsusi sahənin tələbatlarını uğurla yerinə yetirə

bilsinlər. Bu baxımdan İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi geniş anlayışdır və o, peşəyönümlü məqsədlərlə və təhsil məqsədləri ilə İngilis dili kimi digər terminologiyanı da özünə daxil edə bilər. İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi adətən Peşəyönümlü İngilis dili və Akademik İngilis dili olmaqla iki yerə ayrılır. Peşəyönümlü İngilis dili Biznes İngilis dili, İxtisaslaşmış İngilis dili (həkimlər, hüquqşunaslar və s. üçün) və Xidməti İngilis dili (turizm, dayəlik, aviasiya və tikinti sahələri üçün İngilis dili) yarım qruplarına ayrılır. Burada hər sahəyə uyğun söz bazasından, terminologiyadan istifadə edilir.

1983-cü ildə David Karver İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsinin 3 növünü müəyyən etdi:1)İngilis dili məhdudlaşdırılmış dil kimi (English as a Restricted Language); 2)Akademik və Peşəyönümlü İngilis dili (English for Academic and Occupational Purposes); 3)Xüsusi mövzularda İngilis dili (English with Specific Topics).

Dil öyrənilməsinin kökləri təlim və kommunkiasiyadır. Daha sonra dil tədrisində İngilis dili ana dili, xarici və ikinci dil kimi tədris edilə bilər. Xarici dil kimi İngilis dili ümumi və xüsusi məqsədlərlə öyrədilə bilər. Onlar İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsini 3 sahəyə - Elmi və Texnoloji İngilis dili (English for Science and Technology (EST)), Biznes və İqtisadi İngilis dili (English for Business and Economics (EBE)) və İctimai sahələrdə İngilis dilinə (English for Social Studies (ESS)) ayırırlar. Bu sahələrin hər biri də Akademik İngilis dili (English for Academic Purposes (EAP)) və Peşəyönümlü İngilis dili (English for Occupational Purposes (EOP)) qruplarına bölünürlər. Bu o deməkdir ki, hər sahə həm təhsil, yəni akademik cəhətdən, həm də peşəyönümlü cəhətdən tədris oluna bilər. İearxiyadan gördüyümüz kimi Elmi və Texnoloji İngilis dilinin peşəyönümlü qolu Texniki işçilər üçün İngilis dili (English for Technicians), akademik qolu isə Tibb elmləri üçün İngilis dilidir (English for Medical Studies). Lakin Akademik və Peşəyönümlü İngilis dili arasında kəskin bölgü aparmaq mümkün deyil. Belə ki, (1) tələbələr eyni zamanda həm işləyə, həm də təhsil ala bilər, (2) və çox ehtimal ki, tədris prosesi üçün öyrənilən dil strukturu işdə də tədbiq ediləcək. Göründüyü kimi həyata keçmə üsulları fərqli olmasına baxmayaraq peşəyə dair biliklərin təkmilləşməsi və işin əldə edilməsi həm Akademik, həm də Peşəyönümlü İngilis dilinin məqsədləridir. Akademik İngilis dili təhsil alanın koqnitiv bacarıqlarının inkişafına diqqət etdiyi halda Peşəyönümlü İngilis dili isə şəxslərarası peşəyönümlü ünsiyyət biliklərinə diqqət edir. Peşəyönümlü İngilis dili termini il yanaşı Peşə-məqsəqli İngilis dili terminin də istifadə edilir.

3) Xüsusi mövzularda İngilis dili İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsinin üçüncü növüdür. Xüsusi İngilis dili ingilis dilinin xüsusi peşə ünsiyyəti situasiyalarında istifadə edən tələbələrin artan tələbatları ilə

əlaqədardır. Məsələn, müxtəxəsislər, alimlər özlərinə lazım olan elmi ədəbiyyatı oxumaq üçün, konfranslarda çıxış etmək üçün ingilis dilini öyrənə bilərlər.

Ceremi Harmer "The Practice of English Language Teaching" adlı kitabında İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsini dillin öyrənilməsi səbəblərindən biri kimi göstərmişdir. O, İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi terminini tələbələrin dili öyrənmək istədikləri xüsusi səbəblərə uyğun situasiyalara aid edir. Məsələn avia-xidmət, biznes, turizm sahələrində xüsusi İngilis dili beynəlxalq səviyyəsində istifadə edilir. Bu kimi sahələrdə ingilis dilinin istifadəsi İngilis dilinin Peşəyönümlü məqsədlərinə aiddir. Birləşmiş Ştatlarda, Böyük Britaniyada, Avstraliyada, Kanadada yaxud digər xarici ölkədə təhsil almaq istiyən tələbələr ingilis dilində inşa və ya məruzələr yazmağı bacarmalıdırlar. Bu səbəblərə görə öyrənilən ingilis dili Akademik İngilis dili adlanır. Tibb, texniki elmlərin tələbələri, mütəxəsisləri ingilis dildə olan ədəbiyyatları, məqalələri, kitabları mütaliə edə bilmək üçün öz ixtisas sahələrinə uyğun Elmi və Texniki İngilis dilini öyrənməlidirlər. Belə ki, İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsini yekun olaraq Peşəyönümlü İngilis dili, Akademik İngilis dili, Elmi və Texniki İngilis dili sahələrində qruplaşdırmaq olar.

Gördüyümüz kimi İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi müxtəlif kateqoriyalara ayrılır. Bu geniş təsnifat iki əsas kateqoriyalarda – Akademik İngilis dili və Peşəyönümlü İngilis dilində təqdim edilir. Akademik İngilis dili ingilis dilinin tələb olunan təhsil məzmununda, adətən universitetlərdə və yaxud ona oxşar təhsil müəssisələrində yardımcı olur, və bu növ dil tədrisi məktəb səviyyəsində də tədris edilə bilər. Təsnifatın digər kateqoriyası olan Peşəyönümlü İngilis dili isə akademik məqsədli olmayıb, adətən sənət öyrənənlər və ya müəyyən sahələr üzrə işçilər tərəfindən tələb olunur. Bura məsələn, biznes ingilis dili, onun lüğət tərkibinin və bu sahə üzrə xüsusi dil bacarıqlarının tədrisi daxildir.

Bir sıra universitet departamentlərinin və fərdi kursların proqramı əsasən İngilis dilində materialların interaktiv tədrisinə əsaslanır və burada Ümumu İngilis dili, İngilis dili ikinci dil kimi (English as a Second Language), İngilis dili xarici dil kimi (English as a Foreign Language) tədrisi ilə yanaşı Xüsusi Məqsədlər üçün İngilis dili (English for Specific Purposes) programı keçilir. Xüsusi Məqsədlər üçün İngilis dili proqramı həmçinin Xüsusi Sahələr üçün İngilis dili də adlanır. Bu proqram müxtəlif ixtisas sahələrinə aid kursları əhatə edir. Bu ixtisaslaşdırılmış dil kurslarına Menecerlər üçün İngilis dili (English Course for Managers), Elmi və Texnoloji İngilis dili (English for Science and Technology), Enerji, Neft və Qaz sənayesi üçün İngilis dili (English for the Energy, Oil & Gas Industries), Tibbi İngilis dili (English for Medical Purposes), Yazı inkişafı üzrə ingilis

dili (English Course for Writing Skills), Hüquqi İngilis dili (Legal English), Diplomatik İngilis dili (Diplomatic English), Aviyasiya İngilis dilisi (Aviation English), Akademik İngilis dili (English for Academic Purposes), Turizm üçün İngilis dili (English for Tourism), Farmakologiya sənayesi üçün İngilis dili (English for the Pharmaceutical Industry), Biznes İngilis dili (Business English), Beynəlxalq Auditorlar üçün İngilis dili (English Course for International Auditors), İnsan resursları üçün İngilis dili (English Course for Human Resources), və sairə daxildir. İndisə onlardan İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsinin digər sahələrinə bilavasitə təsiri olan Akademik İngilis dili haqqında qısa məlumata diqqət yetirək. Akademik İngilis dili (English for Academic Purposes) İngilis dilinin araşdırılmasını və tədrisini akademik tapşırıqların yerinə yetirilməsində istifadə edənlər üçün nəzərdə tutulub. İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsinin tərkib hissəsi olan Akademik İngilis dili onun böyük bir hissəsini əhatələmiş və son iki onillikdə akademik araşdırmalarda olduğu kimi İngilis dilinin peşə sahələrində istifadəsində də mühüm əhəmiyyət kəsb etmişdir.

Ümumiyyətlə bu dil tədrisini araşdırarkən Akademik İngilis dili nədir? və hansı sahələri əhatə edir? kimi sualları meydana gəlir. Bu tədris xüsusilə Avropada yeni bir təlim metodu olaraq özünü göstərməyə başaldı. Xarici dil tədrisinin tez-tez müzakirə edildiyi bu günlərdə Avropada olduğu kimi ölkəmizdə də müzakirə edilən Akademik ingilis dili tədrisi vacib sahələrdən birinə çevrilmişdir. Akademik ingilis dilindən bir çox ölkələrdə tədris dili kimi istifadə edilir. Lakin xarici dilin tədris dili kimi işlədilməsi çox vaxt uğursuzluğa yol açdığını dünyanın dil tədqiqatçıları tərəfindən dəfələrcə dilə gətirilmişdir. Akademik İngilis dili riyaziyyat, tarix, coğrafiya , fizika, sosial elmlər, turzim, tərcümə, tibb, menecerlik və sair sahələri əhatələyir. Akademik dil tədrisinin özündə xarici dildə təlimi deyil, xarici dildən istifadə edilərək dil tədrisi vardır. İngilis dilində danışılan akademik çevrədə uğurlu olmaq üçün yetkin dil öyrənciləri ingilis dilini bilik-bacarıq əldə etmədə, danışıq və anlamada həm özləri, həm də bir-biriləri ilə müqayisəli şəkildə təhlil etməyi bacarmalıdırlar. Tələbələr ancaq əsaslı dil tədrisi sayəsində bu bacarıqları inkişaf etdirə bilərlər. Bu yanaşmada məqsəd tələbələrə onların dil və müqayisəli düşüncə bacarıqlarını inkişaf etdirmək-dir. Akademik İngilis dili tədrisində məqsəd biliyi xarici dildə sadə bir şəkildə təqdim etmək yerinə tələbələrə dili funksional olaraq istifadə edə biləcəkləri bir öyrənmə şəraiti yaratmaqdır. Bu funksional dil tədrisi tələbələrə uyğun akademik dili və onun sosio-linqvistik tərkibini də özünə daxil edərək tədris edən bir yanaşma olduğu üçün tələbələrə xarici dildə biliyi əldə etməkdə və qiymətləndirmə aparılmasında kömək olur. Xüsusilə ana dilləri ingilis dili olmayan tələbələr xaricdə universitet dərəcəsinə qəbul olmaq üçün Akademik İngilis dili programı vasitəsilə özlərinin akademik

bacarıqlarını inkişaf etdirə bilərlər. Akademik İngilis dili programının daxilindəki kurslar xüsusi olaraq hər bir tələbə üçün fərdi formada tərtib edilir. Akademik İngilis dili proqramında əsas olaraq iki kurs tədris edilir: 1) Akademik yazı üçün İngilis dili (English for Academic Writing); 2)Akademik təlim və akademik danışıq (English for Academic Learning and Speaking).

Akademik yazı üçün İngilis dili proqramı bilik və bacarıqların çətinlik səviyyəsinə görə adətən iki hissəli tədris edilir. Bu təlim akademik yəni təhsil məqsədləri üçün nəzərdə tutulan təkmilləşdirilmiş yazı bacarıqlarıdır. Bu kurs xüsusilə intensiv şəkildə 3-4 ay ərzində öyrənilir. Akademik yazı üçün İngilis dili kursu mahiyyəti adətən bakalavr dərəcəsində və orta məktəbdən sonrakı təhsildə əldə etməyi lazım olan akademik yazı bacarıqlarının inkişafında mərkəzləşir. Həmin bacarıqlara və mövzulara akademik yazı prosesinin həyata keçirilməsi, akademik mətnlərin parafraza edilməsi, akademik mətnlərin təkmilləşdirilməsi və tənqidi təhlil edilməsi, müstəqil şəkildə tezis və dissertasiya kimi elmi işlərin formalaşdırılması, müxtəlif mövzularda tam-məzmunlu yazı işlərinin inkişaf etdirilməsi, qrammatik baxımdan düzgün tərtib edilmiş inşaların, esselərin yazılması, xəbər tipli təlimatların istifadəsi ilə mənbələrin sənədləşdirilməsi, yazı prosesində müvafiq akademik lüğətdən istifadə edilməsi daxildir. Əlbəttə Akademik yazı kursunun hər iki səviyyəsi üzrə müvəffəqiyyətlə keçmək istəyən tələbələr kredit sistemi ilə minmum olaraq C (71 bal) qiymətini əldə etməlidirlər.

Akademik təlim və akademik danışıq proqramı adından da göründüyü kimi iki hissəlidir və tələbələr tərəfindən əvvəlcədən onların təhsil almaq istədikləri kurs seçilməlidir. Bu proqram akademik, yəni təhsil məqsədləri üçün təkmilləşdirilmiş danışıq və dinləmə səviyyəsi kurslarından ibarətdir. Bu proqram universitet səviyyəsində lazım olan ixtisas, texnologiya, məntiqi düşünmə və meta-koqnitiv bacarıqlarını formalaşdırmaqla bərabər tələbələrin İngilis dili bacarıqlarını inkişaf etdirəcək. Bu proqram da öz növbəsində hər iki kurs üçün ayrı-ayrılıqda 3-4 ay ərzində keçilməsi nəzərdə tutulur. Tələbələr bu proqramın hər ikisinin başlanğıc səviyyələrinə daxil ola bilərlər. Akademik təlim və akademik danışıq bölmələrinin hər birini müvəffəqiyyətlə tamamlayan tələbələr müvafiq diplom və ya sertifikatlar əldə edirlər. Akademik dinləmə və akademik danışıq proqramlarında xüsusi mövzular və akademik bacarıqlar tədris edilir. Həmin mövzu və bacarıqlara mühazirələrin strukturunu və tərkibini anlamaq, mühazirələri fəal şəkildə dinləmək və qeydlər götürmək, akademik lüğəti anlamaq və ondan istifadə etmək, təlim strategiyalarından istifadə etmək, mətnləri tənqidi təhlil etmək, formal və qeyri-formal təqdimatlar vermək,

akademik mövzularda müzakirələr etmək, debatlar keçirtmək və akademik mənbələrdən istifadə etmək daxildir.

Bu fikirləri ümumiləşdirərək deyə bilirək ki, İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi sahələri dil tədrisində akademik və peşəyönümlü məqsədlərlə tədris edilir. Bu sahələrin akademik və peşəyönümlü məqsədlərlə tədrisi bir-biri ilə qarşılıqlı şəkildə əlaqəlidir. Bu iki anlayış qarşılıqlı şəkildə əlaqəli olsalar da, fərqli mənalara malikdirlər. Xüsusi sahələr Akademik məqsədlərlə təhsil cəhətdən araşdırılırsa, həmin sahələr peşəyönümlü məqsədlərlə yalnız iş prosesində tədbiqi öyrədilir.

Ədəbiyyat siyahisi:

1. G.Hüseynzadə Xarici dillərin tədrisində islahatların tətbiq edilməsi: müəllimyönümlü tədrisdən tələbəyönümlü tədrisə keçid, Azərbaycan Dillər Universiteti, Dil Təlimində İnnovativ Metodlar Bakı, "Neyostar M.M.C" nəşriyyat poliqrafiya müəssisəsi, 2012.
2. B. Əzimov Qloballaşmanın linqvistik əsasları, qlobal dil, beynəlxalq dil və milli anlayışlarının qarşılaşdırılması, Azərbaycan Milli Elmlər Akademiyas Nəsimi adına Dilçilik İnstitutu, «Tədqiqlər» №1, «Nurlan» nəşriyyatı, Bakı, 2008.
3. V. Cəfərov Diplomatik etiket və nitq mədəniyyəti, Bakı, BDU nəşriyyatı, 2009.
4. Л.А.Егорова Английский язык для специальных целей: лингвистические, прагматичекие и дидактичекие аспекты, Москва, 2012
5. D.Carver Some propositions about ESP, The ESP Journal, Volume2, Published by Elsevier Ltd., 1983.
6. D. Belcher English for specific purposes: Teaching to perceived needs and imagined futures in worlds of work, study and everyday life, TESOL International Association, Online Publishing, 2006.
7. D. Belcher Trends in teaching English for specific purposes. Annual Review of Applied Linguistics, Volume 24, Cambridge University Press, 2004.
8. http://www.sworld.com.ua
9. https://en.wikipedia.org/wiki/English_for_specific_purposes
10. https://en.wikipedia.org/wiki/English_for_specific_purposes

I.Mammadova

English for Specific Purposes

Summary

The article deals with the English for specific purposes (ESP) whici is a subset of English as a second or foreign language. It usually refers to teaching the English language to university students or people already in employment, with reference to the particular vocabulary and skills they need. As with any language taught for specific purposes, a given course of ESP will focus on one occupation or profession, such as Technical English, Scientific English, English for medical professionals, English for waiters, English for tourism, Business English, Aviation English etc. The author gives information about different scientists' ideas and emphasizes the importance of teaching English for Spesific Purposes. It is also noted that English for academic purposes is taught to students before or during their degrees in order to help them express their opinions in an academic way

И. Мамедова

Английский язык для специальных целей

Резюме

В статье рассматривается английский язык для специальных целей (ESP), который является подмножеством английского языка как второго или иностранного. Обычно это относится к обучению английскому языку студентам университетов или уже работающим людям со ссылкой на специальный лексикон и навыки, которые им нужны. Как и на любом языке, преподаваемом для специальных целей, данный курс ESP будет посвящен одной профессии или профессии, таким как технический английский, научный английский, английский для медицинских работников, английский для официантов, английский для туризма, деловой английский, авиационный английский и т. д. Автор дает информацию о различных идеях ученых и подчеркивает важность преподавания английского языка для специальных целей. Также отмечается, что английский для академических целей преподается студентам до или во время их степеней, чтобы помочь им выразить свое мнение академическим образом.

Rəyçi: **Gülmar İsrafilova**
filologiya üzrə fəlsəfə doktoru

ELNURƏ MƏMMƏDOVA
RYTN Azərpoçt MMC-nin aparıcı mütəxəssisi
aelnura@mail.ru

İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARI SAHƏSİNDƏ OLAN YENİ TERMİNLƏRİN İNKİŞAFI VƏ TƏDQİQ EDİLMƏSI, MÜXTƏLİF LÜĞƏTLƏRİN SÖZLÜYÜNƏ DAXIL EDİLMƏSİ

Açar sözlər: İKT-nin sürətlə inkişafı, telekommunikasiya terminlərinin dilin leksik sistemindəki rolu, Azərbaycan və ingilis dillərində telekommunikasiya terminlərinin tipoloji şəkildə araşdırılması, telekommunikasiya terminlərinin orfoqrafiya və başqa lüğətlərdə tərtib edilməsi, telekommunikasiya terminlərində sinonimlik halları.
Ключевые слова: стремительное развитие ИКТ, роль телекоммуникационных терминов в лексике, типологическое исследование телекоммуникационных терминов в Азербайджанском и английском языках, составление орфографических и других словарей по телекоммуникационным терминов, синонимичные случаи в телекоммуникационных терминов.
Key words: the rapid development of ICT, the role of telecommunication terms in vocabulary, the typological study of telecommunication terms in the Azerbaijani and English languages, compilation of orthographic and other dictionaries for telecommunication terms, synonymous cases in telecommunication terms.

Dilçilik ümumi olaraq bəşər dili və bütün dünya dilləri haqqında bir elmdir. Dilçilik elmi dilin qayda-qanunlarını, xüsusiyyətlərini, quruluşunu öyrənir. Dil müxtəlif baxımdan öyrənildiyi üçün ayrı-ayrı sahələrə bölünür. Dilçiliyin fonetika, leksikologiya, morfologiya və sintaksis kimi bölmələrindən başqa, etimologiya, lüğətçilik, dialektologiya kimi sahələri də vardır.

Lüğətçilik - dilçiliyin praktik sahəsi olub, lüğətlərin tərtibi, yaranma qaydalarını öyrənir. Lüğətçilik Azərbaycan-türk dilçiliyinin qədim sahəsidir. Mahmud Kaşğarinin məşhur "Divani lüğət-it türk" (XI əsr) buna nümunə ola bilər. Hüsam Təbrizi (XIII əsr), Hinduşah Naxçivani (XIV əsr) kimi Azərbaycan alimləri də lüğət tərtib etmişlər. XX əsrin əvvələrində Sultan Məcid Qənizadə, Üzeyir bəy Hacıbəyli, Əliağa Şıxlinski bir sıra lüğətlər tərtib etmişlər. 1966-1987-ci illərdə Əliheydər Orucovun müəllifliyi və rəhbərliyi ilə nəşr olunmuş 4 cildlik "Azərbaycan dilinin izahlı lüğəti", 1997-2000-ci illərdə akad. Ağamusa Axundovun redaktorluğu, prof. İsmayıl

Məmmədli, a.e.i. Bəhruz Abdullayev, b.e.i. Nərgiz Rəhimzadə və b-nın tərtibçiliyi ilə 3 cildlik Azərbaycan dilinin izahlı lüğəti son 50 ildə lüğətçilik sahəsində görülmüş ən boyük iş sayılır. Lüğətlərin bir neçə növü var: izahlı lüğətlər, tərcümə lüğətləri (məsələn, azərbaycanca-ingiliscə və ya rusca-azərbaycanca və s.) və terminoloji lüğətlər (məsələn, telekommunikasiya terminləri lüğəti).

Dilçiliklə bağlı "informasiya texnologyaları" anlayışını nəzərə alaraq, demək olar ki, dilçilikdə informasiya texnologiyaları qanunlar, metodlar, alınma vasitələri, saxlanılması, ötürülməsi, yayılması, dil və kompüterlər vasitəsilə informasiya funksiyalarının qanunları haqqında informasiyanın yaradılması formasnı daşıyır. Əgər biz yuxarıda qeyd edilən anlayışları müasir tətbiqi dilçiliyin həll etdiyi məsələlərə aid etsək, o zaman qeyd etmək olar ki, dilçilikdə "informasiya texnologiyaları" anlayışı əsasən tətbiqi dilçilik məsələlərinə aid edilir. Məsələn, süni intellekt sisteminin yaradılması, avtomatik tərcümə sisteminin və dilin yaradılması sisteminin təşkil olunması və digərləri.

Yeni biliklərin alınması və yayılması texnologiyası artıq hal-hazırda İnternetdən ayrılmaz bir hissəyə çevrilib. Beynəlxalq və yerli telekommunikasiya kanallarını, radio, televiziya, telefon xətlərini bir vahid şəklində birləşdirən infrastuktur formalaşır (bir planet-bir şəbəkə). Bütün bunlar yalnız superintellekti formalaşdırmır, həmçinin insan həyatında superpsixoloji dəyişikliyin fenomenini yaradır. Qeyd edilən metodlar video konfraslarda və məsafədən təhsildə geniş tətbiq edilir.

Qlobal informasiya cəmiyyətinə inteqrasiyanın, bilik və məlumatların istehsalının, yayılmasının və istifadəsinin əsas təminatçısı informasiya və kommunikasiya texnologiyalarıdır. Bu gün İKT-nin sürətli yüksəlişi və geniş tətbiqi sosial-iqtisadi inkişafın prioritet məsələlərindəndir. Bu baxımdan telekommunikasiya və informasiya texnologiyaları sahəsində optimallıq, şəffaflıq, səmərəlilik və məqsədəuyğunluq prinsiplərinə əsaslanan standarların işlənib hazırılanması və inikişaf etdirilməsi zərurətə çevrilməkdədir.

İKT sahəsində daha çox istifadə edilən brend adların, o cümlədən Facebook, Twitter, sözlərinin dırnaq içərisində yazılmasının yanlış olduğunu bildirən F. Əhmədov daha bir məsələyə toxunub: "Eləcə də abreviaturaların dırnaqda yazılması barədə Azərbaycan dilinin qrammatikasında heç bir qeyd yoxdur. Sosial şəbəkələr qeyri-peşəkar yazılarla doludur. Durğu işarələrindən yerli-yersiz istifadə edirlər. Düzgün olmayan yazılış, artıq işarə məzmunu çaşdırır. Sosial şəbəkələrdə öz hərflərimizi olduğu kimi yazmağa üstünlük verməliyik. Yəni insanlarımız öz dillərinə xüsusi hörmətlə, həssaslıqla yanaşmalıdırlar. Insanlar "ə", "ş" hərfləri əvəzinə "e" və "sh" yazmamalıdır. Öz hərflərimizdən istifadə edə bilmək məsələsi artıq çoxdan həll olunub və sadəcə olaraq sistemdə müvafiq dil seçimi edib klaviaturada dili dəyişməklə

öz ana dilimizdə, öz hərflərimizlə yaza bilərik. Yəni insanlarımız özləri fikirləşməlidir ki, əgər Azərbaycan hərfləri ilə yazmaq mümkündürsə, mən nə üçün yazımda başqa hərflərdən istifadə edim. Bu istiqamətdə dilçilərin, jurnalistlərin, bütün yazarların, dilimizə sayğı duyan bütün şəxslərin təbliğat və təşviqatına ehtiyac var. Müəyyən vaxtdan sonra saytlarda, sosial şəbəkələrdə yanlışlıqlara yol verənlər, yəgin ki, ictimai qınağa tuş gələr".

Hal-hazırda informasiya texnologiyaları dedikdə aşağıda sadalananlar üçün kompüter texnologiyası başa düşülür:

- İnformasiyanın saxlanılması
- Yaradılması
- Qorunması
- Hazırlanması
- Ötürülməsi və
- Alınması

İT-nin əsas inkişaf mərhələləri aşağıdakılardır:

- Kompüter şəbəkəsinin yazılı forması
- Poçtun istifadəsi
- Telefonun
- Teleqrafın
- Televiziyanın
- Kompüterlərin
- E-poçtun
- Geniş istifadəsi

Elm sahələrinin inteqrasiyası, elmi biliklərin müxtəlif istiqamətlərdə inkişafı, xarici dövlətlərlə ictimai-siyasi əlaqələrin güclənməsi, elm sahələrində terminoloji bazanın da inkişafına təsir göstərmişdir. Azərbaycan dilində işlənən, o cümlədən yeni yaranan terminlərin toplanması, aprobasiyası və tətbiqinin sürətndirilməsi dilimizdəki elmi-texniki anlayışların vahid sistem əsasında təkmilləşdirilməsini həyata keçirtmək dövrün tələbinə çevrilib. Elm və texnikanın, iqtisadiyyatın, mədəniyyətin bir çox sahələrinin Azərbaycan dilində terminologiyasının formalaşması, eləcə də texnikanın yeni yaranan informatika, elektron təhsil, aviasiya, avtomatlaşdırma və s. sahələrdə terminlərin yaranması istiqamətində mühüm işlər görülmüşdür.

XX əsrin ən mühüm nailiyyəti sayılan İnternetin mövcud olması, peyklərin buraxılması bütün dünyada köklü dəyişikliyi – sənaye cəmiyyətindən İnformasiya Cəmiyyətinə (İC) keçidi təmin etmişdir. Əvvəlki cəmiyyətlərdən fərqli olaraq, İC-də insanlar verilənlərdən informasiya əldə edirlər. İnformasiya bu cəmiyyətin əsas məhsuludur. Bu gün İC-nin əlamətləri hər tərəfdə hiss edilməkdədir. Hər kəs mobil telefon istifadəçisidir, hər kəsin evində kompüter var, hər müəssisədə böyük

informasiya sistemləri və s. mövcuddur. Kompüterlər insan fəaliyyətinin bütün sferalarına nüfuz etdikcə, insanların İnternetə çıxış imkanları genişləndikcə, bu şəbəkə vasitəsilə göstərilən xidmətlərin sayı artdıqca, bulud hesablamaları, sensor texnologiyalar, saysız-hesabsız media qurğuları, ümumiyyətlə, rəqəmsal texnologiyaların səhiyyə, astronomiya, bioinformatika, nəqliyyat, dövlət idarəciliyi və s. kimi sahələrdə geniş tətbiqi verilənlər axınının artmasına gətirib çıxarmış, dünya sanki informasiya ilə doldurulmuşdur.

Son onillikdə informasiyaya əlyetərliliyin asanlaşması və kommunikasiya vasitələrinin çoxalması nəticəsində hər il rəqəmsal informasiyanın həcmi həndəsi silsilə ilə artır. İnternetə çıxış imkanlarının genişlənməsi yaradılan və toplanan informasiyanın həcminin həqiqətən də çox böyük sürətlə artmasında bir canlanma yaratmışdır.

Ə. Dəmirçizadə dilin öz lüğət ehtiyatı əsasında termin yaradıcılığının əhəmiyyətindən bəhs edərkən yazır: "Dilin öz lüğət ehtiyatından alınıb terminə çevrilmiş sözlərin həmin dildə müxtəlif məqamlarda işlənmə imkanı başqa dildən alınma terminlərə nisbətən daha çox olduğundan belə sözlərin məqsədəuyğunluğu əsasında termin kimi, ya ümumişlək söz kimi işlədilməsinə ehtiyatla yanaşmaq və sözü işlədərkən bütün bu incəlikləri nəzərə almaq lazımdır." D. S. Lotte də ümimişlək sözlərin terminə çevrilməsi prosesindən danışarkən qeyd edir: "Adi söz elmi-texniki terminə çevrilərkən terminləri müəyyən sitemində müəyyən məna kəsb edir; daha doğrusu, belə sözün əvvəl qeydə alınmış mənasına yeni bir məna əlavə olunur."

S. Sadıqova isə semantik üsulla yaranan terminləri iki istiqamətdə qruplaşdırıb:

1. Ümumişlək məna daşıyan sözün məna cəhətdən genişlənib termin mənası ifadə etməsi (məsələn, güzgü-mirror, qanad-wing, qol-branch).

2. Terminləirn özünün semantik cəhətdən genişlənib daha yeni elmi-texniki terminoloji məna ifadə etməsi (məsələn, informasiya texnologiyası-information technology, internet-Internet, mobil telefon-mobile telephone).

Milli termin yaradıcılığının ədəbi dilə əsaslanması şübhəsiz ki, terminlərin asan başa düşülməsinə, tələffüzünə və tez yadda qalmasına xidmət edir. Ayrı-ayrı sahələrdə olan yeniləşmə dildə yeni anlayış və məfhumların adlanmasına səbəb olur.

B. Çobanzadə yazır ki, elmin vətəni yoxdur, insan fikirləri arasında beynəlmiləl, cahani olaraq doğulan birinci əsər elmdir. Dünyanın hər yerində faydalı və doğru olmayan fikir elm sayıla bilməz. Bu elmin dili cahani və beynəlmiləl olmalıdır. Bugünki elmlərdə isə cahanilik dildə də özünü göstərməkdədir.

Müasir dövrdə terminloji leksikanın zənginləşməsi prosesi daha sürətlə gedir. Çex dilçisi K. Soxovun hesablamalarına görə, müasir dünya

dillərində meydana gələn yeni sözlərin 90%-ni terminlər təşkil edir. Bu, hər şeydən öncə, ayrı-ayrı sahələrdəki yeniləşəmənin dildə təzahürü ilə bağlıdır.

Təbii ki, terminlərin formalaşmasında ingilis dilinin xüsusi yeri var. Əksər hallarda da dilimizdə bu terminlərdən istifadə ciddi problemlər yaradır. Azərbaycan dilində hazırlanmış yazılarda kimsə bu terminləri ingilis, kimsə rus dilində olduğu kimi, kimsə də ana dilimizə tərcümə edərək verir. Burada ilk növbədə terminlərin beynəlxalq səviyyədə işlənməsi nəzərə alınmalıdır: beynəlmiləldirsə, olduğu kimi saxlanılmalıdır. Beynəlmiləl deyildirsə, dilin daxili imkanları hesabına qarşılığı müəyyənləşdirilməlidir. Daha dəqiq desək, kompüterlə bağlı terminlər Azərbaycan dilində işlədilməlidir. Məsələn, spellinq proqram – yoxlayıcı proqram olmalıdır.

Yeni terminlərin yaradılması üçün Azərbaycan dili hər cür imkanlara malik olsa da, diqqət, nədənsə, dilin daxili imkanlarından çox, alınma sözlərə yönəldilir. Söhbət ümumişlək sözlərin, qədim abidələrimizdə, dialekt və şivələrimizdə işlənən dialektizmlərin və ədəbi dilin söz yaradıcılığı üsullarından istifadə etməklə sözlərin terminləşməsindən gedir.

Müasir dövrdə dillərin qarşılıqlı əlaqələrinin öyrənilməsi, tərcümə problemləri və s. nəzəri dilçiliyə, həm də elmi-praktik məsələlərə təsir göstərən amillərdən biridir.

Azərbaycan dili omonimlik və çoxmənalılıq baxımından dünyanın ən zəngin dillərindən biridir. Omonimlik dilin qədimliyindən və qədimliyin saxlanılmasından xəbər verir. Sinonimlərlə zəngin olan dillər isə daha çox assimilyasiyaya uğrayır, yad dil təsiri ilə üzləşir.

Dilin ümumi leksik sistemində telekommunikasiya terminlərinin yerinin müəyyən edilməsi, onu ədəbi dilə cəlb edən mühüm xüsusiyyət və əlamətlərinin üzə çıxarılması, tədqiq edilməsi bu gün də aktual olaraq qalır.

İ. Məmmədli göstərir ki, Azərbaycan dilinin daxili imkanları əsasında terminlər yaradarkən aşağıdakı üsullardan istifadə edilir:

1) Semantik üsul
2) Morfoloji üsul
3) Sintaktik üsul
4) Kalka üsulu
5) Sözlərin ixtisarı və qısaldılması (abreviaturalar)

1. Semantik üsulda sözün semantik yükü artır, yəni məna genişlənir. Məsələn, güc, ailə, başlıq, yaddaş və s. dilimizdə belə sözlərin sayı minlərlədir. Belə terminlər semantik konvensiya yolu ilə yaranır.
2. Morfoloji üsul daxili imkanlar hesabına söz-termin yaratmada ən məhsuldar paya malikdir. Azərbaycan dilinin termin yaradıcılığını morfoloji üsulsuz (şəkilçilərsiz) təsəvvür etmək mümkün deyil. Çox təəssüf ki, termin

yaradıcılığında bu üsuldan yetərincə faydalanmırıq. Şəkilçilər söz yaradıcılığında milliliyi təmin edir. Məsələn, dəyişən/sabit cərəyan (alternating/direct current), fasiləsiz iş planı (business continuity plan), yüksək məhsuldarlıqlı hesablamalar (high performance computing) və s. Burada işlənən dəyişən, fasiləsiz və məhsuldarlıqlı sözləri dilin daxili gücü ilə assimilyasiyaya uğrayaraq milliləşdirilib. Bu fakt dilin mühafizəkarlığından, güclü olmasında xəbər verir.

3. Sintaktik üsulla termin yaradıcılığı iki və daha artıq sözün birləşərək mürəkkəb söz və söz birləşməsi şəklində elmi anlayış ifadə etməsidir. Məsələn, yaddaş qurğusu (memory device), fiber-optik həllər (fiber optic solutions), aparat təminatı (hardware).

4. Terminoloji sistemin zənginləşməsində kalka üsulu ilə söz yaradıcılığının da mühüm əhəmiyyəti var. Kalka – hərfi tərcümə yolu ilə yad dildən alınmış ifadənin qəlibi, struktur eyniliyi əsasında yaranır. Tərcümə prosesində elə terminlər olur ki, ya onları çevirmək münasib, ya da mümkün olmur. Bu zaman həmin terminlər olduğu kimi saxlanılır. Olduğu kimi saxlanılan terminlər beynəlxalq termin kimi qəbul edilir. Buna görə də dili beynəlxalq terminoloji leksikanın təsirindən sona qədər qorumaq mümkün deyil. Məsələn, informasiya texnologiyaları (information technologies), kommunikasiya (communication), aplink-daunlink (up-link and down-link) və s.

5. Terminlərin yaradılması üsullarından ən yenisi və az işlənəni abreviaturlardır. Bu üsul digər üsullardan forma və məzmunca xeyli fərqlənir. Abreviautra üsulu terminoloji sistemlərdə sözə qənaət edilməsinə, coxsözlülüyün konkret terminlərlə əvəzlənməsinə xidmət edir. Məsələn, İKT – informasiya-kommunikasiya texnologiyaları, İC – informasiya cəmiyyəti, İT – informasiya texnologiyası və s.

Son illər başqa dillərdən təkcə ixtisas leksikasına deyil, habelə məişət leksikasına xeyli sayda abreviatur terminlər daxil olub. Lakin əksər abreviaturaların mənası dil daşıyıcıları üçün çox zaman aydın olmur. Məsələn, KAMAK/CAMAK (Computer Application for Measurement and Control). Bu məsələyə orfoqrafiya qaydalarında aydınlıq gətirilməli, milli hərfi ixtisarlarla alınma və beynəlxalq ixtisarların mahiyyəti istifadəçilər üçün aydın olmalıdır. Axı termin – sözdən fərqli olaraq – kontekstdən asılı olmur, o, hər yerdə neytral və xüsusi funksiya daşıyır.

Azərbaycan və ingilis dillərində telekommunikasiya terminlərini tipoloji şəkildə araşdırıb onların dildə işlənmə prinsiplərini, oxşar və fərqli cəhətlərini aşkar etmək elmi əhəmiyyət kəsb edir.

Terminlər yaratmaqla bərabər, elmi-ədəbi dili də təkmilləşdirmək lazımdır. Bununla əlaqədar isə bir çox problemləri həll etmək vacibdir: 1)

Azərbaycan ədəbi dilinin əsasını təşkil edən dialektləri müəyyənləşdirmək. 2) Azərbaycan dilində terminlər yaradılarkən 3 mənbəyə əsaslandırmaq; a) bilavasitə Azərbaycan dilinin daxili imkanlarına; b) Avropa dillərinə; c) ərəb və fars dillərinə əsaslanmaq.

İnformasiya və telekommunikasiya sahələri üzrə terminoloji lüğətlərdə verilmiş bəzi terminlər nəzərdə tutulmuş anlayışları kifayət qədər dəqiq ifadə etmir, bəzilərinin heç qarşılığı belə yoxdur. Bütün bu nöqsanlar ondan irəli gəlir ki, adı çəkilən sahələrə aid terminologiya digər dillərlə (ingilis, alman, fransız və s.) paralel və qarşılıqlı surətdə öyrənilməmişdir. Bu terminlərin hansı mənbələr əsasında və hansı üsullarla yaradılması və s. kimi problemlər aydınlaşdırılmamışdır.

Telekommunikasiya terminləri dilin elə bir leksik layını təşkil edir ki, digər terminoloji vahidlərdən özünəməxsus xüsusiyyətlərinə görə seçilir və diqqəti cəlb edir. Telekommunikasiya terminologiyasına dair bir neçə lüğətin olmasına baxmayaraq, Azərbaycan dilçiliyində bu sahəni əks etdirən elmi tədqiqat işləri aparılmamışdır.

Telekommunikasiya semantikanın mövcudluğu fikri hazırda da polemika doğurur. N. Məmmədlinin qeyd etdiyi kimi, "bir tərəfdən, termin – işarənin təbiəti, aid olduğu obyekti, predmeti və s.-nin birmənalı adlandırılması çoxmənalılıq və ya sinonimliyin olması ehtimalını aradan qaldırır, ikinci tərəfdən, canlı dil vahidi olduğu üçün o, ümum-ədəbi dil leksikasının semantik proseslərini özündə daşıyır."

Terminologiyada semantik üsuldan həmişə istifadə edilmiş, hazırda da istifadə edilməkdədir. Buna görə də Q.O. Vinokur terminlərin semantikasında iki əsas əlaməti – 1) mənasının xüsusiləşməsi, semosioloji sərhədinin dəqiqliyi və 2) intellektual saflığı, daha doğrusu, obrazlılıq və emosionallıqdan məhrumluğu xüsusi qeyd etmişdir.

Bəzi hallarda səs cildinə görə eyni olan termin müxtəlif elmlərə məxsus anlayışları ifadə edir. Deməli, bu prosesi çoxmənalılıq kimi götürmək yox, müştərək termin kimi qəbul etmək lazımdır. "Aparat" sözü dildə həm çoxmənalı söz kimi, həm də müştərək termin kimi işlədilir. Məsələn, termin kimi texnikada və telekommunikasiyada "alət, cihaz, qurğu" anlayışını bildirir. Məsələn, radio aparatı və s. Bu söz fiziologiya termini kimi orqanizmin hər hansı fəaliyyətini təmin edən üzvlər ifadə edir. Bu söz çoxmənalı termin kimi aşağıdakı mənaları da ifadə edir: idarə və ya təsərrüfatın müəyyən sahəsində xidmət edən müəssisələrin məcmusu və bu idarənin və ya təşkilatın bütün işçiləri, ştatı.

İngilis dilində isə aşağıdakı mənaları ifadə edir: Apparatus 1. 1) cihaz, alət, qurğu. 2) aparatura, aparatlar. 3) maşın, mexanizm; 2. Fiziol. Üzvlər. 3.1) dövlət maşını; 2) partiya, dövlət aparatı; 4) alət (gimnastika avadanlığı).

Digər sahələrdə olduğu kimi, telekommunikasiya terminologiyasında da sinonimlik halları mövcuddur. Həm Azərbaycan dilində, həm də ingilis dilində bunun şahidi oluruq. Hə iki dil üçün bu mövcudluq müxtəlif tipli lüğətlərdə də özünü göstərir.

Azərbaycan və ingilis dillərində mövcud olan telekommunikasiyia terminləri hər iki dilin qrammatik forma və modellərinin qanunauyğunluqları əsasında yarandığından özlərinə məxsusluğu qoruyub saxlamışlar. Həm ingilis dilində, həm də Azərbaycan dilində əmələ gələn telekommunikasiyada rabitə söz və terminləri xalq təfəkkürünün məhsulu olub o sahədə hər hansı bir anlayışı ifadə edir. Araşdırmalar göstərir ki, telekommunikasiya terminologiyasında işlənən söz və terminlərin qrammatik quruluşları müxtəlifdir. Belə ki, həm Azərbaycan dilində, həm də ingilis dilində telekommunikasiya sahəsində işlənən terminlər quruluşlarına görə sadə düzəltmə və mürəkkəb olur (məsələn, rabitə-communication, peyk-satellite, ehtiyatlılıq-back-up, şəbəkə-network, şəbəkə infrastukturu-network infrastructureç informasiya kommunikasiya texnologiyalari-information communication technologies).

Telekommunikasiya terminologiyasında struktur nöqteyi-nəzərindən sadə və mürəkkəb terminlər çoxluq təşkil edir. Leksik şəkilçilər vasitəsilə yaradılan terminlərin sayı nisbətən azlıqda qalır.

Həm Azərbaycan dilində, həm də ingilis dilində telekommunikasiya terminlərinin böyük bir qismini söz birləşmələri şəklində ifadə olunan terminlər təşkil edir. Bu cür birləşmələr iki və daha artıq söz, yaxud terminlərdən düzəlir, qrammatik və semantik cəhətdən bir-biri ilə bağlı olur.

Ədəbiyyat

1. http://www.mincom.gov.az
2. http://ict.az
3. Sadıqova S. Azərbaycan dilinin terminologiyası. Bakı, Elm, 2011
4. Dilçilik İnstitutunun Əsərləri. Bakı, Nəsimi adına Dilçilik İnstitutu, 2013
5. http://www.adq.az
6. http://ict.az
7. http://rabitadunyasi.info
8. http://xeberler.az
9. http://kayzen.az
10. https://annapal.jimdo.com
11. http://www.azerbaijan-news.az/index.php
12. Z. M. Əliyeva. İngilis və Azərbaycan dillərində telekommunikasiya terminlərinin struktur-semantik xüsusiyyətləri. Naxçıvan, 2008.
13. Məmmədli N. Alınma terminlər. B: Elm, 1997.

14. Винокур Г.О. О некоторых явлениях словообразования в русской технической терминологии // Труды Московского Института Истории. Философ. лит. фил. факт. М: 1939, т.5.
15. İngiliscə-azərbaycanca lüğət. B, 2003.
16. Məmmədov İ. Qəzet dilinin leksikası. Bakı, "Elm və təhsil", 2010

Э,.Маммедова

Развитие и исследование новых терминов в сфере информационных и коммуникационных технологий

Резюме

Статья посвящается на тему новых терминов, которые используются в сфере информационных и коммуникационных технологий. Информационно-коммуникационные технологии – основной поставщик интеграции к глобальному информационному обществу, разработки, поощрения и использования знаний и информации. Национальное терминологическое искусство, полагаясь на литературный язык, несомненно, помогает быстро понять, произносить и запомнить терминологию. Новшество в отдельных областях приводит к появлению новых понятий и концепций в языке. Определения места телекоммуникационных терминов на общей лексической системе языка, раскрытие и исследование его основных черт в литературном языке остается актуальным и сегодня. Создавая термины, основываясь на внутренние возможности азербайджанского языка, используются несколько способов. В эти методы входят: семантический метод, морфологический метод, синтаксический метод, калька и аббревиатуры. Семантический метод всегда использовался и сейчас тоже используется в терминологии. Например, сила, семья, память, крыло и т. д. Телекоммуникационные термины составляют такой лексический слой языка, что они отличаются и привлекают внимание своими качествами.

E.Mammedova

Development and study of new terms in the field of information and communication technologies

Summary

The article is devoted to the topic of new terms used in the field of information and communication technologies. Information and communication technologies are the main supplier of the integration to the global information society, the development, promotion and use of

knowledge and information. National terminology, relying on the literary language, undoubtedly helps to quickly understand, pronounce and remember the terminology. Innovation in certain areas leads to the emergence of new concepts and ideas in the language. Definitions of the place of telecommunication terms on the general lexical system of language, the disclosure and study of its main features in the literary language remains relevant today. Creating terms based on the internal opportunities of the Azerbaijani language, several methods are used. These methods include: a semantic method, a morphological method, a syntactic method, a tracing-paper and an abbreviation. The semantic method has always been used and is now also used in terminology. For example, strength, family, memory, wing, etc. Telecommunication terms make up such a lexical layer of language that they are different from the other term units and attract attention with their qualities.

Rəyçi: İsmayıl Məmmədli
Filologiya elmləri doktoru, professor

HÜSNİYYƏ ÇOBANOVA
Heydər Əliyev adına AAHM,
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun dissertantı
cobanovahusniyye@gmail.com

-LAR, -LƏR ŞƏKİLÇİLƏRİN KÖMƏYİ İLƏ DÜZƏLƏN TÜRK MƏNŞƏLİ ETNOTOPONİMLƏR

Açar sözlər: etnonim, tayfa, oykonim, etnotoponim, etnogenez.
Ключевые слова: этноним, племя, ойконим, этнотопоним, этногенезис.
Key words: ethnonym, tribe, oeconym, ethnotoponym, , ethnotoponym, ethnogenesis

Müasir zaman Azərbaycan xalqının dili, tarixi və mədəniyyəti ilə bağlı bir sıra məsələləri yenidən aktuallaşdırmışdır. Məhz buna görə də, indi etnotoponimlərin tarixi onomastik nöqteyi-nəzərdən öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Azərbaycan dilinin zəngin lüğət tərkibində mövcud olan söz köklərinə-əsaslarına müxtəlif leksik şəkilçilərin artırılması nəticəsində yeni sözlər əmələ gəldiyi kimi, Azərbaycan toponimiyasında, xüsusilə, onun etnotoponimlər sistemində mövcud olan ayrı-ayrı etnonimlərə (ailə-nəsl, tirə, qəbilə, tayfa, xalq, millət) ədəbi dilimiz üçün səciyyəvi olan müxtəlif leksik şəkilçilərin artırılması yolu ilə müxtəlif etnooykonimlər (yaşayış məntəqələrinin adları) düzəlmişdir.

Azərbaycan dilində düzəltmə isimlərin və ya etnonimlərin yaranması, əsas etibarı ilə, dilçiliyin "Söz yaradıcılığı" şöbəsi ilə yaxından bağlı olub, onun tərkib hussəsini təşkil edir. Dilimizdə morfoloji üsulla yeni sözyaratma mümkün olduğu kimi, sadə kök sözə-etnonimə müxtəlif leksik şəkilçilərdən birinin artirilması ilə etnotoponimlər düzəlir.

Xalqımızın qədim zamanlardan yaşadığı bütün regionlarda, o cümlədən də Gürcüstanda, xüsusilə onun cənub-şərq rayonlarında, yəni qədim Borçalı mahalında ilkin orta əsrlərdən yayılmış zəngin və rəngarəng xüsusiyyətlərə malik olan türk (Azərbaycan) köklü toponimlərin toplanması və öyrənilməsi böyük elmi əhəmiyyətə malikdir.

QULLAR – Bu etnooykonim sadə "qul" etnonimi ilə "-lar" cəm şəkilçilərinin topoformantının birləşməsindən düzəlib. Qədim Borçalı (indiki Marneuli) rayonunda kənd adıdır. Borçalıda Aşağı Qullar və Yuxarı Qullar adlı iki kənd mövcuddur. Ehram (Xram) çayının sahilində, rayon mərkəzindən 22 km cənub-şərqdə, dəniz səviyyəsindən 325 m yüksəklikdə yerləşən Aşağı Qulların əhalisi 200 nəfər, Yuxarı Qulların isə əhalisi 820 nəfərdir. XVIII əsrədək Naxçıvanda da Qullar adında kənd mövcud

olmuşdur. 1728-ci ildə tərtib olunmuş Tiflis əyalətinin inzibati-ərazi bölgüsünü və hər bir yaşayış məntəqəsindəki ailələrin sayını göstərən "Dəftəri- müfəssəli-əyaləti-Tiflis"də Baydar nahiyəsində yerləşən Qullar kəndinin adı çəkilir [4, 125] və 50 evdən ibarət olduğu qeyd olunur. Kənddəki Azərbaycan məktəbi 1929-cu ildən fəaliyyət göstərir.

HUNLAR – Qədim Borçalıda kənd adı olub. Bu etnooykonim qədim "Hun" tayfa adı ilə "-lar" topoformantı əsasında təşəkkül tapıb. Bu tayfalar Azərbaycan-türk xalqının etnogenezində yaxından iştirak edib. Onu da qeyd edək ki, eramızın ilk əsrlərindən Azərbaycan türklərinin söykökünün təşəkkül etməsində Oğuz, Avşar (Əfşar), Sak və digər tayfa birləşmə ilə yanaşı Hunlar da fəal iştirak etmişdir [3,155].

Hun – Dəmirçi Həsənli nahiyəsində məhəllə adı olub. Çox güman ki, ilk mərhələdə az bir qrup "hun" tayfa nümayəndələri gəlib məskən salıb. Onlar azlıq təşkil etdiyinə görə, yerli kəndlər-əhali onları məhəllə adlandırıblar. "Hun" qədim türk dillərinə məxsus sadə sözdür.

Qədim türklərin tarixinə dərindən nəzər saldıqda məlum olur ki, Başqır bölgələrində də etnik, tarixi və mədəni-məişət baxımdan bir-birilə əlaqədar olan qədim tayfalar arasında türkdilli "Hun" adlı tayfa və ya "Hunlar" adlı tayfa birliyi də olubdur [4,260]. Bu eramızdan əvvəl II-I əsrlərdə güclü bir axınla Qazaxıstan və Orta Asiya səhralarından keçərək, Şərqi və Qərbi Avropaya, çox güman ki, elə həmin dövrdə də onların bir hissəsi cənub istiqamətində Qafqaza və oradan da Güney Qafqaza-Azərbaycan ərazisinə gəlib orada məskunlaşmışlar [2,168]. Bu tayfalar arasında "Hunlar", "On oğur" tayfaları da olmuş və həmin tayfalar Ulu babalarımızın adını yaşatmaq məqsədilə öz tayfalarının adlarını yaşayış məntəqələrinin adına qoymuşlar. Bizim mülahizəmizə görə, Hun, Hunlar qədim etnooykonimlər bu qəbildəndir.

AĞALAR – Sabiq Kutaisi quberniyasının Qori qəzasının indiki Kaspi rayonunda Azərbaycan türklərinin yaşadığı kəndin keçmiş adıdır. Bu oykonim türkköklü rütbə bildirən "ağa" sözü ilə "-lar" şəkilçisinin birləşməsindən yaranıb və böyük bir nəslin-tirənin adını bildirib və sonralar oykonimə çevrilib. "Ağalar" kəndinin yaşlı nəslin söylədiklərinə görə, bu kənddə "Ağalar" nəslinin yaşamasıilə bağlı olub. "Ağalar" kəndinin adı gürcü dilində əvvəlcə "Ağalariani", sonra isə, "Ağaiani" yazılmışdır. XX əsrin 90-cı illərinin "soyuq ab-havası" "Ağalar" kəndinin də üstündən yan keçməmişdir. Orta əsrlərdən mövcud olan "Ağalar" kəndinin adı dəyişdirilib, gürcü dilində "Ninosminda" qoyulub [4,148].

Azərbaycanın Zəngilan rayonunda Ağalı, Biləsuvar rayonunda Ağayrı, Laçın rayonunda isə Ağalaruşağı kəndləri vardır. Tiflis Quberniyasının Borçalı bölgəsinin Şimal-Qərbində sabiq Barmaqsız (indi Zalqa) rayonunda

Ağalıq adlı kənd olub [3,165]. Borçalı Qəzasının Bağ Borçalısında-Bolulus nəhiyəsində (indi Bolnisi) rayonunda Ağalıq adlı kənd vardır.

SARALLAR – Qədim Borçalının Bağ bölgəsinin mərkəzi hissəsində - Bolulus (indiki Bolnisi) rayonunun ərazisində kənd adıdır. Maşaver çayının sağ sahilində, rayon mərkəzindən 3 km qərbdə, dəniz səviyyəsindən 690 m hündürlükdədir. Bu oykonim "Saral" tayfa adı ilə "-lar" şəkilçisinin birləşməsindən yaranıb. Son illərdə "Sarallar" kəndi gürcü dilində "Zvareti" adlandırılıb [4,215]. Əhalisi 515 nəfərdən çoxdur. Kənddəki Azərbaycan məktəbi 1930-cu ildən fəaliyyət göstərir.

KÜRTLƏR (QURDLAR) – Qədim Borçalının Aran bölgəsində, sabiq Borçalı (indiki Marneuli) rayonunda, Ehram (Xram) çayının sahilində, rayon mərkəzindən 20 km gündoğarda, dəniz səviyyəsindən 330 m yüksəklikdə yerləşən kəndin adıdır. Bu oykonim "Təkəli" tayfasının bir qolu olan "Qurdlar" tayfa adı əsasında təşəkkül tapıb. Kürdlər kəndinin əhalisi 1800 nəfərdir. Kənddəki Azərbaycan məktəbi 1920-ci ildən fəaliyyət göstərir.

Azərbaycanın Ağdam və Bərdə rayonlarında da Qurdlar (Kürdlər) adlı yaşayış məntəqələri-oykonimlər vardır [1, 158]. Həmçinin Qərbi Azərbaycanın (indi Ermənistanın) Sisyan rayonunda da Qurdlar adlı kənd olub. 1918-ci ildə həmin kənddən soydaşlarımız qovulduqdan sonra Qurdlar kəndi dağıdılmışdır .

Kürdlər (qurdlar) etnonimi sadə kök söz- "kürk-qurd" etnonimi ilə "-lər" və "-lar" topoformatlar əsasında yaranıb. Onu da qeyd edək ki, Özbək toponimikasında da "kürd" və ya "qurd" sadə etnonimləri ilə "oba/ obu" "mayrırlı", "başçı" (başçı mənasında) əsasında Kürdoba, Kürdmayrılı, Kürdbaçı kimi mürəkkəb etnooykonimlər indi də işlənməkdədir.

TÜLLƏR – Gürcüstanın Şərqində Tiflis quberniyasının Sığınaq (sığınacaq yeri mənasında) – Siqnaxi qəzasının qədim Qaraca yurdunda (indiki Saqareco rayonunda) kənd adıdır. Bu etnooykonim "tülü" (Tülü-tolu) tayfasının adı ilə bağlı olaraq yaranmışdır [4,59]. Yor yaylasında, Yor çayının sağ sahilində, rayon mərkəzindən 43 km gündoğarda, dəniz səviyyəsindən 450 m yüksəklikdə yerləşir. Bu kəndin əhalisi 3800 nəfərdir. Kənddə Azərbaycan orta məktəbi fəaliyyət göstərir. Azərbaycanın Quba rayonunda Tüllər, Balakən və Lerik rayonlarında isə Tüllü adlı kəndlər vardır [1, səh 198]. Bu oykonimlər qədim türk tayfalarının bir qrupunu təşkil edən "Tüllü-tülü-tolu" tayfasının adı ilə -lər cəm şəkilçisinin birləşməsi nəticəsində yaranmışdır.

GÖDƏKLƏR (GÖDƏKLİ) – Tiflis Quberniyasının Borçalı qəzasının Dağ bölgəsinin sabiq Barmaqsız (indiki Zalqa) rayonunda kənd adı olub [6, 137]. Bu oykonim rayon mərkəzindən 22 km şimal-qərbə, dəniz səviyyəsindən 1820 m yüksəklikdə yerləşir. Gürcüstandakı soydaşlarımız

yaşayan kəndlər arasında dəniz səviyyəsindən ən yüksəkdə yerləşən bu kəndin əhalisi XX əsrin əvvəllərində 200 nəfər, XXI əsrin əvvəllərində 100 nəfər olub. [7, 128] .

Bu oykonim Türk köklü oğuz soylu "Xələc" tayfasının bir qolu olan "Gödəkli" və Xəzərlərin bir qolu olan "Gödəklər" tayfalarının adı əsasında yaranıb. Azərbaycanın sabiq Gəncə quberniyasının Zəngəzur qəzasında, Beyləqan, Qubadlı və Xaçmaz rayonlarında da "Gödəklər" adlı kəndlər vardır. Həmçinin Qərbi Azərbaycanın (indi Ermənistanın) İrəvan quberniyasında da "Gödəklər" adlı kəndlər olub [5, 379].

Azərbaycanın sabiq Jdanov (indiki Beyləqan) rayonunun Bünyadlı kənd Sovetliyinin tərkibində və Qubadlı rayonunda Gödəklər adlı kəndlər vardır [1, 177]. Həmçinin Qərbi Azərbaycanın (indiki Ermənistanın) Krasnoselo rayonunda Gödəklər və Arkasak rayonunda Gödəkli və Gödəklilər adlı kəndlər olub [3,185]. 1924-cü ildən Gödəklər kəndi Markuni, 20 avqust 1945-ci ildən Gödəkli kəndi Mrqavan adlandırılıbdır.

DƏLLƏR - Bolnisi və Başkeçid rayonlarında kənddir. Bu kəndlərdən Bolnisi rayonundakı Aran Dəllər kəndinin gürcülər tarixi adını dəyişib "Muşevani" qoyublar. Başkeçid rayonundakı Dağ Dəlləri kəndi öz adını daşıyır. Dəllər toponimik adlarının təşəkkül tapdığı sözlər əsasında düzələn kənd adlarına Azərbaycanda da rast gəlirik. Ağsu və Saatlı rayonlarında Dəlilər adlı kəndlər, Şəmkir rayonunda Dəlilər adlı şəhər tipli qəsəbə, Dəlilər Cəyir, Dəlilər Cırdaxan adlı kəndlər vardır[1.148].

Yuxarıda adları qeyd olunan kənd adlarına nəzər saldıqda aydın olur ki, həmin kənd adları "tele" adlı etnonim əsasında formalaşmışdır. Tarixdən məlumdur ki, türk mənşəli qədim tayfalardan biri "tele" tayfaları olmuşdur. Bu tayfa xalqımızın etnoginezində yaxından iştirak etmişdir. Bunu həmin tayfa adı əsasında düzələn toponimik vahidlər və onların müxtəlif bölgələrdə yayılması da təsdiq edir. Belə ki, "dəli" etnonimi "tele" şəklində hunların bir tirəsinin adı kimi məlumdur. Tarixi mənbələrin verdiyi məlumata görə, telelər qədim zamanlarda Balxaş gölü ətrafında yaşamış və hun tayfa birləşmələrinə daxil olmuşdur. Tele tayfası VI əsrin ortalarında Dağıstana qədər uzanan Qərbi türk xalqlarının tərkibinə daxil olmuş və əsas etibarı ilə Xəzər dənizi sahilində məskən salmışlar[4,125]. Mənbələrə əasasən söyləmək olar ki, eramızın VI-VII əsirlərində tele tayfası Azərbaycanda və onun hüdudlarında oturaq həyat keçirməyə başlamışlar.

Dilimizin sonrakı inkişaf prosesində "tele" sözü "dele" və ya "dəli" kimi formalaşmış və sonralar ona -lər şəkilçisi artırılmışdır. Deməli, dəli etnonimi "tele" sözü əsasında təşəkkül tapmışdır. Belə ki, "dəli" sözü əvvəllər dilimizdə həm tayfa adı, həm də "igid, cəngavər, qoçaq, cəsur, çılğın, qəhrəman, döyüşçü" mənalarında işlənmişdir. Ümumilikdə isə "dəli tayfası", "igid və cəngavər tayfa" məzmununu bildirir. Heç təsadüfi deyil ki,

mədəniyyətimizin ensklopediyası hesab olunan “Kitabi-Dədə Qorqud” dastanlarında Dəli Domrul, Dəli Dondar, Dəli Qoçar, “Koroğlu” dastanında Dəli Koroğlu, Dəli Həsən, Koroğlunun dəliləri, “dəli nərə çəkmək” kimi antroponimik və leksik vahidlər formalaşmışdır. Bu da tele tayfasının döyüşən və cəngavər türk tayfası olduğuna dəlalət edir. Toponimlərin yaranması bu və ya digər ərazidə hər hansı bir qəbilə, tayfa və xalqın məskən salmasının tarixi ilə bağlıdır.

Göründüyü kimi, Dədə Qorqud dünyasının bütün regionlarında, o cümlədən, Gürcüstanın Azərbaycan türkləri yaşayan bölgələrində dilimizin daxili imkanları (səs tərkibi, lüğət tərkibi, morfoloji və sintaktik qanunları) əsasında formalaşan yüzlərlə toponimlər və hidronimlər vardır. Onların toplanması və tədqiqi xalqımızın, mədəniyyətimizin və dilimizin tarixi inkişaf yollarını işıqlandırmaq üçün böyük əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Azərbaycan SSR inzibati-ərazi bölgüsü, “Azərnəşr” , 1979, 222 səh.
2. Bayramov İbrahim, Qərbi Azərbaycanın Türk mənşəli toponimləri, Bakı, “Elm”, 2002, 696 səh.
3. Bayramov İbrahim, Qərbi Azərbaycanın toponimlər sistemi, Bakı, “Elm”, 2005, 432 səh.
4. Çobanov M., Çobanlı M., Borçalı toponimləri, Bakı, “Borçalı”, 2012, 340 səh.
5. Budaqov B.Ə., Qeybullayev, Q. Ə., Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998, 454 səh.
6. Musa Urud, Zəngəzur toponimləri, Bakı, “Nurlan”, 2013, 400 səh.
7. Ерицов А. Д. Экономический быт государственных крестьян Борчалинского уезда Тифлиской губернии, 1989, 234 стр.

У. Чобанова

Этнотопонимы тюркского происхождения, образованные с помощью суффиксов множественного числа -лар и –ляр

Резюме

В статье рассматриваются значение и сущность тюркских етнотопонимов, существовавших на территории Республики Грузии. Уделяется внимание на существование их с исторической точки зрения и в Азербайджане и на территории Западного Азербайджана (Республики Армения).

До внимания читателей доводится и тот факт, что тюркские етнотопонимы в Грузии и на Западном Азербайджане (Республики Армения) были изменены и искажены или же полностью искажены.

Подобно тому азербайджанский язык, который имеет древнюю историю, обогащается, используя свои внутренние возможности-словообразования, точно также азербайджанские топонимы обогащаются различными способами, и это процесс продолжается и по сей день. В статье исследуются способы создания и образования этнотопонимов (этнотопонимов тюркского происхождения, образованные с помощью суффиксов множественного числа лар и -ляр), которые существовали с древних времен и были широко распространены в системе Азербайджанской топонимии.

H.Chobanova

Ethnotoponyms of the turkic origin, formed by plural suffixes -lar and –lar

Summary

The article deals with the meaning and the main point of Turkish etnotoponymies that were mainly existed in the territory of Georgia. It also pays attention to those etnotoponymies that historically existed in Azerbaijan and West Azerbaijan (Republic of Armenia).

Turkish toponymies were changed and distorted, or most of them completely were destroyed. All these matters have been directed to readers' attention by facts in the article.

Like the Azerbaijani language, which has an ancient history and being enriched using its internal capabilities -word-formations, the Azerbaijani toponyms also had been enriched in various ways, and this process continues to the present day. The article deals with the ways of creation and formation of ethnotoponyms (ethnotoponyms of the Turkic origin, formed by plural suffixes -lar and -lar), which existed from ancient times and were widely distributed in the system of Azerbaijan toponymy.

Rəyçi: İsmayıl Kazımov
filologiya elmləri doktoru, professor

AYSEL QURBANZADƏ
Azərbaycan Dillər Universiteti
aysel131b@gmail.com

İNTONASİYANIN İNGİLİS DİLİNDƏ KOMMUNİKATİV DƏYƏRİ VƏ TƏDRİSİNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: intonasiya, tələffüz, kommunikasiya
Key words: intonation, pronunciation, communication
Ключевые слова: интонация**,** произношение, общение

İntonasiya tələffüzün elə bir vacib tərəfidir ki, bütün dillərdə mövcuddur. Buna baxmayaraq, intonasiyanın tədrisi mübahisəli və problematik bir məsələdir. Dalton və Seidlhofer intonasiyanın tədrisinin zəruriliyini belə izah etmişlər: "İntonasiya – şifahi qarşılıqlı münasibətin ayrılmaz və önəmli hissəsidir" [4, s.75]. Bunun əksinə olaraq isə Cenkins yerli dil daşıyıcısı olmayanların ingilis dilində nitqlərində intonasiyanı vacib məsələ hesab etmirdi [6, s.16]. Lakin Kenvorsi bu fikirlə razılaşmır və qeyd edir ki, "İntonasiya qarşılıqlı anlama və hissləri ifadə etmək üçün vacibdir" [7, s.19]. Tələffüzün, eyni zamanda intonasiyanın tədrisində əsas məqsəd : a) danışıqda səlisliyə və təbiiliyə nail olmaq; b)həmsöhbətin tərəfindən anlaşılmaq; c) kommunikativ effektivlik, yəni mənanı düzgün çatdırmaqdır. Belə ki, intonasiyadan xəbərdar olmaq uğurlu ünsiyyətə səbəb olur. İntonasiya dili canlı edir, səsin harada düşməsi, harada qalxması, yaxud hər iki halın da baş verdiyi vəziyyətləri bilmək danışanın çatdırmaq istədiyi fikri düzgün ifadə etməsinə səbəb olur. Bir tələbənin autentik və ingilis dilinin yerli dil daşıyıcısının nitqinə oxşar danışığa yiyələnməsi üçün intonasiyanı bilməsi vacibdir. İntonasiya dilin çox həssas və qeyri-şüuri bir səviyyəsidir, ona görə də intonasiyanın bütün tərəfləri tələbələrə öyrədilməlidir.

Düzgün qurulmuş intonasiya tələbələrin eşidib-anlama bacarıqlarının da inkişafına səbəb olur. Ümumiyyətlə, eşidib-anlama ilə tələffüz bacarıqları bir- birindən qarşılıqlı olaraq asılıdır. Bir fərd kimi biz danışmaq bacarığını oxumaq və yazmaqdan əvvəl öyrənirik, belə ki, bir dili öyrənmək onun səs sistemini, ifadələrini, sözlərini düzgün tələffüz etmək deməkdir, yəni xarici dil öyrənmənin ən vacib məqsədi həmin dildə dəqiq və səlis, doğma dil daşıyıcıların nitqinə oxşar danışığa sahib olmaqdır. Düzgün intonasiya tələbənin həm eşidib-anlamada, həm də oxuma bacarığında uğurlu olmasına səbəb olur. Belə ki, düzgün intonasiya və tələffüz danışanın həmin dili nə qədər yaxşı bilməsindən, dil bacarığının keyfiyyətindən xəbər verir.

Ümumiyyətlə, intonasiyanın tədrisinin vacibliyi dünya dil tədrisində geniş müzakirə olunmuş bir məsələdir. Vonq qeyd etmişdir ki, tələbələrin

söz ehtiyatı və qrammatik bilikləri nə qədər mükəmməl olsa belə, əgər onların intonasiya qurmaq bacarığı lazımi səviyyədə deyilsə, onlar ingilis dilində effektiv kommunikasiya qurmağa nail ola bilməyəcəklər [12, s.50]. Belə ki, intonasiyanın tədrisinə olan cari yanaşma 3 əsas meyara əsaslanır: 1) intonasiya məzmun daxilində danışıq bacarıqlarından istifadə ilə tədris olunmalıdır; 2) intonasiyanın tədrisi geniş kommunikativ məqsədlərə xidmət etməlidir; 3) intonasiyanın tədrisi idealistik dil modellərindən daha çox realistik dil modellərinə əsaslanmalıdır [3, s.39]. İntonasiya kommunikasiya prosesində emosiyaları çatdırmaqla yanaşı, həmçinin dilin qrammatik quruluşu ilə tanış olmağa kömək edir, ona görə də səhv qurulmuş intonasiya çaşqınlığa, ünsiyyətin uğursuz olmasına səbəb olur [11, s.192].

İntonasiyanın tədrisində əsas məqsəd dinləyiciyə məntiqli, ahəngli, anlaşıqlı nitq nümayiş etdirmək və tələbəni başa düşülən nitqlə təmin etməkdir. İntonasiya nitqi rabitəli edir [9, s. 211]. Belə ki, istənilən xarici dildə danışmağı öyrənməyin açarı, həmin dilin intonasiyasını bilməkdir. Buna görə də, ingilis dilində yaxşı danışıq bacarığına sahib olmaq üçün düzgün intonasiya ilə danışmağı öyrənmək gərəkdir. İntonasiyanın doğru qurulması ingilis dilində kommunikasiya qurmaq bacarığının təkmilləş-məsinə səbəb olur. Dil gündəlik həyatımızın vacib bir hissəsi olduğu kimi, dilin intonasiyası da insanların çatdırdığı və qəbul etdiyi fikirlərdə, həmçinin effektiv kommunikasiyanın alınmasında zəruridir. İntonasiyasız nitq monoton nitq adlanır. İntonasiyasız nitqi dinləyərkən danışanın hisslərini və söhbətə münasibətini başa düşmək qeyri-mümkündür. Belə ki, intonasiya tələbələrə öyrədilməsi vacib olan faydalı və zəruri bir bacarıqdır.

Ümumiyyətlə, intonasiyada uğurlu olmaq tələbənin nə qədər çox səylə və məsuliyyətlə çalışmasından asılıdır. İntonasiyada mükəmməlliyə nail olmaq effektiv kommunikasiya qurmağa icazə verir, bununla yanaşı, istənilən vaxt istənilən situasiyada dinləyici tərəfindən düzgün anlaşılmağa səbəb olur. Bir sözlə, tələbələr intonasiyanın kommunikativ dəyərini dərk etməlidirlər. Tələbələr ingilis dilində danışa bilsələr belə, intonasiyada uğursuz olarlarsa, anlaşıqlı və təbii nitqə sahib ola bilməyəcəklər. Belə ki, intonasiyanın tədrisində əsas məqsəd tələbələrdə aydın və anlaşıqlı nitq formalaşdırmaq, onları səmərəli və faydalı tələffüz davranış və bacarıqları ilə təmin etməkdir.

İntonasiyanın tədrisində və öyrənilməsində bəzi hallar vardır ki, problem və çətinliklərə səbəb olur: a) ana dili ilə hədəf dil arasında olan fərqlər; b) ana dilinin hədəf dilə olan qeyri- ixtiyarı təsiri; c) tədrisin uğursuz olması. Bu səbəbdəndir ki, müəllimlər ilk növbədə, tələbələrin çətinliklərini başa düşməyə çalışmalıdırlar, tələbələrə intonasiyanın bütün tərəflərini göstərməli və izah etməlidirlər. Müəllimlər dil sinifini elə bir vəziyyətə

gətirməlidirlər ki, tələbələr ingilis dilində kommunikasiya yaratmağa həvəslənsinlər.

Ümumiyyətlə, intonasiyanın öyrənilməsinə tələbələrin *yaşı, xarakteri, müəllim, ana dili və birinci dil, motivasiya, tədrisin keyfiyyəti* kimi amillər təsir edir. Belə ki, xarici faktorlardan olan tədris keyfiyyəti, yəni müəllimin tətbiq etdiyi tədris metodları intonasiyanın öyrənilməsində önəmli yer tutur. Dil müəllimi dil sinifinə effektiv fəaliyyət növləri və tapşırıqları gətirməlidir. Vonq iddia etmişdir ki, tələffüzün, eyni zamanda intonasiyanın tədrisinə sadəcə bir dil məsələsi kimi baxıb keçmək olmaz, bu məsələyə təsir edən amilləri də mütləq bilmək və nəzərə almaq lazımdır [12, s. 57]. Kenvorsi bu faktorlara *ana dilini, tələbənin anadan gəlmə fonetik qabiliyyətini, dildə özgüvəni, şəxsiyyəti,motivasiyanı* və *məsuliyyəti* aid etmişdir. Daxili faktorlar da vardır ki, bunlar tələbəyə məxsusdur, həmin amillərə eşitmə bacarığı yəni, qulaq ilə qavrama kimi bioloji faktor, tələbənin fərdi xüsusiyyətləri olan şəxsiyyəti, dilə münasibəti, şəxsi səyləri, məqsədi və motivasiyası aiddir. Bir çox tədqiqat və fərziyyələrə görə, yaş və tələffüzü öyrənmək bacarığı arasındakı əlaqə hələ də mübahisəli məsələ olaraq qalır.

Eşitmə bacarığı bioloji amil kimi mühüm əhəmiyyət kəsb edir. Belə bir ümumi fikir vardır ki, hər bir kəsin özunə məxsus eşitmə qabiliyyəti vardır, yəni yaxşı eşitmə qabiliyyəti olan tələbə intonasiyada səslər və tonlar arasındakı fərqi daha yaxşı hiss edə bilir və daha düzgün səsləndirir. "Dil öyrənmə idrak qabiliyyəti və neyro-məntiqi faktorlardan asılıdır" [1, s.13]. Digər bir amil olan *birinci dil* ingilis dilini öyrənmə prosesində mərkəzi rola malikdir. Belə ki, tələbələrin birinci dili xarici amil kimi ingilis dilinə, onun tələffüz və intonasiyasında olan incəliklərə öz təsirini göstərir.

Qeyri-ingilis dilli ölkələrdə tələbələr dil sinifindən başqa ingilis dilindən istifadə etmək üçün əlavə fürsətlərə sahib deyillər. Bu səbəbdən də, təhsil müəssisəsi ingilis dilinin istifadəsi üçün hər cür şərait və imkanı tələbələr üçün yaratmalıdır. Ümumiyyətlə, dil müəllimləri tələbələrə tələffüzü, eyni zamanda intonasiyanı öyrənmək üçün müvafiq məqsəd müəyyənləşdirməkdə kömək etməli, onları öyrənməyə motivasiya etməyə çalışmalıdırlar.

Hal-hazırda ingilis dili müəllimləri tələbələrin ingilis dili bacarıqlarını məzmun daxilində inkişaf etdirmək üçün Kommunikativ Dil Təlimini (KDT) dil sinifində uğurla tətbiq edirlər. KDT tələbələrin autentik məzmun daxilində kommunikativ bacarıqlarının inkişaf etdirməyə yönəlmiş bir yanaşmadır. Lakin bir sıra amillər mövcuddur ki, dil sinifində ingilis dilinin kommunikativyönümlü tədrisinə təkan verir, bəzi amillər də vardır ki, əksinə olaraq KDT-nin tətbiqinə mane olur. KDT-nin tətbiqinə təkan verən önəmli amillərindən biri *müəllim* faktorudur. Belə ki, peşəkar təlim keçmiş müəllim KDT-nin həm nəzəri əsaslarından xəbərdar olur, həm də mənimsədiyi

müvafiq təcrübələri dil sinifində tətbiq etmiş olur. Əgər müəllimlərin tədrislə bağlı bilik və bacarıqları kifayət qədər olmazsa, bu, KDT-nin tətbiqində uğursuzluğa aparacaqdır. Müəllimin KDT üçün lazımi tədris bacarıqları olmadıqda, tələbələr nə qədər çox çalışsalar da , kifayət qədər kommunikativ bacarıqlara sahib ola bilməyəcəklərdir. Digər bir amil isə əks əlaqə ilə bağlıdır. Müəllim tələbələri lazımi və faydalı əks əlaqə ilə təmin etməlidir və onlarda özlərinə qarşı inam hissi yaratmalıdır.

İngilis dilinin kommunikativyönümlü tədrisinə *motivasiya* amilinin də təsiri vardır. P.Ur qeyd etmişdir ki, "Dil öyrənməyə nail olmağın motivasiya ilə sıx əlaqəsi vardır" [10, s. 274]. Motivasiya faktoru tələbəni məqsədinə çatmağa itələyən bir gücdür. Ümumiyyətlə, ingilis dilinin kommunikativyönümlü tədrisi tələbə-yönümlüdür, tələbələrdə motivasiya hissini yüksəldir və onları gündəlik həyatlarında da ingilis dilindən istifadə etməyə həvəsləndirir.

Beləliklə, bütün bu irəli sürülən fikirlərdən belə nəticəyə gəlmək olar ki, intonasiya, xüsusilə, kommunikasiyada əsas rol oynayır, buna görə də ingilis dilinin kommunikativyönümlü tədrisi tələbələrin kommunikativ bacarığını ortaya çıxarmalıdır. Düzgün qurulmayan intonasiya ciddi anlaşılmazlığa yol açа bilər. Ona görə də başa düşülən nitq uğurlu ünsiyyət üçün vacib olan əsas amildir. İntonasiya bizim nə deməyimiz haqqında deyil, nəyi necə deməyimiz haqqındadır. İntonasiya cəhətdən düzgün qurulmuş nitq dinləyicinin zövqünü oxşayır və danışanın nitqinə maraq yaradır. Düzgün və anlaşıqlı intonasiya tələbələrdə özünə inamın artmasına və daha çox öyrənmələrinə səbəb olur. İngilis dilində danışarkən tələffüzün tərkib hissəsi kimi intonasiya danışanın dil səviyyəsi və bacarığı haqqında ilkin təəssürat yaradır. Belə ki, intonasiya ingilis dilini öyrənən tələbələrin tələffüzünə təsir edən ən vacib faktorlardandır. Müəllimlər tələbələrə intonasiyanı öyrənmək üçün lazımi və müvafiq məqsədlər müəyyənləşdirməkdə kömək etməlidirlər. Bundan başqa, müəllimlər tələbələri daim öyrənməyə motivasiya etməyə çalışmalıdırlar. Bir sözlə, intonasiyanın doğru qurulması, birbaşa olaraq ingilis dilində kommunikasiya qurmaq bacarığının inkişafına səbəb olur.

Ədəbiyyat:

1. Bista, K. K. (2009). Age as an affective factor in second language acquisition. **English for Specific Purposes World.**
2. Celce-Murcia, M., Brinton, D. M., & Goodwin, J. M. (2010). Teaching pronunciation. Cambridge: Cambridge University Press.

3. Chun, D. M. (2002). Language Learning and Language Teaching. Discourse Intonation in L2. From theory and research to practice. Amsterdam: John Benjamins.
4. Dalton, C. and B. Seidlhofer (1994). Pronunciation. Oxford, Oxford University Press.
5. Harmer, J. (1991). The practice of English language teaching. New York: Longman Publishing.
6. Jenkins, J. (2000). The phonology of English as an international language. Oxford: Oxford University Press.
7. Kenworthy, J. (1987). Teaching English Pronunciation. Harlow, Longman.
8. Morley, J. (1999). Trends in speech/pronunciation instructional theory and practice. TESOL Matters.
9.Pennington, M., & Richards, J. (1986). Pronunciation revisited. *TESOL Quarterly.*
10. Penny Ur. (1991). A Course in Language Teaching. Practice and Theory. Cambridge University Press.
11. Rogerson-Revell, P. (2011). English phonology and pronunciation teaching.
London: Continuum.
12. Wong, R. (1987) Teaching pronunciation: Focus on rhythm and intonation. Englewood Cliffs, New Jersey: Prentice Hall Regents.

A.Qurbanzade

The communicative value of intonation in English and the importance of its teaching

Summary

Intonation, especially plays a major role in communication, so communicative language teaching should reveal the students' communicative ability. Incorrect intonation can cause serious misunderstandings. That is why, comprehensible speech is important for successful communication. Intonation is not about what we say, but about how we say something. The speech with appropriate intonation is enjoyable for the interlocutor and rouses interest to the speaker's speech. Moreover, good intonation causes the self-confidence in the students. While speaking in English, intonation as a feature of pronunciation gives first impression about the speaker's language skill. So, intonation is one of the factors has a

significant influence on the English Foreign language learners' pronunciation.

To sum up, the teachers should help students in setting necessary and proper goals for learning English intonation. Furthermore, the teachers should motivate students for constantly learning. In conclusion, correct intonation causes to improve the ability of communication in the English language.

А.Гурбанзаде

Коммуникативная ценность интонации на английском языке и важность ее преподавания

Резюме

Интонация, особенно играет важную роль в общении, поэтому коммуникативное обучение английского языка должно раскрывать коммуникативные способности учащихся. Неправильная интонация может вызвать серьезные недоразумения. Понятная речь важна для успешного общения. Интонация не о том, что мы говорим, а о том, как мы говорим. Речь с соответствующей интонацией приятна для собеседника и вызывает интерес речь говорящего. Правильная интонация вызывает уверенность в себе у студентов. Говоря по-английски, интонация как функция произношения дает первое впечатление о языковых навыках говорящего. Таким образом, интонация является одним из факторов, оказывающих значительное влияние на произношение учащихся, изучающих английский язык.

Подводя итог, преподаватели должны помочь учащимся в определении необходимых и правильных целей для изучения английской интонации. Кроме того, преподаватели должны мотивировать студентов к постоянному обучению. В заключение правильная интонация приводит к улучшению способности общения на английском языке.

Rəyçi: Nuriyyə Əliyeva
filologiya üzrə fəlsəfə doktoru

ИРАДА АЛИЕВА,
ЗЕНФИРА ОРУДЖЕВА
Азербайджанский архитектурно-строительный Университет
irade@mail.ru

РОЛЬ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ ПРИ ИЗУЧЕНИИ РУССКОГО ЯЗЫКА В ТЕХНИЧЕСКИХ ВУЗАХ

Açar sözlər:müstəqil iş, nailiyyət, təşkilat, maraq oyatmaq, şəxsiyyətin inkişafı
Ключевые слова: самостоятельная работа, достижения, организация, пробудить
интерес, развитие личности
Key words: independent work, attainment, organization, arouseinterest, personal development

Проведение самостоятельной работы учащихся невозможно без изучения языка - как родного, так и любого иностранного.

За годы независимости роль и значимость русского языка в Азербайджане не уменьшилась. Нужно отметить, что русский язык в республике является одним из активно функционирующих средств обучения и общения на различных уровнях.

Совершенствование преподавания русского языка в азербайджанской аудитории зависит от целого ряда факторов, среди которых немалое значение имеет наличие самостоятельной внеаудиторной работы. Молодежь и взрослые по-прежнему активно слушают и смотрят телепередачи, общаются друг с другом на русском языке и т.д.

Овладение языком осуществляется не только на учебных занятиях, но и во внеаудиторное время. Эти внеаудиторные занятия являются полностью самостоятельными для учащихся и именно эти занятия имеются ввиду, когда речь идет о самостоятельной работе.

Проблема организации самостоятельной внеаудиторной работы существовала всегда. Практика показывает, что основным в воспитательно-образовательном процессе является не сообщение готовых знаний обучаемым, а развитие личности, главным образом, в результате самостоятельной работы под руководством преподавателя.

Для вчерашнего школьника в организации самостоятельной работы главным является адаптация к вузовской системе обучения. Многое зависит от того, сумеет ли преподаватель увлечь студента,

пробудить в нем интерес к языку, чтобы он самостоятельно справился с данным ему заданием.

Самостоятельная работа является также важной формой воспитания творческой активности студентов.

Самостоятельная работа студентов рассматривается как часть овладения содержанием каждого учебного модуля. Преподаватель разрабатывает критерий оценивания основных видов самостоятельной работы студента и включает его в график бально-рейтинговой системы оценивания достижений студента.

Внеаудиторной самостоятельной работе обучающихся отведено всего 20 часов, поэтому качество навыков практической деятельности, прежде всего, зависит от степени активности студентов, их включенности в содержание практических занятий, творческой субъектной позиции.

Внеаудиторная самостоятельная работа может выполнятся обучающимися индивидуально или коллективно.При этом преподаватель должен исходить из цели, объема, конкретной тематики самостоятельной работы, уровня сложности, уровня умений обучающихся. Сочинения на темы: «Мой любимый писатель», «Моя родина», «Герои Карабахской войны», «Семь чудес света», «Архитектурные памятники Азербайджана»-помогают развить активность, самостоятельность мышления студентов, дают возможность студентам еще раз ознакомиться с архитектурой своего города, узнать своих героев, рассказать о своем любимом писателе. Это способствует формированию профессионального мышления на русском языке.

Контроль результатов внеаудиторной самостоятельной работы обучающихся может проходить в письменной, устной или смешанной форме с представлением обучающимся презентаций, отчетов, продуктов своей творческой деятельности или путем демонстрации своих умений.

В качестве форм и методов контроля внеаудиторной самостоятельной работы обучающихся можно также использовать семинарские занятия, коллоквиумы, тестиро-вание, выступления на конференциях, олимпиадах.

Одна из главных задач вузов состоит в том, чтобы не только дать знания студентам, но и пробудить личностный мотив, привить интерес к обучению, самосовершенствованию, «научить учиться». В образовании все больше намечаются тенденции к перемещению акцента с методов, обеспечивающих репродуктивное усвоение знаний, на методы, позволяющие «добывать» знания самостоятельно, формировать ряд компетенций, а также на технологии (в том числе и компьютерные), обеспечивающее общее развитие личности и ее адаптацию к полноценной жизни в современном информационном обществе. Необходимо стимулировать

студентов, наряду с использованием традиционных методов, активно привлекать к своей работе электронные издания, которые наиболее полно и быстро реагируют на все изменения в системе современного русского языка.

С одной стороны самостоятельная работа рассматривается как вид деятельности, стимулирующий активность, самостоятельность, познавательный интерес, самообразование, мотивацию к дальнейшему повышению квалификации, а с другой – как система мероприятий, обеспечивающих руководство самостоятельной деятельности студентов.

Новые подходы к организации самостоятельной работы предполагают, что студенты учатся не только у преподавателя, но и друг у друга, работают с различными базами информации; учатся мыслить и принимают решения.

Студент ВУЗа (будущий специалист) должен уметь самостоятельно пополнять свои знания в области русского языка, заниматься самообразованием. Домашнее чтение как один из аспектов преподавания также играет важную роль в овладении учащимися умению осмысленного чтения, помогает повторить и закрепить лексический и грамматический материал, увеличивает потенциальный словарь студентов, но самое главное - оно развивает умение самостоятельной работы с учебным материалом, а также позволяет учащимся систематически находиться в атмосфере иностранного языка. Итак главное назначение домашнего чтения - это получение информации из текстов на иностранном языке.

В усвоении иностранного языка немалую роль играет умение студентов пользоваться современным ТСО, особенно компьютером с выходом в Интернет. Поэтому в работе преподавателя должны быть предусмотрены специальные задания, требующие использования современных информационных технологий. Добиться этого можно через организацию эффективной внеаудиторной работы. Формы и виды такой работы весьма разнообразны и с ними будущих учителей необходимо знакомить еще во время их обучения в вузе.

Определенные навыки самостоятельной работы студенты могут получить как в процессе выполнения различных дидактических игр, так и во время участия во внеаудиторных мероприятиях, таких как экскурсия по городу, посещение музея или театра. Перед проведением такого внеаудиторного мероприятия со студентами надо провести следующую работу:

-Сообщить (и пояснить) им цель проведения экскурсии и место, намеченное к посещению. Сообщается адрес музея

-Студентам предлагается записать и запомнить лексику, которая им понадобится во время экскурсии.

- Предлагается познакомиться с путеводителем по музею.

Во время экскурсии студенты слушают рассказ экскурсовода, задают по ходу осмотра экспонатов вопросы и обмениваются впечатлениями.

После экскурсии студентам задаются вопросы.

Для закрепления лексико-грамматического материала предлагается выполнить ряд заданий. Например: 1.Дайте синонимический вариант указанных слов и выражений.

2.Подберите антонимы к словам. 3. Подготовьте диалог по ситуации. 4. Узнайте через Интернет, какие музеи есть в городе Баку. В какой музей вы пойдете с друзьями на следующей неделе?

Такие внеаудиторные мероприятия предоставляются преподавателю неограниченные возможности для осуществления поставленных перед ним задач, а именно - ориентировать, подготавливать студентов-азербайджанцев к будущей специальности архитектора, строителя и т. п.

Основная задача высшего образования заключается в формировании творческой личности специалиста, способного к саморазвитию, самообразованию, инновационной деятельности. Решение этой задачи вряд ли возможно только путем передачи знаний в готовом виде от преподавателя к студенту. Необходимо перевести студента из пассивного потребителя знаний в активного их творца, умеющего сформулировать проблему, проанализировать пути ее решения, найти оптимальный результат и доказать его правильность.

В первую очередь необходимо достаточно четко определить, что же такое самостоятельная работа студентов. В общем случае это любая деятельность, связанная с воспитанием мышления будущего профессионала. Любой вид занятий, создающий условия для зарождения самостоятельной мысли, познавательной активности студента связан с самостоятельной работой.

Активная самостоятельная работа студентов возможна только при наличии серьезной и устойчивой мотивации. Самый сильный мотивирующий фактор-подготовка к дальнейшей эффективной профессиональной деятельности.

Рассмотрим внутренние факторы, способствующие активизации самостоятельной работы. Можно выделить следующие:

1.Полезность выполняемой работы. Если студент знает, что результаты его работы будут использованы в лекционном курсе, в методическом пособии, в лабораторном практикуме, при подготовке публикации или иным образом, то отношение к выполнению задания существенно меняется в

лучшую сторону и качество выполняемой работы возрастает. При этом важно психологически настроить студента, показать ему, как необходима выполняемая работа.

Другим вариантом использования фактора полезности является активное примене-ние результатов работы в профессиональной подготовке. Так например, если студент получил задание на дипломную (квалификационную) работу на одном из младших курсов, он может выполнять самостоятельные задания по ряду дисциплин гуманитарного и социально-экономического, естественно-научного и общепрофессионального циклов дисциплин, которые затем войдут как разделы в его квалификационную работу.

2.Участие студентов в творческой деятельности. Это может быть участие в научно-исследовательской или методической работе, проводимой кафедрой.

3.Важным мотивационным фактором является интенсивная педагогика.

Она предполагает введение в учебный процесс активных методов, прежде всего игрового тренинга, в основе которого лежат инновационные и организационно - деятельностные игры.

4.Участие в олимпиадах, конкурсах научно-исследовательских работ и т.д.

5.Использование мотивирующих факторов контроля знаний (накопительные

оценки, рейтинг, тесты, нестандартные экзаменационные (процедуры).

6.Поощрение студентов за успехи в учебе и творческой деятельности

(стипендии, премирование, поощрительные баллы) и санкции за плохую учебу.

7.Индивидуализация заданий, выполняемых как в аудитории, так и вне ее, постоянное их обновление.

Для проведения занятий необходимо иметь большой банк заданий и задач для самостоятельного решения, причем эти задания могут быть дифференцированы по степени сложности. В зависимости от урока можно использовать два пути:

1. Давать определенное количество задач для самостоятельного решения, равных по трудности, а оценку ставить за количество решенных за определенное время задач.

2. Выдавать задания с задачами разной трудности и оценку ставить за трудность решенной задачи.

По результатам самостоятельного решения задач следует выставлять по каждому

занятию оценку. Оценка предварительной подготовки студента к практическому заня-

тию может быть сделана путем экспресс - тестирования (тестовые задания закрытой формы) в течение 5, максимум-10 минут. Таким образом, при интенсивной работе можно на каждом занятии каждому студенту поставитьпо крайней мере две оценки.

Из различных форм СРС для практических занятий на старших курсах наилучшим образом подходят «деловые игры». Тематика игры может быть связана с конкретными

производственными проблемами или носить прикладной характер. Цель деловой игры – в имитационных условиях дать студенту возможность разрабатывать и принимать решения.

Активность работы студента на обычных практических занятиях может быть усилена введением новой формы СРС, сущность которой состоит в том, получает свое индивидуальное задание(вариант), при этом условие задачи для всех студентов одинаковое, а исходные данные различны. Перед началом выполнения задачи преподаватель дает лишь общие методические указания.

Разработка комплекса методического обеспечения учебного процесса является важнейшим условием эффективности самостоятельной работы студентов. К такому комплексу следует отнести тексты лекций, учебные и методические пособия. Это позволит организовать проблемное обучение,в котором студент является равноправным участником учебного процесса.

В последние годы наряду с традиционными формами контроля - коллоквиумами, зачетами, экзаменами достаточно широко вводятся новые методы. В первую очередь следует отметить рейтинговую систему контроля, применяемую во многих вузах.

Весьма полезным, на наш взгляд, может быть тестовый контроль знаний и умений студентов. Тестирование помогает преподавателю выявить структуру знаний студентов и на этой основе переоценить методические подходы к обучению

по дисциплине, индивидуализировать процесс обучения.

Конкретные пути и формы организации самостоятельной работы студентов с учетом курса обучения, уровня подготовки обучающихся и других факторов определяются в процессе творческой деятельности преподавателя, поэтому данные рекомендации не претендуют на универсальность. Их цель – помочь преподавателю

сформировать свою творческую систему организации самостоятельной работы.

Список использованной литературы

1.Материалы к лекциям по методике преподавания РКИ в вузе (Пособие для магистрантов и преподавателей). Министерство образования Азербайджанской Республики. Б.С.У.Л.Векилова докт.пед.наук. проф., А.О.Османзаде докт.пед.наук, проф.,Баку-2011 г.
2.Центр проблем развития образования. «Самостоятельная работа и академические успехи». Материалы международной научно-практической конференции «Университетское образование: от эффективного преподавания к эффективному учению»(БТУ,Минск,29-30 марта 2005г.)
- Е.Р.Балынкина, Д.Н.Бузун. «Проектное обучение как форма управляемой самостоятельной работы студентов»
- С.П.Бабина «Организация самостоятельной работы студентов на занятиях по домашнему чтению».
- «Положение о самостоятельной работе студентов и рекомендации по ее организации», Иваново, ИГХТУ,2011 г.

İradə Əliyeva,
Zenfira Orucova

Texniki ali məktəblərdə rus dilinin tədrisində müstəqil işin rolu

Xülasə

Məqalədə ali məktəblərdə rus dilinin tədrisində müəllimin müstəqil işin aparılmasına xüsusi diqqət ayırmasından bəhs edilir. Belə ki,müstəqil iş təkcə azəri tələbələrlə rus dilinin tədrisində deyil, həm də onun yaradıcılıq fəaliyyətinin formalaşmasında əsas amildir.

Maraqlı, bilikli dərsdənkənar işlərin aparılması tələbədə dilə qarşı maraq oyadır,ona rus dilinin tədrisində əhatə dairəsini genişləndirməyə,-yaradıcı qabiliyyətlərini artırmağa kömək edir.

Məqalənin müəllifi qeyd edir ki, konfranslar, olimpiadalar,gəzintilər, bədii qiraət,baxdıqları filmlər və oxuduqları kitabların müzakirəsi , komputer texnologiyasından istifadə kimi dərsdənkənar işlər müəllimlərə qarşılarına qoyduqları məqsədəyönlü məsələlərin həyata keçirilməsinəimkan yaradır– belə ki, azərbaycanlı- tələbələri gələcək profesional fəaliyyətə hazırlayır.

Tədris prosesinin metodiki dəstəyi kompleksinin inkişafı tələbələrin müstəqil işinin effektivliyinin şərtidir.

Irada Aliyeva,
Zenfira Orudceva

The role of independent work in the study of the Russian language in technical universities

Summary

In this article the teacher draws attention to training independent work on Russian language in higher education institutions. An independent work is also an important form and training of students in Russian and a form of education of students` creative activity.

In the conduct of an interesting literate out-of-class work,the teachercan arouse student` interestin language, to give an opportunity to expand the field of learning the Russian language, to develop creative thinking.

The author of the article points out that such extracurricular activities as a conference, olympiad, excursion, reading and discussion of books and films, and the use of computer technology give the teacher a large opportunity to carry out the tasks assigned to him- namely, to orient and prepare Azeri students for their future professional activity.

The development of a complex of methodological support of the educational process is an important condition for the effectiveness of independent work of students.

Rəyçi: Əlimə Osmanzadə
Professor

TƏHMİNƏ VƏLİYEVA
ADPU
valiyevatahmina@gmail.com

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ NİTQ ETİKETLƏRİNİN TƏDRİSİ MƏSƏLƏSİ

Açar sözlər: Azərbaycan dili, təlim prosesi, interaktiv təlim, nitq etiketi, cəmiyyət , situasiya, ünsiyyət
Ключевые слова: Азербайджанский язык, процесс обучения, интерактивное обучение, речевой этикет, общество, ситуация, общение
Keywords: Azerbaijani language, learning process, interactive training, speech etiquette, society, situation, intercourse

Azərbaycan dili dərslərində nitq etiketlərinin tədrisi məsələsi elmi-nəzəri və metodik problem kimi qarşıya qoyulur. Müasir təlimin qarşısında duran ən ümdə vəzifə hərtərəfli savada, geniş və zəngin dünyagörüşə malik şəxsiyyət formalaşdırmaqdır. Azad düşüncə sahibi olan insan öz fikirlərini istər şifahi, istərsə də yazılı formada, düzgün nitq vahidlərindən istifadə ilə çatdırmağı bacarmalıdır. Müasir təlimin başlıca vəzifəsi də nitqin cəmiyyət və dövlətə faydalı ola biləcək şəxsiyyət formalaşdırılmasındakı rolunu qabardır. Dilin daşıdığı ən ümdə və əsas funksiya onun cəmiyyətdə insanlar arasında mühüm ünsiyyət vasitəsi olmasıdır və bu funksiyanın reallaşdırılması nitq prosesində baş tutur. Mədəni, zəngin, ifadəli və düzgün nitqə malik insanlar cəmiyyət daxilində hər zaman seçilir və nüfuz qazanır. Çünki səlis nitq insanın bilik və mədəni səviyyəsinin "güzgüsü"dür. Hz. Əlinin "insan dilinin altında gizlənir" kəlamı yaxud antik yunan filosofu Sokratın "Danış, sənin kim olduğunu deyim!" ifadəsi insan kimliyinin müəyyənləşdirilməsində nitqin rolunu aşkar şəkildə göstərir. Fənn kurikulumlarının məzmun standartları hazırlanarkən hər bir fənnin məqsəd, vəzifələri nəzərə alınır. Müasir dövrdə Azərbaycan dili təlimində başlıca məqsəd şagirdlərin şifahi və yazılı nitqini inkişaf etdirmək, onlarda səlis nitq bacarıqları formalaşdırılmaqla yanaşı, şagirdlərin dünyagörüşünü zənginləşdirmək, hərtərəfli savada malik şəxsiyyət yetişdirməkdir. Məhz bu cəhət nitq təliminin Azərbaycan dili fənninin tədrisində mərkəzi mövqe tutduğuna əyani sübutdur. Hər bir xalqın dilində onun milli təfəkürünün, əxlaqi-etik dəyərlərinin ifadəsi olan söz və ifadələr işlənir ki, Azərbaycan dilində bu nitq konstruksiyaları nitq etiketləri, yaxud nitq yarlıqları adlanır. Nitq etiketləri cəmiyyətdə davranış normalarının tənzimləyicisi olmaqla yanaşı, mədəni ünsiyyətin formalaşmasında müəyyənedici rol oynayır. Nitq etiketlərinin tədrisinin vacibliyi də elə onun funksiyalarında təzahür edir.

Nitq etiketləri müəyyən cəmiyyət daxilindəki insanlararası münasibətlər sistemində həm mədəni ünsiyyəti formalaşdıran ən vacib ünsürdür, həm də əxlaqi-etik normaları özündə ehtiva edir. Buna görə də nitq etiketləri davranış normalarının tənzimləyicisi və nizamlayıcısı kimi çıxış edir. Azərbaycan dili dərslərində nitq etiketlərinin tədrisi zamanı müəllim bu iki cəhəti mütləq nəzərə almalı və onun ünsiyyətdəki rolunu yaxşı dərk etməlidir. Yalnız belə olan halda, müəllim nitq etiketlərini şagirdlərinə mənimsədə və onlarda gündəlik nitq vərdişinə çevrilməsi yönümündə iş apara bilər.Nitq etiketləri müxtəlif ünsiyyət situasiyalarında istifadə edildiyindən müəllim tədris prosesində situasiyanın doğurduğu emosional-ekspressiv halı və insanın psixoloji vəziyyətini nəzərə alaraq ifadələrin seçilməsinə yönəltməlidir. Şagirdlərin nitq etiketlərini yaxşı mənimsəməsi istiqamətində təlim işi aparan müəllim şagirdlərini nitq etiketlərinin istifadə edildiyi situasiyalarla əyani tanış etməli, bir növ, özünü həmin situasiyanın iştirakçısına çevirməlidir. Həmin situasiyada birbaşa iştirak edən şagird düşünür "görəsən hansı sözü işlətsəm yerinə düşər?". Müəllimin istiqamətləndirici və axtarıcılığa yönəldən, fasilitator rolu bu zaman üzə çıxır. Əyani şəkildə nitq etiketlərinin işlədildiyi situasiyalarla tanış etmək üçün müəllim bir neçə iş üsulundan istifadə edə bilər. Nümunə üçün deyək: "Rollu oyun" iş üsulundan istifadə edilə və təlim prosesi ədəbi əsərlərə müraciətlə qurula bilər. X sinif şagirdlərinə nitq etiketlərini tədris edərkən müəllim IX sinifdə keçirilmiş Hüseyn Cavidin "Ana" pyesini rollar üzrə bölgü aparıb şagirdləri həmin əsərdə baş verən situasiyaların bilavasitə iştirakçısına çevirir. Bununla da, tədris prosesi ədəbiyyat fənni ilə inteqrativliyin qurulması ilə həyata keçir. Azərbaycan dili təliminin ədəbiyyat təlim fənni ilə əlaqə yaradılması böyük səmərə verir. Çünki inteqrasiyanın düzgün və məqsədə müvafiq qurulması təlim materialının "ölümsüzləşdirir", daha dərin və möhkəm mənimsədilməni təmin edir. Həmçinin müəllimin nitq etiketlərinin tədrisi zamanı "əqli hücum" iş üsuluna da müraciəti səmərəli olar. Müəllim elə sual qoymalıdır ki, şagirdləri düşünməyə və axtarıcılığa sövq etsin, problemin həlli yönümündə tədqiqat aparılsın. Mövzunun təlim edilməsi mətn üzərində işlə də qurula bilər. Müəllim mətni oxuyub dərk edən şagirdə mətndə mövcud olan məqamlarla bağlı suallar verir və həmin məqamlarda hansı ifadələrin işlədilməsi müəllim-şagird, şagird-şagird əməkdaşlığı nəticəsində müəyyənləşir. Mətnin seçilməsinə də xüsusi diqqət ayrılmalıdır, mətn məqsədəuyğun şəkildə seçilməlidir. Məsələn, VI sinif "Azərbaycan dili" dərsliyində verilmiş "Sənin kimi olacağam" mətnində ata yazdığı inşa ilə müəllimin tərifini qazanan oğlunu alqışlamaq, tərifləmək üçün "Afərin sənə! Sükanı belə saxla!" alqış etiketindən istifadə edir. Mətn həm də didaktik əhəmiyyət kəsb edir. Oğlan onu itələyən Asifi vurur, atası oğluna:

"- Yaxşı eləmisən. Qoyma səni vursunlar. Heç vaxt!" desə də, oğlunun "Yaxşı eləmişəm? Amma müəllim dedi ki, düzgün hərəkət etməmişik" sözü atanı söylədiyi sözə peşman edir. Oğlunun "atam kimi həkim olacağam. Çoxlu xəstələrim olacaq və mən də onları sağaldacağam. Atam kimi, mən də kasıblardan pul almayacağam. Onları pulsuz sağaldacağam. Ehtiyacı olanlara pulsuz dərmanlar verəcəyəm. Çünki mənim atam belə edir" sözləri atanı sarsıdır və pulu ödəmədiyinə görə əməliyyat etmədiyi xəstə yadına düşür, dərhal zəng vurub hamını işə çağırır və əməliyyata başlayır.Müəllim "karusel", "sankveyn", "ziqzaq" kimi iş üsullarına da müraciət edə bilər. O, iş vərəqələrində müxtəlif məqamlarda işlədilən nitq etiketlərini verir və onları situasiya tiplərinə görə qruplaşdırır. Məsələn: salamlaşma, vidalaşma, görüşmə, müraciət, şad yaxud bəd xəbərlərin çatdırılması, hal-əhval tutma, sualvermə, cavabalma, söhbətə qoşulma və müdaxilə, intizama dəvət etmə, təbrik, alqış və s. bu kimi çoxsaylı situasiyalarda nitq etiketləri işlədilir. Situasiya tiplərinə görə qruplaşdırma apardıqdan sonra həmin iş vərəqələrini qruplarla iş formasından istifadə edirsə təşkil etdiyi ayrı-ayrı qruplara paylayır. Məhz bu zaman onlar müşahidələrinə, oxuduqlarına əsaslanaraq, yaxud özünü bilavasitə həmin situasiya iştirakçısı kimi görüb düşünərək hansı məqamda hansı nitq etiketlərindən istifadənin yararlı olduğunu aydınlaşdıra bilər. Hər qrup üçün ayrı verilmiş iş vərəqələri digər qrup üzvlərinə də ötürülür. Bununla da, şagirdlər həm digər nitq-ünsiyyət situasiyaları və o məqamlarda işlədilən nitq etiketləri ilə tanış olur, həm də bir-birlərinin fikirlərini əxz edir və onların fikirlərinə öz tənqidi münasibətlərini bildirirlər.Nitq etiketlərinin ümumtəhsil məktəblərinin sinfi üzrə konkret bir dərs nümunəsi verərək praktik şəkildə nitq etiketlərinin tədrisinin necə reallaşdırılması barədə təsəvvür yaratmaq mümkündür.

Nitq etiketləri – X sinif

Standartlar:

2.1.1. Nitqində dil vahidlərindən məqsədyönlü istifadə edir.

2.1.2. Nitqini zənginləşdirmək məqsədilə atalar sözü, məsəllər və sitatlardan istifadə edir.

2.1.3 Müxtəlif mövqeli fikirləri real həyat hadisələrlə müqayiə edir.

2.1.4. Fikirlərini müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlərlə ifadə edir.

3.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə görə fərqləndirir.

4.1.1. Müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır.

Mövzu: Nitq etiketlərinin tədrisi

Məqsəd: Ünsiyyət zamanı şagirdlərin hər situasiyaya uyğun söz və ifadələrdən məqsədli şəkildə istifadəsini təmin etməkdir.

Dərsin tipi: İnduktiv

Iş üsulu: anlayışın çıxarılması, əqli hücum, sorğu, klaster

Iş forması: qruplarla iş, kollektivlə iş
Resurslar: sorğu vərəqələri, iş vərəqələri, proyektor lövhəsi
Dərsin təşkili üzrə vaxt bölgüsü:
Sinfin təşkili - 2 dəq
Motivasiya, problemin qoyuluşu - 3 dəq
Tədqiqatın aparılması – 8 dəq
Məlumat mübadiləsi - 8 dəq
Məlumatın müzakirəsi və təhlili - 10 dəq
Nəticələrin ümumiləşdirilməsi – 6 dəq
Yaradıcı tətbiqetmə, yaxud ev tapşırığı – 5 dəq
Qiymətləndirmə, refleksiya – 3 dəq

Motivasiya mərhələsində müəllim "anlayışın çıxarılması" iş üsuluna müraciət edib "nitq", "etika", "mədəniyyət", "ünsiyyət" sözlərini açar sözlər kimi istifadə edir. Şagirdlərin düşünüb tədqiq və axtarışlarının nəticəsi olaraq "nitq etiketi" anlayışı çıxarılır. Bu üsuldan istifadə zamanı biz nitq etiketinin ən önəmli keyfiyyətləri barədə şagirdlərə ilkin informasiya vermiş oluruq. **Tədqiqatın aparılması** mərhələsində isə "nitq etiketlərində müxtəliflik hansı amillərlə ilə bağlı ola bilər?" tədqiqat sualı ətrafında şagirdlər düşünməyə təhrik olunur və məsələnin həlli yönümündə axtarıcılığa sövq olunurlar. Bu mərhələdə "əqli hücum" iş üsulundan istifadə olunur. Məlumatın **mübadiləsi** mərhələsində sorğu vərəqələri paylanır. Vərəqələrdə aforizm, atalar sözləri yer alır və bu hikmətli ifadələrdən hansı məqamda işlədilməli olduğu soruşulur. Şagirdlər tərəfindən alınan müxtəlif səpkili cavablar istiqamətində onları ayrı-ayrı qruplar şəklində birləşdirib, qruplar üzrə iş təşkil edilir. **Məlumatın müzakirəsi** zamanı hər qrupa tapşırıq və çalışmalar verilir, suallardan istifadə ilə mövzu ətrafında şagirdlərin tədqiqat aparmasına şərait yaradılır. Şagirdlərin verdikləri cavablar əsasında məlumatlar müzakirə edilir və təhlilə cəlb olunur. Təhlil prosesində müxtəlif fikirlər səsləndirilir və müxtəlif münasibətlər ortaya çıxır. **Nəticələrin ümumiləşdirilməsi** mərhələsində isə "klaster" iş üsuluna müraciət edilərək ayrı-ayrı qruplara verilən suallar və bu suallara verilən cavablar şagirdlərin bir-birlərinin fikirlərini öyrənib öz münasibətini bildirmələri üçün əlverişli şərait yaranır. **Yaradıcı tətbiqetmə, yaxud ev tapşırığı** mərhələsində kollektivə müraciət edən müəllim tərəfindən onlara "qarşılaşdıqları hadisə, yaxud əhvalat barəsində sərbəst inşa yazıb hansı nitq etiketlərindən istifadə etdiyinizi göstərin" kimi tapşırıq verilir. **Qiymətləndirmə və refleksiya** mərhələsində tədris materialının mənimsənilmə səviyyəsi müəyyənləşdirilir və şagirdlərin fəaliyyəti müəllim tərəfindən qiymətləndirilir. Müəllim aşağıdakı meyarları əsas göstərici kimi götürüb qiymtələndirmə aparır.

1. Fikir bildirmə və əsaslandırma

2. Mənbələrdən istifadə
3. Nizam-intizam
4. Əməkdaşlıq

X sinif "Azərbaycan dili" dərsliyində "Afrikadan incilər" adlı mətn yer alır. Azərbaycan dili dərslərində mətn üzərində iş təşkilinə xüsusi yer verilir. Bu baxımdan, mətn üzərində işi təşkil edən müəllim əvvəlcə dinləyib-anlama və danışma məzmun xətti üzrə formalaşdırılan standartlardan istifadə edərək mətni ya müəllim özü, ya da səlis, aydın nitqə malik şagirdlərdən biri oxuyur. Digər şagirdlər isə dinləyərək mətnin məzmununu dərk etməyə çalışır. Şagirdlərin dinlədikləri mətndən nəyi anladığını təyin etmək üçün müəllim şagirdlərə mətnin məzmunu ilə bağlı olan sual və tapşırıqlar verir. Şagirdlərin cavabları əsasında mətnin qavranılma səviyyəsini müəyyən edir. Danışma bacarıqlarının inkişafı istiqamətində iş aparılması məqsədilə şifahi və yazılı nitqin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Danışma bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi üçün mətnin məzmununu qısa xülasə şəklində danışın. Oxu məzmun xətti üzrə iş aparmaq üçün ifadəli oxunun təşkili səmərəlidir və X sinif dərsliyində bununla əlaqədar olan tapşırıqlar yer almışdır. Yazı məzmun xətti üzrə göstərilən standartlarda müxtəlif yazı növlərindən və yazı tiplərindən istifadə ilə yazılı nitq bacarıqları formalaşdırmaq və inkişaf etdirmək mümkündür. Yazılı nitq inkişafı üzrə isə esse, imla, inşa kimi yazılı növlərindən istifadə etmək olar. Bu yazı növləri həm də şagirdləri yaradıcı fəaliyyətə sövq edir. Nəqli, təsviri, mühakimə xarakterli yazı tiplərindən istifadə etməyi bacaran şagird mətnin məzmununa uyğun hansı tip yazını seçəcəyini özü asanlıqla müəyyən edir. Dərslikdə dil qaydaları üzrə bilik və bacarıqların formalaşdırılması yönümündə iş aparmaq üçün faydalı olan tapşırıqlar yer almışdır ki, bu da təlim məqsədinin həyata keçirilməsini təmin edir. Nitq etiketlərinin tədrisi ilə bağlı dərslikdə "Afrikadan incilər" mətnində işlədilən "Bir neçə gün ona yeməyi qapıdan atırlar" cümləsinə müvafiq "mətndə tünd şriftlə verilmiş cümlədə hansı sözün etik baxımdan işlənməsi düzgün deyil və digər sözlə əvəz edilməsi məqsədəuyğundur?" tapşırığı verilir. Şagirdlər etik baxımdan düzgün işlədilməyən sözü tapmaq və onu başqa sözlə əvəzləmək haqqında düşünür. Düşünmə və axtarışlarının nəticəsi olaraq bu sözün "atırlar" sözü olduğunu müəyyən edir və onu "verirlər" sözü ilə əvəz edir. X sinif "Azərbaycan dili" dərsliyində bu qəbildən olan tapşırıqlar kifayət qədərdir və şagirdlərin nitq inkişafının təmin edilməsi, nitqinin zənginləşdirilməsi ilə əlaqədar tapşırıq və çalışma növləri yer almışdır. Dərslikdə yer alan mətnlərdə nitq etiketlərinin bol istifadə nitq etiketlərinin tədrisi üçün təlimin qarşısında geniş üfüqlər açır. Situasiyanın yaratdığı emosional-ekspressiv hal və psixoloji vəziyyətin nəzərdə saxlanılaraq nitq etiketlərindən istifadədə diqqət yetirilməsi vacib olan olduqca incə məqamlar var. Müəllim bu

məsələni şagirdlərinə çatdırmalıdır. Çünki qəfil eşidilən xəbər acı fəsadlarla nəticələnə bilər. Hətta şad xəbərin qəfildən verilməsi belə həmin insanın ölümünə səbəb ola bilər. Vaxtilə müharibə dövrü illərində "qara kağız" gəlməsi xəbəri əsəbləri zəif olan insanlardan gizlədilirdi. İnsanın ən yaxınının, ən əzizinin ölüm yaxud ağır vəziyyəti barədə xəbər çatdıran kimsə "Özündə deyil", "Vəziyyəti ağırdır", "Huşunu itirib", "Hələ özünə gəlməyib", "Halı yaxşı deyil" qəbildən olan nitq yarlıqlarından istifadə etməsi məqsədəuyğundur. "Bəd xəbərlərin münasib formada başqasına çatdırılması insanlara qayğıdır, mərhəmətdir"(1,272). Şad xəbərləri çatdırarkən də xəbəri verməzdən öncə, xəbəri çatdıran şəxs həmin insanı psixoloji cəhətdən hazırlamalıdır. "Sənə əla xəbərim var", "Muştuluğumu ver, deyim", "Bir xəbərim var ki, duysan uçmağa qanad axtaracaqsan" kimi nitq etiketlərindən istifadə etmək yerinə düşər. Nitq etiketlərinin tədrisinin önəm daşıyan cəhətlərindən biri də mədəni nitqin əsas göstəricilərindən olan nitqin məqamadüşərlilik və məqsədəuyğunluq prinsipləri ilə qurulmasına xidmət göstərməsidir. Bu, dilin lüğət bazasından lazımi ifadələrin seçilməsini və istifadəsini də təmin edir. Nitq etiketlərinin mənimsədilməsi nəticə etibarilə şagirdlərdə səlis və mədəni nitq bacarıqları formalaşdırır. Həmçinin nitq etiketləri cəmiyyətdə insanlar arasında davranış normalarını tənzimləyən vasitələrdən olduğundan etik nitqə yiyələnmiş şagirdlər həm etik rəftar və davranış sahibi olacaqlar. **Məqalənin aktuallığı.** Nitq etiketlərinin tədrisi şagirdlərin gündəlik həyat fəaliyyətlərində geniş istifadə edə biləcəyi biliklərlə silahlandırılmasına yol açır. Nitq etiketləri mədəni ünsiyyətin təşkilində mühüm rol oynayır və onun tədrisi ilə şagirdlərdə ünsiyyət mədəniyyətinin formalaşdırılmasına nail olmaq olar.**Məqalənin elmi yeniliyi.** Nitq etiketlərinin tədrisi məsələsi elmi-metodik ədəbiyyata gətirilməsi problemin həlli istiqamətində addımların atılmasını zəruri edir.**Məqalənin praktik əhəmiyyəti.** Müasir cəmiyyətdə etik nitq mədəniyyətinin formalaşdırılması məktəbdən başlanır. Cəmiyyətdə etik davranış və nitq mədəniyyətinə malik fenomenlərin yaradılması üçün nitq etiketlərinin orta məktəb təhsil müəssiələrində tədrisinə xüsusi diqqətlə yanaşılmalıdır.

Ədəbiyyat:

1. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013
2. Azərbaycan dilində nitq etiketləri (məqalələr toplusu). Bakı, 2016
3. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 2003
4. Veysova Z. Fəal\ interaktiv təlim. Bakı, 2015
5. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün "Azərbaycan dili" fənni üzrə dərslik. Bakı, 2013
6. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün "Azərbaycan dili" (tədris dili kimi) fənni üzrə dərslik. Bakı, 2016

7. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün “Azərbaycan dili” fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı, 2017

T.Valiyeva

Teaching speech etiquettes in Azerbaijani language lessons

Summary:

Article is about teaching of speech etiquettes in Azerbaijani languague lessons in general educational V-XI classes and this issue is approached with scienfic-theoric and methodic aspects. Using interactive teaching methods, speech etiquettes can be adapted to the learner in the course and gain the ability to use them in their daily life activities.

Speech etiquettes are considered one of the main condition of ethic and cultural communcation and they turn to the adjustor of behaviour and morality standarts. The teaching of speech etiquettes is able to give our society the personalities of ethical speech and behavioral culture that can choose the right speech components that fit every situation.

T.Валиева

Преподавание речевых этикетов на уроках азербайджанского языка

Резюме

В статье рассматривается преподавание речевых этикетов на уроках азербайджанского языка общеобразовательных школ в V-XI классах и этот вопрос рассматривается с научно теоретического точки зрения. Используя интерактивные методы обучения, освоены речевых этикетов в процессе урока, и возможен добится преобразованые в навыки в повседневней жизни.

Речевые этикеты считаются основными условиями этического и культурного общения и превращаются в нормы поведения и нравственности в обществе. Преподавание речевых этикетов способно дать нашему обществу идентичность этической речи и поведенческой культуры, которая может правильные единицы речи, которой соответствуют каждой ситуации.

Rəyçi: Vaqif İsrafilov
Filologiya üzrə fəlsəfə doktoru, dosent

GÜLNAR MUXTARZADƏ
ADPU
muxtarzadegulnar@gmail.com

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ CÜMLƏ ÜZVLƏRİ İLƏ QRAMMATİK CƏHƏTDƏN BAĞLI OLMAYAN SÖZ QRUPLARININ TƏDRİSİNİN MÜASİR VƏZİYYƏTİ (VIII SİNİF)

Açar sözlər: cümlə üzvləri, söz qrupları, xitab, ara sözlər, tədris.
Ключевые слова: члены предложения, группы слов, призывы, промежуточные слова, обучение.
Key words: sentence members, word groups, appeal, intermediate words, teaching.

Məlumdur ki, hər hansı bir fikri ifadə etmək üçün müxtəlif quruluşlu cümlələrdən istifadə olu- nur. Həmin cümlənin qurulması isə sözlərin bir-birinə müəyyən sintaktik əlaqə və vasitələrlə bağlanması ilə nəticələnir. Cümlədəki fikrin dinləyiciyə hərtərəfli çatdırılması üçün istifadə olu- nan sözlərin bir qismi bir-biri ilə sintaktik əlaqədə olduğu halda, digər qismi belə bir əlaqədə ola bilmir. Beləliklə, cümlə vahidləri bir tərəfdən bir-biri ilə qrammatik cəhətdən bağlı olan, digər tərəfdən isə heç bir sintaktik əlaqəyə girə bilməyən sözlərdən ibarət olur. Əlbəttə, qrammatik cəhətdən cümlə üzvləri ilə bağlanmayan sözlərin fikrin ifədəsi üçün heç bir rolunun olmamasını söyləmək doğru olmazdı. Belə ki, ara sözlər predikativliyin formalaşmasın- da əsas elementlərdən biri olan modallıq kateqoriyasının ifadəsinə xidmət etdiyi halda, modallı- ğın özü danışanın reallığa münasibətinin ifadəçisidir: "Zahirən çox danışmayan, mümkün qədər rəiyyətə qarşı mülayimlik göstərən bəyi belə bir zülmkarlıqda ittiham etmək, əlbəttə, çox çətin idi."(S.Rəhimov "Şamo", s.45). Bu cümlədəki "əlbəttə" ara sözü qrammatik cəhətdən cümlə üzvləri ilə bağlanmasa da, danışanın müəyyən məsələyə münasibətini bildirir. Orta məktəblərdə Azərbaycan dili dərslərində cümlə üzvləri ilə qrammatik cəhətdən bağlanma- yan söz qruplarının tədrisi VIII sinifdən başlanılır. Əvvəlki illərdə çap olunan dərsliklərdə nəzəri biliklər üstünlük təşkil edir, şagirdlər nəzəri bilikləri öyrənməklə kifayətlənirdi. Lakin müasir dərsliklərdə isə bundan fərqli olaraq mətn üzərində iş, çalışmalarla iş şəklində daha çox praktik fəaliyyətə önəm verilir. Ümumtəhsil məktəblərinin VIII sinfi üçün Azərbaycan dili üzrə 2017-ci ildə "Şərq-Qərb" nəş- riyyatında çap olunmuş dərslikdə "Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan söz qrupları bəhsi "Mətbuat: dünən və bu gün" adlı bölmədə tədris olunur. Dərsliyin 120-ci səhifə- sində həmin mətndə qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan söz qrupları: xitab və ara sözlər verilmişdir:

Şəhəri gəzməyə çıxan dostların yolu nəşriyyatın yanından düşdü.

– Əziz dost, ilk qəzetin yaranma tarixi haqqında yəqin ki, eşitmisən?

– Bildiyimə görə, dünyada birinci qəzet e.ə 59-cu ildə qədim Romada nəşr olunub. Bu, əl ilə yazılmış "Günün hadisələri" adlı "vərəqə" olmuşdur. Hətta Yuli Sezarın dövründə "Senatın əl işləri" adlı qəzeti xatırladan gil lövhələr hazırlanırdı.

– Maraqlıdır.

– Azərbaycanda isə ilk informasiya nümunələri XIX əsrin 30 - 40-cı illərinə təsadüf edir. Bun- lar xüsusi bülletenlər olub.

– Həsən bəy Zərdabinin rəhbərliyi ilə ilk azərbaycandilli nəşrin – "Əkinçi" qəzetinin işıq üzü görməsi, sözsüz ki, Azərbaycan mətbuatı üçün əlamətdar hadisə idi.

– Onu da deyim ki, H.Zərdabi ana dilində qəzet çıxarmaq fikrinə hələ Qubada mahal məhkə- məsinin hakimi işlədiyi dövrdə gəlmişdi. Ensiklopedik biliyə malik alim A.Bakıxanovun qardaşı Cəfərqulu xan Bakıxanov da tələb olunan maliyyə xərclərinin bir hissəsini öz üzərinə götürəcəyi- ni bildirmişdi.

– Deyilənə görə, Bakının hərbi qubernatoru, general-mayor Dimitri Semyonoviç ona qəzetin adını "Əkinçi" qoymağı, əkin işlərində danışmağı məsləhət görmüşdü. Nümunədə verdiyimiz "Mətbuat:dünən və bu gün" adlı mətni şagird əvvəlcə oxuyur, sonra isə mətndəki xitab və ara sözləri seçir, onların məna növlərini göstərir. Həmin mətndə "əziz dost" – I növ təyini söz birləşməsi ilə ifadə olunmuşmürəkkəb xitab, "yəqin ki" – fikrin gerçəklik dərə- cəsini, "bildiyimə görə", "onu da deyim ki" – fikrin mənbəyini göstərən, "sözsüz ki" – fikrin gerçəklik dərəcəsini göstərən ara sözlərdir.

Xitabların tədrisində vacib məsələlərdən biri onun mübtədadan fərqlən- dirilməsidir. Şagird çox zaman xitab ilə mübtədanı səhv salır, cümlədə onların mövqeyini düzgün müəyyənləşdirə bilmir. Metodikada bu halla tez-tez qarşı- laşırıq. Bir sıra cümlələrdə həm xitabın, həm də mübtədanın mənaca eyni şəxsə aid olması, xüsusən belə hallarda mübtədanın cümlədə iştirak etməməsi (Baş alıb gedirsən hayana, ceyran) xitabla mübtədanın qarışdırılmasına səbəb olur.

Xitab ilə mübtədanı fərqləndirmək üçün şagird aşağıdakıları bilməlidir:

1.Mübtəda cümlə üzvüdür, həm də cümlənin baş üzvüdür; xitab isə cümlə üzvü deyildir.

2.Mübtəda cümlədə haqqında danışılanı bildirir, yəni cümlədə ifadə edilən fikir, hökm mübtə- daya istinad olunur; xitab isə haqqında danışılanı bildirmir, ona heç bir fikir, hökm istinad olun- mur; o, ancaq müraciət ediləni bildirir.

3.Mübtəda və xitab – hər ikisi ismin adlıq halında olur. Lakin xitabın adlıq halı mübtədanın ad- lıq halından öz cingiltiliyi və yüksək tonla deyilməsi ilə fərqlənir.

4.Mübtəda cümlədə müəyyən bir suala ─ ismin adlıq halının suallarından birinə cavab verdiyi halda, xitab ismin adlıq halında olmasına baxmayaraq, heç bir suala cavab vermir.

5.Mübtəda cümlənin əsas üzvü kimi, başqa cümlə üzvləri ilə həm məzmun, həm də qrammatik cəhətdən bağlı olur, yəni mübtəda ilə başqa üzvlər arasında uzlaşma, yanaşma və idarə əlaqələ- ri hökm sürür. Xitab məzmunca cümlə və onun üzvləri ilə əlaqədar olsa da, qrammatik cəhət- dən cümlənin heç bir üzvü ilə əlaqədar olmur. Məsələn, mübtəda ilə xəbər uzlaşdığı halda, xi- tabla xəbər arasında uzlaşma əlaqəsindən bəhs etmək belə mümkün deyil.

6.Mübtəda başqa cümlə üzvləri ilə qrammatik əlaqə saxladığından heç bir işarə ilə onlardan ay- rılmır, xitab isə cümlə üzvləri ilə qrammatik cəhətdən əlaqədar olmadəğəndan müəyyən işarələrlə onlardan ayrılır.

7.Dilimizdə mübtəda, adətən, xəbərdən əvvəl gəlir, xitabın isə cümlədə müəyyən yeri yoxdur.

8.Məntiqi vurğunun tələbinə görə cümlədə mübtədanın yerini dəyişdirdikdə cümlənin mənası da müəyyən dərəcədə dəyişir; xitabın yerini dəyişdirdikdə isə cümlənin mənasında heç bir dəyi- şiklik olmur.

9.Mübtəda müstəqim və ya qeyri-müstəqim şəkildə bütün nitq hissələri ilə ifadə oluna bildiyi halda, xitab bütün nitq hissələri ilə ifadə oluna bilmir.

10.Mübtəda məzmunca hansı şəxsi bildirirsə, formaca da həmin şəxsi bildirir, daha doğrusu, bu cəhətdən mübtədanın məzmunu ilə forması uyğun gəlir, xitab isə bundan fərqli olaraq məzmun- ca ikinci şəxsi, formaca üçüncü şəxsi bildirir, deməli, xitabın məzmunu ilə forması arasında uyğunluq olmur.(7, 222-223) Həmçinin şagirdlər xitab və ara sözlərin tədrisində onların oxşar və fərqli xüsusiyyətlərini bil- məlidir: Xitab da, ara sözlər də nitq prosesinin təzahürüdür. Ünsiyyət zamanı bu konstruksiyalardan is- tifadəyə istəristəməz ehtiyac duyulur.Bunu nümunə ilə aydınlaşdırmağa çalışaq: “Zərifə, yadın- dadırmı, keçən illər “boy maddəsi” deyilən bir dərman çıxmışdı”(Ə.Əbülhəsən) cümləsini, “Yadındadırmı, keçən illər “boy maddəsi” deyilən bir dərman çıxmışdı” şəklində işlədək. Göründüyü kimi, xitabın atılaraq cümlədə işlənməsi məzmuna bir o qədər də xələl gətirmir; deməli, xitab, si- tuasiyadan asılı olaraq cümlədə işlənə də bilər, işlənməyə də. Ara sözlər isə cümlədən kənarda işlənə bilmirlər. Çünki, ara sözlərin mahiyyəti məhz baş və ikinci dərəcəli üzvlərin də iştirak et- diyi cümlədə açıqlana bilər. Xitabla ara sözləri bir-birindən fərqləndirən ən əsas fərq budur. Bun- dan əlavə, ara sözlərdən fərqli olaraq, xitablar söylənilən fikrin ifadə tərzində mənaya görə deyil, intonasiyanın yardımı ilə iştirak edir və xitablar formal cəhətdən cümlə üzvlərinə yaxınlaşır. Be- lə ki, xitab çox zaman cümlənin mübtədasının ekvivalenti kimi çıxış edir. Buna görə də tamam- lıq və mübtədadan çıxış edərək cümləyə xitab əlavə etmək

mümkündür. Ümumtəhsil məktəblərinin VIII sinfi üçün Azərbaycan dili fənni üzrə dərslikdən ara sözlər və xitabla bağlı nümunələrə nəzər salaq. Dərsliyin 123-cü səhifəsində M.Ə.Sabirin "Əhalpürsanlıq" satirası verilmişdir. Dialoq əsasında qurulmuş satirada xitabdan geniş istifadə olunmuşdur. Müəllim dərsə sintaktik əlaqələr mövzusunu təkrarlamaqla başlaya bilər. Motivasiya mərhələsində şagirdlərə hər hansı bir cümlə təqdim edilib sintaktik təhlilin aparılması və əlaqələrin müəyyənləş- dirilməsi tapşırıla bilər.

Ləman, bir azdan bu köhnə tikililərin heç biri qalmayacaq, hamısı söküləcəkdir.

Müəllim diqqəti "Ləman" sözünə yönəldərək debat təşkil edə bilər.

1.Ləman sözü mübtədadır.

2.Ləman sözü mübtəda deyil.

Şagirdlər müəyyən edirlər ki, "Ləman" sözü "qalmayacaq" sözü ilə şəxsə görə uzlaşmadığı üçün mübtəda deyil. Daha sonra dərslikdəki 11-12-ci tapşırıqlar yerinə yetirilir. Modal sözlər haqqında biliklər tək- rarlanır. Şagirdlərə qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədə olmayan sözlər haqqında mə- lumat verilir. Ardıcıl olarq qruplara tərkibində ara sözlərin və xitabların olduğu kiçik mətnlər verib onların müəyyənləşdirilməsi tapşırıla bilər. Belə mətnlərlə yanaşı C.Cabbarlının, M.Arazın, S.Vurğunun və başqalarının şeirlərindən də istifadə etmək olar:


Bəlkə, bu yerlərə bir də gəlmədim,
Duman, salamat qal, dağ, salamat qal.
Dalımca su səpir yoxsa buludlar? –
Leysan, salamat qal, yağ, salamat qal!

Qıy vuran qartallar yox oldu çəndə,
Nərgizlər saraldı şehli çəməndə.
Ey qaragöz pəri, dalımca sən də
Boylan, salamat qal, bax, salamat qal!

Gəldim, qarşıladı güllər-çiçəklər,
Gedirəm, əl edir boz biçənəklər.
Nidamı çaylara dedi küləklər:
Bulan, salamat qal, ax - salamat qal!

Dağların pələngi, şiri də sənsən,
Şairi də sənsən, şeiri də sənsən.
Varı, bərəkəti, xeyri də sənsən –
Çoban, salamat qal, sağ-salamat qal!
(M.Araz "Əlvida,dağlar")

Şagirdlər tədqiqata başlayır, məlumat mübadiləsi aparılır. Məlumatın müzakirəsi və nəticələrin çıxarılması mərhələsində məlum olur ki, verilmiş şeirdə "bəlkə" – güman, şübhə bildirməklə fik- rin gerçəklik dərəcəsini göstərən ara söz, "duman", "dağ", "leysan" – cansız əşya adını bildirən xitab, "pəri" – mücərrəd anlayış bildirən xitab, "çoban" – insan anlayışını ifadə edən xitabdır. Yaradıcı tətbiqetmə kimi şagirdlərə tərkibində xitab və ara sözlər işlədilmiş kiçik bir mətn ha- zırlanması tapşırılır. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır. Dərsliyin 134-cü səhifəsində ara sözlərlə bağlı "Yalançı xortdan" adlı mətn verilmişdir. Motivasiya mərhələsində "Yalanın ömrü az olar", "Yalan ayaq tutar, ancaq yeriməz" atalar sözlərindəki ifadə olunan fikri müəyyənləşdirməklə dərsə başlaya bilər. Şagirdlərin fikirləri dinlənilir və nəticə çıxarılır. Nəticə əldə etmək üçün "yalan" açar söz götürülərək klaster üsulundan istifadə etmək məqsədə uyğundu.



Tədqiqat sualı formalaşdırılır: Yalanın insana hansı ziyanı ola bilər?

Tədqiqata dərslikdəki mətnin oxusu ilə başlanıla bilər. Mətn müəyyən hissəyə qədər ("Yox, Mirzə, bu onlardan deyil, bunu oxumuram" cümləsinə qədər) oxunur. Müəllim "Szcə, bundan sonra nə olacaq?" sualı ilə şagirdlərə müraciət edir. Şagirdlər müxtəlif fərziyyələr söyləyirlər. Mətnin oxusu davam etdirilir. Sonluq şagirdlərin fərziyyələri ilə tutuşdurulur. Mətnin oxusu ba- şa çatdırıldıqdan sonra tədqiqat sualı cavablandırılır. Yalanın insan həyatına mənfi təsiri barədə müxtəlif fikirlər söylənilir. Yaxşı olar ki, şagirdlərin fikirləri real həyatdakı hadisələrlə əlaqələn- dirilsin. Mətn üzərində iş apararkən mətndaxili sual və 2, 3, 4-cü, 6-8-ci tapşırıqlar yerinə yetiri- lir. 1, 5, 7-ci tapşırıqlar qrup işi kimi verilə bilər. Təqdimatlar

dinlənilir, fikirlər müzakirə edilir, münasibət bildirilir, ümumiləşdirmə (9-11 tapşırıq) aparılır. Ara sözlər haqqında məlumat verilir. Yaradıcı tətbiqetmə kimi 12-ci tapşərıq verilir. Qiymətləndirmə təlim nəticələrinə uyğun aparılır.

Göstərdiyimiz bu dərs nümunələri qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan söz qruplarının tədrisinin müasir şəkildə qurulmuş formasıdır. Lakin ümümtəhsil məktəblərinin VIII sinfi üçün Azərbaycan dili fənni üzrə 2005-ci ildə çap olunmuş dərslikdə qrammatik cəhətdən cümlə üzləri ilə bağlanmayan söz qruplarının tədrisi nəzəri məlumatlar və çalışmalar verilməklə məhdudlaşdırılmış, mətnlərə yer verilməmişdir. Müasir dərslikdə isə mətnlər vasitəsilə həm nə- zəri, həm də praktik fəaliyyət icra olunur. Mətnlərin verilməsi müsbət haldır. Şagirdlərin həmçi- nin nitq bacarıqları da inkişaf edir. Şagird mətnin məzmunu ilə tanış olduqdan sonra xitab və ara sözləri müəyyən edir.Verilmiş tapşırıqları icra edir. Nəticə etibarilə deyə bilərik ki, qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan söz qruplarının tədrisinin müasir vəziyyətində müəyyən qədər yaxşıya doğru irəliləyiş müşahidə olunur.

Ədəbiyyat:

1.A.Abdullayev “Azərbaycan dilinin tədrisi tarixindən”. “Maarif” nəşriyyatı, Bakı, 1966.
2.B.Əhmədov “Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları”. “Mütərcim” nəşriyyatı, Bakı, 2007.
3.E.Pometun “İnteraktiv təlim ensiklopediyası”. Kiyev, 2007.
4.T.Hacıyev, S.Bektaşi “Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün Azərbaycan dili dərsliyi”. “Şərq-Qərb” nəşriyyatı, Bakı, 2017.
5.T.Hacıyev, S.Bektaşi “Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün Azərbaycan dili metodik vəsait”. “Şərq-Qərb” nəşriyyatı, Bakı, 2017.
6.H.Balıyev “Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikasından mühazirələr”. Bakı, 2007.
7.Ə.Abdullayev, Y.Seyidov, A.Həsənov “Müasir Azərbaycan dili” (Sintaksis). “Şərq-Qərb” nəşriyyatı, Bakı, 2007.

Г.Муктарзаде

На уроках азербайджанского языка нет грамматически связанных предложений современное состояние речевых групп (VIII класс)

Резюме

Статья посвящена изучению слов, которые не являются грамматически связанными с предложениями предложений. В частности, изучается преподавание этой грамматической категории и проводятся обобщения. Обучение неграмматическим фразам с предло-

жениями на уроках азербайджанского языка в средних школах начинается с VIII класса. В предыдущие годы теоретические знания преобладали в учебниках, и студенты были удовлетворены теоретическими знаниями. Однако современные учебники подчеркивают важность работы над текстом, более практическую работу в форме работы. Считается, что предсказательные результаты обучения слов, которые не являются грамматически связанными с предложениями предложений, полезны с точки зрения улучшения их преподавания в будущем. Следовательно, можно сказать, что прогресс преподавания речевых групп, которые не являются грамматически связанными с членами предложения, как представляется, является некоторым улучшением.В предыдущие годы проблемы, возникающие при преподавании речи и лексики, постепенно устраняются и достигаются положительные результаты обучения.

G.Mukhtarzadeh

There are no grammatically related sentences in the Azerbaijani language lessons modern state of speech groups teaching (VIII class)

Summary

The article deals with the teaching of words that are not grammatically related to sentence sentences. Specifically, the teaching of this grammar category is being studied, and generalizations are carried out.

Teaching of non-grammatical phrases with sentence members in Azerbaijani language classes at secondary schools starts with grade VIII. In the previous years, theoretical knowledge prevailed in the textbooks, and students were satisfied with learning theoretical knowledge. However, contemporary textbooks emphasize the importance of working on text, more practical work in the form of work. Predictive results on teaching words that are not grammatically related to sentence sentences are found to be useful in terms of improving their teaching in the future. Consequently, we can say that the progress of the teaching of speech groups which are not grammatically related to the sentence members is seen to be some improvement.In the previous years, the problems that arise in teaching speech and vocabulary are gradually eliminated and positive learning outcomes are achieved.

Rəyçi: Allahverdi Hacıyev
Filologiya üzrə fəlsəfə doktoru, dosent.

ŞƏBNƏM ABBASOVA
semseddinova@mail.ru
BDU

MƏNTİQI İNKARLIQ

Açar sözlər: inkarlıq kateqoriyası, məntiq, təsdiq, qrammatika, dil.
Ключевые слова: категория отрицания, логика, утверждать, грамматика, язык.
Key words: category of negation, logic, confima, grammar, language.

Son dövrlər dilçiliyin başqa elmlərlə əlaqəsi get-gedə daha sürətlə genişlənir və inkişaf edir. Bu əlaqə bəzi elmlərlə çoxsahəli və daha yaxın olduğu halda, bir sıra elmlərdə bunun əksi müşahidə edilir. Dilçilik ictimai elm olduğundan onun əlaqəsi bu qrup elmlərlə daha dərin və genişdir. Dil haqqında elm başqa ictimai elmlərin fonunda formalaşmışdır. Bizim nəzərdə keçirdiyimiz bu məqalədə dil və məntiq arasında olan münasibətlər nəzərdən keçiriləcək.

Dilçilik və məntiqin əlaqəsi problemi çağdaş dövrümüzdə daha aktualdır. Mövcud dilçilik ədəbiyyatında bu problemin müxtəlif aspektdə şərhinə az da olsa rast gəlinir.

Dil və məntiq arasında münasibətləri öyrənmək üçün inkarlıq kateqoriyası da nəzərdən keçirilməlidir. Dildə inkar ilk olaraq məzmun və formanın, daha dəqiq desək, cümlə strukturunun və onun ifadə etdiyi fikrin qarşılıqlı münasibətləri planında ümumi dilçiliyin mühüm problemlərindən biridir. Ümumiyyətlə, inkar hələ qədim dövrlərdən əvvəlcə formal məntiqin, sonra isə həm də dilçiliyin tədqiqat obyekti olmuş və bir çox cəhətdən kifayət qədər öyrənilmişdir. Buna baxmayaraq inkarın hələ həm öyrənilməyən, həm də tam həllini tapmayan məsələləri qalmaqdadır. Məsələn, inkarlıq məntiqi-qrammatik kateqoriya olması onunla izah olunur ki, inkarlıq yalnız fəlsəfi yox, həm də məntiqi-qrammatik kateqoriyadır.

Əksər belə hesab edir ki, qrammatik kateqoriya kimi inkarlıq kateqoriyasının əsas məzmunu məntiqi inkardır. Bu fikir istər-istəməz məntiqi və dil inkarının bir-birinə hansı münasibətdə olmaları, onların bir-biri ilə hansı oxşar və bir-birindən hansı fərqli cəhətlərinin olması suallarını ortaya çıxarır.

Inkarlıq kateqoriyası məntiqdə mühüm yerə malikdir. Bu haqda A.M.Peşkovski yazmışdı: “Bu kateqoriyanın mahiyyəti kolossal psixoloji və əsas etibarilə məntiqi mənaya malikdir (axı təsdiq və inkar qarşılıqlı surətdə bir-birini doğurur, harada ki təsdiq yoxdur, orada həqiqət də, insani düşüncə də yoxdur) və o, sintaktik nöqteyi-nəzərdən ona uyğun gəlir ki, bu və ya

digər iki fikir arasındakı əlaqə bu kateqoriyanın köməyi ilə inkar kimi qəbul olunur, yəni bu kimi söz və söz birləşmələri formaları ilə ifadə olunmuş belə bir əlaqə həqiqətdə yoxdur"(4,38).

İnkarlıq kateqoriyasına mühüm psixoloji anlam verən A.M.Peşkovski inkarlıq kateqoriyasını əsas etibarilə məntiqi əməliyyat kimi qiymətləndirir; digər tərəfdən, müəllif ona qrammatik kateqoriya kimi baxır. Bu təyinatda müstəqil şəkildə və bir-birindən asılı olmadan inkişaf edən üç istiqamət kəsişir. A.M.Peşkovskinin bu müəyyənləşdirməsi həm də onu göstərir ki, inkarın nəzərdən keçirilməsi təsdiqinki ilə əlaqədardır (3,311).

Dilçilik ədəbiyyatında belə hesab olunur ki, məntiqi əməliyyat zamanı (bu əməliyyatda verilmiş hökmdən yeni bir hökm yaradılır) çıxış hökmü həqiqətdirsə, onun inkarı yalandır, əgər o yalan idisə, onda onun inkarı həqiqət idi. Bu istiqamət üçün inkarlıq kateqoriyasına təsdiqin əksi kimi baxmaq lazımdır.

Dil forması kimi qəbul etdiyimiz inkar təsdiq ilə birlikdə fikrin iki formasının- anlayış və mühakimənin təzahürüdür. Bu baxımdan inkarı bütün dillər üçün ümumi olan formal universali kimi qəbul etmək olar.

Məntiqi inkarlıq kateqoriyası dil inkarlığı kateqoriyasının əsas məzmununu təşkil etsə də, onu tam əhatə etmir. Çünki məntiqi inkarlıq kateqoriyasından fərqli olaraq, dil inkarlığı kateqoriyası bir çox başqa funksiyalar da yerinə yetirir, nisbi müstəqilliyə və özünə xas olan məna tutumuna malikdir. Məsələn, inkar göstəricisinə malik olan cümlələrin heç də hamısı inkar mühakiməsinə uyğun gəlmir, onlar təsdiq mühakiməsinə də uyğun gələ, qadağan və sualın ifadə vasitəsi kimi də çıxış edə bilərlər.

Məntiqi inkarlıq bütün dillərdə öz əksini tapdığından, dil universalısı hesab edilir. Dil inkarlığı kateqoriyasının məntiqi məzmununu mövcud olmamaq, mənfilik, məhrumluq, fərqlilik və s mənaları ifadə edir. Lakin dil inkarlığının məzmununa etiraz, imtina, qadağan və s. mənalar da daxil ola bilər. İnkar forması müsbət semantikaya da malik olur. Bu istər ayrı-ayrı leksik vahidləri, istərsə də bütov sintaktik konstruksiyaları əhatə edə bilər.

Digər tərəfdən, inkarlıq kateqoriyasının öyrənilməsində xüsusi diqqət çəkən bir cəhət formal-qrammatik istiqamətlə bağlıdır. Bu mənada İ.M.Meşşaninovun əsəri dəyərlidir. İ.M.Meşşaninovun tədqiqatlarında inkarlıq kateqoriyasının qrammatik kateqoriya kimi müəyyənləşdirildiyini görürük. Bu istiqamət inkarlığın semantikasına əsaslanır və inkarlığa linqvistik əhatə ilə qarşılıqlı əlaqədə baxır. İnkarlıq kateqoriyasına təsdiqlə korrelyasiyada baxmaq da bu fikirdən irəli gəlir. Formal-qrammatik istiqamətin tərəfdarları inkarlığa komponentləri müəyyən formal dil vasitələri ilə ifadə olunmuş subyekt-predikat quruluşlu fikirlə qarşılıqlı əlaqədə baxır.

Təsdiq və inkar predikativliyin göstəricisidir. Təsdiq və inkarın semantikası cümlənin məntiqi xassəsidir. Lakin o, eyni zamanda cümlənin qrammatik xassəsidir, belə ki göstərilən fərqlərin ifadəsi üçün xüsusi cümlə modelləri var.

Formal-qrammatik istiqamətin nümayəndələri qrammatik inkar kateqoriyasını müəyyənləşdirməklə inkarlıq kateqoriyasının mahiyyətinin izah olunmasında birləşirlər, onda "qrammatik" yox, "məna" ayrılığı görürlər. Bununla bağlı məna fərqi konsepsiyasını daha yaxşı əks etdirən bir neçə fikri nəzərdən keçirək.

Inkar hökmün elementləri arasında həqiqətdə olmayan əlaqənin leksik, frazeloji, sintaktik və digər vasitələrlə ifadəsidir. Inkarın mənası qrammatik idrakı situasiya ilə səciyyələnir. E.İ.Şendels inkarı fikrin müxtəlif mənfi əlaqələrinin müxtəlif dil və işarələrinin köməyi ilə ifadəsini əks etdirən dil kateqoriyası kimi başa düşür. İnkar cümlələr adı altında yalnız o cümlələr anlaşılır ki, onlarda mübtəda və ya xəbərə aid olan inkar elementi onlar arasında qrammatik əlaqə olmasına baxmayaraq, məna əlaqəsinin yoxluğunu əks etdirir (14,129).

Qrammatik inkar kateqoriyası elə bir sintaktik kateqoriyadır ki, cümlənin iki üzvü arasında sintaktik əlaqə və həqiqətdə də olan məna ayrılığı olmasına baxmayaraq, xüsusi qrammatik vasitələrin köməyi ilə ifadə olunur.

Inkar heç də həmişə inkar vasitələri ilə reallaşmır, o implisit şəkildə və ya digər dil vasitələri ilə də ifadə edilə bilər. Əslində inkar dildə həm leksik, həm də qrammatik, o cümlədən sintaktik vasitələrlə ifadə edilir. Odur ki, onu leksik-qrammatik kateqoriya adlandırmaq daha doğru olardı.

Inkarın qrammatik mənası cümlənin üzvləri arasında sintaktik əlaqənin mənfi xarakteri ilə, başqa sözlə onlar arasında müsbət məna əlaqəsinin yoxluğu ilə də səciyyələnir.

Sintaktik kateqoriya ayrılıqda götürülmüş bir sözü deyil, bütöv cümləni xarakterizə etdiyindən, ona təsdiq və inkar konstruksiyalarının oppozisiyası müvafiq gəlir.

Hər bir inkar təsdiqdən irəli gəlir. İnkar cümləsi eynilə təsdiq cümləsi kimi qurulur. Onlar arasında fərq yalnız inkar cümləsində inkar göstəricisinin olmasındadır.Beləliklə, hər bir dildə istənilən nəqli cümlənin əks mənalı korrelyatı vardır.

Belə ki, cümlənin sintaktik strukturunda mübtədalar, tamamlıqlar (vasitəsiz və vasitəli) və xəbərlərlə yanaşı, təyinlər və zərfliklər kimi ikinci dərəcəli üzvlər də müəyyən olunur ki, ayrılıqda prepozosional funksiya olaraq hökmün hər hansı tərkib hissəsini, başqa sözlə, predikat və arqumenti ifadə etmir, yalnız bu sonuncuları ifadə edən mübtəda, xəbər, tamamlıq kimi sintaktik qrupların tərkibinə daxil olur. Ona görə də cümlənin üzvlənmə tərzini məntiqi-sintaktik yox, sintaktik adlandırmaq olar.Sintaktik

üzvlənmədən fərqli olaraq, cümlənin məntiqi-qrammatik üzvlənməsi cümlə vasitəsilə ifadə olunan fikrin subyekt-predikat quruluşu ilə izomorfdur. Cümlənin məntiqi-qrammatik üzvlənməsi eyni zamanda fikrin subyekt-predikat strukturudur ki, onun komponentləri müəyyən formal vasitələrlə işarələnir.

İfadə edilmə baxımından inkar standart və qeyri-standart olur. Standart inkar məfhumu altında biz eksplist inkarı, qeyri-standart inkar dedikdə isə omplisit inkarı nəzərdə tuturuq. O, birincidə bilavasitə inkar göstəriciləri ilə, ikincidə isə dolayısı ilə, semantikasında inkar mənası, inkar çaları olan və bəzən də olmayan müxtəlif leksik və sintaktik vasitələr ilə reallaşır. Eksplisit inkarın ifadəsində dillərin analitik və ya sintetikliyi özünü daha qabarıq şəkildə büruzə verir.

İnkarlıq kateqoriyasına həsr olunmuş dilçilik ədəbiyyatının xülasəsi aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1) Psixoloji istiqamətdə inkarlıq kateqoriyası subyektiv səciyyə daşıyır, təsdiqi münasibətdə ikincidir.
2) Məntiqi istiqamətdə inkrlıq kateqoriyası təsdiq kateqoriyasının məna dairəsinə daxildir.
3) Formal-qrammatik istiqamətdə iki mərhələ müəyyənləşdirilir:

a) inkarlıq kateqoriyası təsdiq kateqoriyasına daxil deyil, ancaq sonuncu ilə korrelyasiyada nəzərdən keçirilir;

b) inkarlıq kateqoriyası təsdiq kateqoriyasına daxil deyil və sonuncu ilə oppozisiyada nəzərdən keçirilir (inkar/təsdiq).

4) Sintaktik istiqamətdə inkarlıq kateqoriyası prepozisional funksiya ilə cümlənin strukturu ilə qarşılıqlı əlaqədə olur, həqiqətlə obyektiv əlaqələrin xarakterini əks etdirir ki, bunlar da müvafiq idraki kateqoriyaları daha aydın ifadə edir.
5) Sintaktik istiqamətdə çox müxtəlif tiplərdən olan dillər birləşdirilir. Məsələn, hind-Avropa və Qafqaz dillərində müxtəlif şəkillərdə mənfiliyin xüsusi ifadəsi.

Ədəbiyyat

1. Бондаренко В.Н. Отрицание как логико-грамматическая категория. - L.: Наука, 1983.-212 с.
2. Булыгина Т.В. О нейтрализации семантических оппозиций // Единицы разных уровней грамматического строя языка и их взаимодействие. - М.: Изд-во «Наука», 1969. - с. 310-316.
3. Мешаников И.И. члени предложения и гости речи М.Л 1945
4. Минкин Л.М.Категория отрицания в современнам французком языке Л, 1963 иос

5. Орлова М.Н. О лингвистической сущности отрицания и типах отрицательных предложений в русском языке // Учен. зап. Башкир, гос. унта, сер. Филологические науки. - Вып. 75. — ¹ 25. -Уфа, 1973. - Ñ. 226-229.
6. Панфилов В.З. Отрицание и его роль в конструировании структуры простого предложения. ВЯ, №2. М., 1982. с. 45-53.
7. Парфилов В.З Тноселогические аспекты философски проблем языкознания М, «Наука» 1982, 357 с
8. Песиковский Н.М. Русский синтаксис в научнам освещении М, 1956, 257с
9. Rəcəbov Ə. Dil, şüur, cəmiyyət, tarix. Bakı: "Azərbaycan Dövlət Nəşriyyatı", 1993,160 s.
10. Торопова Н.А. О понятии отрицания â логике и лингвистике // Система языка ë речевой
11. реализации его категорий: Сб. науч. тр.: Вып. 4 / ЛГПИим. А.Е. Герцена. - Е.: 1982. - с. 104-106
12. Трунова О.В. О понятии отрицания в логике и лингвистике. Синтаксис и речевая реализация его категорий. Сб.научных трудов ЛГПИ им.А.И.Герцена, XXX Герценовские чтения, вып.4, Л., 1978
13. Чесноков П.В. Взаимодействие формальных типов языковых и логических построений // Тезисы докл. è сообщ. Научной дискуссии по проблеме «Язык è мышление». - И.: Наука, 1965. - с. 119-124.
14. Шендельс Е.И. Отрицание как лингвистическое понятие. – Ученые записки. МГПИИЯ, 1959, т. XIX, с. 125-142

Sh.Abbasova

Logical negation

Summary

The problems of linguistics and logic are more relevant in our modern times. In order to understand the relationship between language and logic, one should also consider the category of disrespect. The category of dignity occupies the most important place in logic. The logical and grammatical category of deniers is explained by the fact that negation is not only philosophical but also logical and grammatical. As is known, the category of negation is a linguistic universal, that is, the presence in each language of this category is mandatory, which is due to the recognition of the negation of one of the fundamental operations of thinking, reflecting the relationship of language and the objective. The category of logical discretion is the main content of the category of discretionary languages, but it does not cover it completely.

Unlike the category of logical disability, the category of language discretion also implements many other functions, has a relative independence and selfesteem.

Ш.Аббасова

Логического отрицания

Резюме

Проблемах лингвистики и логики более актуальна в наше современное время. Чтобы понять взаимосвязь между языком и логикой, следует также рассмотреть категорию неуважения. Важнейшее место в логике занимает категория достоинства. Логико-грамматическая категория денье объясняется тем фактом, что отрицание не только философское, но и логико-грамматическое. Как известно, категория отрицания представляет собой языковую универсалию, то есть присутствие в каждом языке данной категории является обязательным, что объясняется признанием отрицания одной из фундаментальных операций мышления, отражающей связь языка и объективной. Категория логического усмотрения является основным содержанием категории дискреционных языков, но она не охватывает ее полностью. В отличие от категории логической инвалидности, категория языкового усмотрения также реализует многие другие функции, имеет относительную независимость и чувство собственного достоинства.

Rəyçi: İslam Vəliyev
filologiya üzrə fəlsəfə doktoru, dosent

TAMİLLA TURABOVA,
NAZİLƏ RƏHİMOVA
ADPU
addresssecond@yandex.ru

СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ

Acar sözlər: frazeoloji vahid, idiom, sinonim, aforizmlər.
Key words: phraseological, idiom, semantic,unit, synonym.
Ключевые слова :идиомы, синонимы, афоризмы, фразеологизмы

Фразеология - это сокровищница языка. Английский фразеологический фонд в целом -- сложный конгломерат исконных и заимствованных фразеологизмов с явным преимуществом первых. В некоторых фразеологизмах архаические элементы - представители предшествующих эпох.

Фразеологические единицы, т.е. фразеологические выражения - это устойчивые сочетания слов с сложненным смыслом отдельного слова, оборота речи, которые имеют такие признаки, как раздельно-оформленность, воспроизводимость, иногда, эквивалентность и соотнесённость со словом.

1-ым признаком является воспроизводимость. В данном случае фразеологическое выражение не придумывается каждый раз заново, а присутствует в языке, и знакомо большинству индивидов языкового коллектива или общества. Рассмотрим английское выражение bluestocking - синий чулок. При обращении к истории и появления этого выражения, можно узнать, что автором этой фразеологической единицы является голландский адмирал Босковен который в Англии в середине XVIII века назвал один из литературных салонов "собранием синих чулков", когда увидел, как учёный Бенджамин Спеллингфлит появился в этом салоне в синих чулках. В настоящее время навряд ли кто знает о происхождении этой фразеологической единицы. Насколько нам известно, все члены языковой общности воспринимают её как данность, и используют в значении "сухая педантка, лишённая нежности и женственности".

2-ым важным признаком является семантическая целостность. Значение фразеологического выражения частично или полностью переосмысмысленно, т.е. значение фразеологической единицы не совпадает со значением составляющих её отдельных слов. Например, выражение he is wet behind ears дословно переводится "у него мокро за

ушами", а само значение фразеологического выражения - "он ещё зелёный", т.е. не опытный. Это английское выражение соответствует русскому фразеологизму "у него молоко на губах не обсохло".

3-им признаком является раздельно оформленность. Фразеологическое выражение состоит из двух и более слов, морфологически оформленных, но со смыслом отдельного слова в обороте речи, т.е. слова в составе фразеологического выражения обладают морфологическими показателями слов, но значение фразеологического выражения не является суммой значений этих слов, компоненты фразеологического выражения являются словами, специфически употреблёнными, значение которых в той или иной степени затемнено или потеряно.

4-ый признак - это устойчивость. Фразеологическое выражение - это степень слитности её компонентов, мера возможности /невозможности изменений во фразеологическом выражении, как в составе фразеологического выражения (структурная устойчивость), так и в значении фразеологического выражения (семантическая устойчивость). Примером семантической неустойчивости является фразеологическое выражение в английском языке there`s no love lost between them (или us), которое до первой половины XIX в. означало "они любят друг друга", в современном английском языке это фразеологическое выражение употребляется в противоположном значении "они терпеть не могут друг друга, или же "они невзлюбили друг друга".

Структурная устойчивость фразеологических выражений проявляет себя по-разному: одни более устойчивы, другие - менее. Слова в составе фразеологического выражения могут менять свои грамматические показатели, или одно слово может быть заменено однородным ему словом. В этом случае мы имеем дело с фразеологической вариативностью, которая подразделяется на следующие виды:

· Лексические варианты - варианты с разным лексическим составом:

closed (sealed) book - книга за семью печатями.

Грамматические варианты - это выражения с теми или иными грамматическими изменениями: the promised land / the land of promise - земля обетованная.

Квантитативные варианты - варианты с неодинаковым числом компонентов, образованные путём их усечения или расширения: between the devil and the deep blue sea/ between the devil and the deep sea - между дьяволом и морской пучиной (в безвыходном положении).

Позиционные варианты - это выражения с перестановкой двух или более компонентов без изменения структуры фразеологического

выражения: the short and the long of it / the long and the short of it - короче говоря, одним словом.

Фразеологические выражения делятся на несколько типов:

1. Идиомы (или фразеологические сращения) - устойчивые выражения, значение которых не вытекает из суммы значений слов её составляющих, т.е. полностью нелютированные выражения. Например, red tape (дословно красная лента) имеет значение "волокита, бюрократизм"; old bird (дословно старая птица) имеет значение "стреляный воробей"; to kick the bucket (дословно ударить ногой ведро) - "загнуться, умереть" = "протянуть ноги"; to pull one's leg (дословно тянуть кого-либо за ногу) - "морочить кому-либо голову".

2.Фразеологические единства (или фраземы) - мотивированные выражения с единым целостным значением, возникающим из слияния значений лексических компонентов. Например, выражение to be born with a silver spoon in one's mouth имеет значение "родиться в сорочке" (дословно родиться с серебряной ложкой во рту); at the drop of the hat - "немедленно, в тот же час, по малейшему поводу" (дословно в момент падения шляпы); to keep a dog and bark oneself - "выполнять работу своего подчиненного" (дословно облаять, обругать, сорвать раздражение, злость).

3. Фразеологические сочетания - устойчивые выражения, в которых у одного из компонентов - словарное(буквальное) значение, т.е. это частично мотивированные словосочетания. Например, black frost в переводе означает "мороз без снега" (дословно черный мороз); to pay through the nose - "платить втридорога" (дословно платить через нос); to talk through one's hat - "нести вздор, пороть чепуху" (дословно говорить сквозь шляпу); the last straw - "последняя капля" (дословно последняя соломинка); to burn one's fingers - "обжечься на чём - либо" (дословно обжечь свои пальцы).

Перевод фразеологических выражений с английского языка на другие языки вызывает некоторые трудности из-за их семантической целостности и усложненности. Дословный (словарный) перевод фразеологического выражения извращает смысл высказывания, требуется адекватный перенос значения фразеологической единицы на второй язык. Существуют некоторые способы перевода фразеологических выражений:

1) эквивалентный - перевод фразеологической единицы с первого языка фразеологизмом второго языка, совпадающим с ней по смыслу и по структурному составу компонентов. Абсолютно адекватные фразеологические выражения двух языков называются полными (или абсолютными) эквивалентами: to pull chestnuts out of the fire for smb. - таскать каштаны из огня для кого-либо; to stew in one's own juice - рус.

вариться в собственном соку; wolf in sheep's clothing - рус. волк в овечьей шкуре, between two fires - рус. играть с огнём, to be born under a lucky star - рус. родиться под счастливой звездой; to pour oil on the flames - рус. подлить масло в огонь. Неполными (или частичными) эквивалентами являются те фразеологические выражения, которые имеют различия в структурно-грамматическом плане или лексическом, когда один компонент фразеологического выражения английского языка не совпадает с фразеологическим выражением второго языка, но относится к той же тематической группе: like a squirrel in a cage - рус. как белка в колесе (дословно как белка в клетке); to get out of bed on the wrong side - рус. встать с левой ноги.

2) аналогичный - перевод фразеологического выражения с первого языка фразеологизмом второго языка, адекватным по содержанию, но различным по структурно-компонентному составу. Например, as stiff as a poker (дословно застывший как кочерга) - рус. словно аршин проглотил; a fly in the ointment - рус. ложка дёгтя в бочке мёда; as like as two peas (дословно похожи как две горошины) - рус. как две капли воды; one's in a blue moon (дословно однажды при голубой луне) - рус. когда рак на горе свистнет; to make a mountain out of a molehill - рус. делать из мухи слона.

3) описательный - перевод фразеологического выражения описательно или одним эквивалентным словом, или группой эквивалентных слов (в том случае, если во втором языке отсутствует фразеологическая единица, соответствующая фразеологической единице первого языка). Например, a white elephant (дословно белый слон) - рус. обременительное или разорительное имущество; обуза, подарок, от которого не знаешь как избавиться; to knit one's brows (дословно связать, сращивать чьи-либо брови); red tape (дословно красная лента) - волокита, бюрократизм; to fiddle while Rome is burning (дословно играть на скрипке в то время когда горит Рим) заниматься пустяками перед лицом серьёзной опасности; ships that pass in the night (дословно корабли, которые проплывают мимо в ночи) - мимолётные встречи; a black sheep (дословно чёрная овца) - позор в семье.

4) комбинированный перевод - перевод осуществляется сочетанием вышеперечисленных способов. Фразеологическое выражение-аналог и эквивалент плюс описательный перевод. Этот способ применяется в том случае, когда фразеологическая единица второго языка недостаточно полно раскрывает значение фразеологического выражения первого языка. Например, spick and span - рус. с иголочки, элегантный, щегольской; far cry (дословно далёкий крик) - рус. как небо и земля; большая разница; a millstone about smb's neck (дословно

жёрнов бремя) вокруг чьей- либо шеи) - рус. камень на шее; тяжёлая ответственность; to live on the fat of the land (дословно жить на жирной земле) - рус. кататься как сыр в масле; жить в роскоши, жить припеваючи.

Лингвисты затрудняются однозначно ответить на вопрос «Что такое компонент фразеологизма?», придерживаясь диаметрально противоположных взглядов. Это объясняется исключительной сложностью и противоречивостью самой проблемы.

Компоненты фразеологизмов называются лексемами. Они различаются по степени словности. Словный характер компонентов является важнейшим фактором, обусловливающим раздельно оформленность фразеологизмовЕ.Г. Беляевская определяет слово как наименьшую самостоятельную значимую единицу языка и строевой элемент в структуре и семантике языковых единиц более высокого порядка. Однако слово не всегда является наименьшей единицей языка. Некоторые слова значительно длиннее фразеологизмов (ср., например, слово incomprehensibility - непонятность, непостижимость и ФЕ at all - 1) совсем, совершенно; 2) вообще). Кроме того, слово является строевым элементом не только языковых единиц, но и переменных сочетаний. Важнейшей характеристикой слова является цельнооформленность, и этот признак должен войти в его определение. С учетом этих соображений можно дать характеристику слову как цельнооформленной значимой самостоятельной единицы языка и строевого элемента переменных и устойчивых образований. Это определение позволяет отграничить слово от аффиксов, с одной стороны, и фразеологических единиц, с другой стороны.

С точки зрения семантической слитности компонентов фразеологизмы делят на три группы:

1. Фразеологические сращения, или идиомы - устойчивые неделимые сочетания, общее значение которых не зависит от значения составляющих их слов: kick the backet - умереть, протянуть ноги.

2. Фразеологические единства - устойчивые сочетания слов, в которых при наличии общего переносного значения сохраняются признаки семантической раздельности компонентов: to have other fish to fry - иметь дала поважнее.

3. Фразеологические сочетания - устойчивые обороты, состоящие из слов как со свободным, так и с фразеологически связанным значением: rack one's brains - ломать голову (усиленно думать).

Перевод фразеологических единиц с английского языка на другие представляет значительные трудности. Это связано с тем, что многие из них являются яркими, образными, лаконичными, многозначными. При

переводе нужно не только передать смысл фразеологизма, но и отобразить его образность, не упустив при этом его стилистическую функцию. Также необходимо учитывать особенности контекста.

Передача на английский язык фразеологических единиц - очень трудная задача. В силу своего семантического богатства, образности, лаконичности и яркости фразеология играет в языке очень важную роль Она придает речи выразительность и оригинальность. Особенно широко фразеологизмы используются в устной речи, в художественной и политической литературе.При переводе фразеологизма переводчику надо передать его смысл и выразить его образность, найдя аналогичное выражение в английском языке и не пропустив при этом из виду стилистическую функцию фразеологизма. При отсутствии в английском языке идентичного образа переводчик вынужден прибегать к поиску «приблизительного соответствия»

Фразеологические эквиваленты могут быть полными и частичными.Полными фразеологическими эквивалентами являются те готовые английские эквиваленты, которые совпадают с русскими по значению, лексическому составу, образности, стилистической окраске и грамматической структуре; например: почить (почивать) на лаврах - rest on one's laurels, соль земли - the salt of the earth, играть с огнем - to play with fire, час настал (пробил) - one's hour has struck, нет дыма без огня -числу авторских there is no smoke without fire, трудолюбивый как пчела - busy as a beeречи ему свойственно появляться в комбинациях с другими словами, и принцип организации их в словосочетания регулируется синтаксическими нормами и правилами. Такие сочетания создаются по существующим в языке моделям. Например, модель A + N, отражая принципиальную возможность комбинации прилагательного и существительного, может быть заполнена бесконечным множеством компонентов, отвечающих требованиям модели, и результат такой операции вполне предсказуем: полученное сочетание будет обозначать нечто, обладающее неким признаком. В тождественных ситуациях часто употребляются тождественные словосочетания: May I come in? Knock at the door, etc. Данная комбинация слов употребляется обычно в фиксированной форме и воспроизводится в речи готовым блоком. Такие сочетания являются устойчивыми, но относятся к общему, а не фразеологическому фонду словарного состава. Дело в том, что в компонентах подобных сочетаний нет семантических изменений; они сохраняют свое значение, иногда изменяя только функцию, как, например, в устойчивом выражении Good morning функция номинативная -- описание времени суток -- заменяется контактной -- приветствием. Если же устойчивость

выражения дополняется семантическим изменением компонента или компонентов, мы имеем дело с фразеологической единицей. Несмотря на то что фразеологические единицы представляют собой сочетания слов, они рассматриваются лингвистами с позиций не синтаксиса, как свободные сочетания, а лексикологии.

Фразеология - чрезвычайно сложное явление, изучение которого требует своего метода исследования, а также использования данных других наук - лексикологии, грамматики, стилистики, фонетики, истории языка, истории, философии, логики и страноведения. Переводу фразеологизмов уделено немало внимания в теоретических работах, в каждом пособии по переводу, в особенности по переводу художественной, публицистической, общественно-политической литературы, во многих публикациях по теории фразеологии и сопоставительной лингвистике. Связанные с этим проблемы рассматриваются по-разному, рекомендуются различные методы перевода, встречаются несовпадающие мнения. И это, пожалуй, в порядке вещей: однозначного, стандартного, одного на все случаи жизни решения здесь быть не может.

Литература:

1. Алехина А.И. Фразеологическая единица и слово. - Минск, 1991.
2. Белова Ю.С. Фразеологические единицы английского и немецкого языков как источник культуроведческой информации // Фразеологическая система немецкого и английского языков. - Челябинск, 1979. - 121 с.
3. Беляевская Е.Г. Семантика слова. М., 1987.
4. Жуков В.П. Русская фразеология. М., 1986.
5. Елисеева В.В. Лексикология английского языка. СПб, 2003.
6. Захарова М.А. Стратегия речевого использования образных фразеологизмов английского языка. - М., 1999.
7. Копыленко М.М., Попова З.Д. Очерки по общей фразеологии: Проблемы, методы, опыты. - Воронеж: Изд-во Воронежского ун-та, 1990.
8. Кунин А.В. Английская фразеология (теоретический курс). - М., 1970. - 324 с.
9. Кунин А.В. Курс фразеологии современного английского языка. - М., 1996. - 381 с.
10. Лебединская В.А., Пермякова Е.А. Роль словных компонентов в формировании фразеологических значений // Сергеевские чтения, выпуск 3. - Курган, 1999 - с. 25-27

11. Лебединская В.А. Фразеологическое значение как лингвистический феномен // Сергеевские чтения, выпуск 2. - Курган, 1999 - с. 6-8
12. Любова А.Н. Адъективные компаративные фразеологизмы в английском, немецком и норвежском языках: общее и специфическое: Автореф. … дис. канд. филол. наук. - Белгород, 2009.
13. Попова Е.Ю., Федуленкова Т.Н. Фреймовое моделирование в межъязыковом анализе компаративных фразеологизмов (на материале английского, немецкого и шведского языков) // Герценовские чтения. Иностранные языки: Материалы конференции. - СПб, 2007. С. 68-70.
14. Смирницкий А.И. Лексикология английского языка. - М.: Изд-во лит. на иностр. яз., 1956.
15. Смит Л.П. Фразеология английского языка. - М., 1998.
16. Федуленкова Т.Н. Английская фразеология: Лекции. - Архангельск, 2000.. 9. Федуленкова Т.Н. Изоморфизм и алломорфизм в германской фразелогии (на материале английского,немецкого и шведского языков): Дис. … д-ра филол. наук. - Северодвинск, 2006. - 132 с.
17. Фразеологическая система английского языка. Межвузовский сборник научных трудов. - Челябинск, 1985. - 122 с.
18. Fedulenkova T. Phraseological Units in Discourse: Towards Applied Stylistics by Anita Naciscione, 2001. Riga: Latvian Academy of Culture, pp. xi + 283, ISBN 9984 95 19 01 // Language and Literature. - London, 2003, № 12 (1), p. 86-89.
19. Хорнби А.С. пер. с англ. А.С. Игнатьева, "Конструкции и обороты английского языка", Москва, АО "Буклет", 1993.
Словари
1. Англо-русский словарь = English-Russian dictionary /Сост. Мюллер В.К.

Tamilla Turabova

Semantic characteristics of phrasal units in the English language

Summary

In this article we disscused about structural and semantic peculiarities of phraseological unit. In this state of various types phraseological units carry out various functions - descriptive, characterizing, terminological and others.

It has about 25,000 idioms.Without them the English language would lose much of its variety and humor both in speech and writing. Idioms increase our vocabulary, enrich the language and make it more interesting and vibrant.The grammar and vocabullary of the idioms are fixed, and if we change them, we lose the meaning of an idiom. Every country or nation has

got their own idioms that are specific to their own culture, while many idioms have synonyms in several countries, what refers to the equal shared human culture in many countries.In this article we see several phraseological units and proverbs from our study. Similar to a previous study.Our study made it clear that the fraseologicalunitsand proverbs.Comprehension deficitin speech is not restricted to the"classical"symptom named concretism that claims a tendency towardsthe literal interpretations inlinguistic Instead, the error pattern also includes difficulties in disentangling theopposite direction, as a significant proportion of errors made by patient with phraseological units and proverbs are in misjudging the intentionof meaningless and literaL statements as ironic.

T.Turabova

Ingilis dilində frozioloji birləşmələrin semantik xüsusiyyətləri
Xülasə

Bu məqalədə biz frazeoloji vahidinin struktur və semantik xüsusiyyətləri haqqında müzakirə edirik.Bu vəziyyətdə olan müxtəlif tipli frazeoloji vahidlər müxtəlif funksiyaları yerinə yetirirlər - təsviri, səciyyələndirən, terminoloji və başqalarını həyata keçirirlər.

Onun 25000-ə yaxın idomları var.Bunlarsız ingilis dili öz müxtəlifliyini və yumor hissini şifahi nitqdə və yazı formasında itirəcək. Aforizmlər bizim lüğətimizi artırır,dilimizi zənginləşdirir və onu daha maraqlı və vibrant edirlər.İdiomlar bizim lüğət ehtiyatını artırır,dilimizi zənginləşdirir və onu daha maraqlı,parlaq edir. İdiomanın qrammatikası və söz ehtiyatı qeydə alınıb, əgər biz onları dəyişsək mənasını itirmiş olarıq. Muhtelif kontekstlerde rastlalaşdigimiz sözler ve ya söz birleşmeleri tercume zamani mueyyen çetinlikler törədir. Bəzən iki fərgli mənayə malik söz, bir birləşmə tərkibində bir mənanı ifadə etmək ücün semantik əlagəyə girir. Hər bir ölkə və ya xalqın ona və onun mədəniyətinə məxsus və uyğun olan idiomları varbelə ki bəzi idiomların bir sıra ölkələrdə sinonimləri vardır, bu da bir çox ölkələrdə bərabər ümumi bəşəri mədəniyyət deməkdir

Rəyçi: Faidə İsayeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

RƏNA ƏLİYEVA
Azərbaycan Dillər Universiteti
irena4363@mail.ru

"USES OF ONOMATOPOEIA"

Açar sözlər: onomatopeyanın tətbiqi, ifadə üsulları, səstəqlidi nəzəriyyəsi, təbii səslər, onomatopeyaların tərkibi
Key words: onomatopoeia, word-making debate, imitative words, natural sounds, onomatopoeic words
Ключевые слова: ономатопея, способы выражения, подражательные слова, естественные звуки, звукоподражательные слова

Onomatopoeia came into English via Late Latin and ultimately traces back to Greek onoma, meaning "name," and poiein, meaning "to make." ("Onoma" can be found in such terms as "onomastics," which refers to the study of proper names and their origins, while "poiein" gave us such words as "poem" and "poet.") English speakers have only used the word onomatopoeiasince the mid-1500s, but people have been creating words from the sounds heard around them for much longer. In fact, the presence of so many imitative words in language spawned the linguistic Bowwow Theory, which postulates that language originated in imitation of natural sounds.

Onomatopoeia is also a fun word to say. It is Greek for "word-making." In English, onomatopoeia refers to "an attempt to capture the sound of something." English is full of onomatopoeic words, such as **buzz**, **crash**, and **tick tock**. Some are quite old, including **buzz**, which dates back to the 14th century. Onomatopoeia is the use of a word or words that are indicative of a sound that the source of the sound produces. It is used primarily because describing sounds with words can be difficult for an author. For example, if an author is writing a story and someone fires a gun, they are faced with the problem of explaining to the reader how the gun sounded. An author could choose to say the gun sounded loud, but that does nothing to give the reader a better picture of the action. Instead, the author could use simile or metaphors like, "the gun sounded like thunder," to describe the action, but for more variety and for a more efficient way to provide an image, he could make use of onomatopoeia. For example, instead of using a simile comparing the gun to thunder, the author could say that the gun made a "*bang*." The word "*bang*" mimics the sound a gun produces, providing an instant, unmistakable auditory image in the reader's mind.

Two other fun imitative words are **flip-flop** and **gaga**. **Flip-flop** can be a verb meaning to make an unexpected reversal, as in "Maggie flip-flopped when deciding where to go on vacation." This sentence explains that Maggie changed her mind about where to travel. **Flip-flop** can also be a noun referring to summer footwear with that doodad between your big toe and its neighbor. Flip-flop sandals are also called "thongs," and they make a flip-flop sound as you walk in them. A variant of **flip-flop** is the less common word **flip-flap**, which has been used in an "echoic" sense since the 1520s. Onomatopoeia words are often single syllable words that can affect the rhythm and meter of a poem, dramatically, increasing their use for emphasizing a particular point or evoking a certain emotion that the author is trying to evoke.

Many languages feature onomatopoeic words, especially for animal sounds and machine noises, but in many cases, different words for the same sound are used. For example, in English, ***woof woof*** describes what a dog says, but in Japanese, it's ***wan wan*** and in Greek, ***ghav ghav***. As for dripping water, the sound of it is described as **drip drop** in English but ***plic ploc*** in French and ***plitsch platsch*** in German.

When a native English-speaker says the word woof, the pronunciation is somewhat similar to the sound the dog makes. But, a native Russian-speaker would not agree. They would say dogs make the sound *gav gav.* A native Korean-speaker would say *mung mung*.

are walking down a street on a rainy day. A car drives by very fast. *Zoom*. As the car passes you, it drives through some water. Splash. You close the front of your jacket to protect yourself. *Zip*. These words are all nouns that express the sound effect you are hearing.

Another interesting concept is at work behind the scenes of fun words like ***dilly-dally*** and ***shilly-shally***. This is something called reduplication. If you *dillydally*, you waste time. This English word has been around since about 1735, and as Dictionary.com puts it, **d*illydally*** is a "gradational reduplication of dally." **Dally**, which also means to delay, has been in existence since the 13th century and comes from a French word meaning to chat. **Shilly-shally** means to waste time, too, and it also indicates indecision, as in "Tim shilly-shallied at the grocery store when trying to decide which vegetables to buy." This fun word has been around since the late 17th century and originates from the repetition of the question "Shall I?" It was later "altered on the model of its synonym ***dilly-dally***." (3)

Onomatopoeia is particularly effective in poetry. Poetry relies on rhythm and meter and is often recited, creating the perfect medium for an effective use of onomatopoeia. Poetry has its roots in aural tradition making the use of words that evoke sounds particularly appropriate. The goal of

every writer is to convey their ideas on paper to the reader. Authors can use literal language and plain sentences to tell a story or explain an idea, but often, the use of figurative language is more effective in evoking emotions and images. Writers of fiction and poetry, particularly make use of figurative language and figures of speech in order to engage the senses to provide a more immersive experience. One of the senses that is easiest for authors to tap into is the sense of sound by use of onomatopoeia. The following poems contain examples of onomatopoeia: Poem from Blue Balloons and Rabbit Ears by Hilda Offen (4)

Rain-Dance

The seagulls are doing their dance again – Wings clasped to their sides, they stare up the street.
Up and down, up and down, go their knobbly pink knees;
And boom-diddy-boom! Drum their heavy webbed feet.

While over their heads, the dancers pound on;
Their golden beaks shine in the midsummer heat – Intent on their dance, in a world of their own;
And boom-diddy-boom! Go their heavy flat feet.

Onomatopoeia is also used frequently in comic books and comic strips where space is limited and words must be used to their fullest effect to maximize their effectiveness in telling a story and conveying meaning and context to the reader. In comic books, we often see these sound effects written in the pictures. These words help the reader imagine sounds in the story. Onomatopoetic words are not only nouns, though. Imagine you are in a quiet restaurant. Suddenly, the people next to you start to have an argument.

Anna: I can't believe you lied to me! Jonathan: *Shhhh!* We are in public! Anna: Don't *shhhh* me!

When you tell someone shhhh, you are saying the situation requires quiet. In the conversation you just heard, Anna responds to Jonathan by saying "Don't shhhh me." In this case, Anna is using shhhh as a verb. She means to say, "Don't tell me to be quiet." Another example is one you probably hear every day. When you use a computer, you choose objects on the screen using a device called a mouse. Click. But, the action of choosing an object on a computer screen using a mouse is called clicking. (5)

"Look, I can't tell you the secret of life, and I don't have any answers for you. I don't give interviews and I'm no longer a public figure. I just want to be left alone." His voice sounds low and deep. You could say his voice is booming. (6)

Onomatopoetic words are not often used in formal language. But they are very common in everyday speech and there are hundreds of

examples. They make languages more creative. Writers and musicians have used these types of words for many years to find a connection with the natural world. One more example from the music group 'Ylvis' as they make an entire song about onomatopoeia

Dog goes woof, cat goes meow,
bird goes tweet and mouse goes squeak
Cow goes moo, frog goes croak
and the elephant goes toot
Ducks say quack and fish go blub
And the seal goes ow ow ow…

Ədəbiyyat

1. *Wells, John C. (2008), Longman Pronunciation Dictionary(3rd ed.), Longman*
2. Crystal, David (1997). The Cambridge Encyclopedia of Language (2nd ed.). Cambridge University Press
3. www.softschools.com
4. Thompson, R, Vinson, D.P., Vigliocco, G., (2013) 'The Link between form and meaning in American Sign Language: Lexical Processing Effects,' Exp Psychol Learn Mem Cog, vol.35, no.2, pp 550-557 [Online] available at http://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC3667647/
5. Schuit, J., (2005) 'The sounds in silence, the representation of sound and accent in sign language'
6. Prize Comics No. 15. Art by Jack Binder

R.Əliyeva

Onomatopeyanın tətbiqi
Xülasə

Qeyd olunan elmi tədqiqat işi ingilis dili materialları əsasında "Onomatopeyanın tətbiqi" adlanır. Dilin yaranması və ilkin vəziyyəti barədə maraqlı nəzəriyyələrdən biri səstəqlidi nəzəriyyəsidir. Onomatopeya, bədii səslərin, cansız obyektlərin və eləcə də heyvan və insanların təqlidi məqsədi ilə yaratdığı səslərdir. Hər hansı bir dildə ətraf aləmin səslərinin mənimsənilməsinin səbəbi mürəkkəb və çoxşaxəli haldır. Belə ki, bir dildə olan onomatopeyaların tərkibi, birbaşa, millət daşıyıcısının mədəni və yerli xüsusiyyətlərinə görə başqa bir dildə onomatopoeyalardan fərqlənə bilər. Məsələn: ingilis dilində: woof-woof, cheep-cheep, tweet- tweet, Azərbaycan dilində: qa-qa, fıs-fıs, xur-xur, hav-hav, rus dilində: гав-гав, мяю -мяю , ква-ква, чик-чирик və s. Digər sözlər isə insan tərəfindən ifadə olunan qeyri-nitq səslərini bildirir. Bunlar dilxarici hadisələr ilə linqivistik hadisələr

arasında orta mövqe tuturlar. İnsanın müəyyən hərəkətləri zamanı çıxardığı səslər fonematik səciyyə daşımır, bunlar hələ üzvlənməmiş olan sinkretik səslərdir. Bu cür işarələrin formalarının, səslərin fonematik əsasları olmadığından, onlar əsaslandırılmamış işarələr də adlandırılır. müvafiq sözlər əmələ gəlmiş olur: hort-hort (ilə su içmək), hıq-hıq (la yerimək), çırt (atmaq) və s.

Р.Алиева

Использование Ономатопеи

Резюме

В статье рассматриваются некоторые вопросы по использованию Ономатопеи. Ономатопея-это звукоподражание, слова или комбинация слов, образованных с целью имитирования природных звуков (например, грома, ветра, воды), звуков, порождаемых различными неодушевленными предметами (машинами, оборудованием, инструментами), животными и людьми. Однако, состав таких звукоподражаний, в одном языке, может сильно отличаться от звукоподражаний в другом языке. Это зависит от культурных и местных особенностей нации-носителя. Любой отдельно взятый язык имеет собственные средства освоения звучания окружающего пространства. В этом кроется частое несовпадение звукоподражаний в разных языках. Ученые полагают, что одной из многих причин таких различий является следующее: любой звук – это сложное, многогранное явление, и каждый язык избирает образцом для подражания ту или иную часть, грань звука, так как абсолютно полная его имитация языковыми средствами, увы, невозможна. При всем этом, слова, комбинации слов, передающие такие звуки, всегда безошибочно улавливаются и ассоциируются в человеческом сознании с определенным предметом или существом, производящим их. Такие слова обладают различным уровнем качества подражания. Мы слышим одинаковые звуки, но передаем их в языке по-разному. Иногда человеческая интерпретация совсем не похожа на оригинал.

Rəyçi: **Səfura Cəfərova**
filologiya elmləri namizədi

GÜNAY KƏRİMOVA
Bakı Dövlət Universiteti
ibishova.gunay@mail.ru

SƏBƏB BUDAQ CÜMLƏLİ OLMAYAN TABELİ MÜRƏKKƏB CÜMLƏLƏRDƏ SƏBƏB SEMANTİKASI

Açar sözlər: səbəb, nəticə, tabeli mürəkkəb cümlə, budaq cümlə, məzmun, komponent, baş cümlə, budaq cümlə
Ключевые слова: причина, следствие, сложноподчиненное предложение, придаточное предложение, содержание, компонент, главное предложение
Keywords: cause, result, compound sentence, component, main sentence

Azərbaycan dilçiliyində mürəkkəb cümlə, xüsusən tabeli mürəkkəb cümlə ilə bağlı müxtəlif səpkili zəngin elmi araşdırmalar vardır. Tabeli mürəkkəb cümlələrin təsnifi, budaq cümlə növləri, baş və budaq cümlənin qarşılıqlı münasibəti, bağlayıcı vasitələr dilçiliyimizdə geniş şəkildə tədqiq olunmuşdur. Ayrı-ayrı budaq cümlə növləri barədə də müstəqil araşdırmalar vardır. Lakin tabeli mürəkkəb cümlələrin komponentləri arasında səbəb məzmunu geniş araşdırmanın predmeti olmamışdır.

Səbəb fəlsəfi anlayış olub, bütünlükdə dünyanın mövcudluq atributlarından biridir. Səbəb faktoru real aləmdə baş verən hadisələrin əsasında durur, gerçəkliyin müxtəlif səpkili faktlarının meydana çıxmasının əsas şərtidir. Səbəb fəlsəfi kateqoriya kimi dildə müxtəlif üsul və vasitələrlə ifadəsini tapır; leksik, morfoloji, sintaktik ifadə formaları səbəb anlayışının rəngarəng çalarlarının meydana çıxmasını şərtləndirir. Səbəb anlayışının ifadəsində sintaktik üsullar içərisində mürəkkəb cümlə əhəmiyyətli rola malikdir. Tabesiz mürəkkəb cümlədə komponentlər arasında səbəb əlaqəsi vardır və bu konstruksiyalarda real aləmin biri digərini şərtləndirən hadisələrdən biri digərinin səbəbi, digəri isə onun nəticəsi kimi meydana çıxır. Tabeli mürəkkəb cümlədə isə səbəb əlaqəsi daha sıx səciyyəli olub, sırf şərtləndirmə mahiyyəti daşıyır.

Səbəb budaq cümləli tabeli mürəkkəb cümlələri baş cümlədəki halhərəkət və prosesin, habelə hökmün baş vermə səbəbini bildirir. Mürəkkəb cümlədə səbəb məzmununun ifadəsində əsas fərqlərdən biri elə bundan ibarətdir. Belə ki, səbəb məzmunlu leksik vahidlər bilavasitə hərəkətlə əlaqələnərək, onun baş vermə səbəbini statik vəziyyətdə göstərir. Bu hal cümlə üzvü səviyyəsində olan vahidlərdə də göstərir. Səbəb zərfləri halhərəkətin baş vermə səbəbini bildirir.

Səbəb budaq cümləli tabeli mürəkkəb cümlələrdə səbəb məzmunu müxtəlif üsullarla meydana çıxır və bu zaman istər komponentlərin bir-biri ilə olan semantik əlaqəsi, istərsə də bağlayıcı vasitələr rəngarəng olub, bu məna ilə əlaqələnən müxtəlif çalarlarla müşayiət olunur. Bu çalarların olması səbəbin özünün də müxtəlif səviyyəsi ilə bağlıdır.

Səbəb budaq cümləli tabeli mürəkkəb cümlələrin əksər hissəsində baş cümlədə səbəb məzmunu ilə əlaqələnən söz olur və budaq cümlə məhz onunla əlaqələndiyindən səbəb-nəticə məzmunu üzə çıxır. Əslində bu şəkildə səbəb məzmunu yalnız səbəb budaq cümləli tabeli mürəkkəb cümlələrdə deyil, digər budaq cümləli tabeli mürəkkəb cümlələrdə özünü göstərir. Dilçilik əsərlərində xüsusən məqsəd budaq cümlələri ilə məqsəd budaq cümlələrinin bir-birinə çox bənzədiyi göstərilir (1: 389). Lakin semantik-qrammatik cəhətdən səbəblə yaxın olmayan tabeli mürəkkəb cümlələrin də bəzilərində həmin məzmunu görmək mümkündür. Məhz bu səbəbdən bəzi hallarda tabeli mürəkkəb cümlələrin budaq cümləyə görə təsnifatında dolaşıqlığa yol verilir. Diqqəti bu məsələyə yönəldən K.Abdulla bu sahədəki qeyri-dəqiqliyin səbəbini araşdırır və komponentlərin əlaqəsində təsnifat prinsiplərinin vahidliyinə xüsusi yer ayırır (2: 211-215). Məsələn, xəbər budaq cümləsinin elə tipi vardır ki, baş cümlənin mübtədası səbəb məzmunlu sözlə ifadə olunur. Məsələn:

Qonaqların gec gəlməsinin səbəbi bu idi ki, yolda qəza baş vermişdi (S.Səxavət).

Bu konstruksiya xəbər budaq cümləli tabeli mürəkkəb cümlədir; birinci komponent baş, ikinci komponent isə budaq cümlədir. Bu konstruksiyanın xəbər budaq cümləli olması baş cümlədə olan qəlib sözlə müəyyənləşir; belə ki, baş cümlədə işlənmiş "*bu idi"* ifadəsi qəlib sözdür və budaq cümlə məhz onu izah edir. Lakin komponentlərin qarşılıqlı semantik əlaqəsini müqayisə elədikdə məlum olur ki, burada səbəb-nəticə məzmunu vardır. Yolda qəzanın baş verməsi səbəbindən qonaqlar gecikir; deməli məzmun etibarilə birinci komponentdə baş vermiş hadisənin səbəbi birinci komponentdə müəyyən olunur.

Lakin biz bu konstruksiyaya səbəb budaq cümləsi deyil, xəbər budaq cümləsi deyirik. Bunun səbəbi həmin konstruksiyanın qrammatik quruluşunun xəbər budaq cümləsinin tələblərinə uyğunluğudur. Digər tərəfdən isə, bu tabeli mürəkkəb cümləni sadə cümləyə çevirməli olsaq, budaq cümlə baş cümlə çərçivəsində xəbər funksiyasını yerinə yetirir: *Qonaqların gec gəlməsinin səbəbi yolda qəzanın baş verməsidir*.

Onu da deyək ki, bu strukturda olan xəbər budaq cümləli tabeli mürəkkəb cümlələrdə baş və budaq cümlə arasında müxtəlif məna münasibətləri özünü göstərə bilir. Misala müraciət edək: *Məqsədim bu idi ki, uşaların gününü maraqlı təşkil edim* (S.Səxavət).

Bu konstruksiya da xəbər budaq cümləli tabeli mürəkkəb cümlədir. Hər iki konstruksiyanın strukturu eynidir; budaq cümlə baş cümləyə "ki" bağlayıcısı ilə bağlanmış, baş cümlədə eyni qəlib söz *(bu idi*) işlənmişdir ki, budaq cümlələr həmin sözü izah etmişdir. Lakin birinci nümunədə səbəb, ikincidə isə məqsəd məzmunu vardır.

M.Şirəliyev də, Ə.Abdullayev də xəbər budaq cümlələrindən bəhs edərkən onlarda məna çalarlarına da toxunur və bunların işərisində səbəb çalarını xüsusi qeyd edirlər. Bu tip tabeli mürəkkəb cümlələrə məhz yuxarıdakı tipli konstruksiyalardan nümunələr gətirirlər (3: 358-359; 4: 192).

Bu tip konstruksiyaların elələri də vardır ki, baş cümlənin xəbəri standart qəlib söz deyil, "*səbəb"* sözü ilə ifadə olunur. Məsələn: *Flakətin o səbəbdəndir ki, ağıllı adamın məsləhətinə qulaq asmırsan* (M.İbrahimov). Burada baş cümlənin xəbəri birinci növ təyini söz birləşməsi ilə ifadə olunmuşdur (o səbəbdəndir). İlk baxışda elə görünə bilər ki, bu birləşmədəki "o" işarə əvəzliyi cümlənin təyinidir və elə bu baxımdan da təyin budaq cümləsidir, çünki həmin əvəzlik isimlə əlaqədədir. Lakin bu birləşmənin tərəflərini bir-birindən ayırmaq olmaz, onlar birlikdə bir cümlə üzvü—xəbər kimi çıxış edir və elə bu vəziyyətdə də baş cümlənin qəlib sözü funksiyasındadır. Bu birləşmə baş cümlənin xəbəri olduğundan konstruksiya da xəbər budaq cümləli tabeli mürəkkəb cümlədir.

Səbəb məzmunlu xəbər budaq cümləli tabeli mürəkkəb cümlələrin bəzilərində ilk baxışda səbəb məzmunu görünməsə də, komponentlərin qarşılıqlı əlaqəsində onu görmək mümkündür. Məsələn: *Hamısı ondandır ki, heç kim sənin bu işləri çox niyyətlə etdiyini bilmir* (İ.Əfəndiyev). Bu konstruksiyada baş cümlədəki hadisə üzdə deyil, lakin budaq cümlə ilə qarşılıqlı əlaqədə onlar arasında səbəb məzmununun olduğu üzə çıxır. Bu konstruksiya da struktur və məzmun cəhətdən əvvəlki konstruksiyalara bənzəyir və kiçik dəyişikliklə həmin konstruksiya şəklində verilə bilir: Hamısının səbəbi odur ki...//Hamısı o səbəbdəndir ki...

Aşağıdakı tabeli mürəkkəb cümlə də səbəb budaq cümləsi deyil, lakin komponentlər arasında səbəb məzmunu vardır: *Qorxurdum ki, Rasimin anası mənim belə gəlişimi düz başa düşməz* (Ə.Abbasov). Bu konstruksiyanın hansı budaq cümləli olduğu barədə mübahisə eləmək olar. Dilçilik ədəbiyyatında bu tip konstruksiyalar, bir qayda olaraq, tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlə kimi öyrənilir. Bu zaman birinci tərəfdə yerləşən baş cümləyə "*nədən?"* sualı verilir. Lakin, bir tərəfdən. Nəzərə almaq lazımdır ki, vasitəli tamamlığın belə sualı olduğu kimi, eyni sualı "*niyə?"* məzmununda səbəb və ya məqsəd budaq cümləsinə də vermək olur.

Bizə belə gəlir ki, verdiyimiz nümunədə ikili münasibəti görmək mümkündür; daha doğrusu, onu həm tamamlıq, həm də səbəb kimi başa düşmək olur. 1)*Nədən qorxurdum?—Rasimin anasının mənim belə gəlişimi*

düz başa düşməməsindən; 2)Niyə qorxurdum? Sonuncu suala cümlənin çevrilmiş formasında cavab vermək çətindir. Bunun səbəbi həmin konstruksiyanın struktur baxımından tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlə olmasıdır. Digər tərəfdən isə, məlum olduğu kimi, budaq cümlədə olan səbəb hadisə baş cümlədəki hadisədən əvvəl baş verir. Verilmiş nümunədə budaq cümlədəki işin baş cümlədəkindən əvvəl baş verdiyini söyləmək olmur. Elə bu baxımdan da həmin tabeli mürəkkəb cümləni səbəb budaq cümləli hesab etmək olmaz.

Elə tabeli mürəkkəb cümlələr var ki, onlar hər hansı başqa budaq cümlə növünə aid olsa da, orada komponentlər arasında potensial səbəb məzmunu özünü göstərir, lakin bu səbəb üzdə deyil, dərindədir. Bu fakt daha çox dərəcə budaq cümləli tabeli mürəkkəb cümlələrdə müşahidə olunur. Məsələn: *Elə ağıllıdır ki, hər işin nəticəsini əvvəldən görür* (H.Mehdi). Bu konstruksiya dərəcə budaq cümləli tabeli mürəkkəb cümlədir; birinci komponent baş cümlədir və burada qəlib söz kimi "elə" əvəzliyindən istifadə edilmişdir. Lakin bu əvəzlik nə təyin, nə də tərzi-hərəkət zərfliyi funksiyasındadır, dərəcə məzmunu yaratmışdır. Bununla yanaşı, baş cümlədəki fakt budaq cümlədəki faktın səbəbini bildirir. Bunu sualla da müəyyənləşdirmək mümkündür; burada qrammatik əlaqədə birinci komponent əsasdır və ikinci komponenti özündən asılı vəziyyətə salaraq, dərəcə məzmununu formalaşdırmışdırsa da, ikincidən birinciyə yönələn məzmun səbəbdir.

Əslində səbəb məzmununun daha üstün şəkildə meydana çıxdığı budaq cümlə növü nəticə budaq cümləsidir. Məlumdur ki, hər hansı nəticə bəlli səbəbdən doğur, səbəbsiz nəticə yoxdur. "Asılı komponent birinci tərəfin rema—nəticə qütbünə aid olduğundan xüsusi—mürəkkəb quruluş sintaksisində səbəb bildirən rema—hissə olaraq müəyyənləşir" (5: 187). Ə.Abdullayev nəticə budaq cümləli tabeli mürəkkəb cümlələrdən bəhs edərkən yazır: "Nəticə budaq cümləsi baş cümlədən doğan nəticəni bildirir. Baş cümlədə ifadə olunan iş və ya hökm səbəb, budaq cümlə isə onun nəticəsi kimi meydana çıxır"(4: 308). Lakin budaq cümlə növü tabeli mürəkkəb cümlənin komponentlərinin qrammatik əlaqəsindəki aparıcı komponentin mövqeyi ilə müəyyənləşir. Dilçiliyimizdə digər budaq cümlə növləri arasında da müqayisəli məqamlar vardır; bəzən tərzi-hərəkət və dərəcə, tərzi-hərəkət və nəticə, səbəb və nəticə budaq cümlələri qarışdırılır. Bunun əsas səbəbi komponentlərin qarşılıqlı əlaqəsində qrammatik cəhətdən hansının əsas olduğunu dəqiq müəyyənləşdirə bilməməkdir. Səbəb budaq cümlələri ilə nəticə budaq cümlələri araslında ciddi fərqlər vardır. Burada birinci növbədə tabei mürəkkəb cümlənin baş və budaq cümlələrini müəyyənləşdirmək lazım gəlir; ondan sonra baş cümlədən çıxış edib, onun budaq cümlə ilə semantik-qrammatik əlaqəsini müəyyənləşdirmək olar. Baş

və budaq cümlənin müəyyənləşməsinin ilkin şərti onların hansında xəbərin danışılan vaxtla müəyyənləşməsidir; belə ki, baş cümlə qrammatik cəhətdən əsas olduğundan məhz onun xəbəri danışılan vaxtla müəyyənləşir. Məsələn: *Bu əməlinə görə heç kim Cəmili danlamadı ki, səhvini başa düşsün* (S.Qədirzadə).

İlk baxışda bu konstruksiyanı məqsəd budaq cümləli tabeli mürəkkəb cümlə də hesab etmək olar; bunu budaq cümlənin xəbərinin əmr şəklində olması da meydana gətirə bilər. Lakin cümlənin nə məqsədlə işlədilməsi və komponentlərin qarşılıqlı semantik əlaqəsindən aşkar görünür ki, ikinci komponentdəki iş birincidən doğan nəticəni bildirir. Bu baxımdan həmin konstruksiya nəticə budaq cümləlidir. Bu konstruksiyanın birinci komponenti baş cümlədir, ona görə ki, onun xəbərinin zamanı danışılan vaxtla ölçülür, yəni "*danlamadı*" feilinin zamanı onun haqqında bəhs edilən zamandan əvvəlki zamandır. Budaq cümlənin xəbərinin (*başa düşsün*) zamanı isə "*danlamadı"* xəbərinin zamanı ilə əlaqədə müəyyən olunur. İkinci cəhət ondan ibarətdir ki, ikinci cümlə ayrılıqda işlədilsə, onun daşıdığı məna da aydın olmaz, habelə yarımçıq xarakterdə olar: *səhvini başa düşsün.* Halbuki ondan fərqli olaraq, birinci komponent heç nədən asılı olmadan müstəqil şəkildə işlədilə və konkret məzmun ifadə edir: *bu əməlinə görə heç kim Cəmili danlamadı*. Bu cür izahdan sonra birinci komponentin baş, ikincinin isə budaq cümlə olduğu aydınlaşmış olur.

Bəzi nəticə budaq cümlələrində səbəb məzmunu olsa da, onlar bir o qədər də üzdə olmur. Bu cür tabeli mürəkkəb cümlələrdə çox zaman komponentlərdən biri, xüsusən də budaq cümlə inkar məzmunu ifadə edir. Məsələn: *Gərək daş ürəkli olasan ki, qızın səni nə qədər sevdiyini görməyəsən* (S.Qədirzadə). Bu nümunədə birinci komponent baş cümlədir, ikinci komponent ondan doğan nəticəni bildirir, deməli, birinci komponent ikincinin səbəbini bildirir. Lakin, hər şeydən əvvəl, tabeli mürəkkəb cümlə nəyinsə başvermə səbəbini vermək üçün işlədilməmişdir; burada doğan bir nəticəni nəzərə çatdırmaq əsasdır. İkinci komponentin, bir tərəfdən, inkar məzmunu, digər tərəfdən, xəbər şəklində deyil, lazım şəklində olması oradakı səbəb məzmununu ilk olaraq görməyə mane olur. Buna baxmayaraq, *"qızın səni nə qədər sevdiyini görməməyin*" səbəbi kimi məhz "*daş ürəkli olmaq"* verildiyini də görməmək mümkün deyil. Deməli, birinci komponent ikincinin səbəbi kimi çıxış edir. Üçüncü qrup nəticə budaq cümlələrində səbəb məzmununu ayırmaq daha böyük çətinliklə üzləşir. Bu tip tabeli mürəkkəb cümlələrdə də çox zaman komponentlərdən biri inkarda olur, bununla yanaşı, burada sual məzmunu da özünü göstərir. Sual məzmununun olması həmin cümlədə konkret hökm verməyə mane olur; hökmün olmaması isə səbəb məzmununun olmasına, daha doğrusu, üzə şıxmasına mane olur.

Məsələn: *Səmayənin nə günahı vardı ki, atası iki il onu danışdırmadı* (ƏşAbbasov).

Göründüyü kimi, ikinci komponent birincidən doğan nəticəni bildirir, lakin çox çətinliklə ayırd etmək olur ki, bu nəticənin səbəbi məhz birinci komponentlə müəyyənləşir. Hər şeydən əvvəl, ikinci komponentə "*niyə?, nə üçün?"* sualını verib birincini almaq müəyyən qədər qeyri-məntiqi görünür. Ona görə ki, birinci komponentin özü sırf qrammatik sual deyi, burada ritorik sual məzmunu vardır, ritorik sual isə cavab tələb eləmir. Bu baxımdan birinci komponentin səbəb kimi çıxış etməsi ilk anda məntiqsiz görünür. Lakin burada səbəbin üzdə olmaması, sadəcə, ritorika ilə bağlıdır; həmin ritorik sualı onunla məzmunca təxmini eyni olan normal cümlə ilə əvəz eləsək, konstruksiyada komponentlərin məzmun əlaqəsi aydınlaşmış olacaqdır: *Səmayənin günahı vardı ki, atası iki il onu danışdırmadı.*Qeyd edək ki, şərt məzmununun özündə də bir səbəb məzmunu vardır; ona görə də budaq cümləsi şərt forması ilə ifadə olunan tabeli mürəkkəb cümlələrin bir qismində də komponentlər arasında səbəb çaları özünü göstərir. Bu hal, demək olar ki, əksər budaq cümlə növlərində vardır. Biz yalnız birini verməklə kifayətlənəcəyik: *Onu tapıb gətirə bilsən, səni böyük mükafat gözləyir* (Mir Cəlal).Əslində bu tip konstruksiyalarda baş cümlədə qəlib sözün müxtəlif qrammatik formalarda düşünülə bilməsi onların o qədər sayda budaq cümlə növündə ola bilməsi deməkdir. Yuxarıda verdiyimiz nümunə isə şərt budaq cümləli tabeli mürəkkəb cümlədir, birinci komponent, yəni budaq cümlə baş cümlənin səbəbini bildirir. Baş cümləyə iki cür sual verilə bilir: 1)*Nə şərtlə səni mükafat gözləyir? 2)Nə üçün səni mükafat gözləyir?* İkinci sualın verilməsi, göründüyü kimi, o qədər də məntiqi görünməsə də səbəb məzmununun olması bu sualı şərtləndirir.Bütün bunlar göstərir ki, səbəb fəlsəfi anlayış kimi geniş sferanı əhatə edir və bunların hər birinin müqayisəli şəkildə araşdırılmasına ehtiyac vardır.

Ədəbiyyat

1.Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis. "Elm və təhsil", Bakı, 2010

2.Abdulla K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. MTM: İnnovation, Bakı, 2016

3. M.Ş.Şirəliyev Xəbər budaq cümləsi.—Azərbaycan dilinin qrammatikası. Azərb. SSR EA-nın Nəşriyyatı, Bakı, 1959,

4.Abdullayev Ə.Z. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. "Maarif", Bakı, 1974

5.Musayev M.M.Türk ədəbi dillərində mürəkkəb cümlə sintaksisi. "Kitab aləmi", Bakı, 2011

G.Kerimova

The semantics of cause in the compound sentence without a subordinate clause of cause

Summary

The article deals with the semantics of cause studied as a philosophical notion that is reflected in the units of the different language levels including compound sentences. It is noted that though the cause as a rule is expressed in subordinate clauses in compound sentences, it also occurs in the types of subordinate clauses to a certain extend. In the other types of subordinate clauses the semantics of cause is directed from the main sentence to the subordinate clause. The nuances of the semantics of cause among the components of subject, predicate, object and other types of subordinate clauses are analyzed. Though the second components of such sentences that are subordinate clauses are called by appropriate names, the semantics of cause is analyzed in the attitude of the main sentence to the subordinate clause. It is emphasized that the subordinate clauses of result take a predominant position.

Керимова Гюнай

Семантика причины в сложноподчиненных предложениях без придаточных причины.

Резюме

В статье причина рассматривается как философское понятие, находящее свое отражение в единицах разных языковых уровней, в том числе и в сложноподчиненных предложениях. В частности, указывается, что несмотря на то, что причина выражается, как правило, в придаточных причины в сложноподчиненных предложениях, она наблюдается в той или иной степени и в других типах придаточных. В других типах предложений значение причины передается от главного предложения к придаточному. В статье выявляются и анализируются оттенки семантики причины между компонентами в подлежащных, сказуемостных, дополнительных и других типах придаточных. Несмотря на то, что вторые компоненты этих предложений, являющихся придаточными, имеют соответствующие названия, семантика причины рассматривается в отношении главного предложения к придаточному. Отмечается, что придаточные следствия занимают преобладающую позицию.

Rəyçi Tofiq Hacıyev
filologiya üzrə elmlər doktoru, professor

TOVUZ HƏMİDOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
hemidova-tovuz@rambler.ru

İNGİLİS DİLİNDƏ FELİ SABİT SÖZ BİRLƏŞMƏLƏRİ

Açar sözlər: mürəkkəb fellər, söz birləşməsi, sabit birləşmələr, müxtəlif, fel, isim, frazeoloji.
Key words: compound verbs, word-combination, constant combinations, different, verb, noun, phraseological.
Ключевые слова: сложные глаголы, словосочетаний, устойчивое сочетание, различный, глагол, существительное, фразеологические.

Həm sərbəst, həm də sabit birləşmələr feli və qeyri feli birləşmələr kimi iki növə ayrılır. Azərbaycan dilçiliyində bunlara ismi və feli birləşmələr deyilir. Ismi və feli frazeoloji birləşmələr azərbaycan, ingilis və rus dillərində geniş yayılmışdır.

Bildiyimiz kimi ismi birləşmələrdə isimlər aparıcı rola malik olduğu kimi, feli birləşmələrdə də fellər aparıcı rol oynayır.

Azərbaycan dilində əsas tərəf, yəni ikinci tərəf felin təsriflənməyən formaları ilə ifadə olunan birləşmələrə feli birləşmələr deyilir. Məsələn: ağac əkmək, meyvə almaq, məktub yazan, kitab oxuduqca, evə gələrkən və s. Bizim dilimizdən fərqli olaraq ingilis dilində feli birləşmələrin birinci tərəfi fel, ikinci tərəfi müxtəlif nitq hissələrindən ibarət olur. Məsələn: to work hard, to drive carefully, to rain heavily və s.

Bütün söz birləşmələri, eləcə də bütün feli birləşmələr müstəqil mənalı sözlərdən təşkil olunduğu kimi, adlarla fellərdən ibarət feli birləşmələr də müstəqil mənalı sözlərdən əmələ gəlir. Bu səbəbdən zahirən feli birləşmələrə oxşayan yaza bilmək, şagird olmaq, varlı olmaq, çox olmaq, cəld olmaq kimi formaları feli birləşmələr hesab etmək olmaz. Çünki bunların əsas sözləri tam müstəqil mənaya malik olmayan sözlərdən – köməkçi fellərdən ibarətdir. Bunlar iki sözdən ibarət olsalar da, həmin sözlər ayrı – ayrı məhfumlar, anlayışlar arasındakı əlaqələri ifadə edə bilmir.

Feli söz birləşmələrinin yaranmasında birləşməyə daxil olan tərəflərin mənasının əhəmiyyəti böyükdür. Çünki istənilən ismi və ya zərfi fellə birləşdirib, feli söz birləşməsi əmələ gətirmək olmur. Burada müəyyən daxili qanunauyğunluq hiss olunur ki, bu da sözlərin mənası ilə bağlıdır. Alma almaq, kömək etmək kimi söz birləşmələrində ikinci tərəfin aparıcı rola malik olmasına baxmayaraq, bu tərəf qarşılıqlı münasibətdədir. Alma ismi almaq, əkmək, becərmək, satmaq və s. fellərlə; kömək ismi etmək, göstərmək və s. fellərlə birləşib sözbirləşmələri əmələ gətirir. Lakin bu

prosesin əksini görmək olmur. Yəni alma ismi etmək, göstərmək və s. kimi fellər ilə işlənmir. Buna görə də deyə bilərik ki, birləşməyə daxil olan sözlərin qarşılıqlı məna birliyi lazımdır.

Ingilis dilində də bir neçə söz birləşmələri mövcuddur:

1. feli soz birləşmələri: fel + isim: to translate an article, to write a letter; fel + məsdər: to teach to read; to learn to drive, to agree to lend; fel + feli –ing: to enjoy doing, to suggest going, to finish cleaning; fel + sözönü + feli –ing to think of buying, to talk about going, to decide against moving; fel + zərflik: to speak quietly, to arrive unexpectedly, to wait patiently;

2. İsmi söz birləşmələri: sifət + isim: a difficult question, a modern house, a foreign language; isim + sözönü + isim: a book on the table, the door of the room, a shop in front of the school; isim + sözönü + sifət + isim: a woman with long hair, a solution to a difficult problem, need for a new road; isim + sözönü + feli –ing: difficulty in understanding; isim + məsdər: a hotel to stay, a factory to work, a man to meet;

3. sifət söz birləşmələri: sifət + məsdər: happy to live, glad to see, nice to meet; sifət + sözönü + isim: afraid of dogs, crowded with tourists, tired of politics; sifət + sözönü + feli –ing: good at telling, sorry for phoning.

Azərbaycan dilində feli birləşmələrin adliq (şagird oxuyanda, gün çıxanda, yönlük (uşağa baxan, dərsə gəlmək), təsirlik (tapşırığı yazmaq, müəllimi dinləmək), yerlik (sinifdə oturmadan, dərsdə oxuyan), qoşmalı (sənin üçün yaşamaq, məktəbə tərəf gedənlər) feli birləşmələr kimi növləri vardır. Dilimizdə feli birləşmə modelləri əsasında yaranan frazeoloji birləşmələr də çox işlənir. Bu hal ingilis və rus dillərinə aiddir. Odur ki, sərbəst birləşmə modelləri üzrə qurulmuş frazeoloji birləşmələr arasında başqa quruluş modellərinə rast gəlmək olmur.

Bir çox dillərdə fellərin köməyi iklə yaradılmış frazeoloji vahidlər – sabit vahidlər frazeoloji mikrosisteminin böyük bir hissəsini təşkil edir. Belə vahidlərin sintakti – morfoloji quruluşu hər bir dilin daxili qanunlarına müvafiq tərzdə formalaşdığından onların tərkibindəki sözlərin sıralanması və felin mövqeyi də müxtəlif olur. Eyni zamanda feli frazeoloji vahidlərdə felin rolu da ikilidir. Məlumdur ki, feli birləşmələrin bir tərəfində fel, ikinci tərəfində müxtəlif nitq hissələri olur. Təkcə leksik vahidlər deyil, feli frazeoloji birləşmələr də idarəetmə qabiliyyətinə malik olur və bu qabiliyyət ya güclü, ya da zəif olur. Feli birləşmələrinin fərqli cəhəti proqressiv strukturlara olan meylidir. Bu ona görə baş verir ki, asılı elementlər nüvədən sağda yerləşmək meyli göstərir və yalnız bəzi zərflik növləri ilə formalaşan reqressiv birləşmələr əmələ gəlir ki, onlar da müvafiq oalraq, nüvədən solda yerləşir. Beləliklə, feli birləşmələrinin təsnifi iki əsas felə tabe olan növlərinin elementləri – tamamlıq və zərfliyin yerləri əsasında aparılır.

Azərbaycan dilində feli frazeoloji birləşmələrin əksəriyyətini isim – fel modelli frazeologizmlər təşkil edir:

Can vermək (ölmək), ürəyi düşmək (qorxmaq), başını sındırmaq (cox çalışmaq), bel bağlamaq (inanmaq), haldan düşmək (yorulmaq), boynundan atmaq (rədd etmək), nəfəsi kəsilmək (yorulmaq), ağız açmaq (istəmək), ürəyinə yatmaq (bəyənmək), qəlbinə dəymək (incitmək), könül vermək (vurulmaq, sevmək), ağzını aramaq (soruşmaq).

Ingilis dilində feli frazeoloji birləşmələrinin yaranmasında bir qrup fellər xüsusi fəallıq göstərir. Bu baxımdan to keep, to hold felləri diqqətimizi cəlb edir. Ingilis – rus lüğətlərində feli birləşmələrin çoxunun bu fellərlə düzəldiyini nəzərə alsaq, onda bu məsələnin nə qədər aktual olduğuna heç bir şübhə qalmır. Lakin bu fellərin frazeoloji vahidlərin yaranmasında rolu eyni deyildir. Bu cəhətdən to keep felinin rolu daha çoxdur. Bu fellərin qədim ingilis dilindəki mövcud semantik oxşarlığı, dilin sonrakı inkişaf mərhələlərində bu sözlərin semantik inkişafında bir – birini təkrar etməsinə gətirib çıxarır. Misal olaraq to keep sözü to hold felini təkrar edərək xilas etmək mənasını verir. Bu sözlərin tarixinə nəzər saldıqda görürük ki, sonrakı inkişaf mərhələlərində bu fellər sinonimlik təşkil edir. XIII – XIV əsrlərdə artıq to keep feli həm çoxmənalılığı, həm də dildə işlənmə məhsuldarlığına görə to hold felini qabaqlayır. Məsələn: to keep (to hold) a car.

Come, go, take, give, grow, fall, run, stand, lie, set, make kimi fellər idiomların yaramasında zənginlik təşkil edir. Bunu göstərdiyimiz nümunələrdə daha aydın görə bilərik: run the streets, run temperature, run smb. into difficulties, run to cover, run with the hare and hunt the hounds, go for a soldier, go to pieces, go a long way, go dry, go into mourning, go in fear, go in rags, go green with envy, go wet, go bail, go over to the majority, go with the times, go against the stream, go out of one's mind, go it blind, go scot-free, give a hand, give one's hand, give a leg, give thanks, give good words, give fits, give a lesson, give smb. hell, give smb. what for, give the lie to, give ground, give a handle, give ear to, give oneself airs,

Hərəkət bildirən fellər feli sabit söz birləşmələrində böyük qüvvəyə malikdirlər. Mənalarının son dərəcə ümumiləşməsi ilə, onlar bir sıra elə müxtəlif frazalar yaradırlar ki, ingilis lüğətlərinin digər elementləri ilə müqayisədə bitməz, tükənməz həyat və enerji ehtiyatına malik olmaları meydana çıxır. Belə fellərə nümunə olaraq aşağıdakı birləşmələri misal göstərə bilərik:

To fly off the handle - hirslənmək, to fly low – özünü göstərməyə çalışmaq, to fly in the face of – meydan oxumaq, to fly at high game – şöhrətpərəst olmaq, to fly arms – silahlara sarılmaq, to fly to the head – beyninə vurmaq; to jump the queue - növbəni pozmaq, to jump at the bait – tələyə düşmək, to jump into one's clothes – tələsik geyinmək; to come home

- hədəfə düşmək, to come to life – özünə gəlmək, to come to good – yaxşı nəticə vermək, to come up smiling – bədbəxtliyi dəyanətlə qarşılamaq, to come to light – aşkar olmaq, to come to the point - əsl məsələdən danışmaq; to fall flat – baş tutmamaq, to fall from grace – günah etmək, to fall into a habit – öyrəşmək, to fall out of a habit – tərgitmək, to fall short – müvəffəqiyyətsizliyə uğramaq, to fall to the ground – yerlə yeksan olmaq;

Belə feli birləşmələrə ingilis dilində olduğu kimi bir çox başqa dillərdə də görmək olar.

Fel əşyanın hal-vəziyyət, təfəkkür, nitq, iş və hərərkət bildirən nitq hissəsidir. Fel şəxsə, kəmiyyətə, zamana, növə, tərzə və şəklə görə dəyişir. O, mürəkkəb xüsusiyyətlərə malik olan, əsas nitq hissəsidir. Fel malik olduğu qrammatik mənalar və həmin mənalar zəminində mövcud olan qrammatik kateqoriyalar, onların ifadə üsul vasitələri baxımından digər nitq hissələrindən fərqlənir.

Ingilis dilində fellər morfoloji quruluşlarına görə dörd yerə bölünür: sadə fellər (simple verbs), düzəltmə fellər (derivative verbs), mürəkkəb fellər (compound verbs), tərkibi fellər (phrasaL verbs).

Bir kökdən ibarət olan fellər sadə fellərdi: to fly, to do, to come, to play, to show, to finish. Suffiks və prefikslə düzələn fellər düzəltmə fellərdir: to classify, to demonstrate, to characterize, to identify, to mispronounce, to enrich, to disapprove. Iki kökdən ibarət olan fellər mürəkkəb fellərdir: to overtake, to broadcast. Fel və zərfdən ibarət olan fellər tərkibi fellərdir: to take off, to give up, to go on, to put on, to sit down. Ingilis dilində tərkibi fellər işləndiyi zərflərlə birlikdə felin mənasını dəyişir. Bəzi tərkibi fellər də vardır ki, onların tərkibindəki komponent həmin mənanı vermir. Məsələn: to bring up – böyütmək, to make over – bağışlamaq, to look about - ətrafa baxmaq. Elə tərkibi fellər də vardır ki, onların tərkibindəki komponent öz əsas mənasını saxlayır. Məsələn: to go away – çıxıb getmək, to stand up – qalxmaq(ayağa), to carry through – başa çatdırmaq, to jump over – üstündən hoppanmaq.

Dilçilər öz tədqiqatlarında bildirirlər ki, leksik – frazeoloji tipli fellər mürəkkəb fellərə oxşayır. Onların birinci tərkib hissəsi isim, yaxud nadir hallarda substantivləşmiş sifət, ikinci tərəfi isə feldir. Amma ikinci ünsürünün qrammatik funksiyası yerinə yetirdiyi mürəkkəb feldən fərqli olaraq, leksik – frazeoloji tipli idiomun tərkibindəki felin obrazlı mənası olub, bütün birləşməyə məcazi məna verir. Məcazi mənalı felin dəqiq olaraq müəyyən sayda sözlərlə işlənməsi bütün birləşməyə sabitlik verir.

Ingilis dilində tərkibi fellər iki, üç və ya bir neçə sözdən ibarət olan fellərdir. Birinci söz fel olmaqla, digəri isə sözönü və zərf, eləcə də, hər ikisi ola bilər. Bu zərflər və sözönülər “partikl” adlanır.

Tərkibi fellər üstünə bir neçə partikl əlavə etməklə idiomatik, semantik və sintaktik vahid kimi özünü göstərən fellərdir. Belə feli birləşmələr potensial olaraq güclü tekst növünün göstəricisi kimi eyniləşdirilmişdi.

Azərbaycanda istifadəyə verilən bir çox lüğətlərdə ingilis dilli fellərin başqa leksik vahidlərlə birləşmə əmələ gıtirməsinə aid kifayət qədər feli birləşmələr və cümlələr verilmişdir. Biz felin birləşmə əmələ gətirmə qabiliyyətini eyni zamanda onların valentliyinin müəyyənləşdirilməsində əsasən həmin materiallara əsaslanırıq.

Beləliklə, feli birləşmələrdən danışarkən onun bir çox xüsusiyyətlərini göstərdik. Sabit və sərbəst feli birləşmələrdən bəhs edərkən bu birləşmələrin hər iki cəhətdən müxtəlif sistemli dillərdə üstünlük təşkil etdiyinin şahidi olduq. Xüsusilə də bu cur birləşmələrin frazeologiya sahəsində daha çox üstünlük təşkil etdiyini və daha çox feli frazeoloji birləşmələrinin tədqiqinə yer ayrıldığını müşahidə etdik.

Ədəbiyyat

1. Bayramov. H.A. Azərbaycan dili frazeologiyasının əsasları, Bakı, “Maarif”, 1978, 176s.
2. Bayramov. H.A. Azərbaycan dilində sabit söz birləşmələri. Feli sabit birləşmələr. Dilçilik məcmuəsi, Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri, XIVc. Bakı, 1960, s. 67-69
3. Axundov A. Ümumi dilçilik. Dilçiliyin tarixi, nəzəriyyəsi və metodları, Bakı, “Maarif”, 1988, 263s.
4. Budaqova Z.İ. Birinci tərəfi feli bağlama ilə ifadə olunan feli söz birləşmələri. Dilçilik məcmuəsi, Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri, XIVc. Bakı, 1960, s. 67-69
5. Arnold I.V. The English word. 1986, 265 p.
6. Bolinger D. The Phrasal Verb in English. Cambridge: Hardvard University Press 1971
7. Simpson R., and Mendis D.A. Corpus-based study of idioms in academic speech. TESOL Ouarterly, 37 (fall) 419-444 ş
8. İngiliscə - azərbaycanca lüğət. O. Musayev. Bakı – 2003, 1673 s.

Т. Хамидова

Глагольные фразеологические словосочетания в английском языке

Резюме

В данной статье речь идет о ведущей роли глаголов в глагольных соединениях. Указано, что глагольные соединения, состоящие из имен и глаголов, образованы из слов с самостоятельным значе-

нием, также как и все словосочетания и глагольные соединения. В образовании глагольных словосочетаний стороны соединения имеют огромное значение. В статье отмечено, что в «Азербайджано-английском» и «Англо-азербайджанском» словарях приведено достаточно примеров – предложений и глагольных соединений о формировании англоязычными глаголами соединений с другими лексическими единицами. Свойство глагола образовать соединение, а также определение их валентности основаны на указанные иллюстративные материалы. Таким образом, говоря о глагольных соединениях, мы отметили целый ряд их особенностей. При изучении устойчивых и самостоятельных глагольных соединений мы стали свидетелями того, что эти соединения обладают преимуществом в разносистемных языках. В частности, мы также стали свидетелями того, что эти соединения обладают большим преимуществом в фразеологии и уделено место изучению глагольных фразеологических соединений.

T.Hamidova

Verbal Phraseological word combinations in modern English
Summary

This article describes the leading role of verbs in word combinations. As all word combinations, as well as all verbal combinations are formed of words with independent meaning, it was indicated that the verbal combinations consisting of names and verbs were also formed of independent words. It is stated that the meaning of the parties included in the combination is of importance in formation of verbal word combinations. It was noted in the article that “sufficient verbal combinations and sentences – examples were given in Azerbaijan-English and English-Azerbaijan vocabularies relating to English verbs forming combinations with other lexic units”. It is noted that mainly those illustrative materials were based in determination of ability of verb to form combination and at the same time their valence. As such, while speaking about the verbal combinations, we determined many features of it. While describing the fixed and free verbal combinations, we witnessed that this combination was preferred tin various systemic languages in both points. Especially, we observed that such combination prevailed in the field of phraseology and more place was allocated for study of verbal phraseological combination.

Rəyçi: Arif Hüseynov
filologiya üzrə elmlər doktoru, professor

LALA HUSEYNOVA
Western Caspian University/Linguistics 418
lala.huseyn94@mail.ru

THE PREPOSITIONS OF TIME IN ENGLISH AND THEIR EXPRESSION IN AZERBAIJANI

Açar sözlər: Sözönü, İngilis dili, qrammatika, istifadə, isim, əvəzlik, vaxt, yer, cümlə, misal
Key words: Preposition, English, grammar, use, noun, pronoun, time, place, sentence, example
Ключевые слова: Предлог, Английский язык, грамматика, использование, имя прилагательное, местоимение, время, место, предложение, пример

Definition of preposition

As a functional part of speech **preposition** denotes a relation between two notional parts of speech.We generally use prepositions in front of nouns and pronouns and that's why they show the relationship between them or other words, phrases and sentences.A prepostion is not preposition without a related noun or pronoun.It always must be followed by nouns, pronouns or noun phrases, not by subjects, verbs, and etc.

Some new English language learners find prepositions so tricky.They might be dificcult even for most advanced learners.Because there is no definite rule to identify or choose them easily.In the beginning stage of the learning the English language one must try to identify the preposition during reading or listening and recognize their usage correctly.One of the prepositions could give us several meanings in translation to our native language.There are hardly rules exactly to know when to use which preposition.Unfortunately there is no reliable rule to determine the use of prepositions.Which preposition to use with the specific words and word combinations.The best way is to learn which preposition is used with which words (nouns). Students and language learners only must pay attention on the following rules:

- Prepositions are used to indicae a relationship between two words of sentences;
- Not to forget that the prepositions are followed by nouns;
- Ending sentence with a preposition is not a grammatical mistake.

Such as in example:
The duck swam across the river.

In the given example the preposition "across" connects a word (noun) *river* with a word (verb) *swam.*Tells us about the relationship between them.

Learning them and using them correctly in the sentences requests practises.The old sometimes claime that prepositions are only have to be used in the beginning of the sentences.But certainly it is not true.Even some writers insist that such kind of sentences cannot be considered as correct and natural sentences.Let's analyse following examles:

Whom are you waiting for? – Grammatically correct and natural sentence

For whom are you waiting? – Grammatically correct but unnatural

Prepositions are short words that stand in front of nouns, pronouns and used to indicate direction, position, place (location) and time, or just introduce something.More clearly prepositions tell us where some object is or when something happened.Some of them have different definitions, the meaning can change, so it depends on the context.

The prepositions using as:

- Words describing location or place of physical world.There are some examples below:

*My cat is **on** the floor;*

*My cat is **in** the kitchen;*

*My cat is **beside** the table.*

In these examples the prepositions "*on, in, beside*" show where my cat is, the exact location of my cat.

- Words denoting the time when something happens:

*We arrived **on** Saturday;*

*The meeting starts **at** 9:00;*

***After** marriage the Beckhams moved to Chicago.*

In these examples the prepositions "on,at, after" show the time of their arrival, the meeting and the movement of the Beckhams.

- Words describing the way in which something is done:

*He went **by** plane;*

*They understood each other **without** speaking*

In these examples the prepositions show how did he go and how they can understand each other.

Classification of preposition

We can classifie the prepositions according to their morphological and grammatical structures.

As to their morphological structure and meaning the prepositions are devided into:

1) **Simple prepositions** – *by, but, in, on, with, for,* etc.
2) **Derivative prepositions** – *during, beside, along,* etc.

3) **Compound prepositions** – *without, inside, upon,* etc.
4) **Composite prepositions** – *in front of, by means of,* etc.

As to their grammatical structure prepositions are devided into:

1) The prepositions of place; for instance:
in, on, under, to, across, below, towards, etc.
2) The prepositions of abstract relations; for instance:
in accordance with, because of, by, with, with a view to, etc.
3) The prepositions of time; for instance:
till, after, since, before, at, in, etc.

There are some **general prepositions** like: *for, in, by, at, on,* etc.These prepositions are used with all kinds of nouns and in sentences the meanings depends on nouns which these prepositions are used with.
For instance:
"in" –
Place: *Most of our relatives live in Moscow*
Time: *My master dissertation will finish in June*
Abstract relation: *She read the letter in detail*
"at" –
Place: *His birthday will be held at home next Monday*
Time: *Our lessons begin at 7 o'clock every evening*
Abstract relation:
"on" –
Place: *The book that I brought for you is on the table*
Time: *I have French courses every week on Wednesday*
Abstract relation: *Who wants to add something on this project?*
"for" –
Place: *The crew left for Baku last night*
Time: *They have known each other for five years already*
Abstract relation: *You have a great energy for putting us at positiveness*
"by" –
Place: *The school stands by the library*
Time: *My smartphone was charged by 40 minutes*
Abstract relation: *All poems are leraned by heart*

There are also some other prepositions which are called as "special prepositions".They are used mostly with nouns of certain meaning of time, place and abstract relations.Special prepositions of time:
before, untill, till, after, since, during
Special prepositions of place:
in front of, among, behind, across, below, along, beside
Special prepositions of abstract relations:
because of, in spite of, with a view to, owing to

The place of preposition

As we know that normally the prepositions are used between two words and denote relationship between them, but there are some cases that the prepositions can be seperated from the refering words and take the initial, middle or final position of the sentences.Examples:

By *whom is this article written?*
A student the teacher told us ***about*** *is Helen.*
What are you thinking ***about****?*

Homonymy of Prepositions

Some of the prepositions have homonymous features with adverbs (down, near, etc.), conjunctions (till, since, etc.), participles (including, following, etc.) Homonymous words can be distunguished according to its meaning and certainly with position in the sentence. Examples:

"down" –
The ball rolled down the street (preposition)
She felt a bit down yesterday (adverb)
"near" –
The school is near to living district (preposition)
The dissertation deffence is near (adverb)
"since" –
I have worked there since 2011 (preposition)
The book is published last month and has been sold enough since (adverb)
"following" –
Following is you so answer to my question please (preposition)
Are you following weather broadcast? (participle)
"including" –
This event made us happy including Sarah (preposition)
I'm including this topic to hometasks too (participle)

There are also some prepositions like "in, up, on, by, of, over, etc." have homonymous characterictic features with postpositions. But the main differences between them are:

1) prepositions are unstressed but postpositions have stress;
comparison: **in** the box – give **in**
on the table – come **on**
2) prepositions denote the relation between nouns and pronouns but postpositions are part of composite verbs;
comparison: **for** me – to look **for**

for speaking – to search **for**

3) prepositions cannot affect to the lexical meaning of verbs but postpositions can;

comparison: The child was took **up** the hill (prep.)

Jane **brings up** her children with books (post.)

Prepositional phrase

There exist more than 100 prepositions and they have endless posibilities to form **prepositional phrases**.

- Phrase – a group of words which both subject and verb are absent in it and functions as a single part of speech.
- Prepositional phrase – consists of prepositions plus noun or pronoun.

The prepositions can be found the prepositional phrases.One ultra-important issue is that you always have to use the prepositions while making the prepositional phrases.The prepositions generally introduce them.Such kind of phrases begin with a preposition and end with the notional parts of speech such as noun and pronoun, or with gerund and clause. The Prepositional phrases' structure be like:

Preposition + Optional modifier(s) + Noun/Pronoun or **Gerund**

Some examples of prepositional phrases:

At lesson – **at** preposition, **lesson** noun

In summer – **in** preposition, **summer** noun

From Jane – **from** preposition**, Jane** noun

With him – **with** preposition**, him** pronoun

By learning – **by** preposition**, learning** gerund

About what I want – **about** preposition**, what I want** noun clause

Prepositional phrases can also be functioned as adjectives and adverbs.We can expand them by adding adjectives and adverbs.The prepositional phrases usually include just important ingridients (prepositions and objects of the prepositions), but despite the fact that such kind of prepositional phrases are started with prepositions and ended with nouns, they also include the adjectives and the adverbs.

✓ As an adjective the prepositional phrases answer the question *Which one?*

✓ As an adverb the prepositional phrases answer the questions *How?When?* and *Where?*

Examples:

The onions in the vegetable bin are green with mold.
Which onions? That ones forgotten *in the vegetable bin*
Before exam Bill begged his groupmates for a pen.
When did Bill do his begging? *Before exam*
Lucy is tired enough from yesterday's general home cleaning.
How did Lucy get tired? *From yesterday's general home cleaning*
Feeling happy we tried to organize fabulous birthday party for Tom at our office.
Where did we try to orginaze birthday party? *At our office*

The used literature:

1. Oruj Musayev Turksever – The contemporary grammar of the English language
2. V. L. Kaushanskaya – A grammar of the English language
3. www.chompchomp.com/terms/prepositions/phrases
4. www.english-grammar-revolution.com
5. https://en.oxforddictionaries.com/grammar/prepositions
6. www.talkenglish.com
7. www.grammarbook.com
8. www.ego4u.com
9. www.grammarly.com

L.Hüseynova

İngilis dilində zaman bildirən sözönüləri və onların Azərbaycan dilində ifadəsi

Xülasə

"Sözönülər" İngilis dilinin morfologiyasında öz funksionallığına görə böyük əhəmiyyət kəsb edir. Sözönülər İngilis dili qrammatikası üçün səviyyəvi olub cümlənin daxilində iki əsas nitq hissəsi arasında əlaqə yaradır. Əsasən isim və əvəzliyin qarşısında işlənirlər. İsim və ya əvəzlikdən sonra gələn digər sözlərlə onları bir-birinə bağlayır. Sözönülər heç vaxt isim və əvəzlikdən ayrı yazılmır. Onların vasitəsilə zaman, yer, vasitə və digər məna çalarlarını ifadə etmək olar. Bu məqaləni yazmaqda məqsədimiz İngilis dili üçün səciyyəvi olan Sözönü mövzusunun dilimizdəki işlənmə yerini və tərcüməsini göstərməkdir. Həmçinin Azərbaycanlı, əsasən də İngilis dilini yenicə öyrənməyə başlamış tələbələrə, sözönülərin düzgün işlənmə qaydalarını, onların cümlədəki yerini, işlədilmə məqsədini və yaratdıqları söz birləşmələrini çatdırmaqdır. Sözönülər dilimizə fərqli

tərcümə olunmaqla yanaşı, işlənmə yerləri də fərqlidir. Bütün bunlar məqalədə ətraflı şəkildə öz əksini tapmışdır.

Л. Гусейнова

Предлоги в английском языке и их изложение в азербайджанском языке

Резюме

Предлоги своими функциями занимают важное место в Английской морфологии. Предлоги были характерными для Английской грамматики, образуют связь в предложении между двумя главными членами предложения. Употребляются в основном перед существительными и местоимериями. Связывает их между собой другими словами, идущими после ними. Предлоги никогда не пишутся раздельно от существительных и местоимений. Посредством предлогов можно выражать значения времени, места, средства и другии смысловые оттенки. Целью нашей статьи является изучение способов использования предлогов и их эквивалентов на Азербайджанском языке. Кроме того, ознокомить студентов, особенно тех которые только что начинают изучать Английский язык, с правилами использования предлогов, с их позицией и целью использования в предложении. Они не только переведятся на Азербайджанский язык по разному, а также имеют различные позиции использования. Все это в деталях отражено в статье.

Rəyçi: Fikrət Cahangirov
filologiya üzrə elmlər doktoru, professor

GÜNAY AĞAYEVA
ADU
gunayagayeva@mail.ru

FİTONİMLƏRİN METAFORIKLƏŞMƏSİ

Açar sözlər: fitonym, metafor, antroponim
Key words: Fitonym, metaphor, antroponim
Ключевые слова: фитоним, метафор, антропоним

Müxtəlif dillərdə mövcud olan bir çox botanika terminlərində bitkilərə verilən adların semantik xüsusiyyətləri bu və ya digər dərəcədə onların müəyyən əlamətləri ilə ifadə olunur. Çünki bitki adlarının əksər hissəsi xalqın təbiət müşahidəsi və bitkilərin hər hansı bir fərqləndirici əlamətləri əsasında verilir. Məsələn, Azərbaycan dilində olan "quzuqulağı" və "turşəng" bitkiləri eyni bitki adı olmaqla həmin bitkiyə xas olan iki əlaməti özündə əks etdirir; birinci halda onun forması, xarici görünüşü, ikinci halda isə onun keyfiyyəti, dadı əsas götürülmüşdür (4,23). Göründüyü kimi, bitki adlarında bu xüsusiyyəti tez-tez müşahidə etmək olar.

Bitki adları dilçilikdə "fitonimlər" də adlanır. Botanika elmində "fitonimlər və ya botasemiya" terminləri geniş yayılmış linqvistik prosesdir ki, bitki adlarında özünü biruzə verir. Onlar daxili və xarıcı bənzərliyinə, habelə əlamətin bənzərliyinə, oxşarlığına əsaslanan məna metaforik bitki adlanır (1). Metaforanın ən sadə növü tam xarici bənzərlik əsasında yaranır. Məsələn, *calabash* (boranı, balqabaq) sözü bitki adı olmaqla bərabər həm də b*aşı boş* adama zarafatla deyilir, çünki boranının ds içi boş olur, yaxud da *pepper* (istiot) sözü acı olduğu üçün bəzən insanlara da *pepper* deyilir, çünki belə insanlarda acılayıcı, yandırıcı, zəhərləyici xüsusiyyət olur. Başqa misal, *carrot* (yer kökü)- sarı rəngdə olduğundan sasrı rıngli insanlara da *carrot* deyə müraciət olunur.

Canlılar cansız əşyaya məxsus əlamətlərlə səciyyələndirilir, məsələn, lilylovered (zanbaq adı ilə bağlı olsa da insanları səciyyələndirir, "qorxaq" mənasında işlədilir); *rose* (qızıl gül) bitki adı insanların, xüsusilə qadınların, qızların gözəlliyini səciyyələndirmək üçün deyilən sözdür.

Bəzən də cansızlar canlılara məxsus əlamətlərlə səciyyələndirilir.

İngilis dilində olan bəzi bitki adları heyvan adları əsasında düzəldilir. Bir çox dillərdə özünü göstərən bu fakt heyvandarlığın əkinçilikdən əvvəl olduğunu sübut edir (3,45). Məsələn, *cow-berry (mərsin), bird's eye (zolaqlı yarpaqları olan ağac), bird's foot (qazayağı), duck weed (su gölü), duck wheat (qarabaşaq), doqviolet (yabanı bənövşə), ox-eye daisy (çobanyastığı), horsetail //maris tail (qatırquyruğu // pərpətöyün),*

doqcabbage (teliqonum), doq bramble (it burnu), doq's tongue (köpəkdili otu), doq's tooth (it dişi otu), goat's rue (keci məməsi), hoqplum (donuz gavalısı - Azərbaycan dilində bu bitki adı eşşək gavalısı da adlanır), horse chestnut (at şabalıdı), mouse tail (siçan quyruğu), pigeon pea (kayanus) və s.

Metaforikləşmə nəticəsində ingilis dilində çoxlu mürəkkəb sözlər yaranmışdır. Məsələn, *flowbell (zəngir otu), candock (sarıdolça), marigold (məxmər gülü), coprose (vəhşi lalə), weeping willow (salxım söyüd), hop-bine (maya otu), chickweed (qara mixək), black-berry (böyürtkən) və s.*

Fitonimlər (bitki adları), əsasən ismi və feili olmaqla iki böyük qrupa bölünür: ismi fitonimlər: *bell flower//hair bell(zəng çiçəyi), dogviolet (vəhşi bənövşə),com flower (peyğəmbər çiçəyi), hearts eye (antiner gözü), maylily (inci çiçəyi), madonna lily (zanbaq), sword lily (qarğa soğanı) və s.*

Feili fitonimlər azlıq təşkil etsələr də, yenə də ingilis dilinin tərkibində var. Məsələn, *forget-me -not (məni unutma), touch - me- not (küsdüm gülü) blue bell (zəngir otu*) və s.

Bənzərlik əsasında məna köçürülməsi hadisəsi bütün dillərdə özünü göstərir. Bu ümumdil hadisəsi bütün dillərə və bütün üslublara xasdır. Müqayisə ilə metaforanı fərqləndirərkən Yan Parandovckinin fikri ilə razılaşırıq: "...Müqayisə olmadan da, xüsusilə nəsr əsərlərində - ötüşmək mümkündür, hətta şüurlu surətdə də müvəffəqiyyətlə onu (müqayisəni) işlətmək mümkündür... Lakin heç kəs metafordan yaxa qurtara bilməz (5,72).

Metafor insan təfəkküründə məxsus belə bir qanunuyğunluqla əlaqədardır:hər bir yeni (əşya, hadisə) köhnə ilə müqayisə əsasında dərk edilir. Əlamət bənzərliyini görə məna köçürülməsi hadisəsi bütün dillərə məxsus linqvistik hadisədir. Lakin bu hadisə hər dilin tarixi və milli xüsusiyyətləri ilə əlaqədar müxtəlif tərzdə öz ifadəsini tapır (2,27).

Şəhriyar məşhur "Heydər babaya salam" əsərinə "Şərhlər və izahlar" əsərində yazır: "Novruz gülü" və "Qar çiçəyi" ilk baharda əriyib getməkdə olan qar altından iki gözəl çiçəyin adıdır. Birisi bənövşə rəngli libas geymiş həyalı və utancaq gəlinə bənzəyir, ikincisi isə ağ geymiş şən və fərəhli aşiqi xatıladır. Bu iki çiçəkdən biri bitdiyi vaxtla (novruzda), digəri isə qarla əlaqədar "qar çiçəyi" adını almışdır. Bu bitki müxtəlif xalqlarda müxtəlif əlamətə görə adlandırılmışdır. Hər xalq bu çiçəyin xüsusiyyətinə əsaslanmışdır. Ruslar çiçəyin bitdiyi yeri (qar altından çıxan), almanlar onun formasını (Scheneigfockchen - hərfən "qar zınqrovu deməkdir), fransızlar hərəkət tərzini (penceneige - hərfən "qarı deşən, qar altından çıxan" deməkdir, ingilislər isə daha başqa xüsusiyyətini (snow drop - hərfən "qar damcısı" deməkdir) əsas götürmüşlər (6,56).

Müxtəlif dillərə məxsus fitonimlərin məcazi mənalarındakı bənzəyiş dilin hər yerdə ünsiyyət vasitəsi, fikrin ifadə vasitəsi kimi

xüsusiyyətilə əlaqədardər. Dillər arasındakı fərqlər isə hər dilin səciyyəvi inkişaf tarixinin nəticəsidir.

İngilis dilində lüğət tərkibinin zənginləşməsində fitonimlərin metaforik tərzdə işlənməsi bəzən çoxmənalılıq, bəzən də omonimlik yaradır. Məsələn*, siren (hava həyəcanı siqnalı), poppycock (cəfəngiyyat), rose (gözəl), lily schools (zəngiləri qəbul etməyən məktəb), pink (yüksək səviyyə), pine-apple (hərbdə:əl qranatı), lily-lovered (qorxaq), calabash (boranı, balqabaq- Amerikada zarafatca "boş baş, kəllə" deməkdir), carrot (sarı rəngli adama deyilir), oak (tələbə otağından ümumi otağa çıxan qapı), pepper (zəhərləyən, acı söz deyən, adamı ilan kimi sancan adama deyilir), aloe (acı, təəssüfləndirici həyat), mahagony (stol, eyni zamanda "taxtabiti" də deyilir) və s.*

Rənglərinə görə də metaforik cəhətdən yaranan fitonimlər lüğət ehtiyının zənginləşməsində böyük rolu vardır. İngilis dilində fitonimlər əsasən black, red, white, olive, yellow və s. kimi rəng adları ilə düzəlir. Bu sözlər metaforik mənada çıxış etməklə müxtəlif anlayışların ifadəsinə xidmət edir. Məsələn*, rose (qırmızı rəng) , old rose (tünd qırmızı rəng), black thorn (qara tikan) , poppy colour (qırmızı lalə rəngi), poppy red (sarı qırmızı rəng), pansy (parlaq zanbaq rəngi), citron (limon rəngi), black currant (qara qarağat), red currant (qırmızı qarağat), death cup (ölü rəngdə alaq otu), labiate (dodaq rəngdə ağac), olive (zeytun rəngi), white willow (ağ söyüd), blue bell (zəng çiçəyi), pistachio (yaşıl rəng), ash (kül rəngi), black poplar (qara qovaq), black wheat (qarabaşaq)* və s.

Verilmiş misallardan göründüyü kimi, bəzi fitonimlərin adlarında olan rənglər onların adlarını müəyyənləşdirir, bəziləri isə həmin bitkinin ya meyvəsinin, ya yarpağının, ya da ağacının rənginə görə adlandırılır. Ümumiyyətlə, hər iki xüsusiyyət fitonimlərin rənglərini təyin etməyə xidmət edir. İngilis dilinin lüğət tərkibində fitonimlərin yaranmasında onomastik vahidlərin də rolu az deyildir. Dildə mövcud olan xüsusi adların cəmi onomastikanı təşkil edir. Onomastika hər hansı bir dildəki xüsusi adların məcmusudur. Onomastik vahidlər ingilis dilinin inkişaf mərhələsində bitki adlarına da təsir edərək, insan adları və yer adları ilə müəyyənləşir. Bir qrup bitki adlarına verilən antroponimlər (şəxs adları) həmin bitkini tapan şəxsin adı ilə adlandırılmışdır (2,23). Məsələn*, jeordia pine (bataqlıq şamı), gipsy rose (şkabloza), John' s wood (qoyunqıran//çobansüzgəci//dazı arağı və s.), Johnson grass (Conson otu), Kafir lily (kliviya//Kafir zanbağı), Adam's needle (voloknistaya) və s.* Fitonimlərin bir qismi ya nominativ, ya da məcazi mənada sinonimlik münasibətində olur. Məsələn*, osier//willow (pişpişə), oak apple //oak fiq//oak gall//oak nut//oak wart (palıd qozası), oak forest//oakery//groke (palıdlıq), pine forest//pinary (şam meşəsi), olive//olivette//olive tree (zeytun ağacı), linden//line tree (cökə ağacı), roasy*

coloured//rosy (cəhrayı rəng), daffodill//narcissus//daffodilly//verbena (nərgiz), pink//carnelian (qərənfil), bluebell//campanula (zəng çiçəyi), violet//pansy (bənövşə),maize//corn (qarğıdalı), mimosa//touch-me-not//volime tongue (küsdüm gülü), laurel//bay (dəfnə), camomila//ox-eye daisy (çobanyastığı), grain//corn (taxıl), marigold//evergreens (həmişəyaşıl), iris//flag (süsən), sloe//black thron (göyəm), coltsfoot//foalfoot (dəvədabanı), butter cup//yellow cup (qaymaqçiçəyi), lucerue //alfalfa (qarayonca) və s. Dünyanın 20 mindən çox bitki növünün 4200-dən çoxu dərman bitkiləri üçün yaralıdır. Neçə illərdən bəri müxtəlif xəstəliklərin müalicəsində dərman kimi işlənən bitkilər günü-gündən artır (3,57).

İngilis dilində ədva kimi işlənən bitki adları və bitkilərlə əlaqədar anlayışları ifadə edən sözlər də olduqca çoxdur. Diqqətlə nəzərdən keçirdikdə , belə nəticəyə gəlmək olar ki, ədva kimi işlənən bitki adları mənşə və quruluşuna görə çox rəngarəngdir. Belə sözlərin bir qismi həm də ingilis dilinin öz ehtiyatı hesabına düzəlmişdir, bir qismi isə başqa dillərdən alınma sözlərdir və bunların quruluşunu, mənşəyini aydınlaşdırmaq üçün xüsusi dərin tədqiqata ehtiyac yoxdur. Məsələn, *pussy willow (pişpişə), oak (palıd), pine (şam), doq ood (zoğal), elm (qarağat), fir tree (küknar*) və s. kimi bitki adları həmin adlarla tanınan bitkilərin bu və ya digər bir xüsusiyyətini ifadə edən sözlər əsasında düzəldilmişdir, həm də bu sözlərin mənası hamıya məlumdur, belə ki, hər xalq öz dilinə məxsus həmin ağaclara ad verir(4,56). Lakin *cocou (kakao), lemon (limon), tea (çay), caruum//cinnamon (darçın), allspice (mixək), saffron (zəfəran), anise (raziyanə), ginger (zəngəfil), caraway (zirə, cirə) və s. bu kimi ədvaların adlarını bildirən alınma sözləri çətinlik çəkmədən tanımaq olur (4,57).* Xassələrinə görə də fitonimlər metaforikləşir. Belə ki, *duck weed (su gölü) -göldə bitdiyindən onu ördəklər yeyir, poplar (qovaq) - pop-(uçmaq)+l+ar (şəkilçi)- bu ağacın meyvələri toza oxşar təbəqə ilə örtülür, bunlar may ayında uçub ətrafı bürüyür, poppy (lalə) - yenə də kök morfem "pop" sözündəndir. Lalənin ləçəkləri öz-özünə qopub uçur+y şəkilçisi, sunflower (günəbaxan) - bu bitki günün cıxması ilə idarə olunur. Günəş hansı səmtə boylansa , bu bitki də həmin səmtə baxır, axşam gün batanda isə başını əyir, ləçəkləri büzüşür, cork tree//oak tree (düyür-düyür palıd ağacı - bu ağacın gövdəsini kəsdikdə, orada nə qədər düyüntülər olduğunu görərik (cork-düyüntülər), day-flower (günorta açılan gül) - adından da məlum olduğu kimi, bu gül ancaq gündüzlər açır, gecələr isə yumulur . Bu xassəsinə görə ona day(gün) +flower (gül) adı verilmişdir, defused (tez aşağı əyilən bitkidir), field pea (çöl noxudu) - field (çöl) + pea (noxud), ground nut (yer fındığı - araxis)- ground (yer) +nut (fındıq) və s.*

Beləliklə, bitkilərə və onların ayrı-ayrı növlərinə adların verilməsi hər bir xalqın tarixi, yaşayış tərzi, dünyagörüşü, etnopsixoloji amilləri ilə

bağlı olduğundan və onların ədəbi dilin bütün sahələrində işlədilməsi ilə dilin lüğət tərkibinin xüsusi bir qatını təşkil etdiyindən bu tipli dil vahidlərinin linqvistik baxımdan araşdırılması elmi və praktik cəhətdən əhəmiyyətlidir. Cünki konkret bir dilin leksikasının tarixinin öyrənilməsinin daha düzgün yolu onun tematik qruplar üzrə tədqiq edilməsidir. Ona görə də , hər bir dilin lüğət tərkibinin müəyyən, həm də fəal hissəsini təşkil edən bitki adlarının müxtəlif dilçilik aspektindən araşdırılması, onlara aid dil faktlarının toplanması, tarixi-müqayisəli və tipoloji baxımdan böyük elmi əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

1. Azərbaycan dilinin izahlı lüğəti , Bakı, 1967
2. Qurbanov M.M. Azərbaycan dilinin onomalogiyası ,Bakı, 1988
3. Dəmirçizadə Ə. 50 söz, Bakı, 1968
4. Xalq təbabəti xəzinəsindən, Azərbaycan Ensiklopediyası, Bakı, 1992
5. Реформатский А.А. Что такое термин и терминология, Вопросы терминологии , Изд-во АНСССР, М., 1961
6. Гасымов М.Ш. Из истории образования и развития терминологии в Азербайджане,М., 1971
7. Akhmanova O. Linguistik Terminology, M., 1977
8. Afanasyeva O.V. Twelve Flowers of the Year,M.1997

Г.М.Агаева

Метафоричные фитонимы

Резюме

В статье описываются метафоричныефитонимы. Фитонимы - это простейшие метафоры. Они основаны на простоте вещей. Существует два типа фитонимов: номинативные и вербальные. В словаре английского языка имеется множествономинальныхфитонимов, и вербальных фитонимов меньше, чем номинальных.

Фитонимы употребляются в различных языках в различных формах, в зависимости от национальности. Благодаря употреблению метафор, существует множество составных слов. Все они обоснованы на языковых материалах и расширяют словарный запас.

Таким образом, поскольку присвоение названий растениям и их различным видам связано с историей, стилем жизни, мировоззрением, этнопсихологическими факторами каждого народа, и ввиду того, что они употребляются во всех областях литературного языка и составляют особый слой словарного состава языка, лингвистическое изучение

языковых единиц такого типа имеет научную и практическую важность. Поскольку наиболее правильный метод изучения истории лексики конкретного языка является исследование по его тематическим группам. Поэтому изучение различных аспектов лингвистики названий растений, составляющих как определенную, так и активную часть словарного состава каждого языка, сбор факторов о языке, имеющим к ним отношение, представляет собой большую научную важность с точки зрения сравнения истории и типологии.

G.Ağayeva

Metaphorized Fitonyms
Summary

The article deals with the metapforized fitonyms. Fitonyms is the simplyfied of metaphor. Metaphor is a transfer of name based on association of similarity and it is actually a hidden comparison. Metraphors is the commonest of all figures of speech. It gives vivacity and expressiveness to speech and is especially necessary when an accustomed term loses its force through familiarity. It is an effective semantic way contrabuting much to the expressive power of language. Metaphors based on the resemblance of colour of roses. So there are two kinds of metaphorical fitonyms: nominative and verbal. Nominal metaphorical fitonyms comprise much in English vocabulary, but verbal metaphorical fitonyms are less than nominal ones.

Metaphorical fitonyms are used in different languages in different forms depending on their nationality. There are many compound words due to the usage of metaphors. All of them are based on the language materials and enlarge vocabulary.

Rəyçi: Əzizə Haciyeva
Filologiya elmləri doktoru, professor

SEVINC ŞÜKÜRLÜ
AMEA-nın Nəsimi adına
Dilçilik İnstitutu

MÜASİR İNGİLİS DİLİNDƏ "PIS" KONSEPTLİ İFADƏLƏRİN LEKSİK -QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: pis, ifadə, konsept, qrammatik, feil,
Key words: bad, expression, concept, grammatical, verb.
Ключевые слова: плохой, выражение, концепт, грамматический, глагол.

Ictimai-sosial həyatda, bizi əhatə edən mühitdə "yaxşı", "pis" məfhumları daha çox işlənir. Yaşadığımız, həyat sürdüyümüz bu dünyada, ətrafımızda daim yaxşılarla bərabər pisliklərə də rast gəlirik. Cəmiyyətdə "pis" kimi dəyərləndirilən anlayışlar təbii ki, onların dilində öz əksini tapır. Müasir ingilis dilində "pis" konseptli ifadələrin verballaşmasına nəzər salmamışdan əvvəl, ümumiyyətlə, "pis" anlayışı haqqında filosofların, din xadimlərinin fikirlərinə nəzər salmağı lazım bilirik.

Fəlsəfədə, dində və dildə "pis" konsepti müxtəlif dünya alimlərinin tədqiqat obyekti olmuş, elm adamları tərəfindən hərtərəfli araşdırılmışdır (1;2;3;4;5;6).

İnsanı əhatə edən pisliklər özlüyündə iki yerə ayrılır: təbii pisliklər və əxlaqi pisliklər. Zəlzələlər, sel fəlakətləri, vulkanlar, daşqınlar kimi insan iradəsindən asılı olmayan hadisələri insanlar təbii pisliklər kimi qəbul etmişlər. Əxlaqi pisliklərə isə insanın iradəsindən asılı olan oğurluq, xəyanət və təcavüz kimi bəzi pisliklər aiddir.

Filosoflara görə, pislik özlüyündə bir varlığa sahib deyil. Pislik özbaşına bir reallığa sahib olmayıb, yalnız yaxşının yoxluğu, əskikliyidir (7). Filosof David Hümeyə görə, var olan hər şey Allahın əsəridir və Tanrı mükəmməl bir varlıq olduğu üçün onun yaratdığı varlıqlar da mükəmməldir. Bu səbəblə var olan hər şey özündə yaxşıdır. Pislik yaxşılıqdan sapmadır (8, 155) .

İslam mütəfəkkirləri də pislik anlayışına müxtəlif yöndən yanaşıblar. Dahi İbn Sina özlüyündə şər olmadığını, söyləyir. Alimin fikrincə, şər kamalın yoxluğundan yaranır (9).

Varlıqlar ən gözəl və ən kamil şəkildə yaradılmış olsa da, yenə də çirkin pis şeylərin var olduğu bir gerçəkdir. Bunların var oluş məqsədi isə onların əleyhdarı olan gözəl və yaxşının bilinməsidir. Məsələn, kasıblıq, pis bir şey olaraq qəbul olunursa, deməli onun əksi olan zənginlik yaxşıdır .

İngilis filosoflarının fikrincə, orta əsrlər xristian mütəfəkkirləri də fəlsəfi xətt baxımından Augustine və İbn Sinaya pisliyin özlüyündə bir varlığa sahib olmadığını düşünür. Pislik yalnız yaxşılığın əskikliyidir (10).

Bir şey, nə qədər yaxşıya sahibsə o qədər yaxşı, yaxşıdan nə qədər məhrumsa o qədər pisdir.

Filosofların fikrincə, pis deyilən şeylərin özlüyündə bir anlamı yoxdur və onlar yaxşılığın bilinməsi üçün bir vəsilədir. Aydınlıq qaranlıq vəsiləsiylə bilindiyi kimi, yaxşılıq də pislik vəsiləsiylə bilinir.

Filosofların fikrincə, əgər pislik olmasaydı, daha böyük yaxşılıqlar var olmazdı. Bu səbəbdən yaxşı ya da pis dediyimiz hər şey Tanrının inayəti çərçivəsində reallaşmaqdadır . Filosoflardan İbn Sina və Qəzali, istərsə İbn Rüşd və Tomas, aləmdə Tanrının pisliyə icazə verməsinin haqlı səbəblərinin olduğunu sübut etməyə çalışırlar. Onların fikrincə, pisliyin varlığı yaxşılığın bilinməsi üçün lazımlıdır.

Mütəfəkkirlər əksər hallarda pisliyi yaxşılığın əskikliyi olaraq götürürlər.

Tanrı, yaxşılıq və pisliyin ən uyğun tarazlığını ehtiva edən bu dünyanı yaratmağı seçmişdir. Hər nə qədər G.W.Leybnits, bu aləmin mümkün aləmlərin ən yaxşısı olduğunu söyləsə də Hume bu iddianın paradoksal olduğuna diqqət yetirməyə çağırır (11,220). Ona görə aləmdə lazım olduğundan çox pislik vardır və bu qədər pisliyi saxlayan bir dünyanın, mümkün dünyaların ən yaxşısı olduğunu iddia etmək düz deyil. Fikrimizcə, mütəfəkkirlər hamısı Tanrının kamil olduğunu, bu səbəbdən kamil olan bir varlığın əsəri olan bu aləmin mümkün aləmlərin ən yaxşısı olduğu nəticəsinə gəlmişdilər. Hume, yaşadığımız dünyadakı faktları əsas götürərək yaşadığımız aləmin mümkün aləmlərin ən yaxşısı olmadığı nəticəsinə gəlmişdir (8). Digər mütəfəkkirlər isə bu aləmin mümkün aləmlərin ən yaxşısı olduğu nəticəsinə gəlirlər.

Göründüyü kimi, filosoflar arasında fikir ayrılıqlarıda mövcuddur.

Müqəddəs kitablarda gizli də olsa pisliklə əlaqəli keçidlər mövcuddur. Bəla və müsbətin Tanrı tərəfindən insanları intizam etmək üçün "göndərdildiyi" və onları gizlidən gizliyə Tanrıya yaxınlaşdıran vasitələr olduğu dinlərdə də əks olunmuşdur.

Filosof David Humeni bu problemi araşdırarkən Tanrıya müraciət etmişdir: Tanrı pisliyin qarşısını almaq istəyir, gücümü çatmır? O halda o, gücsüzdür. Gücü çatır qarşısını almaqmı istəmir? O halda o, yaxşı niyyətli deyil. Həm gücü çatır, həm də yaxşı niyyətli isə, bu qədər pislik necə var olur? Əlbəttə ki, bütün bunlar alimin subyektiv fikirləridir.

Xristianlıqdakı əsl pislik anlayışı Adəmin günahından, nəsildən nəsilə keçməklə hər kəsin bir zərrə daşıması haqqındakı inancla əlaqəli bir

mövzudur. Xristianlığa görə, İsa peyğəmbər, insanlığı bu günahdan qurtarmaq üçün çarmıxa çəkilmişdir.

İslam dinində şərin mənasını və yerinin müəyyənləşdirilməsi də məntiqi bir zərurətdir. Pislik və şər problemi islam üçün də həmişə aktual olmuşdur. Müsəlman mütəfəkkirlər şərin var olduğunu demişlər.

Filosofların bu mövzudakı müzakirələrinin hansı nəticəyə gəlməsindən asılı olmayaqraq müxtəlif formalarda ortaya çıxan pisliklərin varlığı bir reallıqdır. Və bu reallıq təbii ki, dil daşıyıcılarının nitqində əks olunur.

Müasir ingilis dilində "pis" konseptində olan ifadələr söz birləşmələri və cümlələr şəklində, böyük əksəriyyəti isə feili birləşmələrdən ibarətdir. Belə ifadələrin birinci tərəfi həmişə feillərdən ibarət olur.

Bütün dünya dillərində olduğu kimi Azərbaycan dilində də ən zəngin nitq hissəsi feil sayılır. Feillərin milliliyi, çoxmənalılıq və məcazlığa malik olması onların "pis" konseptli ifadələrin tərkibində işlənməsini şərtləndirən əsas amillərdəndir. Müasir Azərbaycan dilində olduğu kimi, ingilis dilində də bu tip ifadələrin 99%-nin əsas nüvəsini feil təşkil edir.

Müasir ingilis dilindəki "pis" konseptli ifadələrin özünəməxsus qrammatik strukturu vardır. "Pis" konseptli ifadələr struktur cəhətdən bütöv olub, müxtəlif morfoloji xüsusiyyətlərə malik sözlərdən ibarətdir. "Dil faktları ikili təbiətə malikdir: bu, bir tərəfdən quruluşun özünün daxili qanunauyğunluqları, digər tərəfdən isə onların dilin cəmiyyətdə işlənməsini şərtləndirən reallaşmasının daxili qanunauyğunluqları ilə müəyyən edilir" (12,48). "Pis" konseptli ifadələr ən çox sabit ifadələr şəklində reallaşıdığı üçün N. N. Amosovanın bu sözlərində böyük həqiqət vardır. Hər hansı bir sabit ifadənin dildə qalıb yaşaması onun daxilindəki, strukturundakı qanunauyğunluqla bağlıdır. Sabit ifadələr bildiyimiz kimi, əsasən birləşmə tipində olurlar. Amma son illərin tədqiqatlarına əsaslanıb deyə bilərik ki, bəzi dilçilər dildə cümlə, söz, hətta, mətn səviyyəsində olan sabit ifadələrin varlığından söz açırlar. Təbii ki, "pis" konseptli sabit ifadələr müasir ingilis və Azərbaycan dillərində birləşmə və cümlə tipində olurlar.

Müasir ingilis eləcədə də Azərbaycan dilində "pis" konseptli ifadələr verballaşma nəticəsində nitqdə var olurlar. Bu tip ifadələrin yaranmasının əsas nüvəsini feil təşkil edir.

İngilis dilində "pis" konseptli sabit ifadələrin hansı leksik-qrammatik xüsusiyyətlərə malik olması ətrafında müxtəlif fikirlər formalaşmışdır. Atalar sözü və zərb məsəllər sabit ifadələr sistemində xüsusi lay təşkil edir ki, pis konseptində olan ifadələrin böyük əksəriyyəti məhz bu şəkildə olur. Deməli, pis konseptli ifadələr məhz sabit şəkildə olur. "Bu ifadələrin məcmuyuna aşağıdakı əlamətlər şamil edilə bilər: emosional-ekspressiv mənaya qarşı müxtəlif münasibətdə ola bilər; birləşmənin əvvəlki daxili

forması frazeoloji vahidə keçəndə qiymətverici səciyyə daşıyır, tərkibindəki ayrı-ayrı leksik ifadələr semantik yükünü zəiflədir və ümumi mənaya təhvil verir, dilin leksik sistemində yeni keyfiyyət daşıyıcısına çevrilir; dilin modelinə xas səciyyə qəbul edir; modelin semantik məzmunu ilə qrammatik strukturu arasında daxili qanunauyğun qarşılıqlı asılılıq yaranır, bu da ümumi qarşılıqlı qanunauyğun forma və məzmun arasında şərtlənməyə əsaslanır; sözlərin sırası sabit qalır; sözlərin tərkibində bəzən eynihüquqlu və ya sinonim sözlərlə əvəzlənmə müşahidə olunur; frazeoloji birləşmələrin xüsusi layını təşkil edən atalar sözü və zərb məsəllər heç bir başqa dilin deyil, məhz, milli dilin xüsusiyyətlərinə əsaslanan əlamətlərə malikdir; atalar sözü və zərb məsəllər sözə, anlayışa və cümləyə ekvivalent ola bilər, belə halda tam məcazlaşma prosesi keçirir"(13,5).

Öz inkişafı tarixində leksik tərkibində, qrammatik quruluşunda müəyyən dəyişikliklər baş verməsi baxımından pis konseptində olan ifadələrin əmələ gəlməsi yolları da müxtəlifdir. İstər adi nitqi, istərsə də bədii əsərlərin dilini canlandıran, onun təsirini, ifadəliyini artıran ifadələrin meydana gəlməsi məsələsi də olduqca maraqlıdır. Əsrlər boyu insanlar ətraflarında pis kimi görüb dəyərləndirdiklərini ifadələrdə əks etdirmişlər. Bunlar da nəsildən-nəsilə, dildən-dilə keçərək dövrümüzə qədər gəlib çıxmış, əsasən bədii ədəbiyyat vasitəsilə dildəki varlıqlarını sabitləşdirmişlər.

Ş.Balli yazırdı: "İnsanların hafizəsi söz qruplarını sözlərdən daha yaxşı saxlayır... Bunlar isə təkrarlandıqca sabitləşir" (14, 88). İngilis dilindəki "pis" konseptli ifadələr haqqında onu deyə bilərik ki, bu tip canlı, obrazlı ifadələr xalqın içərisində yaranmışdır. Bu onu göstərir ki, "pis" konseptli ifadələr xalqın həyatı, yaşayışı, adət və ənənələri, əxlaqi görüşləri ilə bağlı olaraq meydana gəlir. "Pis" konseptli ifadələrin mühüm bir hissəsi sərbəst söz birləşmələrinin məcaziləşməsi nəticəsində yaranmışdır. Hər hansı söz birləşməsinin ifadəyə çevrilməsi üçün hər şeydən əvvəl onun məcazi məna alması lazımdır. Belə ifadələr birdən-birə deyil, tədricən yaranır. Bu tip birləşmələr özünün ilk konkret mənasından uzaqlaşır, yeni məzmun, yeni keyfiyyət əldə edir (13,10)". Müəyyən bir anlayışa məcazi məna verən ifadə də zaman keçdikcə az da olsa üzərində dəyişikliklər gedir, ona hamının işlədə bildiyi bir forma verilir, hamı tərəfindən işlənib ümumiləşir, nitqdə möhkəmlənib tək-tək sözləri əvəz edir.

Müasir ingilis dilində "pis" konseptli sabit ifadələr müxtəlif qrammatik quruluşlu olur. Müəyyən qisim ifadələr "as və yaxud "as...as" ifadələri ilə düzəlir. Məsələn: *(as)black as one is painted-düşünüldüyü qədər pis olmaq. Young people are rarely black as they are painted in the media; As bad as all that-göründüyü qədər pis olmaq. Stop cryng. İt can`t be as bad as all that; (as)black as pitch-zülmət qaranlıq olmaq. The night was as pitch; (as) bilind as a bat –yarasa kimi kor olmaq. I`m getting blind as a bat. I can*

hardly read this page; (as)bold as brass-arsız, utanmaz, sifəti sintəlmiş olmaq. She went up to her lover`s wife bold as brass; As wise as before – suyu süzülə-süzülə qayıtmaq, ümidi boşa çıxmaq, əli ətəyindən uzun qayıtmaq. "As" bağlayıcısı təyin budaq cümləsini baş cümləyə bağlamağa xidmət edir, zaman budaq cümlələrində zaman, vaxt anlayışını bildirir, "-da, də , vaxt, zaman" kimi tərcümə olunur (15,73). "As" və "As...as" bağlayıcısı isə müqayisə bildirir. Azərbaycan dilinə "kimi, belə, elə, necə...elə, kimi, qədər" kimi tərcümə olunur. Bu bağlayıcı ilə düzələn ifadələr eyni keyfiyyətli əşyaların və hərəkətlərin müqayisəsini bildirmək üçün işlədilir. Sifət və yaxud zərf bu zaman adi dərəcədə olur.

Müasir ingilis dilindəki "pis" konseptli sabit ifadələrin böyük bir qismi "be" feililə ilə düzələnlərdir. Məsələn: *Beat each other's throats- bir-birinin boğazından tutmaq, kəskin mübarizə aparmaq; Beat smb. black and blue- kimisə vəhşicəsinə döymək, kimisə haldan düşənə qədər döymək, kimdəsə sağ yer qoymamaq, kiminsə bütün qabırğalarını qırmaq, sınmamış sümüyünü qoymamaq; Be at the end of one's rope- çətinliyə düşmək, çıxılmaz vəziyyətdə olmaq, son həddə qədər getmək, son nöqtəsinə çatmaq;Be at (or on) the receiving end- zərər çəkmək, fəlakətə düşmək;Be back in (or to) square one- heç nəyin yiyəsi olmaq, əvvəldən başlamaq, çox geriyə atılmış olmaq, hər şeyi itirmək, yıxılmış evin yiyəsi olmaq; Be beside oneself with smth- gözündə olmamaq, nədənsə başını itirmək; Be fed to the teeth -danış. Zəhlə tökmək, canını boğazına yığmaq; Be (or look) Green (or white) about (or around) the gills-1)sağlam olmayan, xəstə görünmək; 2) qorxmuş görünmək, qorxmuş görkəmli olmaq; Be hard put to it (for) – olduqca çətin vəziyyətdə olmaq; Be in a bad way -ağır, kritik vəziyyətdə olmaq, bərbad vəziyyətdə olmaq, heç nəyə yaramayan olmaq;Be in deep water(s) bibl. –çətin, ağır və ya təhlükəli vəziyyətdə olmaq; Be in hot water danış. –pis işi olmaq, çətin vəziyyətdə olmaq. danış.- pis işi olmaq (öz günahı üzündən); Be in low water -pulsuz olmaq, çətin vəziyyətdə olmaq; Be in smb`s. bad (or back) books- gözdən düşmək, pis qələmə verilmək;Be on its (or one's) last legs- son nəfəsində olmaq, axır günlərini yaşamaq; Be on tenterhooks -əzabla nəyisə gözləmək, qeyri-müəyyyənlikdən əziyyət çəkmək, iynə üstündə oturmaq; Be up to smth –nadincliyə, yaramazlığa başlamaq, nəsə yaxşı olmayan işə başlamaq.*

M. Əsədova müasir ingilis dilində "to be" feili ilə düzələn təxminən 62 ifadə göstərir. Bu ifadələrdən müəyyən qismi pis konteksində işlənir Məsələn, *to be nervous, to be in danger, to be tired* və s. (16,188). Məhz bu feil ingilis dilində geniş vüsət almışdır. "Be" feili müasir ingilis dilində 4 formada işlənir: 1. Tam formada "olmaq" şəklində; 2. Bağlayıcı feil kimi; 3. Modal feil kimi; 4. Köməkçi feil kimi. Tədqiqat nəticəsində belə məlum oldu

ki, ingilis dilində "pis" konseptli ifadələrin böyük əksəriyyəti məhz "be" feilinin 1-ci forması ilə düzəlir.

Digər bir qrup-pis konseptli ifadələr **"come"** feili ilə düzəlir. Məsələn: *Come a cropper - 1) yıxılmaq, düşmək (və əzilmək, zədələnmək); 2) müvəffəqiyyətsizliyə düşmək, çətinliyə düşmək; Come (or go) all to pieces- 1) itmək, məhv olmaq, insanlıq sifətini itirmək; 2) sökülüb dağılmaq 3) özünü, qəlb rahatlığını itirmək; 4) əsəbdən titrəmək; 5) sıradan çıxmaq, söhbətini korlamaq; Come (or go) down in the world- danış.pisliyə doğru dəyişmək, vəziyyəti itirmək; Come to a fine (or pretty) pass upon- yaxşıca işə düşmək, çox çətin vəziyyətə düşmək, çıxılmaz(ümidsiz) vəziyyətdə olmaq, ağ eləmək, işlər yaman xarabdır; Come up against a blank wall- soyuqqanlıqla rastlaşmaq, yardım, kömək almamaq.* "Come" feili ingilis dilində 3 formatda işlənir. 1. Əsl feil kimi. Əsas feil kimi işləndikdə "gəlmək, yaxınlaşmaq, keçmək, çatmaq, əldə etmək, baş vermək, qalmaq, çatmaq, rast gəlmək" mənaları daşıyır. 2. Forma isə onun bağlayıcı kimi işlənməsidir. Bağlayıcı kimi ismi xəbərin tərkib hissəsi olaraq işlənir. Pis komponentli sabit ifadələrdə isə təbii ki, öz həqiqi mənasını tamamilə itirir. *To come to good "pis nəticə verməк, pis qurtarmaq". To come to grief "xətaya/bəlaya düşmək",*

"Cry" feili ilə verballaşan pis konseptli ifadələr də ingilis dilində müəyyən bir lay təşkil edir. Məsələn: *Cry one`s eyes (or heart) out- hönkür-hönkür ağlamaq ağlayıb ürəyini başaltmaq; Cry stinking fish -danış. pis. mənfi. öz işini, yaxınlarını pisləmək, ləkələmək, evin sirrini bayıra çıxarmaq; Cry wolf –yalançı həyəcan qaldırmaq, yalandan köməyə çağırmaqla özünə olan etibarı itirmək(qırmaq) və s.* "Cry" feili ingilis dilində *"qışqırmaq, ağıamaq, səs çıxartmaq, yalvarmaq, cırıldamaq"* mənalarında işlənsə də pis konseptli ifadələrin tərkibində öz əsl mənasını tamamilə itirir. Məsələn, *"to cry over spilt milk"-düzəlməsi mümkün olmayan bir çey üçün kədərlərnmək.*

Pis komponentli ifadələrin ***"Cut"*** feili vasitəsilə veballaşması. Məsələn*: Cut off one`s nose to spite one`s face- danış. Pis. mənfi. danış. pis. mənfi. Acığından özünə ziyan vurmaq; Cut one`s own throat pis.mənfi.özü-özünün boğazını kəsmək, özünə pislik etmək, öz ölümünə bais olmaq, özünü məhv etmək, öz evini yıxmaq, başında oturduğu ağacı kəsmək; Cut smb. down to-size danışıq dili. Pis. Mənfi. Kimisə təngə gətirmək, ağzından vurmaq, kefinə soğan doğramaq; Cut smb`s throat (or the throat of smb.)-danışıq dilində-. Kiminsə boğazını üzmək, məhv etmək, kimisə müflis etmək; Cut smb. to the heart (or to the soul)- kimisə sancmaq, ürəyinə dəymək, kiminsə lap ürəyini qırmaq.*

"Put" feili ilə düzələn pis konseptli sabit ifadələr. Məsələn, *put it on "olduğundan fərqli görünmək, yalandan özünü göstərmək", put on an act "yalan dan rol göstərmək. hiyləgərliklə rola girmək", put someone or*

something "başından eləmək, əngəl olmaq", put someone or somrthing out "canını sıxmaq, üzüntü vermək" və s. (17,250).

"Pis" konseptli ifadələrin **"drive"** feili ilə verballaşması. Məsələn: *Drive (push or put) smb. to the wall- kimisə divara sıxmaq, kimisə ehtiyaca sürükləmək, kimisə divara sıxmaq, kimisə müflis etmək; Drive smb. up the Wall- danışıq dilində-. Kimisə qəzəbləndirmək, hirsləndirmək, kimisə boğaza yığmaq və s.* Tədqiqat apararkən rast gəldiyimiz maraqlı faktlardan biri də odur ki, "pis" və "yaxşı" konsepti ilə verballaşma baxımından heç də bütün feillər eyni statusa malik deyillər. Məsələn, sözü gedən **"put"** feilinin çox az bir qismi "pis" konseptli sabit ifadələrin yaranmasında iştirak edir.

Müasir ingilis dilində "pis" komponentli sabit ifadələrin yaranmasında fəal iştirak edən feillərdən biri də ***"go"*** feilidir. Richard Spears və Betty Kirkpatrick tərəfindən tərtib edilmiş ingilis dili deyimlər lüğətində ***"go"*** komponentli 119 "yaxşı" və "pis" komponentli sabit ifadə işlənmişdir. Bunlardan təxminən 50-si "pis" komponentli ifadələrdir. Məsələn, *go from bad to worse, " çox pis vəziyyətə düşmək", go down like a lead baloon " bacarıqsız olmaq, gülünc vəziyyətə düşmək", go out of one`s way "yolundan azmaq, hər zamankı yolunu dəyişdirmək"; go to hell and go to;go to the devil "cəhənnəmə qədər yolu olmaq", go into a tail-spin "özünü itirmək, yaşam tərzini itirmək"* və s.

Müasir ingilis dilində pis konseptinin ***"give, get, see, run, have"*** feilləri vasitəsilə verballaşması da çox aktiv şəkildə yayılmışdır.

Göründüyü kimi, hətta bəzi ifadələrin qarşısında məhz onun pis, mənfi çalarda işlənməsi də qeyd olunmuşdur. Araşdırmamızdan belə nəticəyə gəldik ki, müasir ingilis dilində işlənməş pis konseptində olan ifadələrin nüvəsini feillər təşkil edir və bu ifadələr verballaşaraq istər bədii-ədəbi dildə, istərsə də danışıq dilində işlənirlər.

ƏDƏBİYYAT

1. Yaran, C. S.Kötülük ve Theodise. Ankara: Vadi Yayınları. 1997.
2. McCloskey, H. J. God and Evil. New Jersey: Prentice-Hall , 1964.
3. Hick J., Evil and the God of Love. London: Macmillan Press, 1993.
4. Peterson M. God and Evil: An Introduction to the Issues. Colorado: Westview Press, 1998.
5. Aydın M.S. Tanrı-Ahlak İlişkisi. Ankara: TDV Yayınları, 1994.
6. Davies B.The Thought of Thomas Aquinas. New York: Clarendon Press, 1993
7. Werner, C. Kötülük Problemi. (Çev.Sedat Umran). İstanbul: Kaknüs Yayınları, 2000.

8. Hume D. Doğal Din Üstüne Söyleşiler, (Çev.: Mete Tuncay), İmge Yayınları, Ankara, 1995
9. İbn Sînâ, (1992). en-Necât. (Tah. Abdurrahman Umeyr). Beyrut: Dârul-Cîl.; 2004, Ankara: Metafizik, I, II.
10. Davies B. The Thought of Thomas Aquinas. New York: Clarendon Press,1993
11. Leizbniz G.W. Monadoloji, (çev. Suut Kemal Yetkin), M.E.B, İstanbul: 1997.
12. Амосова Н.Н.Современные состояние и перспектив фразеологии.«Вопросы языкознания». Москва: 1966, №3.
13. Sürek M. Müasir ingilis dilində feli frazeoloji vahidlərin leksik-semantik xüsusiyyətləri. Avtoreferat, Bakı – 2015 ,15 s.
14. Балли Ш. Французская стилистика. М.: Иностранная литература, 1961
15. İngiliscə Azərbaycanca Lüğət. Bakı: Şərq-Qərb, 2004
16. Əsədova M. Ingilis dili öyrənmə kursu.Bakı: Elm və təhsil, 2010.
17. Spears R.A. Kırkpatrick B. İngilisce deyimler sözlüğü. Bursa: İstanbul: 2003, 649 s.

S. Shukurova

The lexical-grammatical features of the “bad” conceptual expressions in modern English language

Summary

The lexical-grammatical features of the “bad” conceptual expressions in modern English have been investigated in the article. In the result of the research it was known that the “bad” conceptual expressions in English could be realized in the speech by means of verbs.

In verbalization of “bad” conceptual expressions verbs have an exceptional role. In the article, the “bad” conceptual expressions used in the Azerbaijani language have also been compared.

The scientific works in English, Turkish, Russian and Azerbaijani were used in the research.

С.Шукюрлу

Лексико-грамматические особенности концептуальных выражений со значением “плохой” в современном английском языке

Резюме

В статье исследованы лексико-грамматические особенности концептуальных выражений со значением “плохой” в современном английском языке. В результате исследования было известно, что концептуальные выражения со значением “плохой” на английском языке могут быть реализованы в речи с помощью глаголов.

Глаголы играют исключительную роль в вербализации концептуальных выражений со значением “плохой”. В статье также сравниваются концептуальные выражения со значением “плохой”, употребляемые на азербайджанском языке. В исследовании использованы научные работы на английском, турецком, русском и азербайджанском языках.

Rəyçi: Sayalı Sadıqova
Filologiya elmləri doktoru, professor

СЕВДА ИМАНОВА
АГУНП
Imanova.71@bk.ru

КОММУНИКАТИВНЫЙ МЕТОД ОБУЧЕНИЯ ИНОСТРАННЫМ ЯЗЫКАМ

Ключевые слова: метод, речь, иностранный , применять, общение, язык ,научить , говорить , правильно, коммуникация .
Açar sözləri: metod, nitq, xarici, tətbiq etmək ,ünsiyyət ,dil ,öyrətmək , danışıq, düzgün, kommunikasiya.
Key words: method, speech, foreign, apply, speech, language, to learn, speak, right, communication,

70-е годы ознаменовались появлением коммуникативного метода, основная цель которого - научить человека общаться, сделать так, чтобы его речь была понятна собеседнику. В соответствии с данной методикой, достичь этого можно, обучая человека в так называемых естественных условиях - естественных, прежде всего, с точки зрения здравого смысла. В основе коммуникативного метода лежит представление о том, что язык служит для общения и, следовательно, целью обучения языку должна быть коммуникативная компетенция, которая включает в себя языковую компетенцию (владение языковым материалом для его использования в виде речевых высказываний), социолингвистическую коммуникацию (способность использовать языковые единицы в соответствии с ситуациями общения), дискурсивную компетенцию (способность понимать и достигать связности в восприятии и порождении отдельных высказываний в рамках коммуникативно-значимых речевых образований). Характерные черты коммуникативного метода: основополагающим является смысл; научение языку это научение коммуникации; целью является коммуникативная компетентность (способность эффективно и адекватно использовать лингвистическую систему); путем попыток и ошибок учащийся взращивает собственную языковую систему.

Коммуникативный метод обучения иностранным языкам на сегодняшний день самый популярный в мире. И даже те, кто смутно представляет себе, в чем этот метод заключается, твердо уверены, что он-то и есть самый прогрессивный и самый эффективный метод обучения иностранному языку. Корни Коммуникативный метод возник в Британии в 60-70-х, когда английский язык начал приобретать статус языка международного общения. Выяснилось, что распространенные в то время традиционные методики (аудио-лингвальная, методика

грамматического перевода) перестали удовлетворять нужды большинства изучающих английский как иностранный. И требовалось им не глубинное, системное овладение изучаемым языком, на которое были направлены традиционные академические программы, а возможность немедленного практического применения своих знаний. Но выяснилось, что люди, учившие язык, чтобы на нем общаться, не владеют современной разговорной речью (не говоря о сленге), не имеют понятия о речевом этикете, - словом, чувствуют себя беспомощными в ситуации реального общения. В 1971 году группе экспертов было поручено изучить возможности создания системы обучения иностранным языкам взрослых обучаемых. Это явилось отправным пунктом целой серии исследований, нацеленных на разработку концепции, которая могла бы сфокусировать внимание на формировании и развитии способности общаться на иностранном языке в контексте личностно-ориентированного обучения. В результате сформировалась идея разработки пороговых уровней (threshold levels) как специфических целей овладения иностранным языком. Это позволило значительно расширить возможности практического использования разрабатываемого подхода на функционально-семантической основе и реализации основных принципов в нескольких направлениях: в разработке новых методик и создании новых учебных материалов, в создании комплексных технологических систем обучения (multi-media systems), в разработке систем оценки и самооценки, самообучения с учетом его индивидуализации (learner autonomy), в выработке рекомендаций для профессиональной подготовки преподавателей иностранного языка.В последующем, в 80--90-х годах, был осуществлен ряд научно-исследовательских проектов, которые имели своей целью формирование системы коммуникативного обучения. Важное место в их ряду занял Проект № 12: «Овладение современными языками и обучение им для общения» («Learning and teaching modern languages for communication»). Особое внимание в интегрированном коммуникативном подходе, систематизированном на основе теоретических разработок и практического опыта обучения иностранным языкам в Великобритании, Франции, Германии, Италии, Испании и других западноевропейских странах, уделяется коммуникативной направленности учебных занятий и используемым для обучения иностранному языку как средству общения учебным материалам. Были определены три уровня начального (базового) овладения языком:

у р о в е н ь «в ы ж и в а н и я» (survival level);

«н а пути к я з ы к у» (waystage level);

пороговый уровень (threshold level).

Определение пороговых уровней для ряда западноевропейских языков позволило разработать краткосрочные (до двух лет) проекты,

связанные с различными аспектами организации преподавания иностранных языков. Они, в частности, ориентированы на создание новых, дифференцированных учебных программ, на дальнейшую разработку коммуникативного подхода применительно к различным формам обучения, на теоретическое обоснование и практическую реализацию личностно-ориентированного и индивидуализированного овладения иностранными языками.Особенность деятельностного типа обучения заключается в том, что он по своему назначению и по своей сущности связан, прежде всего, с отдельным видом речевой деятельности, поэтому мы встречаем его широкое использование, когда речь идет об обучении чтению, аудированию, переводу и т.д. И только в одном из известных нам методов, пытающемся охватить обучение иностранному языку в целом, а именно в коммуникативном методе мы находим основные признаки деятельного типа обучения. Современный коммуникативный метод представляет собой гармоничное сочетание многих способов обучения иностранным языкам, находясь, наверное, на вершине эволюционной пирамиды различных образовательных методик.На современном этапе обучения иностранным языкам большинство педагогов-лингвистов самым эффективным считают "коммуникатив" и критикуют традиционные методики, работающие по принципу «от грамматики к лексике, а затем переход к упражнениям на закрепление». Искусственно созданные упражнения не формируют пользователя языка, и человек, изучающий язык именно по этой методике, скорее промолчит, чем произнесет неверную фразу. А «коммуникативность», наоборот, призван «развязать» язык. Грамматика же осваивается в процессе общения на языке: студент сначала запоминает слова, выражения, языковые формулы и только потом начинает разбираться, что они собой представляют в грамматическом смысле. Цель - научить студента говорить на иностранном языке не только свободно, но и правильно. Правила, значения новых слов объясняются учителем при помощи знакомой студенту лексики, грамматических конструкций и выражений, при помощи жестов и мимики, рисунков и прочих наглядных пособий. Могут использоваться также компьютеры с CD, Интернет, ТВ-программы, газеты, журналы и т.д. Все это способствует пробуждению у студентов интереса к истории, культуре, традициям страны изучаемого языка. На уроках иностранного языка учитель создает ситуации, в которых студенты общаются в парах друг с другом, в группах. Это делает урок более разнообразным. Работая в группе, учащиеся проявляют речевую самостоятельность. Преподаватель на занятиях берет на себя функции организатора общения, задает наводящие вопросы, обращает внимание на оригинальные мнения участников, выступает арбитром в обсуждении спорных проблем. Отличие

коммуникативности в том, что вместо специально подгоняемых под активную лексику и изучаемую грамматику учебных текстов и диалогов в нем в качестве основного приема используется имитация ситуаций из реальной жизни, которые обыгрываются в классе так, чтобы вызвать у учеников максимальную мотивацию к говорению. Так, вместо того чтобы бесконечно пережевывать типовые фразы из учебника: «My name is Ivan. I live in Moscow. I am a student» и т.п., студенты, изучающие тему «Знакомство», начинают на самом деле активно знакомиться и обсуждать интересующие их вопросы. Обсуждаются в основном темы, с которыми студенты хорошо знакомы на родном языке: это дает возможность сосредоточиться именно на развитии коммуникативных способностей, то есть умения пользоваться языком спонтанно. При этом учителя меньше говорят и больше слушают, лишь направляя деятельность студентов. Учитель задает упражнение, а потом, «разговорив» студентов, отходит на задний план и выступает в роли наблюдателя и арбитра. Предпочтительно, чтобы он пользовался исключительно изучаемым языком. Коммуникативный метод заключается в уподоблении процесса обучения процессу коммуникации, точнее говоря, он основан на том, что процесс обучения является моделью процесса общения, пусть несколько упрощенной, но по основным параметрам адекватной, подобной реальному процессу коммуникации. Все сказанное выше относительно коммуникативного метода обучения говорению на иностранном языке позволяет утверждать, что предметом обучения в данном случае является речевая деятельность на иностранном языке. В этом методе четко прослеживается выделение речевых умений говорения, и предлагаются упражнения для их последовательного формирования. Все это в свою очередь дает основание утверждать, что коммуникативный метод обучения говорению Е.И. Пассова представляет деятельностный тип обучения иностранным языкам.

Список литературы:

1.Денисова Л.Г., Мезенин С.М., Snowball English - М., 2000.
2. Колкер Я.М. Практическая методика обучения иностранному языку - М., 2000.
3. Коммуникативность обучения - в практику школы, под редакцией Е.И. Пассова, М. 1985
4.Пассов Е.И. Коммуникативный метод обучения иноязычному говорению. - М., 1985.
5. Рахманина М.Б. Типология методов обучения иностранным языкам. - М., 1998.

S. Imanova

Communicative method of teaching foreign languages

Summary

Based on this chapter, we can distinguish the following positive aspects of the communicative method of teaching foreign languages. Only in the communicative method of teaching foreign languages we find signs of activity of the type of instruction, the feature of which is that in its purpose and in essence ,connected, first of all with a separate type of speech activity. Therefore ,we find its wide use: learning, reading , listening, translating etc. Practical speech orientation is not only a goal, but also a means, where both are dial especially interdependent. The modern communicative method is a harmonious combination of many ways of teaching foreign languages, probably at the apex of the various educational methods. Using the communicative method of instruction removes the language barrier. Grammar is mastered in the process of communication in the language: the student first memorizes words, expressions, language formulas and only then begins to understand what they are in grammatical sense. The goal is to teach a student to speak a foreign language not only freely, but also correctly

S.Imanova

Xarici dillərin tədrisinin kommunikativ üsulu

Xülasə

Bu məqalədə əsasən xarici dillərin tədrisinin kommunikativ metodunun aşağıdaki müsbət aspektlərini ayırd edə bilərik. Yalnız xarici dillərin tədrisinin kommunikativ metodunda biz təlimat tipinin fəaliyyətinin əlamətlərini tapırıq, xüsusilə də onun məqsədi və mahiyyətində , ilk növbədə ayrı bir sözlə əlaqəli fəaliyyəti olmasıdır. Buna görədə oxumaq, dinləmək ,tərcümə etmək və s.geniş istifadə edilir. Praktiki cıxış oriyentasiyası yalnız bir məqsəd deyil, həmdə dialektik bir- birinə qarşı olan bir vasitədir. Muasir kommunikativ metod yaqin ki, müxtəlif təhsil metodlarının təkamül piramidanın aspektində xarici dillərin tədrisinin bir çox yollatının harmonik birləşməsidir. Kommunikative üsulu istifadə edərək, dil baryerini aradan qaldırır.Grammatik tərəfdən ünsiyyət prosesində mənimsəlinir:şagird əvvəlcə sözləri, ifadələri, dil formullarını yadda saxlayır və sonra yalnız qrammatik mənada nə olduğunu anlamağa başlayır. Məqsəd , bir tələbənin xarici dildə yalnız sərbəst danışmaq deyil, həm də doğru danışmaq öyrətməkdir.

Rəyçi: Rəhilə Məmmədova
filologiya üzrə fəlsəfə doktoru, dosent

HÜMBƏT MƏMMƏDOV
ADPU
humbatm@mail.ru

AZƏRBAYCAN DİLİNİN QARABAĞ ŞİVƏLƏRİNDƏ OMONİM SÖZLƏR

Açar sözlər: *dialekt, şivə, Cəbrayıl, Füzuli, Şuşa, Yevlax, Qarabağ, omonim, leksika*
Key words: *dialect, accent, Jabrayil, Fuzuli, Shusha, Yevlakh, Garabagh, homonyms, lexis*
Ключевые слова: *диалект, наречие, Джабраил, Физули, Шуша, Евлах, Карабах, омонимы, лексика*

«Omonimlər linqvistik hadisə olub, dilin leksik və qrammatik xüsusiyyətlərini birləşdirən, öz səs tərkibinə görə dilin inkişaf dövrlərində müəyyən oxşarlığı olan, mənaca müxtəlif sözlərdir. Bunlar bir dilə yox, bütün dillərə xas olan bir hadisədir». (2,5).

Omonimlər dilin lüğət tərkibinin göstəricilərindən biridir. Azərbaycan dili şivələri omonimlərin zənginliyi ilə diqqəti cəlb edir. Azərbaycan dilinin Qarabağ şivələrinin leksikası təkcə qədimliyi ilə deyil, sözün məna növlərinin müxtəlifliyi ilə seçilir.

Omonimlərin araşdırılması dilimizin leksik xüsusiyyətlərinin öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir.

Dam (Yevlax) – 1. tövlə. – İnəx[1]ləri dama qatmışam; 2. türmə, həbsxana. – İsrəfilin gədəsin aparıf basdılar dama (8, 97). Bu sözə birinci mənada Şuşa, Tərtər, Şəmkir, Salyan, Şəki, Sabirabad, Qazax, Kürdəmir, Karvansaray, Göyçay və Gəncə şivələrində də rast gəlinir. Kürdəmir, Quba və Ordubad şivələrində dam sözünün «tavan» mənası qeydə alınmışdır (4,113). Azərbaycan dili şivələrinin omonimlər lüğətində dam sözünün dörd mənası verilmişdir. 1.tövlə. 2. qazma. 3. cəhənnəm. 4. məcazi mənada həbsxana (20, 54). Bu söz «Dədə Qorqud kitabı»nda «tövlə, pəyə» mənasında işlənmirşdir: *"Oğlan fıkr eyledi, aydır: "Bir dama dirək ururlar, ol dama dayaq olur. Bən bunun alnına niyə dayaq olurın durурın" - dedi.(21, 27) Qara donuz damında yatur, degil! (21, 89*); *Gətürdilər, donuz damına həbsə saldılar. (21, 159);* Ş.Yunusova yazır: «Damın iki növü var. Yerdən qazılıb ev heyvanları və insanların yaşadığı tikinti qara dam, yerdən bir az yuxarı, daş və ya çiy kərpicdən tikilən isə ağ dam adlanırdı.. Radlovun lüğətində dam/tam sözü uyğur, qırğız, kaşğar, cağatay və s. dillərdə «torpaq qatı, divar, üstü torbaqlı daş ev» mənalarında verilmişdir (22, 47).

Ağ (Yevlax) – 1. döşəkağı, mələfə. – Böyün ağları yuasıyam; 2. kəfən. – Ölünü ağa püküllər (8, 96). Ağ qədim leksik vahid kimi müxtəlif məna çalarlarına malikdir. Xaçmaz, Salyan, Şəmkir şivələrində «alt tumanın və ya şalvarın ortası» mənasında qeydə alınmışdır: Gədənin şalvarının ağı cırılıf, mərəkədə biyavır oluf (Şəmkir). Ağ sözü İmişli şivələrində «var-dövlət, varidat», Qax şivələrində «yeməli bitki adı», Salyan dialektində isə «süfrə» mənasında işlənir: Qızım, ussulun üssinə ağ sal (4,13). Bu söz Ağbaba şivəsində «kişi və qadın tumanının arasına salınan əlavə parça» mənasında qeydə alınmışdır: Tükənnən aldığum şalvara ağ saldırdım (28, 21).

İbni Mühənnanın lüğətində ağ sözü «qəfəs şəklində seyrək hörgü» mənasında işlənmişdir (29,7). M.Kaşğarinin lüğətində isə bu sözə «iki ayaq, paça arasındakı boşluq» mənasında rast gəlirik: Yüz at məninq ağdan keçti – ayaqlarımın arasından yüz atlı keçdi. Eynən barmaqlar arasındakı boşluq kimidir" (23, I c, 147).

H.Mirzəyev «axta» sözü ilə «ağ-a:g» sözünün bir məna yuvasından təşəkkül tapdığını qeyd etmişdir (3, s.70).

Ağız (Yevlax) – 1. yeni doğmuş heyvandan sağılan ilk süd. – İnəyin ağız südünnən kətəməz pişirəjəm; 2. bıçağın, baltanın və s. kəsən tərəfi. – Kərənti:n ağzın itilədim, indi yaxşı kəseyişdi (8,96). Sözün birinci mənası Ağdam, Qax, Şəki, Zaqatala, Zərdab şivələrində də qeydə alınmışdır. Ağdaş, Qax, Şəki, Zərdab şivələrində isə ağız sözü «yeni doğan qaramalın ilk südündən bişirilən yemək» (pendir kimi olur) mənasında işlənir (4,15).

Əl (Şuşa) –1. tərəf –Düz get, sora sol ələ dön. 2. (Ağdam, Bərdə, Tərtər, Şuşa) –dəfə.-Bu əl mən gətirim, gələn əl sən. (Bərdə). Sözün bu mənası Bakı və Salyan dialektlərində də geniş yayılmışdır. Əl sözü Ucar şivələrində «təndir düzəltmək üçün dairəvi gil hissə» mənasında işlənir. –Beş-altı əl qoysan, təndir baş olar (4,156). Əl sözü Təbriz dialektində də omonimlik bildirir: 1. İnsanın və ya heyvanın bədəninin bir hissəsi; 2. Tərəf (16, 169). Bu söz «tərəf, cəhət» mənasında «Dədə Qorqud kitabı»nda da işlənmişdir: "Saqım ələ baqdığımda qartaşım Qaragünəyi gördüm, baş kəsübdür, qan döküpdir. Solum ələ baqdığımda tayım Uruzı gördüm (18, 152)

Anqut (Ağdam, Şuşa) 1. ördəyə oxşar uzunboğaz quş adı. 2. (Ağdam, Bakı, Dərbənd, Şamaxı) –acgözlüklə yeyən, hər nə gəldi yeyən. 3. (Oğuz) avam, qanmaz –Sən özünü lap anqut yerinə qoymusan (4,24). Anqut sözü dilimizin Dərbənd dialektində «1. çöl quşlarından birinin adı; 2. boğazı uzun və arıq olan adam; 3.Qanmaz, kobud adam» mənalarında işlənir (15, 281). Bu söz Bakı dialektində «çoxyeyən, acgöz» mənasında yayılmışdır (26, 163).

Maya (Yevlax) – 1. xəmirə, südə vurulan maddə. – Mayanı gətirim, qatıx çalajam; – Gəlin hayalı gərəx[1], xəmiri mayalı gərəx[1] ; 2. dırnağın dibi. – Uşa:n dırnağın mayadan kəsif, çirk yığılıf; 3. dişi dəvə. – Maya buddu arvad al, nər buddu oğlan doğsun (Atalar sözü) (8,95). Z.Xasıyev maya//ma:

sözünün Gədəbəy, Ağdərə, Xocavənd və Goranboy şivələrində «yeni doğmuş qoyundan sağılan ilk süd» mənasında işləndiyini qeydə almışdır (10,74).

Ayna (Bakı, Qazax, Gəncə, Şəmkir) – 1.pəncərə. 2. (Ağdərə) -əlin içi. –Əlimin aynasına tikan batıf (4,31). N.Həsənova bu sözün Yevlax şivələrində üç mənasını qeydə almışdır: 1. pəncərə. – Aynanı aş, qoy öyə havə:lsin; 2. şüşə. – Uşax aynanı vuruf çilix[1]liyif; 3. güzgü. – Aynanı man$_1$a ver, üzümü təraşdıyım. (8,96). Ayna sözü Şəki dialektində üç mənada işlənir: 1. Pəncərə, pəncərə şüşəsi. 2. güzgü. 3. əhval, vəziyyət, sifət (27, 206)

Balax -1.camış balası; 2. tumanın ayağı; Balax sözünün Əfşar şivəsində camışın körpə balası və çətən toxumaq üçün istifadə edilən bitki mənaları qeydə alınmışdır. (6,27). *Balax* sözü Yevlax şivələrində «1.camışın balası; 2. paltarın ətəyi» mənasında işlənir. (8, 95). Azərbaycan dilinin dialektoloji lüğətində balax sözünün aşağıdakı mənaları verilmişdir: 1. camışın körpə balası (Ağdam, Biləsular, İsmayıllı, Kürdəmir, Lənkəran, Naxçıvan, Tovuz); 2. qamışa oxşar bitki adı (Füzuli) – Gərəx` gedif bir az balağ qıram gətirəm (4,37).

Bəlgə (Ağdam) – 1. vuruşma zamanı qola sarınan sarğı – Qolumda bəlgə olmaseydi, vuruf sümüyümü sındırmışdı (Ağdam). 2. (Ağdam, Salyan) - əkin sahələrinin sərhədini bildirən nişan – Bu yerə bəlgə qoy (Ağdam). 3. (Şuşa) – gön aşılamaq üçün narın qabığından və yarpağından hazırlanmış maddə. – Bəlgə qutardı, gön islaxda qaldı. Azərbaycan dilinin dialektoloji lüğətində bu omonim sözün 10 mənası qeydə alınmışdır. (4,50). Bəlgə sözü Qubadlı şivələrində iki mənada işlənir: 1. Qız evinə göndərilən ilk nişan. 2. Ağac döyüşündə qola sarınan parça (13, 124). Bu söz M.Kaşğarlının lüğətində bəlgü şəklində və «bəlgə, nişan, əlamət» mənasında verilmişdir. «Kut bəlgüsü bilüg» kəlamında da işlənmişdir, mənası «qut bəlgəsi bilikdir» (yəni, bilik qutun əlaməti,nişanəsidir) deməkdir (23, 422).

Barata (Cəbrayıl) – 1. köhnə, istifadə olunmuş. 2. (Cəbrayıl) –iz, nişanə. –Ay çovan, qoynu canavar yeyif, bə niyə baratasın çıxartmırsan (Çənbərək). Barata sözü Qazax dialektində mirat (ölmüş adamın paltarı və ya şeyləri) mənasında işlənir. – Qulamalı yolda ölüf, baratasını gətiriflər. Barata leksemi mirat sözü ilə kökdaşdır. Bu söz Naxçıvan dialektində «palçıq layı» anlamındadır. – Barata kəsdim, vırdım dufara (4,39). Barata sözü Ağbaba şivəsində "sökülmüş və ya cırılmış paltar, ayaqqabı" mənasında qeydə alınmışdır: - Əyaxqabının laf baratası qalıf (28, 36).

Boylu (Ağdam, Bərdə, Ağcabədi) – 1. hamilə. 2. sonra, deməli, deyəsən. (Yevlax, Gədəbəy, Bolnisi, Gəncə, Qazax, Tovuz); (4,62). Boylu sözü eyni mənalarda Yevlax şivələrində də qeydə alınmışdır. – Boylu adam su başına təx[1] getməz; – Çörəyimizi yeəx[1], boylu sımavarı qaynadax. (8,100).

İ.Bayramov boylu sözü barədə yazır: "Xalq danışıq dilində "ikicanlılıq, hamiləlik" mənasında işlənən boyluluq elə boylu sözü əsasında əmələ gəlmişdir. Boylu sözündə Azərbaycan dilinə məxsus sözlərə verilən xüsusiyyətlər tam əksini tapır. Məhz bu baxımdan hamilə sözünün əvəzinə boylu sözünün işlədilməsi dilimizin həm zənginləşməsinə, həm də təmizliyinə xidmət edə bilər" (30, 42).

Çalası (Ağdam, Füzuli) – 1. qatıq mayası. Bu söz çala şəklində Yardımlı şivələrində yayılmışdır. (12, 142). 2. (Bərdə) – aravuran, araqarışdıran (4,86). Əfşar şivəsində bu sözün hər iki mənası (1. qatıq mayası. 2. aravuran, araqarışdıran) işlənir (6, 27). Çalası sözü hər iki mənada Ağbaba şivələrində də qeydə alınmışdır (28, 52).

T.Hacıyev sözlərin omonimlik ifadə etməsində iki cəhəti göstərir: «1. Ədəbi dildə mövcud olan müxtəlif tərkibli sözlər fonetik dəyişikliyə uğrayaraq şivədə eyni səs tərkibinə malik olur. Məs.: un (un, on) – (Horovlu.); qur (qur; qor, köz) –(Horovlu.), biş (biş, biç) – (ə.ş.); yas (yas, yaş) –(Sirik); bas (bas, baş) –(Əfəndilər.) və s. 2. Şivədə işlənən eyni fonetik tərkibli sözlərin ifadə etdiyi müxtəlif mənalardan ya heç biri, ya da biri (və ya bəziləri) ədəbi dildə mövcud olmur. Bunların bir qismi heç bir etimoliji yaxınlığı olmayan mənalar ifadə edir, hətta bir növ zidd məna bildirir. Məs.: xudru (yalnız, ancaq; nahaq, yersiz); məhlim (məgər; yəqin) və s. sözlərdə olduğu kimi. Bəzən eyni sövtü tərkibli söz bir kənddə bir mənada, o biri kənddə başqa mənada işlənir. Daha doğrusu, eyni səs tərkibli müəyyən bir söz ayrıca bir kənd üçün omonim olmadığı halda, bütövlükdə rayon üçün omonim sayıla bilir. Məs.: şulum sözü Soltanlı kənd şivəsində israfçı mənasında, Papı kənd şivəsində tamahkar mənasında işlənir. Omonim sözlərin digər böyük bir qismində isə məna fərqlərinin çoxmənalılıq ifadə etməsi və zaman keçdikcə müstəqil leksik vahidlər kimi sabitləşməsi müəyyən dərəcədə hiss olunur». (5,305- 306)

«Azərbaycan dilində omonimləşmə hesabına lüğət tərkibinin zənginləşməsi prosesi onun qədim dövrlərindən mövcud olmuşdur. Bu hadisə, xüsusilə bu gün isim və feillərə mənsub olan omonim sözlərdə daha çox özünü göstərir. Müasir dilimizdə bir çox sözlər vardır ki, onlar həm isim, həm sifət, həm da feil olur. Bundan əlavə, başqa nitq hissələrində də omonimləşmə özünü göstərir. Bütün bu proses leksik omonimlərin yaranması üçün əsas olmuşdur. Deməli, Ieksik omonimlər həm eyni, həm da müxtəlif nitq hissələrinə aid olan leksik vahidlərdə özünü göstərə bilir» (1, 21)

Qarabağ şivələrində işlənən omonimləri nitq hissələri baxımından aşağıdakı kimi qruplaşdırmaq olar.

• İsmə aid omonim sözlər

Bərə (Yevlax) – 1. qoyun-quzunu tutub saxlamaq üçün keçid, xüsusi yer. – Quzuları bərəyə salın; 2. baş arxdan suyun ayrı-ayrı sahələrə

dəyişdirildiyi yer; – Ay uşax, o bərəni tay bağlıyın (8, 100). Bu söz dilimizin dialekt və şivələrində müxtəlif mənalarda yayılmışdır. Göyçay şivələrində «sahilə yaxın dayaz yer», Lənkəran, Kürdəmir şivələrində «bağ və ya bostanların arasından gedən cığır», Bakı, Füzuli, Göyçay, İmişli, Quba və Ucarda «kiçik arx», İsmayıllıda «dərin olmayan yara», Şamaxı şivəsində «mane, əngəl» mənalarında işlənir. (4, 51)

İşgil (Cəbrayıl) – 1. cəftə. –Fe:ruz içəri girib işgili vurdu. Sözün işkil şəklində variantı Ordubad və Zəngilan şivələrində yayılmışdır. 2. (Ağdam) – boyunduruğu arabanın qollarına bərkidilən ağac. 3. (Tərtər) kotanın hissələrindən birinin adı. Bu söz Qax şivələrində «kəmərin qaşı» mənasında işlənir (4,238)

Kərə (Yevlax) – 1. qulağı qısa qoyun. – Ağ qoyun balasın isdər, kərə qoyun ağzın açıf yumar; 2. yağın növü. – Kərə yiyən də yaza çıxajax, tərə yiyən də; Yağ mə:mdi belə ye:rəm, əritmirəm kərə ye:rəm; 3. buğda sortu. – Bir meşox kərə qalıf (Y.Sal.); 4. dəfə. – Sən$_1$ə neçə kərə demişəm, uşağa əl qaldıma (A.Qar.) (8, 96-97). Kərə sözü Dərbənd dialektində «əridilmiş yağ» və «qısaqulaq» mənalarında işlənir (15, 283). Kərə sözü omonim kimi Təbriz dialektində də qeydə alınmışdır (16, 168).

Kiriş (Cəbrayıl) – 1. cəhrəni işlədən ip. Bu söz digər dialekt və şivələrimizdə də geniş yayılmışdır. 2.(Cəbrayıl) yağ saxlanan qab. 3. (Cəbrayıl) – yeməli bitki adı. Uşaxlar kiriş yığmağa getdilər. Sözün bu mənası Şərur şivələrində də işlənir. Kiriş sözü Gədəbəy şivələrində «yeni doğulmuş heyvanın ilk südü» mənasında qeydə alınmışdır (4,255). Naxçıvan dialektində kiriş//çiriş şəklində işlənən bu sözə iki mənada rast gəlirik: 1.Dağda bitən bitki adı. 2. Bərk ip (31, 48).

Kora (Ağdam, Tərtər) – 1. mıx. Bu söz dilimizin Qərb qrupu dialekt və şivələrində geniş yayılmışdır. 2. (Cəbrayıl) –təzə doğulmuş quzular saxlanılan yer. –Apar o quzunu da at koryа, qoy orda qalsın. 3. (Füzuli) - kin, ədavət. –Korası varmış, dayna. Kora sözü Quba dialektində "topa" mənasında işlənir (4, 258). Naxçıvan şivələrində bu söz «küt mıx» mənasında qeydə alınmışdır (32, 51).

*Küz (*Ağdam, Bərdə, Cəbrayıl) – 1. quzu saxlanılan yer. Sözün bu mənası digər dialekt və şivələrimizdə də geniş yayılmışdır. 2. (Xocavənd, Füzuli) – xışın və ya kotanın açdığı şırımla müəyyən hissələrə bölünmüş əkin sahəsi. –İki cız arasına küz deyəllər (Füzuli). Bu söz Borçalı, İmişli, Qax, Ordubad şivələrində «payız», Yardımlı şivələrində «dilim, qıça», Meğri və Ordubad şivələrində «əkin sahəsində kiçik arx» mənasında işlənir (4,271). "Naxçıvan şivələri sözlüyü"ndə küz sözü "payız otlağı" anlamında qeydə alınmışdır (31, 49).

Miz (Ağdam, Cəbrayıl) – 1. baramaqurdunun ifrazatı. 2. (Cəbrayıl) – milçək süfrəsi. Məs. Ətin üsdün ört, milçək miz salmasın. (4,359). Bu söz

mic şəklində Lənkərən, Salyan şivələrində «quş, toyuq biti» (4,356), Qarakilsə şivələrində isə "ətdə əmələ gələn qurd" mənasında işlənir (4,357).

E. Allahverdiyev Əfşar şivəsində miz sözünün üç mənasını qeydə almışdır: 1. baramaqurdunun altından çıxan zibil. 2. mülçək süfrəsi. 3. stol (6,27).

Kür (Füzuli) -Kür (çay adı) Savıravatda Araznan birləşir; - Ata yüz əsil olsa, bədəsil olar kür (əfəl adam) süt əmən; -Yaman kür uşaxdı; (7, 128). Bu söz eyni mənalarda dilimizin əksər dialekt və şivələrində işlənir.

Satıl (Ağdam, Ağdərə, Bərdə, Cəbrayıl, Xocavənd) – kəsərti alətlərini itiləmək üçün polad alət. Bu söz Şəki dialektində «çaxmaq daşından od almaq üçün polad alət» mənasında işlənir. Dialektlərarası omonim kimi geniş yayılmışdır. Satıl sözünün Zaqatala şivələrində «cəftə», Tabasaran və Salyan şivələrində isə «qulplu mis suqabı» mənaları qeydə alınmışdır. (4,421). Bu sözə dilimizin Dərbənd dialektində iki mənada işlənir. (15, 283). Satıl sözü «kiçik qazan» və «çaxmaq» mənalarında Çənbərək rayonunun Gölkənd şivəsində qeydə alınmışdır (19, 262)

Kıtıl – 1. doğmuş heyvanın ağuz südündən bişirilən yemək; 2. Tut çubuqlarının kəsilib atılan yoğun hissəsi (6, 27). Bu söz Azərbaycan dilinin Meğri şivələrində «barama qurduna verilmək üçün üstündə yarpaq olan və 2-3 yerdən kəsilən tut budaqları və ya şivləri» mənasında qeydə alınmışdır (25, 448).

Dəm (Füzuli) 1.dəm. 2.rütubət 3. sərxoş. Gör nə dəm (kef) çəkir; - Həjəkədə qazılxana mar idi dəmidi (rütubət) nədi çırax getmədi; - Bu zalım oğlu həmişə dəmdi (sərxoş) (7,128). Bu söz Naxçıvan dialektində «divarda olan dəlik-deşik» mənasında işlənir. (20, 59). M.Şirəliyev isə dəm sözünün Naxşıvan dialektində iki mənada işləndiyini göstərmişdir: 1.həqiqi mənasında (dəm almaq) 2. kefli (24, 340)

Tana (Ağdam, Bərdə, Tərtər) – sırğa. Dialektlərarası omonim sözdür. Tana sözü Bakı dialektində «qıfıl», Göyçay, Göygöl, Mingəçevir şivələrində «qulağın yumşaq yeri, sırğa taxılan yer», Göyçay, Mingəçevir şivələrində «atın burnunda əmələ gələn xəstəlik adı», Qarakilsə şivələrində isə «qoyun saxlamaq üçün üstüörtülü yer» mənalarında işlənir (4,480);

S. Behbudov «Azərbaycan dili şivələrinin omonimlər lüğəti»ndə tana sözünün beş mənasını vermişdir: 1.qıfıl, 2. sırğa. 3. Qulağın yumşaq yeri, ucu, 4. Qoyun saxlanılan üstüörtülü yer, 5. Atlarda burun xəstəliyi (20,176).Tana sözü «sırğa» mənasında dilimizin İraq-türkman ləhcəsində də qeydə alınmışdır (17,397). Türk dillərinə aid lüğətlərdə tana sözünün bir çox mənalarına rast gəlmək olur (22, 65).

Təpitmə (Ağdam, Bərdə, Şuşa) – 1. xingal bişirmək üçün yarıçiy yuxa. O təpitmələri doğra, su asmışam, xəngəl pişirəx` (Ağdam) 2. (Cəbrayıl,

Şuşa) – yağlı xəmirdən hazırlanmış məlhəm. –Təpitmə qoyannan bəri əlimin şişi yatıb (Cəbrayıl) (4,492)

Tuğ (Şuşa) – 1. bayraq. 2. (Yevlax, Ağcabədi) –dik, hündür. 3. (Ağdam, Bərdə, Şuşa) – narın süpürgə. –Bu gün üç tuğ bağlamışam. Tuğ sözünün «narın süpürgə» mənasına Ağdaş, Gəncə, Xanlar, Qax, Mingəçevir, Oğuz və Şəki ağızlarında da rast gəlinir (4,506). Əfşar şivəsində bu sözün «yumşaq süpürgə», «hörümçək toru» və «bayraq» mənaları qeydə alınmışdır (6,27). Tuğ sözü Qubadlı şivələrində yalnız «bayraq» mənasında qeydə alınmışdır (13, 197).

Turun (Şuşa) –1. ikiyaşar dəvə balası. –Dəvələrimizin içində beş turun var. 2. (Şuşa) – nəsil. –Bu kətdəkilər hamısı Abbas kişinin turunudu (4,508).

Torun sözünə M.Kaşğarinin lüğətində torum şəklində və «köşək» (dişisinə «dişi torum» deyilir) mənasında rast gəlirik (23, I c., 395).

Tapan (Ağdam, Cəbrayıl) – qoyunları salmaq üçün qamışdan tikilmiş ağıl. Dialektlərarası omonim olan bu sözün dialekt və şivələrimizdə «qamış çəpər», «əkin sahəsini hamarlamaq üçün ağac mala», «cəhrənin oturağacı» və «qamışdan hörülmüş çəpəri möhkəm saxlamaq üçün vurulan dayaq» mənaları qeydə alınmışdır (4,480; 13,196). Tapan sözü Şahbuz şivələrində «torpağı yumşaltmaq üçün istifadə edilən kənd təsərrüfatı aləti; dırmıq» mənasında işlənir: -Ağacı dəlib, dırmıx eliyib, toxumu bassırrıx, ona da tapan deyirix` (14, 255).

Taxta (Şuşa) – 1. əkin sahəsinin bərabər hissələri. – Həşim öz taxtasını şumluyur. 2. Dağavar yerdə düzənlik hissə, otlaq sahəsi (Cəbrayıl, Ağdam, Laçın) 3. Qadın tumanının, yorğanın üzünün bərabər hissələri. –Yorğanın üzünə üş taxta çit işlənir (Ağdam). Bu söz Şamaxı dialektində də təsadüf edilir.-Mənim tumanım beş taxtadı (4,478). Taxta sözünün omonimliyi Təbriz dialektində də qeydə alınmışdır (16, 169).

Sumax (Yevlax) – 1. ədviyyat növü. – Yaxşı kətə pişirif, üsdə sumax töx[1]müşəm; 2. xovsuz xalça. – Sumaxın içinə yo:şan qoyuf bürmələdim (8, 98-99). Sumax sözü Şərqi Abşeron şivələrində «qara tutun qurusu» və «böyük xalça» mənalarında qeydə alınmışdır: – Ət qutabını ye sumağnan, lezzetinden doymazsan; – Sumax xəlçədən iri, xəlidən kiçix, özü də nazix, palazdan əncağ qəlin olur (11,137).

İrəmə (Cəbrayıl, Tərtər, Yevlax) – 1. Otlaq. 2. Su çıxmayan dərə-təpəlik. Bu sözə eyni mənada Qazax, Tovuz və Zəngilan şivələrində də rast gəlinir. İrəmə sözü dialektlərarası omonim söz kimi Kürdəmir şivələrində «rəf», Göygöl şivələrində «xam yer» mənasında qeydə alınmışdır (4,235-236). «Azərbaycan dili şivələrinin omonimlər lüğəti»ndə irəmə sözü iki mənada verilmişdir (20,95). İrəmə sözü dilimizin Ağbaba şivəsində «dik, hündür yer» mənasında qeydə alınmışdır (28, 126).

Dəbbə (Ağdam, Yevlax) – 1. lovğa. Bu məna Borçalı və Qazax dialekləri üçün də səciyyəvidir. 2. (Füzuli) – sözündən qaçan, şərti pozan. Bu söz əksər dialekt və şivələrimizdə işlənən «dəbbələmək» feilinin kökü ilə bağlıdır. III (Ağdam) –barıtqabı (4,122). Bu söz Hamamlı şivələrində «inadkar, höcət» mənasında qeydə alınmışdır (20,58).

- Sifətə aid omonim sözlər

Şulum (Cəbrayıl) - 1.tamahkar (Papı); 2.israfçı (Soltanlı) (5, 307). Şulum sözü Ağdam, Zəngilan, Gədəbəy, Laçın, Cəbrayıl, Şahbuz şivələrində «pinti, səliqəsiz», Şəmkir şivələrində isə «boş» mənasında işlənir. –Həviyi bərh vurmuyanda gəvə şulum olur (20, 174)

Qolay (Cəbrayıl) 1.ağır; 2. qüvvətli (5, 307). Qolay sözünün Füzuli şivələrində «pis, ağır» və «keyfiyyətsiz» mənaları qeydə alınmışdır. Xəstənin halı qolaydı (pis, ağır); - Halım qolaydı (işim çətindir); -Qolay (keyfiyyətsiz) fətir çıxıv; (7,128). S. Behbudov qolay sözünün şivələrimizdə dörd mənasını göstərmişdir (20, 121)

Xırsız (Ağdam, Şuşa) – 1. güclü, qüvvətli. –Bu elə uşaxlıxdan çox xırsızdı (Şuşa); 2. (Cəbrayıl) –kobud. Xırsız sözü dilimizin Göygöl şivələrində «çoxdanışan» və «səbirsiz» mənalarında işlənir. –Hər kəs səvirsizdi,ona xırsız deyərix`(4, 224)

*Tüləx`* (Şuşa) – 1. bic, hiyləgər. Döylətdilər çox tüləx` olur. 2. (Ağdam, Şuşa) – zirək, diribaş. - Çox tüləx` uşaxdı bizim bu Məmişin oğlu (Ağdam) (4,511). M.Kaşğarinin lüğətində tölək sözü «dölək, vüqarlı, könlü sakit adam"» mənasında, tülək sözü isə «dördayaqlı heyvanların tüklərini tökdükləri vaxt» anlamında işlənmişdir (23, I c., 388)

Zəllə (Şuşa, Ağdam, Ağdərə, Cəbrayıl) – xəsis. –Zəllə adamın pulu çox olur (Şuşa). Dialektlərarası omonim olan zəllə sözü eyni mənada Qubadlı şivələrində də yayılmışdır (13,200). Bu sözün Qazax dialektində «inadkar», Cəbrayıl şivələrində «vəzəri», Kürdəmir və Zəngilan şivələrində isə «bərk» mənaları qeydə alınmışdır (4,557).

Boz (Yevlax) – 1. həyasız. – U:n boz sıfatın sən hələm görməmisən$_1$; 2. dişi qırqovul. – Uşaxlar bir boz vuruflar; 3. dəri xəstəliyi. – Üzünə boz tüşüf, heş çara da qılmır (8, 97). Bu söz Yevlax şivələrində sifət –isim omonimliyi şəklində özünü göstərir.

3. Feilə aid omonim sözlər

Şaxlamax (Ağdam, Bərdə) – 1. qurdun barama sarıması üçün üzərinə şax düzmək.2. (Cəbrayıl) – 1. Həvəsləndirmək. 2. Fəxr etmək. (4,454- 455). «Azərbaycan dili şivələrinin omonimlər lüğəti»ndə *şaxlamax* sözünün üç mənası verilmişdir: 1. Barama sarımaq üçün baramaqurdunun üstünə alaquru kiçik ağac budaqları düzmək (Borçalı, Qazax, Daşkəsən, Dərbənd, Tərtər); 2. Meyvəli budağı qırmaq, qoparmaq (Cəbrayıl); 3.lobya bitkisinin dibinə çubuq sancmaq, ağac basdırmaq (Şəki) (20, 166).

Küt getməx[1] (Yevlax) – 1. xəmir parçasının təndirin içərisinə düşməsi. – Xəmirin küt getsin (qarğış); – Əpbəx‘lərin ikisi küt getdi; – Halal yoğrulmuş xəmirin kündəsi küt getməz; 2. yorğun düşmək. – Alaxdan elə yornuğ gəlir kin, yazığ evə çatanda küt gedir (8,100). Küt getmey frazeoloji birləşməsi Bakı dialektində «yorulmaq, əldən düşmək» mənasında işlənir (4,270).

Çalmax (Cəbrayıl) - biçmək//vurmaq//südə maya atmaq//süpürmək //oğurlamaq (5.307). Bu sözün Azərbaycan dilinin dialektoloji lüğətində aşağıdakı mənalarına rast gəlirik: 1. süpürmək (Cəbrayıl). Bu söz eyni mənada Göyçay, Mingəçevir, Şəki, Zəngilan, Basarkeçər şivələrində də işlənir. 2. (Cəbrayıl, İsmayıllı) – xəlvəti götürmək, oğurlamaq. 3. (Ağdam, Cəbrayıl, Salyan, Gədəbəy, Böyük Qarakilsə) – mayalanmaq (süd). Bu söz eyni zamanda Salyan şivələrində «oxşamaq, bənzəmə» və «eşitmək, xəbər tutmaq» mənalarında da işlənir (4,88).

T.Hacıyev yazır: «Çalmax omonim sözünün mənaları nə qədər müxtəlif olsa da, onların arasında ümumi etimoloji bir məna yaxınlığı nəzərə çarpır. Bu sözün 1, 2, 3 və 4-cü mənalarının, hansının hansından olur-olsun, bir-birindən törəməsini qəbul etmək mümkündür, lakin sonuncu məna (oğurlamaq) o biri mənaların heç birindən yox, məhz süpürmək nəşət etmişdir. Hətta bu sonuncu iki məna arasındakı omonimlik o biri mənalara nisbətən bir qədər yarımçıqdır; bu iki sözün /çalmax – oğurlamax, çalmax-süpürməx` arasında az da olsa məcazi məna yaxınlığı hələ tamamilə üzülməmişdir» (5,307)

Sınmax (Yevlax) - 1. Soyumaq. – Beş-üş gündü havalar burda da sınıfdı; 2. inciməк. – Qəlbim bajımnan yaman sınıf . (8,98). Bu söz sınməğ şəklində eyni mənada Lerik şivələrində müşahidə edilir: – Düzün sözi, sənun hərəkətdərunnən sinmişəm; – Havələr yavəş-yavəş sıney (9,128).

Uyuşmax (Ağdam, Bərdə, Cəbrayıl, Şuşa) – 1. bərkimək (südün qatığa çevrilməsi zamanı) –Qatığı indi çalmışam, bir əzdən uyuşar (Şuşa) 2. (Cəbrayıl, Şuşa) - öyrəşmək, alışmaq, isnişmək. -Çox soyux uşaxdı, heş kəsə uyuşmur (Şuşa). 3. (Cəbrayıl) -keyimək. İndi uyuşur i:nənin yeri (4,522). Bu söz Qubadlı şivələrində iki mənada qeydə alınmışdır.1.Bərkimək, özünü tutmaq (qatıq, dələmə və s.); 2. Isinişmək, öyrəşmək (13,126).

Apardığımız tədiqatların nəticəsi göstərir ki, dilimizin digər dialekt və şivələrində olduğu kimi geniş arealı əhatə edən Qarabağ şivələrində də dialektlərarası omonimlər üstünlük təşkil edir.

ƏDƏBİYYAT

1. Cəfərov S. Müasir Azərbaycan dili, Leksika, II hissə, III nəşr, «Şərq-qərb», Bakı, 2007, 192 s.

2. Həsənov H. Azərbaycan dilinin omonimlər lüğəti A-Z, «Şərq-Qərb», Bakı, 2007, 168 s.

3. Mirzəyev H. Dərələyəz mahalının toponimləri və şivə sözləri, Bakı, 2003
4. Azərbaycan dilinin dialektoloji lüğəti A-Z, «Şərq-Qərb», Bakı, 2007, 568 s.
5. Hacıyev T. Azərbaycan dilinin Cəbrayıl şivəsi, Bakı, 1967, 436 s.
6. Allahverdiyev İ. E. Qarabağ dialektinin Əfşar şivəsi. Fil. elm. namzədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 1995, 30 s.
7. Məmmədov İ.M. Qaryagin şivələrinin leksik xüsusiyyətləri. S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin elmi əsərləri, Bakı, 1957
8. Həsənova N. Azərbaycan dilinin Yevlax şivələrinin leksikası, nam.diss., Bakı, 2010, 140 s.
9. Binnətova G. Azərbaycan dilinin Lerik rayonu şivələri, Bakı «Nurlan» 2007, 176 s.
10. Azərbaycan dili dialekt və şivələrinin Qərb qrupunda heyvandarlıq terminləri, Bakı, «Nurlan» 2004, 146 s.
11. Vəliyeva G. Q. Şərqi Abşeron şivələrinin leksikası, Bakı «Elm», 2001, 167
12. Məmmədov Ş. Azərbaycan dilinin Yardımlı rayon şivələri, Bakı, «Təhsil» 2007, 165 s.
13. Abbasova R. Azərbaycan dilinin Qubadlı şivələri, Bakı «Çinar-Çap», 2006, 204 s.
14. Naxçıvan MSSR-in dialekt və şivələri, Bakı, 1962, 325 s.
15. Azərbaycan dilinin Dərbənd dialekti, Bakı «Elm», 2009, 448 s.
16. Məmmədli Ə.M. Azərbaycan dilinin Təbriz dialekti, Bakı, 2007, 240 s.
17. İraq-türkman ləhcəsi, Bakı «Elm», 2004, 422 s.
18. Məhərrəmova R. «Kitabi-Dədə Qorqud»un söz xəzinəsi, Bakı «Nurlan», 2007, 192 s.
19. Kərimov Ş. Azərbaycan dilinin Çənbərək və Karvansaray şivələri, Bakı «Nurlan», 2004, 362 s.
20. Behbudov S. Azərbaycan dili şivələrinin omonimlər lüğəti, Bakı "Nurlan", 2003, 206 s.
21. Kitabi-Dədə Qorqud. (əsil və sadələşdirilmiş mətnlər). Bakı, «Öndər nəşriyyatı», 2004, 376 s.
22. Yunusova Ş. Azərbaycan dili dialekt və şivələrində arxaizmlər, nam.dis., Sumqayıt, 2005, 154 s.
23. Kaşğari M. Divanü lüğat - it –Türk, I cild, (Tərcümə edən və nəşrə hazırlayan R.Əskər), Bakı, "Ozan" 2006, 512 s.

24. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları, Bakı «Şərq-Qərb», 2008, 416 s.
25. Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri, Bakı «Elm» 2003, 580 s.
26. Şirəliyev M. Bakı dialekti, 1955, 211 s.
27. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti, Bakı, 1968
28. Bayramov A., Bayramova A. Ağbaba şivəsi sözlüyü, Sumqayıt, 2014, 280 s.
29. İbnü Mühenna lüğati, (İstanbul nüsxəsinin türkcə bölüyünün indeksi) A. Battal, Dövlət mətbəəsi, İstanbul, 1934, 105 s.
30. Bayramov İ. Azərbaycan dilinin dialekt leksikası, «Elm və təhsil», Bakı, 2011, 120 s.
31. Amanoğlu Guliyev E. Naxçıvan ağızları söz varlığı, «Kültür Ajans Yayınları», Ankara, 2010, 95 s.
32. Əhmədov M. Naxçıvan şivələrinin lüğəti. Atalar sözləri, Bakı, «Gənclik», 1997, 172 s.

Г.Мамедов

Слова омонимы на карабахском наречии азербайджанского языка

РЕЗЮМЕ

В данной статье, в соответствии с направлением исследования, говорится о лингвистических особенностях и смысловом различии, создаваемом омонимами на карабахском наречии азербайджанского языка.

Нами исследованы особенности омонимии разных слов, присущих карабахскому наречию. Исследованы такие слова, как *Ağ (Аг), Əl (Ал), Maya (Мая), Balax (Балах), Bəlgə (Бялгя), Miz (Миз) и т.д.* Определены ареалы смыслового различия слов, приведены конкретные примеры со ссылками на авторов и выписками из словарей. В статье отмечается, что словарный состав обогащен за счет омонимизации и этот процесс, начавшись с древних времен, продолжается и поныне, в частности это касается слов, относящихся к существительным и глаголам.

Нами также сгруппированы как части речи используемые на карабахском наречии омонимы. 1) Слова омонимы существительные, 2) Слова омонимы прилагательные, 3) Слова омонимы глаголы.

В заключении указывается, что в карабахском наречии, как и в других диалектах и наречиях, преобладают междиалектные омонимы.

H.Mammadov

Homonym words in Garabagh accents of Azerbaijani language

SUMMARY

We investigated homonymous characteristics of different words concerning Garabagh accents. For example, we conducted an investigation on the words such as Agh, Al, Maya, Balakh, Balga, Miz, etc. We determined areas of meaning variety of words, give concrete examples with references to the thoughts of authors and extracts from vocabularies. It is emphasize that, dictionary content became rich due to homonymity and history of this event continued from old times up to our modern times, mostly it showed itself in words concerning the noun and verb. We also grouped homonyms used in Garabagh accents in terms of speech parts.
1) Homonym words concerning the noun, 2) Homonym words concerning the adjective, 3) Homonym words concerning the verb
As a result of research, it is showed that, interdialectal homonyms are preferred in Garabagh accents as in other dialects and accents of our language.

Rəyçi: Bayram İbrahimov
filologiya elmlər doktoru, professor

ƏDƏBİYYATŞÜNASLIQ

СЕХЕР ОРУДЖЕВА
Профессор, Доктор филологических наук, Зав. Кафедрой
Филологический факультет
Кафедра «Азербайджанского устного народного творчества»
Бакинский Государственный Университет
bdu-folklor@mail.ru

ЖАНР ДАСТАН У ТЮРКОЯЗЫЧНЫХ НАРОДОВ

Açar sözlər: ədəbiyyat, folklor, janr, dastan, mifologiya
Ключевые слова: литература, фольклор, жанр, дастан, мифология
Keywords: literature, folklore, genre, epos, mythology

Дастаны, занимающие особое место в национальном азербайджанском фольклоре, являются одним из богатейших жанров по тематике, идее, бесконечному миру образов и поэтике. Пройдя по длинному пути развития, национальные азербайджанские дастаны стали еще более интереснее и обогащённей по своей форме и тематике, в историческом процессе были созданы его различные типы. Сегодня, не ознакомившись с такими дастанами (эпосами), как «Деде Горгуд», «Кероглу», «Ашыг Гариб», «Тахир и Зухра», «Асли и Керем», невозможно представить себе полную картину не только азербайджанского устного народного творчества, но и азербайджанской литературы, в целом.

Являясь названием фольклорного жанра, дастан называют также «эпос»ом являющимся международным термином.

Как Греческое слово «эпос» переводится как слово, рассказ, происшествие, притча, сказание. Как термин используется в своем узком и широком значении. Древнегреческий философ Аристотель в своём произведении (под названием) «Поэтика» впервые использовал слово «эпос» как термин.

В своём узком значении эпос используется как название эпического жанра, т.е. в смысле героического эпоса. Начиная с прожитого в мифологическом сознании народов мира до настоящей их истории, жанром, изображающим происшествия, факты, события с героическим пафосом в эпическом стиле, называется «эпосом». Такие

эпические произведения как «Иллиада», «Калевала», «Кероглу», «Алпамыш», называются в этом значении эпосом [1].

С точки зрения генезиса, в формировании эпического творчества мифология сыграла важнейшую роль. Как известно, являясь средством универсального мышления космогонические мифы объясняли космос и нашу вселенную, этногонические мифы – создание человека и этноса. Этот же образ мышления и отражается в первичных эпосах. Мифы о мироздании и представления о строении Земли, мира также, как и эпические сказания передавались из поколения в поколение, из уст в уста, эти сказания использовались в пояснении происхождения тех или иных элементов комплекса мир-природа – человек. Наряду с тем, что сказания о мифическом времени и первопредках изображали и объясняли внешний мир, они также определяли тематику, сюжет и мир образов первых эпосов. В более древних Азербайджанских эпосах участвовали и Боги, их роль в создании человека, этносов – формировании племенно-родственных объединений, в возникновении появления огня, инструментов труда в установлении праздников и соответствующих обычаев и обрядовости, отражалась в мифологическом стиле [2].

Мифологическо-эпическая цепь с участием богов, полубогов и первопредков стала характерной для нравственной, моральной первобытной культуры многих народов. Например, у древних греков добыча Прометеем огня и его борьба на этом пути, отражение многих героических подвигов Геракла, из этого числа. В таких эпосах, как, «Бильгамыс», «Илиада», «Одиссей» боги участвуют в жизни и быте людей, направляют их желания, стремления и деятельность. В «Бильгамыс»е, известном нам как самый древний эпос, некоторые Боги живут среди людей – в горах Урук и Сидр, а некоторая их часть в небесах. Независимо от места проживания, нахождения, в нужные моменты, когда приходит время, радуются, печалятся, плачут, а иногда, порой, становятся злыми, злопамятными и коварными. К примеру, Иштар намеревается отомстить за неудавшуюся любовь не только Бильгамысу, но и отыграться на всех людях. По желанию Иштар, устрашающий Хумбаба снисходит с небес с этой целью, бог зла Эллиль приносит Уруку с собой катастрофу - наводнение. Выходя в путь, герои обращают свои взоры и мольбы к Шамашу с солнечным ликом, к Ану, Аруру и Нинсу, просят их об успехе и удаче. Полулюдей и полубогов – Бильгамыса и энкиду, Арура, создаёт по просьбе людей и посылает их на землю. Энкиду «очеловечивается», приобретая всё более человеческие черты, заимствуя, перенимая их у людей.

В эпосах «Создание» («Ярадылыш»), «Огуз хакан», который являются составной частью древнетюркского эпоса мы становимся свидетелями, наблюдая перерождение космогонических и этногонических мифов в эпический сюжет.

У разных народов героическим эпосам даны отличные, различные названия. У якутов «олонхо», у русских- «былины», у скандинавцев- «эдда», у англичан и некоторых европейских народах- «баллада», у ирландцев используется слово – «сага» [3].

У некоторых тюркских народов параллельно со словом «эпос» используется слово «дастан- сказание». Термин «дастан», в переводе, «сказание» используется как в устной литературе, так и в письменной по сей день, этот термин носил и носит в себе различные терминологические значения являясь фарсидским словом, по происхождению, «дастан» буквально означает “сказка, рассказ, сказ, приключения, а также в значениях «слава, гордость».

Одновременно, как название жанра, носит и различные терминологические значения и в письменной и в устной литературе. Отмечается, что из средневековых источников, в произведении «Гамусуль- Алем» («Словарь мира») это слово используется и как прозвище Наримана деда Рустама Зал оглу.

В устно эпическом творчестве, и в письменной литературе были созданы и существовали героические эпосы. В устной литературе можно привести в пример – «Манас», «Альпамыш», «Кёроглу», в письменной литературе это «Илиада», «Шахнаме», «Рамаяна».

Известный русский ученый эпосовед Е.М.Мелетинский в своей книге “Истоки героического эпоса” (1963) разделил эпосы по периодам на три группы: архаичный, классический и романичный.

По мнению Е.М.Мелетинского, архаичные эпосы появились в период распада первобытно- общинного строя, а развивались уже в феодальном обществе, когда берегли патриархальные отношения. В архаичном эпосе межчеловеческие отношения описываются с точки зрения кровного и племенного родства. На формирование архаичного эпоса оказали влияние героические песни- сказки, и мифологические рассказы о предках. Как правило, в эпосах архаичного периода проявляются следующие характерные черты и особенности: героизм преподносится под завесой мифологической сказки. Эпическое время с мифологическим временем о первозданности.

Враги, олицетворяющие зло обладают в большинстве случаев фантастической силой и мощью, они нечеловеческого происхождения. У эпических героев наблюдается святость, а у шаманов- провидцев характерные черты. В этих эпосах причиной борьбы с колдовскими,

темными силами напрямую связывается с мотивом мести племени “Бильгамыс” у шумеров, “Амирани” у грузин, глава “О том, как Басат убил Темяглазого” из “Китаби Деде Горгуд”, глава “О Дели Домруле”, могут считаться типичными примерами архаичного эпоса.

Классические героические эпосы посвящаются отражению устного этнического творчества периода эпического формирования народов. Прослеживаемая в архаических эпосах видимая мифологизированная история заменяется в классических героических эпосах межплеменными отношениями, кочевой жизнью и рассказами о великих военноначальниках. Этот вид эпоса возникает в процессе единения, развивается и распространяется в период формирования и развития этноса. В классических эпосах такие исторические личности, как правители, военноначальники, герои и т.д., а также события, идеализируются. Историчность здесь не должна и не может восприниматься в буквальном смысле, оттого что в этих эпосах история подается в эпическом стиле, и в общем, подгоняется под мировую эпическую модель.

Эпическое время, отраженное в эпосе, является периодом возникновения народа, его гордого, славного исторического прошлого. Это прошлое (а сказать точнее, историческое прошлое, прошлая жизнь народа) идеализируется как эпическое время. Например, в большинстве глав “Китаби Деде Горгуд” мы часто встречаем фразу “были времена” (“было время”, “в те времена”) : “В те времена благословение огузов было благословением, а проклятье- проклятьем, что не скажут, сбывалось”. Или: “В те времена сыновья не перечили отцам” и т.д..

Конфликт в классических героических эпосах строится на принципе противостояния “мы- наши” и “чужаки” (“чужие”), и читателю это этническое противостояние преподносится под покровом религиозного конфликта. Враг в классических эпосах- это враждебные племена, иначе говоря “иноверцы” или “гяуры” (“неверующие”). В большинстве, верней в больших частях эпоса “Деде Горгуд” мусульмане-огузы называют врагов- гыпчаков“гяурами”. Этническо-национальное чувство гордости является одним из основных этнопсихологи воплощений классических эпосов.

В романических эпосах, как правило, отражаются феодальный гнет, захват земель иноземцами, а также классовые распри, споры и разногласия. На пути к идеальной справедливости в эпическом сознании усиливается интерес к образу, образам борющихся за справедливость народных мстителей. Дастан “Кероглу” и английская баллада о Робин Гуде, с этой точки зрения, будучи героическими эпосами, имеют общие типологические особенности. Кероглу,

выбравший (избравший) местом стоянки и проживания Чанлыбель и Робин Гуд, разместившийся вместе со своими оруженосцами, в лесах, в дальнейшем превращаются в идеальных народных героев, борющихся за истинную справедливость.

В произведениях В.Я.Проппа “Русский героический эпос” (1958), В.М.Жирмунского “Народный героический эпос”(1962), Б.Н.Путилова “Героический эпос и реальность”(1988) и в книгах других известных авторов, в общем, наблюдается типологический подход к героическому эпосу и высказываются очень ценные предположения в области теории этноса.

Эпос, если выражаться образно, это устная “визитка” народа. В большинстве случаев, эпосу снова придаются смысл и содержание, основываясь на исторические факты, обогащенные представлениями народа.

ЛИТЕРАТУРА:

1. Жирмунский В.М. Народный героический эпос. М.Л., 1962
2. Мелетинский Е.М.Происхождение героического эпоса. М., 1963
3. Путилов Б.Н. Героический эпос и реальность. М., 1988
4. Пропп. В.Я. Русский героический эпос. М., 1958
5. Литературный энциклопедический словарь. Москва: Советская энциклопедия, 1987

S.Orudjova

Turkic nations’ genre of epic

Summary

It is informed about genre of epic belonging to Turkic nations in this article. This is called Epos or Epic in paralleled. Epic is a visit card of Folklore. In the most of cases for explaining the meaning of epos it is based on historical facts.

As you know in the process of creation of epic the mythology plays an important role. In this article it is widely mentioned about this fact.

For instance, Gods also appear in the more ancient Azerbaijan epics.

Epics like “Bilgamish”,”Iliad”,”Odysey” Gods are participating in the people’s life and welfare.

Despite these epics it is informed about other epics. For example, “Book of Dede Korkut”, ”Manas”, ”Oguz Khagan”and etc.

S. Orucova

Türkdilli xalqlarda dastan janrı

Xülasə

Məqalədə türkdilli xalqlara məxsus olan dastan janrı haqqında məlumat verilir. Bəzi türkdilli xalqlar arasında bu janra paralel olaraq, epos və dastan deyilir. Epos şifahi ədəbiyyatın vizit kartıdır.

Bir çox hallarda eposa tarixi faktlara əsaslanaraq məna verilir. Bildiyimiz kimi, eposun yaranmasında, mifologiya da böyük rol oynayır. Bu fakt haqqında məqalədə geniş söz açılır.

Məsələn, daha qədim Azərbaycan eposlarında Allahlar da iştirak edirdilər. "Bilqamış", "İlliada", "Odisseya" kimi eposlarda Allahlar insanların həyat və məişətində də iştirak edirdilər. Bu eposlardan başqa, məqalədə müxtəlif eposlar haqqında məlumat verilir. Məsələn, "Kitabi-Dədə Qorqud", "Manas", "Oğuz Xaqan" və s.

Rəyçi: **Nadir Məmmədli**
filologiya üzrə elmlər doktoru, professor

TOFİQ ƏBDÜLHƏSƏNLİ
UNEC – in kafedra müdiri,
filologiya eoktoru elmləri doktoru
ELFİRA BAĞIRZADƏ
UNEC-in baş müəllimi

BEYNƏLXALQ MÖVZULAR POEZİYA MÜSTƏVİSİNDƏ

Açar sözlər: istedadlı, şərq, Avropa xalqları, mübarizə, dərd, problem.
Ключевые слова: талантливый, восточный, европейские народы, твердость борьбы, горе, проблема
Key words: talented, eastern, European peoples, struggle, trouble, problem.

İstiqlala qədərki illərdə beynəlxalq mövzulu şeirlərdə həyat mənzərəsindən götürülmüş səciyyəvi bir hadisə (və yaxud həmin ölkənin tarixi ilə bağlı çox ibrətli bir fakt) şairi bu şeiri yazmağa məcbur edən, öz millətinin taleyi ilə bağlı məqsədini əyaniləşdirmək üçün bəhanə kimi seçilir.

Köhnə bazarında Portobellonun,
Təzəli-köhnəli nə istəsən var.
Qəribə şəhərdir bu qoca London.
Satılır bazarda lap açıq-aşkar,
Faşist ordusundan qalma medallar. [1]

Burada nə var ki?! Nə olduğunu konkret şəkildə bilmək üçün şeiri axıra kimi, özü də bütün Bəxtiyar Vahabzadə şeirinin kontekstində oxumaq gərəkdir. Şairin yaratdığı poeziyanın, poetik ənənələrin konteksti isə anladır ki, burada «beynəlmiləl informasiya» öz-özlüyündə, ümumiyyətlə, heç bir maraq kəsb etmir, edə də bilməzdi. «Gülüstan»ın müəllifini ancaq mənsub olduğu millətin azadlıqdan məhrum olması həqiqəti maraqlandırırdı. Bir dəfə öz dərdini açıq şəkildə, heç bir bəzək-düzəyə yol vermədən qələmə alan şairin (nəticəsi tarixdən məlumdur) Ezop üslubuna müraciət etməkdən başqa çarəsi yox idi. Ancaq öz təbiətinə, poetik temperamentinə həmişə sadiq qalan şair əksər hallarda Ezop qəlibini də vurub dağıdırdı, özünü orada çox narahat hiss edirdi.

Bu gün eksponat…
Muzeydir yeri.
Adi bir marağa o, hədəf olmuş.
Yarım funt nədir ki…
Onun dəyəri

Onun şöhrətilə bir basdırılmış.
Öyrənmək istədim:- Bu medalların
Kimdir müştərisi?
Dedilər hər kəs.
Anladım, faydası yox sualların,
Mənim duyduğumu o, duya bilməz. [2]

«Mənim duyduğumu o duya bilməz!» Bu qəfil duyğu şeiri fikrən iki yerə parçalamaqla onun bütün orqanizmindən sanki bir ildırım kimi keçir:

Bu medal… Bəlkə də bir pilotundu,
Bunu nahaq yerə almayıb ki, o…
Sizin bir şəhəri dağıtdığından,
Bu xaç nişanını veriblər ona.
Atanın qanıdır üstündə yanan,
Yaxşı bax sən onun parıltısına. [3]

Əsas söz («Mənim duyduğumu o duya bilməz!») deyildiyindən, şeirin mətnindən müxtəlif yozumlar doğulur. Şeirdə fərqli məkan və zamanların bir-birinə qarışması, qarışıb da fərqləndirilməsi prosesi gedir. Bu proses o qədər qarşısıalınmaz olur ki, ən müxtəlif münasibətlərdə müqayisə özözlüyündə ibrət dərslərini doğurur. Bəs bu ibrət dərsi konkret olaraq nələrdən ibarət idi? Məlumdur ki, Azərbaycanda müstəqil milli respublikanın yağmalanması, bundan sonra isə millətə öz tarixini, milli ənənələrini unutdurmağa xidmət edən son dərəcə əxlaqsız bir prosesin baş alıb getməsi gələcək nəsillərdə milli, özümlü şüurun formalaşması, qorunub saxlanılması üçün böyük təhlükə törədirdi. Tarix elə gətirmişdi ki, Azərbaycan xalqının nümayəndələri də SSRİ-nin müxtəlif maraqları uğrunda qanlar tökməli olmuş, çoxsaylı qurbanlar vermişdilər.

Göründüyü kimi, sual düşünməyə, ətraflı şəkildə götür-qoy etməyə çağırır. Bu tipli şeirlərin, konkret poetik ənənənin dairəsi genişlənib böyüdükcə isə onların xalqın düşüncəsinə təsir etmək imkanları da artırdı. SSRİ-ni, Kommunist Partiyası ideologiyasının başlıca-təməl prinsiplərini dünyada təbliğ etmək məqsədilə müxtəlif xarici ölkələrə ezamiyyətlərə göndərilən şairlərin əksəriyyəti oradan milli şüura xidmət etmək üçün bol-bol materialla geri dönürdülər.

Biri çayın bu tayından,
Biri çayın o tayından
İki qardaş,
Dayanıbdır yad ölkədə
Üz-üzə. [4]

Bu şeir də («Qürbətdə görüş») Bəxtiyar Vahabzadənin London təəssüratını əks etdirir. Şeirin təsir dairəsinin geniş olması onun əsas faktını təşkil edən konkret tarixi hadisənin yeganə olmamasıdır. Şairin özünün də mənsub olduğu millətin yaddaşında dərin şırımlar açmış bu fakt son dərəcə canlı bədii lövhələrin yaradılması üçün böyük rol oynayır.

Maraqlıdır ki, Azərbaycan şairlərinin, o cümlədən B.Vahabzadənin beynəlxalq mövzularda yazmış olduğu əsərlərdə əslində dolayısı ilə Azərbaycan xalqının azadlıq istəyinin əks etdirməsini Türkiyə ədəbiyyatşünasları da sezmiş və müəllifin əsərlərini yüksək dəyərləndirmişlər. Məsələn, Hüsniyyə Mayadağlının «B.Vahabzadənin əsərlərində sətiraltı ifadələr» adlı məqaləsində bu məqama diqqət yetirilir: «Dan yeri» kitabında (1973) çap etdirdiyi «Neo» şeirinin əvvəlinə «Asiya və Afrika yazıçılarının Daşkənd müşavirəsində təəssüratı» sözlərini yazsa da, bu şeirdə müstəmləkə halına salınmış, Rusiyadan asılı vəziyyətdə yaşayan Azərbaycan, özbək, türkmən və s. millətlərin taleyi nəzərdə tutulmuşdur.

«Payız düşüncələri»ndə «Azadlığın özünün olmadığı yerdə sözünün bol olduğunu» söyləyən B.Vahabzadə ömrü boyu azadlıq mövzusunu dilə gətirmiş, istər Əlcəzair, istər Fələstin azadlıq hərəkatlarından, istərsə də Vyetnamdan bəhs edən əsərlərində ürəyində həmişə öz Vətəni Azərbaycanı tutmuşdur». [5]

Azərbaycanın görkəmli şairi Xəlil Rza Ulutürkün yaradıcılığı da tədqiq olunan problem baxımından zəngin material verir. Lakin mövzunu əhatəli təhlil etmək imkanının məhdudluğunu nəzərə alaraq şairin yaradıcılığından ümumi mənzərə fonunda bəzi məqamlara diqqət yetirməklə kifayətlənirik. X.Rza «Qəsbkarlar», «Vyetnam», «Vyetnam qızı Xanoy bala», «Madlen Riffo», «Təbrik», «Nelson Mandela», «Gözün aydın, Almaniya» və b. şeirlərində Şərq və Avropa xalqlarının azadlıq mübarizəsi fonunda Azərbaycan xalqının mübarizə əzmini əks etdirmişdir.

Şairin yaradıcılığının ilk illərində qələmə aldığı, lakin sonrakı illərdə dərc etdirə bildiyi «Qəsbkarlar» şeirində belə misralar var:

Vətən nemətilə bir
Vətən duyğusunu da
Şüurlardan qoparır!
Ürəklərdən qoparır!
Müstəmləkə xərçəngi
Kök atır vicdana da
Virus kimi işləyir
İliyə də, qana da,
Formozada, Qanada, Kanadada, Konqoda.

Dinlə, gör, nələr deyir
İllər boyu susmayan o qırhaqır
Qan-qada. [6]

Bu misraları oxuyan hər bir oxucu adı çəkilən ölkələrin tarixini düşünməklə yanaşı, analoji olaraq Vətən tarixini gözləri önünə gətirir və eyni taleyi yaşayan xalqımızın ağrı, dərd və problemləri üçün narahatlıq keçirir. Şeirin sonrakı sətirlərində şair:

Koreya parçalanmış!
Almaniya parçalanmış!
Hərbin cəhənnəmində,
Vyetnam parçalanmış.
Sönmüş vulkanlar yanır
İnsanların oduna,
Girir buqələmuntək
Fatehlər dondan-dona. [7]

Məlum olduğu kimi, dünyanın parçalanmış xalqları sırasında Azərbaycan xalqı da var. Lakin şair parçalanmış xalqlar sırasında Azərbaycanın adını çəkmir. Oxucu isə şeirin ümumi fikir kontekstində olsun ki, yalnız Azərbaycanı görür və düşünür.

Xəlil Rzanın bu səpkili şeirləri çoxdur. Adı çəkilən və çəkilməyən şeirlərində şair poeziyanın verdiyi imkanlar çərçivəsində Azərbaycan xalqının azadlıq mücadiləsini əks etdirmiş, millətin problemlərinə diqqəti yönəltməyə çalışmışdır.

Belə mövqe Azərbaycanın digər şairlərinin də yaradıcılığına xasdır. Bu siyahıya Məmməd Arazın da şeirlərini aid etmək olar. M.Arazın «Ağ şəhərli qaralar» şeirinin fakturası, necə deyərlər, tədqiq olunan mövzu ilə o qədər də uyğun gəlmir. Hər şeydən qabaq ona görə ki, şairin məxsusi poetik ifadə vasitələri, bütövlükdə poetikası buna imkan yaratmır.

Keçdi yollarımız Araldan, Nildən.
Bu ağ şəhərlərin qara dərdini,
Çıxara bilmədim öz ürəyimdən. [8]

Şübhəsiz ki, şairin bütün diqqəti öz dərdini yazmaq üstünə köklənmişdir. Ağ-qara təzadı isə, sadəcə olaraq, bütün millətlərin, dünyanın tarixində ziddiyyətli, paradoksal məqamların poetik dərkini əyaniləşdirmək məqsədini güdür.

Fikrimizi əsaslandırmaq məqsədi ilə professor Yaşar Qarayevin Məmməd Araz poeziyası barədə qeydlərinə müraciət edək:

«Eyfel qülləsində», «Araz yadıma düşdü», «Qoruyaq dünyanı», «Azərbaycanım mənim» - həm şairin, həm də Azərbaycan poeziyasının təkamülündə yeni mənəvi iqlimin və tarixi mərhələnin, «hava və qan dəyişmə»nin ədəbi məqamları və bədii sənədləri olan şeirlərdə şair bir ənənənin yox, minillik əxlaq, fəlsəfə, hünər və poeziya irsinin (yaddaşının) varisi kimi çıxış edirdi: insan, təbiət, tarix, tale- bir assosiasiyada qovuşub kəsişirdi»:[9]

Bir taleyin oyununda cütlənmiş zərik,
Yüz il qoşa atılsaq da qoşa düşmərik.
Bir zərrənin işığına milyonlar şərik.
Dünya sənin,
Dünya mənim,
Dünya heç kəsin!» [10]

Yəni məsələ bundan ibarətdir ki, Məmməd Araz ürəyində qövr eləyən dərdi parlaq şəkildə ifadə etmək üçün heç də həmişə ibrətli misal səviyyəsində dayana bilən tarixi faktlara müraciət etmir. O, daha çox, bütün bu kimi cəhətlərdən sərf-nəzər edərək, mətləbə, mövzunun fəlsəfi yönümündən ümumiləşdirilməsinə fikir verir.

Məsələ burasındadır ki, «Məmməd Arazın poetik təfsirində Dünya monumental obraz səviyyəsinə yüksəlir. Dünya əbədidir, daimidir, mənim və hamınındır, eyni zamanda, o, nə mənim, nə sənin, nə də heç kimindir (əslində yenə hamınındır)». [11]

Tənqidçi Vaqif Yusiflinin bu fikrini Məmməd Araz poeziyasının bütün kontekstində, o cümlədən onun Şərq və Avropa xalqlarının azadlıq mübarizəsinə həsr etdiyi şeirlərinin ümumi ruhunda araşdırmalı olsaq, onu bir şair kimi digərlərindən fərqləndirib ayıran cəhətləri də aşkarlamış olarıq. Bizim mövzumuzla bağlı olmadığı üçün və həm də geniş araşdırma tələb etdiyi üçün bu spesifik cəhətlərin geniş şərhindən sərf-nəzər edirik. Təkcə bunu xatırladaq ki, Məmməd Araz poeziyasında fəlsəfi ümumiləşdirmələrə meyl müəyyən mənada konkret, süjetli lövhələrin cızılmasını kənarlaşdırırdı. Bu baxımdan, deyək ki, Qasım Qasımzadə poeziyası zəngin material verir. Yuxarıda adını xatırladığımız «Çətir ürək» şeirini tədqiqata cəlb etmək, fikrimizcə, yerinə düşərdi.

Ötən əsrin 70-ci illərindən başlayaraq formalaşan siyasi lirik ənənələrin əsas xüsusiyyətləri kondensasiya olunur. Dünyada bir-birinin dalınca müxtəlif, son dərəcə zəngin kaleydoskopu xatırladan hadisələrin baş verməsi Azərbaycan şairlərini də dünyanın poetik dərkində yeni ifadə üsullarına yiyələnməsinə sövq edirdi. Düzdür, vaxtilə Səməd Vurğunun böyük bir ənənənin əsasını qoyduğu Avropa şeirlərinin təcrübəsi bütövlükdə

kənarlaşdırılmırdı, əksinə onlar bütün gözəl məziyyətləri ilə 70-ci illərdə yaranan siyasi lirika nümunələrində iştirak edirdi. Yeni gerçəklikdə isə üz-üzə dayanan iki antoqonist təmayül mövcud idi: inqilab və tərəqqi! Mürəkkəb sosial ziddiyyətləri də bu iki əsas təmayülün üzərinə gəlsək, aydın olar ki, adlarını çəkdiyimiz və çəkmədiyimiz şairlər 60-cı illər siyasi lirikasının malik olduğu ənənələri zənginləşdirməyə sadəcə borclu idilər. Bəri başdan qeyd etmək istəyirik ki, bu faktı düzünə yozmaq və başa düşmək normal məntiqə sığası hadisə deyildir. Çünki ideoloji baxımdan qapalı olan sovet rejiminin təmsilçisi olan sovet şairinin İngiltərədəki həyat şəraitinə acıması çox laübalı səslənir. Eyni ilə Çili və digər qlobal səciyyəli hadisələri də qeyd edə bilərik. Şübhəsiz ki, bu konteksdə «vətəndaş narahatçılığı» ifadəsi sırf milli səciyyə daşıyır:

Polad səslər qoyuldumu
Cəh-cəhinə,
Yad ləhcələr qarışdımı
Ləhcəsinə,
Qara əllər onu eldən ayırdımı,
Ana dili məhəlli dil
Sayıldımı,
Donar şair,
Yanar şair,
Ölər şair.
Pələng kimi nərildəyər,
Quzu kimi
Mələr şair… [12]

Göründüyü kimi, Pablo Nerudaya həsr edilmiş bu şeirdə milli varlığın bir çox mühüm problemləri qarışdırılmışdır. Ana dili problemi bu dövr siyasi lirika yaradıcılarını daha çox məşğul edən qayğılar sırasındadır. Digər mühüm problem isə başçı ilə millət, onun tarixi və taleyi arasındakı uçurumu ifadə etməkdədir.

Milli tarixi gerçəkliyin aktual problemlərini qaldırmaq, oxucuya anlatmaq baxımından Fikrət Qocanın da yaradıcılığı zəngin material verir. Onun «Vyetnam süitası», «Ağlar qəzəblənmiş zəncilərə qara əfi deyirlər», «Qərbi Berlində», «Ərəb qızına», «Viktor Xara», «Xose bizim sürücümüz idi», «Tərcüməçimiz Anteya», «Silahlı qız», «Kamilo», «Alva dağında», «İnqilab adası», «Xose Risal», «Salam Vyetnam!», «Kuba leysanları» və digər şeir və poemalarının yazılması yalnız bir məqsədə – milli şüurun oyadılmasına (birbaşa olmasa da) tabe tutulmuşdu:

Aşağıda qıpqırmızı torpaqdı,
Torpaq deyil

Qana boyanmış bayraqdı.
Yer kürəsinin başı üstündə,
Qışqırmaq istədim fikrimi
Afrika torpağı
Afrikalıların əlində olacaq
Azadlıq bayrağı kimi…[13]

Fikrət Qoca xarici səfərlərlə bağlı çoxlu şeir və poemalar yazıb və bunların da əksəriyyəti inqilabi mövzulardadır. Onun epizmi xüsusi bir keyfiyyətə malikdir ki, bu da özünün əsas ifadəsini daha çox lirik haşiyələrə enmək bacarığında göstərmişdir. Yəni, o mənada ki, F.Qoca Kubadan, Avropanın müxtəlif ölkələri, habelə Afrikadan yazdığı əsərlərdə tarixi faktları sadəcə nəql etməkdən sərf-nəzər etmək üçün onları elə bil ki, öz ölkəsində yaşanılmış hadisələr kimi qələmə alır. Belə bir üsul milli düşüncənin sovet rejimi daxilində qadağan edilmiş tərəflərini gizlin surətdə işıqlandırmaq üçün çox əlverişlidir. Bu cəhəti, sona qədər şərh edə bilməsə də, ədəbi tənqid də tuta bilməmişdi.» F.Qocanın bu qəbildən olan həyəcanlarını əks etdirən «Qarğış» şeiri də B.Vahabzadənin lirikası ilə uğurlu şəkildə səslənir. Lirikamızda bu həyəcanlar şairin şəxsi həyəcanları formasında təqdim olunur. Bu çox gözəl keyfiyyətdir və bir daha sübut edir ki, şairlərimizin mənəvi aləmi böyük dünyamızın həyəcan və problemlərinin cəmləşdiyi mərkəzdir. Bu cəhətdən Fikrət Qocanın lirikası xüsusilə fərqlənir.» F.Qocanın yaradıcılığı zamanın aparıcı meyllərinin orijinal poetik baxımından yeni uğurlarla zəngin, onun lirik qəhrəmanı isə həssas olduğu qədər də ardıcıl və prinsipialdır. Bu qəhrəman həyatla, zamanla heç bir güzəştə getmədən, necə deyərlər, bərabər əsaslar üzərində danışmağı bacarır. [14]

Təhlilə cəlb edilən ədəbi örnəklər göstərir ki, «… siyasi şeirlərdə müəllifin lirik «mən»i həmişə qabarıq şəkildə müşahidə olunur. Bu baxımdan son illərin siyasi şeirində lirik «mən»in daha qabarıqlaşması təbii təsir bağışlayır. Bu meyl ciddi ictimai-siyasi və beynəlmiləl mövzular üçün xüsusilə səciyyəvidir. [15]

Köksüz, ənənəsiz poeziya olmadığı kimi, öz mövcudiyyətini hansı bir dövrdəsə başa vurub qurtaran, gələcəyə yönəlməyən poeziya da təsəvvürolunmazdır.

Ədəbiyyat

1. Bəxtiyar Vahabzadə. Payız düşüncələri. Bakı. Yazıçı. 1981. Səh177
2. Bəxtiyar Vahabzadə. Payız düşüncələri. Bakı. Yazıçı. 1981. Səh177
3. Bəxtiyar Vahabzadə. Payız düşüncələri. Bakı. Yazıçı. 1981. Səh177

4. Bəxtiyar Vahabzadə. Payız düşüncələri. Bakı. Yazıçı. 1981. Səh181
5. Hüsniyye Mayadağlı. Bəxtiyar Vahabzadenin eserlerinde setiraltı ifadeler. " Türk edebiyyatı" dergisi, çubat 1994
6. Xəlil Rza . Məndən başlanır Vətən. Bakı. Yazıçı. 1988. Səh 296 – 297
7. Xəlil Rza . Məndən başlanır Vətən. Bakı. Yazıçı. 1988. Səh 296 – 298
8. Məmməd Araz. Dünya sənin, dünya mənim.... Bakı. Yazıçı. 1983, səh127
9. Məmməd Araz. Dünya sənin, dünya mənim.... Bakı. Yazıçı. 1983, səh 68
10 .Məmməd Araz. Dünya sənin, dünya mənim.... Bakı. Yazıçı. 1983, səh 68-69
11 .Vaqif Yusifli. Məmməd Araz dünyası. Bakı. Şur, 12994. Səh 65
12 . Cabir Novruz. Şairi Öldürdülər. "Azərbaycan jurnalı" 1977,№4
13 . Fikrət Qoca . Ulduzlu düşüncələr. Bakı, 1978, səh 45
14 . Bəkir Nəbiyev. Müasirlərimiz bədii ədəbiyyatda. Bakı, 1983 səh 78
15 . Rəhim Əliyev. Poeziyanın təbiiliyi. Bakı. Yazıçı. 1988, səh 9

Т.Абдулгасанли,
Е.Багирзаде

Международные темы в поэзии

Резюме

Статья посвящается очень актуальной теме. Известно, что феномен поэзии взятый с жизненной точки зрения, в стихах посвященной международной теме является предлогом для определения цели судьбы, его страны которая заставляет поэта написать это стихотворение.

Чтобы узнать, что происходит в этом типе поэзии, о чем идет речь нужно читать стихи в контексте самого поэта. Контекст поэзии, поэтические традиции созданные поэтом, объясняют что, само выражение «международная информация», в общем не имеет к этому никакого отношения. Например, народного поэта Бахтияра Вахабзаде в поэме «Гюлюстан» интересовала истина нации лишенной свободы, той нации к которому он принадлежал. Однако, поэту не оставалось другого выхода как обратится к Езопскому стилю без всякой гиперболизации. Но поэт, который всегда был верен своей природе и поэтическому характеру, разрушил сердце Эзопа и чувствовал там себя очень неудобно.

В этой статье поэтические содержания перешедшие от таких поэтов как Халил Рза Улутюрк, Мамед Араз, отличаются актуальностью обращения к общенациональным темам.

T.abdulqasanli,
E. Bagirzade

International themes on poetry

Summary

The article is devoted to a very relevant topic. It is known that a poet (or a very well-known fact about the history of that country) taken from life in poetry on international themes is chosen as an excuse to describe the purpose of his poet, which forces him to write this poem.

In order to find out what happens in this type of poetry and what goes from the poetry, it is necessary to read poetry in the context of poetry. The context of poetry and poetic traditions created by the poet, however, is that the "international information" in itself, in general, has nothing to do with it.

For example, the poet Bakhtiyar Vahabzadeh's "Gulustan" poem was only interested in the fact of the nation's deprivation of liberty. Once, the poet had no choice but to appeal to the Ezop style, without expressing his troubles openly and

Rəyçi: Maarifə Hacıyeva
filologiya elmləri doktoru, professor

SAMİRƏ MƏMMƏDLİ
Filologiya üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universiteti
samira_mamaedli@mail.ru

N.ƏBDÜRRƏHMANLİNİN TƏRCÜMƏLƏRİ MÜASİR TƏRCÜMƏŞÜNASLIQ NƏZƏRİYYƏSİ KONTEKSTİNDƏ

Açar sözlər: bədii tərcümə, roman, kontekst, elmi-nəzəri, mütərcim
Ключевые слова: литературный перевод, роман, контекст, научно-теоретический, переводчик
Key words: literary translation, novel, context, scientific-theoretical, translator

N.Əbdürrəhmanlı nəinki öz ölkəsində, eləcə də dünya miqyasında nüfuz qazanmış bir sıra müəlliflərin əsərlərini dilimizə çevirmişdir. O, 80-ci illərin ədəbiyyatımıza qazandırdığı nəslin nümayəndəsidir. Bədii nəsr kontekstində sınanmış qələm sahibi olan N. Əbdürrəhmanlı paralel olaraq bədii tərcüməylə də ciddi və ardıcıl məşğul olur, gürcü, rus və türk dillərindən dünya ədəbiyyatı nümunələri onun tərcümə işləri içərisində yer alır. Onun son illərdəki tərcümə fəaliyyəti xüsusi qeyd olunmalıdır. Qoderzi Çoxeli, Rasim Özdənörən, Fərəh Pəhləvi, Andrey Platonov, Fyodor Dostoyevski, Paulo Koelyo, Mürriel Maufroy, o cümlədən, Orhan Pamuk, Əlif Şəfəq, İsmayıl Saryal və s. müəlliflərin yaradıcılığı ilə tanışlıqda N.Əbdürrəhmanlı tərcümələri özünəməxsus rol oynayır. Bu iş çərçivəsində onun tərcümə fəaliyyəti bədii tərcümənin elmi-nəzəri problemləri fonunda araşdırılır.

Əvvəlcə demək lazımdır ki, bədii tərcümə ədəbi yaradıcılığın bir növü olub, bir dildə olan bədii mətnin başqa dildə təcəssümü hadisəsidir. Təbii ki, bu, maraqlı olduğu qədər də mürəkkəb prosesdir. Çünki, mövcud prosesin iştirakçısı hər iki dilin dil imkanlarını - dil, struktur məsələlərini yaxşı mənimsəməli, mətn qavrayışı güclü olmalı, obyetki həm detal, həm də bütöv variantda görməyi bacarmalıdır. Bədii tərcümə prosesində ən çox rast gəlinən çətinliklərdən biri, bəlkə də birincisi, orijinal mətnin dil-üslub məsələlərini qoruyub saxlamaqmı, yoxsa, onun oxucu tərəfindən qavranılması tendensiyasına sadiq qalmaqmı dilemmasıdır. Əgər nəzərə alsaq ki, tərcümə prosesində iştirak edən mövcud mətnlər həm də müxtəlif xalqları və mədəniyyətləri bir-birinə daşımaq funksiyasını yerinə yetirir, o zaman tərcüməçinin məsuliyyəti anlaşılar. Akademik B. Nəbiyevin də qeyd etdiyi kimi, «Vətənimizin tarixi təcrübəsi xüsusilə aydın göstərir ki, həm mədəniyyətin inkişafı, həm də bütünlüklə milli münasibətlərin daha da yaxşılaşması, geniş-

lənməsi və təkmilləşməsi üçün xüsusi emosional təsir gücünə malik ən səmərəli vasitələrdən biri bədii ədəbiyyatlar, onların qarşılıqlı əlaqələri və həmin əlaqələrin ən çox yaşayan, təsir göstərən sahəsi bədii tərcümədir» (8; 256). Bu mənada tərcüməçinin üzərinə böyük məsuliyyət düşür. O, həm ana dili, həm də tərcümə etdiyi dilin imkanlarını yaxşı bilməli, xüsusilə, tərcümə mətni kontekstində mövcud millətin, ya da xalqın etnik təfəkkürü, tarixi, psixologiyası, hissiyyatları, həyat tərzinə yaxşı bələd olmalıdır. Əslində, bədii tərcümənin ədəbi yaradıcılıqdan fərqi, birincinin ikinciyə nəzərən obyektdən asılı olmasıdır. Bu səbəbdən də, tərcümə mətnləri bütün hallarda uğurlu olmaya bilir. Bu mənada N.Əbdürrəhmanlının bədii tərcümə fəaliyyətini bir neçə əsas istiqamətdə araşdırmağı məqsədəuyğun hesab edirik. Qeyd edək ki, bu müddəalar bədii tərcümənin prinsipləri əsasında formalaşır: bədii tərcümə sənəti intellektual-yaradıcılıq fəaliyyətinin bir növüdür və bu həqiqət qədimlərdən sübuta yetirilmişdir. Bunun bir sıra səbəbləri var: 1) Bədii tərcümə və ümumən, tərcümə bir sənət növü kimi müxtəlif bilik sahələri, onların konkret mənbələri ilə sıx şəkildə bağlıdır; 2) Tərcümənin mədəniyyətşünaslıqla (kulturologiya) bağlılığı bir çox cəhətlərlə diqqəti cəlb edir. Hər hansı mətn parçasında hifz olunan bədii enerji həm də konkret realiyalarla bağlıdır, o realiyanı və necə deyərlər, onun "ətrafını" bilmədən tərcümə düzgün olmayan informasiyanı ötürər, yaxud naqislik və boşluq yaranar, növbəti abzas və mətn parçası anlaşılmaz, havadan asılı qalar; 3) Bədii tərcümə (xüsusi ilə bu-!) bir sıra mədəniyyətlərin qarşılıqlı təsirini nəzərdə tutur. Tərcümədə hər hansı yad mədəniyyət haqqında məlumat ötürülür. Belə ki, mədəni spesifikanın araşdırılması təkcə kulturoloji deyil, dil hadisələrinin də mənalandırılması anlamına gəlir. Bədii tərcümə ilə ədəbiyyat arasında (eyni zamanda tərcümə nəzəriyyəsi ilə ədəbiyyatşünaslıq) sıx əlaqə var - başqa bir millətin ədəbi irsi və müasir ədəbiyyat hadisələri başqa bir xalqın dilində səslənir. Ümumiyyətlə, "tərcümə" anlayışı özü çoxtərəfli və çoxmənalıdır. Belə ki, o, intellektual fəaliyyət növü olub, həm proses, həm də prosesin nəticəsidir. Bu məqamda vurğulamalıyıq ki, bir mütərcim, xüsusən də söhbət bədii mətn tərcüməçisindən gedirsə, bir sıra yüksək keyfiyyətləri özündə ehtiva etməlidir; hətta bəzən tərcümə faktının müəllifindən - yəni, orijinal mətni yazandan daha artıq olmalıdır ki, mövcud informasiyanı və mətnaltı mənaları maksimum ötürə bilsin. Bu yerdə dövriyyəyə tərcüməçinin yazıçılıq qabiliyyəti girir. Deməli, o həm də yuxarıda qeyd edildiyi kimi, yaradıcı təxəyyülə sahib olmalıdır. Bütün bunlar mütərcimdən qırılmaz təhkiyə üsulu tələb edir ki, bir sıra tərcümə mətnlərində bununla bağlı ciddi problemlər var. Bu da bir sıra amillərlə bağlıdır; bir tərəfdən tərcüməçinin konkret mədəniyyət, xalq yaxud da müəllifi mənimsəməsi və ya əksi ilə bağlıdırsa, digər amil günümüzdəki ticari səbəblər, mətnlərin interaktiv tərcüməsi və nəhayət, mətnin bütöv vahid kimi qavranılmaması,

nəticədə mətnlərarası əlaqənin, dolayısıyla da mənanın qırılmasına gətirib çıxarır. Bu, həm də mətndaxili ritmin tərcüməçi tərəfindən müəyyənləşməsi prosesinə xələl gətirir. Amma biz mövcud kontekstdə həm də uğurlu nümunələrə toxunmalıyıq. N.Əbdürrəhmanlı maraqlı dünyaduyumu ilə orijinal bədii mətnlərə imza atsa da, həcm etibarilə onun tərcümə nümunələri şəxsi bədii yaradıcılığını üstələyir. Deməli, onun bədii tərcümə sahəsindəki fəaliyyəti daha gərgin, məhsuldar, yüksək templi və çoxşaxəlidir. Bu səbəbdən konkret mətn və yaradıcılıqlar fonunda N. Əbdürrəhmanlının tərcüməçilik fəaliyyətini tədqiqata cəlb etməyi məqsədəuyğun hesab edirik. Ümumiyyətlə, onun tərcümə etdiyi müəllif və mətnlərə nəzər saldıqda bu arealın istər üslub, istərsə də xarakter baxımından nə qədər fərqli və çoxtərəfli olduğunu görməmək mümkünsüzdür. Amma N. Əbdürrəhmanlı bütün bunları belə demək mümkünsə, eyni məntiqə tabe etməyi bacarır. Bu da onun bu sahədəki qabiliyyət və peşəkarlığından irəli gəlir. Müsahibələrinin birində deyir ki: "Məncə tərcümədə əsas şərt öz dilinin imkanlarını mükəmməl bilməkdi. Əlbəttə, müəllifin ruhunu tutmaq, mətnin içinə girmək, bunca məşəqqətli, naşükür işdən zövq almaq da vacibdi, amma öz dilinə bələd deyilsənsə, gördüyün işi ancaq texniki çevirmə adlandırmaq olar"(1). Nobel mükafatçısı alman yazıçısı Henrix Bollun "Axşam", Kolumbiyalı Nobel mükafatçısı Qabriel Qarsia Markesin "Məhəbbət əvəzinə ölüm labüdlüyü" hekayələr kitabını, Vasili Radilovun "Qırğızlar" tədqiqatını, Şəms Bəllinin "Atatürkün eşq həyatı"nı, bir müddət sonra isə Q. Q. Markesin "Gəmidən dənizə yıxılan adamın hekayəti" povestini, "Vəba çağının sevgisi" romanından bir parçanı, Yuri Kazakovun" İki nəfər dekabrda" hekayəsini, Herman Hessenin "Gənc şairə məktub", "Dil", Onore De Balzakın "Gözəllik haqqında traktat", E.Q.Markesin "Təbaşir dairəsi" esselərini, U.Folknerin "Qısqanclıq", "Nimfolepsiya", Yuko Missimanın "Qatilin fəlsəfi gündəliyi","Turşəng çiçəkləri", Haruki Murakaminin "Öyümə", Boris Polevinin "Kafedəki Ziqmund", Hənif Qüreyşinin "Dörd mavi stul", Patrik Züskindin "Dərinlik həsrəti ", "Təkbətək", Milorad Pavliçin "Uzun gecə səfəri" roman, povest, hekayə və esseləri dilimizə çevirərək müxtəlif mətbu orqanlarda çap etdirmişdir. Göstərilən tərcümə mətnləri tərcüməçinin bu sahədəki fəaliyyətinin nisbətən ilkin mərhələsinə aiddir. Növbəti mərhələdə bir - birinin ardınca dünya ədəbi müstəvisində yer alan və maraqla oxunan seçilmiş nümunələr məhz onun tərcüməsində Azərbaycan dilində reallaşır və geniş oxucu kütləsinə təqdim olunur. Qeyd edək ki, sözü gedən mətnlər həcm və mündəricə baxımından kifayət qədər mürəkkəb əsərlərdir; “Qumarbaz” (F.Dostoyevski), “İşıq savaşçısının kitabı”, “Zahir”, “Məktub” (Paulo Koelyo), “Qara kitab”, “Mənim adım qırmızı”, “Beynimdə qəribəlik” (Orhan Pamuk), “Saatları qurma institutu” (Əhməd Hamdi Tanpınar) “Eşq”, “Qara süd” (Əlif Şəfəq), “Eşqin kimyası”(Müriel Maufroy), “İstanbul

xatirəsi" (Əhməd Ümid), "Bakı rüzgarı" (İsmayıl Saryal) və s. kimi nümunələr məhz Nəriman Əbdürrəhmanlı tərcüməsində ana dilində müəyyənlik qazandı. Özü mövcud prosesi belə izah edir: "Həmişə demişəm, yazmaq istədiyim, amma taleyin hökmü ilə yaza bilmədiyim əsərləri dilimizə çevirirəm. Səmimi deyirəm, o əsərlərin altında imzamın olmasını arzuladığımdan çevimişəm. Ola bilsin, həm də sıra nəfəri olduğum Azərbaycan nəsrinin dünya ədəbiyyatının hansı nöqtəsində olduğunu qeyri-şüuri aydınlaşdırmaq istəyi də tərcüməyə baş vurmağa imkan verib " (3, 203). Təcrübə göstərir ki, yaxşı mütərcim bəzən yaxşı yazıçını tərcümə obyekti olan mətnlərin içərisində əridib yox edə bilir; nəticədə bədii tərcümə mətnləri qazanır. Hazırda Azərbaycan ədəbi platformasında bu sahəyə diqqət və üstünlüyün olması bu mənada müəyyən güzəştlərin sayəsində reallaşır. Deməliyik ki, son zamanlar bədii tərcümədəki tezliyin artması milli ədəbiyyatın inkişafına və zənginləşməsinə müsbət mənada təsir göstərir. Bədii tərcümə yazıçıya (əgər yazıçı həm də mütərcimdirsə-!) başqa perspektivlər axtarmaq imkanı verir, onun baxışlarının üfüqlərini genişləndirir. Yaradıcılıq prosesi üzərində çoxillik müşahidələr sübut edir ki, üslub və metod anlayışında iştirak edən qurucu komponentlərdən biri "vərdiş"dir. Yəni, hər hansı yazıçının əsərlərini ardıcıllıqla mütaliə edən şəxs onun üslub və metoduna maksimum yaxınlaşır, hansı məqamda nələri deməsi qabaqcadan müəyyənləşir. Ancaq başqa dillərdən deyək ki, eyni mövzularda tərcümə edilən əsərlərin oxusu bu vərdişin müəyyən səviyyədə aradan qalxmasına yardımçı olur. Və beləliklə, bədii tərcümə təcrübəsi yaradıcılıq və oxu metodunun zənginləşməsinə, öz dar, məhdud çərçivəsini aşıb geniş üfüqlərə çıxmasına təkan verir.

N.Əbdürrəhmanlı öz xarakteri barədə yazırdı: "Mən təbiətcə konflikt adamı deyiləm, amma haqsızlıqlara qarşı da dözümlü ola bilmirəm. Susuram, hər şeyi olduğu kimi qəbul etməyə çalışıram, artıq işləməyin mümkün olmadığını görəndə öz iynəmi papağıma sancıb, papağımı götürüb gedirəm " (12) Belə kəskin, eyni zamanda müstəqil xarakter onun təhkiyəsində də sezilir. Fikrimizcə, analitik təhkiyə üslubu onun xarakterik mətn üslubudur ki, bu, onun tərcümə mətnlərində də realizə olunur. Deməliyik ki, mövcud manera hər zaman yerinə düşməyə bilir. Çünki, bəzi mətnlər (xüsusilə yuxarıda qeyd olunan romanlar-!) mürəkkəb fikir strukturuna malik ola bilir və məna adətən, mətnin alt yaruslarında gizli olur. Belə hissələrdəki fikri quru, analitik tərzdə ötürməli olsanız, təbii ki, məqsədə nail olunmayacaqdır. Bu mənada hər hansı mətnin dilini çevirmək üçün hər iki dilin dil qanunlarını mükəmməl bilmək azlıq edə bilir. Bunun üçün dili hiss etmək və onun ritmini müəyyənləşdirmək lazımdır. Bəzən mənanı hətta, ritm təyin edə bilər. Mövcud situasiya zəif tərəflərilə bəzi hallarda N.Əbdürrəhmanlının bədii tərcümə faktlarında özünü göstərir.

Deməliyik ki, milli bədii tərcümə sahəsində bu sahənin istiqamətlərini müəyyənləşdirən, həmçinin, onun üstün cəhətlərilə yanaşı, naqis tərəflərini nəzər nöqtəsinə çevirən, tənqidi baxımdan qiymət verən fəaliyyət növü formalaşmayıb. Lakin bəzi məqamlarda mətbuatda, digər platformalarda müxtəlif ədəbiyyat məsələlərilə birgə, bədii tərcümə problemləri, bu sahədəki çətinliklər, üstünlüklər, habelə müəyyən tərcümə faktlarının təhlili və qiymətləndirilməsi məsələlərinə toxunulur. Arzuolunandır ki, bu tipli layihələr fraqmental deyil, mütəmadi xarakter daşısın. Yeri gəlmişkən qeyd edək ki, bir müddət əvvəl mətbuatda tərcüməçi-esseist Seyfəddin Hüseynlinin bu istiqamətdə silsilə yazıları dərc olundu. O, mövcud kontekstdə tərcümə mətnlərini təhlilə cəlb edir, uğurlu və uğursuz örnəkləri göstərirdi. Deməliyik ki, özünəməxsus üslubu olan bu yazılar ətrafda müəyyən mənada qıcıq da doğurdu. Amma ümumən, bədii tərcüməçilik baxımından bu xarakterdə addımların atılması labüddür. S.Hüseynli həmin yazılar çərçivəsində N. Əbdürrəhmanlının da son tərcümələrinə toxunmuş və xeyli kəskin dillə tənqid etmişdir. Mətbuatda Əlif Şəfəqin "Eşq" romanı tərcüməçinin daha uğurlu nümunələrindən hesab olunur. Lakin S.Hüseynli romanın tərcüməsində ciddi qüsurların olduğunu, redaktor işinin zəifliyini qeyd edirdi ki, əsərin dilimizdəki redaktoru (Pərviz Cəbrayıl) bu iddialarla qətiyyən razılaşmır. Bir sıra mütəxəssislərin də qeyd etdiyi kimi, mütərcim mətni tərcümə edərkən, həmin mətni dəfələrlə oxuduğu üçün, onu özününkiləşdirə bilir. Bu səbəbdən də hansısa hissənin, ya da leksemin ana dilində nə dərəcə doğru səslənməsi nəzərindən yayına bilər və bu təbiidir. Çünki, mövcud kontekstdə o, diqqəti mənanın tərcüməsinə yönəldir. İrəli sürülən müddəalara baxılsa, tərcümə mətnlərinin dilimizi gözəl bilən və hiss edən mətn redaktorlarının müdaxiləsinə də ehtiyac var. Ancaq bütün hallarda, mövcud situasiya biraz da fərdi xarakter daşıyır.

L.L.Nelyubinin fikrincə, bədii tərcümə "tərcümə edilən əsərin ruhunu ötürməlidir" və oxucuda orijinalın öz orijinal oxucusunda yaratdığı təəssüratı yarada bilməlidir"(7, 246). Fikrimizcə, bu xüsusiyyət bədii tərcümə mətnlərini digər tərcümə mətnlərindən ayırır. Deməliyik ki, bu, olduqca çətin və məşəqqətli prosesdir, bir o qədər də zövqvericidir. Burada fikri ifadə edib mənanı çatdırmaq son məqsəd deyil. Həm də konkret mətni doğma dildə yenidən yazmaqdır. "Bədii tərcümənin ikili statusu onun mədəniyyətlərarası kommunikasiya kontekstində oynadığı ikili rola uyğun gəlir: bir tərəfdən tərcümə ediləcək bədii mətn oxucular üçün "orijinalın yerini tutur", digər tərəfdən isə, tərcümə edənin yaşadığı ölkənin mədəniyyətinin faktına çevrilir. Birinci şərt orijinala sadiqliyi tələb edir, ikincisi – tərcümə edilən dil və mədəniyyətin norma və ənənələrinə cavab verən ədəbi-bədii keyfiyyətlərin mövcudluğunu" (11, 3). Düşünürük ki, mətnlərin düzgün tərcüməsinin vacibliyi qədər müəllif üslubunun qorunub saxlanması da mütləqdir. Əks

təqdirdə, əsas müəllif və tərcümə mətnlərilə bağlı yanlış təsəvvürlər formalaşar. Məsələn, Əlif Şəfəqin "Eşq" romanının doğma dildə təqdimatı ədəbi prosesdə müəyyən mənada hadisə xarakteri doğurdu. Bu, ilk növbədə türk romanının nəinki öz ölkəsində, həmçinin, dünyada maraq doğuran mövzusuyla və əsərdəki beynəlmiləlçi ruhla bağlı idi. Roman içində roman texnikası, eyni zamanda həm XII yüzil, həm də XXI əsri hadisələr fonunda əsərin təhkiyə ritmini pozmamaq şərtilə canlandırmaq, kifayət qədər ciddi, sual doğuran məqamlarla zəngin mövzunun araşdırılması və s. elementlər mövcud marağın əsas məqamlarından idi. Təbii ki, belə bir əsərin doğma dildə səslənişi nəzər nöqtəsiydi. Qeyd edək ki, Əlif Şəfəqin olduqca maraqlı təhkiyə ritmi var və ona sadiq qalmaq o qədər də asan deyil. Yəqin ki, göstərilən detallar və digər amillər dolayısıyla əsər Azərbaycan mətbuatında da maraqla qarşılandı. Ümumi rəy müsbət yöndə idi və ümumiyyətlə, "Eşq" romanı N.Əbdürrəhmanlının tərcümə yaradıcılığında xüsusi qiymətləndirilir; "Bundan uzun zaman əvvəllər idi. Bir roman düşdü könlümə. "Eşq şəriəti". Yazmağa cəsarət eləyə bilmirdim. Qırx soba çörək yeməyə göndərdim özümü. Dünyanı dolaşdım. İnsanları tanıdım, əhvalatlar topladım. Üzərimdən çox baharlar keçdi. Sobalarda çörək qalmadı; mən hələ də xam, hələ də eşqdə uşaq kimiydim... " (4, 37). Əsərdən göstərilən hissədə hiss olunur ki, tərcüməçi nəqletmə üslubunu qoruyub saxlamağa çalışıb. Ancaq belə olanda, nahamar ifadələr, cümlələr ortaya çıxıb. Biz yuxarıda mütərcimin tərcümə mətninə həm də yazıçı tendensiyasının vacibliyini belə məqamlar üçün qeyd etmişdik. Seçdiyimiz nümunədə " qırx soba çörək yemək " tərkibi daha çox sətri tərcümədir. Azərbaycan dilində belə bir ifadə yoxdur, ekvivalent kimi doğma dilimizdə işlənən "qırx quyudan su gətirmək" ifadəsini işlətmək olardı. Ümumiyyətlə isə, belə misalların sayını kifayət qədər artırmaq olar. Bənzər vəziyyətlərdə hər iki istiqaməti (məna və üslub!) eyni müstəvidə birləşdirə bilmək məqbul çıxış yolu sayıla bilər.

"Tərcümə vahidi"- müxtəlif tərcümə konsepsiyalarının mühüm aspektidir. Tərcümə vahidi dillərarası kommuniksiyada və məlumatın orijinal dildən tərcümə edilən dildə ifadəsində əsas həlqə sayılır. Əvvəlcə "tərcümə vahidi" anlayışını izah etmək lazımdır ki, bunun əsasında "adekvat" və "ekvivalent" tərcümə məsələsi aydınlaşsın. Bunları izah etdikdən sonra bədii tərcümədə əsas anlayışlardan olan "dil vahidi"ni nəzərdən keçirmək olar. L.S. Barxudarova görə, " tərcümə vahidi problemi müasir tərcüməşünaslığın ən mürəkkəb məsələlərindən biridir "(2, 174). O, dil ierarxiyasından asılı olaraq fonem, morfem, söz, söz birləşməsi, cümlə və mətn səviyyəsində tərcüməni fərqləndirirdi və qeyd edirdi ki, əsas (orijinal) dildə dil səviyyəsini tərcümə edilən dildəki müvafiq səviyyənin vahidinin köməyi ilə vermək lazımdır. Lakin unutmaq olmaz ki, mətnin tərcüməsi çox nadir hallarda “sözbəsöz” həyata keçirilir. Bunun nəticəsində dil vahidini ya cümlə, ya da

bir məna ifadə edən nitq parçası, yaxud bütöv bir mətn kimi götürürlər, çünki ayrı-ayrı söyləmlərin anlaşılması və tərcüməsi məhz mətnin məzmunundan asılıdır (2, 176). Demək lazımdır ki, tərcümə mətnlərindəki bəzi şeir parçalarının tərcüməsində müəyyən boşluqlar var. Bu, N. Əbdürrəhmanlının bədii mətnləri nəzm deyil, nəsr səviyyəsində qavramasından qaynaqlana bilər. Əlif Şəfəqin "Eşq" romanından bəzi şeir parçalarının tərcümə variantlarına nəzər salaq:

"Bir qərib quş misalı
Can yumurtası
Qabiğinda uçammazsan;
Qorxmadan qır yumurtanı
Sağlıqlara uçacaqsan!" (4,72).

Və yaxud növbəti nümunədə:

"Mən nə xristianam,
nə musəvi, farisi, nə də müsəlman;
Nə Doğudanam, Nə də Batıdan.
İkiliyi bir kənara qoydum,
İki aləmin bir olduğunu gördüm" (4, 260).

Mövcud nümunələrdə dil faktı sıxılır. Digər tərəfdən bütün diqqət mənanı ötürməyə mərkəzləşdiyi üçün, ifadə məsələsi nəzərdən yayınır və ritmin pozulması, nahamarlıq və s. problemlərə gətirib çıxarır. "İyirmi altıncı qayda: "Kainat tək vücud, tək varlıqdı. Hər şey, hamı görünməz bağlarla bağlıdı. Ehtiyatlı ol, heç kəsin ahını götürmə; bir başqasına, hələ-hələ səndən zəif olana əziyyət vermə. Unutma ki, dünyanın o biri başında bircə insanın kədəri bütün bəşəri bədbəxt eləyə bilər". (4, 287). Burada " ahını götürmək" ifadəsi var ki, dilimizdə səslənişi yerinə düşmür. "Ah almaq" ifadəsi kontekstdə daha yerinə düşərdi. Ümumiyyətlə isə, bu istiqamətdəki misalların sayını olduqca artırmaq olar.

Bədii tərcümə yazıçıya (əgər yazıçı həm də mütərcimdirsdə-!) başqa perspektivlər axtarmaq imkanı verir, onun baxışlarının üfüqlərini genişləndirir. Yaradıcılıq prosesi üzərində çoxillik müşahidələr sübut edir ki, üslub və metod anlayışında iştirak edən qurucu komponentlərdən biri "vərdiş"dir. Yəni, hər hansı yazıçının əsərlərini ardıcıllıqla mütaliə edən şəxs onun üslub və metoduna maksimum yaxınlaşır, hansı məqamda nələri deməsi qabaqcadan bəllənir. Ancaq başqa dillərdən deyək ki, eyni mövzularda tərcümə edilən əsərlərin oxusu bu vərdişin müəyyən səviyyədə aradan qalxmasına yardımçı olur. Və beləliklə, bədii tərcümə təcrübəsi ya-

radıcılıq və oxu metodunun zənginləşməsinə, öz dar, məhdud çərçivəsini aşıb geniş üfüqlərə çıxmasına təkan verir. Bu mənada N.Əbdürrəhmanlının Gürcü ədəbiyyatının özünəməxsus nümayəndəsi Qoderzi Çoxelidən etdiyi tərcümələri misal göstərmək olar. Tərcüməçi uşaqlıq yaddaşı etibarilə də mövcud arialı istər coğrafi, istərsə də etnik sferada tam mənimsədiyinə görə öz tərcümə mətnlərində həmin ruhu ötürə bilmişdir. Bu səbəbdən həmin əsərlər dil, üslub və orijinala sadiqliq baxımından ədəbi ictimaiyyət tərəfindən də müsbət qəbul olundu. Tədqiqata cəlb etdiyimiz digər iki roman - "Qara kitab" (Orhan Pamuk), "Eşqin kimyası"nda (Müriel Maufroy) tarixi keçidlər, fikir ardıcıllığı və s. məsələlərə tərcüməçi münasibətinə diqqət edilir. Bənzər vəziyyətləri həmin əsərlərdə də müşahidə edirik. Ümumiyyətlə, mətn tərcüməsi fikrin bir dildən başqa dilə transformasiyasıdır ki, özlüyündə çox mürəkkəb hadisədir və N. Əbdürrəhmanlı da bu çərçivədə xüsusi xidmət sahibidir.

Ədəbiyyat

1. Abdin T. "Onlar nə dedilər". "525-ci qəzet", 16 yanvar 2010
2. Бархударов Л.С. Язык и перевод: Вопросы общей и частной теории перевода. М.: Международные отношения, 1975, 240 с.
3. Bəşirov S. İşıq adam. Bakı, 2010
4. Şəfəq Ə. Eşq. Bakı, Qanun, 2012, 464 səh.
5.Əsgərli F. Bədii tərcümənin prinsipləri. ADPU-nun nəş-tı, 2009, 226 səh.
6.Novruzov R. Bədii tərcümənin nəzəriyyəsi və təcrübəsi. Bakı , Mütərcim, 2011, 256 səh.
7.Нелюбин Л.Л. Толковый переводоведческий словарь / Л.Л. Нелюбин. – 5-е изд. – М.: Флинта: Наука, 2008. – 320 с.
8.Nəbiyev B. Roman və müasir qəhrəman. Bakı: Yazıçı, 1987, 295 səh.
9. Maufroy M. Eşqin kimyası. Qanun, 2013, 271 səh.
10. Pamuk O. Qara kitab.Bakı, Qanun, 2013, 484 səh.
11. Казакова Т.А. Художественный перевод: в поисках истины.- СПб.: Издательство СРбГУ , 2006.- 224 с.
12. "Yeni Azərbaycan", 4 noyabr

S.Mammadli

Translations of N. Abdurrahmanli in the context of the modern translation studies
Summary

This article deals with the analysis of N.Abdurrahmanli's fiction translation works in the context of the modern theoretical context of the literary translation. The matter revised in this context includes the author and language areal chosen by the translator to translate them into his mother tongue. It is noticed that N.Abdurrahmanli translates the works of the different authors with various styles from three languages – the Georgian, Russian and Turkish. I.e. the envisaged author is not specialized on few authors' works' translation. It means that he translates the works of authors with different literary systems – from Georgian, Russian or Turkish into Azerbaijani. In this case, the complexity degree of the event to approach towards style and literary method of the original author is increasing. To this end, the author of the article explains the definitions, such as, "translation unit", "text unit", "style", "language" and "method" in the context of literary translation. According to the idea of L.S.Barkhudarov, unlike word-for-word translation, the "translation unit" is the fragment of piece of speech or a whole text expressing a specific meaning.
As a translator, N.Abdurrahmanli has enough experience, his translations have caused different reactions in translation criticism; there are polemic writings about him. The article deals with these reactions, and all these are objectively appraised.

С.Мамедли

Переводы Н. Абдуррахманлы в контексте современной теории перевода

Резюме

В статье анализируются работы по художественному переводу Н.Абдуррахманлы в контексте современной теории литературного перевода. В этом контексте, прежде всего, рассматривается вопрос об ареале авторов и языков, выбранных переводчиком для перевода на родной язык. С этой точки зрения, прежде всего отмечено, что Н.Абдуррахманлы переводит произведения разных авторов с различными

стилями с трех языков - грузинского, русского и турецкого. То есть автор не специализировался на переводе произведений определенных авторов. Это означает, что он переводит произведения авторов с различными литературными системами - с грузинского, русского или турецкого на азербайджанский язык. В этом случае степень сложности передачи стиля и литературного метода оригинального автора возрастает. С этой целью автор статьи объясняет такие определения, как «единица перевода», «текстовая единица», «стиль», «язык» и «метод» в контексте литературного перевода. Согласно идее Л. С. Бархударова, в отличие от двунаправленного перевода, «единица перевода» является фрагментом речи или целым текстом, выражающим конкретный смысл. Как переводчик, Н.Абдуррахманли обладает достаточным опытом, его переводы вызвали разные реакции в критике перевода; и в них есть определенные полемические моменты. В статье рассматриваются эти реакции, и все они объективно оцениваются.

Rəyçi: Vaqif Sultanlı
Filologiya elmləri doktoru, professor

GÜNEL ŞAMXALOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
gunel@mail.ru

BAYRON POEZİYASINDA AZADLIQ VƏ MÜBARİZƏ RUHU

Açar sözlər: Bayron, mübarizə, azadlıq, romantizm, poeziya, romantik
Ключевые слова: Байрон, борьба, свобода, романтизм, поэзия, романтик
Key words: Byron, struggle, freedom, romantizm, poetry, romantic

İngilis ədəbiyyatında öz yaradıcılığı ilə bir dönüş yaradan, romantizmin ən öndə gedən şairlərindən sayılan, qısa ömür yaşayan, lakin bu qısa həyatda dövrünü öz poeziyası ilə təlatümə gətirən Corc Qordan Bayron (1788-1824) irsi bu gün də araşdırıcıların ən mötəbər yaradıcılıq qaynağı sayılır. İstər poetik inciləri ilə, istərsə də natiqliyi, eyni zamanda daxili zənginliyi və xarici gözəlliyi ilə də həmişə diqqətdə olan Bayron bütün bunlara rəğmən əsli –nəcabətli nəsildən idi. Lordlar palatasında irsi yeri olan Bayronu daha çox insan amili, onların hüquqlarının qorunması və zorakılılığa düçar olmamaları üçün edilən cəhdlər və aranan yollar maraqlandırırdı. Daima həqiqət uğrunda mübariz olması onun özü kimi sədaqətli dostlarla ünsiyyət yaratmasına zəmin yaradırdı. İngilis poeziyasının bütün formalarında müasirlərindən fərqli bir üslubda poetik incilər yaratması və tez-tez insanlar arasında, müasir ədəbi və siyasi məclislərdə olması, yazıçı və şairlərlə görüşü onun dünyagörüşünün daha da inkişafına və yeni istiqamət almasında böyük rol oynamışdır. Həm romantik şair, həm rəssam və oyma ustası və eyni zamanda ingilis ədəbiyyatı tarixində özünəməxsus yeri olan Uilyam Bleyk yaradıcılığını hərtərəfli araşdıran tədqiqatçı P.Əliyeva hər şeydən öncə o dövr şairlərinin həyat yoluna işıq çiləyən, onların yaradıcılığa inqilabi bir əhval-ruhiyyə gətirən «daha ciddi mətləblərə xidmət edən», «tarixin gedişini dəyişmək kimi çox böyük vəzifə daşıyan» Fransa inqilabını xarakterizə edərkən yazırdı: «Qonşu Fransada minlərlə adamın qanı bahasına baş verən hadisələr vaxtı insanları dostluğa səsləyən şairin humanist mövqeyi erkən romantizmi şərtləndirən əlamətlərdən biri idi. Təxminən iyirmi-iyirmi bel il sonra poeziya meydanında hegemonluğu ələ keçirən Bayron və Şelli kimi şairlər isə insanları açıq surətdə azadlıq idealları uğrunda qanlı mübarizələrə səsləyirdilər» (3, 38).

Həqiqətən də bu elə bir dövr idi ki, bu dövrdə baş verən Fransa Burjua inqilabı (1789-1793) öz təsirini nəinki Fransanın, eləcə də bir çox Avropa ölkələrində fəaliyyət göstərən bütün sahələrə öz təsirini göstərirdi. Xüsusilə yaradıcı adamlar, romantik qələm sahibləri «Göl məktəbi şairləri bu təsirdən

yan qaça bilməmişdilər, əksinə bu inqilab onların yaradıcılığının əsas qayəsi, daha əzmlə çalışmaq üçün ruh qaynağı olmamışdır. Bir çox sahələrdə, xüsusilə siyasi həyatda çox fəal iştirak edən romantik şairlərin, xüsusilə Corc Qordon Bayronun inqilabi-romantik janrın yaradıcısının, üsyankar poeziyası ilə dövrün bütün ziddiyyətlərinə qarşı çıxan şairin həyatında böyük rol oynamışdır.

XVIII əsr ingilis poeziyası əsasən Aleksandr Popun (1688-1744) adı ilə bağlı olsa da, zəngin ideyaları və həyata fərqli baxışları ilə öz müasirləri arasında öndə getçə də, artıq XVIII yüzilliyin üçüncü yarısında ingilis dramaturgiaysında yeni bir mərhələ, yeni bir maraqlı hərəkat başlamışdı. Amma buna baxmayaraq Aleksandr Pop ənənəsini Bayron davam etdirərək ondan çox bəhrələnmiş və bu təsir xüsusilə Bayronun «Don Juan» əsərində, bir çox satirik poemalarında və şeirlərində özünü göstərmişdir. Sonrakı mərhələdə – romantizm dövründə bu təsir özünü daha çox hiss etdirir. Bayron həmişə öz məsləkinə sadiq qalan, həqiqət carçısı olan və bu yolda ömrünün sonunadək mübariz olan bir şair idi. Təsadüfi deyil ki, hələ Britaniya siyasəti hegemonluq etdiyi çağlarda ingilis dramaturgiyasında qısa yaradıcılıq fəaliyyəti olmasına baxmayaraq silinməz iz qoyan, böyük siyasi natiq olan, lakin sonralar hər şeydən məhrum edilən Riçard Brinsli Şeridan (1751-1816) ağır şəraitdə olan zaman hətta o, parlament fəaliyyətindən uzaqlaşdırılaraq uzunmüddətli həbsxana həyatı ilə qorxudulanda bir çox gənc mübarizlər kimi özünü onun sədaqətli varisi sayan Bayron da onun müdafiəsinə qalmış və müdafiə xarakterli çıxışından sonra onun yanına gəlmişdir. Şairin acınacaqlı – miskin həyatı Bayronu sarsıtmış və o, onun ölümünə hüzn dolu bir şeir ithaf etmişdir. Dövrün haqsızlığı ilə heç cür barışmayan Bayron qısa və tələtümlü həyatının bütün çağlarında ictimai hadisələrlə maraqlanmış, xüsusilə fransız maarifçilərin əsərlərini xüsusi maraqla mütaliə edirdi. «Maarifçiliyin inqilabi romantizmin tərəqqisində çox böyük müsbət rolu olmuşdur. Bu ideologiyanın əsas aparıcıları Volter, Didro, Russonun ideyaları sonrakı inqilabçı romantiklərin həyatındakı rolları danılmazdır. Bu, hər şeydən öncə maarifçiliyə və romantik ideya və estetik sistemə yaxınlaşmaq idi. Digər həqiqət zülm altında əzilmiş insanlığın, feodal zülmün tənqidində, yeni cəmiyyətin yaradılmasına can atılması ideyasında özünü göstərirdi» (4, 123).

Sonsuz vurğunluqla Volterin əsərlərini oxuyan və xüsusisən də Russonun təbliğ etdiyi demokratik fikirlər Bayronun mübarizə ruhunu daha da coşdururdu. İngilis ədəbiyyatını gözəl bilən və eləcə də klassiklərin əsərlərini dərindən mənimsəyən Bayron o dövrdə gizli nəşr edilən satirik ədəbiyyatı da mütaliə edirdi. Bayronun şeir yazması onun çox erkən yaşlarına təsadüf edir. O, unisersiteti bitirdikdən sonra Lordlar palatasında öz irsi yerini tutduqdan sonra səyahət etməyi qərara alır və o, iki il müddətində

Yunanıstanı, Portuqaliyanı, İspaniyanı, Albaniyanı, Türkiyəni və başqa ölkələri səyahət edir və bu ölkələrdə gördüyü təəssüratları nəzmə çəkərək sonralar bunlar «Çayld Haroldun səyahəti» adlı poemasında əsas yeri tutur. O, hələ İngiltərəyə qayıdanda ağır xəstə olan anası artıq vəfat etmişdi. Anasının və eləcə də yaxın dostlarından birinin vəfatı Bayronu sarsıtmış, o, bu ağır itkiləri uzun müddət qəbul edə bilməmişdi.

1812-ci ildə «Çayld Haroldun səyahəti» poemasının nəşri Bayrona şöhrət gətirir. Düşünülür ki, Bayron bu əsərdə Çayld Haroldun timsalında özünün portretini yaratmışdır, lakin deyilən bu fikirlərə o, etiraz etmiş və söyləmişdir ki, o, heç vaxt özünü bu düynada öz qəhrəmanı olan Harolda bənzətmək istəməz, bu ancaq məkan oxşarlığıdır, hətta bunu da etiraf etməzdim…» (2, 16)

Bu poemanı nəşrə hazırlayarkən Bayron çox çətinliklərlə qarşılaşmışdı. Ondan əsərdə olan siyasi xarakterli misraların çıxarılması tələb olunanda Bayron bununla razılaşmamış və çox qətiyyətlə etiraz etmişdir. Çünki, o, əsərdə qoyduğu bütün məsələləri real şəkildə təsvir etmişdir. Bayron bu poemada dövrün ən vacib məsələlərini işıqlandırmışdı. Əsər dəfələrlə nəşr edilmiş və «Bayron yeni bir ədəbi janrın – lirik-epik inqilabi romantik poemanın yaradıcısı olan novator bir sənətkar kimi çıxış etdi. Bayron «Çayld Harold»u ilə İngiltərə və Avropa cəmiyyətinin ənənəvi həyatında yeni bir mərhələ kəşf etdi. Hər iki cəmiyyət Bayronun poemasının qızğın lirik monoloqlarında özlərinin üsyankar əhvali-ruhiyyələrinin konkret təcəssümünü görürdü (6, 107).

Bayron eyni zamanda tərcümə ilə də məşğul olmuş, təsadüfi deyil ki, böyük qələm ustası Vinçenço Filikayanın (1642-1707) «İtaliya! İtaliya» məşhur sonetini Bayron italyan dilindən ingilis dilinə tərcümə edərək «Çayld Harold» (IV fəsil) poemasına daxil etmişdir. Uzun səyahətdən sonra vətəninə qayıdan Bayron ölkənin siyasi həyatında fəal iştirak edir.

O, palatada alovlu nitqlə çıxış edərək hakimiyyətdə olan Tori partiyasının xalq əleyhinə apardığı siyasəti tənqid edir. O, əsasən, ludditlərə edam cəzası verilməsi haqqındakı qanunun əleyhinə çıxaraq onları müdafiə edir və nə vaxtsa onlara qarşı çıxanların ağır cəza alacaqlarını inamla söyləyir.

Ludditlərin adı əfsanəvi Luddun adından götürülmüşdür. Onların mübarizəsinin əsas məqsədi o dövrdə yaranan dəzgahların məhv edilməsinin tələbi idi, çünki dəzgahların tətbiqi hədsiz fəhlələrin işsizliyinə səbəb olurdu və onların var-yoxdan çıxmasına, istismarını daha da artırırdı. Bayron azadlıq, haqsızlıq uğrunda canlarından keçən ludditlərin inqilabi ruhunu öz şeirində əks etdirmişdir. Onun bu şeiri "Ludditlərin nəğməsi" adlanır:

Song for the Luddites
As the Liberty lads o'er the sea

Bought their freedom, and cheaply, with blood,
So we, boys, we
Will die fighting, or live free,
And down with all kings but King Ludd!

When the web that we weave is complete,
And the shuttle exchanged for the sword,
We will fling the winding sheet
O' er the despot at our feet,
And dye it deep in the gore he has pour'd.

Though black as his heart its hue,
Since his veins are corrupted to mud,
Yet this is the dew
Which the tree shall renew
Of Liberty planted by Ludd! (1, 11-12)

Bayronun yüksək sənətkarlıqla yazılmış bu şeiri istedadlı, tanınmış mütərcim, şair Sabir Mustafanın tərcüməsində eyni ruhu, eyni mübarizə əhvalını əks etdirir:

Ludditlərin nəğməsi

Onlar azadlığı satın aldılar,
Qızıl qanlarıyla ucuz, havayı.
Gəlin biz də verək qəti bir qərar:
Ya ölək, ya olaq azad, bəxtiyar.
Rədd olsun krallar, Luddan savayı.

Qılınc əvəzinə götürüb məkik
Parça toxuyarıq o vaxt, o zaman.
Cəlladın başəna yağdırıb təpik
Murdar cəsədinə kəfən çəkərik:
Kəfən də qaralar iyrənc qanından.

Səyahətdən qayıtdıqdan sonra biri-birinin ardınca yazdığı poemaları Bayron "Şərq poemaları" adlandırır. 1813-1815-ci illər arasında böyük sənətkarlıqla qələmə aldığı bu poemalara "Yavur", "Abidos gəlini", "Korsar", "Lara", "Korinfin mühasirəsi" və "Parizina" Bayron qəhrəmanlarının simasında şəxsiyyəti hər şeydən üstün tutaraq onun döyüş

ruhunu, mübarizəsini, cəsarətini təbliğ edir, məhz ona görə də onun idealı azadlıqdır. Bayronun qəhrəmanları onların ləyaqətini alçaldan hakim qüvvələrin intiqamçısı, mühakiməçisidirlər.

Lakin bu qəhrəmanların təkbaşına apardıqları mübarizənin heç bir gələcəyi yoxdur. Ona görə də bu poemaların süjet xətti faciəvi sonluqla bitir. Bununla bərabər mübarizə aparan qəhrəmanların cəsurluğu, döyüşlərə atılıb mərdliklə vuruşmaları qürur doğurur. "Şərq poemaları"na daxil olan hər bir poema kiçik bir mənzum povestdir. Bu poemaların ilk qələmə alənanı "Yavur" poemalasıdır. Poemanın əsas süjetini Bayronun səyahət zamanı gördükləri hadisələr və eşitdiyi əhvalatlar təşkil edir. Poemada əsərin qəhrəmanıolan Yavur qəlbi düşmənə qarşı nifrət hissi ilə dolu olan bir şərqli-idir. Onu da qeyd edək ki, bu xüsusiyyət Bayronun bütün qəhrəmanlarına xasdır.

Şairin "Korsar" poemasının qəhrəmanı da, xüsusi mükiyyətçiliyin hakim olduğu cəmiyyətin qanunlarına qarşı mübarizə aparan şəxsdir. O, bu haqsızlığa qarşı döyüşən cəsur adamlara, dəniz quldurlarına başçılıq edir. Korsar üsyankar olsa da, düşmənləri vahiməyə salsa da, o, son dərəcə tənhadır, heç bir ürək dostu yoxdur. Bayronun bu poeması ingilis poeziasının zirvəsi sayılır. "Abidos gəlini" poeması Bayronun sanki uzun sürən peşimançılıq hisslərindən bir xatirəyə çevrilmiş sənət əsəridir. Bu əsərin qəhrəmanı olan Cəfər şairin səyahətdə olarkən tanış olduğu və barəsində eşitdiyi Əli paşanı xatırladır. Bu şəxs öz zalımlığı, qəsbkarlığı, zülmü ilə tanınan bir sərkərdə olmuşdur. Bayron bu şəxsin timsalında Cəfər obrazını yaratmış və Əli paşanın bütün xüsusiyyətlərini Cəfərdə əks etdirmişdir.

Şairin "Şərq poemaları" arasında ən xarakterik əsərlərdən olanı "Korinfin mühasirəsi" poemasıdır. Əsərdə Türk ordusunun Yunan ölkəsinin ən güclü qalası olan Korinf qalasına hücumunu təsvir etmiş və bu müharibəni haqlı bir müharibə, bir amal uğrunda gedən müharibə yox, qarətçilik məqsədi daşıyan döyüş kimi səciyyələndirmişdir. Şair bu poemada müharibənin dəhşətlərini, onun verdiyi fəsadları, faciələri sənətkarlıqla qələmə almışdır:

Su kimi, sel kimi axan qanları
İçməklə doymurdu bu qara torpaq
O qanlar qaynayıb çıxsaydı üzə,
Aşıb sahilini qan rəngli dəniz
Yayılıb az qala çıxırdı dizə
Qurunu bir anda basardı təmiz.
Burda ölənlərin sümüklərini
Üst-üstə yığsalar, bil, qalaq-qalaq,
Andırıb Korinfin yüksəkliyini

Olardı piramid şəkilli bir dağ.
(tərcümə A. Aslanovundur)

Onun apardığı siyasi mübarizənin heç bir nəticə verə bilmədiyini görən Bayron həmişəlik lordlar palatasından uzaqlaşır və pamflet janrına keçərək irtica ilə zorakılıq siyasətinə qarşı mübarizəyə cəhd edir. Şairin nitqi və satirik şeirləri tezliklə onun təhlükəli bir adam kimi diqqəti çəkdi və hakim dairələr min cür bəhanə ilə onu ittiham etdilər və bütün qapılan onun üzünə bağlandıqdan sonra məcburiyyət qarşısında qalan Bayron İngiltərəni tərk etmək məcburiyyətində qaldı. Bir müddət İsveçrədə məskunlaşan və burada «İngiltərə şeirinin başqa bir dahisi olan Şelli» ilə tanış olur. Bayron az sonra İtaliyaya gedir. İtaliya həm Bayron üçün, həm də Şelli üçün ikinci vətən olur. Harada olursa olsun, Bayronu xalqın həyatı, onların milli faciəsi dərindən sarsıdırdı. O, İtaliyanın azadlığı uğrunda gedən siyasi hərəkatında fəal iştirak edir. Məhz buna görə Bayron «kömürçülər» adlanan gizli siyasi təşkilata daxil olur. Şeirlərindən böyük vəsait əldə edən şair bu təşkilata yaxından köməklik göstərirdi. Bayronun «İtaliyada həyatının son dövrü ağır istirablarla doludur. Onun ən yaxın dostları bir-bir cəlladlar tərəfindən öldürüldülər. Avstriya hökumətinin «mərhəmətini qazananlar isə zindanda çürüdülər» (6, 102).

Şair – bütün dünya insanlığının mübarizi, məhz buna görə də o, bütövlükdə insanlığa məxsusdur. Bayron üçün insanların hansı irqdən, hansı millətdən və hansı dindən olmasının heç bir fərqi yoxdur. Şair üçün ən ümdə vacib olan insanın azadlığı, onun cəmiyyətdə öz hüququnu bilməsi və ona sahib olmasıdır». Bayron yazdığı bütün poema və hətta lirik şeirlərində ilk növbədə insan təcəssüm edilir. Bu vurğunluq onun bütün misralarına hopmuş və həssas insanların ürəyinə yol açmışdır.

Ədəbiyyat

1. An anthology of English literature XIX-XX centuries, 1949.
2. Джордж Гордон Байрон. Соб.соч. в четырех томах, том I, М., изд. «Правда», 1981
3. Əliyeva P. Uilyam Bleykin lirikası. B., “Elm”, 2006.
4. История зарубежной литературы XVIIII века – страны Европы и США, изд. Московского Университета, 1984
5. Герайзаде Э.И. История зарождения и развития Байронианы в Азербайджане. Баку – Элм, 1999.
6. Yelizarova M.Y., XIX əsr xarici ədəbiyyat tarixi. Bakı, 1964

G.Shamkhalova

The spirit of freedom and struggle in Bayron's poetry

Summary

In the article investigated the life-time of great poet G.G.Byron (1788-1824) . especially paid attention to his poetry. In his poetry Byron reblected with his titanic forse against tyranny, violence and injustice. All these perfectly described in his epic poems. During his travel to the different countries he heard many stories and legends. All these impressions reflected in his works such as "Child Horold's Pilgrimag", "The East Poems", satirical work "Don Juan" and poems like "Sonnet on Chillon", "Dream", "Darkness" which he glorified freedom. One may find answer for all questions of social evil and political turanny in Byron's poetry such as "The Giaour", "The Bride of Abydos", "The Corsair", "The Siege of Corinth" and others.

Г.Шамхалова

Дух свободы и борьбы в поэзии Байрона

Резюме

В статье исследуется эпоха жизни великого поэта Дж.Г.Байрона (1788-1824). Особое внимание здесь уделяется его поэзии. В ней Байрон со всеми своими титаническими усилиями выступает против тирании и несправедливости. Все это нашло свое подробное отражение в его эпических поэмах.

Во время своих путешествий в разные страны и города он слышал много рассказов и легенд. Все эти впечатления отражены в таких его трудах, как: «Чайльд-Гарольд», «Восточные поэмы», «Дон Жуан» и стихах «Сонет Шильону», «Сон», «Тьма», в которых он воспевал свободу. Каждый читатель сможет найти ответы на все вопросы о социальном зле и политической тирании в поэмах Байрона «Гяур», «Абидосская невеста», «Корсар», «Осада Коринфа» и др.

Rəyçi: Leyli Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

MƏRYƏM HÜMMƏTLİ
ADU
meryem.hummatli@mail.ru

XIX ƏSR QARABAĞ ƏDƏBİ MÜHİTİ VƏ BU MÜHİTDƏ XURŞIDBANU NATƏVANIN ROLU

Açar sözlər : Xurşidbanu Natəvan, xan qızı, Qarabağ, XIX əsr
Key words : Khurshidbanu Natavan, daughter of the khan, Karabakh, XIX century
Ключевые слова : Хуршидбану Натаван, ханская дочъ, Карабах, XIX века

Bu və ya digər yazıçıların fəaliyyət dairəsi məhəlli xarakterdə olmamış, Azərbaycan ədəbiyyatının zənginləşməsinə müsbət təsir göstərmişdir. Lakin buna baxmayaraq dünya xalqlarının ədəbiyyatında olduğu kimi, Azərbaycan ədəbiyyatını da ədəbi mühit olmadan təsəvvür etmək mümkünsüzdür. Hər bir xalqın yaşadığı torpaqdakı tarixinin qədimliyini, zənginliyini sübut edən başlıca faktlardan biri onun yaratdığı ədəbi irsdir. Bu zənginliyin mühüm hissəsi Azərbaycanın ayrılmaz bölgəsi olan Qarabağda xalqımızın əsrlər boyu yaratdığı söz, sənət nümunələridir.Azərbaycan-türk ədəbiyyatında, mədəniyyətində bir sıra faktların ilkinliyi, ilk başlanğıcı bünövrə etibarilə Qarabağ ədəbi mühiti ilə bağlı olduğunu müşahidə etmək olar. Müxtəlif dövrlərdə Qarabağ ədəbi mühitində yazıb-yaratmış şəxslər haqqında məlumatlar verilmişdir. Bu baxımdan yazılı ədəbiyyatda hələlik elmə məlum olan ilk azərbaycanlı şair məhz qarabağlı söz ustadı, VII əsrdə yaşayıb yaratmış Dəvdək olduğunu qeyd etmək yerinə düşərdi. Bundan başqa XII əsr Azərbaycan poeziyasının ən qüdrətli simalarından biri qarabağlı Mücirəddin Beyləqani olmuşdur. Hətta Xosrov Dəhləvi onun sənətkarlığını Xəqani Şirvanin Sənətkarlığından üstün hesab etmişdir. XIV əsrdə fəaliyyət göstərmiş Tuti Abdulla Qarabağinin əsərləri əldə olmasa da,"Hədiqətüş-şüərada" da və digər mənbələrdə hörmətlə adı çəkilmişdir. Bunlar hamısı öz zənginliyi ilə heyrət doğuran mədəniyyətimizin cizgiləridir. Qarabağ mühiti də bu mədəniyyətə, ədəbiyyata müsbət təsir göstərmiş, daha da genişləndirmişdir. Qarabağ ədəbi mühitinin ən parlaq dövrü XVIII- XIX əsrə təsadüf edir. Belə ki, XVIII əsrdə Pənahabad şəhərinin-yəni Şuşanın bünövrəsi qoyulduqdan sonra Qarabağ ədəbi mühiti Azərbaycan mədəniyyətinin mərkəzinə çevrildi. Şübhəsiz ki, Qarabağ xalqının bədii təfəkkür və yaradıcılığına bölgənin gözəl təbiəti, iqlimi, təbii sərvətləri də böyük təsir göstərmişdir. Qarabağda hələ qədim zamanlarda bir çox sənət növləri mövcud olmuşdur. Məsələn, müxtəlif dövrlərdə Qarabağ xalçaçılıq

məktəbində toxunulmuş xalçalar bu gün belə öz gözəlliyi ilə valeh edir. Həmçinin zəngin mədəni irsə malik olan Qarabağ mühiti musiqi, muğam diyarı kimi də məşhur olmuşdur.Qarabağ ədəbi mühitindən danışarkən XVIII əsr M.P.Vaqifin Azərbaycan poeziyasında, o cümlədən, Qarabağ ədəbiyyatında oynadığı roldan, yaradıcılığından yan keçmək olmaz. F.Köçərlinin qeyd etdiyi kimi, "Bundan başqa Vaqifin milli ədəbiyyatımıza hüsni-xidməti bu olubdur ki, Türkiyə və İran zəmin şüərasına müqəllidlik etməyibdir, bəlkə onun üçün əsan və təbii yol açılıbdır ki, ondan sonra gələn şairlər ona peyrəvilik edib, bir çox gözəl əsərlər meydana gətiriblər. Bu cəhətə Molla Pənah Vaqifin Qafqazyada vücuda gələn şairlərin bahası və ustadı adlanmağa haqqı vardır"[3;191]. Dövrün ədəbi prosesini izlədikdə, əvvəlki mərhələlərə də diqqət yetirdikdə aydın görünür ki, M.P.Vaqif dövrün ədəbi prosesinə, bütövlükdə Azərbaycan şeirinə təsir göstərmişdi. XVIII əsr Qarabağ ədəbi mühitində ən maraqlı istiqamətlərdən birini aşıq yaradıcılığı təşkil edir. Bu dövrdə Aşıq Cünun, Aşıq Səməd, Aşıq Qənbər, Aşıq Valeh, Aşıq Güllü və s. kimi qüdrətli nümayəndələri vardır. Onların yaradıcılığına da nəzər saldıqda bəlli olur ki, XVIII-XIX əsrdə Qarabağ ədəbi mühiti ilə sazəndə və xanəndə mühitləri arasında sərhəd qoymaq olmur. Bunlar bir-birilə bağlılıqda, təmasda inkişaf edir.Qarabağın zəngin mənəvi irsi XIX əsrdə yeni tendesiyalarla daha da dolğunlaşdı, XVIII əsrdəki inkişaf XIX əsrdə də uğurla davam etdi. XIX əsr Qarabağ ədəbi mühitinin xarakterizə edilməsi ilk öncə bir sıra ədəbi şəxsiyyətlərin həyat və yaradıcılığının qaranlıq və gizli qalan tərəflərinin aşkarlanması deməkdir. XIX əsr Qarabağ ədəbi mühiti ilə bağlı müxtəlif istiqmətli araşdırmalar aparılıb. Bu mühitin ayrı-ayrı nümayəndələri ilə bağlı bir sıra əsərlər yazılıb. XIX əsr Qarabağ ədəbi mühiti XVIII əsrin davamı olmaqla yanaşı, yeni keyfiyyətlərlə, mövzu və ideya axtarışları ilə daha da zənginləşmişdi. Bu mühitin ən böyük uğuru ənənələrin qorunması ilə bağlıdır. Bununla yanaşı eyni zamanda müəyyən qədər inkişafla səciyyələnir və bu ədəbi mühitdə A.Pəri, Q. Zakir, C.Nəva, A.Ağabacı, X.Natəvan, M.M.Nəvvab kimi nümayəndələrin düşüncəsində inkişaf prosesi gedir. XIX əsr ədəbiyyatının tədqiqatçısı olan F. Qasımzadə yazır: "XIX əsrdə Qarabağda Qasım bəy Zakir, Baba bəy Şakir, Məhəmməd bəy Aşiq, Mirzəcan Mədətov kimi görkəmli nümayəndələri yaşamışlar. Bu şairlərdən Məhəmməd bəy Aşiq, Baba bəy Şakir, Qasım bəy Zakir və Ağabəyim ağa öz yaradıcılıq fəaliyyətlərinə Vaqif hələ həyatda ikən başlamışlar və çox ehtimal ki, onun özü ilə şəxsən tanış olmuşlar" [4;50]

XIX əsr Qarabağ ədəbi mühitini səciyyələndirən xüsusiyyətlərdən biri də təzkirəçilik ənənəsidir. Təzkirəçilik şərq dəyərlərinə müasir qayıdış formalarından biridir. Şərq ədəbiyyatşünaslığının kütləvi və yayılmış janrlarından olan təzkirələrin Azərbaycan ədəbiyyatında özünəməxsus yeri vardır. Bu səpkidə XIX əsrdə Məhəmmədağa Müctəhidzadənin, Hüseyn

Əfəndi Qaibovun, Seyid Əzim Şirvaninin, Mir Mövsün Nəvvabın təzkirələri böyük rol oynayır. Tədqiqatçı akademik F.Qasımzadə bu təzkirələrin "XIX əsr Azərbaycan ədəbiyyatının tədqiqində istifadə olunmuş əsas mənbələr olduğunu" qeyd etmişdir [4;3].

Bu təzkirələrdən Nəvvabın "Təzkireyi-Nəvvab" və Müctəhidzadənin "Riyazül- aşiqin" əsərləri məhəlli xarakter daşıyaraq, XIX əsr Qarabağ ədəbi mühitində yaradıcılıqla məşğul olan müxtəlif səviyyəli şairlər haqqında məlumatı və onların yaradıcılığından nümunələri əks etdirir. Həm "Riyazül aşiqin", həm də "Təzkireyi- Nəvvab" əsərində məhz ilk növbədə XIX əsr Qarabağ ədəbi mühitinin ümumi mənzərəsini canlandırmaq əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Hər iki əsərin təhlili göstərir ki, tərtibçilər XIX əsr Qarabağ ədəbi mühitinə dərindən nüfuz etməyə çalışmış, həmin zaman və məkan çərçivəsində yaşamış bu və ya digər şair haqqında kifayət qədər əhəmiyyətli məlumat vermişlər."Təzkireyi- Nəvvab" əsərinin müəllifi M.M.Nəvvab əsərin yazılma səbəbini belə izah etmişdir: "Bu gözəl dövranda, mübarək 1309-cu ildə görkəmli dini qardaşlarından və səmimi ruhanilərdən bəziləri də belə arzu etdilər ki, tarixin səhifələrində bir yadigar qalması üçün Qarabağ şairlərinin əziz adları, onların keçdikləri həyat yolu toplanıb bir təzkirə tərtib edilsin".[5;7]

Təzkirə müəllifi Nəvvab özü ilə bir dövrdə yaşayıb yaratmış bir çox qələm sahiblərinin şəxsi xüsusiyyətlərini də qeyd etmişdir. M.M.Nəvvabın təzkirəsində Qarabağın sənətkarları və onların sənətinə verdiyi dəyər də əsərin əsas keyfiyyətlərindəndir.Təzkirələrdə adı böyük hörmətlə çəkilən şairlərdən biri də Xurşidbanu Natəvandır. İstedadlı şairimiz olan Natəvanın adı çəkildikdə gözümüzün qabağında ilk öncə düşmən tapdağı altında qalan Qarabağımız canlanır.Natəvanın fəaliyyəti yalnız şeirlə bitmir, o, rəssamlıqla,tikmə sənəti ilə də Qarabağ mədəniyyətini zənginləşdirmiçdir. Natəvan doğma yurdunun abadlaşması üçün əlindən gələni əsirgəməmişdir. Sözsüz ki, Natəvanın şəxsiyyət kimi özünü təsdiqləməsində, vətənə, torpağa bağlı olmasında mənsub olduğu soyun, kökün, nəslin də böyük təsiri vardır. X.Natəvan unudulmaz Qarabağımızın sonuncu xanı Mehdiqulu xanın qız yadigarı idi. Hətta dünya şöhrətli fransız yazıçısı Aleksandr Düma "Qafqaz səfəri" əsərində ondan dərin rəğbətlə söz açmışdır. Xan qızının müasiri Mir Möhsün Nəvvab da təzkirəsində onun şəxsiyyətinə və rəssamlıq qabiliyyətinə yüksək qiymət verərək yazır: "...əhvalı və məzacı adi, xarici görünüşü eyibsiz, zərif qadındır. Qadınlara xas olan əməllərdə çox mahirdir.Rəssamlıq sənətində çox qabil və kamildir".[1;7]

Eyni zamanda görkəmli şairin nəvəsi Əkbər xan Naxçıvanskinin nənəsi haqqında xatirələri, yaxınlarına yazdığı məktublardan nümunələr, Mir Həsən Haşım oğlu Ağamirovun qeydləri, müxtəlif yadasalmalar, Mirzə Rəhim Fənanın "Məclisi-üns" barədə xatirələri, həmçinin onun məşhur "Gül

dəftəri”ndən seçmələr Natəvanın Qarabağ mühitində sənətkar kimi necə istedadlı olmasından, şəxsiyyət kimi necə tanınmasından da xəbər verirdi. Bu baxımdan X.Natəvanın mədəniyyət tarximizdə layiqli yeri var. XIX əsrdə Qarabağın musiqi mədəniyyətində əsas aparıcı rolu muğam sənətinin inkişafı tutmuşdur. Bu sənətin tərəqqisində Natəvanın başçılığı ilə yaranan musiqi məclisinin rolunu da xüsusi olaraq qeyd etmək lazımdır Natəvan dövrün mədəni mühitinin formalaşmasına mühüm təsir göstərmiş, ictimai fəaliyyəti ilə də yaddaşlarda qalmışdır. Xan qızının Milli Azərbaycan Tarixi Muzeyində qorunan əl işləri onun incə zövqə, yüksək sənətkarlıq qabiliyyətinə malik olmasına əyani sübutdur. Natəvan dövrünün realist rəssamlarından olmuşdur.Onun “Gül dəftəri” adlı albomunda müxtəlif lalə, qərənfil güllərinin, Şuşaya aid bir mənzərənin, Şeyx Şamil sarayının şəkilləri vardır. A.Düma ilə görüşü zamanı ona öz əlləri ilə tikdiyi pul kisəsini də hədiyyə etmişdir. Hədiyyənin zərifliyinə və sənətkarlığına heyran qalan Düma onu ən gözəl hədiyyə adlandırmışdır. Xalçaçılıq sahəsində belə özünü sınayan şairə Qarabağın dünyaya səs salan ənənəvi el sənətində özünəməxsus izlər qoymuşdur. Hətta onun xalçalarının beynəlxalq sərgilərdə iştirak etməsi haq-qında da bəzi məlumatlar vardır. Onun fəaliyyətləri bununla da kifayətlənmir. Natəvan xeyriyyəçi insan, şahmat oynamaq bacarığı ilə ətrafdakıları valeh edən oyunçu, sərgi və cıdır yarışları üçün xüsusi Qarabağ atları yetişdirən iş qadını kimi görürük. Təxəllüsünün mənası “gücsüz,taqətsiz” olan bu zərif qəlbli qadın çiyinlərində təxəllüsünə uyğun olmayan ağır yüklər daşımışdır.

Natəvan maarifin, mədəniyyətin yayılmasına kömək göstərmiş, ictimai-mədəni tədbirlərdə fəal iştirak etmişdir. Yolların çəkilməsinə, körpülər salınmasına, məktəb binası tikilməsinə illik gəlirdən xüsusi fond ayırmışdır. Onun təşkil etdiyi ziyafətlərin, söhbət məclislərinin iştirakçıları çox vaxt müxtəlif sənəti təmsil edən ziyalılar olmuşdur. Qarabağla birlikdə bütün Zaqafqaziyanın sənət sahibləri onun himayəsinə sığınırdı. Uzaq şəhərlərdə oxuyan azərbaycanlı tələbələr şair və sənətakarlar Xurşidbanudan yardım almışlar. Natəvanın öz doğma yurdunda yaratdığı yeniliklərin, zövq və həvəslə gördüyü işlərin sədası ölkədən kənara da yayılmışdır.

Ədəbiyyat siyahısı:

1. Çəmənli M. Neçin gəlməz. Bakı, Təhsil, 2012
2. Hacıyeva A. XIX əsr Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsində təzkirələrin rolu. Bakı, 2008.
3. Köçərli F. Azərbaycan ədəbiyyatı. 2 cilddə. I cild. Bakı, Elm, 1978.
4. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı, Maarif, 1966.
5. Nəvvab M. Təzkireyi-Nəvvab. Bakı, Azərbaycan, 1998.

М. Хумметли

XIX век Карабахская литературная среда и роль Хуршидбану Натавана в этой среде

Резюме

В целом основа карабахской литературной среды восходит к древним временам. Он так же стара, как и история людей. Невозможно представить развитие литературы в Азербайджане без Карабаха. Систематическое изучение литературной среды Карабаха в XIX веке помогает выявить скрытые аспекты жизни и творчества ряда литературных личностей. Одной из таких влиятельных фигур является Хуршидбану Натаван. Огромные заслуги Хуршидбану Натаван в развитии карабахского искусства, особенно поэзии, музыкальных собраний, живописи и ковроткачества в XIX веке. Творчество Натавана - это сердечная поэзия, полная красоты и боли в карабахской литературной среде XIX века. В то же время реконструкция Карабаха и культурный облик Шуши были предметом серьезной озабоченности у дочери хана. Этот период характеризуется существованием литературных конвенций в карабахской литературной среде и приобретением новых.

M.Hummatli

XIX century Karabakh literary environment and in this environment role of Khurshidbanu Natavan

Summary.

In generally, the basis of the Karabakh literary environment goes back to ancient times. It is as old as the history of the people. It is impossible to imagine the development of literature in Azerbaijan without Karabakh. In the XIX century systematic study of the literary environment of Karabakh helps to reveal the hidden aspects of life and creativity of a number of literary personalities. One of such powerful figures is Khurshidbanu Natavan. In the XIX century Xurshidbanu Natavan's great services in the development of Karabakh art, especially poetry, musical assemblies, painting and carpet weaving. Natavan's creativity is a heart poetry full of beauty and pain in the 19th century Karabakh literary environment. At the same time, the renovation of Garabagh and the cultural appearance of Shusha were a matter of serious concern to Khan's daughter. This period is characterized by the existence of literary.

Rəyçi: Nurlanə Mustafayeva
filologiya üzrə fəlsəfə doktoru, dosent

İLAHƏ MƏMMƏDZADƏ
ADU
ilahememmedzade94@gmail.com

İLYAS ƏFƏNDİYEVİN DRAMATURGİYASINDA LİRİK QƏHRƏMAN

Açar sözlər: İlyas Əfəndiyev, dramaturgiya, tarixi dram, Qarabağ, "Xurşidbanu Natəvan"
Key words: Ilyas Afandiyev, dramaturgy, historical drama, Karabakh, "Khurshidbanu Natavan"
Ключевые слова: Ильяс Эфендиев, драматургия, историческая драма, Карабах, "Хуршидбану Натаван"

"İlyas Əfəndiyev klassik ədəbi fikrin böyük ənənələri zəminində öz üslubunu yaradan sənətkar kimi xalqımızın söz sənəti xəzinəsinə dəyərli töhfələr vermişdir. Yazıçının bədii nailiyyətlərlə zəngin irsi ədəbiyyatımızda yeni mərhələnin təşəkkülünə səmərəli təsir göstərmişdir. Azərbaycan teatr səhnəsinin müasir simasının formalaşmasında İlyas Əfəndiyev dramaturgiyası özünəməxsus əhəmiyyətli yer tutur."

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti. [4]

XX əsrin II yarısında ədəbiyyatımızın öndər simalarından biri olan Azərbaycanın xalq yazıçısı İlyas Əfəndiyev milli dramaturgiya məktəbinin davamçısı sayılır. Onun nəsri, dramaturgiyası Azərbaycan ədəbiyyatında yeni bir hadisə idi. Öz zəngin və əvəzolunmaz irsi ilə ədəbiyyatımızın inkişafında yeni bir axının yaranmasına və təşəkkül tapmasına zəmin yaratmışdır. İlyas Əfəndiyev deyirdi: "Dünyada böyük ədəbiyyatlar da, böyük sənətkarlar da çoxdur. Lakin hər bir həqiqi sənətkarı yaşadan, birinci növbədə onun əsərləri və xalqıdır".[3] Yazdığı əsərlərlə Azərbaycan ədəbiyyatında özünəməxsus iz qoymuş xalq yazıçısı XX əsrin 30-cu illərindən ömrünün sonuna qədər dəyərli və zəngin yaradıcılıq yolu keçmişdir. Əlli yeddi illik yaradıcılıq dövründə ədibin çoxlu sayda hekayələri, povestləri, romanları, dram əsərləri işıq üzü görmüşdür.

Azərbaycan ədəbi-mədəni həyatının təkamülü tarixində mühüm xidmətləri olan, görkəmli dramaturq İlyas Əfəndiyevin əsərləri və bədii sənət uğurları diqqətəlayiq əhəmiyyət daşımaqdadır. Böyük sənətkar müxtəlif mövzulu və dolğun məzmunlu hekayə, oçerk, kinossenari, povest, roman və dramların, ədəbi-tənqidi və publisistik məqalələrin müəllifidir.

İlyas Əfəndiyev demək olar ki, yaradıcılığının böyük hissəsini dramaturgiyaya həsr etdi. Dramaturqun nəzəri-estetik görüşlərində, müsahibələrində teatrla bağlı fikirləri və mülahizələri geniş yer tutur. "O, sovet ideologiyasının yaratdığı sosializm realizminin ziddinə olaraq Azərbaycan teatrına insan psixologiyasını, onun dəruni hiss və duyğularının gerçək bədii ifadəsini gətirdi. Ustad sənətkar dram əsərləri ilə milli dramaturgiyamızda yeni bir tarixi mərhələnin yaranmasında və inkişafında müstəsna rol oynadı. "...Teatr xalqın ən incə duyğularını, romantik xəyallarını, sevincini, dərdini, arzularını ifadə edir. Xalqın teatrı onun milli mədəniyyətinin təntənəsidir"- deyən mütəfəkkir sənətkarın bu səpkili məqalələri bir sıra yeni, novator keyfiyyətləri ilə diqqətəlayiqdir. Dramaturqun fikrincə, teatr həmişə mənəvi yüksəliş aynası olmuşdur. Teatr yalnız ədəbiyyat və incəsənət deyil, eyni zamanda, tamaşaçı mədəniyyətinin də meyarlarındandır. Xalqın mədəni-intellektual inkişafında teatrın mühüm rolundan bəhs edən ünlü sənətkar yazırdı: "Mənim üçün teatr, Allahın insanlara bəxş elədiyi ruhun, gözəl hisslərin, arzuların, müxtəlif həyat ideyalarının yaşadığı, çarpışdığı bir məkandır. İnsanın daxili dünyasının aynasıdır. Teatr həm də xalqımızın tərcümanıdır. Bu məkan gözəl olduğu qədər, həm də ilahiləşmiş bir aləmdir". [2] Dünya dramaturgiyasında bir neçə klassik dramaturqun, həm də səhnə sənətində yaratdığı məktəb var. Azərbaycanda İlyas Əfəndiyev dramaturgiyası və məktəbi var. O, "Atayevlər ailəsi", "İşıqlı yollar", "Bahar suları", "Sən həmişə mənimləsən", "Mənim günahım", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", "Qəribə oğlan", "Mahnı dağlarda qaldı", "Bağlardan gələn səs" və digər dram əsərləri ilə teatr sənətimizdə yeni bir mərhələ açıb, "İlyas Əfəndiyev teatrı" yaradıb. Böyük dramaturq bir-birinin ardınca Azərbaycan teatr tarixində hər biri hadisə olan- «Unuda bilmirəm», «Məhv olmuş gündəliklər», «Sən həmişə mənimləsən», «Mənim günaım» pyeslərini yazdı. O, elə bu əsərləri ilə də Azərbaycan dramaturgiyası tarixində lirik-psixoloji pyes janrının əsasını qoydu. Bu həm də bu keçmiş Sovetlər Birliyidə dramaturq tərəfindən əsası qoyulan yeni janr idi. Yaratdığı əsərlərlə oxucunu düşündürmək, hisslərinə hakim kəsilmək, onu gözəlliklər aləminə çəkib aparmaq, haqq-ədalət uğrunda mübarizəyə ruhlandırmaq, həqiqətin tapılmasında hər kəsə kömək olmaq kimi ali keyfiyyətlər az-az qələm sahibinə nəsib olur. Dərin məna tutumu, ictimai fikrə hakim kəsilmək gücü ilə bir-birini tamamlayan, XX əsr Azərbaycan cəmiyyəti həyatının bütün sahələrini güzgü kimi əks etdirən aktual əsərləri ilə xalqın məhəbbətini qazanan İlyas Əfəndiyev belə xoşbəxt taleli sənətkarlardandır. Lirik-psixoloji dram janrının nəzəri-estetik prinsipləri, bədii qayəsi İlyas Əfəndiyevin pyeslərinin poetikası və arxitektonik quruluşu əsasında ədəbiyyatşünaslıq və teatrşünaslıq tərəfindən müəyyənləşdirilərək öyrənilir. Bu baxımdan ədibin 1964-cü ildə qələmə

aldığı “Sən həmişə mənimləsən” pyesi diqqətə layiqdir. Bu pyes təkcə Azərbaycanda yox, həm də keçmiş Sovetlər Birliyində lirik-psixoloji dramın ilk nümunəsidir. Əsər həm mövzu baxımından çox orijinaldır, həm də müəllif burada yığcam və az sözlə böyük fəlsəfi, tərbiyəvi fikirlər söyləyə bilmişdir. Sənətşünaslıq direktoru, filoloq Məryəm Əlizadə sənətkarın bu pyesini yüksək qiymətləndirərək qeyd edir ki, “Sən həmişə mənimləsən” (1964) pyesi müəyyən bir dövrün, epoxanın, zamanın simvoludur, rəmzidir, 60-cı illərin məişət romantikasının, lirik-psixoloji münasibətlər şəbəkəsinin güzgüsüdür, adi insan yaşantılarının teatral poeziyasının ifadəsidir. Bu pyes dünyanın 60-cı illər mənzərəsində azərbaycanlı mənəviyyatını, türk əxlaqını əks etdirən bədii bir sənəddir. Müasir azərbaycanlı psixologiyasının ekzistensional mündəricəsinin öyrənilməsi yolunda ilk bələdçi məhz “Sən həmişə mənimləsən” pyesidir. Nargilənin özündən yaşca böyük Həsənzadəyə bəslədiyi saf, təmiz duyğuların təcəssümü nəzəri cəlb edir. Qəhrəmanların daxili aləmini görkəmli yazıçımız böyük ustalıqla ayna kimi əks etdirməyə nail olmuşdur. Mütaliə zamanı oxucu sanki hadisələrin iştirakçısına çevrilir, gedişata müdaxilə etmək istəyir.Milli şüurun formalaşmasında mühüm rol oynayan İlyas Əfindiyevin tarixi mövzuda qələmə aldığı dramları onun yaradıcılığının zirvəsini təşkil edir. Dramaturq hakim idealogiyasının məngənəsi altında deyə və yaza bilmədiyi bir sıra problemləri və mövzuları məhz tarixi mövzuya həsr etdiyi pyeslərində təsvir etməyə nail olmuşdur. Bununla yanaşı mənəvi-əxlaqi dəyərləri daim təbliğ edən sənətkar ictimai xəstəlik olan rüşvətxorları, zəhmətsiz gəlir əldə edənləri, haram yolla var-dövlət qazananları qələmə aldığı əsərlərində tənqid atəşinə tutmuşdur. Azərbaycan teatr poetikası bədii-estetik dəyərini geniş mənada “İlyas Əfəndiyev teatrı”nda tapmışdır. Ədib özünün “Mahnı dağlarda qaldı”, “Xurşidbanu Natəvan”, “Şeyx Məhəmməd Xiyabani”, “Hökmdar və qızı” və digər tarixi dramları ilə xalqımızın milli azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizənin, istiqlal məfkurəsinin, azadlıq hərəkatının, milli birliyin və müstəqilliyin bədii tərənnümçüsünə çevrilmişdir.V.Xanoğlan “İlyas Əfəndiyev: yaxından və uzaqdan” məqaləsində qeyd edir ki, “Xalq yazıçısı “Ədəbiyyatımızda dəyərli əsərlər yaratmaqla yanaşı, o dövr üçün çox təhlükəli yeniliklərə də gedib: teatrımıza Cənubi Azərbaycan mövzusunu o gətirib; dilimizin türk dili olduğunu dəfələrlə bəyan edib; yaratdığı obrazları da sırf türk adlarıyla adlandırıb həmişə”. [2] Qeyd olunduğu kimi dramaturqun yaradıcılığında Cənubi Azərbaycan mövzusu xüsusi yer tutur. 1968-ci ildə “Unuda bilmirəm” pyesi ilə ilk dəfə olaraq bu mövzu səhnəmizdə öz bədii təcəssümünü tapdı. Dramaturqun tarixi dramlarında aparıcı xətt milli azadlıq və qəhrəmanlıq motivləridir. Onun keçən əsrin 70-90-cı illərində qələmə aldığı “Mahnı dağlarda qaldı”, “Xurşidbanu Natəvan”, “Şeyx Məhəmməd Xiyabani”, “Sevgililərin cəhənnəmdə vüsalı”, “Tənha

iydə ağacı", "Dəlilər və ağıllılar", "Hökmdar və qızı" tarixi dramları tarixə yeni təfəkkürlə yanaşması, yeni münasibəti, xalqımızın milli azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizə ilə bağlıdır. Bu dramlarda istiqlal məfkurəsinin, azadlıq hərəkatının, milli birliyin və müstəqilliyin bədii tərənnümünü görürük. 1981-ci ildə "Xurşidbanu Natəvan" pyesində Azərbaycanın azadlığı və müstəqilliyi məsələsinə xüsusi önəm verən bilgə sənətkar uzaqgörənliklə əsərin baş qəhrəmanı Natəvanın dili ilə deyirdi: "...Bu uçurumlu yolların sonunda bizi öz milli birliyini, azadlığını tapmış azad Azərbaycan gözləyir!". [2] Sovet ideologiyası şəraitində bu mövzunun yazıçı tərəfindən qələmə alınması, sözsüz ki, təqdirəlayiq bir hal kimi qiymətləndirilməlidir. Ter-Vahan surəti torpaqlarımıza göz dikən, xristian dünyasına özünü qurban kimi qələmə verən erməni fitnəkarlarının ümumiləşdirilmiş obrazıdır. Onun yaltaqlığı, hər dəqiqə bir cildə girib ağı qara kimi qələmə vermək xüsusiyyəti erməni millətçiliyinin əsas obrazı kimi ümumiləşir. Əsərdə İlyas Əfəndiyev Xan qızı Natəvanın şəxsi taleyini ümumən Qarabağın taleyi ilə eyniləşdirmişdir. Onun yaratdığı Natəvan obrazı şimali və cənubi Azərbaycanın taleyi və dərdi ilə yaşayır. İmperiyaların süngüsü ilə ikiyə parçalanmış vətəni bütöv görmək istəyir. Bu motiv pyesdə Natəvanın həm Rusiya imperiyası, həm də İran dövlətinin səfirləri ilə görüşlərində daha açıq və qüvvətli səslənir. Azərbaycan ədəbiyyatının inkişafında fəal rol oynayan İlyas Əfəndiyev milli kökə, klassik mədəniyyətimizə qırılmaz zəncirlərlə bağlı idi. O, dünya ədəbiyyatının ən yaxşı ənənələrindən bəhrələnərək milli ədəbiyyatımızın təşəkkül prosesinə təkan vermişdir.

İstifadə olunmuş ədəbiyyat:

1. Məryəm Əlizadə - İyirmi birinci əsrin dramaturqu 525-ci qəzet.- 2016.- 1 oktyabr.- S.14-15.
2. Vəfa Xanoğlan – "İlyas Əfəndiyev: yaxından və uzaqdan", Xalq qəzeti 9 fevral 2010. Səh. 7
3. http://ilyasafandiyev.musigi-dunya.az/aforizm.html
4. http://president.az/articles/10808/print

Mammadzadeh Ilaha

" Lyric hero in Ilyas Afandiyev's drama"
Summary

People's writer Ilyas Afandiyev, who started a new stream in the development of Azerbaijani literature with his specific and rich heritage, acted as a follower of the national drama school in the mid-20th century. The

creativity of the prominent artist, who served as an important service in the evolutionary history of the literary-cultural life of Azerbaijan, has a specific place in our national prose. The dramatic works of the artist in the artistic creation of the author, which is the author of many stories, essays, narratives and novels with different themes and full content, are selected by originality. Ilyas Efendiyev, who devoted most of his creation to drama, has managed to bring the Azerbaijani theater to the artistic expression of human psychology, its deep feelings and emotions. The well-known dramatist created a specific drama school by laying a new stage in the history of Azerbaijan literature with "Atayev's Family", "Lighty Roads", "You are always with me", "My fault", "I can not remember", "Khurshidbanu Natavan" and other drama works. Ilyas Efendiyev, who has won the love of the people with his latest works reflecting all aspects of his life as a mirror of the 20th century, has applied the elements of lyric-psychological style to his great masterpiece and has made a rich and original heritage after him.

Мамедзаде Илаха
«Выбор лирического героя в драме Ильяса Афандиева»
Резюме

Народный писатель Ильяс Афандиев, который начал новый поток в развитии азербайджанской литературы со своим уникальным и богатым наследием, выступал в качестве последователя национальной драматической школы в середине 20-го века. Творчество выдающегося ремесленник, служившего важным обслуживание в истории литературно-культурной жизни Азербайджана, имеет уникальное место в нашей национальной прозе. А богатое содержание по целому ряду различных рассказов, эссе, романы, автор повествовательных и драматических произведений искусства творческий Насера отличается своей оригинальностью. Выдающиеся драматург«семья Атаев в», «Свет дороги», «Ты всегда со мной», «Моя вина», «Я не могу забыть», «Кхуршидбану Натаван» и другие драмы в истории азербайджанской литературы нового этапа в сдачи уникальный драматическая школа создан. Ильяс Эфендиев, завоевавший любовь людей своими последними работами, отражающими все аспекты жизни азербайджанского общества в XX веке, применил элементы лирико-психологического стиля к великому творчеству и сделал за ним богатое и оригинальное наследие.

Rəyçi: Sofiya Mirzəyeva
filologiya üzrə fəlsəfə doktoru, dosent

GÜNAY HƏMİDLİ
ADU
hamitlig@mail.ru

İLQAR FƏHMİNİN "AKVALANQ" ROMANININ PSIXOANALİTİK İSTİQAMƏTDƏ TƏDQİQİ

Açar sözlər : İlqar Fəhmi, Kölgə arxetipi, psixoanalitik təhlil, "Akvalanq", psixoloji roman
Key words: Ilgar Fahmi, Shadow archetype, psychoanalytic analysis, Agualang, psychological novel,
Ключевые слова: Ильгар Фахми, Теневой архетип, психоаналитический анализ, Аквaланк, психологический роман

Roman janrında yaradılan əsərlərdə bəzən elə hadisələr təsvir olunur ki, burada qəhrəmanların daxili hiss-həyəcanları, duyğu və düşüncələri onların olduqları situasiyadan asılı olaraq davranışlarında üzə çıxır. Azərbaycan ədəbiyyatında məhz bu cür psixoloji elementlərin təzahürünə İlyas Əfəndiyevin, Ənvər Məmmədxanlının,Yusif Səmədoğlunun və başqa yazıçıların əsərlərində rast gəlmək mümkündür.Ancaq müasir mərhələdə psixoloji roman adı altında yaradılan nəsr əsərlərinə Sadıq Elcanlının "Zülmət", Nəriman Əbdülrəhmanlının "Yalqız", eləcə də İlqar Fəhminin "Akvarium" və "Akvalanq" romanları ən bariz nümunələrdir. Qəhrəmanın daxili ziddiyyətlərini, öz-özüylə mübarizəsini, etiraflarını və ruhi yaşantılarını daha geniş ifadə edən romanlardan biri İlqar Fəhminin "Akvalanq" romanıdır.

Romanın 2006-ci ildə yazılmasını nəzərə alaraq bu ildə yazılmış əsərləri tədqiqata cəlb edən tənqidçi Nərgiz Cabbarlının məqaləsində verdiyi nəsr əsərlərinin bölgüsünə diqqət yetirək : «1. Psixoloji konflikt, psixoloji situasiya üzərində qurulan, psixologizmə meyl və mifik düşüncə tərzindən yararlanma ilə yaradılan çoxqatlı əsərlər ; 2. Ənənəvi realist üslubda yazılan və hadisələrin sadəcə təsviri ilə məhdudlaşan birqatlı nəsr nümunələri ; 3. Yazıçının postmodern ədəbiyyata meylinin nəticəsi olaraq meydana çıxan və məzmundan daha artıq forma üzərində qurulan əsərlər...» [4]. Birinci qrupa İlqar Fəhminin "Akvarium" romanı ilə bərabər "Akvalanq" romanı da daxil edilə bilər. Beləki, biz romanda təkcə "adsız qəhrəmanın" şüuraltı düşüncələri və daxili monoloqlarına deyil, mifik obrazdan poetik detal kimi istifadə olunmasına da rast gəlirik.

Əsərdə baş verən hadisələrin və qəhrəmanın düşdüyü fikir burulğanının əsasında kiçik bir "yay oyunu" dayanır. Bu oyun müddətində romanın psixoloji strukturunda assosiativ şəkildə bir-birinə bağlanan,

psixoanalizə əsaslanan elementlər üzə çıxır. Beləliklə, hər şey "darıxmaq" hissi ilə başlayır : "Darıxıram axı, Azad..." [1,5]

Darıxmağın psixi təhlilindən aydın olur ki, bu hiss insanın hansısa bir ehtiyacımızı ödəməkdən ötrü yaranan prosesin nəticəsidir. Elə isə Maslounun "ehtiyaclar iyerarxiyası" nəzəriyyasində həmin tələbatlar pilləsinə diqqət edək : fizioloji, təhlükəsizlik, aid olma (sevgi), hörmət və zirvədə verilən özünü təsdiq. Əsərin adsız qəhramanı isə darıxırdı, çünki onun ailəsiylə istirahət etməyə, cavanlığını yaşamağa ehtiyacı vardı, ancaq bu ehtiyacları ödəyə bilməmək darıxmaq prosesini daha da sürətləndirirdi. Həmçinin, bütün varlığı ilə öz işinin öhdəsindən gəlməyə çalışan Azad da bu prosesin içərisində idi, əks halda "oyun"a başlamazdı. Deməli, hər iki obraz əsərin qəhramanları olmaqla yanaşı, həmin prosesin də əsas iştirakçıları olur və özləri də bilmədən biri digərinə özünü təsdiq etmə ehtiyacı duyur. Çünki qadın bütün istirahət saatlarını işə həsr edən, onun gəlişini duymayan ərinə varlığını hiss etdirməklə, (..." istəyirəmki həmişə öz işini yox, məni fikirləşsin, mənim başıma dolansın"... [1,24]) çimərlikdə digər qızlara baxaraq gözəlliyi və xarici görünüşü ilə öyünməklə və Azad isə kiçik bir zarafatla da olsa xəyanət edə biləcəyini deyən xanımına sanki "mənim var olduğum müddətdə bunun ola bilməyəcəyini" göstərməklə hər ikisi özünü təsdiq etmək istəyir. Bəs özünü təsdiq etmə ehtiyacının yaranmasına təkan verən nədir ? Bu görünməz qüvvə insan eqosudur...

Psixoanalizdə mental aparat kimi qeydə alınan şəxsiyyətin strukturu Freyd tərəfindən üç hissəyə bölünür: id, eqo və supereqo. İnsanda həmin sözü gedən eqo daim bəyənilməyə və özünü təsdiqə ehtiyac duyur. Romanın adsız qəhrəmanının müxtəlif situasiyalarda özünü digər qadın və qızlardan zahirən necə üstün tutduğunu görməmək mümkün deyil. Öz Poseydonu hesab etdiyi xilasedicilərdən olan Sarının ətrafında voleybol oynayan qızları görəndə eqo həmin an baş qaldırır: «...fikirləşirdim ki, axı nəyə görə mən onlarla bir yerdə olmalı deyiləm, məgər mən o sarıbaş rus qızlarından əskiyəm? » [1,99] Özünü bəyənmə, öz gözəlliyindən əminlik və razılıq əlaməti bir çox məqamlarda onun daxili nitqində və düşüncələrində üzə çıxır : « ... yəqin, arvadlar həqarətlə baxacaq, kişilər isə heyrətdən gözlərini çəkə bilməyəcəklər. Axı belə gözəlliyi görmək hamıya nəsib olmur. » [1,159]

Beləliklə, ümumiləşdirdikdə aydın olur ki, darıxmaq insanın özünü təsdiqetmə ehtiyacından yaranır və bu tələbatın yaranmasına yol açan eqodan gələn impluslardır. Eqo isə insanda olan ikinci və ya belə desək, əsas və gizli qalan "mən"dir. Eqo mifik düşüncə tərzinə əsasən insanın "qaranlıq tərəfləri" ilə eynilik təşkil edir. Belə bir uyğunlaşma Freydin "eqo" anlayışı ilə eyni səviyyədə göstərilən Yunqun "kölgə" arxetipini xatırladır.

Eqoya paralel verilən kölgə arxetipi insanın ilk təkamül dövründən miras qalan heyvansal instinktlərini ehtiva edir. İnsanda potensial olaraq var

olan düşüncə və davranışlardır, insan təbiətinin heyvani tərəflərini özündə cəmləşdirir. «…İnsanın etiraf etmədiyi, lakin ona bu və ya digər şəkildə xas olan, xarakterinin xoşagəlməz tərəflərini, bir-birilə uyuşmayan meyllərini ehtiva edir» [3,242]. Romanda qadının kölgəsi bir çox durumlarda özünü göstərir. Hər şeydən əvvəl, qadının ərli olmasına baxmayaraq öz xəyal dünyasında Poseydon adını verdiyi və gerçəklikdə görüşməyə can atdığı bu naməlum adama, yəni akvalanqa olan şüuraltı istəklərinin oyanmasında məhz kölgənin rolu vardır.

Əgər xəyanət etmək insanın nəfsi ilə, daha doğrusu, şeytani tərəfləri ilə əlaqəlidirsə, o zaman belə çıxır ki, "yay oyununun" başlanılmasına dolayısı ilə qadının kölgəsi də təsir etmişdir. Çünki bunun ilk izləri baş verən hadisələrin lap əvvəlində ər və arvad arasında olan dialoqda sezilir. Eqo arxa plana keçəndə, kölgənin təzyiqi ilə insan öz iradəsindən asılı olmayaraq anidən nələrisə düşünə və edə bilir. Qadın isə bilmədən elə kiçik bir zarafat edir ki, bu əslində baş verənlərin ilkin nöqtəsidir. Ərinə yuxusunda etdiyi xəyanəti gerçək həyatda da edə biləcəyini söyləyərək bu məsələnin üzərində israrla dayanarkən "sənə arxayınam" cavabını alır. Azadın təkəbbürü və arxayınlığı, "Sən heç vaxt mənə xəyanət edə bilməyəcəksən. Özün istəsən də, Allah qoymayacaq " [1,12] söyləməsi sanki qadının görünməyən, iblisanə tərəfini qıcıqlandırır : «...ürəyimə damdı ki, tezliklə həm ona, həm də onun Allahına bəzi şeyləri sübut etməli olacam. Tezliklə...» [1,12]. Əxlaqi normalardan dolayı kölgəni yaşadığımız həyata daxil etmirik. Ancaq qadının sözlərindən aydın olur ki, o tezliklə kölgəsi ilə üzləşəcəkdir. Poseydonla tanışlığından sonra tanımadığı adamın onunla təmas saxlamasına izn verməsi, dəfələrcə onu görmək üçün tələsməsi, sualtından kənarda da onun kimliyini bilmək məqsədilə üç nəfər xilasediciyə yaxınlaşması və onlarla ünsiyyəti artıq qadının özü üçün sirli olan bir tərəfi ilə qarşılaşdığına işarədir.

Ümumiyyətlə, eqo və kölgə tarazlığını qoruyub saxlayarsa, yəni eyniləşərsə eqo öz funksiyasını yerinə yetirərək instinktləri, kölgənin enerjisini yönləndirər. İnsan şüuraltından gələn enerji ilə deyil, həyatını şüurla idarə edər. Ancaq kölgə elə bir həddə çatar ki, bir müddətdən sonra eqo üzərində hökmranlığa sahib olar. Bu isə insanın öz özüylə mübarizəsində məğlubiyyət və qalibiyyət olaraq əks olunur. Romanın adsız qəhramanı bu oyunun içərisində atdığı hər addımdan əvvəl tərəddüdlər edir, ancaq kölgə onu bütünlüklə ələ aldığı üçün həmişə də qaranlıq tərəfinin əsirinə çevrilir. O, dənizdən hədiyyə aldığı boyunbağının bir dalğıc tərəfindən verildiyini öyrəndikdən sonra dənizə onu görməyə gedərkən tərəddüd edir : «Axı mən hara gedirəm, niyə gedirəm, kimin üçün gedirəm? Məgər bura Avropadı? Axı mən...» [1,58] Bəlkə demək istəyirdi, axı mən ərli qadınam, amma demədi. Heç vaxt içki içməyən və bu cür hərəkətlərə yaxşı cəhət kimi baxılmayan bir ailədə böyüməsinə, hansı vəziyyətə

düşəcəyinin özünə də qaranlıq olmasına baxmayaraq ani bir düşüncəylə konyakı içir. Təbii ki, bunu etməkdə məqsədi xilasedicilərlə ünsiyyət yaratmaq və onlardan hansının onun Poseydonu olduğunu bilmək idi. Bunun üçün o, hədəfə doğru gedib öz yolunu aydınlatmaq istəyərkən, qaranlıq tərəflərinin varlığına göz yumur, beləliklə, o sadəcə olaraq kölgənin güclü bir şəkildə üzə çıxmasına şərait yaratmaqdan başqa heç nə edə bilmir. Sərxoş olur, şüuru tam açılmamış halda, ərli qadın olduğunu unudaraq onları digər qızlara qısqanır və poseydonlarına varlığını hiss etdirmək üçün hətta onların evini yandırır. Çox maraqlıdır ki, bəzən elə olur ki, Azadla dənizə getmək istəmir, düşünür ki, akvalanq onu əriylə görər, qısqanar, bir daha gəlməz: « Qəribədir. Nədən qorxurdum? Üzünü də görmədiyim yad bir adamın məni öz doğma ərimə qısqanmasından? » [1,71] Göründüyü kimi, qadın bəzən etdiyi səhvləri şüurlu şəkildə dərk edə və öz düşüncəsiylə düşdüyü bu durumun izahını verə bilir: « Son vaxtlar elə bil həyatım iki yerə bölünmüşdü, iki otaqlı aləmdə yaşayıram: iradəmdən asılı olmayaraq aradakı qapı açılır, bu otaqdan o birinə keçib qayıdıram. Ən qəribəsi bu idi ki, hər dəfə qapıdan o tərəfə keçəndə tamam dəyişirəm və bir az əvvəl fikrimdən keçənlər mənə çox qəribə, hətta gülməli gəlir. Qapının bir tərəfində evim, ailəm, o biri tərəfində dəniz və onun içindəki qəribə məxluq vardı. Üstəlik otaqlardan birində olanda mən o birsini tamamilə gözdən itirib, unudurdum » [1,59] Deməli, qadın dənizin, yəni kölgənin əsarətində olduğu müddətdə, əvvəlki utancaq halını tamamilə unudurdu.

Ümumi nəticəyə gəlirik ki, romanın adsız qəhrəmanının düşüncə, davranış və duyğularından bəlli olur ki, yeni evli olmasına, Azadı sevməsinə, həyatının az da olsa yaxşıya doğru irəliləməsinə baxmayaraq bu qadın hələ özünü dərk edə bilmir, öz "mən"inin lap dərin qatlarında gizlənən o qaranlıq tərəflərindən xəbəri yoxdur. Və buna görə də, özü də bilmədən bu qaranlıq dünyaya səfərə başlayır, bu yolda ona istiqamət verən isə Azad olur. Qadının darıxması isə təbii idi, çünki insan özünü axtarışı yolunda tənhalığa qapılır və darıxmağa başlayır... "Axı sən darıxırdın..."[1,163]

Ədəbiyyat siyahısı

1 . "Akvalanq" İlqar Fəhmi. "XAN" nəşriyyatı 2017
2 . E.Akimova "Oyun içində oyun, yaxud içimizdəki aktrisa" . "Azərbaycan" jurnalı. 2011.- №5.- S.185-187.
3 . Q.Quliyev "XX ƏSR ƏDƏBİYYATŞÜNASLIQ KONSEPSİYALRI". BAKI-2012
4 . N. Cabbarlı "Psixologizmə meylin nəticələri" (2006-cı ildə dərc olunan nəsr əsərləri əsasında) "Azərbaycan" jurnalı. 2008.- № 2. - S.178-184.
5 . http://education.gender-az.org

Gunay Hamidli Azizaga

Psychoanalytic research of Ilgar Fahmy's "Aqualang" novel

Summary

In the psychological novels involved the analysis inner world of the heroes research, their inner energies and impellers go to the forefront. The personality structure by Freud is divided into three parts: id, ego and supereqo. Ego is the second person in the human body or the "I". Ego is based on mythical thinking, which is largely identical to the "dark sides" of man. This same is reminded of Yunge's "shadow" archetype. The archetype is the animal instincts inherited from the first human evolutionary period. It covers the animal aspects of human nature. Due to moral norms, we can not enter the shade into which we live, but it is clear from the words of I. Fahmy's "Aqualang" that he will face his shadow soon and the shadow of a woman watches in many opportunities. So that he is spiteful, his quick hurry to see the man after his familiar acquaintance is just an impulse from the shadow that gives him the opportunity to come in contact with him. In the article mentioned with the negative feelings in his thoughts and inner world after the hero's shadow.

Гюнай Хамидли Азизага

Психоаналитическое исследование романа Ильгара Фахми «Акваланг»

Резюме

Психологические романы связаны с анализом внутреннего мира героев, их внутрення энергия и импульсов выходят на первый план. Структура личности Фрейда делится на три части: ид, его и суперего. Эго - второй человек в человеческом теле или «я». Эго основано на мифическом мышлении, которое в основном совпадает с «темными сторонами» человека. Это то же самое напоминает «теневой» архетип Юнга. Архетипом являются животные инстинкты, унаследованные от первого человеческого эволюционного периода. Он охватывает животные аспекты человеческой природы. Из-за моральных норм мы не можем войти в тень, в которую мы живем, но из слов «Акваланга» И. Фахми ясно, что он скоро столкнется со своей тенью, и тень женщины будет смотреть по-разному. Несмотря на то, что он злобный, его быстря спешка увидеть мужчину после его знакомого знакомства - это просто импульс от тени, который дает ему возможность соприкоснуться с ним.

Rəyçi: Dilbər Zeynalova
filologiya üzrə fəlsəfə doktoru, dosent

AQŞİN DADAŞ-ZADƏ
AMEA Ədəbiyyat İnstitutu
agshin1960@rambler.ru

CƏFƏR CABBARLI VƏ SƏMƏD VURĞUNUN PYESLƏRİNDƏ DRAM ELEMENTLƏRİNİN TƏZAHÜR FORMALARI

Açar sözlər: dramaturgiya, pyes, janr, konflikt, təhlil
Ключевые слова: драматургия, пьеса, жанр, конфликт, анализ
Key words: dramatic works, play, genre, conflict, analysis

XX əsr Azərbaycan ədəbiyyatının nəhəng simalarından olan C.Cabbarlı və S.Vurğun yaradıcılığı həm mövzu seçimi, həm ədəbi növ müxtəlifliyi, həm də bədii təsvir vasitələrinin tətbiqi baxımından bir çox özünəməxsus cəhətlərə malikdir. Hər iki ədib ictimai-siyasi cəhətdən olduqca mürəkkəb, ziddiyyətli bir dövrdə yaşamış, öz fikir və arzularını, bir çox halda hətta yaradıcılıq metodunu zamanın nəbzi ilə ölçmək məcburiyyətində qalmış, lakin əsl sənətkarı orta istedad sahiblərindən fərqləndirən tərzdə kütlələrə mənəvi-əqli-emosional təsir göstərmək bacarığını hər zaman yüksək səviyyədə nümayilş etdirmişdir. Heç də təsadüfi deyil ki, ədəbiyyatın çoxşaxəli və çoxvariantlı dram növü bu qələm sahiblərinin əsərləri arasında xüsusi yer tutur. İctimai-siyasi həyatda baş verən olaylara sayıq gözlə baxan, proseslərin əsl mənasını təyin etməyə çalışan və onların çox zaman amansız və ədalətsiz mahiyyətini anlayan, müşahidə və duyğularını müvafiq bədii formaya sala bilmək məharəti göstərən bu iki ustad, təbii ki, dramaturgiyanın onlara verdiyi yaradıcılıq imkanlarından imtina edə bilməzdi.

Hələ ilk dramlarında belə həyatın ağrılı-acılı tərəflərini dəqiq müşahidə edən, ictimai reallığın sarsıdıcı, dağıdıcı qüvvəsinin şahidi olan, insan xislətinin naqisliyi və məfkurəvi zəiflikdən irəli gələn xüsusiyyətləri gərgin, emosional tutumlu dramatik vəziyyətlərdə əks etdirməyi bacaran, yazıçı və vətəndaş məramını daha təsirli boyalarla çatdırmağı hədəfə alan çox gənc C.Cabbarlının əsərləri vaqiəsinin gedişi və dönüşlərinin effektivliyi ilə diqqəti çəkirdi. "Vəfalı Səriyyə" və "Solğun çiçəklər" pyesləri həm quruluşu, həm də ümumi pafosu etibarilə bir qədər primitiv görünsə də, onlarda insan ehtiraslarının təbii təsviri dramatizmin əsas qayda və tələblərinə yaxınlaşmışdır. Əlbəttə, hər iki pyes dramaturji intriqasının dinamikası və cazibə qüvvəsi ilə seçilir. Onların əsas qəhrəmanlarının hərəkət və xüsusən danışığında patetika elementləri diqqətdən yayınmır. Hətta söyləmək olar ki, bəzi məqamlarda bu personajların düşüncə və ifadə

tərzi, onların ehtirasları müəllif tərəfindən hiperbolizasiya üsulu ilə işlənmişdir. Nəhayət, gənc dramaturq hər iki əsəri açıq-aşkar mənəvi-didaktik axara yönəltmişdir. Onların konfliktinin psixoloji primitivizm üzərində qurulması, əsas surətlər arasında münasibətlərin sadələşdirilməsi və mənəvi-ruhi təzahürlərin qəsdən qatılaşdırılmış rənglər vasitəsilə əks etdirilməsi, əlbəttə, həmin qələm təcrübələrinin bədii-estetik xüsusiyyətlərini arzuolunan yüksəkliyə qaldıra bilməmişdir. Həm də müəllifin hər bir surətə fərdi münasibəti, onun hüsn-rəğbəti, yaxud əksinə, nifrəti də adı çəkilən pyeslərdə çox aydın şəkildə izlənilir ki, bu da "Vəfalı Səriyyə", xüsusən də "Solğun çiçəklər"i janr spesifikası baxımından "yüksək" dramatizmdən uzaqlaşdıraraq, melodramaya yaxınlaşdırır.

Adətən dram janrında yazılan pyesin qəhrəmanı, qəbul olunmuş kanonlara görə, çətin sınaqlardan keçib iztirab yaşamalıdır. Əgər o, cəmiyyətin müəyyən qəlibləşmiş normativlərinə qarşı hərəkət edərkən qorxu və tərəddüd hissinə qalib gələrək yüksək iradə keyfiyyətləri sərgiləyirsə, yolundan dönmürsə, çəkdiyi əziyyətlərin müqabilində pyesin sonunda mənəvi-ruhi "yenilənmə" fazasına daxil olur. Söhbət dramatizmin fundamental ünsürlərindən birindən gedir. Daha dəqiq desək, qəhrəman müəyyən qüvvələrlə mübarizədən mənən daha qüvvətli və yetkin durumda ayrılır. Həmin personajın belə dramatik vəziyyəti, heç şübhəsiz ki, onun mübarizəsinin pafosu ilə uzlaşaraq əsl dram nümunəsinin yaranmasını şərtləndirir. Lakin, məsələn, "Vəfalı Səriyyə"nin qəhrəmanı Bəhramın pyes boyu "təkamül"ünü izləsək görəcəyik ki, həyatındakı müəyyən sarsıdıcı hadisələrin təsiri ilə o, əsərin final hissəsində, sanki mənən dəyişmiş, payına düşən ağrılı-acılı hadisələrin ağırlığı altında daha mükəmməl əqlə və dünyagörüşünə sahib olmuşdur. Amma həmin qəfil təbəddülat daha çox zahiri faktorların təsiri, bir də müəllif fantaziyasının gücü hesabına baş vermişdir ki, bu da məsələnin məğzini əsaslı şəkildə dəyişdirir. İş bundadır ki, qəhrəmanın psixoloji sarsıntıları və onun əqli-mənəvi baxımdan yeni keyfiyyətlər əldə etməsi həddindən artıq müstəqim xətt üzrə baş verdiyindən əsərin pafosu dramatik vüsət qazana bilməmişdir. Həmin gerçəkliyin əsl səbəbini Məmməd Arif vaxtilə belə izah etmişdir: "Bəhram dövrün mütərəqqi gənclərindən deyildir, "bəxtsiz cavanlar"dan olsa da, onun bədbəxtliyinin səbəbi cəmiyyətlə məfkurəvi ziddiyyətdə olmasında deyildir" (2, 39). Tədqiqatçı bir cümlə ilə qeyd etmək istəmişdir ki, Bəhramın daxil olduğu kolliziyanın arxasında heç bir ictimai-siyasi, başqa sözlə, "ali", yüksək bir motiv yoxdur. Bir qədər də irəli gedərək bildirmək olar ki, bu surətin "seçdiyi" davranış tərzi nəticəsində daha da qızışdırılan intriqa, əslində, onun öz-özünü heç də labüd olmayan konfliktə sürükləməsi reallığı müstəvisində baş verir. Təbii ki, həyat təcrübəsinin azlığı nəticəsində (dramaturqun əsəri yazarkən cəmi 16-17 yaşı var idi!) həyatda cərəyan edən

proseslərə bir qədər dar bucaq altında yanaşan C.Cabbarlının "Vəfalı Səriyyə"də yaratdığı dramatik vəziyyət yalnız zahiri (səthi) konflikt doğuracaq situasiya üzərində qurulmuşdur. Müəllif, dramatizmi artırmaq məqsədilə ayrı-ayrı səhnələri maksimum dərəcədə gərginləşdirmək yolu ilə getsə də, bu zaman bəzən sentimental səhnə, ifadə və çağırışlara yer versə də, son nəticədə özündə daha çox tərbiyəvi məqamlar daşıyan didaktik mahiyyətli melodram yaratmağa müvəffəq olmuşdur. Əgər "Vəfalı Səriyyə"də dramatizm bəzi personajların gülüş doğuran ifadə və atmacaları ilə öz kəskinliyini bir qədər itirirsə, Cabbarlının ikinci pyesi haqqında bunu söyləmək olmaz. Həyatın, ictimai münasibətlərin ədalətsiz və qəddar mahiyyətinə varmağa çalışan müəllif əvvəldən seçdiyi ciddi üslub axarını qoruyub saxlamaqla tamaşaçı və oxucunu ovsunlaya biləcək kifayət qədər dayanıqlı dramatik fon yarada bilmişdir. Əsərin quruluşundakı həmin keyfiyyəti müşahidə edən Ə.Sultanlı bu barədə çox sadə şəkildə belə bir fikir söyləmişdir: "Pyes əvvəldən axıra qədər, dramatik gərginliklə inkişaf edir. Burada gülüş ünsürləri yoxdur" (1, 180). Hər iki pyesin aparıcı ideyasının dramaturji təqdimatı, söz yox ki, özünəməxsus şəkildə icra edilmişdir. Lakin bu əsərlərin konflikti ilə bağlı pafos bəzi hallarda tədqiqatçıların problemin mahiyyətinə daha çox fərdi qavrayış müstəvisindən yanaşmasını şərtləndirir ki, nəticədə onların janr mənsubiyyətinin müəyyənləşdirilməsi müəyyən dərəcəyədək subyektiv məcraya yönəlir. Məsələn, R.Əliyev kimi C.Cabbarlı irsinə dərindən bələd olan və onu daha müstəqil və orijinal təhlilə cəlb etməyə çalışan tədqiqatçının "Vəfalı Səriyyə"ni maarifçi realist komediya, "Solğun çiçəklər"i isə tənqidi realist dram adlandırması (3, 167) bu əsərlərin həm janr sprsifikası, həm də onların mayasında olan dramatizmin qiymətləndirilməsi baxımından suallar doğurur.

Cabbarlının "Aydın" və "Oqtay Eloğlu" pyeslərinin ideya-məzmun yaxınlığı barədə dəfələrlə müxtəlif fikirlər söylənilib. Hər şeydən əvvəl qeyd edilməlidir ki, müəllif bu əsərlər vasitəsilə əslində bütün dövrlər üçün aktual olan müəyyən sosial-ictimai, mənəvi-etik problemlərin səhnəyə gətirilməsini bir məqsəd olaraq qarşısında qoymuşdu. Həm Aydın, həm də Oqtay Azərbaycan cəmiyyətinin olduqca tələtümlü bir dövründə yaşayan, ictimai-siyasi, sosial müstəvidə cərəyan edən proseslərin yırtıcı və eybəcər reallığını qəbul edə bilməyən qəhrəmanlardır. Onların sağlam və daim fikri axtarışlarda olan əqidəsi, gündəlik həyatda rastlaşdıqları haqsızlıq və əyintilərlə barışmazlığı bu gəncləri cəmiyyətin "artıq adamlar"ına çevirmişdi. Sovet dövrünün ədəbiyyatşünaslığı məlum səbəblərə görə həmin surətlərin acınacaqlı taleyini daha çox mövcud kapitalizm quruluşuna qarşı şüurlu inqilabi mübarizədə iştirak etməməsi ilə əlaqələndirirdi ki, bu da məsələyə birtərəfli münasibəti şərtləndirirdi. Sırf sənətkarlıq baxımından yanaşıldıqda isə qeyd edilməlidir ki, məsələn, "Aydın"da bədii cəhətdən iki

olduqca qüvvətli, emosional çalarların yüksək gərginliyi ilə müşayiət olunan səhnə vardır. Söhbət fabrikdə və kafe-şantanda cərəyan edən hadisələrdən gedir. Məhz bu səhnələrdə özünü göstərən yüksək dramatizm, insan psixologiyası və davranışının ekstremal vəziyyətlərdə bütün çılpaqlığı ilə üzə çıxan özəl cizgiləri, personajların əqli və iradi keyfiyyətlərinin nümayişi sənətkar qələminin qüdrəti ilə çox yüksək bədii-estetik səviyyəyə çatdırılmışdır. Əslində Cabbarlı, bəlkə də öz-özünə hesabat vermədiyi halda, həmin səhnələrin birində sağlam əqidəli bir insanın müəyyən yüksək məqsəd uğrunda çabalarının mənasızlığını, digərində isə əslində bütün dünyanın mənəviyyatsızlıq, vəhşilik girdabında çalxalanan absurd mənzərəsini yaratmağa müvəffəq olmuşdur. Əlbəttə, həmin səhnələrin ruhi-emosional gərginliyi, əsas qəhrəmanların fasiləsiz olaraq üzləşdiyi ağır sarsıntılar (həm də ailə münasibətləri çərçivəsində) pyesin süjet xəttinin getdikcə mürəkkəbləşən inkişafı, nəhayət, müəllifin ürəkağrısı ilə toxunduğu sosial məsələlər ümumi dramatizmi artıraraq, "Aydın"ı bir bədii əsər kimi ictimai, daha artıq dərəcədə də ailə-ictimai dramlara çox yaxınlaşdırmışdır. Lakin dram janrının poetikasının özəl xüsusiyyətlərinə əsasən, qəhrəman ya üz-üzə gəldiyi qüvvələrlə ağır mübarizədən müəyyən itkilərlə çıxsa da, onun ruhu, sanki təmizlənməli, o, mənəvi cəhətdən yeni bir auraya daxil olmalı və özündə gələcək mübarizələr üçün müəyyən bir potensialı qoruyub saxlamalı, ya da ki, fiziki cəhətdən məhv olsa belə, ölümü ilə yüksək bir idealın təsdiqini təmin etməlidir. Aydının timsalında isə biz bu iki təzahürün heç birini müşahidə edə bilmirik. Düzdür, Cabbarlı dühasının qüdrəti ilə pyesin finalında müəyyən katarsis elementləri hiss edilməkdədir. Lakin pyes boyu qəhrəmanın mübarizəsinin məzmun və mahiyyəti kifayət qədər yayğın təsəvvür oyatdığından, onun son məqsədi özü üçün də gizli qaldığından, fəaliyyətinin isə passiv məcrada getdiyindən, bir çox hallarda isə seyrçilik və yalnız güclü pafosa malik nitqlə müşayiət olunduğundan Aydında həqiqi dram personajına məxsus cizgilər əsaslı surətdə zəifləmişdir. Ona görə də bu əsərdə insanın şüur və hisslərini riqqətə gətirən səhnə və epizodların bolluğuna baxmayaraq, onu dram janrında yazılmış bir nümunə kimi təsdiq etmək mübaliğəli görünərdi. Geniş mənada "Aydın"da böyük istedadın hesabına yaradılmış, çox zəngin bədii boyalarla işlənmiş ciddi mündəricəli, sözün əsl mənasında ali səciyyəli melodramın ünsürlərini axtarmaq lazımdır.

Dramaturqun bu qəbildən olan ikinci möhtəşəm pyesi "Oqtay Eloğlu"nda da vəziyyət təxminən yuxarıda izah etdiyimiz kimidir. Əlbəttə, dramaturji quruluşu və personajlarının "mükəmməlləşdirilmə"si baxımından bu əsər Cabbarlının yaradıcılığında təkamül prosesinin davamıdır. Aydından fərqli olaraq Oqtay nəyin uğrunda mübarizə apardığını daha yaxşı bilir və öz fəaliyyətində daha inamlı və fədakardır ki, bu da onun səciyyəsini eklektikadan uzaqlaşdıraraq dram qəhrəmanlarının xarakteristikasına əsaslı

surətdə yaxınlaşdırır. Əsərdə müşahidə olunan ümumi dispozisiya, vaqiənin dalğavari (qalxan və enən dinamika üzrə) inkişafı, mühüm ictimai-sosial mahiyyət daşıyan mövzunun getdikcə daha ciddi xarakter alması, baş qəhrəmanın mənəvi qüvvələrinin konsentrasiyası pyesdə dram janrına xas olan spesifik xüsusiyyətlərin təzahürünü, sanki gücləndirir və təsbit edir. Lakin finalda süjet xəttinin kəskin dönüşü, yüksək bədii sənətkarlıqla hazırlanan və təsvir edilən qətl səhnəsinin əzəməti, onun xüsusi pafosla işlənmiş təkrarsız bir monoloqla müşayiət olunması pyesi fikri-emosional cəhətdən xeyli zənginləşdirmiş olsa da, gerçəklikdə dram janrının əzəli tələb və normativlərini bir qədər pozmuşdur. Odur ki, "Oqtay Eloğlu"nda da melodram ünsürləri ön plana çıxmışdır ki, bu da onun istər bədii, istər mənəvi-tərbiyəvi, istərsə də tarixi-məfkurəvi mündəricəsinə ziyan vurmamış, əksinə, onu həmin üç parametrin üzvi vəhdətinə və sənətkarlıqla bağlı digər amillərə görə milli dramaturgiyamızın təkrarsız incilərindən birinə çevirmişdir.

Dram janrının sinkretik təbiətini yaxşı duyan Cabbarlı özünün quruluş, forma və ifadə vasitələrinə görə ilk iki pyesindən daha mükəmməl alınmış "Nəsrəddin şah" və "1905-ci ildə" əsərlərində ciddi ictimai-siyasi, habelə milli varlığımızla bağlı problemlər qaldırmaqla yanaşı, onların bəzi məqamlarında mübaliğəyə yol vermədən romantizm elementlərindən istifadə etmişdir ki, bu da süjetin bədii təcəssümünü daha da zənginləşdirmişdir. Həmin təsvir üsulunun pyeslərin "açar" situasiyalarında tətbiqi dramatizmin daha təbii şəkildə qavranılmasına yardım edir. Yaradıcılığının son dövründə isə açıq surətdə realizmə meyl edən ədib artıq "sosial dramın janr tiplərindən olan inqilabi nikbin dramlar" (3, 172) qələmə almaqla dramatizmin daha mükəmməl formasını ortaya qoya bilmişdir. Maraqlıdır ki, məsələn, "Almas", "Dönüş", "Yaşar" kimi pyeslərdə hadisələrin rəvan gedişi qəflətən qəhrəmanın şəxsi taleyi ilə bağlı mürəkkəb bir situasiya ilə əvəz olunur. Bu zaman emosional gərginlik artan xətt üzrə inkişaf edərək son nəticədə gözlənilməz bir hadisənin (xilasedici dönüş) baş verməsi ilə aparıcı personajın müqəddəratı baxımından pyesi qənaətbəxş (bir mənada hətta uğurlu) finala doğru aparır. Eyni zamanda Cabbarlının əksər pyesləri üçün səciyyəvi olan nisbətən komik səhnələrin ciddi səhnələrlə, yaxud əks şəkildə əvəzlənməsi əsərlərinin bədii-estetik keyfiyyətini daha da artırmaqla yanaşı, onların dramatik məzmununun açılmasında çox kəsərli bir silaha çevrilmişdir.

Ötən əsrdə Azərbaycan ədəbiyyatı, o cümlədən dramaturgiyasında məfkurəvi-estetik baxımdan əsaslı inkişafa təkan verən sənətkarlardan biri də S.Vurğun idi. Onun nəzmlə yazılan "Vaqif", "Xanlar", "Fərhad və Şirin", "İnsan" kimi pyesləri Azərbaycan xalqının özünüdərki, dilimizin (o cümlədən poeziyada) daha da cilalanması, bir çox fəlsəfi-ictimai məsələlərə

baxışların fərdi və sağlam rakursdan təqim edilməsi, nəhayət, milli dram janrının struktur və forma cəhətdən yeni bir müstəviyə çıxması nöqteyi-nəzərindən çox qiymətli ədəbi-bədii fakt hesab edilməlidir. Vətənpərvərlik mövqeyindən yazılan bu əsərlər əsasən tarixi mövzuları əhatə edir və onlarda xalq həyatının, milli psixologiyanın incə çalarlarını əks etdirən ümumiləşdirici bir qüvvə vardır. "Vaqif" və "Fərhad və Şirin" pyeslərində vaqiənin müstəqim xətt üzrə inkişafı vaxtaşırı olaraq müxtəlif həyəcanlı epizodlarla əvəz olunur və situasiyaların kəskin təzadı üzərində qurulan belə səhnələr həmin əsərlərin dinamika və dramatizmini yüksəldir. İstər Vaqif, istərsə də Fərhad surətlərinin yüksək amal uğrunda mübarizə əzmi, onların xarakteri ilə bağlı "tragik günah" anlayışı hər iki qəhrəmanın səciyyəsində ciddi faciə üçün əsaslı zəmin olmasından xəbər verir. Lakin müəllifin son dərəcə gərgin situasiyaları, sanki axıradək çatdırmadan, kulminasiya nöqtəsinə yetişdirmədən onların gərginliyini bir qədər azaltması, yaxud baş qəhrəmanın mübarizəsini əvvəldən təyin etdiyi və bədii məntiqə daha uyğun olan xətt üzrə aparmaqdan uzaqlaşaraq, onun qarşısında duran maneələrin forma və məzmununu dəyişdirməsi ("Fərhad və Şirin"də) sənətin şərtiliyi baxımından nə qədər qəbuledilən bir üsul olsa da, bu, pyeslərin pafosunda faciə ünsürlərini zəiflədərək, dramatizm kateqoriyasına məxsus mündəricəni gücləndirmişdir. Məsələ heç də həmin əsərlərdən birinin qəhrəmanının məhv olması (Fərhad), yaxud dugərinin pyes boyu böyük təhlükələrlə rastlaşmasına baxmayaraq, finalda fiziki cəhətdən xilas olması və mənəvi qələbə çalmasında (Vaqif) deyil. Əgər bir qədər də irəli getsək görərik ki, "Xanlar" və "İnsan" kimi əsərlərin qəhrəmanları da müəllif tərəfindən seçilmiş dramaturji inkişaf xətti və hadisələrin təzadlı dönüşü, yaranmış situasiyaların çox mürəkkəb hal alması nəticəsində cismani olaraq məhv olurlar. Lakin diqqətli təhlil nəticəsində aydın olur ki, hər dörd əsərin əsas personajının ehtiras və hərəkətlərinin mayasında dramatizm ünsürləri üstünlük təşkil edir. Onlar öz məqsədlərinə nail olmaqdan, ədalət prinsiplərini qorumaqdan, ideya və məfkurələrinin qələbəsini təmin etməkdən ötrü iradə, zəka və enerjilərini əsaslı surətdə səfərbər edərək tamaşaçılar (oxucular) qarşısında müvafiq estetik kanonların yol verdiyi davranış diapozonu çərçivəsində görünürlər. Bir də ki, V.Frolovun yazdığına əsasən, "dramın "uğurlu" finalı kimi əlaməti artıq çoxdandır ki, öz əhəmiyyətini itirmişdir. Bu məqamda dram faciəyəyə yaxınlaşaraq, öz sərbəst qanunlarını təsbit etmişdir. Bəzən o, faciəvi finallarla da bitə bilər"(4, 337). Göründüyü kimi, dramın bir janr kimi bu cizgi və xüsyusiyyətləri S.Vurğunun, demək olar ki, bütün pyesləri üçün səciyyəvidir. Sadə, eyni zamanda da çox zəngin, zəngin olduğu qədər də orijinal keyfiyyətli bir dildə yazan, mühüm məfkurəvi, həm də ictimai-siyasi məsələlər haqqında düşüncələrini tamaşaçılarla (oxucularla) özünəməxsus və sərbəst şəkildə

bölüşən, ədəbiyyatın dram növünün spesifikasına məxsus incə çalarları milli ədəbi zəmində bacarıqla tətbiq edə bilən şair, şübhəsiz ki, teatr sənətimizin təkamül yolu ilə inkişafı üçün də az iş görməmişdir. Bədii quruluşu, surətlərinin düşüncə və hərəkət tərzi, kolliziyalarının pafosu və konflikt düyünün açılması üsulu etibarilə bu əsərlər xalq qəhrəmanlıq dramı kimi təsnif edilə bilər. Təsadüfi deyil ki, ədəbiyyatşünaslığımızda və ədəbi tənqidimizdə aparılan əksər təhlillər məhz belə bir qənaətin formalaşmasını nəzəri-estetik cəhətdən bütün təfərrüatı ilə ortaya qoymuşdur (M.Arif, M.Hüseyn, Mir Cəlal, C.Cəfərov, Q.Xəlilov və b.). Doğrudur, S.Vurğun dramlarının nüvəsini təşkil edən lirik-fəlsəfi dolğunluq, baş qəhrəmanların monoloquna məxsus siqlət, finalda katarsis elementinin müəyyən işartısı (xüsusilə, "Vaqif"də, bir qədər başqa və heç də zəif olmayan formada isə "İnsan"da) bəzi tədqiqatçıların (R.Miller-Budnitskaya, İ.Selvinski, A.Adalis, Y.Borev, M.Məmmədov) fikrini yayındıraraq, onlarda S.Vurğunun yaradıcılığı timsalında faciə janrının normativlərinin üstünlüyü haqqında birtərəfli qənaətin formalaşmasına səbəb olmuşdur.

Azərbaycan dramaturgiyasının C.Cabbarlı və S.Vurğun kimi sənətkarları sıramızı tərk etdikdən sonra da ədəbiyyatın bu növü özünəməxsus inkişaf yolu keçmişdir. Lakin etiraf etmək lazımdır ki, onun sonrakı dövrlərdə yaranan və uğurlu sayıla biləcək ayrı-ayrı nümunələri həm də məhz bu iki ustadın yaradıcılıq məktəbinin faydalı cəhətlərindən yararlanmışdır. Əlbəttə, hər iki dramaturqun əsərlərində müəyyən dərəcəyədək faciə, yaxud komediyadan irəli gələn ünsürlərə də rast gəlmək mümkündür. Lakin onların məlum pyeslərin süjetinin toxumasına üzvi surətdə daxil olması və səciyyələrin inkişafında iştirakı dram janrının əsas xüsusiyyətləri ilə ziddiyyət təşkil etmir, əksinə, bu əsərlərin bədii-estetik qüvvəsini daha da artırır.

Ədəbiyyat

1.Əli Sultanlı. Məqalələr. Bakı: Azərnəşr, 1971
2.Məmməd Arif. Seçilmiş əsərləri. 3 cilddə. II c. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1968
3.Rəhim Əliyev. C.Cabbarlının yaradıcılıq təkamülü. Bakı: Yazıçı, 1989
4.Фролов В.Судьбы жанров драматургии.Москва:Советский писатель,1979

Агшин Дадаш-заде

Формы проявления элементов драмы в пьесах дж.джабарлы и С.Вургуна

Резюме

Дж.Джабарлы и С.Вургун являются выдающимися представителями азербайджанской литературы XX века. Их произведения, в частности пьесы, сыграли важную роль в идейно-тематическом и художественно-эстетическом развитии отечественной литературы.

В статье предпринимается попытка определить критерии осмысления обоими драматургами жанрового своеобразия драмы и основные стилевые особенности их сценических произведений.

Особое внимание уделяется чуткому отношению обоих авторов к исторически сложившимся теоретическим канонам жанра драмы, их стремлению органически соединить значимость темы с его художественным воплощением.

Agshin Dadash-zada

Forms of manifesting of drama elements in the plays of j.jabbarli and S.Vurgun

Summary

J.Jabarly and S.Vurgun are outstanding representatives of the Azerbaijani literature of the 20th century.

Their works, in particular plays, played an important role in the ideological-thematic and artistic-aesthetic development of national literature. The article makes an attempt to determine the criteria for comprehending the genre peculiarity of the drama by both playwrights and the main style features of their stage works.

Particular attention is paid to the sensitive attitude of both authors to the historically formed theoretical canons of the genre of drama, their desire to organically combine the significance of the theme with its artistic embodiment.

Rəyçi: Maral Yaqubova,
filologiya üzrə fəlsəfə doktoru

HİCRAN FƏRHADOVA
BDU
hicran@mail.ru

ALMAN POEZİYASI VƏ DRAMATURGİYASI AZƏRBAYCAN DİLİNDƏ

Açar sözlər: Alman, Azərbaycan, ədəbi əlaqə, bədii tərcümə, dramaturgiya, poeziya.
Key words: German, Azerbaijan, literary communication, literary translation, drama, poetry
Ключевые слова: немецкий, Азербайджан, литературное общение, художественный перевод, драма, поэзия

Hər bir ədəbiyyat başqa xalqların ədəbiyyatlarından şüurlu surətdə yararlanaraq qarşılıqlı əlaqədə zənginləşir, faydalı olanı əxz edərək inkişaf edir. Başqa sözlə desək, dünya ədəbiyyatının inkişafı müxtəlif xalqların ədəbiyyatlarının bir-biri ilə qarşılıqlı əlaqəsi sayəsində baş verir. Bu barədə ulu öndərimiz Heydər Əliyevin fikri xüsusilə maraq doğurur: "Ədəbiyyatların qarşılıqlı təsiri yeni şey deyildir. Bütün ümumbəşəri mədəniyyət kimi dünya ədəbiyyatı da sadəcə olaraq milli mədəniyyətlərin və ya ədəbiyyatların məcmusu deyildir, ən əvvəl onların tarixi qarşılıqlı nüfuz prosesində yaranan müəyyən vəhdətidir. Heç bir xalq başqa xalqların mədəniyyətlərindən istifadə etmədən inkişaf edə bilməz" (4, 21)

Ədəbiyyatlararası əlaqələrin tədqiqinə marağın xeyli artmasına baxmayaraq, müasir ədəbi əlaqələrin öyrənilməsi sahəsi hələ də kifayət qədər nəzəri bazaya malik deyil, bunun üçün ədəbiyyatların müxtəlif məsələlərinin və təzahürlərinin təhlili zəruridir. Ədəbi əlaqələrin inkişafında bəzi qanunauyğunluqların müəyyən edilməsi üçün bir sıra ciddi elmi arfaşdırmalara ehtiyac var. M.P.Alekseyev yazırdı ki, hər şey dəqiqliklə aydındır ki, milli ədəbiyyatlar bir-birindən tam təcrid olunmuş şəkildə mövcud deyildir, onların hamısı ya özlərinin əməlgəlmə ümumiliyi ilə, ya təkamüllərindəki oxşarlıqlarla, ya da onların arasında mövcud olan bilavasitə əlaqə və qarşılıqlı təsirin varlığı ilə, ya da ən nəhayət qeyd edilən şərtlərin ikisinin və ya üçünün eyni zamanda onların mümkün birləşməsi ilə qarşılıqlı əlaqədədirlər (5, 7). Bu baxımdan, Azərbaycan-alman ədəbi əlaqələrinin tarixi və s. məsələlərin öyrənilməsi ədəbiyyatşünaslığın ən aktual problemlərindəndir.

İlk dəfə Peterburq Universitetinin professoru azərbaycanlı M.Topçubaşov alman dilindən bədii əsərləri tərcümə etmiş və sonrakı dövrlərdə alman ədəbiyyatından müntəzəm tərcümələrə başlanmışdır. Bu iş

XX əsrdə daha da qüvvətlənmiş, Hötenin "Faust"u, "Gənc Verterin iztirabları", Şillerin "Orlean qızı", "Qaçaqlar", H.Heynenin "Seçilmiş əsərləri", Anna Zegersin "Yeddinci xaç" romanı və b. əsərlər Azərbaycan oxucularının ixtiyarına verilmişdir (Cəfər Cabbarlının, Əhməd Cəmilin, Ənvər Məmmədxanlının və başqalarının tərcüməsində). Sovet dövründə daha çox sosializm realizmi üslubunda yazıb-yaradan alman yazıçılarının əsərləri tərcümə edilmişdir. Məhz bu illərdə A.Zegersin "Balıqçıların üsyanı", B.Kellermanın "9 noyabr", E.M.Remarkın "Qərb cəbhəsində təbəddülat yoxdur" romanları Azərbaycan dilinə tərcümə olunmuşdur.

Tərcümə, geniş mənada, insanlar arasında ünsiyyət vasitəsidir. Birinin anlamadığını ona anlatmaq üçün yeganə yol məsələyə onun bildiyi anlayışlar vasitəsi ilə açar axtarmaqdan ibarətdir. Uşaq bilmədiyi bir sözün mənasını valideynindən soruşduqda valideyn yalnız uşağın bildiyi sözlər vasitəsilə onu başa sala bilər. Bu halda söz ehtiyatı böyük olan valideynin dilindən söz ehtiyatı dar olan uşaq dilinə tərcümə işi baş verir. Mənimsəmiş olduğumuz söz, ifadə və anlayışlar vasitəsilə elmi anlayışların sadə tərifini vermək də elmi dildən daha sadə dilə tərcümə etmək deməkdir. Birisi bilərəkdən, süni surətdə və ya bacarıqsızlıq uzündən anlaşılmaz ifadələrlə danışırsa - "tərcümə et, görək nə deyirsən" deyə müsahibləri onu yüngülcə qınayır. Dilimizdə işlətdiyimiz "Tarixi-Nadiri yarıya kimi oxumuşam, amma sənin nə danışdığını başa düşmürəm" kimi ifadələr də, bəzən doğma dil içində də tərcüməyə ehtiyac olduğuna işarədir. Beləliklə, bir dildə danışanlar da öz aralarında arasıkəsilmədən tərcümə fəaliyyətindədirlər.

Tərcümə həm böyük coğrafi məkanda, ölkələr və xalqlar arasında, həm də keçmişlə bu gün arasında əsas ünsiyyət vasitəsidir, gediş-gəlişi təmin edən körpüdür. Tərcümə bir yerdə və ya bir dövrdə əldə olunmuş məlumatları, elmi-texnoloji nailiyyətləri, bədii gözəllikləri başqa yerə və ya başqa dövrə daşıyan zəhmətkeşdir. Puşkin gözəl demişdir: "tərcüməçilər maarifin poçt atlarıdır" (3, s.167).

Elmi-ədəbi aləmdə tərcümə termini, əsasən bir dildə danışılanların və ya o dildə yazılmış əsərlərin başqa dilə çevrilməsini izah etmək üçün işlədilir. Azərbaycanca bunu bir tərcümə (və ya, bəzən, onunla eynigüclü hesab olunan çevirmə) sözü ilə ifadə edirlər, sadəcə iki növ tərcüməni fərqləndirmək üçün yazılı tərcümə və şifahi tərcümə ifadələrini də işlədirlər. Geniş yayılmasa da, şifahi tərcümə edənə dilmanc, sifahi tərcümə işinə isə dilmanclıq da deyirlər.

Rus dilində "perevod" sözü oxşar mənada və formalarda tətbiq edilir, yazılı və şifahi tərcümə uyğun olaraq "ustnıy perevod" və "pismennıy perevod" ifadələri ilə verilir. İngiliscə, almanca və fransızcada isə yazılı və şifahi tərcümə üçün nəzərdə tutulmuş iki ayrı söz, uyğun olaraq "translation", "traduction" və "interpretation" terminləri mövcuddur. Əsər

hansı dildən tərcümə olunursa, yəni orijinal hansı dildə isə ona qaynaq (mənbə, resurs) dil, tərcümə hansı dilə edilirsə ona hədəf və ya alan (reseptor) dil deyilir (2, 23).

Ayrı-ayrı əsərlərin, romanların, dramların, şeirlərin və sairənin tərcüməsi tərcümənin "bədii tərcümə" adlanan qolunu təşkil edir. Bədii tərcümə - ədəbi yaradıcılıq növü, bir dildəki bədii əsərin başqa dilə çevrilməsidir. Bədii tərcümə başqa tərcümələrdən orijinal bədii yaradıcıdlıqla bilavasitə bağlılığı ilə seçilir. Bədii tərcümədə söz estetik mahiyyət kəsb edir. Buna görə də bədii tərcümə problemləri bədii yaradıcılığın spesifik qanunlarına daxildir.Bədii tərcümə oricinal yaradıcılıqdan tərcümə obyektindən asılılığı ilə fərqlənir. Bədii tərcümənin tarixi hər ölkənin ədəbiyyat tarixinin ayrılmaz hissəsidir. Bütün xalqların qədim yazılı abidələrində tərcüməçilik fəaliyyəti nəzərə çarpır.Qədim dövrlərdən bədii tərcüməyə baxışlarda bir-birinə zidd iki tələb (tərcümənin orijinal mətninə yaxınlığı; oxucu qavrayışına yaxınlığı) mövcud olmuşdur.Azərbaycanda bədii tərcümənin ilk nümunələri hələ orta əsrlərdə yaranmış, XIX əsrdən geniş inkişaf etmişdir. Abbasqulu ağa Bakıxanov rus ədəbiyyatından tərcümələr etmiş, M.F.Axundov özünün «Puşkinin ölümünə Şərq poeması»nı rus dilinə tərcümə etmişdir. M.F.Axundovun komediyaları 1853-cü ildə Tiflisdə rus dilində nəşr olunmuş, sonralar fars və Qərbi Avropa dillərinə tərcümə edilmişdir. XX əsrdə Azərbaycanda tərcümə işi daha geniş vüsət almış, dünya ədəbiyyatı klassiklərinin əsərləri dilimizə çevrilmiş, saysız-hesabsız tərcümə əsərləri nəşr olunmuşdur. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkəmizdə tərcümə işinə münasibət də dəyişmiş, xüsusən orijinaldan tərcümə sahəsində uğurlu addımlar atılmışdır (1, 136).

Belə ki, Alman yazıçısı İohannes Bexerin "Beşillik dastan" şeiri 1931-ci ildə M.Arif, "İki Almaniya" şeiri isə 1951-ci ildə B.Adil tərəfindən tərcümə edilərək "İnqilab və mədəniyyət" jurnalında çap olunmuşdur. Onun "Stalin xiyabanı", "İki Almaniya", "Sovet ölkəsinin qəlbi" şeirləri 1953-cü ildə Q.Böyükağa tərəfindən tərcümə edilərək "Azərbaycan" jurnalında çap olunmuşdur.

Herhart Hauptmanın "Toxucular" adlı dramı 1933-cü ildə dilimizə tərcümə olunmuşdur. Henrix Heynenin "Almaniya" adlı poemasını 1938-cil ildə; "Ölən keşikçi", "Tanheyzer" 1956-cı ildə; "Seçilmiş şeirlər və poemalar"ını 1958-ci ildə; "Müasir və son şeirlərdən" adlı şeirlər toplusunu, o cümlədən "Nəğmələr kitabından" "Yuxu və həyat", "Dağların səsi", "Lirik intermesso"dan və "Vətənə dönüş"dən "Əzra", "Məni cəlb etməyir", "Şeirlər şeiri", "Şair Firdovsi" adlı şeirlərini 1957-ci ildə M.Rzaquluzadə tərəfindən dilimizə tərcümə edilmişdir. Şairin "Su pərisi-Lorelay", "Ulduzlar", "Şam ağacı" adlı şeirləri 1972-ci ildə; "Onlar hirsləndirib incitmiş məni" adlı şeiri 1973-cü ildə; "İstərəm", "Ulduzlar" adlı şeirləri

1981-ci ildə; "Gəldi bər-bəzəkli al günəşli may" adlı şeiri 1983-cü ildə; "Gelderndə doğulmuş anam (Betti Heyneyə)" adlı şeiri 1984-cü ildə; "Dərdimizin beşiyi" adlı şeiri 1986-cı ildə; "Affrontenburq (Təhqirlər qəsri)" adlı şeiri 1988-ci ildə; "İstərəm", "Fəryad vadisi", "Niyə tərk edirsən" adlı şeirlərini və "Şimal dənizi" adlı şeirlər toplusu 2005-ci ildə tərcüməçi Əlihəsən Şirvanlı tərəfindən orijinaldan dilimizə tərcümə edilmişdir. Onun "Dünən güldü taleyim", "Ulduzlar", "Yuxuda ağlamışam", "Sevənlər ayrılanda", "Dəniz kənarında bir gözəl durub" adlı şeirləri 1983-cü ildə; "Yuxuda ağlamışam", "Sən ey şeirlər", "Ləbləri qönçə" adlı şeirləri 1996-cı ildə; "İztirablarımın gözəl beşiyi", "Cenniyə" adlı şeirləri 2006-cı ildə Yusif Savalan tərəfindən orjinaldan dilimizə tərcümə edilmişdir. Şairin "Böyük ağrılardan söhbət düşəndə", "Ulduzlar", "Niyə tərk edirsən", "Siz ancaq gözləyin" adlı şeirləri 1997 – ci ildə "Ədəbiyyat" qəzetində çap olunmuşdur. Onun " Firdovsi" adlı şeirini M.Rahim 1934 – cü ildə dilimizə tərcümə etmişdir. Onun "Əli bəy" adlı şeirini 2007-ci ildə Nemət Rəhmani dilimizə tərcümə etmişdir. Şairin "Həqiqətdə belədir", "Lazara", "Mayn üzərində Frankfurtda Göteyə heykəl qoyma proyekti", "Ah yetər", "Ağlamaq istərdim", "Xoşbəxt olmasa da", "Əzra", "Ey gəzəl!", "Bir-iki saatlıq", "Yuxuda gördüm ki…", "Məni heç çəkməyir", "Suallar" adlı şeirlərini Mikayıl Manafoğlu 1939 – cu ildə dilimizə tərcümə etmişdir. Henrix Heynenin "Mənim bu yaralı qəlbimdən hərgah…", "Könlüm qəm qüssədən gəl salma söhbət", "Söykə yanağını yanağıma gəl", "Gündüz aşiqdir gecəyə…" adlı şeirlərini Mütəllim Cəfərov 1983 – cü ildə dilimizə tərcümə etmişdir. Yazıçının "Su pərisi-Lorelay", "Yatmışdı yuxuda", "Ürəyi dərd dolu", "Niyə qızılgüllər solğundur belə", "Torpağa tökülən göz yaşlarımdan", "Gecə kayutda" adlı şeirlərini Əlihüseyn Nəcəfov 1981 – ci ildə dilimizə tərcümə etmişdir.

İohan Volfqanq Hötenin "Faust" faciəsi 1970-ci ildə yazıçı Əhməd Cəmil tərəfindən tərcümə edilərək müqəddimə ilə birlikdə 500 səhifəlik kitab şəklində çap olunmuşdur. Bu kitab yenidən 1986-cı ildə 518 səhifəlik kitab şəklində, 2006-cı ildə isə 536 səhifəlik kitab şəklində nəşr olunmuşdur. 1981-ci ildə Həmid Arzulu İ. V. Hötenin "Oxu kitabı (Nizamiyə)", "Çəmənçiçəyi", "Arfa çalanlar", "Bənövşə", "İtib dincliyim", "Məhəbbət, məhəbbət, yenə məhəbbət", "Çay sahilində", "Ah, o gözlər, dodaqlar" adlı şeirlərini; 1983-cü ildə "Prometey", "May nəğməsi", "Həyansan mənə"; 1986-cı ildə isə "İlk bahar", "Züleyxanamə", "Züleyxa deyir", "Məndən uzaq düşəndə", "Eynilə", "Xatırlatma" adlı tərcümə etmişdir. O, 2000-ci ildə Hötenin "Alman lirikası və Qərb-Şərq divanından nümunələr" əsərini tərcümə edərək 219 səhifəlik kitab şəklində nəşr etdirmişdir. 1966-cı ildə şair Tofiq Bayram Hötenin "Eqmontun monoloqu" şeirini tərcümə etmişdir. 2007-ci ildə Ə.Qubatov Hötenin "Llirikası"nı tərcümə edərək 95 səhifəlik

kitab şəklində, 2008-ci ildə isə Hötenin "Qərb-Şərq divanı"nı tərcümə edərək 399 səhifəlik kitab şəklində nəşr etdirir. 1983-cü ildə Hötenin "Səyyah nəğməsi" adlı şeiri; 1989-cu ildə "Oxu kitabı («Şərq-Qərb divanı»ndan): Nizami Gəncəviyə", "Misirli ərən nəğməsi" adlı şeirləri; 1994-cü ildə isə "Oxu kitabı: Qərb-Şərq divanından: Nizami Gəncəviyə", "Həvəs və əziyyət", "Ümid" adlı şeirlərini dilimizə tərcümə edərək nəşr etdirmişdir. 1949-cu ildə M.Rahim Hötenin "Meşə hökmdarı" adlı şeirini, N.Gəncəli isə "Tapılmış" adlı şeirini çap etdirmişdir. Yazıçının "Oxu kitabı", "Misirli ərən nəğməsi", "Rəvayət", "Hatəm" adlı şeirləri "Xalq qəzeti"nin 1999 –cu ilin 22 avqust buraxılışında çap olunmuşdur.

Məşhur alman dramaturqu Bertold Brextin "Kuraj ana və uşaqları" dramı 1970-ci ildə Novruz Gəncəli tərəfindən tərcümə edilərək "Azərbaycan" jurnalında nəşr edilmişdir. Onun "Təyyarəçi idi mənim qardaşım" adlı şeiri isə 1981-ci ildə Əlihəsən Şirvanlı tərəfindən dilimizə tərcümə edilmişdir. Maks Tsimmerinqin "Leninin əsgərləri" adlı şeirini 1970-ci ildə Ağacavad Əlizadə, "Berlində Lenin meydanı" adlı şeirini 1971-ci ildə İlham Əsgər və 1974-cü ildə T.Mahmud, "Mən Lenini görmüşəm" adlı şeirini isə 1983-cü ildə Yusif Savalan almancadan dilimizə tərcümə etmişdir. İohannes Bobrovskinin "Dayanacaq" şeirini Əhəd Muxtar tərcümə edərək 1971-ci ildə "Ulduz" jurnalında nəşr etdirmişdir. Henrix Haufun "Mənim əzizlərim!" adlı şeirini 1971-ci ildə Rəfiq Zəka dilimizə tərcümə etmişdir.

Peter Zauernhaymerin "Çağırış", "Vyetnam haqqında sülh mahnısı" adlı şeirlərini B.Vahabzadə 1973 – ci ildə dilimizə tərcümə etmişdir. Helmut Prayslerin "Xəyal", "Balaca zəiflik", "İnsanların sevgisi" "Çoxdan, lap çoxdan", "Xəyala dalmaq gözəldir" adlı şeirləri 1973-cü ildə, "Ancaq yerdən görünür", "Nankorluq", "Uşaqlarla hər gün" adlı şeirləri isə 1987-ci ildə B.Vahabzadə tərəfindən dilimizə tərcümə edilmişdir. Onun "Uşaqlıqda hər gün", "Ağac yerdən sorur gücü", "Nankorluq" adlı şeirləri 1983-cü ildə, "Sevgi" adlı şeiri isə 1984-cü ildə Y.Savalan tərəfindən dilimizə tərcümə edilmişdir.

Fridrix Şillerin "Girov" adlı şeirini İlham Əsgər, "Əlcək" adlı balladasını isə Həmid Arzulu 1981-ci ildə dilimizə tərcümə etmişlər. Martin Opitsin "Bir İtin epitafiyası" adlı şeiri 1982-ci ildə Y.Savalan tərəfindən almancadan Azərbaycan dilinə tərcümə olunmuşdur. Georq Herberqin "Nifrət nəğməsi" adlı şeirini tərcüməçi Yusif Savalan 1983-cü ildə orjinaldan dilimizə etmişdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Abdullayeva C. Bədii tərcümə və alman dilindən Azərbaycan dilinə tərcümə zamanı ortaya çıxan bəzi məsələlər. Dilçiliyin və dillərin tədrisinin aktual problemləri. Beynəlxalq elmi konfransın maierialları (9-10 noyabr 2007). Bakı, "ADU nəşriyyatı", 2007, s. 260-270

2. İsaxanlı Hamlet (şair-tərcüməçi) "Poetik tərcümə. Məhdud çərçivələr içində xoş ahəng və gözəllik axtarışı" adlı məqaləsindən ("Poetik tərcümələr. 1-ci toplu" Xəzər Universitəsi Nəşriyyatı, Bakı, 2005

3. Qubatov Ə.B. Alman dilindən elmi-texniki tərcümə praktikumu. Bakı, Azərnəşr, 2006, 364 s.

4. Səfərov M., Əliyev Ə. «Noyes Doyçland»ın səhifələrində (Almaniyada nəşr olunan qəzetlərdə dərc olunan Azərbaycan ədəbiyyatından tərcümələr haqqında) //Bakı. 1979, 28 mart

5. Sultanlı Əli. Fridrix Şillerin yaradıcılıq yolu //Ədəbiyyat qəzeti. 1935, 2 yanvar

Hijran Fərhadova

German poetry and drama in Azerbaijani language

Summary

The article is called "German poetry and drama in Azerbaijani language". Here is is mentioned the translation of German poets and writers' poems and drama into Azerbaijani. Research shows that, the translation of German poetry and drama into Azerbaijani has been started mainly in the early twentieth century. Many poems and dramas, tragedies and plays of German poets and writers have been translated into our language. The translation of the German writers' works into our language is still going on successfully.

In terms of translation and literary works written in another language or the language they speak the same language used to explain to their people, mostly. This is a translation (or, sometimes, eynigüclü, considered him flip) by translating expressions are used to distinguish between two types of written and oral translation and translation in azerbaijani express, just. Oral translation dilmanc translation, oral and although widespread, while dilmanclıq they said.

Н, Фархадова

Немецкая поэзия и драма на азербайджанском языке

Резюме

Статья называется «Немецкая поэзия и драма на азербайджанском языке». Здесь упоминается перевод немецких поэтов и стихов и драмы писателей на азербайджанский язык. Исследования показывают, что перевод немецкой поэзии и драмы на азербайджанский язык начался в основном в начале двадцатого века. Многие стихи и драмы, трагедии и пьесы немецких поэтов и писателей были переведены на наш язык. Перевод произведений немецких писателей на наш язык все еще продолжается.

На одном языке или языке произведений, написанных для других языков используется, чтобы объяснить термин в основном научно-литературной перевод, danışılanların он. На азербайджанском языке это слово переводится (или, иногда, с ним eynigüclü считается перевод) с различать два вида обозначают просто перевод, письменный перевод и устного перевода и используют для показания. Устный перевод перевода dilmanc, а также называют dilmanclıq того, широко yayılmasa и sifahi работу.

Rəyçi: Səhər Orucova
filologiya öelmləri doktoru, professor

MƏLAHƏT AĞAYEVA
Astara şəhəri Ərcivan kəndi
1 №-li məktəbin psixoloqu
seyman.1995@gmail.com

YENİYETMƏLƏRDƏ PASSIV-AQRESSIV ŞƏXSİYYƏT POZUNTUSU ƏLAMƏTLƏRİNİN ARADAN QALDIRMA ÜSULLARI

Acar sözlər: şəxsiyyət, xarakter, tip, münaqişə, davranış, yeniyetmə, passiv-aqressiv.
Ключевые слова: подросток, пассивно-агрессивный, поведение, личность, характер, тип, конфликт.
Key words: adolescent, passive-aggressive, behavior, personality, character, type, conflict.

Şəxsiyyət anlayışı özlüyündə mürəkkəb olduğu üçün həm psixologiya həmcinin də psixiatriyada tədqiqat predmeti sayılır. Şəxsiyyət problemi elmin müxtəlif sahələrində çalışan alim və mütəfəkkirlərin illərlə diqqət mərkəzində dayanan mühüm problemlərdən biri olmuş və müasir dövrdə də öz aktuallığını saxlamaqdadır. Müasir psixologiyada şəxsiyyət, onun fəallığı, formalaşması, strukturu kimi məsələlər, ümumiyyətlə, şəxsiyyət anlayışının mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülür. *Şəxsiyyət müəyyən ictimai-tarixi dövrdə yaşayıb fəaliyyət göstərən, gerçəkliyi dərk edib müəyyən istiqamətdə dəyişdirən, ünsiyyətə girməyi bacaran konkret canlı insandır.* Onun adekvat şəkildə anlaşılmasının çətinliyi bir sıra amillərlə bağlıdır. Bu bir daha həmin problemin mürəkkəb və çətin olduğunu təsdiq edir. Mövcud olan məsələlərdən əsası isə, yeniyetmələrdə passiv-aqressiv şəxsiyyət pozuntusu (PAŞP) əlamətlərinin aradan qaldırma üsullarını araşdırmaqımızdır.

Uşaq və yeniyetməlik yaş dövrü, yetkinliyə catmamış, formalaşmamış şəxsiyyət olaraq məyyən davranış pozuntusuna meyilliliklə fərqlənir. Qeyd olunan davranış pozuntuları adətən yeniyetmələrdə psixi vəziyyəti ilə əlaqədar olaraq təkrarlanan hala cevrilir. Məhz yeniyetmə yaşlarında xarakterin və şəxsiyyətin digər əsaslarının formalaşması baş verir. Bu kimi hallar: böyuklərin himayəsindən cıxaraq sərbəstlik və asililiqı olamayan dövrü, adət halına cevrilmiş məktəb mühitinin digər sosial fəaliyyətlərə yönəlməsi, həmçinin orqanizmin hormonal sisteminin yenilənməsi yenıyetməni mühitin mənfi təsirinə yolayovuq edir [bax 1] .Baxmayaraq ki, şəxsiyyətin passiv – aqressiv pozuntu anlayışı daha erkən zamanlar tədqiq olunmuşdur, bu termin İkinci dünya müharibəsindən öncə istifadə edilməmişdir. 1945-ci ildə hərbi departament tərəfindən adi hərbi stress kimi

formalaşmış agressiya, obstruksionozm, passivlik və qeyri adekvat hərəkət növü kimi təsvir edilmişdir. Sonralar, 1949-ci ildə "passiv - aqressiv " termini, bu davranış formasını müəyyən edən əsgər tipini təsvir etmək üçün istifadə olunurdu. [5, 47 s.]. Şəxsiyyət pozuntusunun (PAŞP) ən səciyyəvi xüsusiyyəti xarici tələblərə müqavimət, adətən bu müxalifət və obstruksiya davranışı qismində özünü biruzə verir. Bu davranış formalarına: özündə ləngimə, pis iş keyfiyyəti və "unutma" halları daxildir. Cox hallarda yeniyetmələrin davranışı məktəb və sosial sahələr üzrə ümumi standartlara uyğun olmur.

Düşündüyümüz kimi, onlar, adətən, başqa adamlar tərəfindən müəyyən edilmiş standartlara uyğun olmaqda narazıdırlar. Halbuki bu xüsusiyyətləri bəzən bir çox şagirdlərdə müşahidə etmək olar, onlar PAŞP zamanı sərt xroniki davranış formasına sahibdirlər. Passiv- aqressiv pozuntu kateqoriyası üç növə ayrılmışdır: passiv-agresiv, passiv-asılı və təcavüzkar. Asılı şəxsiyyət pozuntusuna aid olan şəxsiyyətin passiv - asılı tipi qətiyyətsizliklə, qərarsızlıla və digərlərindən asılı olmaq xususiyyətləri ilə səciyyələnir. Bəzi psixoanalitik nəzəriyyəçilər digər xarakter növlərini də təsvir etmişlər. Məsələn, mazoxist tip şəxsiyyət, daim şikayət edən digərlərinə qarşı passiv aqressiya göstərməyə meylli olan uşaqlar sayılır. Bu cür insanlar xoşagəlməz hisslərin öhdəsindən gələ bilmir və avtonom sinir sisteminin həyəcanına dözə bilmir [bax 2].

PAŞP malik olan şəxslərin avtomatik fikirləri insanların neqativizmini, muxtariyyətını və ən zəyif müqavimət yolu ilə getmək istəyini əks etdirir. Məsələn, onlar bütün xahişləri bezikdiricilik və tələbkarlığın təzahürü kimi görürlər. Onların reaksiyası ondan ibarətdir ki, hər hansı bir xahişi yerinə yetirmək imkanlarını avtomatik olaraq qiymətləndirmək əvəzinə müqavimət göstərməyə tələsirlər. Bu kimi yeniyetmə üçün aşağıdakı qənaət səciyyəvidir: “hər bir kəs məndən istifadə etməyə çalışır və əgər buna imkan versəm, mən yararsızam”. Bu cür neqativizm onların təfəkkürünü əhatə edir. Passiv-aqressiv uşaqlar adətən hadisələrin əksəriyyətinin neqativ interpretasiyasını axtarırlar. Onlar hətta neytral və ya müsbət hadisələrdə belə mənfi cəhətlər tapirlar və fikirlərini o hadisələrdə cəmləyirlər. Bu hal, depressiya zamanı mənfi fikirlərdən seçilir: depressiv hisslərə malik olanlar özlərini günahkar sayır, gələcək və ətraf mühit haqqında neqativ şeylərdə fikirlərini cəmləyir, halbuki passiv-aqressvlik əlamətlərinə malik olanlar hesab edirlər ki, digərlər onları lazımlı səviyyədə qiymətləndirmirlər və ya onları idarə etməyə çalışırlar. Passiv-aqressiv yeniyetmələr kimisə tərəfindən mənfi əks əlaqə əldə edərkən, güman edirlər ki, onları yenə düz başa düşməyiblər. Qeyri-ixtiyari mənfi fikirlər də bu cür insanların qıcıqlıq hiss etdiklərini göstərir. Onlar tez-tez bildirir ki, hər bir şey müəyyən şəkildə baş verməlidir, bu əsassız tələblər bu

tip yeniyetmələrin *frustrasiya* (istəklərin mövcud imkanlara uyğun olmaması) hadisəsinə davamlılığının aşağı səviyyədə olduğunu bildirir. Bu *riqidlik* (dəyişən mühitə qarşı uyğunsuzluq), obsessiv-konvulsiv yönümlü şəxslər hədəflərindən bununla fərqlənir ki, passiv-aqressivliyə meyilli olanların məqsədi nəticə əldə etmək deyil, digər qaydalara tabe olmamaq istəyi ilə fərqlənir və bu kimi uşaqlar - "Mən bunu etməməliyəm" - "Mən bunu etməyə borclu deyiləm". Bu tip şagirdlər üçün adi mənfi emosional vəziyyətlər qəzəb və qıcıqlıq sayılır. Məsələn, bir uşaq müəyyən zamanda narazıciliq edir ki, şəhərin küçələrində göstəricilər ona çox balaca gəlir və onların oxunmasında çətinlik çəkir. Bu, təəccüblü deyil, çünki belə insanlar hesab edirlər ki, onlardan ixtiyari standartlara uyğunlaşdırılmasını tələb edirlər, onları normal başa düşmürlər və ya düzgün qiymətləndirmirlər. Bundan başqa, passiv – aqressiv uşaqlar öz məqsədlərinə həyatda nail ola bilmirlər. Anlamaq qabiliyyətinin olmaması, davranışı və təyinatları kimi, onların problemlərinə təsir göstərir, bu da narazılığa səbəb olur, çünki vəziyyətin onlara mane olduğunu düşünürlər. Qəzəb və əsəbilik bu yeniyetmələrin xarici nəzarətə qarşı həssaslıqlarına və diğərlərinin azadlığını məhdudlaşdırmaq cəhdləri ilə əlaqəlidir. Onlar daim düşünür ki, kontrol altındadırlar və bu nəzarətə müqavimətli şəkildə cavab verməyə çalişirlar. Ümumi hallara gəldikdə, hərəkətlərində passiv-agressiv modeli müşahidə olunanlar digərləri kimi neqativ hisslər kecirə bilir, lakin öz narazılığını açıq şəkildə ifadə etmir və hamı kimi anlamağa can atmırlar. Bunun əvəzinə sabotaj, passiv müqavimət taktikasını seçirlər, zərbədən yayınmaq üçün öz əməllərini ört-basdır edincə əks tədbirlədən məharətlə yayınırlar. Onlar öz hisslərini yenidən düşünmək, təhlil etməyi və hərəkətlərinə görə məsuliyyət daşımağa hazır deyil.

Əgər yeniyetmə məktəbdə və ya ümumi həyatda belə hərəkətlərə tez tez yol verir, bu kimi halda biz passiv-aqressiv davranış haqqında danışırıq. Əgər insan özü onu düzəltməyə hazırdırsa və öz davranışının düzgün olmadığını anlayırsa, onunla mübarizə aparmaq olar. Yalnız bəzi hallarda peşəkar psixoloq yardımı tələb olunur. Gözlənildiyi kimi, aqressiv tip hər şeyə destruktiv davranış forması ilə, qəzəb və qıcıqlıqla (bəzi aspektlərdə şəxsiyyətin cəmiyyətə zidd pozuntu diaqnozuna uyğun olaraq) yanaşır. Əgər belə davranış modeli əksər hallarda müşahidə olunursa,şəxsi münasibətlərə mənfi təsir göstərirsə və ya mane olursa, bu halda artıq söhbət şəxsiyyətin passiv-aqressiv pozuntusu haqqında gedir. Bu kimi davranış modelinin aradan qaldırılması peşəkar yardım olmadan inandırıcı sailmaz. Passiv-aqressiv tipli yeniyetmələr aqressiyasını passiv üsullarla , məsələn üz-gözünü əyməklə, inadla, ləngiməklə, səmərəsiz hərəkətlə və qeyri - effektiv işi ilə göstərir. Onlar adətən:

- ✓ *Şayiələr*, məlumat *yayırlar*, digər uşaqları pisləyir, lakin bunu gizli edirlər.
- ✓ Guya unutqanlığı üzündən *mühüm tapşırıqları yerinə yetirmirlər*, sonra da üzr istəyirlər, lakin bu zaman aydın görünür ki, onlar bir şey etmək fikrində belə deyildilər. Valideyn və ya müəllimin xəbərdarlığını duyarkən cavab verir ki, "öz xahişlərlə artıq bezdirmisiniz, bu onun deyil, digərlərinin şəxsi problemlərinizdir."
- ✓ Belə insanlar *cavabı bilərəkdən yubadır*, sizi gözləməyə məcbur edirlər, verdiyi vədlərə baxmayaraq istənilən xahişə və xəbərdarlıqlara passiv müqavimət göstərirlər.
- ✓ Üzünüzə bir şey deyib, arxanızdan şayə yayarkən *adınızı qaralamağa calışır*
- ✓ Ünsiyyətdə təhqir və ya *etinasız mimikanı və jestləri* passiv aqressivlik silahı kimi istifadə edirlər: gülümsəyirlər, çiyinlərini sıxırlar, təəccüblənmiş görkəm verirlər ki, özünü axmaq adam kimi qələmə verirlər.İradlara cavab olaraq , adətən, onları "düzgün anlamadıqlnızı" və "belə bir şey nəzərdə tutmadıqlarını" iddia edirlər
- ✓ Onların mövqeyini öyrənmək üçün İstənilən *cəhdlər daş divara rast gəlir*. Sizi dinləmirlər suallara da cavab vermir. *Sükut güclü bir silahdır*.
- ✓ O, həmsöhbətini özündən çıxara bilir və nəticədə vəziyyət idarəolunmaz olur, nəzarət altından asanlıqla çıxır
- ✓ Onların daha bir sevimli silahı *mənasız inadkarlıq* sayılır.Öz mövqeyini dəyişmək haqqında danışanda İnadla imtina edirlər, güzəştə getmirlər, amma eyni zamanda özlərini elə aparırlar ki, guya sizinlə razılığa gəlməyə çalışırlar.
- ✓ *Yumor təcavüzü pərdələmək* vasitəsi də sayıla bilər. Digər insanların əhatəsində olarkən, öncədən deyəcəklərini nalayiq və təhqiramiz hesab edəcəklərini bilərək şübhəli məzmunlu zarafat edir ,sonra isə özünə bəraət qazandırmağa calışır

Baxmayaraq ki, bütövlükdə passiv-aqressiv davranış, qarşılıqlı təsirin yaxşı forması deyil o qoyulan həyati məqsədlərin nail olunmasına maneə olanadək disfunksional sayılmır. Bu kimi pozuntunun ümumi inkişaf meyilləri arasında əlaqə quraraq, yeniyetmələrdə bu cür keyfiyyətlərin təzahürünü konkretləşdirmək lazımdır. Uşaqlarda və yeniyetmələrdə bu halda aşağıda göstərilən konkret əlamətlər var:

- ➢ Tez-tez baş verən emosional pozulmalar, öz hərəkətləri üzərində nəzarətin itirilməsi.
- ➢ Valideynləri ilə tez-tez münaqişələr.

- Ev qaydaları, vəzifələrini və valideynlərin xahişini yerinə yetirilməsi nəticəsində imtina halları
- Tez-tez digərlərini əsəbiləşdirən hərəkətlər etməsi
- Öz səhvlərində digərlərini ittiham etməsi
- Başqaları ilə təmasda olduqda yüngül əsəbiliyin yaranması.
- Qəzəblik və kin
- Ağzıpərtövlük

Böyüklərin *davranış pozuntularından* fərqli olaraq (ingilis termini - Conduct Disorder) [7, 269 s.], bu kimi pozuntuları olan uşaqlar və yeniyetmələr digər insanların hüquqlarını daha ciddi şəkildə taptalamır. Bir qayda olaraq müxalif pozuntu əlamətləri ev mühitində mövcuddur, lakin məktəbdə və ya sıx ailə dairəsində bir o qədər nəzərə carpmır. Hər halda, ümumi tendensiya ondan ibarətdir ki, pozuntu əlamətləri tanıdığı böyüklər və həmyaşıdları ilə olan qarşılıqlı əlaqədə daha göz qabağındadır. Sonuncu məqam ondan ibarətdir ki, klinik müayinə prosesini nəzərə almaq lazımdır, çünki bu zaman uşaqlar və ya yeniyetmələr bu əlamətləri aşkar etməyə imkan vermirlər.

Davranış xüsusiyyətləri haqqında mövzuda konkret söhbət zamanı uşaqlar özünü müxalif yönümlü hesab etmir. Onlar hər bir müzakirə zamanı öz davranışlarını ağılsız iddialar və tələblərə olan təbii reaksiya kimi anladırlar. Yetkinlik yaşında passiv aqressiv pozuntuların formalaşmasında tədris təcrübəsi mühüm rol oynayır, onun əsasında əhəmiyyətli ola bilən fikir formalaşır ki, çox şeyə nail olmaq birbaşa deyil, dolayı yolla, digər insanlarla manipulyasiya edərək, müxtəlif növ "oyunlar", ikibaşlı vəziyyətdən istifadə etməklə,"zəif yerlərə" psixoloji təzyiqlər etmək nəticəsində baş verir. Bu xarakterli uşaqlar konkret insanlara, hadisələrə və vəziyyətlərə qarşı mənfi emosional münasibətlərini maskalamağı öyrənirlər. Belə insanlarla ünsiyyətdə tanışları və yaxınları belə cox hallarda onların emosional məzmunlu vəziyyətini məsələn, qəzəb, inciklik, nifrət, həqarəti kimi hissləri tanımaq iqtidarında deyil. Passiv- aqressiv pozuntusu olan şagirdlər onlarda kiməsə qarşı qəzəb hisslərinin mövcudluğunu və kimisə günah hissi keçirməyə məcbur etmək istəyini inkar edir. Bəzən qəzəb hissi hiperkompensasiya arxasında gizlənir və bu qəsdən mülayimlik, şişirdilmiş göstərilən diqqət və qayğı şəklində biruzə verilir.

Qeyd edək ki, passiv-aqressiv vərdişlərə qarşı reabilitasiya və müalicəvi - korreksiya tədbirlərin keçirilməsi həkim, psixoloq və pedaqoqların birləşdirilməsinin səyi ilə həyata kecirilməlidir. Buna görə də, müəyyən psixi proseslərin inkişafını pedaqoji, psixoterapevtik və psixoloji korreksiya prosesini həlli istiqamətində yönəldirlər [6, 240 s]. Passiv-aqressiv tipli şagirdlər insanlarla münasibətlərində mənfi təsir göstərir və pis

nəticələri verə bildiyi üçün belə hallarda sadalanan əlamətlərin meydana gəlməsini aşkar edildikdə, məktəb psixoloqu ilkin psixoloji yardım qismində aşağıdakı elementlərini köməkci vasitə kimi müəyyən etməlidir:

✓ Dəyişikliklər bundan başlamalıdır ki, siz passiv-aqressiv şəxsiyyətin cizgilərini özünüzdə hiss edə bilirsiniz. Analiz edin, hansı səbəbdən belə edirsiniz. Bu mövzu haqqında inandığınız və etibar etdiyiniz insanla danışın.

✓ Özünüz ilə səmimi olun. Etiraf edin ki, siz davranışınızı dəyişməsəniz şəxsi münasibətləriniz dağıla bilər

✓ Varmı ailənizdəkilərin təsiri ? Bəs onları aradan qaldırmaq olarmı? Özünə inamını artırmaq üçün öz analitik qabiliyyətlərinizi istifadə edin.

✓ Münaqişələrin idarəetmə və öz emosiyalarınızla idarəetmək üsullarını öyrənəcəksiniz.[bax 4]

✓ Bütün bunlarla yanaşı, insanlarla söhbətlərinizdə öz nöqteyi-nəzərinizi daha açıq şəkildə söyləmək və qorumağa özünüzdə cəsarət tapın

✓ Kiçik məsələlərdən başlayın və fərqi hiss etməyə çalışın. Ətrafdakı uşaqların sizə qarşı nə dərəcədə yaxşı münasibət bəsləyəcəklərini qeyd edin.

✓ Özünüz haqqında uğursuz kimi düşünməyi dayandırın. Düşünmək əvəzinə, siz sadəcə olaraq hər hansı uğuru qazana biləcəyiniz üçün bir şeylər edin

✓ Siz əslində nəyə latiq olduğunuzu bilmək üçün yoxlamaq üsullarını tapın . Ola bilsin ki, siz yaxşı mənada təəccüb edəcəksiniz

Fasiləsiz analiz prosesinə əlavə olaraq, psixoloq həmin şagirdin müəllimləri ilə daim əlaqə olmalıdır, hər ay ərzində yeniyetməni müntəzəm olaraq izləməlidir və yazılı şəkildə nəticələri qeyd etməlidir.

Ədəbiyyat

1. Алемаскин М.А. Методика предупреждения отклоняющегося поведения несовершеннолетних. (Yetkinlik yaşına çatmayanların davranış pozuntusunun qarşısının alınması.) М., 1987.
2. Короленко Ц.П. Личностные расстройства. (Şəxsiyyət pozuntusu) 2010
3. Попов Ю.В., Вид В.Д. Современная клиническая психиатрия. (Müasir klinik psixiatriya) М.,1997
4. Сельченок К. К. Прикладная конфликтология. (Tətbiqi konfliktologiya). Хрестоматия. М., 2012
5. Когнитивная психотерапия расстройств личности. (Şəxsiyyət pozğunluqlarının koqnitiv psixoterapiyası). Под ред. А.Бека, А.Фримена. М.,2002

6. Воспитание трудного ребенка: Дети с асоциальным поведением / (Çətin uşağın tərbiyəsi: Asosial davranışlı uşaqlar) Под ред. М.И. Рожкова. М.: Владос, 2001.
7. *Mischel, W.* On the Predictability of Behavior and the Structure of Personality. In R. Xusker et al. (Eds.). Personality and the Prediction of Behavior. (Şəxsiyyət və davranışın qarşıalınmas) New York. Academic Press, 1984.

М.Агаева

Признаки пассивно-агрессивного расстройства личности (ПАРЛ) у подростков и способы их устранения

Резюме

В статье рассматривается проблема пассивно-агрессивного типа личностного расстройства, методы и принципы их устранения в раннем подростковом периоде. Несмотря на то, что пассивно-агрессивное поведение — это в целом не самая лучшая форма взаимодействия, оно не слишком дисфункционально, пока не становится явным явлением, препятствующим достижению жизненных целей. Изменение данной модели поведения без профессиональной помощи весьма маловероятно.

Как и следовало ожидать, агрессивный тип (в некоторых аспектах соответствующий диагнозу антисоциального расстройства личности) реагирует раздражительностью и гневом, вспышками раздражения и деструктивным поведением. Несмотря на то, что пассивно-агрессивное поведение — это в целом не самая лучшая форма взаимодействия, оно не слишком дисфункционально, пока не становится явным явлением, препятствующим достижению жизненных целей.

Устанавливая связь между общими тенденциями развития данного расстройства, следует конкретизировать проявление подобных качеств в поведенческом проявлении у подростков.

M.Agayeva

Symptoms of passive-aggressive personality disorder in adolescents and methods to eliminate them

Summary

The article considers the problem of disordering process passive-aggressive type of personality, methods and principles of their elimination in the early teenage period. Despite the fact that passive-aggressive behavior is generally not the best form of interaction, it is not too dysfunctional, until it becomes obvious phenomenon in attaining life goals. Changing this behavior without professional help it is highly unlikely. As expected, the aggressive type (in some aspects corresponds to the diagnosis of antisocial personality disorder) gives the reaction with irritability and anger, outbursts of irritation and destructive behavior. Despite the fact that passive-aggressive behavior is generally not the correct form of interaction, it is not dysfunctional, until it becomes obvious phenomenon in attaining life goals. Establishing a connection between the general trends of the development of this disorder, should specify the manifestation of such qualities in the behavioral manifestation of adolescents.

Rəyçi: Leyla Həmidova
filologiya üzrə fəlsəfə doktoru, dosent

NURİDƏ MUXTARZADƏ
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor Enstitütü
nurideibay@gmail.com

AZRBAYCANDA KÖROĞLU İLE BAĞLI RİVAYETLER

Açar sözlər: xalq rəvayətləri, Koroğluyla bağlı yer adları, mifoloji qəhraman
Ключевые слова: народные предания, места связанные с именем Короглы, мифологический герой.
Key words: folk legends, the toponyms dealing with Koroglu, mythological hero.

Halkın azatlığı, daha iyi yaşaması uğruna mücadelesi halk edebiyatının türlerinden biri olan kahramanlık destanlarının başlıca konularından biridir. Azerbaycan kahramanlık destanlarında da kahramanın biografisi ile birlikte halkın yaşamı da yansımıştır. Bu destanlarda adalet, doğruluk uğrunda verilen mücadeleler destan kahramanının durumunu sergilemektedir. Kahramanlık destanlarında genel olarak rivayet ve efsanelerden gelen bazı konular aşıkların sazlarında, sözlerinde daha da tekmil duruma getirilerek destan şeklinde dönüştürülmüştür. Söz konusu Köroğlu destanı da mevcut rivayetlerden yararlanmakla oluşmuştur. Sözlü ananede Köroğlu ile bağlı deyim, efsane ve rivayetler geniş bir alanda yayılarak günümüze kadar ulaşmıştır. Bu destanın varyant ve versiyonlarının sayı bazı bilgilere göre 500 den fazladır. O Köroğlu, Keroğlu, Gurguli, Kürolı ve diğer adlarla türk ve gayri-türk milletler arasında meşhurdur.

Köroğlu destanının mevcut basını esasen Türkiyede 19. yy.lın sonlarında gerçekleşmiştir. Buna bakmaksızın Azerbaycanda ilk Köroğlu basını 1913-ten başlayarak gunumuze kadar devam etmiştir. Bu süreç içinde destan 14 koldan 28 kola kadar genişlendirilmiştir. Bunlardan "Gehreman Koroğlunun divlerle görüşü", "Koroğlunun Tehran seferi", "Misri gılıncın oğurlanması", "Mercan hanımın Çenlibele gelmesi", "Zernişan hanımın Çenlibele gelmesi", "Ağca guzu" kollarını örnek olarak göstere biliriz.

Bütün bu yeni kollar aslında efsane ve rivayetlerin destanlaşmış varyantlarıdır. Şöyle ki, yukarıda zikretdiğimiz kolların Azerbaycanda rivayet varyantları da vardır. Bu faktörün kendisi bir daha Köroğlu destanının 19. yy.dan başlayarak günümüze kadar hep rivayetlerden kaynaklandığını gösterir. Burada Köroğlu destanının Orta Asya, Balkanlar,

Kafkaslar varyantlarını da göz önünde bulundurmuş olursak, destanın sadece coğrafi bakımdan degil, aynı zamanda konu bakımından da çok varyantlı olduğunu söylemek gerekir.

Her harükarde Köroğlu destanı mitolojik çağdan tarihi çağa kadar geniş bir yol geçmiştir. O bakımdan Köroğlu mitolojik kahramandan hak sever, adalet sever hikaye kahramanına çevrilmiştir. Azerbaycanda yayılan halk hikayelerinde Köroğlu vatan ve millet için savaşan, mazlumun tarafında olan, varlıdan alıp fakire veren biridir. O bakımdan destan ve rivayetlerde tarihilik her zaman ön planda olmuştur.

F. Bayatın da dediği gibi, "Burada epik kural çerçevesinde sözlü tarih{xe "sözlü tarih"} bilinci ve bunun destanda yaşatılması söz konusudur. Ancak şu bir gerçektir ki Köroğlu, tarihin bilinen zamanından 16. yy. kadar bir sıra efsanevi kahramanlarla çaprazlaşmış, o kahramanlara özgü olan karakter özellikleri kendi bünyesine alarak benimsemiştir."(1; 43).

1. Köroğlu rivayetleri hakkında genel bilgiler

Asıl adı ışık anlamına gelen Roşen veya Roşen Ali (Azerbaycan Türkçesinde Rövşen) olan Köroğlunun tarihi kimliği hakkında bilgiler yeterli değildir. Her halda Anadolu ve Azerbaycan yörelerinde devlete baş kaldıran direnişçiden bugün itibarıyla sadece epik dünyanın kahramanına çevrilen bir kahraman özelligi kazandığı muhakkaktır. Buna ragmen Köroğlu ile ilgili ister Azerbaycanda, isterse de Osmanlı arşiv belgelerinde o, 16. yy.da yaşamış saz şairi veya soylu eşkiyadır. Ancak rivayetlerle kiyaslamada bütün tarihi bilgiler destan varyantında daha çok korunmuştur. O nedenle Anadolu ve Azerbaycan varyantlarında o, saz şairi ve kervan yollarına kontröl eden bir kahramandır:

Benden selam olsun Bolu Beyine
Çıkıp şu dağlara yaslanmalıdır
Ok gıcırtısından kalkan sesinden
Dağlar seda verip seslenmelidir

Rivayetlerde, Köroğlu, Cambil (Azerbaycan Türkçesinde Çenku-bel) Kırat, Arabat, onun kalesi, yigitlerinden Hasan, Ayvaz, Demircioğlu, Belli Ahmet ve digerleri ile bağlı bilgiler verilir. Aynı zamanda Köroğlu adı ile bağlı bir çok yer adları da rivayet konusu olmuştur.

M. H.Tehmasipin konuya ilişkin görüşleri de oldukça ilgi çekicidir:

"Bizce Köroğlu ortaya çıktığı ilk dönemlerde şimdikine oranla çok küçük bir destanmış. Elimizde bu hususu kanıtlayacak bir belge olmamakla birlikte, destanın ilk 'müellifinin', şair- âşık - destancının isminin Ruşen, mensup bulunduğu aşiretle ilgili lakabının da Köroğlu olduğunu düşünüyoruz. Ruşen, destan geleneklerine sadık kalarak yüzlerce diğer sanatçının yaptığını yinelemiş ve kendini kendi destanının kahramanı etmiştir. Onun,

1610-1630 yılları arasındaki ayaklanmaların katılımcılarından, belki hatta önderlerinden biri olması da kuvvetle muhtemeldir.” (7; 15)

Köroğlu eposu gerçek anlamda vatanın ve halkın kahramanlık tarihinin şairane destanı; halkın yenilmezliğinden bahseden ebedi bir nağmedir. Köroğlu eposu öte yandan halkın millî uyanışını ve vatan evlatlarının özgürlük mücadelesine davet edilişini bedii bir şekilde anlatan muhteşem sanat anıtıdır. Bu eposun ana çizgisini vatanın kaderi, onu mazisi, bugünü ve geleceği oluşturmaktadır. Çamlıbel, kökleri esatirlere dayanan, içene hayat bahş eden çifte çeşmesi bulunan bir yerdir. Çamlıbel (Çenlibel) çenli (çiskinli) bir dağ beli (dağ sırtı) anlamını taşımaktadır. Bu isim, öte yandan halkın bir takım mitolojik görüşlerini de kendi içinde saklamaktadır.

Rivayetlerden göründügü gibi Köroğlunun her zaman bir elinde silah, diğerinde saz vardır. O, savaşa elinde hem silah, hem de saz olarak katılır. Sazla kendisini ve yiğitlerini ruhlandırır. Tabii ki, Köroğlunun söylediği koşmalar bu gen de aşıkların sazlarında icra edilmektedir.

Köroğlu ile ilgili masal, efsane ve destan parçalarının Azerbaycan Türkleri arasından derlenip yayımlanmasında “Kafkas” gazetesinin büyük rolünü da göstermek gerekir. Nitekim “Kafkas” gazetesinin 1846, 1847, 1853 yayımlarının sayılarında çok sayıda Köroğlu olayı anlatılmıştır (1; 16).

Azerbaycan { xe "Azerbaycan" } da mevcut varyant ve nüshaların dışında Köroğlu{xe "Köroğlu"} ile ilgili çok sayıda efsane ve rivayetler de vardır. Bazı bilgilere göre Köroğlu ile bağlı efsaneler 5. yy.a ait kaynaklarda mevcuttur. Bu mütevazi eserde Köroğlu fenemenolojisini öğrenmek için efsane metinlerine de başvuruldu. Köroğlu ile ilgili efsaneler: “Koroğlunun Daş Galası”, “Koroğlunun Ov Daşı”, “Gıratın Reddi”, “Koroğlu Körpüsü”, “Koroğlu’nun Buz Galası”, “Örük Daş”, “Koroğlu”, “Koroğlu Daşı”, “Koroğlu Galası”, “Koroğlu Gayası”, “Eyvaz{xe "Eyvaz"} Gayası”, “Gıratın Nal Daşı”, “Koroğlu Meydanı”, “Koroğlunun Kırk Deyirmanları”, “Koroğlunun Yaralı Daşı”, “Koroğlunun Kılıçlı Daşı”, “Çenlibel” { xe "Çenlibel"} vs. mevcuttur.(1; 20).

Köroğlu efsanelerinde Köroğlunun kendisinin de kurt tarafından büyütüldüğünü görürüz. Efsanelere göre Köroğlunun babası Aldede { xe "Aldede"}, annesi Mahpeyker{xe "Mahpeyker"} (Ay) dir. Köroğlunu (efsanede ateş oğlu olduğundan kahramanın adı Goroğlu’dur.) çocuk iken Beşikli dağda bozkurt emzirip büyüdür. (1; 60)

Genelde, Köroğluyla ilgili rivayetleri bir kaç başlık altında toparlamak mümkündür:

1. Yer adlarıyla ilgili rivayetler
2. İnsan adlarıyla ilgili olanlar
3. Hayvan ve kuş isimleri ile ilgili rivayetler.

2. Köroğlu hakkında Azerbaycanda ve diğer Türk devletlerinde bilenen rivayetlerin karılaştırmalı analizi

Yer adlarıyla bağlı olanlara örnek gibi "Çenlibel" efsanesi, " Karagöl" efsanesi vb. göstere biliriz. Örneğin, Çenlibel efsanesinde çok yaşlanmış Demirçioğlunun{xe "Demirçioğlu"} taşların yerinden oynatdığı, sonra da kulaklarını yere verip dinlediği çok anlatılır. Çoban bunun sırrını öğrenmek ister. Meğerse Demirçioğlu daşlardan gelen Köroğlu savaşlarının sesini duyurmuş.

"- İgidin hüneri, koçaglığı tekce gözlerde, könüllerde yaşamır, daşlarda, gayalarda da saklanır. Men günde bir defe gelib o sesleri oyadıram, o günleri danışdırıram, gulag asıram, ömrümü bunlar uzadır." (4; 212-214)

Başka bir efsanede Karagöl adlanan gölün tuhaf bir sırrından konuşulur. Söylenenlere göre, güneş batıp ay çıkdığında gölden bir beyaz at çıkarak etraftakı yeşillikte otlamaya başlar. Ancak bu at insan sesi duyan gibi bir anda ya tekrar suya girip kaybolur, ya da dağlarda saklanır.

"Tanıklara göre bu at Kıratın ta kendisidir. Rivayete göre Köroğlu ortalıktan kaybolduktan sonra Kırat da Çamlıbeli terk ederek Karagölü kendine yurt bellemişmiş." (6; 315)

Bir insanı gözünden edecek kadar değerli at, Köroğlu Destanı{xe "Köroğlu Destanı"}'nın mitolojik zamanlardan efsane şeklinde var olduğunu kanıtlayacak durumdadır (1; 74).

Köroğlunun Taş Kalesi rivayetinde dikkatimizi çeken bir olay daha var ki bu da rüyada hatiften bir sesin Köroğluya böyle söylemesidir:

" – Nehir kıyısı sel yoludur; ovalar ise el yoludur. Yiğit kişiler sırtını dağlara dayar. Şimdi uyan ve kulak kesil. Kırat hangi dağda kişnerse, o dağda kendine bir kale yap." (6; 306)

Köroğlu uyanarak at kişnemesini duyduğu yere gider ve atın burada böyük bir kale için temel yeri kazdığını görünce gözlerine inanamıyor. "Atın nalları taşlara dokununca şimşekler çakar gibi olur, etrafa kıvılcımlar saçılırmış. Bu arada at kan ter içinde kalmışmış. Köroğlu hemen atın üzerine bir kepeng (kepeng – N.M.) atar, sonar onu alnından ve elma gözlerinden öper. (6; 306)

Yarın igidler Köroğlunun ardınca dağın başina gelirler ve bir gecede Kıratın yapdığı mucizeni görürler. Daha sonra her gün igidler dağın başına yetmiş yedi taş kaldırarak, yetmiş yedi güne, sonralar "Köroğlunun taş kalesi" adlanacak böyük bir kale tikirler.

Daha bir rivayet, Azerbaycanın Mingeçevir bölgesinde Salahlı adlanan bir köy vardır. Salahlı adının da Köroğlu ile bağlı olduğu anlaşılır. Şöyle ki Köroğlu Deli adlı bi nehrin kıyısında Salah adlı güclü, kuvvetli bir yigidin yaşadığını duyur. Köroğlu bu yigite atını bin, gel, çevir ("min, gel, çevir") der ve Deli adlı bu nehri ötesine geçer, bulup onunla karşılaşır. O

Salahla konuşup ondan bazı şeyleri öğrenmek ister. Sonra Köroğlu bu yigitle Deli nehrinin geçerken at azacık büdrer, Köroğlu da “bu çay da benim atım gibi kürdür” der.

Onlar ayrıldıktan sonra Salah köyüne döner. Adamlar ondan Köroğluyla ne konuştuğunu sorarlar. Salah, Köroğlu önce bana atını bin, gel, çevir dedi. Sonra nehiri geçerken bu nehir de benim atım gibi kürdür dedi.

O günden itibaren Köroğlu ile Salahın at koşturdukları yerin ismi “Mingeçevir”, Deli çayın adı “Kür”, Salahın köyünün adı ise “Salahlı” olarak anılmaya başlar. (9; 38)

Köroğlu destanı konu ve muhteva bakımından üç kısma bölünür:

1. Türkmen

2. Azerbaycan

3. Ön Asya varyantlarından ibarettir.

Destan hakkında özel araştırmaları ile seçilen Pertev Naili Boratav (3; 13) Köroğlu dastanı üzerinde yapmış olduğu incelemelerden kısmen de olsa, Köroğlu rivayetlerine de değinmiştir. Burdan şu sonuca vara biliriz:

Köroğlu destan kahramanı olmadan önce riveyaetlerde, efsanelerde yaşamıştır. Her halde Azebaycanda Köroğlu ile ilgili rivayet ve efsanelerin çoğluğu bir kez daha Köroğlu destanının ilkin olarak Azerbaycanda şekillendigini ispatlar. Bu fikri dolayısıyla olsa da diger araştırmacılar da kanıtlamaktadırlar (10; 160).

Destanın daha geniş arenada yayılması ve bunların merkezinde Kafkaz versiyonun durmasını ireli sürenler de vardır (8; 12).

Köroğlu ile bağlı efsane ve rivayetlerde kahramanları da iki kısma bölmek mümüküdür: Bunların birincisi destanın asıl kahramanları hakkındadır. Başta Köroğlu olmakla, Nigar hanım, Aşık Cünun, Ayvaz, Demirçioğlu, İsabalı, Deli Hasan vb. Bu kahramanlar destanın bir çok varyantında mevcut olup haklarında geniş bilgi verilmektedir. İkinci bölgüye dahil olan kahramanlar daha çok bir ve ya iki kolda kahramanlık yapmış olanlardır. Bunlara örnek olarak Telli hanımı, Dünya hanımı, Dona hanımı, Hürü hanımı, Aypara hanımı, Nergiz hanımı, Rugiye ve Mahruh hanımları göstere biliriz.

Azerbaycan Köroğlu varyantında Köroğlunun yiğitliyi kolunda tüfengin icadı ve yigitliyin arka plana keçmesi meselesi vardır ki, bu da Antep Rivayetindeki tüfengle hemen hemen aynıdır. Antep rivayetinde Usta Freng {xe "Frenk"} in hediye adı ile getirdiği tapancanın bir adamı öldüreceğine inanmayan beyler tartışırlar. Sonunda Demirçioğlu {xe "Demirçioğlu"}nun da isteği üzerine Ayvaz{xe "Ayvaz"} tapancayı onun kafasına sıkar. Demirçioğlunun öldüğünü gören Zor Ahmet Bezirgan{xe "Zor Ahmet Bezirgan"} kılıçla Ayvazın kafasını kesir, Dağıstanlı Hasan{xe "Dağıstanlı Hasan"} da Zor Ahmet Bezirgan{xe "Bezirgan"}ı öldürür (1; 66)

Haber Köroğluna ulaştıkta bu manzara karşısında birden bire saçı sakalı beyazlar ve sazla şöyle der:

Tüfek icad oldu mertlik bozuldu
Egri kılıç kında paslanmalıdır
Beyler getti Çamlıbel{xe "Çamlıbel"**}i neyleyim**
Varıp Şam eline yaslanmalıdır. (2; 340**)**

Bu varyantta da Köroğlu{ xe "Köroğlu" } fiziksel ölüm yaşamaz Şamın Kırklar Dağına çıkarak orada kaybolup gider.

Köroğlunun yaşlanması kolunun bir başka varyantı da şöyledir:

Belli bir yaşa gelmiş Köroğlu bir gün ekin yerinde cüt süren bir adama rast gelir. Onun omuzunda olan eşyanın tüfeng olduğunu ve onunla istenilen canlıyı öldürmegin mümükün olduğunu ögrener. Cütçü onu inandirmak için öküzlerden birine ateş açar. Oküzün öldüğünü gören Köroğlu kılıcını açıp yere koyar ve şöyle der:

- Artık mertlik bozulmuş, namertlerin dönemi yetişmişdir (gelmiştir – N.M). Bu saatden sonar yigitlik delikli kuruş etmez. Ben de bu günden itibaren Koroğlu olmayı bırakıyorum. (5; 148)

Sonuç

Bildirimizde Köroğlunun Azerbaycanda yaygın olan rivayetlerine değinerek destanın halk arasında mevcut olan şeklini analiz ettik. Anlizimiz boyunca metinlerin orijinalliğini korumağa çalıştık. Metinler orijinalliği ve kadimliği ile destanın bir kez daha çok eski çağlara dayandığını gösterir. Yukarıdaki biligilere dayanarak şunu söyleye biliriz ki, Azerbaycanda Köroğluya ait rivayetler destanın sayısı kadar yaygındır.

Kaynaklar

1. Bayat F., 2009 Türk Destancılık Tarihi Bağlamında Köroğlu Destanı (Türk Dünyasının Köroğlu Fenomenolojisi), İstanbul: Ötüken
2. Bayaz H., 1975 Köroğlu{xe "Köroğlu"}, Antep Rivayeti{xe "Antep Rivayeti"}
3. Boratav P.N., 1931 Koroğlu dastanı, İstanbul, Evgaf metbeesi
4. Paşayev S., 1985 Azerbaycan{ xe "Azerbaycan" } Halg Efsaneleri, Derleyen,Bakü{xe "Bakü"}
5. Pirsultanlı S.P., 2008 Azerbaycan{ xe "Azerbaycan" } Efsane ve rivayetlerinin edebiyyat anıtlarimizla karşılaşdırmalı tetgigi. Bakı{xe "Bakü"}
6. Pirsultanlı S.P., 2010 Azerbaycan{xe "Azerbaycan"} Türklerinin Halk Efsaneleri, Bakı{xe "Bakü"}
7. Tahmasip M.H., 1972 Azerbaycan Halk Destanları, Bakü
8. Tehmasib M.H., 1956 Mügeddime, “Koroğlu”, Bakı, Azerb SSR E.A

Neşriyyatı
9. Yaşayan Efsaneler, 1973 (Yay. Haz: S.Paşayev), Bakü
10. Короглы Н.Г. 1972 Взаимосвязи эпоса народов Средней Азии, Ирана и Азербайджана

N.Muxtarzadə

Azərbaycanda Koroğlu ilə bağli rəvayətlər

Xülasə

Məqalədə Türk dünyasında, Orta Asiyada, Sibirdə, Qafqazda, İranda, Balkanlarda, Anadoluda geniş yayılan Koroğlu dastanının xalq arasında mövcud olan rəvayətləri incələnəcək, dastanla bağlantısı araşdırılacaq.

Koroğlu mifoloji qəhhrəmandan haqq sevər, ədalət sevər hekayə qəhramanına çevrilmişdir. Azərbaycanda yayılan xalq hekayələrində Koroğlu vətən və millət üçün savaşan, məzlumun tərəfində olan, varlıdan alıb kasıba veren biridir.

Əsil adı işıq anlamına gələn Rövşən və ya Rövşən Əli (Azərbaycan Türkcəsində Rövşən) olan Koroğlunun tarixi kimliyi haqqında bilgiler yetərli deyildir. Buna baxmayaraq, Koroğlu ilə bağlı istər Azərbaycanda, istərsə də Osmanlı arxiv maretiallarında onun XVI əsrdə yaşamış saz şairi və ya yarı mistik xalq qəhrəmanı olduğu deyilir. Ancaq rəvayətlərlə müqayisədə bütün tarixi bilgilər dastan variantında daha çox qorunmuşdur.

Rəvayətlərdə, Koroğlu, Cənlibel, Qırat, Dürat, igidlərindən Həsən, Eyvaz, Dəmirçioğlu, Bəlli Əhməd və digərləri ilə bağlı bilgilər verilir. Eyni zamanda Koroğlu adı ilə bağlı bir çox yer adları da rəvayətə çevrilmişdir.

N.Mukhtarzadeh

The legends about Koroglu in the area of Azerbaijan

Summary

In the article the legends that spread among the people dealing with the epos Koroglu wide spreading in Turkic world, Middle East, Siberia, Kipchak, Caucasus, Iran, Balkan, Anadolu, their relating with the epos are investigated. Koroglu has changed to the peace lover hero from the mythological hero. In folk stories wide spreading in Azerbaijan Koroglu is a person who fight for the land and nation, who is in the side of poor. There is

not enough information about the historicity of Koroglu whose real name is Roshen or Roshen Ali (Rovshen in Azerbaijani Turkish).

In Azerbaijan and Osmanli archives Koroglu is a saz poet and noble brigand that lived in the HVI centuries. All historic information dealing with the legends are kept mosly in epos variant. That is why in Anadolu and Azerbaijan versions he is a saz poet and the hero that controls to caravan ways.

In legends the information is given about Koroglu, Chambil (Chenkubel in Azerbaijani Turkish), Girat, Arabat, his heroes such as: Hasan, Ayvaz, Demirchioglu, Belli Ahmed and others. At the same time some toponyms dealing with the name of Koroglu are the theme of legends.

Н.Мухтарзаде

Предания связанные с Кероглы в Азербайджане

Резюме

В статье будут исследованы все предания о Кероглы, связанные с народными дастанами, которые получили широкое распростронение во всем Тюркском мире, в Средней Азии, в Сибире, на Кавказе, в Иране, на Балканах, а также и в Анатолии.

Из мифологического героя, Кероглы, превратился в правдолюбивого, справедливого, повествовательного героя. В сказаниях о Кероглы распространенные в Азербайджане он представлен как борец за родину и народный мститель, защитник неимущих, который забирал добро у богатого и раздавал бедным.

Настоящее имя героя Ровшан или Ровшан Али, означающий свет, знание о его исторической значимости не до конца изучено. Несмотря на это в архивных материалах в Азербайджане и в Османах связанные с Короглы считает его мистическим героем или ашугом, живщим XVI веке. Но сопоставляя предания, приходишь к выводу, что исторические знания сохранили свою достоверность в вариантах дастанов.В преданиях рассказывается о Короглы, о Ченлибел, о Гырат, о Дюрат о его отважных воинах Гасане, Айвазе, Демирчиоглы, Белли Ахмед и о других героях. Одновременно с именем Кероглы связяны названия многих мест, которые превратились в предания.

Rəyçi: Füzuli Bayat
filologiya üzrə elmlər doktoru, professor

ƏHMƏD SAMİ ELAYDI
Eyn Şəms Universiteti, Qahirə, Misir
ahmedsami79@yahoo.com

ƏLİ KƏRİM POEZİYASINDA MƏNƏVİ SAFLIQ VƏ ƏXLAQİ BÜTÖVLÜK PROBLEMİ

Açar sözlər: Əli Kərim, poeziya, mənəvi saflıq, əxlaqi bütövlük
Key words: Ali Karim, poetry, moral purity, moral wholeness
Ключевые слова: Али Карим, поэзия, духовная чистота, моральная целостность.

Giriş

Çağdaş Azərbaycan poeziyasının qüdrətli yaradıcıları sırasında yer alan Əli Kərim özünəməxsus poetik istedadı, bənzərsiz düşüncə və yazı tərzi, bədii təfəkkür dərinliyi ilə seçilən qələm sahiblərindən biridir. Onun zəngin, janr müxtəlifliyi baxımından rəngarəng yaradıcılığı ilk gündən geniş oxucu kütlələrini diqqət və marağını çəkmişdir. Lakin oxucuların bunca sevgisinə baxmayaraq, ədəbi tənqid xeyli müddət şairin əsərlərini tədqiqata cəlb etməmiş, dolayısı ilə bu istedada qarşı biganəlik göstərmişdir. Məhz bunun nəticəsində ötən əsrin altmışıncı illərində ədəbiyyata gələn Əli Kərim fenomeni təxminən on ildən sonra – yetmişinci illərdə ədəbi tənqid tərəfindən etiraf olunmuşdur.

Əli Kərim ilk yazılarından başlayaraq, "...dövrünün poetik tərcümanı kimi çıxış edir, şeirlərində sosial tematikaya üstünlük verməyə çalışırdı. Belə perspektivli sənət başlanğıcının nəticəsidir ki, Əli Kərim sonradan da həmişə aktual mövzu və məsəllərlə yaşamış, yaradıcılığını həyatın çağırışına uyğun davam və inkişaf etdirmişdir" (1, s. 7-8).

Əli Kərim Azərbaycan ədəbiyyatı tarixində daha çıx şair kimi tanınmaqdadır. Onun şeir və poemaları istər mövzu-problem, istərsə də forma-sənətkarlıq baxımından bədii orijinallıq kəsb etməkdədir. Bu şeir və poemalarda yüksək sənətkarlıqla qaldırılan sosial və mənəvi-əxlaqi

məsələlər çağdaş dövrümüz üçün də təzəliyini və aktuallığını qoruyub saxlamaqdadır.

Orijinal poetik örnəklərlə yanaşı, ciddi sosial problemlərə söykənən bir sıra nəsr əsərlərinin müəllifi olan Əli Kərim yazıçı kimi də bədii uğurlara imza atmışdır. Onun "Pillələr" romanı, "Bərbər", "Qızın gündəliyi", "Kayutda iki adam", "Pələng", "Yarımçıq gündəlik", "Qəhqəhə" və başqa hekayələri ənənəvi nəsr nümunələrindən xeyli dərəcədə fərqlənir. Bu fərqliliyi şərtləndirən əsas amil bəhs olunan nəsr əsərlərin müəllifin poetik axtarışlarının davamı kimi təzahür etməsidir. Bəlkə bu səbəbdəndir ki, Əli Kərimin nəsr əsərləri bir növ şeir təsiri bağışlayır, oxucuda daha çox poetik ovqat yaradır.

Əli Kərimin dram əsərləri poeziyası və nəsri ilə müqayisədə o qədər zəngin və görümlü olmasa da, ideya-məzmun baxımından seçilir və onun yaradıcılıq axtarışlarının hüdudlarını genişləndirir.

Ədib həmçinin Azərbaycanın bir çox şair və yazıçıları kimi, sənətin nəzəri-estetik məsələləri ilə də məşğul olmuş, bu gün də elmi dəyərini qoruyub saxlayan ədəbi-tənqidi məqalələr yazmışdır.

Aradan keçən bu illər ərzində onun haqqında xeyli araşdırma yazılmasına baxmayaraq şairin yaradıcılıq dünyasının gizlinləri indiyədək bütün yönləri ilə açılmamışdır. Oxucuların mühakiməsinə verilən bu tədqiqat da məhz həmin zərurətdən yaranmışdır.

Əli Kərimin poeziyası mövzu, məzmun və problem baxımından olduqca zəngin və çox şaxəlidir. Şair yaşadığı cəmiyyəti düşündürən və narahat edən ən müxtəlif məsələlərə bu və ya digər şəkildə münasibət bildirmiş, onları şeirin bədii obyektinə çevirməyə bacarmışdır. Lakin müəllifin yaradıcılığında mənəvi saflıq və əxlaqi bütövlük məsələsi başlıca problem kimi özünü büruzə verməkdədir.

Onu da qeyd edək ki, şairin əsərlərində mənəvi saflıq və əxlaqi bütövlük probleminin bədii təcəssümü müxtəlif səpkidə gerçəkləşir. Hər şeydən əvvəl, müəllif tarixi şəxsiyyət və mənəvi-əxlaqi dəyərlər kontekstində bəhs olunan problemin bədii inikasını vermişdir.

Digər tərəfdən Əli Kərim humanizm və milli-mənəvi yaddaş müstəvisində əxlaqi saflıq və bütövlük məsələsini canlandırmışdır. Şair həmçinin məhəbbət mövzusunda yazdığı əsərlərdə insanın mənəvi dünyasının ən gizli qatlarına enməyi bacarmış, sevgi münasibətlərində əxlaqi dəyərin hər şeydən qiymətli olduğunu vurğulamışdır.

- **Ədəbi və tarixi şəxsiyyət mənəvi-əxlaqi dəyərlər kontekstində**

Əli Kərimin poeziyasının müəyyən bir qismini tarixi-siyasi və ədəbi şəxsiyyətlərə həsr olunmuş bədii nümunələr təşkil edir. Şair zaman-zaman əks etdirmək istədiyi mənəvi idealları tarixi şəxsiyyətlərin timsalında

gerçəkləşdirməyə can atmışdır. Bu ordan qaynaqlanır ki,Əli Kərimin yaradıcılığı Azərbaycan xalqının "...tarixi ilə, bu tarixin mənalı və səciyyəvi hadisə və dövrləri ilə üzvi surətdə bağlıdır" (1, s. 8). Bunun bir səbəbi sovet ideoloji rejiminin bəlli yasaqlarından qaynaqlanırdısa, digər səbəbi isə problemin təcəssümü üçün tarixi şəxsiyyətlərin uyğun bədii fon rolunu oynamasıdır. Bu baxımdan müəllifin müxtəlif dövrlərdə qələmə aldığı "Babəkin qolları", "Füzuli", "Xətayi", "M.Hadiyə", "Müşfiqə", "Van Qoqun günəşi", "Salyeri", "Habil" və başqa şeirləri mənəvi saflıq və əxlaqi bütövlük probleminin bədii ifadəsi üçün bir növ açar funksiyası daşımaqdadır.

"Babəkin qolları" şeirində müəllif Xürrəmilər hərəkatının başçısı, Azərbaycanın görkəmli tarixi şəxsiyyəti olan Babəkin qəhrəmanlığını özünəməxsus şəklidə canlandırır. Bu özünəməxsusluq qəhrəmanın – tarixi şəxsiyyətin obrazının yaradılmasında ənənəvi tərənnüm üsulundan uzaqlaşılması, bənzərsiz bədii detallara üz tutulmasıdır:

Qolu sındırılmış Babək,
Yurdu yandırılrmış Babək,
Qan rəngli bir arabada,
Şərq boyda bir xarabada,
Söyə-söyə,
Döyə-döyə,
Hamıya görk olsun deyə
Kənd-kənd gəzdirilən Babək (4, s. 32).

Göründüyü kimi, müəllif şeirdə bədii obyekt olaraq seçdiyi tarixi şəxsiyyət olan Babəkin daxili-mənəvi dünyasını onun kəsilmiş qolları timsalında canlandırmağa çalışmışdır. Bu cür yanaşma şairə bir tərəfdən Babəkin qəhrəmanlığını, digər tərəfdən onun əzablarını, ağrılarını əks etdirməyə imkan vermişdir.

Ölübən-dirilən Babək;
Qollarını görməyəndə
Azca rahat olan Babək;
Bir qırmızı yuxu içrə:
Uzaqlara dalan Babək.
Deyən Babək: - Aman dostlar,
Hücum çəkin qoşun-qoşun,
Orda mənsiz qılınc çalan
Qollarımla bir vuruşun (4, s. 32)

Müəllifin orijinal yazı tərzi həcmcə o qədər də böyük olmayan bədii mətndə dərin və düşündürücü fəlsəfi fikirləri ustalıqla ümumiləşdirməsinə imkan vermişdir. Şair müraciət etdiyi tarixi şəxsiyyətin qəhrəmanlığı fonunda, eyni zamanda, yaşadığı cəmiyyətin problemlərini canlı və aktiv şəkildə bədii gündəmə gətirmişdir.

Böyük Azərbaycan şairi Məhəmməd Füzuliyə həsr etdiyi eyniadlı şeirdə ictimai məsələlərə ağırlıq verən müəllif onun yaradıcılığından çıxış edərək yaşadığı dövrün problemləri ilə assosiativ əlaqə qurur, dolayısı ilə özünün də bağlı olduğu Şərqin taleyini diqqət mərkəzinə çəkməyə çalışır.

Dünya səni qocaltdı yaşıdın olsun deyə
Gömüldü dərdin yerə, ucaldı ahın göyə.
Dərdə şərik - dərd özü, sükut - suala cavab.
Qranit dağlar belə, gətirməzdi buna tab.
Füzuli, o nə dövran!.. – Görsələr yanır insan
Yanana od verdilər. (4, s. 32).

Əli Kərimin "Füzuli" şeirini ənənəvi poetik örnəklərdən fərqləndirən əsas məqam burada ədəbi-tarixi şəxsiyyətə müasirlik prizmasından yanaşılması, yaradılan bədii kontrast fonunda dövrün sosial-siyasi ziddiyyətlərini böyük sənətkarlıqla əks olunmasıdır.

Dünya səni qocaltdı –
cavan görünsün deyə,
Yanğınlar tüstüsütək
ahın ucaldı göyə.
Sən od tutub alışdın.
Bu odu qoca Şərqin
hər yerindən gördülər –
Gördü bu doğma yerin.
Bütün bu gen dünyanın
gözləri göydə qaldı. (4, s. 33)

Əli Kərimin yaradıcılıq yolunu hərtərəfli şəkildə təhlil obyektinə çevirən AMEA-nın müxbir üzvü, professor Tofiq Hacıyev onun tarixi şəxsiyyətlərə həsr olunmuş şeirlərini səciyyələndirərək yazır: "Onun fitrətində siftədən şairlik istedadı var idi; ancaq məhz bu səpkidə – belə üslubda yazmaq həyatının şüurlu dövründə müəyyənləşdi. O, klassik ədəbiyyatımızı da gözəl bilib. Nəsimiyə, Füzuliyə şeir həsr edib; bu şeirlər yubiley plakatı deyil, onların şair obrazından elə cizgilərdir ki, bu cizgilər onların üslubunun iliyinə gedir – onları duyan, bilən adam bu cizgiləri görə bilər. O, Füzulini dünyanın rəqibi, sirdaşı

səviyyəsinə çatdırır: "Dünya səni qocaltdı yaşıdın olsun deyə... Dünya səni qocaltdi cavan görünsün deyə" (4, s. 11).

Görkəmli alim mülahizələrini davam etdirərək bəhs olunan məqamla bağlı qənaətlərini aşağıdakı kimi yekunlaşdırır: "Əli Kərimdə çox ifadələr, misralar, fikirlər var ki, onlar Füzuli sənətinin kökündən cücərmiş pöhrələrdir. O, Füzulinin "elmsiz şeir əsassız divar olur" düsturunu özü üçün sənət devizi götürür: "Söz axtardım, tapmadım, misram qopub töküldü özülsüz divar kimi". Və ya bu bədii lövhələrdəki sələf-xələflik münasibəti, irsi yaxınlıq əlamətləri aydınca seçilir: "Bu nə sirdir ki, olur hər ləhzə yoxdan var söz" (Füzuli); "Bircə olmayaydı... ağızda söz kimi görünməzliyin" (Ə. Kərim). Eyni zamanda Əli Kərim "Söz çıxıb ceyran dalına..." deyən ağsaqqal müasiri Rəsul Rzanın səsinə səs verir: "Girdim söz dünyasına, çox gəzdim, çox aradım kəşfiyyatçılar kimi". Ancaq Füzulidən qığılcım, Rəsul Rza nəfəsindən qətrə düşən bu şeiri görün necə də nə Füzuliyə, nə də Rəsul Rzaya oxşayan tərzdə bitirir, layla mışıltılı bir mənzərə göstərir: "Yorulmuşdum... Uzandım bu sözün yamacına başımı söykəyərək". Bütün bu paralellərdə, sələf-xələf səsləşməsində Əli Kərim sənətinin poetikası aşkarlanır. O, klassiklərin ancaq poetik təcrübəsi ilə deyil, həm də estetik normaları ilə yaxından tanış olmuş, öz poeziya yolunu, bu poeziyanın dil-üslub tonunu, bədii boya alma üsulunu şüurlu surətdə seçmişdir" (4, s. 11).

Əli Kərimin ədəbi-tarixi şəxsiyyətlərə həsr olunmuş "Xətayi", "M.Hadiyə", "Müşfiqə", "Van Qoqun günəşi", "Salyeri", "Habil" və digər şeirlərində də bu və ya digər dərəcədə eyni motiv müşahidə olunmaqdadır.

Təhlillərdən aydın şəkildə göründüyü kimi, Əli Kərimin poetik yaradıcılığında tarixi şəxsiyyətlərə üz tutulması məqsədli səciyyə daşıyır. Belə ki, müəllif əksər hallarda mənəvi-əxlaqi problemlərlə bağlı öz qənaətlərini tarixi şəxsiyyətlərin timsalında canlandırmağa çalışır.

- **Humanizm və milli-mənəvi yaddaş problemi**

Yzıları ilə ötəri tanışlıq göstərir ki, Əli Kərim yaradıcılığının məzmunu və mahiyyəti etibarilə humanist dəyərlərə sahib ədəbi şəxsiyyətlərdən biridir. O hansı mövzuda yazırsa yazsın, əsərlərində bəşəri prinsiplərdən çıxış etmışdır. Əli Kərim bütün yaradıcılığı boyu mənsub olduğu mühitin zahiri tərəflərini əks etdirməyə çalışmamış, həyatın "...dərin qatlara enməyə çalışmış, hamını düşündürən ciddi mətləbləri tərənnüm edən bir şair kimi tanınmışdır. Bu o deməkdir ki, həyatımızın iki zidd qütbü var, dünyada hələ də xeyirlə şər, yaxşılıqla pislik, humanizmlə vəhşilik, işıqla zülmət, yaşamaqla ölüm əlbəyaxa döyüşdədir. Çətin və ağır olsa da, son nəticədə işıqlı amallar qalib gəlir. Bu böyük və humanist sənətkarın yeri ön sıralardadır" (1, s. 10).

Lakin qeyd etmək lazımdır ki, Əli Kərimin poeziyası bəşəri-humanist mahiyyət daşıdığı qədər eyni səviyyədə milli-mənəvi yaddaş probleminə

söykənməkdədir. Bu mənada şairin "Daş" adlı şeiri bəhs olunan problemin şərhi üçün daha çox material verir:

Yarıçılpaq,
Qədim insan
Düşməninə bir daş atdı,
Qana batdı.
Daş düşmədi
Amma yerə,
Uçub getdi
Üfüqlərdən üfüqlərə.
Deməyin ki, daş yox oldu
Daş çevrilib bir ox oldu.
Oldu qılınc,
güllə,
mərmi.
Dayanmadı fikir kimi.
Atom oldu. (4, s. 51).

Təqdim olunan misralardan göründüyü kimi, şairi dünyanın gələcək taleyi narahat edir. Lakin o öz narahatlığını adi, publisistik təfəkkürə söykənən çılpaq misralarla ifadə etmir. Əksinə, gələcəkdə bəşəriyyəti gözləyən faciələrin böyüklüyünə qaçılmazlığına yönəltməklə insanları tarixin dərslərindən ibrət almağa, ayıq olmağa səsləyir. Müəllif dünyanı təhdid edən hərbi güclərin, gündən-günə dərinləşən qarşıdurmaların, çözümü mümkünsüz olan münaqişələrin gerçək mənzərəsini yaratmaq üçün yaşadığımız dünyanın fəlakətlərinin haradan qaynaqlandığını bir şair-filosof kimi canlandırmağa çalışır. Onun lirik qəhrəmanı ibtidai icma dövründən günümüzədək məsafələr qət edən insandır. Şairin qənaətincə, bir zaman düşməninə daş atan bu insan bu gün atomla silahlanırsa, mahiyyətcə dəyişməmişdir.

Həmin o daş
İndi yenə dayanmayır,
uçur hara?
O, neytron, elektron –
Dönüb
nələr,
nələr olur.
Alov olur,
ölüm olur,

zəhər olur
Ey həməsrim,
Həqiqətin qan qardaşı,
Dayandıraq olmazmı, de,
Yarıçılpaq,
yarıvəhşi,
Qədim insan
atan daşı?! (4, s. 51-52)

Dərin sosial-fəlsəfi ümumiləşdirmələrlə müşayiət olunan şeirin insana müraciətlə tamamlanması təsadüfi deyildir. Çünki dünyanı fəlakətlərə aparacaq amalların baiskarı insan olduğu kimi, bəşəriyyətin nicatı da insanın əlindədir. Şeirdən hasil olan qənaətə görə, yer üzündə yaşanmış və bundan sonra da yaşanacaq faciələr cəhalətdən qaynaqlanır. Bu mənada müəllif düşməninə daş atan "yarıçılpaq", "yarıvəhşi" insanla atom əsrinin sakinləri arasında elə bir fərq görmür. İnsanlar elmi-texniki tərəqqi əsrində yaşasalar da, zehniyyət baxımından prinsipial dəyişikliyə uğramamışlar.

Əli Kərimin şeirlərinin bir qismində ata-ana sevgisi, valideyn-övlad münasibətləri cəmiyyəti düşündürən ciddi problemlərdən biri kimi bədii təcəssümünü tapmışdır. Şairin "Qaytar ana borcunu", "Ana", "Analar ağlar", "Atamın xatirəsi", "Gecə uşaqlar yatır", "Uşaq", "Paşanın ilk uçuşu", "Vəsiyyət" və başqa şeirləri bu qəbildəndir.

"Qaytar ana borcunu" şeirində ana-oğul münasibətlərinə diqqət yönəldən şair Azərbaycan xalqının milli adət və ənənələrinə söykənərək mənəvi-əxlaqi problemlər işığında canlandırdığı lirik qəhrəmanın ağrı, əzab və iztirablarını orijinal bədii tərzdə təqdim edir:

Bir gözəl, bir sevimli oğul böyütdü ana.
O bəd, uğursuz günü – ərinin öldüyünü
Bildirmədi heç ona.
Kədəri dalğa-dalğa doldusa da ürəyə,
Lakin nə saç yolaraq verdi əsən küləyə,
Nə şivən etdi ana,
Ürəyində ağlayıb, gülmək öyrətdi ona.
Dözərək davanın da dərdinə, bəlasına,
Öz boğazından kəsib yedirdi balasına.
...Bir oğul böyütdü ki, oğul məktəb bitirdi,
Oğul instituta qızıl medalla girdi.
Ana fikirləşdi ki, "Gör neçə aya getdi?!"
Ana yuxularında tez-tez Bakıya getdi.
Ana məktub yazdı ki, "Yanıltma gümanımı,
Pul nədir, pul deyirsən,

göndərərəm canımı".
Nə zaman ki oğlunun getdiyi dörd il oldu,
Məktubları kəsildi,
gəlmədi tətil oldu, (4,s. 127).

Ana-oğul münasibətlərinə həsr olunmuş bu şeirdə müəllif olduqca ciddi əxlaqi problemə toxunmaqla cəmiyyətin mürəkkəb münasibətlər kontekstində tənhalaşan anaların – valideynlərin fəryadını əks etdirmək mərami izləmişdir. Övladı üçün canını verməyə hazır olan ananın bütün səylərinə və fədakarlığına baxmayaraq, qarşı tərəfdən biganəlik görməsi onun ruhi sarsıntısına səbəb olur. Oğlunu qaytarmaq deyil, sadəcə görmək üçün hər şeyə hazır olan ananın iztirabları bədii mətnin fövqünə qalxır. "Qaytar ana borcunu" şeiri aşağıdakı ibrətamiz misralarla tamamlanır:

Oğul demərəm sənə!
Deyirəm ki, o boyu, buxunu qaytar geri!
Deyirəm ki, varını, yoxunu qaytar geri!
Qaytar onun borcunu,
Gülüşünü, adını, sözünü qaytar geri!
Qaytar onun borcunu,
O borc sənin özünsən,
özünü qaytar geri! (4, s. 129)

Əli Kərimin "Qaytar ana borcunu" şeirini böyük Azərbaycan şairi və dramaturqu Cəfər Cabbarlının "Ana" əsəri ilə müqayisə edən ədəbiyyatşünas Sona Xəyalın mülahizələri maraq doğurur: "Bu şeir Cəfər Cabbarlının “Ana” şeirindən sonra ikinci yerdə durur desək, yanılmarıq. Burada ana borcunun qaytarılmasının mümkünsüzlüyünü bilən şair oğuldan “özünü istəyir”. Ana obrazını yaradan şair ananın səciyyəvi cəhətlərini sadalamır, onun əvəzində ananın yaratdığı oğulu təsvir edir. Yəni, yaranmış varlıq ilə yaradanın böyüklüyü açıqlanır" (2, s. 63).

Əli Kərimin "Ana" şeirində də mənəvi-əxlaqi problemlər orijinal səpkidə bədii əksini tapmışdır.

Demirəm, göy kimi ucadır adın,
Yox, yox alçalmasın söhbətin, sözün.
Sən ki yaranışdan oxşar olmadın,
Ancaq özün kimi böyüksən özün.

Əyilib alnından öpəndə hərdən
Könül dodağıma bir də öp, - deyir.

Ağarmış saçına əl vuranda mən
Əlim Şah dağının başına dəyir (4, s.40).

Şair yaratmış olduğu Ana obrazını Vətən obrazı ilə bütünləşdirərək lirik qəhrəmanının daxili-mənəvi dünyasını özünəməxsus səpkidə əks etdirməyə nail olmuşdur.

Mən səni bağrıma basanda bərk-bərk,
Gör nələr düşünüb, nələr duyuram!
Elə bil Göyçaydan Kamçatkayadək
Vətən torpağını qucaqlayıram (4, s. 40).

Qeyd edək ki, yalnız təhlilə cəlb olunan şeirlərdə deyil, Əli Kərimin digər əsərlərində də humanizm və milli-mənəvi yaddaş problemi ilə bağlı motivləri müşahidə etmək mümkündür.

- **Şairin məhəbbət dünyası**

Bəlli olduğu kimi, Azərbaycan poeziyasında məhəbbət mövzusunun işlənilməsinin qədim və zəngin bir tarixi vardır. Azərbaycan ədəbiyyatının dahi şəxsiyyətləri olan Xaqani Şirvani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Saib Təbrizi, Molla Pənah Vaqif, Aşıq Ələsgər, Məhəmməd Hadı, Mikayıl Müşfiq, Səməd Vurğun, Rəsul Rza, Məhəmmədhüseyn Şəhriyar, Bəxtiyar Vahabzadə, Fikrət Qoca və başqaları zaman-zaman bu mövzuya müraciət etmiş, biri-birindən dəyərli poetik örnəklər yaratmışlar. Divan ədəbiyyatında olduğu kimi, çağdaş poeziyada da məhəbbət mövzusu bədii obyekt olaraq öncüllüyünü qoruyub saxlamaqdadır. Bu da təsadüfi deyildir. Çünki sözün geniş mənasında heç bir mənəvi keyfiyyət məhəbbət qədər insanın xarakterində və taleyində iz burax-mamışdır.

Əli Kərimin poeziyasında təmiz, saf məhəbbətin tərənnümü mühüm yerlərdən birini tutur. "Bu lirikanın bədii qüdrəti insan qəlbinin duyğu və həyəcənları, insan gözəlliyini böyük sənətkarlıqla vəsf etməsidir. Şairin şeirlərində qəlbin dərinliklərində işləyən, ürək tellərini ehtizaza gətirən, ruhlara, əsəblərə rahatlıq çiləyən dərin lirizm, hiss və həyəcan vardır. Şairin istər ideya məzmun, istərsə də forma etibarilə çox zəngin olan lirikasında insan məhəbbətinin inikası xüsusi yer tutur. Ancaq onun əsərlərindəki məhəbbət heç də intim, fərdi hisslərin ifadəsi olmayıb, dərin ictimai mahiyyət daşıyır" (1, 79). Doğru müşahidədir, ədəbiyyatşünas alimin qənaətləri ilə razılaşmamaq mümkün deyildir.

Bu mənada Əli Kərimin də yaradıcılığı istisna deyildir. O, yaradıcılığa başladığı ilk dövrlərdən məhəbbət mövzusunda maraqlı, bənzərsiz əsərlər yazmışdır. Şair sonrakı illərdə də bu sahədə poetik axtarışlarını davam etdirmişdir.

Əli Kərimin məhəbbət mövzusunda yazdığı poetik nümunələr içərisində "Qayıt", "İki sevgi","Çətin görüş"və bir çox digər şeirlər xüsusi yer tutur. Öz sələflərindən fərqli olaraq onun lirik qəhrəmanı real dünyanın qayğı və problemləri içərisində yaşayan, lakin bununla belə həyatın romantikasını bir an belə unutmayan obrazlar kimi diqqəti çəkir.

"Qayıt" şeirində şair ayrılığın, həsrətin daxili dünyasında yaratdığı mənəvi boşluğu əks etdirmişdir. Bəxtiyar Vahabzadə "Mənəvi dayaqlarımız" adlı məqaləsində "Qayıt"şeirini özünəməxsus səpkidə dəyərləndirərək yazır: "Görün, insan mənəviyyatında sahmanın pozulması Kainatla, kosmik obrazlarla necə bağlanıb! Görün, şair sevgiyə, insan münasibətlərinə necə yüksək səviyyədən baxır, bu münasibətlərin dramatizmi, gərginliyi necə ümumiləşdirilir. Şeir də bir gözəllik kimi kainatımızı sahmana salmalıdır" (9, s.144).

Həsrətin araya atdı dağ, dərə,
Sönən işıq oldun, batan səs oldun,
Qayıt, mənim gülüm, qayıt bu yerə,
Ey mənim istəyim, nə gəlməz oldun!

Ümidlər, arzular pərən-pərəndir,
Qəlbə təsəllidir xatirələrim.
Bir halımı soruş, könlümü dindir;
Axşamlar yadıma düşür səhərim. (4, s. 153).

Şairin qənaətincə, sevgilisindən ayrı düşməsi onun yalnız mənəvi dünyasını deyil, real, gerçək dünyasını da büsbütün dağıtmışdır. Şair İsa İsmayılzadə isə bu şeirə münasibətini belə bildirir: "Qayıt, sahmana sal bu kainatı". Təkcə bu misra hər şey deyir: doğma bir adamın həsrəti, gərəkliyi, onun bu dünyanı, kainatı kimin üçünsə sahmana salması – "dərdli səhərləri, gecələri, Ayı, günəşi yerbəyer eləməsi" adi məntiqə sığmayan bir poetik həqiqət kimi səslənir" (3).

Qayıt, mənim gülüm, yerbəyer elə
Dərdli səhərləri, gecələri sən.
Çaşıb başqa yolla keçirəm evə,
Düz öz qaydasınca küçələri sən.

Qayıt, yerinə qoy Ayı, Günəşi-
Yenə olduğu tək görüm həyatı.
Qayıt, gözüm nuru, könlüm atəşi,
Qayıt, sahmana sal bu kainatı! (4, s. 153)

"Yaradıcılığının son illərində yazdığı “Qayıt” şeiri Əli Kərimin lirikasında əhəmiyyətli yer tutur. Bizim qənaətimizə görə, “Qayıt” şeiri məhəbbət lirikası ilə fəlsəfi lirikanın vəhdətindən yaranmışdır. Bunlardan hansının üstünlük təşkil etdiyini söyləmək çətindir. Dörd bənddən ibarət olan şeirin birinci iki bəndində məhəbbət, son iki bəndində isə fəlsəfi motivlər elə çulğamış, birləşmişdir ki, onları bir-birindən ayırmaq çətindir" (7, s.179).

Şairin təxminən eyni poetik ovqatda qələmə alınan "İki sevgi" şeiri məhəbbətin mənəvi-əxlaqi baxış bucağından dəyərləndirilməsi baxımından səciyyəvi cizgiləri ilə seçilir. Professor Cavanşir Yusiflinin fikrincə, "İki sevgi" şeiri onun poeziyada bütün ömrü boyu ifadə etmək istədiyi manifestinin müəyyən parlaq məqamı sayıla bilər. Şeir boyu intonasiya, poetika elə qurulur, elə bir formul daxilində hərəkət edir ki, burada sabit şəkildə müşahidə edilən, daim sabit mövqedə dayanan obraz (allı-güllü obraz, həm də insanı qəfil yaxalayan, çaşdıran obraz) əvəzinə əvvəldən sona kimi batıb-çıxan obraz münasibətin şahidi oluruq. Bu hal həm də artıq edilmiş bir seçimdir: "İki sevgi" (10, s.46).

Gözəl qız, sən saf susan,
İki qəlb arzususan.
Mən səni sevirəm
Susuzluğun od vurub köz kimi
yandırdığı
dodaq su sevən kimi.
O isə səni sevir
rahatca bardaş qurub,
- Kabab üstdən sərin su pis olmaz -
deyən kimi (4, s. 157).

Şair qarşılaşdırdığı obrazların fonunda ilahi bir duyğu olan məhəbbətə iki fərqli baxış tərzini ortaya qoya bilmiş, bununla təkrarsız bədii lövhə yaratmışdır. Belə ki, şeirdə canlandırılan lirik qəhrəmanların biri yüksək mənəvi keyfiyyətə malik aşiqdir. Şair qıza müraciət edən bu qəhrəmanın dili ilə duyğuların orijinal metaforik kontrastını yarada bilmişdir.

Bu mən, bu o, bu da sən,
De görək nə deyirsən!
Amma yaxşı fikir ver
bu iki məhəbbətə.
Daha heç nə demirəm
Nöqtə, nöqtə və nöqtə (4, s. 158).

Həcmcə o qədər də böyük olmayan "İki sevgi" şeirində şairin yüksək poetik sənətkarlıqla yaratmış olduğu obrazlar bədii lövhə kimi oxucu

yaddaşına həkk olur. Bu obrazların biri aktiv, digər ikisi isə passiv mövqedədir. Şeirin zəngin mənəvi-əxlaqi keyfiyyətlərə malik olan qəhrəmanın dili ilə canlandırılması təsadüfi deyildir. Bununla şair sevgi münasibətlərində mənəvi keyfiyyətlərin zəruriliyinə diqqəti yönəltmək istəmişdir.

"Əli Kərimin məhəbbət lirikasını fəlsəfi lirikadan ayırmaq çətindir, onlar çox vaxt bir-birinin davamı kimi "çıxış edir", qırılmaz vəhdət təşkil edir. Məhəbbət sətirləri arxasında fəlsəfi fikirlər, fəlsəfi sətirlər arxasında məhəbbət duyğuları "gizlənir" və onlar çox vaxt bir-birini tamamlayır..." (7, 182).

Nəticə

Təhlillərdən göründüyü kimi, Əli Kərimin poeziyası mövzu, məzmun və problem baxımından olduqca zəngin və çox şaxəlidir. Şair yaşadığı cəmiyyəti düşündürən və narahat edən ən müxtəlif məsələlərə münasibət bildirmiş, onları şeirin bədii obyektinə çevirməyə bacarmışdır. Lakin müəllifin yaradıcılığında mənəvi saflıq və əxlaqi bütövlük məsələsi başlıca problem kimi özünü büruzə verməkdədir.

Əli Kərimin poetik yaradıcılığında mənəvi saflıq və əxlaqi bütövlük problemi daim diqqət mərkəzində olmuşdur. O, hansı mövzuda yazırsa yazsın, bu məsələyə ciddi önəm vermişdir. Şairin əsərlərində mənəvi saflıq və əxlaqi bütövlük probleminin bədii təcəssümü müxtəlif şəkildə gerçəkləşir.

Hər şeydən əvvəl, müəllif tarixi şəxsiyyət və mənəvi-əxlaqi dəyərlər kontekstində bəhs olunan problemin bədii inikasını vermişdir. Bunun bir səbəbi sovet ideoloji rejiminin bəlli yasaqlarından qaynaqlanırdısa, digər səbəbi isə problemin təcəssümü üçün tarixi şəxsiyyətlərin uyğun bədii fon rolunu oynamasıdır. Bu baxımdan şairin müxtəlif dövrlərdə qələmə aldığı "Babəkin qolları", "Füzuli", "Xətayi", "Məhəmməd Hadiyə", "Müşfiqə", "Salyeri", "Habil" və başqa şeirləri mənəvi saflıq və əxlaqi bütövlük probleminin özünəməxsus bədii ifadəsi kimi maraq doğurur.

Həmçinin qeyd olunmalıdır ki, Əli Kərimin şeirlərində humanizm və milli-mənəvi yaddaş müstəvisində əxlaqi saflıq və bütövlük məsələsigeniş şəkildə canlandırmışdır. Əli Kərim bütün yaradıcılığı boyu mənsub olduğu mühitin zahiri tərəflərini əks etdirməyə çalışmamış, həyatındərin qatlara enməyə çalışmış, xalqı, cəmiyyəti düşündürən, narahat edən ciddi məsələləri tərənnüm edən bir şair kimi tanınmışdır.

Əli Kərimin şeirlərinin bir qismində ata-ana sevgisi, valideyn-övlad münasibətləri cəmiyyəti düşündürən ciddi problemlərdən biri kimi bədii təcəssümünü tapmışdır. Şairin "Qaytar ana borcunu", "Ana", "Analar ağlar", "Atamın xatirəsi", "Gecə uşaqlar yatır", "Uşaq", "Paşanın ilk uçuşu", "Vəsiyyət" və başqa şeirləri bu qəbildəndir.

Şairin məhəbbətə həsr olunan şeirləri mənəvi-əxlaqi çalarlarla seçilməkdədir. O məhəbbəti yalnız insan hislərinin yüksək məqamı kimi

təqdim etməmiş, həmçinin bu münasibətlərin mənəvi saflıq, kamillik, əxlaqi bütövlüklə bağlılığını vurğulamışdır. Başqa sözlə, Əli Kərimin sevən qəhrəmanı, eyni zamanda, zəngin mənəvi-əxlaqi keyfiyyətlərin daşıyıcısı mövqeyində dayanır. Bir məsələni vurğulamaq lazımdır ki, Əli Kərimin məhəbbət lirikası mənəvi-əxlaqi keyfiyyətlərlə yoğrulmaqla yanaşı, həmçinin sosial motivlərlə zəngindir.Bütövlükdə Əli Kərimin poeziyasında mənəvi saflıq və əxlaqi kamillik problemi başlıca leytmotiv kimi çıxış edir. Şair hansı mövzuda yazırsa yazsın, bu problemdən yan keçə bilməmişdir. Başqa sözlə, mənəvi saflıq və əxlaqi bütövlük məsələsi müəllifi daim düşündürmüş, onun yaradıcılıq kredosuna çevrilmişdir. Əli Kərimin poeziyasının yaşarılığını şərtləndirən amillərdən biri məhz bu məqama söykənir.

İstifadə olunmuş ədəbiyyat

1. Əliyeva İfrat. Çırağı sönməyən poeziya, Bakı: "Elm və təhsil" nəşriyyatı, 2017, 320 s.
2. Xəyal Sona. Əli Kərim (yaradıcılığı əsasında), Bakı: "Elm və təhsil" nəşriyyatı, 2011, 102 s.
3. İsmayılzadə İsa. Duyğular poeziyası, "Ədəbiyyat və incəsənət" qəzeti, 13 fevral 1971.
4. Kərim Əli. Seçilmiş əsərləri, I cild, Bakı: "Lider" nəşriyyatı, 2004, 336 s.
5. Kərim Əli. Seçilmiş əsərləri, II cild, Bakı: "Elm və təhsil" nəşriyyatı, 2012, 500 s.
6. Məmmədov Altay. Tanıdığım Əli Kərim, Bakı: "Elm və təhsil" nəşriyyatı, 2012, 429 s.
7. Məmmədov Fərrux. İllər arxasından görünən Əli (Əli Kərim lirikasının bəzi xüsusiyyətləri), "Azərbaycan" jurnalı, 2012, № 2, s.177-184.
8. Mustafayev Feyzi. Dinmə ey kədər, Bakı: "Yazıçı" nəşriyyatı,1986, 166 s.
9. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri, 12 cilddə, X cild, Bakı: "Azərbaycan" nəşriyyatı, 2005, 688 s.
10. Yusifli Cavanşir. Əli Kərim üslubu, yaxud fərdi yaradıcılıqdan ədəbiyyat tarixinə baxış, Bakı: "Mütərcim" nəşriyyatı, 2010, 64 s.

Ahmed Sami Elaidi

Moral purity and moral wholeness matters in Ali Karimi's poetic works

Summary

In the article moral purity and moral wholeness matters are depicted in Ali karim's poetic works.

Moral purity and moral wholeness matters are figured out on the context of fictional and historical characters matter ("Babek's arms" , " Fuzuli", "Khatai", " To Mahammad Hadi" , " To Mushfig", " Salyeri" ," Habil"), humanism and national- moral memory matter ("Pay away mother's debt", "Mother", "Mothers cry" , "My father's memory" , " Children sleep at night " , " Child" , " Pasha's fist flight" , " Bequest") and love theme ("Return" , " Two love"). The article have based on the researchs about Ali Karimi and as the occasion arises, they have been used.

Ахмед Сами Элайди

Проблемы моральной чистоты и нравственной ценности в поэзии Али Карими

Резюме

В статье рассматривается проблема моральной чистоты и нравственной целостности в поэтическом творчестве Али Карима.

Проблема моральной чистоты и нравственной целостности нашла свой научно-теоретический анализ предмета в контексте проблем литературной и исторической личности («Руки Бабека», «Физули», «Мухаммад Хадия», «Мушфига», «Сальери», «Габиль»), гуманизма и национально-духовной памяти («Верни долг Матери», «Мать», «Матерям присуще плакать», «Воспоминания моего отца», «Ночью дети спят», «Дитя», «Первый полет Паши», «Завещание») и любви («Вернись», «Две любви»).Существуют ссылки на исследования Али Карима, которые, по мере необходимости, были использованы в данной статье.

Rəyçi: Vaqif Sultanlı

Professor

TAMAM İSMAYILOVA
BDU
tomaismailova@gmail.com

ANTON PAVLOVIÇ ÇEXOV YARADICILIĞINDA BİR ANIN PSIXOLOJİ FACİƏSİ

Yazmaq üçün mənə an gərəkdir.
A. P. Çexov

Açar sözlər: Bədii ədəbiyyat, An, Faciə, Psixologizm,Hekayə
Ключевые слова: Художественной литература, Миг,Трагедия, Психологизм , Рассказ
The key words: Fiction, Moments,Tragedy, Psychologism, Story,

İnsan həyatı anlardan ibarətdir. Yaşanan ömürün ən yadda qalan hissələri bir andır ki, o da həyatımızdan axıb gedir. Elə qum saatı kimi. Xırda dənələr incə-incə tökülərkən zamanın necə xərcləndiyini sanki insana sübut etməyə çalışır. Ömür də belədir. Ən kiçik anlar birləşərək dəqiqəyə, saata, günə , həftəyə, aya və ilə çevrilir. Lakin nədənsə bizə elə gəlir ki, baş verən hadisələr hansısa gün və ya hansısa ildə yaşanmışdır. Əslində isə yaşanan ən yadda qalan hadisələr kiçik anlar daxilində baş verir. İnsan həyatında yaşanan xoşbəxtlikdə, bədbəxtlikdə bir andır. O anın hökmünün qərarı ilə davam edən həyatdır. Dəyişəcək nə varsa hamısı bir anın partlayışı ilə sıçrayır, ətrafa dağılır. Bir anın qərarı taleyin gələcək izini çəkir. Damlası ilə göl olan, körpəsi ilə qəhrəman yetişən , tarix yazan, qocasının gözündə bir an olan gənclik , bir anlıq dəyişən dünya, ömür, xəyallar , arzular və arzuların sonu, hər suala cavab tapan bir anlıq fikir, ideya , qorxunun həyacanı, faciənin məğlubiyyət xəbəri , sevinc zirvəsinin bir anlıq zəbti, doğmanın yadlaşması, yadın doğmalaşması, şübhənin ağılı - birdən , anlar içində böyüyən , dəyişən zaman və ömür yolu ...

Bəli, həyatda hər hadisə birdən yaşanır və yaddaşlarda bir anın izi ilə qalır. Dünya ədəbiyyatında obrazların keçirdiyi hisslər zənciridir hadisələr. Hisslər insan daxilinin psixologizm ilə vəhdət təşkil edir. Hayqırtı və əzablar, məğlubiyyət və qalibiyyət, məhəbbət və nifrət bütün bunlar zamanın möhür vurduğu bir anın gercəyi və insan psixologizmidir. Psixologizmin insanın daxili dünyasını fəth edən bir vasitə kimi üstünlüyünü göstərən pillə - A.P.Çexovun yaradıcılığı hesab olunur. Çexov psixologizmi həm cəmiyyətin, xalqın, millətin, həm də ayrıca fərdin

dünyasına köklənmişdir. Buna görə də insanın real həyatda, ictimai-siyasi mühitdə mənəvi ağrılarını, düşüncə və problemlərini əks etdirə bilir. Anilik, anilikdən doğan təəssürat Çexovun psixologizminə impressionizmdən sirayət etmiş xüsusiyyətdir. İnsanın emosional vəziyyətdən asılılığı, ümumi dəyərinin anilikdən görünməsi yazıçının psixologizminə ayrıca səpki verir. Obrazın daxili həyəcanını təqdim edən yazıçı kənara çəkilir. Oxucu bu hisslərlə baş-başa qalmaqla özü psixologizmin dərinliklərinə varır. Çexov insanın donuq görkəminin yox, görünməz, nəzərə çarpmaz hisslərin portretini çəkirdi. Çexov çox gözəl anlayırdı ki, insan həyatı nəinki bir anlıq verilən qərarlardan hətta, insanın daxilində keçirdiyi, lakin gizli qalan bir anlıq hisslərdən asılıdır. Bu hisslər insan psixologiyasında yer tapır və nə vaxtsa meydana çıxmaq üçün məqam, an axtarır. İnsan mahiyyətcə nisbi varlıqdır. Hadisələr onu haldan-hala, şəkildə-şəkilə sala, dəyişə bilər. Hətta insan bir anın verdiyi hökm ilə gələcək illərinin taleyini həll edir. Təbii ki, bu qərarın aniliyi də ətraf mühitin təsiri ilə və ya təziqi ilə yaranır. Demək alınan mənəvi əziyyətə cavabdeh mühitdir. Lakin günahkarın kim olmasından aslı olmayaraq bu fərdin tək daşıyacağı yüküdür. Və fərdin əziyyətidir, taleyidir. Günahkar cəmiyyətə günahkarcasına cavab verən günahsız insan öz fikir həlqəsindən çıxaraq başqası olmağa can atır və ya buna məcbur qalır.

Erix From qeyd edir: "İnsanın daxilində olan zalımlıq onun yaradılışından mövcuddur." (1, c. 102) Müəyyən dövrlərdə, din və ya cəmiyyətin qanunlarında bu zalımlıq başqa səmtə yönəldilib. Amma bu zalımlıq özünü hardasa büruzə verməlidir. İnsan humanizm nümayiş etdirərək, humanizmin yüksək həddində sanki səbri daralaraq zalımlaşır. İnsanın qədim dövrdən bizə məlum olan "ağıllı insan" mifi dağılaraq yeni insan modeli yaranır. Bu dövr insanın yeni konsepsiyaları istər bədii ədəbiyyatda, istər rəssamlıq və heykəltaraşlıqda işlənməyə başlandı. İnsan xarakteri daha dərin qatlara enərək geniş şəkildə öyrənildi. Eləcə də, psixologizm daha çox inkişaf etməyə başladıqca psixoloji janrın uğurları da artdı. Avropa, Amerika, Şərq və Latın Amerikası romanının yeni-yeni nailiyyətləri bunu əyani nümayiş etdirdi.

A.P.Çexovun "Yuxum gəlir" hekayəsində Varya gün ərzində ev işlərini görür, qonaqları qəbul edir, sahibəsinin tapşırıqlarını yerinə yetirir və uşagı saxlayır. Axşam olanda isə uşaq onu yatmağa qoymur. Əsəbləri zara gəlir və dəli kimi gözünə atası görünür. Uşaq isə elə hey ağlayır. "Sobada çəyirtkə səslənir: tavadakı yaşıl ləkə, tuman və əskilərin kölgəsi yenə Varyanın yarıqapalı gözlərinə girir və başını dumanlandırır. Uşaq ağlamaqdan çatlayır." (2, s. 305) Varya onu narahat edən, yaşamağa mane olan qüvvəni axtarır, tapır. Qəhrəman anlayır ki, bu körpədir. "Bu düşmən – uşaqdır. Gülür. Onun üçün təəccüblüdür, bu vaxta qədər necə olub ki, bu cür boş bir

şeyi başa düşməyib. Yaşıl ləkə də, kölgələr də, çəyirtkə də, deyəsən, gülür, heyrət edirlər. (2, s. 305) Yazıçı insan psixologiyasına uyğun olaraq hadisələri cərəyan etdirir. Oxucu ətrafdakı əşyaları, mənzərəni öz şüuru və hissləri çərçivəsində duyur, izləyir. A.P.Çexov hekayədə qəhrəmanın gərgin vəziyyətini onun son lakin bir anlıq qərarı ilə əlaqələndirir. Varya sahibəsi tərəfindən verilən ev işlərinin əziyyətlərə dözür və onun ruhi vəziyyəti tap gətirməyərək onu qatıl edir. Bu hadisəyə bir anın psixoloji cavabı idi. Bir anın yaratdığı hadisə gələcək üçün cizilmiş qaranlıq tale idi. Bu qəhrəmanın gənclik işığının sönməsi idi.

"Firəng üzümü" hekayəsi (1898) bütün ömrünü mülk və bağ salmaq arzusuna həsr etmiş, həmin bağda firəng üzümü əkmək eşqilə alışıb-yanan sadə bir rus insanının həyatından söz açır: "Axşam çay içəndə aşpaz qadın bizə bir boşqab dolusu firəng üzümü gətirdi. Bu bazardan alınmamışdı, kollar basdırıldıqdan sonra ilk dəfə dərilmiş məhsul idi. Nikolay İvanıç güldü və gözü yaşarmış halda dinməz durub bir dəqiqə firəng üzümünə baxdı. O, həyəcandan danışa bilmirdi. Sonra meyvədən birini ağzına qoydu və sevdiyi oyuncağı nəhayət, əlinə alan uşaq kimi sevinərək mənə baxıb dedi:

- Gör necə dadlıdır!

Firəng üzümü bərk və turş idi, lakin Puşkin demişkən,"həqiqət qaranlıqları bizim üçün təntənəli yalandan əzizdir". (3, s. 400)

Hekayədə həqiqətən də "həqiqət" vardır: insan xoşbəxtliyin dadını dadmışdır. O, həyatda istədiyini almış, arzuladığı mövqeyə çatmışdır.

Çexovun "Rotşildin skripkası" hekayəsində (1894) də ailə istisi və ayrılığından söhbət gedir. Tabut düzəldən Yakov Matveiç İvanov yalnız arvadı Marfa İvanovnanın ölümündən sonra həyatında onun yerini bir anın içində dərindən duyur: "Yenə də yadına düşdü ki, bütün ömrü boyu bir dəfə də olsun Marfaya acımamışdır, ona mehribanlıq etməmişdir. Bir daxmada yaşadıqları əlli iki il çox uzun sürmüşdü. Ancaq necə olmuşdusa bu müddət ərzində o bircə dəfə də Marfa haqqında düşünməmişdi, ona fikir verməmişdi, sanki o adam deyil, bir pişik idi, ya it idi... " (3, s. 204) Yakovun kədəri göz yaşlarına çevrilir, çaldığı skripkada əks-səda verir; ölümündən sonra isə Rotşildə bağışladığı həmin skripkada qəmli həyat nəğməsi kimi yaşayır.

Yazıçının satirasında da bir anın gözlənilməz stuasiyası daxilində dəhşətin qəh-qəhələrini eşitmək mümkündür. "Uduşlu bilet", "Almadan ötrü", "Adaxlı" kimi hekayələri bu silsilədəndir.

Çexovun əsərlərində bir çox hallarda hadisə adına heç nə baş vermir və heç nə dəyişmir. Onun əsərlərində obrazlar arasında konfliktə nadir hallarda rast gəlinir. Çexov yazırdı ki insanın gündəlik arxayın güzəranı içində gözə çarpmayan faciələr baş verir. (3, s. 5) Onun qəhrəmanları gündəlik həyatlarında baş verən hadisələrin faciəviliyini faciə

kimi deyil, məişət hadisəsi kimi yaşayırlar. Lakin bu faciəvilikdə insan həyatının əzablarını yazıçı dolaşıq, aydın olmayan fəlsəfə ilə deyil, sadə dil ilə, bəzən də lirik notlarla təsvir edirdi. Çexov sanki bir həkim kimi insan psixologiyasının incəliklərini və obrazların mənəvi əzablarını görür. Psixologizm insan həyatı və xarakterinin dərinliklərini əks etdirmək vasitəsi olmuşdur. Psixologizm söz deyil, duyğudur, reallıqdır, insan həyatının anlarıdır. Qəhrəmanın düşdüyü vəziyyət və ondan çıxış yollarının tapılması anlarla izlənilir.

"Ədəbiyyat müəllimi" hekayəsində Nikitin son ana qədər öz həyatından razı birisidir. Evlənəndən sonra o günə qədər görmədiyi həyatın dadını çıxarır. Həyat yoldaşının ailə ocağını necə qoruduğunu, təsərrüfat işlərini necə qurduğunu görmək və hər şeydən arxayın olmaq ona yaşamaq zövqu verir. Elə ki, günlərin birində klubda uduzduğu on manatı yoldaşına verərkən "Nikitində pul xəzəl kimidir" sözünü eşidir, şanslı evliliyinə işarə kimi qəbul edib, öz xoş, rahat həyatı haqqında düşünməyə başlayır. Nikitin artıq ətrafdakı insanlara başqa cür qiymət verir. Evdə həyat yoldaşı ilə söhbət ona pis təsir edir. Hətta təklikdə özünü arvad da adlandırır. Nikitin gündəliyində yazırdı: "Aman Allah, mən hardayam! Bayağılıq, dörd tərəfimi tutub. Miskin, darıxdırıcı adamlar, xama dolu bardaqlar, süd dolu küpələr, səfeh qadınlar.... bayağılıqdan daha təhqiramiz, daha dəhşətli, daha darıxdırıcı heç bir şey yoxdur. Burdan qaçmaq, elə bu gün qaçmaq lazımdır, yoxsa mən dəli olacam".(3,231)

Azadlığını üstün tutan qəhrəman sosial çətinlikləri olan cəmiyyətdə bir an içində ona söylənilən həqiqət ilə barışmayıb qurduğu ailədən imtina edir. Gercəklik adi söz daxilində ona çılpaqlığı ilə bir anın içində eybəcər görünür.

6 nömrəli palata hekayəsində Andrey Yefimiç özü haqqında gercəklər haqqında belə düşür : " Mən zərərli bir işə xidmət edirəm, aldatdığım adamlardan maaş alıram mən namuslu adam deyiləm. Ancaq öz-özlüyümdə mən axı bir heçəm, yalnız zəruri ictimai bəlanın bir zərrəsiyəm: bütün qəza məmurları pisdirlər, ziyanlı adamdırlar və müftə maaş alırlar... Demək öz namussuzluğuma müqqəssir mən deyiləm zəmanədir ... İki yüz il bundan sonra dünyaya gəlsəydim, başqa adam olardım ." –deyərək özünə sanki haqq qazandırmış olur. (3 ,Səh 137)

Xəstəsi olan İvan Dimitriç eyni həqqiqətləri ona deyərkən həkim cəmiyyətdə ağıllı və maraqlı müsahibə yodaşı tapır. İvan Dimitriç deyir: Siz atanızın qanadı altında böyümüş və onun hesabına oxumuşsunuz, sonra birdən –birə işi az, maaşı çox olan qulluğa girmisiniz. İyirmi ildən artıq yanacağı, işığı, qulluqçusu olan havayı mənzildə yaşamısınız və istədiyiniz kimi, istədiyiniz qədər işləmək hətta heç işləməmək hüququna maliksiz. Siz təbiətçə tənbəl və və lırt adamsız, ona görə də həyatınızı elə qurmağa

çalışıbsınız ki, sizi heç bir şey narahat eləməsin. İşlərinizi feldşerə və ya başqa yaramaz adamlara təhvil verib, özünüz isti və sakit bir yerdə oturmusunuz, vaxtınızı pul toplamaqla və cürbəcür yüksək mənasızlıqları düşünməklə keçirmisiniz. İztiraba nifrət bəsləməyinizin və heç bir şeyə heyrətlənməmənizin səbəbi isə olduqca sadədir: mənasız fikirlər və qayğılar, həyata iztirablara və ölümə xaricən və daxilən nifrət bəsləmək, həyatın mahiyyəini dərk etmək cəhdləri, həqiqi nemət – bütün bu fəlsəfə Rusiya tənbəlləri üçün ən əlverişli bir şeydir. " (3,səh 147)

Təbii ki, bu söhbət həkim Andrey Yefimiç kimi insan üçün bir tapıntı idi. Zaman keçdikcə həkim xəstə arasında olan yaxınlıq baş verir. Həqiqət yalana çevrilib ətrafdakıları həkimin dəli olması qənaətinə gətirir. Lakin hər şey sadə idi. Andrey Yefimiç düşündüklərinin cavabını xəstəsi İvan Dimitriçin mühakimələrində tapırdı. Bu bir anın tapıntıısı faciəvi sonluqla tamamlanır. Həkim insanlar tərəfindən dəli adlandırılaraq 6 nömrəli palataya gətirilir və dünyasını dəyişir. Göründüyü kimi A.P.Çexovun hekayələrində bir anın hökmü, stuasiya daxilində hiss-həyacanlar, faciəvi ömür tarixçəsi vərəqlənir.

A.P.Çexovun yetkin dövr hekayələrində modernizm əlamətləri qabarıq təsvirini vermişdir. Bunun xüsusiyyəti odur ki, yazıçı sosial-zümrəvi cəhətləri arxa plana keçirərək, diqqətini bilavasitə insan, insani mahiyyətlər üzərində cəmləyir. Bu isə milli insanın daha da dərində gizlənmiş xasiyyətlərinə ayna salır.

Çexovun rənglərində həyatın hər üzü var. Yalnız lirika, faciəvilik, dramatizm deyil, duyğuların hər çaları - laqeydlik, hərsilik, qibtə, tamahkarlıq, qəzəb, sevgi, nifrət və.s də Çexov qəhrəmanlarının daxili dünyasına pəncərə olur. M.X. Xrapşenkinun fikrinə görə, gerçəkliyin müxtəlif hadisələrin təsvirinin assosiativ üslubu "həyatın təsvirinin imperessiotiv başlanğıcı ilə" sıx bağlıdır. (4, s 91)

Stanislavski yazır: " Çexov –tükənməzdir, adətən təsvir etdiyi bir şeylərə baxmayaraq , o daima əsas, mənəvi leymotivində təsadüfü, xüsusi bir hadisədən deyil, böyük hərflə yazılacaq bəşəri bir hadisədən bəhs edir. (5, s.36)

"Qara rahib" hekayəsində Kovrinin gözünə bir an içində görünən xəyal ilə həyatının alt-üst olması, onu sevən qadına və atasına qarşı haqsızlığı, cəmiyyətdən kənarlaşması və sonda tək, yalnız vəziyyətdə dünyasını dəyişməsini göstərməklə, yazıçı insan fikirlərinin psixologiyaya təsir gücünü göstərmiş olur. İnsanın ruhi vəziyyəti nəinki bir günü eləcədə insan taleyi həll etmək iqtidarındadır. Məhz adi hadisələr daxilində bəşəri ideyalar mövcudluğu A.P.Çexov yaradıcılığının əsas xüsusiyyətidir.

Çexov yığcam, lakonik hekayələrində, rus realizminin ən mükəmməl roman və povestlərində olduğu kimi, cəmiyyətin ümumi mənzərəsini, toplu

portret və psixologiyasını da yarada bilir. İlkin yaradıcılığında yazıçı insan-cəmiyyət əlaqələrini konkret əhvalat və süjetlərdə açmağa üstünlük verirsə, əhvalatlar üzərində deyil, qəhrəmanların həyat tarixçəsi, hekayəti üzərində qurulan yetkin dövr hekayələrində insan-cəmiyyət münasibətlərinin daha dərin incəlikləri təsvir olunur. A.P.Çexovun ironiyası bütovlükdə cəmiyyətə qarşı yönəlmişdir. O, obrazlarla oxucu arasında əlaqəni insan psixologiyasının bədii portretlərini yaratmaqla əldə edir.

Ədəbiyyat siyahısı:

1. Фромм Э., Анатомия человеческой деструктивности, Минск 1999, с. 102
2. Çexov A.P., Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1987
3. Çexov A.P., Seçilmiş əsərləri. Bakı: Öndər nəşriyyatı, 2005, 432 s.
4. Кулиева Р.Г., Реализм А.П.Чехова и проблема импрессионизма. Баку, Элм, 1988
5. Rəfili Mikayıl, Anton Pavloviç Çexov. Bakı: 1944

Т.Исмаилова

Психологическая трагедия одного мгновения в творчестве Антона Павловича Чехова

Резюме

В художественной литературе взаимоотношения характеров раскрываются внутри событий. Но видный представитель русской литературы Антон Павлович Чехов представляет пережитые события в одно мгновение, раскрытием правды. Эта правда происходит внутри простых и мгновенных ситуаций. Ситуация, возникшая в одно мгновение, может содержать всю жизнь героя. А также писатель с помощью ситуации, в которую попал образ, преувеличивает его особенности, оставшиеся под сознанием, а также особенности, в которых ему трудно признаваться. И разоблачает его лицемерный облик. Правда А. П. Чехова – реалистичная. Она есть сама жизнь читателя. Именно по этой причине творчество А. П. Чехова становится родным не только для русской литературы, но и для мировой литературы. Внимательное наблюдение за жизнью, выдвинуть влияние простых, ежедневных событий, беспокоящих психологию человека, на его существование – все это составляет общую характеристику произведений Чехова.

T.Ismailova

Psychological tragedy of a moment in the creativity of Anton Pavlovich Chechov

Summary

Mutual relationships between characters are reflected in events in fiction. But outstanding representative of the Russian literature Anton Pavlovich Chekhov presents the events to readers in a moment by disclosing the truths. These truths occur simply in momentary situations. The situation that occurs in a moment can also include the life of hero. The writer expands the characteristics of the character which are subconscious and the character has difficulty to confess with the aid of the situation. So, he disgraces the insincere image. The realities of A.P.Chekhov are real. They reflect reader's real life. That's why the activities of A.P.Chekhov is native not only to Russian literature, but also to world literature. Observing the life attentively, promoting the impact of simple, daily events that disturb human psychology to reality account for general character of Chekhov works.

Rəyçi: Cəlil Nağıyev
filologiya elmləri doktoru, professor

ŞÖLƏ ALLAHVERDİ
Xarici ölkələr ədəbiyyatı kafedrası
shole_mah@yahoo.com

TOM STOPPARD DRAMLARININ BAŞLICA XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: İngilis ədəbiyyatı, dramaturgiya, Şekspirin qəhrəmanları, minoritar teatr
Ключевые слова: Английская литература, драматургия, герои Шекспира, миноритарный
театр
Key words: Endlish literature, drama, Shakespeare's heros, minority theater

XX əsrin ikinci yarısından etibarən İngilis ədəbi mühitində, xüsusilə də dramaturgiya sahəsində yeni istiqamətlər inkişaf etməyə başladı. Həmin dövrdə hələ də ənənəvi istiqamətdə dramatik əsərlər yazılırdı: poetik dram (K. Fray), fantastik elementləri olan satirik komediya (P. Ustinov), tarixi-əxlaqi dram (E. Bond), ictimai-psixoloji dram (D. Stori), eleqant, kommersiya məqsədli pyeslər (P. Şiffer). 50-ci illərin ortalarında artıq yeniliklər baş verdi. İngilis dramaturgiyasına "Yeni dalğa" adı altında bir çox dramaturqlar gəldi (C. Ozborn, Ş. Dileni, B. Bien, A. Uesker, C. Arden). Ədəbiyyatda onları "Qəzəbli cavanlar" da adlandırırdılar. Bu yazarlar sosial, dövrü tərəfindən verilən vacib suallara cavab verməyə çalışırdılar. Bu yazarların əsərlərindəki baş qəhrəmanlar sadə, adi insanlar, əsas mövzu onların gündəlik, çətin həyatları idi. Bu əsərlərdə naturalizmdən başlayaraq satiraya qədər bir çox janr müxtəlifliyinə rast gəlinirdi.

60-70-ci illərdə bu yeni cərəyana yaxın olan, bu yazarlarla eyni vaxtda üzə çıxan bir neçə dramaturq da var idi ki, bədii işlərində tam fərqli yol tutmuşdular. Onlar bu istiqamətdə yaradıcı, estetik problemlərin dünyəvi tendensiyalarından söz açırdılar. Söhbət ingilis bədii ənənlərinə elə də xas olmayan absurdizm cərəyanından gedir ki, N. Simpsonun alleqorik farslarında da buna rast gəlmək olur. Bu təmayüllü ideyalar daha çox H. Pinter, A. Eykbornun yaradıcılığında açıq-aydın görünür. Burada ən xüsusi yerlərdən birini də Tom Stoppard tutur.

Tom Stoppard (Tomaş Ştraussler) 3 iyul 1937-ci ildə Zlin (Çexoslovakiya) şəhərində anadan olmuşdur. II Dünya müharibəsinin başlanğıcında Ştraussler ailəsi Sinqapura köçür. Yaponiyanın müharibəyə qoşulmaq təhlükəsindən ehtiyat edən anası Marta Ştraussler 2 oğlu ilə Hindistana qaçmalı olur. Onun atası Evjen Ştraussler həkim işlədiyi firmanın digər işçiləri ilə birgə Sinqapurdan çıxa bilmir və şəhərin istilası zamanı

həlak olur. 1946-cı ildə Tomaşın anası ikinci dəfə Britaniya ordusunun mayoru Kennet Stopparda ərə gedir və onunla İngiltərəyə köçür. Öz soyadını Toma verən Kennet onun tərbiyəsi ilə məşğul olur, özəl internat məktəblərdə oxudur (Nottinqemşir və Yorkşirdə). 1954-cü ildən Tom jurnalistika ilə məşğul olmağa başlayır. 1960-cı ildə Londona gələn dramaturq radio və televiziya üçün pyeslər yazır və Vilyam But təxəllüsü ilə teatr tənqidçisi kimi işləyir. 1966-cı ildə yazdığı "Rozenskranç və Qildenstern ölüdürlər" ("Rosencrantz and Guildenstern Are Dead") pyesi onu çox məşhur edir. Bu əsərinə görə dramaturq ABŞ-ın ən yüksək teatr mükafatına ("Toni") layiq görülür.

1970-ci ildən T. Stoppard siyasi fəaliyyətə başlayır və Beynəlxalq Amnistiya təşkilatının üzvü olur.

1983-cü ildə Stokholmda qeyri-rəsmi çex müəllifləri arasında T. Stoppard adına mükafat təsis olunur. 1998-ci ildə "Aşiq Şekspir" ("Shakespeare in Love") filminin ssenarisinə görə T. Stoppard "Oskar" mükafatına layiq görülür. 2000-ci ildə dramaturq İngilis şahzadəsi II Yelizaveta tərəfindən "Xidmətlərinə görə" Böyük Britaniya ordeni alır və "cənab Tom" adını qazanır.

T.Stoppardın "Rozenskranç və Qildenstern ölüdürlər" əsərini həm ekzistensial dram, həm də XX əsrin "xırda adamları" haqqında tragikomediya adlandırırlar. Ümumiyyətlə, T. Stoppard üçün Şekspir əlçatmaz bir ideal, bitməyən ilham mənbəyi və daima tədqiqat obyekti olmuşdur. Şekspirə məxsus obrazların postmodernist dekonstruksiyası yolu ilə dramaturq nəinki öz istedad və fərasətini nümayiş etdirməyə müvəffəq olur, hətta bu mənbəyin potensialını, böyüklüyünü aşkara çıxarır. Bu minoritar teatrın Stoppardsayağı bir nümunəsidir. Bu anlayış postmodernist dramın bir şəklidir, bir əsərin ikinci dərəcəli obrazının (ing: minor character) digər əsərdəki baş obraza ötürülməsi üsuludur. "Hamlet" faciəsinin motivləri əsasında yazılan bu pyesin də diqqət mərkəzində Şekspirin orijinal əsərində ikinci dərəcəli obrazlar olan sadə dostlar Rozenskranç və Qildenstern durur, belə ki, pyesin mahiyyətini onların qəribə və qayğılı görüşləri və izahları təşkil edir. Hər halda öz adlarını dəyişik salan, ilkin və ikinci dərəcəliliyi bir-birindən ayıra bilməyən, hadisələr arasındakı səbəb-nəticə əlaqəsini qura bilməyən bu ağılsız dostları dramaturq öz şəxsi fəlsəfi ideyalarını göstərmək üçün seçib. T. Stoppardın fikri bu idi ki, onların müdaxiləsilə bizim yaddaşımızda müasir dövrü əks etdirsin. Dövrün digər yazarları istifadə etdikləri bu mövzuya belə ad qoymuşdular -"balaca adam və onun taleyi". Şekspir və digər klassiklərin yaratdıqları dahiyanə baş obrazlardan fərqli olaraq Stoppard və müasirləri mənən cılız insanların xarakterlərini və talelərini açıb şərh edirlər. Bəlkə də onları göstərməklə Stoppard demək istəyirdi ki, dövr özü də cılızlaşıb ki, onun qəhrəmanları da xırdalıb və ona

görə də artıq əsərlərin qəhrəmanları bu xırdalmış, cılızlaşmış ikinci dərəcəli obrazlar olur. Nəticədə bizim qarşımızda ekzistensial motivlərlə dolu olan, çoxlu mətnaltı mənası olan ədəbi əsər durur. Hər halda T. Stoppard öz stili, fərqliliyi ilə ədəbiyyatda və səhnədə öz yerini tapmışdır. İlk dəfə Edinburqdakı Beynəlxalq Eksperimental teatrlar festivalında nümayiş etdirilən bu pyes bəlkə də buna görə bir il sonra Londonda, Böyük Britaniya Milli Teatr səhnəsində oynanıldı. Uzun illər keçdikdən sonra T. Stoppard bu debüt əsərini heç unuda bilməmişdi və məhz bu əsərlə daha bir yeniliyə əl atdı. 1990-cı ildə T. Stoppard dünya tamaşaçıları qarşısına kinorejissor kimi çıxdı və bu pyes əsasında film çəkdi. Bu film o qədər sevildi ki, Venetsiya festivalında "Qızıl şir"-kinomükafatına layiq görüldü.

1968-ci ildə dramaturqun 2 əsəri eyni vaxtda nəşr olunur. "Azad insan daxil olur" ("Enter a free man") və "Həqiqi inspektor Haund" ("The Real İnspector Hound"). Əslində "Azad insan daxil olur" pyesi T.Stoppardın debüt əsərindən qabaq yazılmışdı, lakin nəşr edilməmişdi.

70-ci illər T. Stoppard üçün daha məhsuldar və rəngarəng olur - "Maqrittdən sonra" ("After Maqritt"-1971), "Hoppananlar" ("Jumpers"-1972), "Pillələrlə enən ustad" ("Artist Descending a Staircase"-1973), "Travesti" ("Travesties"-1974), "Gecə və gündüz"("Night and day"-1978). T. Stoppard öz pyeslərində özünün istehzalı, paradoksal ağlının hökmranlıq etdiyi xüsusi dünya yaradır və bu əsərlərdə hər bir cəhətdən orijinallıq hiss olunur. Belə ki, "Travesti" pyesi intellektual əsərdir, "Gecə və gündüz"-ironik dramdır, "Həqiqi varlıq" ("The Real Thing"-1982) - sevgi haqqında, lakin psixologizmlə dolu olan pyesdir, demək olar ki, avtobioqrafiyadır. T. Stoppard yazdığı ilk əsriylə Şekspirə doymamışdı və 1979-cu ildə daha bir əsərini "15 dəqiqəlik Hamlet" ("15 Minute Hamlet"-1979) pyesini yazır. Dramaturq bu əsərlərində akrobatlarla filosofları ("Hoppananlar"), Uayldla-Şekspiri, Leninlə-Coysu qarşı-qarşıya qoyur. Sanki ona zövq verir ki, insanları təəcübləndirsin, çaşdırsın, onları çətinliyə salsın, əsərlərindəki situasiyalarla oxucunu labirintə salsın ki, çıxışı tapmasınlar və hər dəfə doğru yolu tapdığını fikirləşəndə səhv etmiş olsunlar. Əvvəl yaratdığı əsərlərində dramaturq daha sadə obrazlar yaradırdı. Belə ki, Linda ("Azad adam daxil olur") konkret bir şəxs haqqında (atası haqqında) belə sözlər işlədir: "Hər kəs belə yaşayır - ikiüzlü. Biri ev üçündür, digəri kiminsə üçün. Bəlkə belə də olmalıdır. Bəlkə insanın iki üzünün olması vacibdir?" (3,3) Sonralar T. Stoppard daha fəlsəfi, qəliz obrazlara (əkizlər motivinə) əl atır, şəxsiyyətin çoxluğuna, onun əks dəyişikliyinə və dağılmasına maraq göstərirdi.

1982-ci ildə yazdığı "Həqiqi varlıq" əsəri və yaratdığı baş obrazı ilə T. Stoppard onu parodiyaçı kimi tanıyanlara gözlənilməz gələcək. Bunu onunla da izah etmək olar ki, sadəcə hər bir həqiqi sənətkarın həyatında elə

bir an yaranır ki, maskanı soyunmaq və öz "sözünü" demək ehtiyacı duyur. Onun yaratdığı baş obraz, bəzilərinin dediyi kimi bu dünyada sonuncu romantik insan olan yazıçı Henri gülməli və dəbsiz görünməyindən qorxmayaraq öz hissləri barədə belə deyir: - "İnsanı sevmək, onu ən pis dəqiqələrində sevmək deməkdir. Əgər bu romantikdirsə, qoy hər şey romantik olsun - sevgi, iş, musiqi, ədəbiyyat, məsumluq və onun itirilməsi..... Mən insanın daxili qarışıqlığını, göz yaşını, iztirabını, fədakarlığını, öz mənafeyini itirməsini olduğu kimi sevirəm. Düşünməmək, qayğısız yaşamaq sevməmək deməkdir"(3,4). Bəli, bu sözlər ən yüksək aktivliyin və romantikliyin vəhdətidir. Bu tip estetik fikirlər dramaturqun 70-ci illərin sonu 80-ci illərin əvvələrində yazdığı əsərlərin bəzi məqamlarında da üzə çıxır. Belə ki, T. Stoppard Beynəlxalq Amnistiya təşkilatının üzvü kimi getdiyi Şərqi Avropa ölkələrində gördüklərini qələmə alır. Bu dissident əsərlərdən biri olan "Hər yaxşı oğlan xeyirxahlığa layiqdir" ("Every good boy deserves Favour" 1977) əsəridir ki, burada Brejnev dövrünün sovet dissidentlərinin talelərindən söhbət gedir. (Hadisələr dəlixanada cərəyan edir). T. Stoppard həmin il yazdığı "Professional tryuk" adlı digər əsərini Çexiyada tanış olduğu müxalif yazar V. Qavelə həsr edir. Onun sonrakı əsəri "Şifrələnmiş Hamlet və Maqbet" ("Doggs Hamlet and Cahoot`s Maqbet"- 1979) bu əsərlə dilogiya (eyni ideyalılıq) təşkil edir. Məhz o dövrdə (indi bu, tarixə çevrilib) bu cür dissident əsərlər yazmaq özü həyatın bir sınağı idi və bunları yazmaqdan boyun qaçırmaq olmazdı. Söz-qüdrətli olmağa qadirdir, etirazın özünəxas əlamətidir.

1990-cı ildə T. Stoppardın öz əsərinə film çəkməsi, öz stilini, imzasını göstərməsi, ekranda təcəssüm etdirməyi bacarması, ümumiyyətlə, teatr dramaturqunun kinorejissora çevrilməsi unikal bir hadisə idi. Çünki T. Stoppard bu sahədə ilklərdən idi. Bundan sonra çoxları bu yolu izləyəcəkdi.

1993-cü ildə T. Stoppard digər məşhur əsərini yazır - "Arkadiya" ("Arkadia"). Əsər Moskvada tamaşaya qoyulan zaman ingilis teatrını öz qələmi ilə addım-addım izləyən tənqidçi Maykl Billinqtonun bu tamaşa barədə söylədiyi fikirlər kifayət edər ki, bu əsərin necə şahanə bir yaradıcılıq ünsürü olduğu anlaşılsın: "Son illərin ən təmtəraqlı əsəridir. Hadisələr 19-cu əsrin əvvəli və bugünümüzdə ingilis malikanəsində cərəyan edir... Müəllif oxucuya çatdırmaq istəyir ki, insan əbədi deyil və öz gələcəyini görə bilmir. Sanki müəllif artıq həyatın tez ötüb keçməsi ilə, insan taleyinin dəyişkənliyi ilə barışıb. Lakin bu dünya nə qədər ağırlaşsa da onun üçün həyatda nə isə xüsusi bir cazibə, gözəllik var. Stoppardın əsərində şübhəsiz bir humanistik başlanğıc var və bu da bizim cəmiyyətimizin həyatında və şüurunda vacib olan nəyəsə toxundu və onun yaralı yerini üzə çıxartdı" (3,5).

Öz rəylərində, fikirlərində T. Stoppard Böyük Britaniyanın müstəmləkə siyasətinə estetika və poetikaya göstərdiyi maraqdan daha az həssaslıq göstərir. O, düşünmür ki, zalım ingilis ordusu Hindistan torpaqlarına basqın edib, hind xalqını qırıb və sonradan onlar tərəfindən qovulublar. Dramaturq üçün o vacibdir ki, hind cəmiyyəti ingilis dilində danışır və əgər Böyük Britaniyanın işğalı olmasaydı, Hindistan azadlıq üçün heç vaxt birləşməyəcəkdi və dağılmış yarımada kimi qalacaqdı. Lakin onun 1995-ci ildə yazdığı "Hind mürəkkəbi" ("İndian İnk") əsərinin əsasını "Gecə və Gündüz" əsərində olduğu qədər siyasət təşkil etmir. Əsərin mərkəzində baş qəhrəman qadın və onun məhəbbəti durur. Ümumiyyətlə, əsərdə hadisələr həm zaman, həm də yer dəyişikliyinə uğrayır. Belə ki, Flora Kryu - ingilis şairəsi XX əsrin 30-cu illərində yaşamış, sağlığında elə də məşhurlaşmamışdı. Lakin dramaturq onu əsərinin baş qəhrəmanı etmək qərarına gəlir. Pyesdə şairə sağlamlığı ilə bağlı olaraq İngiltərədən Hindistana köçür, orada bir milliyyətçi hindli rəssama aşiq olur və sevgi macərası yaşayır. Ölümündən çox illər sonra 1980-cı ildə bu rəssamın Londonda yaşayan və ingilis qızla evli olan oğlu vəfat etmiş şairənin bacısının yanına gedir. Bacısı da Floranın qəbrini ziyarətə gəlməyinin nəticəsində yeni həyata başlayır. Bununla da müəllif əsəri bitirir, o əsəri ki burada əsrlər, məkanlar, mədəniyyətlər bir-birinə nüfuz edir, yaxınlaşır. "Hind mürəkkəbi" pyesi T. Stoppardın ən lirik və poetik əsərlərindəndir. Təkcə ona görə yox ki, əsər baş qəhrəmanların qısamüddətli sevgilərindən söhbət açır, klassik hind sevgi sujetlərinə bənzəyir, əsər boyu şeirlər (şairənin öz şerləri) səslənir, həm də ona görə ki, romantik sujet şərhlərin, interpretasiyaların, verilən qiymətlərin arasından qalxmağa, sevilməyə imkan tapmışdır.

Bir çox tənqidçilərin ağlına belə gəlməzdi ki, T. Stoppard hələ ən dahi əsərini sonralar, fikirlərinin, duyğularının ən dolğun zamanında yaradacaqdı. Həqiqətən 2002-ci ildə o özünün həcmcə ən böyük və ən çox məşhurlaşan əsərini yazdı – "Utopiya sahili" ("The coast of Utopia"). Əsər XIX əsrin, xüsusilə 30-60-cı illər arasındakı dövrə, Rus İnqilab Hərəkatının müəyyən mərhələsinə həsr olunmuşdur. 478 səhifədən ibarət trilogiya 3 pyesin birləşməsi əsasında yaranıb. "Səyahət" ("Voyage"), "Gəmi qəzası" ("Shipwrek"), "Sahilə atılmışlar" ("Salvage"). Pyesdə kütləvi obrazları çıxmaq şərtilə qırxdan çox əsas personaj var. Əsas qəhraman Qerçen olsa da, o dövrün bir çox şəxsiyyətləri, rus ziyalıları əsərdə əks olunmuşdur - Belinski, M. Bakunin, A. Puşkin, D. Madzini, K. Marks, Oqarev, Aksakov, Turqenev, Severev, Çaadaev, Çerneşevski və s. Müəllif hətta onların şəxsi həyatlarını belə əks etdirmişdir. Belə görünür ki, dramaturq materiala çox ciddi yanaşıb, tanınmış şəxsiyyətlərin yazılarını, qeydlərini, avtobioqrafiyalarını oxumuş, onların şəxsi həyatları haqqında məlumat

toplamışdır. Bəzi rus tənqidçiləri bu "soyuqqanlı", "duyğusuz" ingilisə çox sağ ol deyirlər ki, ki,onlar vacib işlərindən ayırıb, öz tarixlərini xatırladır. Bəziləri isə belə hesab edirlər ki, T. Stoppard bu tarixi şəxsiyyətləri o qədər istehza və yumorla təsvir etmiş, onların ideologiyalarını elə komik şəkildə vermişdir ki, Rusiyanı tanımayanlar da dövlətin ədəbiyyatı, qəhrəmanları, mənəviyyatı haqqında xoşagəlməz assosiasiyalar yaradır. Amma bu əsər əsasında səhnələşdirilən doqquz saatlıq tamaşaya baxanda yəqin ki, bu yumor hissləri ikinci dərəcəli olur, çünki tamaşaçı diqqətini bu rus titanlarının düşüncələrini başa düşməyə və hiss etməyə cəmləməlidir. Amma tamaşaya baxmaqla bu fəlsəfi-ədəbi əsəri qavramaq çox çətin olar. Hər halda əsəri oxuduqca mövzunu mənimsəmək, onun mətnaltı mənalarını, bərabərlik, azadlıq, ədalət kimi ideyaları aşkara çıxartmaq olar. T. Stoppard rus utopistləri haqqında bu əsəri yazmaqla bütün dövlətlərə vətənpərvərlik, doğma torpaq, milli ruh kimi anlayışları geri qaytarmağa çalışır. Əsər yəqin ki, inqilab etməyəcək, amma oxucuların müəyyən qismi öz vətənlərinin gələcəkləri haqqında düşünəcəklər. Hər halda dramaturq özü buna ümid edir. Belə demək olar ki, bu onun həyat və yaradıcılıq kredosu, əqidəsidir. Özü qeyd etdiyi kimi: "Mən yazıçını müqəddəs hesab etmirəm, amma sözlər mənim üçün müqəddəsdir. Onlar hörmətə layiqdirlər. Lazım olanı götürün, lazım olan yerə və lazımi qaydada qoyun və dünyada nə isə dəyişəcək və uşaqlar sizin misraları, hətta sizin ölümünüzdən sonra da oxuyacaqlar" (4).

Bugün müasir Avropa dramaturgiyasını T. Stoppardsız təsəvvür etmək çətindir.T.Stoppardın pyesləri nə Azərbaycan dilinə tərcümə olunmuş, nə də teatrlarımızda tamaşaya qoyulmuşdur. Məhz ona görə də Tom Stoppardın ədəbi-irsinin öyrənilməsi sahəsində ciddi tədqiqat işlərinin aparılması, onun dərin məzmun, ictimai-fəlsəfi mahiyyət daşıyan dramaturgiyasının öyrənilib Azərbaycan oxucusuna çatdırılması ədəbiyyatımız, ictimai fikrimiz üçün çox əhəmiyyətlidir.

Ədəbiyyat siyahısı:

1. Stoppard T. "Rozencrantz and Guildenstern are dead". London: "Faber and Faber" 1967
2. Stoppard T. "Coast of Utopia" London 2002
3. Юрий Фридштейн. "Розенкранц, Гилденстерн и другие" Издательство "Азбука" Санкт-Петербург, 2000
4. http:// stoppard.ru/index.php
5. http:// users.livejournal.com/arlekin/828339.html?mode=peply
6. www. contemporary writers.com

S.Allahverdi

The main features of Tom Stoppard's plays

Summary

The article deals with the creative activity of Tom Stoppard, the prominent representative of English drama in the XX century. Here the place of the dramatist in the English literature is explored. The important role of the period in the formation of Tom Stoppard as a dramatist is spoken in the article. The influence of Shakespeare's plays, his heros on Tom Stoppard's drama is highlighted.

In the article the author examines some of Stoppard's main plays, reviews the gradual development of author's writing style. The diversity of themes in T.Stoppard's literary activity is analized. Also the relationship between writer's heros and real historical person is explored.

The author explains how Tom Stoppard gives historical persons in the context of modern events. In the article Tom Stoppard's plays are examined from the point of view of modernism and postmodernism. Also the deconstruction of Shakespeare's plays is explosed.

Ш.Аллахверди

Основные особенности драмы Тома Стоппарда

Резюме

В статье рассмотривается творчество видного представителья английской драмы XX века Тома Стоппарда. Исследовается места драматурга в Английской литературе. Говорится о важной роли эпохи в формировании Тома Стоппарда как драматурга. Выделяется влияние произведений Шекспира и его героев на творчество Стоппарда.

В статье автор рассматривает несколко из главных произвидений Стоппарда. Анализируется развитие стиля письма автора. Говорится о разнообразии тем в творчестве Т.Стоппарда. Кроме того, исследуется связь между героями драматурга и реальными историческими персонажами.

Автор рассматривает как Том Стоппард описовает исторических личностей в контексте совроменных событий. В статье автор изучает драмы Тома Стоппарда с точки зрения модернизма и постмодернизма. Дается парафразы Шекспирских образов, их новые интерпритации.

Rəyçi: Aynur Sabitova
filologiya üzrə elmlər doktoru, professor

RƏY

ALLAHVERDI EMİNOV
p.ü.f.d., dosent,
ədəbiyyatşünas, pedaqoq

Naşir, ədəbiyyatşünas, həzin lirik nəsr sahibi və səmimi, xeyirxah şəxsiyyət ***Nadir Məmmədlinin "Alınma terminlər"*** (Bakı, "Elm və təhsil" nəşriyyatı, 2017, 488 səh.) ***kitabı haqqında rəy***

Açar sözlər*:* *metodologiya, termin, aristrax, apologiya, konsepsiya, mahiyyət, determin, sistem, diapozon, vizioner, dispoziviasiya, ekletika, ekstrovert funksiya.*

Məqalədə monoqrafiyanın tədqiqat obyektinin orijinallığına, xarici və milli dilçi alimlərin mövzu ilə əlaqədar irəli sürdükləri mülahizələrə, elmi-nəzəri mühakimələrə aydınlıq gətirilmiş, müəllif mövqeyi təqdir edilmişdir.

Professor Nadir Məmmədli hərtərəfli istedada malikdir: dilçi, naşir, ədəbiyyatşünas, həzin lirik nəsr sahibi və səmimi, xeyirxah şəxsiyyətdir. Bu keyfiyyətləri təsadüfən sadalamadım. Tanışlığım və müşahidəm ötən əsrin 80-90-cı illərinə gedib çıxır. Gənc aspirant, ilk imzalar və "Maarif" Dövlət Tədris Nəşriyyatında ilk nəşr olunan kitabı! Maraqlı deyilmi?! Şəxsən mən bu faktları sadalamaqda qürur duyuram, bu gün elm və poliqrafiya məkanında xarakteri və qabiliyyətilə nüfuz qazanan professor Nadir Məmmədlidən danışıram. Düzü, bu barədə çoxdan düşünürdüm, götür-qoy etmirdim, buna ehtiyac da duymurdum. Xasiyyətimə bələddim: istedadlı və şəxsiyyət bütövlüyünü özündə yaşadan İnsan haqqında söz deməkdən uzaqlaşmamışam, qoy geniş oxucu auditoriyası canlı dəyərlərimizi tanısın! Sadəcə, sosial problemlər niyyətimi gecikdirirdi. Və bir gün Nadir Məmmədli avtoqraf-yadigarı ilə "Azərbaycan dilində alınma terminlər" (Bakı, "Elm və təhsil" nəşriyyatı, 2017, 488 səh.) monoqrafiyasını mənə hədiyyə etdi. Oxuyandan sonra yəqinləşdirdim ki, müəllif əslində bu fundamental kitabı çağdaş dilçilik elminə hədiyyə etmişdir! Və bu əsəri məni bir qədər yaddaşıma apardı: tanıdığım, ünsiyyətdə olduğum görkəmli dilçilərdən Ə.Dəmirçizadə, M.Şirəliyev, S.Cəfərov, A.Axundov, Z.Budaqova, A.Qurbanov, T.Hacıyev, A.Sərxan

dövrünə. Onlardan bəzisi mənim müəllimim olmuşdur. Mühazirələrini dinləmişdim. Nə gözəl insanlar, nə pak pedaqoqlar, nə məhsuldar alimlərdi! Onların davamçı nəsli gəldi: Həsən Mirzəyev, Qəzənfər Kazımov, Nizami Xudiyev, Nizami Cəfərov, Fəxrəddin Veysəlli, Kamal Abdulla, Kamil Vəli Nərimanoğlu, Firudin Cəlilov, İsmayıl Məmmədli, Ə.Rəcəbov. Nadir Məmmədlinin öz yeri qorunur...

Bu monoqrafiyanın dəyərini akademik Nizami Cəfərovun sözlərində aydın görmək olar: "Azərbaycan dilçiliyində bu sahədə aparılmış araşdırmaların, qazanılmış təcrübənin ən mühüm uğurlarını özündə ehtiva edir, mövzuya münasibətdə terminologiyanın ümumnəzəri, metodoloji problemləri səviyyəsinə yüksəldir, praktik lüğətçilik, nəzəri tədqiqatların bilavasiyə yekunu kimi müəllif mövqeyini sistemli şəkildə nümayiş etdirir". Belə bir özünəməxsus üslubi yanaşması akademik Nizami Cəfərovun əsərin ümumnəzəri aspektinə bir növ konkret baxışıdır.

Birinci, məni daha çox maraqlandıran əsərin belə bir yekuna gəlməsi müəllifin yalnız doğma dilimizlə kifayətlənməməsi, ərəb və fars mənbələrinə istinadən, bu dillərdən alınma terminlərin nəzəri ponoram kontekstində şərhidir. Müəllifin ərəb və fars mənşəli alınma terminlərin tarixi-linqvistlik baxımdan yanaşmasıdır. Belə ki, Avropa dillərindən rus dili vasitəsilə alınmış ərəb və fars mənşəli terminlər, ərəb və fars mənşəli alınma terminlərin struktur və leksik-semantik xüsusiyyətləri dərin elmi mənbələrə, öncə bu sahədə yazılmış onlarla müəllif mənbələrinə münasibət dayanır. Professor Nadir Məmmədli böyük zəhmət bir yana, analitik təfəkkürü ilə əsərləri sərf-nəzər etmişdir. Və belə bir dinamik mövzuya nikbin yanaşmışdır: "Müasir Azərbaycan dili terminalogiyasında ərəb və fars mənşəli sözlərin rus, Avropa dilləri terminləri ilə əvəz olunması prosesi bu gün də davam etməkdədir".– yazmışdır.

İkinci, rus mənşəli alınma terminlərin tədqiq dairəsidir. Rus mənşəli alınma terminlərin leksik, semantik xüsusiyyətləri, sinonimliyi, çoxmənalılığı və omonimliyi məsələsi. Dairə genişdir, müxtəlif yanaşmalar mövcuddur və hər bir dilçi də öz konsepsiyasında israrlıdır. A.Baskakov, M.Şirəliyev, A.Bragina, Ə.Orucov, N.Xudiyev, S.Abdullayev, Z.Verdiyeva, A.Qarayev, İ.Qasımov, M.Qasımov, M.İsmayılova və b. Hərçənd, sadalanan və "unudulan" dilçi-alimlərin heç də hamısı konsepsiya müəllifi olmamışlar, lakin problemə öz fərdi münasibətləri danılmazdır. Professor Nadir Məmmədli bəlkə də 100-ə yaxın (çox da mümkündür) əsərləri unutmamış, mahiyyətindən xəbərdar olmuş, yerinə düşən sitatlardan çəkinməmişdir. Bu, zənnimcə müəllifin mövzuya məsuliyyətindən irəli gəlir. Yaxşı məziyyətdir ki, N.Məmmədli milli dilçilərin tədqiqatlarına həssaslıqla və hörmətlə yanaşmış, bəzi alimlərin dilindən düşməyən "Mənim mülahizəmə görə", "Mən belə düşünməzdim", "Mən razılaşmıram" kimi eqoist psixologiyadan

uzaqlaşmış, nə aristrax, nə apologiya, nə də şəxsi dominantlıq psixologiyasına yol vermişdir. Bu xüsusiyyət əsl alimlərə məxsusdur, delitantlara yox...

Prosesin davamlılığını təqdir edən professor müəllif "Rus mənşəli terminlərin alınması dilimizin indiki mərhələsində də ictimai, siyasi, mədəni məzmuna uyğunlaşaraq davam edir. Rus dili yeni realiyanların nominasiyasını intensiv əks etdirən əsas alınma mənbələrdən biri kimi qalmaqdadır. Bu alinmalar dilimizin söz yaradıcılığına, daxili imkanlar hesabına leksik zənginləşməsinə təsir göstərməkdədir" – yazmışdır.

Üçüncü, Avropa mənbəli alınma terminlərin struktur-təsnifatı, bu terminlərin alınmasını şərtləndirən amillər, dilimizdə nomenklatur ifadəsi olmayan alınma terminlərin aqibəti məsələsi, habelə bu tipli terminlərin (Avropa mənbəli alınma terminlər nəzərdə tutulur) genealoji tərkibi, elementləri derivasiyası (prepozitiv və postpozitiv baxımından) tədqiqi ilə qarşılaşırıq. Maraqlıdır ki, müəllif monoqrafiyada ənənəvi qəbul olunmuş "Avropa mənşəli" istilalını "Avropa mənbəli" işlədir. Fikrini əsaslandırır ki, Avropa dili olmadığı üçün belə bir mənşədən danışmaq düzgün deyil.

Göründüyü kimi, mürəkkəb, polifonik səciyyəlidir: müəllif Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsi mənbələrini tədiqatın predmeti kimi götürmüş, rus dili vasitəsi və vasitəsiz başqa dillərdən, o cümlədən Avropa dillərindən alınan sözləri vurğulamış, iki alimə istinad etmişdir. Sanki araşdırmasının fabulası kimi vermişdir: A.Qarayevdən: "Azərbaycan xalqının dünya xalqları ilə olan bilavasitə və bilvasitə əlaqə və münasibətlərinin qədim kökləri vardır. Bunun nəticəsidir ki, indi dilimizdə külli miqdarda Avropa dillərindən alınan sözlər işlənir. Həmin sözlər Azərbaycan dilinin bütün yaruslarında müəyyən bir iz buraxmış və dilin müxtəlif üslublarında leksik-semantik çalarlıq yaratmışdır" (mənbə göstərilmişdir).

Hər iki müstəqil fikirdə N.Məmmədli heç bir vizionerlik axtarmamışdır. Avropa mənbəli alınma terminlərin təsnifatı məsələsində əsərdəki müxtəlif fikirlər, təsnifat prinsipləri mövcud olmuşdur: xronologiyaya, maddi keyfiyyətlərinə, internasionallığına və mənşəyinə, struktur deferensasiyasına, semantikliyinə, informatik xarakterinə, dil vasitələri ilə yanaşma üsulları. Bu terminlər də qisim və bütöv variantlara söykənir. Diqqət edək: istər xarici, istərsə Azərbaycan dili olsun – saysız terminlər işlənilir – bunlara əsaslanmış elmi mənbələrə yanaşmaq, ümumiləşdirib təhlillər aparmaq necə də dərin bilikdən əlavə, irəli sürülmüş müəllif fərziyyəsinin reallığını əyaniləşdirir və yaxşı mənada dispoziviasiyasını determinləşdirir, ayrı-ayrı mülahizələri, həqiqətləri ekletik şəkildə əsaslandırır, ekstrovert funksiyasını – bir qrup daxilində fəaliyyət göstərən terminlərin işlənmə yerini müəyyənləşdirir. Tədqiqatçı işinin çətinliyi bir də ondadır – müxtəlif illərdə və elmi zövqlərdə yazılan, həm elmi əsərlərə, həm də dissertasiyalara

öz nəzəri və praktik münasibətini mühakiməsi ilə əsaslandırmışdır. B.Qolovin, L.Kristin, İ.Çernışeva, M.Korobova, Ə.Musayev, N.Amosova, V.Sekirin, O.Meşkov, R.Cəfərov, Q.Vinokur, A.Yefremov və onlarla digər terminşünas alimlərin tədqiqat nəticələrinin mahiyyətinə varmışdır. Unutmayaq ki, bu əsərlər xarici dil materiallarına istinadəndir. Mənzərəni ona görə xatırlatdım ki, professor Nadir Məmmədli son dərəcə gərgin elmi araşdırmadan çəkinməmiş, terminologiya məsələlərinin yaranma və işlənmə qabiliyyətini dünya dilçiliyi səviyyəsinə qaldırmışdır. Sadalanan və digər mənbələrə nəzəri baxışını ifadə etmiş, hər birisinin yerini müəyyənləşdirmiş və ekstrapolyativliyinə oxucusunu (ümumiyyətlə, bu sahə mütəxəssislərini) inandırmışdır. Məsələn, Avropa mənşəli alınma terminlərin geneoloji tərkibindən yazarkən yunan, latın, fransız, italyan, ispan, ingilis, türk, holland, polyak və s. dillərin mənşəyini həmin dillərdə aparılan tədqiqatlardan bəhrələnmiş, sitatistik yox, təhkiyəli şərhə üstünlük vermişdir. Latın və yunan sözlərinə münasibət maraqlıdır, onlar "ölü dillər"in siyahısında olsa da, terminləri enerjisini itirməmişdir; necə deyərlər, canı "bədən" yoxdur, ruhu isə yaşayır. Bu məsələyə mistik yanaşmaq istəməzdim. Görünür, dilçilər antik dövrlərdən üzü bizə tərəf həmin əzəli dillərdən yaranan terminlərə xəyanət etməmişlər, saxtaşünaslığa (yalançı erməni əlifbasına oxşar) rəvac görməmişlər. Belə bir niyyətə düşməmişlər. Professor Nadir Məmmədli latın dilindən danışarkən yazır ki, bu dil əsrlər boyu Qərbi Avropada elmin və alimlərin dili kimi tanınıb. Bu gün də müasir tibb, biologiya terminologiyası ənənə ilə latın sözlərindən ibarətdir. Latın sözləri uzun əsrlər, həmçinin, yunan-termin elementlərin və modellərin yayıcısı, keçiricisi olub.

Professor Nadir Məmmədli təvazökarlıqla, lakin alim etikası ilə göstərmişdir ki, alınma terminlərin (Avropa kontekstində) tədqiqi keyfiyyət baxımından tam əhatə olunmamışdır; bu da səbəbsiz deyil: dilimizin leksik-terminaloji qatında daima təkmilləşmə gedir. Avropa mənbəli terminlərin bu prosesdə fəal iştirakı Avropa ölkələri ilə müxtəlif xarakterli birbaşa əlaqələrin, ünsiyyət vəzifələrinin yaranması, elmi-texniki kəşflərin geniş vüsət alması, müstəqil respublikanın ictima-siyasi fəallığı, mədəni həyatda dəyişikliklər, Avropa dillərinin öyrənməsi intensivliyinin artması, fəallaşması və s. amillərlə bağlıdır.

Dördüncü, alınma termin problemi ilə əlaqədar olub, dilxarici və dildaxili amillərin araşdırılmasıdır. Bu məsələ nə ilə ölçülür? Suala konkret belə bir bucaqdan yanaşmaq təbii çıxar ki: xalqların tarixi əlaqələrinin və ikidilliliyin mövcudluğu, yeni predmet və anlayışların nominasiyası, bu və ya digər fəaliyyət sahəsində mənanın konkretləşməsinə, yaxud xüsusiləşdirilməsinə ehtiyac, ekspressiv-üslubi imkanların münasibliyi və i.a. tədqiqatın mahiyyətindən irəli gəlir. Belə ki, dilxarici və dildaxili

səbəblər ortaya çıxır ki, terminalınmanın sosiolinqvistik amilləri, habelə alınma terminlərin mənimsənilməsi tədqiqatın predmeti kimi maraq doğurur. Şübhəsiz, dil əlaqələri və blinqvizm, dillərin qarşılıqlı təsiri, interferensiya, milli dilimizin inkişafı dilçilikdə həmişə diqqət mərkəzində dayanmışdır. Bu məsələdə müəllif xarici ölkə və Azərbaycan alimlərinin analitik təfəkkürü ilə yanaşmışdır. Y.Deşeriyev, K.Yeqorova, Ə.Rəcəbov, F.Cəlilov, F.Cahangirov və b. mövzuya münasibətlərini ümumiləşdirir. N.Məmmədli bir xeyli irəli gedərək, dil ənənəsi məsələsində V.Boqorodski, İ.Boduen de Kurtene, L.Şerba, E.Polivanovun adlarını çəkir və yazır ki, ilkin tədqiqatların əsasında dil elementlərinin çarpazlaşması və ya qarışması problemi dayanır; bu təyinatlarda dil əlaqələrini yaradan labüd şəraitlər nəzərdən keçirilir, blinqvizmdən, praktik cəhətdən bir adamın bir neçə dildə danışmasından söhbət açılır. Professor belə ənənənin alt və üst qatlarına öz fərdi münasibətini bildirmişdir.

Dilxarici və dildaxili amillərin tədqiqində müəllif alınma terminlərin mənimsənilməsi problemində fonetik, qrafik, otfoqrafik, qrammatik və semantik mənimsənilmənin tam sistemini ortaya qoymuşdur. Bu iş sadə yolla araşdırılmır, bəzi mübahisəli məsələlər irəli sürülür. Xüsusilə, dilçi alimlərin müxtəlif rakuslardan yanaşması (məsələn, L.Krısin, E.Koserius, A.Yefremov, A.Ələkbər, A.Axundov, N.Xudiyev, N.Trubetskoy, Ə.Məmmədov, M.Pənahi və digərləri). Siyahını genişləndirmək də mümkündür. Təhlilə nəzər salanda professor Nadir Məmmədlinin elmi görüş dairəsinin diapozonunn çevikliyini hiss etdim. Bu şəxs necə də təmkinlə, dərinliklə, emosionallıqla qoyulan məsələlərə yanaşır, açır və ümumiləşdirir.

Professor Nadir Məmmədlinin "Azərbaycan dilində alınma terminlər" monoqrafiyası, mübaliğəsiz deyərdim ki, son 20 ildə ən uğurlu tədqiqatın bəlkə də birincisidir. Yəqin, dilçi alimlər məndən inciməzlər. Etiraf edək ki, o qədər titullar, elmi (və sosial) vəzifələr, şöhrət səviyyəsinə qaldırılanlar qarşısında "mat" qalmışıq – pərdə arxasında dərin, analitik və elmi fantaziyalı alimləri görmək istəməmişlər. Bəlkə bu, bizim mentalitetimizdən irəli gəlir? Lakin haçansa elmi həqiqətin qiyməti verilməlidir...

Professor Nadir Məmmədli məhsuldar alim, poetik düşüncəli yazar, xeyirxah ziyalıdır. Yaradıcı istedadına hörmətlə yanaşmağı bacarır. Daha nə lazımdır şəxsiyyətə?

Nə gərəkdirsə nail olmuşdur...

MÜNDƏRİCAT

DİLÇİLİK

ƏZİZƏ HACIYEVA
BİNAR SƏCİYYƏLİ FRAZEOLOJİ ENANTİOSEMİYA..... 3
ŞEHRABANI ALLAHVERDİYEVA
DESTANİ AHMET HARAMİDE KULLANILAN ZARF-FİİLLER ... 11
KÜBRA ƏLƏKBƏROVA
MƏTN YARADAN DİLDAXİLİ NİTQ VƏ DAVRANIŞ ETİKETLƏRİ 16
SEVİNC SADIQOVA
ƏDƏBİ DİLDƏ ARXAİKLƏŞMİŞ KÖMƏKÇİ VƏ XÜSUSİ NİTQ HİSSƏLƏRİ QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİNDƏ 24
LALƏ ƏLİQULİYEVA
AZƏRBAYCAN VƏ ƏRƏB DİLLƏRİNDƏ FELİ SİFƏT KOMPONENTLİ FELİ BİRLƏŞMƏLƏRİN SPESİFİK ƏLAMƏTLƏRİ 36
FƏRİDƏ HÜSEYNOVA
YENİ TEXNOLOGİYALARIN TƏHSİL SİSTEMİNDƏKİ ƏHƏMİYYƏTİ 45
YADİGAR ƏLİYEV
QƏDİM TÜRK RUNİK YAZILI ABİDƏLƏRİNDƏ SAYLARIN FUNKSİONAL XÜSUSİYYƏTLƏRİ 50
FIZULİ MUSTAFAYEV
KİNO DİLİNDƏ MÜRƏKKƏB SÖZLƏRİN SADƏ SÖZLƏRLƏ TƏLƏFFÜZ ŞƏRTLƏRİ BARƏDƏ 57
AYGÜN YUSİFOVA
XARİCİ DİLİN TƏDRİSİNİN İSTİQAMƏTLƏRİ VƏ ONLARIN MƏZMUNU 64
СЕВИНДЖ БАБАЕВА
АКТИВИЗАЦИЯ УСТНОЙ РЕЧЕВОЙ ДЕЯТЕЛЬНОСТИ ИНОСТРАННЫХ СТУДЕНТОВ С ИСПОЛЬЗОВАНИЕМ ИГРОВЫХ ЗАДАНИЙ 70
AYTƏN SADIQOVA
AZƏRBAYCAN DİLİNDƏ NİTQ NÜMUNƏLƏRİNİN TEONİM KOMPONENTLİ SEMANTİK SAHƏLƏRİ 75

ŞƏLALƏ XƏLİLZADƏ
MÜBTƏDA BUDAQ CÜMLƏSİNİN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN ƏLVERİŞLİ ÜSULLAR 82
SABINA ZULFUGAROVA
THE ELEMENTS OF LANGUAGE 89
LALA İLDRIMZADA
ENGLISH PHRASAL VERBS 94
İLAHƏ MƏMMƏDOVA
İNGİLİS DILI XÜSÜSİ MƏQSƏDLƏR ÜÇÜN 99
ELNURƏ MƏMMƏDOVA
İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARI SAHƏSİNDƏ OLAN YENİ TERMİNLƏRİN İNKİŞAFI VƏ TƏDQİQ EDİLMƏSI, MÜXTƏLİF LÜĞƏTLƏRİN SÖZLÜYÜNƏ DAXIL EDİLMƏSİ 106
HÜSNİYYƏ ÇOBANOVA
-LAR, -LƏR ŞƏKİLÇİLƏRİN KÖMƏYİ İLƏ DÜZƏLƏN TÜRK MƏNŞƏLİ ETNOTOPONİMLƏR 116
AYSEL QURBANZADƏ
İNTONASİYANIN İNGİLİS DİLİNDƏ KOMMUNİKATİV DƏYƏRİ VƏ TƏDRİSİNİN ƏHƏMİYYƏTİ 122
ИРАДА АЛИЕВА,
ЗЕНФИРА ОРУДЖЕВА
РОЛЬ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ ПРИ ИЗУЧЕНИИ РУССКОГО ЯЗЫКА В ТЕХНИЧЕСКИХ ВУЗАХ 128
AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ NİTQ ETİKETLƏRİNİN TƏDRİSİ MƏSƏLƏSİ 136
GÜLNAR MUXTARZADƏ
AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ CÜMLƏ ÜZVLƏRİ İLƏ QRAMMATİK CƏHƏTDƏN BAĞLI OLMAYAN SÖZ QRUPLARININ TƏDRİSİNİN MÜASİR VƏZİYYƏTİ (VIII SİNİF) 143
ŞƏBNƏM ABBASOVA
MƏNTİQI İNKARLIQ 150
TAMİLLA TURABOVA,
NAZİLƏ RƏHİMOVA
СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ 156
RƏNA ƏLİYEVA
“USES OF ONOMATOPOEIA” 156

GÜNAY KƏRİMOVA
SƏBƏB BUDAQ CÜMLƏLİ OLMAYAN TABELİ MÜRƏKKƏB CÜMLƏLƏRDƏ SƏBƏB SEMANTİKASI 170
TOVUZ HƏMİDOVA
İNGİLİS DİLİNDƏ FELİ SABİT SÖZ BİRLƏŞMƏLƏRİ 177
LALA HUSEYNOVA
THE PREPOSITIONS OF TIME IN ENGLISH AND THEIR EXPRESSION IN AZERBAIJANI 183
GÜNAY AĞAYEVA
FİTONİMLƏRİN METAFORIKLƏŞMƏSİ 190
SEVINC ŞÜKÜRLÜ
MÜASİR İNGİLİS DİLİNDƏ "PIS" KONSEPTLİ İFADƏLƏRİN LEKSİK -QRAMMATİK XÜSUSİYYƏTLƏRİ 196
СЕВДА ИМАНОВА
КОММУНИКАТИВНЫЙ МЕТОД ОБУЧЕНИЯ ИНОСТРАННЫМ ЯЗЫКАМ 205
HÜMBƏT MƏMMƏDOV
AZƏRBAYCAN DİLİNİN QARABAĞ ŞİVƏLƏRİNDƏ OMONİM SÖZLƏR 210

ƏDƏBİYYATŞÜNASLIQ

СЕХЕР ОРУДЖЕВА
ЖАНР ДАСТАН У ТЮРКОЯЗЫЧНЫХ НАРОДОВ 222
TOFİQ ƏBDÜLHƏSƏNLİ
ELFİRA BAĞIRZADƏ
BEYNƏLXALQ MÖVZULAR POEZİYA MÜSTƏVİSİNDƏ 228
SAMİRƏ MƏMMƏDLİ
N.ƏBDÜRRƏHMANLİNİN TƏRCÜMƏLƏRİ MÜASİR TƏRCÜMƏŞÜNASLIQ NƏZƏRİYYƏSİ KONTEKSTİNDƏ 237
GÜNEL ŞAMXALOVA
BAYRON POEZİYASINDA AZADLIQ VƏ MÜBARİZƏ RUHU 247
MƏRYƏM HÜMMƏTLİ
XIX ƏSR QARABAĞ ƏDƏBİ MÜHİTİ VƏ BU MÜHİTDƏ XURŞIDBANU NATƏVANIN ROLU 254
İLAHƏ MƏMMƏDZADƏ
İLYAS ƏFƏNDİYEVİN DRAMATURGİYASINDA LİRİK QƏHRƏMAN 259
GÜNAY HƏMİDLİ
İLQAR FƏHMİNİN "AKVALANQ" ROMANININ PSIXOANALİTİK İSTİQAMƏTDƏ TƏDQİQİ 264

AQŞİN DADAŞ-ZADƏ
CƏFƏR CABBARLI VƏ SƏMƏD VURĞUNUN
PYESLƏRİNDƏ DRAM ELEMENTLƏRİNİN
TƏZAHÜR FORMALARI 269
HİCRAN FƏRHADOVA
ALMAN POEZİYASI VƏ DRAMATURGİYASI AZƏRBAYCAN
DİLİNDƏ 277
MƏLAHƏT AĞAYEVA
YENİYETMƏLƏRDƏ PASSIV-AQRESSIV ŞƏXSİYYƏT
POZUNTUSU ƏLAMƏTLƏRİNİN ARADAN
QALDIRMA ÜSULLARI 284NURİDƏ MUXTARZADƏ
AZRBAYCANDA KÖROĞLU İLE BAĞLI RİVAYETLER 292
ƏHMƏD SAMİ ELAYDI
ƏLİ KƏRİM POEZİYASINDA MƏNƏVİ SAFLIQ VƏ
ƏXLAQİ BÜTÖVLÜK PROBLEMİ 300
TAMAM İSMAYILOVA
ANTON PAVLOVIÇ ÇEXOV YARADICILIĞINDA
BİR ANIN PSIXOLOJİ FACİƏSİ 314
ŞÖLƏ ALLAHVERDİ
TOM STOPPARD DRAMLARININ BAŞLICA
XÜSUSİYYƏTLƏRİ..... 321

«Elm və təhsil» **nəşriyyatının direktoru:**
professor **Nadir MƏMMƏDLİ**

Dizayn: Zahid Məmmədov
Texniki redaktor: Yadiğar Bagırova

Çapa imzalanmış **20. 15. 2017.**
Şərti çap vərəqi **21** Sifariş **№ 19.**
Kağız formatı **70x100 1/16.** Tiraj **300.**

---

*Kitab **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində*
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 055 426 -72 -27
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.